MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATI

BƏKİR ÇOBANZADƏ

Seçilmiş əsərləri

III163
Ç 67

BƏKİR ÇOBANZADƏ

SEÇİLMİŞ ƏSƏRLƏRİ

BEŞ CİLDDƏ

III CİLD

2524339

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"ŞƏRQ-QƏRB"
BAKI
2007

Bu kitab "Bəkir Çobanzadə. Türk dili və ədəbiyyatının tədris üsulu, I-II qisimlər" (Bakı, Azərnəşr, 1926-1927) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır

Nəşrə hazırlayan: **Arif Ramazanov**
Tərlan Quliyev
filologiya elmləri doktoru

Redaktoru və
ön sözün müəllifi: **Məmməd Adilov**
filologiya elmləri doktoru

ISBN 978-9952-34-185-0

494.3-dc22
1. Türkoloji tədqiqat

Bəkir Çobanzadə. Seçilmiş əsərləri. Beş cilddə, III cild.
Bakı, "Şərq-Qərb", 2007, 344 səh.

Görkəmli türkoloq Bəkir Çobanzadənin "Seçilmiş əsərləri"nin üçüncü cildinə daxil edilmiş "Türk dili və *ədəbiyyatının* tədris üsulu" adlı ikicildliyi türk dillərinin və ədəbiyyatlarının tədrisi və tədqiqi metodlarının öyrənilməsinə həsr olunmuşdur. Kitab Azərbaycanda ali təhsil tarixinin öyrənilməsinə zəngin material verir və müasir tədris və elmi araşdırmalar üçün aktuallığını hələ də saxlamaqdadır.

© "Şərq-Qərb", 2007

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

ÖN SÖZ

Keçən əsrin görkəmli türkoloqu Bəkir Çobanzadənin (1893-1938) "Türk dili və ədəbiyyatının tədris üsulu" ikicildliyi metodika sahəsində yazılmış sanballı elmi əsərlər cərgəsində özünə layiqli yer tutur. 1924-cü ildən Azərbaycana köçüb, Bakı Dövlət Universitetində və başqa sovet respublikalarının ali məktəblərində dərs deməyə başlamış alim, burada anadilli tədrisin təşkilində mövcud olan çatışmazlıqları aradan qaldırmağa çalışmış, bu sahədə bir sıra elmi-tədqiqat işləri və dərsliklər yazmışdır. Türk-müsəlman ölkələrində elm və təhsilin durğunluq dəryasında boğulmaqda olan Şərq təmayülündən ayrılıb, daha mütərəqqi Avropa və rus-sovet sisteminə inteqrasiyasında Bəkir Çobanzadənin bu və başqa əsərlərinin böyük rolu olmuşdur.

"Türk dili və ədəbiyyatının tədris üsulu" əsərində müəllif tədrisdə elmin nailiyyətlərindən səmərəli istifadə edilməsinin vacibliyini irəli sürür, ibtidai və orta məktəblərdə, texnikumlarda və universitetlərdə dil və ədəbiyyatın başqa elm sahələri ilə əlaqədə tədris edilməsinin, hər şeydən əvvəl isə bunun elmi səviyyədə təşkilinin məqsədəmüvafiq olduğunu göstərir. "Məktəbdə birincidən üçüncü dərəcəyə, darülfünuna qədər tələbələrə veriləcək hər fikir, hər nəzəriyyə bütün sifətlərilə elmi əsaslara müvafiq, uyğun olmalıdır. Binaən əleyh məktəblərdə oxunacaq hər cür sərf və nəhv elmi olmaq zəruridir" - deyən müəllif tədris prosesində şagird və tələbələrin tədqiqata cəlb edilməsinin vacibliyini də vurğulayır. Buna görə də onun bu əsəri həm dil və ədəbiyyatın tədrisi metodu, həm də dil və ədəbiyyat üzərində tədqiqatların metodologiyası baxımından qiymətli mənbə kimi qəbul edilir.

* * *

"Türk dili və ədəbiyyatının tədrisi üsulu" kitabının birinci qisminin dil və üslub xüsusiyyətləri getdikcə Azərbaycan dilinə uyğunlaşdırıldığı halda, ikinci qismi, demək olar ki, başdan-ayağa sırf Azərbaycan dilində yazılmışdır.

Bəkir Çobanzadənin "Seçilmiş əsərləri"nin üçüncü cildi nəşrə hazırlanarkən əsərin dil və üslub xüsusiyyətlərinin olduğu kimi saxlanması prinsipinə əməl edilmişdir.

TÜRK DİLİ VƏ ƏDƏBİYYATININ TƏDRİS ÜSULU

BİRİNCİ QİSİM

BAŞLANĞIC

Moskva darülfünununda dil tədris üsulu üçün ayrı bir kurs təşkil edilmiş, ümumiyyətlə rus, Avropa elm və tədris aləmində dil və ədəbiyyat üsulu ətrafında hər il yüzlərlə kitablar nəşr olunmaqda, yeni-yeni cərəyanlar çıxmaqdadır.

Azərbaycan darülfünunu şərq fakültəsi türk dili və ədəbiyyatı kafedrası dərs proqramına həftədə iki saat hesabı ilə türk dili və ədəbiyyatı üsulu gətirilmiş və bu dərslər də acizə verilmiş idi.

İştə bu əsər şərq fakültəsində keçilən dərslərin əsas qismidir.

Mövzu dil və ədəbiyyat olmasına görə əsər də dil və ədəbiyyat üsulu namilə iki qismə ayrılacaqdır.

Müəllif bu əsərdə əsas etibarilə kəndisinə məqsəd olaraq dil və ədəbiyyatın tədris üsulu çərçivəsində bu gün və dün Avropa və Rusiyada yaşamış və yaşayan cərəyanların tənvir və izahını almışdır.

Bu gün Rusiyada iki cərəyan – şəkilçilər və məntiqçilər bir-biri ilə dil tədrisi məsələlərində çarpışmaqdadır. Bu mücadilədə şəkilçilər artıq qəti surətdə yenmişlər, – demək mümkündür.

Afanasyevin, Peşkovskinin, Uşakovun əsərlərinə verilən əhəmiyyət və qiymət buna dəlildir.

Rus Maarif Komissarlığı darülfünun kursları və başqa dil məsələləri ətrafında meydana çıxan elmi təşkilatlar bunların əlindədir. Yalnız xarici əlamətlərlə deyil, şəkilçilər nəzəriyyə və sistemlərindəki qüvvət və elmiyyətlə də qarşılarındakıları əsas nöqtələrdə ricətə və təslimə məcbur etmişlərdir. Əsasən şəkilçilərin sistemi elmi lisaniyatın nəticə və qanunlarını tətbiq və tövsidən başqa bir şey deyildir.

Müəllif iştə bunun üçün bilxassə sərf, əlifba və bunlara toxunan bəhslərdə rus şəkilçilərinin fikirlərini əks etdirməyə çalışmaqla bərabər, başqa cərəyanların müməssillərində də gözünə ilişən, hafizəsinə yerləşən müsbət nöqtələri almaqdan çəkinməmişdir.

Bu əsərə doğrudan-doğruya dil tədrisinə bağlı görünməyən biriki bəhs də əlavə olunmuşdur: dil və fəlsəfə, türk sərfinin tarixçəsi...

Diqqətlə oxunduğu təqdirdə, xaricən olmasa da, daxilən bu bəhslərin əsas mövzumuz və məqsədimizlə sıxı-sıxıya bağlandığı anlaşılır.

Şurasını da əlavə etməyi unutmıyorum: bəzi oxuculara, bilxassə müəllim arxadaşlara bu əsər olduqca "nəzəri" görülə bilir. Bu qayət

təbiidir. Əsasən yeni tədris üsulunun ruhu müəllimləri dar çərçivələr, müqəddəs, əməli qaydalar içinə qapamamaqdır. Müəllimlər və üsulçulardan yalnız əsaslar istənməlidir. Yoxsa tətbiqat məktəbini, tələbəsini, mühitini hər kəsdən ziyadə bilməsi lazım gələn müəllimin öz işidir. Məktəblərimizdə təcrübəli müəllimlər yox deyildir. Onlarda əskik olan əsaslar və elmi həqiqətlər üsullardır.

Bu əsərin yalnız öz tədqiqatımızdan ibarət olmadığını söyləməyə hacət belə yoxdur. Çünki hər bəhsdə mənbələrimiz bir çox dəfələr zikr edilmişdir. Bununla bərabər, əlifba, sərf, doğru yazma... kibi bəhslərdə hər kəsdən ziyadə rusların parlaq üsulçuları sayılan Uşakov, Afanasyev, Peşkovski, Rıbnikova, Sokolov, Çelyustkin, Derjavin, Sakolin... kibi alimlərin əsərlərindən faydalandığımızı ayrıca qeyd etməliyiz.

Bu sahədə vəzifə və məsuliyyət yalnız dilçilərin və nəzəriyyəçilərin üstünə düşməz. Bəlkə, müəllimlərin, əməliyyatçıların daha böyük, daha ağır vəzifələri, xidmətləri vardır. Türk dilinin, ədəbiyyatının tədrisi üsuluna onların gətirəcəkləri nəticələr, təcrübələr mədəniyyətimizin şimdiyə qədər hər nasılsa pək sönük qalan bu sahəsini canlandıracaq və işıqlandıracaqdır.

Türklərin elmi və mədəni oyanmasının üsuli-tədris qovğaları ilə başlandığı unudulmamalı və tədris üsulunun canlanmasını bu oyanmanın dərinləşməsi, kökləşməsi kibi salamlamalıyız.

B.Çobanzadə
Bakı, 16 yanvar 1926

DİL VƏ FƏLSƏFƏ

Rum, qüruni-vüsta, fransız, alman, ingilis filosoflarının iyirminci əsrə qədər dil haqqındakı nəzəriyyələri

Bu gün dilin tədris üsulu haqqında dürlü cərəyanların müməssilləri tərəfindən təklif olunan nəzəriyyə və planlar dil bilgisi ilə, dil bilgisi də, bizə məlum olduğu qədər, qrek, rum fəlsəfəsindən başlayaraq zamanımıza qədər iləriləmiş və təkamül etmiş olan fəlsəfi məktəblər ilə bağlıdır.

Bir-birini təqib etmiş olan fəlsəfi və ictimai məktəblərin və bu məktəbləri təsis edən üləma və filosofların hər biri mühitində, kainatda rast gətirdiyi bir çox məsələlər arasında ən mühümü olan dil və söyləşmə hadisəsi haqqında fikirini söyləmədən az-çox həqiqətə yaxın bir taqım fərziyyə və nəzəriyyələr ilərisə sürmədən keçəməmiş, sistemasını tamamlayamamış, məktəbini quramamışdır.

Dili doğru, elmi və tarixi inkişaf və təkamül qanununa uyğun bir surətdə öyrənmək, bilxassə öyrətmək üçün bu fəlsəfi nəzəriyyələrə bir baxış imkanını əldə etmək lazımdır. Bu gün bizim elmi deyə inandığımız təcrübi-psixoloji, fizioloji və təcrübi sövtiyyat tərəfindən təqdim olunan qəti və dürüst nəzəriyyələrin mənşə və mənbələrində nə qədər tühəf, bu günün tələqqisinə görə nə qədər məntiqsiz və hətta boş olduğunu bilmək dil kibi mühüm bir məziyyətin mükəmməlləşməsi, yapılması və lazım gələn ictimai və mədəni xidməti görməsi üçün uğraşan müdəqqiqlər, müəllimlər və üsulçular üçün bir kaç nöqteyi-nəzərdən faydalıdır.

Əvvəla, lisanın və onun üsuli-tədrisinin ayrı, məhdud, mücərrəd hadisə və məsələlərdən olmayıb, bəlkə, ümumi mədəni səviyyə və ictimai cərəyanlarla bağlandığını görmək, bilmək ancaq bu sayədə qabil olur.

Saniyən, dilin üsuli-tədrisinə ətraflı, şüurlu bir tərzdə yanaşmaq mümkün olacaqdır. Yanlız on doqquzuncu əsrin təkamülçü və fənni nəzəriyyə və həqiqətləri ilə tanış olan bir adam bunları möcüzə kibi qəbul edib, keçmiş əsrlərdə yaşayan nöqteyi-nəzərlərin zamanımıza və zamanımızın hər sahəsinə olduğu kibi mənəvi, fəlsəfi və tərbiyəvi elm və həyatına olan təsirindən xəbərsiz qalır.

Salisən, dil və üsuli-tədrisin keçmiş fəlsəfi məktəblər və cərəyanlar içərisində aldığı mövqedə və bu xüsusda əski məktəblər ülamasının bəyan etdiyi fikirlər arasında bu günün mütəxəssisləri üçün qeyd və zəbt olunacaq faydalı və hikmətli fikirlər, nəzəriyyələr az deyildir. Bilxassə dilin mənşəyi, onun rolu və əhəmiyyəti haqqında əskilərin daşıdığı fikirlər arasında bir çoxları hala bu gün də canlı və qiymətli şeylərdir.

Rabiən, əski fəlsəfi məktəblərin təftişi, gözdən keçirilməsi sayəsində bugünkü məktəblərdə yaşayan gərək üsuli, gərəksə elmi vahimələrin, batil və keçmiş əsrlərdən miras qalmış ənənə və fikirlərin fərqinə varmaq çox qolaydır. Ələlxüsus Şərq və türk-tatar məktəblərinin elmi mündəricəsi və üsuli-tədrisi belə vaxtı keçmiş təsirlərin zəbunudur. Bu təsirlərin təmərküz etdiyi, toplandığı başlıca nöqtə də, mübaliğəsiz deyə biləriz ki, lisan və onun tədrisi-üsuludur.

Heraklit **(Heraclite)**. Miladi-İsadan səkkiz əsr əvvəl yaşamış və yazmış olan Heraklit ümumiyyətlə bütün qaranlıq əsrlər içindən çıxıb zamanımız filosoflarına qədər təsir etmişdir. Onun fəlsəfəsi bir kaç kərə dirilmiş və nəhayət, alman filosofu Hegel tərəfindən son dəfə olmaq üzrə bir daha işlənilmiş və bu şəkildə zamanımızın ictimai və fəlsəfi mütəfəkkirləri üzərinə olan təsiri bir daha təzələnmişdir.

Heraklitin fəlsəfəsi daimi təbəddül, daimi cərəyan **(Universel L'ecoulement)** üzərinə qurulmuşdur: "Bir şeyə iki dəfə eyni ismi vermək qabil deyildir. Çünki o artıq təbəddül etmiş, ümumi və əflaki cərəyanla götürülmüşdür. Hər şeyin əsası atəşdir. Hər şey atəşdən çıxmış və atəşin dürlü-dürlü şəkilləridir. Dünyanı heç sönməyən və sönməyəcək olan əbədi bir atəş idarə ediyor".

Heraklitin bizə qədər gəlmiş olan əsərlərinin parçalarından anlaşıldığına görə, o, söz oyunları və söz iştiqaqlarından fövqəladə xoşlanırdı. Əcəba, bundan Heraklitin məqsədi nə idi?

Bir az sonra gələn şagirdləri kibi o da sözün, adların insana allahlar tərəfindən öyrədildiyinə və yaxud sözlərin, adların əşyanın mahiyyətini izah edə biləcəyinə qanemi idi? Bizə məlum deyildir.

Onun, Heraklitin tələbələrindən Demokrit **(Democrite)** üçün dil hər şeydən əvvəl ixtiyari bir şey müəssisə **(institution arbitraire)** idi. Adlar və sözlər əşyanın mövzularının təbiətinə bağlı deyildirlər. Bunun üçün Demokrit şu nöqtələr üzərində durıyordu:

I. Əvvəla bir çox sözlərin bir kaç mənası vardır. Halbuki söz mövzu ilə mərbut olduğu təqdirdə bir mövzuya qarşı bir məna olacaqdı.

II. Saniyən, bir çox maddələr bir kaç ismə malikdirlər. Əgər sözlə əşya arasında münasibət və yaxud irtibat olaydı, bu qabil olmazdı.

III. Bir-birinə bənzəməsi dolayısilə eyni ismi daşıyacaq şeylər ayrı-ayrı isimlərə malikdir.

Əlatun **(Platon)**. Əflatun sözün iradə və ixtiyar yolu ilə meydana gəldiyini qəbul etməz. Hər şeyin öz mahiyyəti, öz müstəqil xasiyyətləri vardır. Bizim duyğu və düşüncələrimiz əşyanın keyfiyyət və kəmiyyətinə təsirdən acizdir. Biləks, bizim hərəkətlərimiz əşyanın təbiəti və təsiri altında bulunur. Ağacı kəsmək yaxmaq üçün olduğu kibi, əşyaya ad vermək üçün də müəyyən üsul və yollar vardır ki, hər ikisi də təbiət tərəfindən təyin və təsbit olunmuşdur. Hər şey üçün müəyyən alət vardır. Söz də əşyaya ad vermək üçün qullanılan bir alətdir. Hər alətin bir sanesi olduğu kibi, söz alətinin də bir sanesi olmalıdır. Bu həm yüksək bir sanedir.

Əflatuna görə, hər səsin müəyyən mənası vardır ki, bu məna ilahi bir qüvvət tərəfindən bu səslərə verilmişdir. Ümumiyyətlə Əflatun lisanın ilahi bir kəşf sayəsində hasil olduğuna qanedir. Bu qənaət İncil, Tövrat, Qur'an vasitəsi ilə bütün Şərq kitablarına girən məşhur və məlum dini nəzəriyyənin anası və məbdəi olmuşdur, – denilə bilər.

Bununla bərabər, Əflatun Kratil **(Cratyle)** kibi "Sözləri öyrənmək – əşyanı öyrənmək deməkdir", – fikrini qəbul etməyir.

Əflatunca, əşya ilə aşina olmaq üçün onların mahiyyətini və xasiyyətlərini tədqiq etmək lazım gəlir. Lakin qüruni-vüstada və hətta zamanımız məktəblərinin əksəriyyətində sözlərin əşya yerini tuta gəldiyi və binaən əleyh Əflatunun bu çox mühəqq və doğru fikrinin az zaman sonra unudulduğu hər kəsə məlumdur. Bir çox Şərq məktəblərində lisan və ədəbiyyatın mücərrəd olaraq mərkəzi mövqeyi tutduğu xatırlanırsa, Kratilin bir kaç min il əvvəl söylədiyi fikirlərin dil tədrisi üzərinə daha ziyadə yapdığı anlaşılır.

Hər halda Əflatun şu nöqtələri çox iyi görmüşdür:

1. Sözlər fikri və elmi təhlilin **(analyse)** alətlərindən başqa bir şey deyildir. Söz yalnız əşya[lar] arasındakı münasibəti öyrətməyə vasitədir.

2. Dil, Demokritin zənn etdiyi kibi, ixtiyar və iradə əsəri olmayıb, bəlkə, təbii bir hadisədir. Bununla bərabər, istemal və etiyad təriqi ilə sözlərin mənalarında dəyişmələr hasil ola bilər.

3. Fikir dildən, sözdən deyil, biləks, dil söz[dən], fikirdən doğar. Əşyaya ad vermədən əvvəl əşyanı tanımaq lazımdır.

Aristot **(Aristote)**. Aristot nə Əflatunun, nə də Demokritin fikirlərini qəbul etməz. Aristotun fikrincə, söz insanın ruhundakı dəyişmələrin əksindən, təmsilindən başqa bir şey deyildir. Nasıl ki, yazı səsin dürlü-dürlü dəyişmələrini əks etdirir, ruhun bu dəyişmələri hər millətdə birdir, yəni bütün insaniyyət üçün ümumidir. Lakin bu ruhi dəyişmələrdən söz vasitəsi ilə təmsil və təsviri etibari və iradəvi bir iş olduğu üçün, yazı işarələri kibi, söz də, dil də hər xalqda başqa-başqadır. Demək ki, Aristot sözlərin əşyanın mahiyyətini bizə göstərə biləcəyini qəbul etməz. O, sözü şu surətlə tərif ediyor: "Söz elə bir şeydir ki, mənasında zaman məfhumu bulunmaz və ayrı-mücərrəd surətdə alınmış heç bir parçası kəndi başına müəyyən bir məna ifadə edəməz".

Aristota görə, bütün digər heyvanlar arasında nitq xassəsinə malik olan yalnız insandır. Binaən əleyh mədəniyyətin və elmin əsaslarından birisidir. "Səs bizə vücudumuzun hərəkəti kibi təbiət və xilqət tərəfindən bağışlanmış bir məziyyətdir.

Biz vücudumuzun hərəkətləri ilə rəqsi – dansı meydana gətirdiyimiz kibi, səsimizin yardımı ilə sözləri, nitqi yaradırız".

Stoisizm **(Stoicisme)**. Stoistlər dili ümumi və mücərrəd fikirlə bir tuturlar. İki formul stoistlərin fikrini xülasə edər:

İnsan düşündüyü üçün qonuşur və qonuşduğu üçün düşünür. Dialektik gözəl qonuşmaq süni və yaxud elmidir. Fəqət, gözəl söyləmək doğrunu, münasib olanı söyləməkdir. İfadələrin doğruluğu fikirlərin doğruluğundan başqa bir şey deyildir. Çünki söz və fikir ayrı-ayrı nöqteyi-nəzərlərdən görülmüş eyni şeylərdir. Demək ki, gözəl düşünməyi öyrətmək üçün gözəl qonuşmağı, doğru söyləməyi öyrətməlidir. Ümumiyyətlə stoistlər dilə fövqəladə əhəmiyyət vermişlər. Dilçilər "**Nominalistes**"dir.

Söz fikrə bir mövcudiyyət verir. Stoisizm məktəbi filosoflarının fikrincə, xarici bir əlamət və vücudu olmayan şey həqiqi deyildir. Fikir də bir söz vasitəsi ilə ifadə edilmədikcə həqiqi bir mövcudiyyətə malik deyildir.

Əcəba, stoistlər dilin iradəvi və ixtiyari bir müəssisə olduğuna inanıyorlarmıdı? Onlarca, "nəfəs ruhun və vücudun mərkəzi olan qəlb"dən səs üzvlərinə qədər uzanır. Yəni nəfəs qəlbdən çıxır. Bundan da dil hasil olur. Sözlər, Əflatunun dediyi kibi, təsadüfi olaraq təşkil edilməmişlər. Sözləri təşkil edən səslər əşyanın təbiətini təqlid

edər. Ümumiyyətlə dilə və onun əhəmiyyətinə aid bir çox məsələlər stoistlər üçün məchul və həll olunmaz bir halda qalmışdır.

Epikur **(Epicure)**. Epikura qədər dilin süni və yaxud təbii olması məsələsini sözlərin, əşyanın mahiyyət və keyfiyyətinə uyub-uymamaq kibi anlarlar idi.

Birinci dəfə olaraq epikurçular **(epicuriciens)** lisanı tarixi bir hadisə olaraq almış və onu ruhi, psixolojik üsullarla sezmək, həll etmək çarələrini aramışlardır. Epikurçuların fikirincə, insanın təbiəti, ehtiyacları, həyəcanları, təcrübəsi dil doğuran başlıca amillərdəndir. Bunun üçün dilin ixtiyari, iradəvi bir müəssisə olduğunu iddia etmək yanlışdır.

"Sözlərin birisi tərəfindən əşyaya verildiyini, sonra bu adların digər insanlara öyrədildiyini fərz etmək əbəsdir".

Başqalarının müqtədir olmadığı bir işi bir insan nasıl yapa bilər?

Sonra belə bir adam öz icadını nasıl bir yolla yapa bilir? Cəbr və şiddət iləmi? Hər kəsə qarşı bir adam bunu yapamaz. Ağıl iləmi? Lisan bilməyənləri o nasıl qandıra bilir? Lisanı bir adamın yarada bilməsi və bilxassə onu yapa bilməsi üçün yenə lisanın bulunması lazımdır. Bu surətlə dilin həqiqi mənşə və mənbəyi insanın təbiətində mündəmicdir.

Həyəcanın insanın ünsiyyəti üzərinə fövqəladə böyük təsiri vardır. Birinci dil, daha doğrusu, dilin ibtidai dövrü həyəcanıdır **(emotionnel)**. Hər irq özünəməxsus duyğu və təsəvvürlər əldə etmiş və bu duyğu-təsəvvürlərin başqalığı dərəcəsində bunların ifadəsi demək olan dil də başqalaşmışdır. Demək ki, dilin birinci əsası ixtiyar və iradə deyil, yalnız insanın təbiətidir.

Qısası, epikurçular üçün dil təbii bir hadisədir. Hər adamın səvtsəs üzvlərində söyləmək xassəsi var və hər adam bunu istemala çalışır. Səs vasitəsi ilə duyğu və düşüncələrin ifadəsində heç də sünilik yoxdur. Etibar **(convention)** və etiyad təbii dili dəyişdirmək, genişlətmək və yaxud qətiləşdirməkdən başqa rola malik deyildir.

Ayrı-ayrı şəxslərin rolu ancaq mücərrəd kəlmə və istilahların yaradılmasında görülür. Əsasən mücərrəd fikirlər **(concepts abstraits)** yalnız təfəkkür **(reflexion)** nəticəsində doğarlar.

Xülasə, əski aləmdə yunanlarda dil və onun mənşəyi haqqında iki ayrı məfhum buluruz.

Birincisi dilin insanda doğma, fitri **(inne)** bir xassə olduğunu iddia ediyordu ki, heç bir filosof tərəfindən yardım və rəvi qəbul görmə-

mişdir. Yalnız tarixi rəvayətlərə görə, Misir fironlarından Psametik **(Psammetiqe)** bu fikri təcrübə etmək istəmişdir. Misir və yaxud Frikiya dillərindən hankısının daha əski olduğunu bilmək istəyib, hər iki xalqdan iki çocuq alıb, onları keçilər vasitəsi ilə bəsləmişdir. Bu surətlə hər iki çocuq heç insan eşitməyib, bəsləndikdən sonra çocuqların birinci sözü *bexos* **(bexoc)** oldu ki, Frikiya dilində mənası "ekmək"dir.

Maks Müllerin fikrincə, bu söz ingilis dilindəki *to bake* sözünün iştiqaqca eynidir. Məlum olduğu üzrə, bu sözün ingiliscədəki mənası da "fərvəndə bişirmək"dir. Bu çocuqların nə surətlə fərvən və bişirmək haqqında məlumat sahibi olduqları, şübhəsiz, məsəldə izah edilməyir. Nasıl da olsa, bu hekayə Misir alimləri üçün Frikiya dilinin daha əski olduğuna dəlil yerini tutmuşdu.

Yenə Maks Müllerin xəbər verdiyinə görə, Şvab imperatoru İkinci Frederik, Ekoçiya kralı Dördüncü Jak və nəhayət, Moğol imperatorlarından birisi tərəfindən eyni təcrübə yapılmışdır.

Kratildən başqa, bütün qrek filosofları dilin insan tərəfindən icad olunduğunu qəbul etməyə məyyaldırlar. Yalnız bəziləri üçün söz süni və əşyaya qeyri-mərbut icad olduğu halda, digərləri üçün, biləks, söz təbiətin və əşyanın təqlidindən doğmuşdur.

Epikurçular, yuxarıda göstərdiyimiz kibi, sözlərin əşyanın təbiət və mahiyyətini təqlid ilə deyil, bəlkə, insanın ruhi dəyişmələrinə cavab və nəticə olaraq doğduğunu iddia etmişlərdir.

Qüruni-vüsta və dini fikir, xristianlıq və islam dilə, hər şeyə olduğu kibi, ilahi bir kəşf və lütf olaraq baxmışdır.

Qur'anda rast gəldiyimiz وعلم آدم اسماء الحسنى yəni "Allah Adəmə gözəl adları öyrətdi" kibi ayətlər və nəhayət, müxtəlif dillərin Nəmrudun səmaya qarşı yapdığı Babil qülləsi ətrafında Allah tərəfindən bir lənət və qəzəb əsəri olaraq ortaya çıxdığı xüsusundakı hekayə bu dövrdəki dilə baxışın əsasını təşkil edir. Bununla bərabər, qrek fəlsəfəsinin təsiri bu dövrdən kəndi təsirini göstərmişdir. Netə kim, Önomius **(Eunomius)** miladi dördüncü əsrdə Sent Bazili **(Saint Basile)** təqdiri və Allahı tanımamaqda ittiham ediyordu. Cünki bu sonuncusu dilin Allah tərəfindən insanlara öyrədilməyib, bəlkə, yalnız insanlara Allah tərəfindən qonuşmaq xassəsi verildiyini iddia ediyordu.

Sent Qrequar Bazili müdafiə etmişdir. "Jenez" ("Xilqət") kitabında sözü Allahın yaratdığı deyil, bəlkə, Allahın verdiyi ilham və lütf ilə adamın bulduğu yazılıbdır.

Sent Qrequar yazıyordu:

"İnsanın bütün məziyyət və istedadını Allahın verməsi hər şeyi Allahın icad etdiyinə dəlalət etməz. Allah bizə bir ev yapmaq və yaxud bütün bu dürlü şeylərlə uğraşmaq xasiyyətini bəxş etmişdir. Lakin bunların müvcidi həp insandır, Allah deyildir. Eyni surətlə Tanrı bizə nitq – qonuşmaq, söyləmək xassəsini verməklə bərabər, bütün sözləri və dili insan özü bulmuşdur".

Bütün qüruni-vüstada dil yalnız ümumi və mücərrəd sözlər nöqteyi-nəzərindən və onların rabitəsi cəhətindən nəzəri-etibara alınmışdır. Bu da nəzəri fəlsəfə və metafizikin (mabədət-təbiə) təhəkkümü, nüfuzu nəticələrindən birisidir.

Bekon **(Bakon)**. Bekonun fikirincə, lisan mümkün olan yeganə ifadə aləti deyildir.

Frensis Bekon 1663 sənəsində nəşr etdiyi "Elmlərin qiyməti və təkamülü" **("De dignitate et augmentis Scientiarum")** namındakı əsərində dil haqqında şu fikirləri bəyan ediyor:

"Söz bir növ işarətdən başqa bir şey deyildir. Bu işarətlərin bəziləri – jest, hərəkətlər və heroqlif kibi – müqayisə və bənzətmə **(analogie)** yolu ilə, digər bəziləri də bizim yazımız kibi təmamilə etibari və ixtiyaridir **(conventionnel et arbitraire)**.

Bekon sözlərin və fikrin işarəti olduğunu da eyni zamanda rədd etməyir. İngilis filosofu müxtəlif şivələrin müqayisəsi üzərinə qurulmuş bir fəlsəfi sərf **(gr. philosophique)** meydana gətirməyi təsəvvür ediyor. "Hər dildən alınacaq olan ən gözəl sözlərdən mürəkkəb bir dil Apollon nəvəsi kibi ən gözəl bir şey olacaq və belə bir dil vasitəsi ilə ruhun bütün düşüncə və duyğularını anlatmaq qabil olurdu" **(De dignitate, etc.)**.

Bekonun bu əcaib fikrindən ümumiyyətlə dili icad etmək mümkün olduğu nəticəsi çıxır. Digər "Novum orqanum" **("Novum organum")** namındakı əsərində Bekon kəndi yeni üsulunu izah və tərif edərkən yenə dil məsələsi üzərində durur. Orada batil fikirlər və əsassız etiqadlarla mücadilə edərkən bunlardan pək çoxunun dil vasitəsi ilə yapıldığını qeyd edir:

"İnsanlar zənn ediyorlar ki, onların ağlı sözlərə komanda edir. Lakin onlar bilmiş olsunlar ki, sözlər çox dəfə ağıla qarşı çevrilərək onu xətadan xətaya sürüklərlər. Elmlərin sufizmə və boş xəyal təsiri altında qalmasına başlıca səbəb iştə budur".

Lokk **(Locke)**. Təcrübi məsləkə **(Ecole empirique)** lisanın tədqiqini fikrin tədqiqinə bağlar. Bu məsləyin xadim və tərəfdarları nə insanla bərabər fitri surətdə doğan səbəbləri, nə də səbəb olanı **(premiler principe)** qəbul etməzlər. Fikri anlaşılmayacaq dərəcəyə qədər dəyişdirən, bunların fikrincə, ifadənin yeganə aləti, yəni dildir. Bunların namdar ustadlarından olan Lokk "İnsanın zehni haqqında təcrübə" **("Essais sur l'entendement humain")** namilə yazdığı əsərində şu sözləri qeyd ediyor:

"Bəncə, fikirlə söz, mücərrəd məfhumlarla ümumi təbirlər arasında sıxı münasibət vardır. Bunun üçün dilin ifadə və istemalı haqqında layiqi vəchlə tədqiqatda bulunmadan əvvəl bizim fikirlərimiz və mərifətimiz haqqında açıq və qəti surətdə bir şey söyləmək qabil deyildir. İnsan ictimai bir ünsür olaraq yaradıcılığından kəndisinə qonuşmaq, söyləmək xassəsi verilmişdir. İştə bunun üçündür ki, insan kəndi sövti üzvlərini tələffüzə uyğun və hecalara ayrılmış səslərə müsaid surətdə dəyişdirə bilmişdir".

Demək ki, Lokka, söyləmənin birinci şərti üzviyyət, orqanizmdə bulunan istedaddır. Lakin bu kifayət etməz. Papağan və sair quşlar buna misaldır. İkinci dərəcədə, yəni səs çıxarmağa müstəid üzviyyətə malik olduqdan sonra o səslər[i] də fikirlər və məfhumlarla **(conceptions)** bağlaya bilmək şərtdir. Bu iki şərt – üzviyyət və səslərlə fikirlərin rabitəsi dilin doğmasını və yaşamasını mümkün qılsa da, onun inkişaf və təkamülü üçün kafi deyildir. Əgər hər şeyə qarşı ayrı bir söz olmaq lazım gəlsəydi, söz vasitəsi ilə məram anlatmaq ya qeyri-qabil və yaxud pək güc olurdu. İştə onun üçündür ki, insan bir sözə bəzi şəkillər vermək surəti ilə bir çox əşyanı və fikirləri ifadə edə bilir.

Daha sonra, Lokkun fikirincə, söz ilə əşya və yaxud təbiət arasında heç bir əlaqə yoxdur. Sözü fikrin və yaxud əşyanın işarəti yapan yalnız insanın ixtiyar və iradəsidir. Buna, Lokka, iki dəlil vardır:

1) Əgər əşya ilə sözlər arasında bir rabitə olsaydı, insanlar arasında yalnız bir dil olurdu.

2) Çox dəfə bir söz hər kəsin başında eyni fikri oyandırmaz. Demək ki, fikirlərin zəncirləşməsi, bir-birini çağırması **(association des idees)** hadisəsinin mübaliğəsi və xəyali bir surətdə anlaşılması sayəsindədir ki, insanlar əşya ilə sözlər arasında bir rabitə bulunduğunu qəbula meyil etmişlərdir. Biz ümumi təkamül qanununa baxaraq, dilin nə surətlə tərəqqi və təkamül etdiyini söyləyə biləriz. Təkamül tədrici

surətdə xüsusidən ümumiyə, duyulandan, hissdən **(sensible)** fikri və ruhiyə **(spirituel)** keçişdir, intiqaldır. Çocuqlara baxınız. Onların birinci fikirləri xüsusidir. Son[ra] yaşları artdıqca onlar ümumi fikirlər sahibi olurlar. Eyni surətlə sözlər əsas və mənşəyində yalnız xüsusi və ayrı-ayrı fərdlərə təəllüq edərdi. Bu gün hər lisanda rast gəldiyimiz mücərrəd **(abstrait)** sözlər vaxtilə müəyyən surətdə duyulmuş, görülmüş əşyaya təəllüq edən sözlərdi. Yavaş-yavaş bunlar mövzularını qeyb edərək, bugünkü mücərrəd mənalara gəlməyə başlamışdır. İştə dilin təkamülü bundan ibarətdir.

Dekart **(Decartes)**. Dekartın əqliyyə **(rationalisme)** məsləki, fikirlər, təsəvvürlər **(idees)** məsələsində olduğu kibi, dil ilə ancaq heyvanlarda mexanikiyyət və avtomatizm **(automatisme)** olduğunu isbat üçün uğraşmışdır. Dekart deyir ki, "nə qədər mərəzi və nə qədər əqilcə nöqsan olursa-olsun, heç bir insan təsəvvür olunmaz ki, bir dürlü fikirlərini ifadə etmək çarəsini bulamasın. Halbuki heyvan nə qədər mükəmməl, nə qədər ağıllı olursa-olsun, buna qadir deyildir". Demək ki, Dekart sözü yalnız fikrin işarəti olaraq deyil, bəlkə, eyni zamanda mövcudiyyətin, daha doğrusu, üzviyyətin işarəti sayar. Düşünən qonuşur. Düşüncə dili doğurur. Dekart sözlərin mənşəyinin də xüsusi və yaxud ümumi olduğunu münaqişə etməz. Lakin sözün təbiət və təbii hərəkətlərlə bir-birinə qarışdırılmamasını istər. Fikir və ruh məsələləri ilə daha ziyadə məşğul olan Dekartın dil haqqındakı fikirləri bundan daha ileriyə getməz.

Laybniç **(Leibniz)**. Dekart məsləki tərəfdarları içində lisan məsələsi ilə xüsusi surətdə uğraşan Laybniçdir.

Laybniç elmi və tarixi lisaniyyatın müəssislərindəndir. Heyrət olunacaq dərəcədə bir göz kəskinliyi ilə filoloji və lisaniyyat üsulunun əsaslarını qurmuşdur. Yəhudi dilini insaniyyətin ən əski dili saymaq o zamanlara qədər Avropada ənənə hökmünə girmişdi. Filoloqların o vaxta qədər bütün qeyrəti latın, qrek və bütün digər dilləri yəhudicədən, daha doğrusu, ibrani dilindən iştiqaq etdirmək, gətirmək yolunda sərf olunurdu.

Laybniç bu xüsusda şu sətirləri yazır:

"Yəhudicəni insaniyyətin ibtidai və birinci dili saymaq Qoropinusun **(Goropinus)** nəzəriyyəsini qəbul etmək qədər gülüncdür. Bu Qoropinus 1580-də Anversdə nəşr etdiyi bir kitabında holland dilini "cənnət lisanı", yəni cənnətdə qonuşulacaq dil olaraq elan etmişdi".

252439

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Laybniç yalnız **theologue**-ların, dinçi üləmanın hər dürlü lisani və ədəbi tədqiqlərin yolunu kəsən batil fikirlərinə etiraz etmək, onların meydana atdığı yalnız qənaətləri baltalamaqla iktifa etməz. Eyni zamanda elmi filolojinin yollarını, üsulunu da göstərir.

Laybniçin "İnsan zehni haqqında yeni tədqiq və təcrübə" (**"Nouveaux Essais sur l'entendement humain"**) namındakı əsərində müqayisəli üsulun tövsiyə olunduğunu görürüz. Onun fikrincə, hər şeydən əvvəl hər dildən mümkün qədər ziyadə məlumat, material toplanılmalı və bu məlumat kəndi aralarında müqayisə edilməlidir. İştə bu müqayisə sayəsində insanların ibtidai dili, dilin ümumi şəkilləri meydana çıxacaqdır. Digər tərəfdən, bu soy müqayisə bizə insanların mənşəyi, dürlü mühacirətləri, əski sənətləri, etiqadları vəlhasil ibtidai mədəniyyət tarixi sahəsində pək əsaslı və qiymətli nəticələr verəcəkdir. Bunun üçün Laybniç zamanın bütün missionerlərinə, səyyahlarına, səfir və konsullarına, hətta hökmdarlarına müraciət edərək, onlardan bu xüsusda yardım istəyir. Bu müraciətləri arasında Petroya yazdığı məktub pək ziyadə şayani-diqqətdir. Bu məktubunda Laybniç Petronun imperatorluğunda yaşayan xalqların dillərini tədqiq etdirməsini və bu müxtəlif dillərin sözlərindən mürəkkəb müqayisəli lüğətlər yapdırmasını rica ediyor. Filosofun bu ricası nəticəsiz qalmamışdır.

Doğrudan da, Laybniçin 1713-cü ildə vaqe olan bu müraciəti üzərinə o vaxtlarda ingilis faktoriyası kapellanı bulunan Dumoreskə (**Дюморескъ**) bu xüsusda çalışmaq tapşırıldı və onun fəaliyyəti nəticəsində "Şərq dillərinin müqayisəli lüğəti" namı ilə bir qamus meydana gəldiyi kibi, 1786-cı ildə "İmperial lüğəti" adında başqa bir lüğət daha tərtib olundu ki, bunda 285 söz 51 Avropa, 149 Şərq dilinə tərcümə ediliyordu.

Bundan başqa, Laybniç ilk dəfə moğol, fin-oğuz və türk dillərinin bir-birinə yaxınlığını göstərmiş və bu surətlə Ural-Altay lisan ailəsi nəzəriyyəsinin doğmasına səbəb olmuş, yardım etmişdir.

Laybniç dil fəlsəfəsi xüsusundakı fikirlərini "Zehni-insan üzərində yeni təcrübələr" (**"Nouveaux Essais sur l'entendement humain"**) namındakı əsərində bildirir. Laybniçin fikirləri, dil haqqındakı mülahizələri Lokkun (**Locke**) fikirlərinə qarşıdır.

Lokkun fikirlərini iki düsturda xülasə etmək qabildir:

1) Sözlər ibtidada xüsusidir (**particulier**) və yalnız hissi təsəvvürlərin ifadəsinə yarar.

2) Sözlər – dil insanın ixtiyari və iradəvi fəaliyyətindən doğar.

Laybniç bu düsturlardan heç birini qəbul etməz. Birinci düstura qəti surətdə etiraz edərək deyir ki, sözlər ibtidada Lokkun dediyi kibi yalnız fərdlərə (**individus**) təəllüq edəməz. "Mücərrəd və ümumi sözlər yalnız Lokkun zənn etdiyi kibi dilin təkamülünə xidmət etməz; bəlkə, eyni zamanda dilin əsasi şərtlərindən birisidir. Əgər ibtidai dildə yalnız fərdlərə məxsus sözlər bulunsaydı, qonuşmaq, yəni fikir ifadə etmək qeyri-qabil olurdu". İnsanın zehni ayrı-ayrı hər şeyə ad taxmaq, isim verməkdən aciz qalırdı. İştə bunun üçündür ki, əşyanın bir-birinə olan müşabihətini göstərmək üçün ümumi təbirlər (**termes generaux**) yaratmaq məcburiyyətində qalacaqdır.

Çocuqlarda dilin inkişafına diqqət edəcək olursaq, bunun doğruluğu kəndi-kəndiliyindən anlaşılır. Filhəqiqə çocuqlar xüsusi isimləri dərhal ümumi fikirlərin ifadəsi üçün qullanmağa çalışırlar. Digər tərəfdən, əgər xüsusi isimlər kəndi aralarında müqayisə edilirsə, bunların əsas etibarilə ümumi isimlərdən başqa bir şey olmadığı da meydana çıxar. Məsələn, **Augustus**, **Caesar**, **Brutus** kibi Qərb və yaxud Əhməd, Məhəmməd, Əli, Aişə, Fatimə kibi Şərq-islam isimləri vaxtilə həp ismi-cins, yəni ümumi isimlər idi.

İştə Laybniçin Lokka qarşı birinci düstur haqqında ileri sürdüyü etirazlar qısadan belədir. Lokkun ikinci düsturuna gəlincə, Laybniç bunu da ancaq ehtiyatla qəbul edər. Çünki Laybniç dilin ilahi bir kəşf nəticəsi [kibi] meydana gəldiyini və yaxud fitri (**inne**) olduğunu qəbul etməz. Hər sözün doğması, hər dilin zühuru müəyyən səbəblərə tabedir. İştə bu səbəblər, digər tərəfdən, insanın iradəsinə də tabe deyildir.

Bu məsələdə tənaqüzə düşməmək üçün Laybniç yunan filosoflarından Kratilin (**Cratyle**) fikrini alır və sözlərdə əşyaya az-çox bir təqlidin mövcud olduğunu göstərməyə çalışır. Bu xüsusda Laybniç şu sözləri yazır:

"Elə görünür ki, əski germanlar, selenlər və onlara yaxın olan başqa xalqlar [R] səsini şiddətli və gurultulu hadisələri ifadə etmək üçün qullanmışdılar. [R] səsi şiddətli bir hərəkəti göstərməyə xidmət etdiyi halda, [L] səsi, biləks, daha yumşaq və xəfif hərəkətləri ifadə edən sözlərin içində bulunur. Digər bir çox belə hadisələrdən, misallardan bəhs etməyərək doğrudan-doğruya şu nəticəyə gəliriz:

Hər halda sözlərin mənşəyində bir çox təbii ünsür[lər] vardır ki, sövti üzvlərimizlə səslər və hərəkətlər arasındakı sıxı əlaqə və münasibəti açıq surətdə göstərir.

Bununla bərabər, Laybniç süni dilin **(langue artificielle)** qabil olduğuna qanedir. Laybniç bütün həyatında bütün dünyaya məxsus bir yazı və riyaziyyat dili kibi bütün alimlər arasında ümumi və müştərək bir fəlsəfi dil yaratmaq xəyalı ilə uğraşmışdır. Lakin bu işi başa çıxarmaq üçün, əvvəla, ibtidai məfhumları bulub çıxarmaq, saniyən, bu məfhumlar arasında mümkün olan birləşmə və qarışma şəkillərini təyin etmək lazımdır. İştə bu ümumi məfhumları qeyd və ifadə üçün qullanılacaq dil və yazı işarətləri eyni zamanda ümumi dilin əsası olur.

İştə bu fikirlərindən dolayı sperantoçular Laybniçi özlərinin birinci ustadı sayırlar. Lakin Laybniç hər şeydən ziyadə bütün dünya filosof və alimlərini birləşdirəcək bir "fəlsəfə və məntiq dili" meydana gətirməyi düşünmüş, bugünkü sperantoçular kibi qonuşma, mühavirə dili haqqında fikir bəyan etməmişdir.

Hər halda Laybniçin ümumi və elmi lisaniyyatın doğmasında və on yeddinci əsrin sonları – on səkkizincinin başlarında fin-oğuz, daha doğrusu, Ural-Altay lisaniyyatının elmi surətdə təməli qurulmasına olan xidməti pək böyükdür. Onun üçün biz onu həm elmi lisaniyyatın və həm də üsuli-türkolojinin birinci müəssislərindən saymalıyız.

Kondiyak **(Condillac)**. Hər zamandan ziyadə filosoflar on səkkizinci əsrdə lisanı tədqiqata və dilin fikirlə olan əlaqəsi məsələsinə diqqət və əhəmiyyət vermişlərdir. İşarətlərin əhəmiyyətini Kondiyak qəribçiliyə **(paradox)** qədər böyütmüşdür. O, fikri dilə tabe, əsir saymağa qədər getmişdir. İyi düşünmək, iyi qonuşmaq gözəl söyləməkdir. Elm iyi qurulmuş, təkamül etdirilmiş dildən başqa bir şey deyildir. Əgər bizdə mücərrəd isimlər olmasa mücərrəd fikirlərimiz olmaz. Mücərrəd fikirlər olmayınca, növ **(genre)** və cins **(espece)** təsəvvürləri bizdə olamaz. Bunlarsız heç bir şey üzərində mühakimə yürütmək qabil deyildir. Əgər biz yalnız lisanımızda bulunan təbir və istilahların yardımı ilə düşünür, mühakimə ediriksə, bu halda fəna düşünməmizin, məntiqsiz mühakimələrdə bulunmamızın səbəbi dilimizin zəif, fəqir və işlənməmiş olmasıdır.

Təhlili-zehni əməliyyələri bizi istilahları gözəl, doğru düzməyə, bir sözlə, gözəl qonuşmağa öyrətdiyi təqdirdə bizim zehnimizə təsir edəcək və bizi doğru düşünməyə sövq edə biləcəkdir. Çünki doğru düşünmək, gözəl-iyi söyləmək sənətdən ibarətdir (İkinci qisim, 5-ci bəhs – **Logique**).

Ümumiyyətlə Kondiyakın fəlsəfəsinə görə, elmdə yalnız bir üsul vardır ki, o da təhlildir **(analyse)**. Zehnimizin fəaliyyəti mürəkkəbi

bəsitləşdirməyə, məlumdan məchulu ayırmağa sərf olunur. Madam ki, düşünmək iyi söyləməkdir, o halda söyləmək eyni zamanda bir təhlildir. Filhəqiqə, Kondiyak öz fikirlərindən çıxan bu nəticəni görür və yuxarıda zikr etdiyimiz kitabın bir çox yerlərində buna işarət də edir:

"Dil bütün bir təhlil üsulundan ibarət olduğu kibi, üsul təhlili də bir dildir. Fikri, mühakiməni parçalara ayırmadan qonuşmaq, söyləmək imkansızdır və nitq bu soy təhlilə müsaidə edən yeganə alətdir. Dürlü dillər dürlü təhlil üsullarıdır. Hər millətin kəndinə məxsus təhlil və mühakimə üsulu olduğundan başqa dili vardır. Düşünmək sənəti bu surətlə qayət bəsitləşir, yəni qonuşmaq, söyləmək sənətindən ibarət olur".

Kondiyakın nəzəriyyəsi boş bir qəribədən ibarət deyildir. Bu nəzəriyyə onun məntiqi və fəlsəfəni asılı, xüsusi bir surətdə anlamasından irəli gəlir. Dekartın da buna yaxın fikirləri vardı və məlum olduğu üzrə, bütün elmi üsulları "Üsul haqqında nitq" nam əsərində gördüyümüz kibi riyaziyyat elmindən alırdı. Kondiyak da kartezyen-dekartçıdır. O da Dekart kibi riyaziyyat üsulundan başqa üsul tanımaz. Bunun üçün yenə yuxarıda zikr etdiyimiz "Məntiq" namındakı əsərində şu sözləri oxuyuruz:

"Cəbr fənni elmlərin tərəqqisi, dillərin tərəqqisinə bağlı olduğuna açıq dəlildir". Əgər burada Kondiyaka cəbrin kəmiyyətilə uğraşdığı və bu fəndə cümlə yerinə "müadilə" **(equation)** bulunduğu söyləniəcək olursa, onun cavabı hazırdır: "Müadilə, cümlə, hökm eyni şeylərdir. Binaən əleyh hər elmdə eyni surətlə düşünülür".

"Saylar dili" **("Lanque des Calcuts")** nami ilə məşhur və bitməmiş əsərində Kondiyak başlıca: "Bir elm yaratmaq demək bir dil yaratmaqdan başqa bir şey deyildir", – fikrini ortaya atmış və bunu isbat etməyə çalışmışdır. Demək ki, Kondiyakın fikrincə, elm iyi tərtib olunmuş bir dildən başqa bir şey deyildir. O halda iyi tərtib olunmuş bir dilin sifət və məziyyətləri nədən ibarətdir?

Əvvəla, belə bir dil bəsit olmalıdır. Bundan başqa, dildə bulunan hər sözün mənası müəyyən, qəti və məhdud olmalıdır. Yəni bir söz bir kaç mənaya, yaxud bir kaç söz bir mənaya gəlməlidir.

Digər tərəfdən, dil tənazür **(analogie)** qaydasına müvafiq surətdə tərtib olunmalıdır. Yəni fikirlərin təaqübü, bir-birini çəkməsi kibi, sözlər də müntəzəm surətdə bir-birini xatirə gətirməli, hafizəyə çıxarmalıdır.

Kondiyak "İnsan mərifətinin mənşəyi haqqında" **("Essai sur l'origine des Connaissances humaines")** nami ilə 1746-da nəşr etdiyi əsərində dini ənənəyə qarşı gəlməmək üçün "Adəm ilə Həvvanın cənnətdən qovulduqdan sonra fövqəltəbii bir qüvvət tərəfindən düşünmək və düşüncələrini bir-birilərinə bildirmək xassə və məziyyəti qazandıqlarını" qəbul edir. Lakin bununla bərabər, Kondiyak buna başqa bir fikir də əlavə edir:

Tufandan bir kaç zamanlar sonra bir ərkək bir qız – iki çocuq səhralarda, çöldə yollarını şaşırmışdılar və heç bir dürlü işarət istemalını hənuz bilməyirlərdi. Kim deyə bilir ki, belə bir hal bəzi xalqların, millətlərin başına gəlməmişdir. Məsələ bu çocuqların, yaxud bu xalqların belə bir vəziyyətdə dili, işarətləri nasıl icad etdiklərini bilməkdir. Demək ki, Kondiyak dilin təbii bir mənşəyi ola biləcəyini qəbul edir. 1781-ci ildə, yəni Kondiyakın ölümündən sonra nəşr olunan "Məntiq" **("Logique")** namındakı kitabında artıq onun dilin ilahi mənşəyinə inanmadığı görülür.

Kondiyakın bu son əsərində ilərıyə sürdüyü fikrə görə, dilin birinci şəkli hərəkət dilidir. İnsanın ruhu ilə bədəni sıxı surətdə bir-birinə bağlıdır. Bizim xarici təşəkkülatımız daxili hissiyyat və həyəcanlarımızı göstərməyə, anlatmağa yarayacaq bir surətdə yaradılmışdır. Bu hərəkət dilinin ana cizgiləri nədir?

Əvvəla, hərəkət dili tərkibi **(synthetique)** və qarışıqdır. Bizim hərəkətlərimiz təhlil-analiz yolunu təqib etməz. Biz hərəkətlə bir anda ruhumuzda keçən şeyləri birdən anlayırız. Bundan başqa, bu dil, yəni hərəkət dili nə etibari, nə də iradəvi olmayıb, bəlkə, tamamilə təbiidir. İnsanlar duyar-duymaz hərəkət dilini qullanmağa başlarlar. Bu zaman da hətta fikirlərini ifadə məramını təqib etməzlər. İştə bu hərəkət lisanı, bu təbii dil fikrə müqəddəmdir. Düşünmək üçün müəyyən işarələr lazımdır. Halbuki insan doğar-doğmaz daha düşüncəsi bulunmadığı bir zamanda hərəkət dilinə malikdir. Demək ki, insanda doğma-fitri bir dil varsa, o da "hərəkət dili" **(langue d'action)** dediyimiz xassədir.

İştə insan düşünməyə öyrəndiyi zaman kəndisində bulunan bu təbii dili hərəkətlər vasitəsi ilə ifadə xassəsini kəşf edir. Dil üçün fikir, fikir üçün dil lazımdır. Bu təzad içərisindən nasıl çıxmalı? İştə bizə yol verən hərəkət dilidir. Hərəkət dili fikirdən əvvəl mövcud olduğundan fikrin ifadəsi olan işarətləri meydana gətirməmək üçün

əsas təməl xidmətini görür. Fəqət, hərəkətlərin dil xidmətini görə bilmələri üçün daxili hissiyyatımızın, dəruni həyəcanlarımızın, bir sözlə, ruhumuzun ifadəsi, müəkkisi olması lazımdır. Əcəba, insiyağı hərəkətdən ifadəli hərəkətə insan nasıl keçə bildi? Ehtiyac sayəsində. İnsanlar bir-birilərinə yardım etmək məcburiyyətindədirlər! Bunun üçün də kəndilərini və bir-birilərini anlamağa, anlaşmağa ehtiyacları vardır.

İştə bu surətlə insan özünü və başqalarını anlamaq üçün hərəkətlərini təhlil etməyə, parçalarına ayırmağa başlar və hərəkətlərini təhlil sayəsində fikirlərini təhlil edər və bu dəqiqədən etibarən hərəkət dili bir təhlil üsulu olmuş olur və söz dili hərəkət dilinin təkamülü sayəsində meydana çıxar.

Söz dili də hərəkət dilinin bütün vəssafını havidir. Söylərkən səsin yüksəlib-alçalması bədənin şiddətli hərəkatına tətabüq edir, uyar. Bu dillərin elə qəti surətdə bir-birini təqib etdiyi zənn edilməsin. Çox zamanlar həm hərəkət, həm söz bir-birinə qarışmış bir halda bulundu. Nəhayət, söz dili daha ziyadə təkamül və inkişaf edərək, aşağı-yuxarı yeganə ifadə aləti yerini tutdu.

Birinci söz dili, Kondiyakın fikrincə, vücudun şiddətli və həyəcanlı hərəkətlərinə rifaqət edən təğənni, şərqi kibi bir şey olmuşdur. Təbiət nasıl insiyaqi hərəkət dili yaratmış isə, eyni surətlə dürlü səslərdən, nidalardan da **(cris)** gələcəyin söz dili ünsürlərini doğurmuşdur. İnsanlar uzun zamanlar məramlarını ifadə üçün təbii ibarətlərdən başqa bir şeyə malik olmadıqları halda, fikirləri açılıb, məişətləri ilərilədikcə təbii işarətlərə süni şəkillər vermişlərdir.

İbtidada nitq insanın dürlü hisslərinə görə dəyişən nida və sədalardan ibarətdir. Heyvanların səslərinə, təbiət gurultularına təqlid dilin lüğətini zənginləşdirdi. Əvvəla, yalnız ayrı-yarı əşyanın adları var idi, sonra yavaş-yavaş əşyanın gözəçarpan xassələri ayrılmağa, bulunduqları mühit təyin edilməyə başlandı və bu surətlə fellər və sifətlər doğdu. Birinci fellər yalnız şə'ni bir mənaya malik olub, mücərrəd fellər daha sonra meydana gəlmişdir. Lokk kibi, Kondiyak da mücərrəd sözlərin qeyri-mücərrəd sözlərdən çıxdığını qəbul edir.

Xülasə, Kondiyakca, dil yalnız iradəvi, ixtiyari bir müəssisə **(institution)** deyildir. Təbiət vücudun insiyaqi hərəkətlərindən, jest-hərəkət dilini və səda-nida dilindən söz dilini doğurmuşdur. İnsan ehtiyacın təsiri altında qonuşduğunun, söylədiyinin fərqində olmuşdur. İstəməyərək,

yəni fərqində olmayaraq söyləməyə başlayan insan şüurlu bir surətdə bilərək dilini inkişaf və təkamül etdirmiş, yəni təbii surətdə başlayan dilə zaman ilə süni bir şəkil vermişdir.

Əski, təbii dillər tam və səhih surətdə tərkib edilmişdi. Sonra insanlar lüzumsuz bir taqım sözlər yaradaraq dili pozmuşlardır. Dillərin təkamülü üçün təqib olunacaq üsul bulunmayan fikir üçün, hənuz mövcud olmayan təsəvvürlər üçün yeni təbirlər yaratmamaqdır.

De Bross **(De Brosses)**. Borqoyn **(Bourgogne)** parlamanının birinci rəisi olan De Bross 1765-də "Dillərin mexaniki təşəkkülatı haqqında" **("Essai sur la formation mecauique des laugues")** namilə bir əsər nəşr etdi. O da on səkkizinci əsrin bütün filosofları kibi dilin ibtidada pək ziyadə fəqir olduğunu iddia etməklə bərabər, ixtiyari və iradəvi icad məsələsini qəbul etməz.

Sözlər bizim sövti üzvlərimizin təşəkkülatına və az-çox işarət etdikləri əşyanın təbiətinə tabedir. Qonuşmaq söyləmək, hərəkət etməkdir. Hər hərəkət onu meydana gətirən alətlərin təbiətinə və vasil olmaq istədiyi məqsədin mahiyyətinə bağlıdır. Yəni alət və məqsədin təsirindən dışda qalmaz.

De Brossun məqsədi dilin üzviyyətimizdən, bilxassə sövti üzvlərimizdən nəşət edən bir zərurət olduğunu göstərməkdir.

İnsanın ibtidai dili əşyanın təbiət və xasiyyətlərini gurultu vasitəsilə təqlid sayəsində meydana gəlmişdir. Demək ki, De Brossun nəzəriyyəsi dilin təqlidi sözlər **(onomatopees)** vasitəsilə başladığı fikrinə dayanır.

Əgər sözlərin mənşəyində yalnız əşyanın və sövti üzvlərimizin rolu varsa, o halda ibtidai dil hər xalqda, hər millətdə müştərək, yeknəsəq və vahid olmaq lazım gəlir.

De Bross bu nöqtəni görür və qəbul edir: "Dilin asılı ünsür və amilləri – sövti üzv və əşya hər yerdə bir və ümumi olduğundan insanların ibtidai dilləri də bir və müştərək, ümumidir. Dillərin birinci təməli iştə bu ümumi ibtidai dildir".

De Bross əsərində bir çox misallar vasitəsilə bu nöqtəni – ibtidai dilin ümumiyyətini isbata çalışır. Lakin burada bir çox mübaliğələrə yol verir və nəticə etibarilə xəyala qapılır. Hər halda De Brossun nəzəriyyəsində elmi həqiqətlər yox deyildir. Sövti üzvlərimizin təbiətin dilinin təşəkkül və zühurunda böyük rolu olduğu getdikcə daha qəti surətdə isbat edilməkdədir. Lakin De Brossun zənn etdiyi kibi dili meydana

gətirən [amil] yalnız bunlardan ibarət deyildir. Elm ibtidai və ümumi dilin hər hankı bir zaman mövcud olduğunu qəbul etməməkdədir.

Adam Smit **(Adam Smith)**. "Dilin mənşəyi haqqında" **("Essai sur l'origine du langage")** namilə yazdığı əsərində Adam Smit Lokkun fikirlərini alır və inkişaf etdirməyə çalışır.

Kondiyak göstərmiş idi ki, dilin birinci material və əsasını təbiət verir. De Bross daha ileri gedərək mexanik bir zərurətin dillərin meydana gəlməsində əsas olduğunu və bu əsasın hər xalqda müştərək olduğunu nəzəri-etibara alaraq, ibtidai dillərin müştərək olduğunu iddia etmişdi. Adam Smit isə dilin başdan-aşağıya etibari **(conventivnel)** bir şey olduğu nəzəriyyəsini Lokkdan alaraq bir daha diriltmişdir.

İnsan, əvvəla, doğma-fitri dilsizlik **(mutisme)** halında yaşayırdı. Belə bir insanın ifadə, məram anlatma yerində qullandığı vasitələr ancaq bəzi sima və vücud hərəkətlərindən ibarət idi. Lakin bir zaman sonra artıq insanın tanıdığı əşya və damağında doğan fikirlər o qədər çoxaldı ki, əl-barmaq ilə işarət ifadə üçün kafi gəlmədi. Artıq mənaları hər kəscə müəyyən və müntəzəm süni təbirlər icadı lazım gəldi. Bu surətlə icad olunan təbirlərin birincisi fellər oldu. Çünki isimlərə o qədər böyük ehtiyac yox idi. Əşyanı işarətlə, yaxud sövti təqlid ilə göstərmək qabil olduğu halda, ən bəsit hərəkəti işarət və yaxud təqlid ilə anlatmaq pək ziyadə güc idi. Lokkun fikrincə, isimlər əvvələn ayrı-ayrı fərdi əşyanı ifadə edərdi.

İlərida insanın təcrübəsi ilərilədikcə, bir-birinə bənzəməyən əşyanı fərq edərək, əvvəlcə fərdi olaraq qullandığı isimlərə ümumi mənalar isnadına başlar. Bir çocuq "ana" və "baba" isimlərini kəndi ana və babasına bənzətdiyi hər şəxsə isnad edər və bu zaman da onun dilində bu iki isim yalnız iki adama verməklə sözə başladığı halda, nəhayət, bütün bir cinsə və növə isnada qalxışır. Demək ki, Adam Smitin fikrincə, əvvələn, xass, fərdi isimlər doğar və zamanı ilə bunlar cins və növ isimləri olurlar. Bu, Laybniçin bu xüsusda bəyan etdiyi fikirlərin daban-dabana ziddidir.

Jan-Jak Russo **(Jean-Jacquos Rousseau)**. Russo "İnsanlar arasındakı musavatsızlığın mənşəyi və əsasları haqqında nitq" **("Discours sur l'origine et les fondements de l'inegalite parmi les hommes")** namilə yazıb 1753-cü sənəsində nəşr etdiyi əsərində mövzunu dolayısilə dilin mənşəyi haqqında da fikir bəyan etməyə məcbur olmuşdu. Bu məsələ xüsusunda Russo Kondiyakın fikirlərini həm qəbul, həm də

rədd edir. Elə görünür ki, Russo üçün hər nə qədər qeyri-kafi olsa da, yeganə qəbul oluna biləcək nəzəriyyə Kondiyakınkı olmuşdur.

Russoca da, birinci dil təbii sədalardan ibarət olmuşdu. Fikirlər çoxaldıqca insanlarda sədaları çoxaltdı və bu fikrə hərəkət də **(geste)** əlavə etdilər. Lakin bu soy ifadə yalnız hazır bulunan əşyanı ifadəyə saleh olub, mövcud olan əşyanı ifadə üçün zaman ilə tələffüz və mənalı səslər istemalına başlanmışdır **(articulation)**.

İbtidada hər söz bütün bir cümlə mənasına malik idi. Mübtəda ilə xəbər **(subject, attribut)**, isim ilə fel **(nom, verb)** bir-birindən ayrılmağa başladığı zaman həqiqi dil, bizim dilimiz meydana gəldi. Sözlər içərisində ən ziyadə gec meydana gələnlər sifətlər **(adjectivs)** oldu. Çünki sifəti ifadə edən sözlərin meydana gəlməsi üçün təcrid və təhlil **(abstraction, analyse)** zehni əməliyyəsinin başlaması zəruri idi. Bu Kondiyakın fikrindən başqa bir şey deyildir.

Burada, şübhəsiz, Kondiyakın qarşısına çıxan güclüklər Russonun qarşısına da çıxmışdır. Əvvəla, təbiətdə dağınıq surətdə yaşayan insanlar nasıl oldu da dili yaratmaq ehtiyacını duydular? İkinci dərəcədə, insan düşünmək üçün sözə möhtac isə, sözü, nitqi icad etmək üçün fikrə daha ziyadə möhtacdır. Təbii və insiyaqi **(instinctive)** sədaların birini tələffüz və heca halına gəlmiş olan səsləri iqamə etmək üçün insanlar arasında müəyyən anlaşma və razılıq lazım gəlirdi. İştə bu son nöqtədə Russo da Kondiyakın fikirlərinə etiraz edər.

Nəticədə Russo dilin bir ilahi kəşf **(revelation divine)** nəticəsi olaraq meydana gəldiyinə inanır kibi görünür. Bunun üçün Russo deyir:

"Bənə gəlincə, bən dillərin tamamilə insani vasitələrlə meydana gəldiyini isbat xüsusunda qarşıma çıxan maneələr qarşısında ürkmüş və məğlub bir halda insan cəmiyyətlərinin ictimai həyatınmı dili, yoxsa, biləks, dilinmi ictimai həyatı doğurduğu yolunda qeyri-qabili-həll bir şəkildə duran məsələni həll etmək vəzifəsini istəyən zata buraxmağa hazıram".

Russonun "Dillərin mənşəyi haqqında" **("Essai sur l'origine des langues")** namındakı əsəri bu xüsusda daha açıq və daha əsli – orijinaldır. Burada Kondiyak nəzəriyyəsini təqlid etməyərək, məsələni özünün nəzəriyyəsinə başlar ki, bunun da əsası ibtidai insanların həyatında hissiyyatın hər şeydən qüvvətli olduğu prinsipidir.

Russo da on səkkizinci əsrin ümumi qəziyyəsini qəbul edir ki, o da şundan ibarətdir:

"Dil birinci ictimai müəssisə olduğundan kəndi şəklini təbii səbəblərin təsiri altında qazanmışdır". Lakin o, De Bross kibi sözün sövti üzvlərimizin və əşyanın təsiri altında mexanik surətdə təyin etdiyinə inanmaz, bəlkə, insanda ayrıca bir nitqsöyləmə xassəsi bulunduğuna qanedir. İnsan basirəsi, sameə və lamisəsi də fikirləri ifadə edə bilirlər. Heyvanlar özlərinə çox kafi bir qonuşma dilinə sahibdirlər. Bilxassə camaat halında yaşayanları təbii və yaxud insiyaqi dil **(langue naturelle, instinctive)** vasitəsi ilə kəndi aralarında mükəmməl surətdə anlaşa bilirlər.

Dilin mənşəyi və təbiəti məsələsində Russo Kondiyakdan ayrılır:

"Zənn edilir ki, – deyir Kondiyaka qarşı, – birinci hərəkətləri insana verən ehtiyac olduğu halda, birinci səs çıxaran hisslər, həyəcanlar idi. Ehtiyac adamları ayırır, həyəcanlar birləşdirir. Aclıq və susuzluq deyil, bəlkə, yalnız eşq, kin, mərhəmət və hiddət... kibi hisslərdir ki, insanın bağrından birinci sədanı çıxarmış və birinci səs dilinə əsas qoymuşlardır.

Russonun digər fikrincə, Kondiyak birinci dillər mükəmməl tərtib olunmuş və təhlili bir üsuldan ibarət olub, fikirlər arasındakı münasibətləri göstərir, – dediyi zaman da yanılır.

"Birinci dillər, – deyir Russo, – sözdən ziyadə şərqiyə, təğənniyə daha yaxın idilər. Bir çox söz əsilləri, cizrləri təqlidi səslərdən **(onomatopee)** başqa bir şey deyildi.

Russo yer üzündə dürlü-dürlü dillərin olmasını iqlimin, təbii mühitin başqalığında görür:

"Cənub dilləri zövqün qızı olub, ehtiyacdan doğmamışdır. Şimal dillərinə gəlincə, bunlar şiddətli şimal təbiətinin doğurduğu dillərdir. İştə bunun üçün cənub dilləri ahəngdar, lətif olduğu halda, şimal dilləri qaba, sərt və ahəngsizdir".

De Bonald **(De Bonald)**. Şimdiyə qədər verdiyimiz məlumatdan anlaşıldı ki, on səkkizinci əsr filosoflarının nəzəriyyələri bir-birinə mütabiq olmaqla bərabər, dili insanın digər ictimai icadları kibi bir icad tanımaqda müştərəkdirlər. Lakin on doqquzuncu əsrdə başlayan irtica fəlsəfi **(reaction philosophique)** [cərəyanı] on səkkizinci əsr mütəfəkkirlərini, gördüyümüz kibi, pək ziyadə işğal edən dil məsələsi haqqında kəndisini göstərməyə məcbur idi.

Ernest Renanın dediyi kibi, on səkkizinci əsr hər şeyi insana verdiyi halda, on doqquzuncu əsrin başları hər şeyi təkrar Allaha iadə etmişdi".

Dilin ilahi mənşəyini on doqquzuncu əsrin sonlarına qədər müdafiə edənlər və ileri sürənlər əskik olmamışdır. Bu fikrin birinci banisi olaraq yunan filosofu Herakliti göstərirlər. Heraklitin dilin ilahi bir lütf olması haqqındakı fikri Kratil tərəfindən müdafiə olunmuşdur. Önomiusun **(Eunomius)** Sent Bazil **(Saint Basile)** ilə münazirə və münaqişəsi birinci xristian fəlsəfə məsləklərinin bu xüsusdakı nöqteyi-nəzərini pək açıq surətdə göstərir. 1670-də "Söyləmək sənəti" **("L'art de parler")** namilə tərtib etdiyi əsərində Per Lami **(Le Per Lami)** əgər Allah yardım etməmiş olaydı, insanın ibtidai və tələffüzə qeyri-saleh nidalardan heç bir zaman dili əldə edəməyəcəyini uzun-uzadı izah və müdafiə edər.

İştə De Bonald da az-çox bu soy dini baxışların təsiri altında qalmış bir filosofdur. Bununla bərabər, De Bonald Kondiyakın nəzəriyyəsindən hərəkət edir. Yuxarıda göstərdiyimiz kibi, Kondiyakın son əsərində dil hər şeydən böyük bir əhəmiyyət qazanmağa başlayır. Məsələn, orada dilin məntiqdən, sözün fikirdən əvvəl, müqəddəm olduğunu öyrəniriz. İştə burada De Bonald kəndisi üçün müvafiq bir əsas bulmuşdur. De Bonaldın fikrincə, lisan məsələsi yalnız xüsusi bir məsələ deyil, bəlkə, bütün bir fəlsəfədən ibarətdir. Bütün fəlsəfi məsələlərin təməli budur. Madam ki, dil fikirdən müqəddəm imiş, o halda insanın dili öz düşüncəsi, öz zehni və ruhi fəaliyyəti nəticəsində bulması qeyri-qabildir.

"İştə, – deyir De Bonald, – buradan anlaşılır ki, Allahı insan ancaq onun kəlamı ilə tanıya bildi. İnsan da Allah kibi ancaq söz vasitəsi ilə özünün daxili, zehni fəaliyyətini anlada bildi".

Bu surətlə insan yaradıldığı zaman Allahın kəndisinə öyrətdiyi kəlam **(verbe)** bütün ağıl və zehnimizin təməl daşını təşkil edir.

Düşünmək xassəsi insanda fitridir. Lakin söyləmək xassəsi olmasaydı, təfəkkürün mövcudiyyət və mahiyyətindən heç bir zaman xəbərdar olmayacaqdıq.

Men de Biran **(Main de Biran)**. Ənənəvi və dini məsləklərin tərəfdarları De Bonaldın fikirlərini qəbul etdilər. Müstəqil fikirli filosoflar bu fikirləri kəmali-şiddətlə rədd etdilər.

Men de Biran "Bonaldın fikirlərinin tənqidi imtahanı" **("Examen crtitique des opinious de M.Bonald")** namilə 1818-də nəşr etdiyi əsərində dilin bir ilahi kəşf nəticəsində meydana gəldiyi fikrini rədd edər. Dilin Allah tərəfindən insana kəşf edilib verilməsi fikri

qarşımızda duran müşkül məsələni daha ziyadə qarışdırır. Men de Biran bu xüsusda şu sətirləri yazır:

"Dilin ilahi və dini mənşəyinə inananlar, bənə elə gəlir ki, dilin mənşəyi və mahiyyəti məsələsini gərəyi kibi anlamıyorlar və şəkil ilə əsası bir-birinə qarışdırırlar. Dilin hər hankı ali qüvvət, deyəlim, Allah tərəfindən insana verildiyini fərz və qəbul etsək belə, məsələ həll olunamaz. Çünki bu surətlə Allah tərəfindən insana veriləcək olan işarətlər və yaxud sözlərə müəyyən qiymətlər, yaxud xüsusi mənalar vermək, yaxud Allah tərəfindən verilmişsə, o mənaları qullanmağa məziyyət və iqtidar sahibi olmaq məsələsi qalır ki, iştə burası əski mənşə və mahiyyət məsələsinin başıdır".

Men de Biranın öz fikrincə, sözdə, yaxud dildə ən mühüm əsasi ünsür iradəvi hərəkətdir **(acte volontaire)**. İnsanın iradəvi hərəkəti sayəsindədir ki, səslər və yazılar müəyyən mənaları ifadə edə bilirlər.

Men de Biran bu fikrini daha ziyadə izah etmək üçün sözlə bir sual verir:

"Nə üçün heyvanlar dilə malik deyildirlər?" Bu məsələni nə dini, ilahi kəşf və nə də hissiyyat və həyəcani-ibtidai ilə izah etmək qabil olmaz. Məlum olduğu üzrə, onlar da buna sahibdirlər və yaxud sahib ola bilirdilər. Burada ən böyük səbəb iradəvi fəaliyyətdir. Heyvanlar söyləməzlər, çünki düşünməzlər və iradəvi hərəkətlərə malik deyildirlər.

Hər şeydən əvvəl insana qonuşmaq, söyləmək üçün zehn və iradə lazımdır. Bu sayədə təbii işarətlər və təqlidi səslər **(onomatopee)** müvazi olaraq dildə inkişaf edir. Dildə qulaq-sameə və sövt üzvlərinin bir-birinə bağlı olması hər şeydən ziyadə diqqətəşayandır. Doğma sağır bir adam qonuşamaz. Qulağın eşitdiyi səslər, aldığı intibalarla **(impressions)** səs üzvlərimiz daimi surətdə bağlı bulunur. Bu surətlə dil daima xaricə doğru inkişaf edən, hər zaman binlərcə xarici təsirlərin nüfuzu altında dəyişən bir şey olmuş olur.

Üzvü nəzəriyyə. On səkkizinci və on doqquzuncu əsrlərdə lisanın mənşəyi və mahiyyəti məsələsi yeni bir qüvvətlə bir daha canlandı. Bir tərəfdən, müqayisəli filoloji **(la philologie comparee)**, bir tərəfdən [də], bu zamanlarda pək ziyadə tərəqqi edən təbii elmlərin yardımı ilə ortaya çıxan üzvi nəzəriyyə **(theorie physiologique)** bu xüsusda yeni-yeni nəticələr meydana qoydular ki, bunları şöylə xülasə edə biləriz:

1) Dil əlaladə mənası ilə fikrin, ruhi fəaliyyətin bir nəticəsi, yaxud hər hankı bir şəkildə icad deyildir.

2) İkinci dərəcədə o vaxta bir-birinə zidd və düşmən olaraq yaşayan iki nəzəriyyəni, yəni dillərin təbii və icad nəticəsi olaraq meydana çıxması nəzəriyyələri bu əsrdə bir dürlü uyuşdura bildilər.

Laybniçin üsulunu cızıb, planını qurduğu lisani-elmi on doqquzuncu əsrin sonlarına doğru pək ziyadə ilərilədi. 1787-dən başlayaraq, məşhur ingilis şərqiyyatçısı Vilyam Cons **(William Jones)** sanskrit, qrek və latın dillərinin yaxınlığını isbat etdi. 1808-ci sənəsində "Hindlilərin dili və fəlsəfəsi haqqında" **("Essai sur la langue et la sagesse des İndiens")** ünvanı ilə yazdığı əsərində Frederik Şlegel (Frederic Schlegel) bir qrupda hind, qrek, İtaliya, german, fars dillərini birləşdiriyor və bunlarda müştərək olan şəkilləri təsbit ediyordu.

1816-da Fransua Bopp **(Francois Bopp)** Şlegel tərəfindən təyin olunan və bilaxirə hind-Avropa təsmiyə olunan qrupun "Qrek, latın, alman, fars dilləri ilə müqayisə edilən sanskrit dilinin təsrif sistemi" **("Systeme de conjugvison de la langue sanscrite comparee ave celui du grec, du latin, du persan et de l'allemand")** namilə yazdığı əsərində birinci dəfə olaraq elmi surətdə bir-birinə olan münasibətlərini təyin ediyordu. 1833 və 1852-ci illərdə nəşr etdiyi və "Alman, qot, slavon, Litva, latın, qrek, zənd və sanskrit dillərinin müqayisəli sərfi" **("Grammaire comparee du sanskrit, du zend, du grec, du latin, du lithouanien, du slavon, etc.")** namındakı əsəri ilə birinci əsərini tamamlayırdı. Bütün bu tədqiqlərin nəticəsində dillərin şəcərəvi təqsimi meydana gəldi və bütün yuxarıda saydığımız hind və Avropa dillərinin müştərək bir ana lisandan meydana çıxması nəzəriyyəsi qəbul edildi. Müqayisəli-filoloji bu surətlə əskiləri pək ziyadə işğal edən "insanlar arasında uyuşma" **(contrat)**, "icad" və "etibarilik" **(convention)**... nəzəriyyələrini tamamilə rədd ediyor və dilin həyat və ehtiyac nəticəsində meydana gəldiyini qəbul ediyordu. Dillər tamamilə həyat və təbiətin qanunlarına tabedirlər. Çünki ondan çıxmışlardır.

Burada Şarl Bell **(Charles Bell)** və Darvinin **(Darwin)** nəzəriyyələri ilə də aşina olmalıyız. Müqayisəli-filoloji ilə bərabər, fizioloji elmi də lisan və onun mahiyyət və keyfiyyətinə aid məsələləri çözə bilməmiz üçün bir çox yeni məlumat təqdim etdi. Vücudun hərəkətləri və simanın dürlü şəkilləri nasıl, nə surətlə ehtiras və həyəcanlarımızın ifadəsi ola bildi?

Şarl Bellin fikrincə, ifadə üzvlərimiz yalnız bir vəzifəyə malik deyildir. Bəlkə, eyni üzvlərimiz bir zamanda həm insiyaqi **(instinctiv)**, həm də ruhi **(psyhologique)** vəzifələri ifa edirlər. Çöhrəmizdə hüsula

gələn təbəddül və işarətlər eyni zamanda təbii və insiyaqi hərəkətlərimizin bir parçasıdır. İnsanın qızdığı, hiddətləndiyi zaman ağzını açması, dişlərini sıxması yalnız bir ifadə deyil, bəlkə, eyni zamanda insiyaqi bir hərəkətdir ki, bütün heyvanlarda müşahidə ediriz. Darvinə gəlincə, "Həyəcanların ifadəsi haqqında" ("De l'expression des emotions") namilə yazdığı əsərində son dövr elmi inqilabının qəhrəmanı Şarl Bellin fikirlərini yeni bir nöqteyi-nəzərdən alır və inkişaf etdirir. O da Şarl Bell kibi, o nöqtədən hərəkət edir ki, ibtidada heç bir üzvümüz başlı-başına ifadə üçün yaradılmamış və müstəid deyildi. Əgər bilaxirə ifadəyə qabiliyyət və istedad qazanmışsa, bu üzvlərimizin hərəkəti ilə işarət və ifadə hərəkətlərimizin müvazi olaraq inkişaf etməsindəndir. Sonra Darvin üç prinsip ilə ifadənin bütün dövr və istihalələrini, yəni bir şəkildən digərinə keçməsini izaha çalışır ki, bu prinsiplər də şunlardır:

1) Faydalı, yəni üzviyyətin inkişafına və böyüməsinə yardım edən etiyadın bir-birinə bağlanması, bir-biri ilə sıxı ahəng və rabitədə bulunması;

2) Əksüləməl hadisəsi **(antithese)**, yəni bəzi təsirlərin əks təsir, reaksiyon hüsula gətirməsi;

3) Cümlei-əsəbiyyənin **(systeme nerveux)** məruz qaldığı həyəcanların doğrudan-doğruya üzviyyət, orqanizm üzərinə təsir etməsi.

Əksüləməl hadisəsi və nəzəriyyəsi Darvinin izahında olduqca qarışıqdır. Darvinin fikrincə, bəzi ifadəvi hərəkətlər **(expressifs mouvements)** üzviyyətin qeyri-təbii və yaxud zərərli təsirlərə qarşı yapdığı əksüləməllərdən başqa bir şey deyildir. Kədi (pişik) xoşuna və yaxud təbiətinə müvafiq gəlməyən bir təsirə məruz qaldığı zaman dərhal arxasını qabardır, qollarını və qulaqlarını dikləyir... Halbuki bu hərəkətlərin cümləsi öz-özünü müdafiə və yaxud düşmənə hücum üçün yapacağı hərəkətlərin əksidir. O vaxtda vücud dərhal başqa hərəkətlərə keçir. Darvinin tədai **(association)** nəzəriyyəsi tamamilə Şarl Belldən alınmışdır. Hər hankı bir arzunun tətmini və yaxud hər hankı bir həyəcanın təxfifi üçün üzvünün yapdığı hərəkətlər o qədər kökləşir ki, bu həyəcan və yaxud arzu qayət zəif bir dərəcədə təkrar etsə belə, dərhal hərəkət baş göstərir və yavaş-yavaş artıq duyulmayacaq, yəni etiyadi bir hala gəlir. Bir çox hərəkətlərimiz əcdadımız tərəfindən bizə dövr edilmiş və artıq bizdə tamamilə etiyad və hətta sövqi-təbii halına gəlmişdir. Köpəklər əcdadlarından təmizləmək üçün yavrularını

yalamaq xassəsini almışlardır və yavaş-yavaş bu hərəkət köpəklərdə genişlənmiş və onlarda şəfqətin xarakteristikasının xüsusi bir ifadəsi yerini tutmuşdur. Bunun üçün artıq köpəklər yalnız yavrularını deyil, bəlkə, sevdikləri, tanıdıqları hər kəsi yalamağa tutunurlar.

Eyni surətlə bir şeyə qızmış, yaxud incimiş adam qarşısındakına hücuma qətiyyən niyyəti olmadığı halda, hücum vəziyyəti alır.

Darvinin üçüncü prinsipinə gəlincə, cümlei-əsəbiyyənin üzviyyət üzərinə doğrudan-doğruya olan təsiri orada və pək çox xüsuslarda etiyad (**habitude**) xassələrinə bağlı deyildir.

Damağ şoku **(Cerebro-spinal)**. Cümlei-əsəbiyyəsi həyəcana gəldiyi zaman daima hərəkətə gələn və sərf olunan energiyanın bir qismi boş qalır. İştə həyəcan zamanında ayaqları vurmaq, əlləri sallamaq, bağırmaq, gülmək buradan gəlir ki, zamanilə bu hərəkətlər həcəyanların ifadəsi yerini tutar.

Darvin dilin meydana çıxmasını iştə bu üç xassənin təkamül və inkişafı ilə izah edir.

Bekker və Şleyxer. Bekker "Dilin üzviyyəti" **("Organizm der Sprache")** namındakı əsərində üzviyyəti və üzvi təbiəti dilin anlaşılması üçün bir açar, anaxtar olaraq göstərir.

Başqa "Söz" **("Das Wort")** namilə yazdığı əsərində daha müfəssəl, daha açıq bir surətdə bu fikirləri izah edir:

"Əgər dili üzvi nöqteyi-nəzərdən təhlilə yanaşacaq olursaq, o vaxtda dilin mənşəyi məsələsi qarşımızda şu şəkildə durar. İnsan birinci dəfə nə surətlə bu sifət və xasiyyətini hərəkət və fəaliyyətə gətirə bilmişdir?"

Biliriz ki, nəfəs almaq nəfəs üzvləri vasitəsi ilə qabil olur. Lakin bunların hərəkətə gəlməsi üçün dışdan havanın təsir və təzyiqi lazımdır. Həzm hadisəsində bu rolu qida (yemək) oynayır. Bunu dilə, lisana tətbiq edəcək olursaq deyə biləriz ki, qonuşmaq, söyləmək xassəsi səs üzvlərimiz tərəfindən verilir. Lakin bu səs üzvlərini fəaliyyətə gətirən amil, müəssir nədir? Səs üzvləri digər iradi üzvlər kibi daxili fəaliyyətimizlə hərəkətə gəlir. İradi üzvlərlə səs üzvləri arasındakı fərq yalnız şuradadır ki, iradi üzvlərimiz fəaliyyətə ancaq iradə vasitəsi ilə gəldiyi halda, səs üzvləri fikrin təsiri altında bulunur. Lakin insanın ruhi birliyi, fikir, iradə, duyğu kibi xasiyyətlərin ayrılmasına müsaidə vermədiyindən səs üzvlərimizin hərəkətində iradi və hissi üzvlər olduğu kibi, iradi və hissi hərəkətimiz də ifadəni intac edə

bilir ki, mimika və pantomimanın, yəni sima və vücud hərəkatının ifadəyə xidmət etməsi buna pək gözəl dəlildir.

İnsan hava ilə çevrilmiş olduğu üçün zəruri olaraq nəfəs aldığı kibi, fikir-düşüncə sahibi olduğu üçün də istər-istəməz söyləşir, qonuşur.

Nəfəsalma insanın daxili təşəkkülatının – ciyərlər, qan dəyişməsi, qəlb hərəkəti, nəfəs borusu, qanın hərəkəti və sairə – xarici əlaməti olduğu kibi, iradi hərəkətlər, dil, nitq də fikrin xarici əlamətləri, təzahüratıdır.

Məşhur rus lisançılarından A.A.Potebnya **(А.А.Потебня)** bu fikirlərindən dolayı haqlı olaraq Bekkeri tənqid etmişdir. Bir kərə qonuşma və söyləşməni, nəfəs alma və yemək yeməyi tamamilə üzvi hadisələrlə qiyas etmək doğru deyildir. Nəfəs almaq və yemək üçün bir taqım daxili və üzvi, hətta kimyəvi və hökmi (fizik) amillər və səbəblər vardır ki, nitq, lisan hadisəsində bunu göstərmək qabil deyildir. Məsələn, biliriz ki, nəfəs aldığımız zaman ciyərlərimizdə, yemək yediyimiz zaman ağzımızda, mədəmiz və sair üzvlərimizdə bir çox hökmi və kimyəvi təbəddüllər, dəyişmələr olur. Halbuki bunu, belə üzvi hadisələri nitq, qonuşma zamanında görmək, göstərmək qabil deyildir. Səs üzvlərimizlə fikir arasında belə hava ilə ciyərlər, yemək ilə mədə arasında olduğu kibi tam mənasilə üzvi qanunlara tabe münasibətlər yoxdur. İkincisi, hər kəs bilir ki, tənəffüsdən, nəfəs almadan əvvəl hava mövcud idi. Əcəba, fikirlə nitqdən hankısı əvvəldir? Daha doğrusu, fikirmi dili yaratdı, yoxsa, biləks, dilmi fikiri doğurdu? Bekker bu suala gah müsbət, gah mənfi cavab verir. Yəni belə bir sual qarşısında şaşır. Bəzən hər ikisini də, fikri və dili əkiz, bir arada meydana gəlmiş sayır. Nəhayət, üzvi nəzəriyyəni ilərı sürən Bekkerin fikrini, nəzəriyyəsini izah edərkən gəlib ruhi izahata girişdiyini görməmək qabil deyildir. Şleyxer də eyni surətlə qarışıq və xətalı fikirləri ilərıyə sürmüşdür.

Şleyxer "Avropa dilləri" **("Die Sprachen des Eurupas")** namilə yazdığı, 1850-də Bonnda nəşr etdiyi əsərində: "Dilsiz, sözsüz fikir, vücudsuz ruh kibidir, olamaz", – deyir. Bununla bərabər, fikirlər arasındakı münasibət səslərlə ifadə olunmaya bilir", – deyərək öz-özünə tənaqüzə düşür.

Hecai dillər **(односложный, Syllabique)** qətiyyən əczalara təqsim olunmayan bir vəhdətdir ki, təbiətdə buna kristal qarşılıq gəlir, təqabül edər.

İltisaqi dillər **(приставочный, Agglutinatives)**, yəni sözlər arasındakı münasibəti müstəqil parçalarla qaba surətdə ifadə edən dillər daha ziyadə ondan sonra gələn daha mütəkamil dillər üçün bir zəmin təşkil edirlər və təbiətdə nəbatatı təmsil edərlər.

İnsirafi dillərə gəlirsək ki, bunlar hind və Avropa dilləridir. Burada dürlü münasibətlər müstəqil mövcudiyyəti olmayan şəkilçilər **(affixes)** vasitəsi ilə ifadə olunur ki, belə dillər də hecai dillər kibi bir vəhdət təşkil edirlər. Lakin hecailər əczalarına ayrılmadıqları halda, bunlar, yəni insirafilər əczalarına ayrıla bilirlər və təbiətdə heyvani üzviyyətə qarşı gəlirlər. Halbuki Şleyxerin bu fikrinə əsas təşkil edən təkamül xətti, yəni hecai, iltisaqi, insirafi lisaniyyat elmin son kəşfləri sayəsində tamamilə yıxılmışdır. Bu gün iltisaqi dövrədə gördüyümüz dillər vaxtilə hecai və insirafi, hecailər isə insirafi ola bildikləri kibi, bugünkü hind-Avropa dillərindən bəziləri, məsələn, ingilis lisanı insirafilikdən çıxaraq hecai dillərə doğru getməkdədir. Demək ki, Şleyxerin bir kərə ruh və fikri dilin mənşəyində əsas olaraq alması, bir kərə də üzviyyətlə müqayisə etməsi, nəhayət, üzvi və təbii aləmdə təsbit etdiyimiz cəmadat, nəbatat, heyvanat xəttinə müvazi olaraq hecai, iltisaqi, insirafi dillər təkamül xəttini yaratmaq qabil olmamışdır.

Vilhelm Humbold **(Wilhelm Humboldt)** "İnsan dillərinin ixtilafı haqqında" **("Über die Verschiedeu helt des menschlichen")** namilə yazdığı əsərində dil və onun mənşəyi haqqında şu sözləri oxuyuruz:

"Dil – əsasında daima, hər an qaib olan, dəyişən bir şeydir. O, iş deyil, bəlkə, yalnız fəaliyyətdir. Bunun üçün dilin tərifi də yalnız mənşəyi **(genetique)** ola bilir. Yəni dil ruhun hecalara bölünmüş, təqsim olunmuş səsləri ifadə aləti yapmaq üçün daima təkrar edən fəaliyyətidir".

Eyni əsərin digər bir yerində əlavə edir: "Dili ruhun fəaliyyəti adlandırmaq o cəhətdən də doğrudur ki, ruh özü də əsasən daima təkrar edən fəaliyyətdən başqa bir şey deyildir", – deyir. Lakin fon Humbold[t]un başqa fikirləri bu xüsusda tamamilə daban-dabana zidd tərifləri verir. Hər halda fon Humbold[t] dilin daima dəyişən və təkamül edən bir şey olduğunu bizə göstərməsi dolayısilə Şleyxer və Bekkerə görə dil[in] mənşəyi və mahiyyəti haqqında bugünkü elmə və elmi baxışa daha ziyadə yaxlaşmış isə də, digər tərəfdən, dilin ruh üzərinə təsiri və daima dəyişən dil ilə hər halda dil ilə sabit və hər hankı bir dövr üçün müəyyən olan ünsürləri təlif edəməməsi Humbold[t]u

tənaqüzlərə düşürmüşdür. Humbold[t]un yuxarıdakı fikirləri ilə, məsələn, şu: "Dil fikir təşkil edən üzvümüzdür", – tərifini qarşılaşdıracaq olursaq, bu tənaqüz və qarşıqlığın fərqinə varmaq mümkündür.

Son nəzəriyyələr. Son zamanın nəzəriyyələri arasında Teylor, Vund[t] və Marksın fikirləri ilə tanış olmalıyız. Bu üç nəzəriyyə arasında müəyyən təkamül xətti vardır ki, bunu da qeyd etməliyiz.

Teylorun **(Э.Б.Тейлор)** 1871 sənəsində birinci təbi çıxıb, 1896 sənəsində ruscaya tərcümə edilmiş olan "İbtidai mədəniyyət" **("Первобытная культура")** namındakı əsərində lisana aid çox mühüm qeydlər vardır. Bu əsərin birinci cildində Teylor "Hecai və təqlidi dil" **("Эмоциональный и подражательный язык")** sərlövhəsi ilə yazdığı bəhsində başlıca yuxarıda ismi keçən Şarl de Brossa dayanaraq özündən uzaq təfsilata girişir. Onun bütün fikirlərini burada təfsil ilə söyləmək qabil olmadığından yalnız əsas nöqtələrə işarətlə kifayətlənmək məcburiyyətindəyiz. Teylorun başlıca fikri mədəniyyət tarixini yazarkən insanların keçdiyi, keçirdiyi dürlü mədəniyyət dövrlərini izah etmək üçün dil tədqiqlərinin böyük yardımı olacağıdır.[1]

Teylor bu fikrini izah üçün dili, bilxassə ibtidai insanların və çocuqların dilini iki nöqteyi-nəzərdən tədqiqə qoyur: təqlid və həyəcan **(эмоция и подражание)**.

Təbiət və cəmiyyət insan üzərinə yapdığı təsirləri ilə onda dürlüdürlü həyəcanlar doğurur və insan ətrafında gördüklərini təqlid ilə bu həyəcanları və bunların ifadəsini bənimsəmiş, əldə etmiş oluyor.

İbtidai insanın bu surətlə əldə etdiyi dil, mədəniyyətin və mədəniyyəti tərkib edən ünsürlərin dəyişməsi, ilərilməsi ilə iləriləyir, yaşayır və dəyişir. Xülasə, Teylorun fikrincə, dili mənşə etibarilə təbiətdən və təkamül etibarilə mədəniyyət və cəmiyyətdən ayırmaq mümkün deyildir.[2]

Professor Vilhelm Vundtun **(проф. В.Вундт)** nəzəriyyəsinə gəlincə, onun "Xalqlar ruhiyyatı" **("Völker psychologie")**[3] namilə yazdığı əsərində bu xüsusda çox maraqlı və faydalı fikirlər buluruz. Elə görünür ki, Vundt dilin mənşəyi və mahiyyəti haqqında öz zamanına qədər mövcud olan nəzəriyyələrə görə ilərıyə doğru çox böyük addımlar atmışdır.

---

[1] Söylənilən əsər, I cild, səh. 143.

[2] Yenə orada, səh. 212.

[3] Bu əsər almancadan ruscaya "Элементы психологии народа" namilə Mariya Loyko **(Мария Лойко)** tərəfindən 1913-cü ildə tərcümə edilmiş və Leninqradda basılmışdır.

Vundtun nəzəriyyəsi "təkamül nəzəriyyəsi" **(evolutions theorie)** namilə şöhrət almışdır ki, mahiyyəti şundan ibarətdir: Dilin əsası jestlərdən **(жест)**, təqlidi hərəkətlərdən doğar. Bu hərəkətləri iradə deyil, insiyaq **(инстинкт)** idarə edir. Binaən əleyh şüursuz, iradəsiz hərəkətlərdir. Vund[t] bu soy hərəkətləri dövrdə bular, təqsim edər:

1) Birinci növ hərəkətlər işarət hərəktləridir **(указательные жесты)** ki, ibtidai insanın söz dilindən əvvəl ən ziyadə qullandığı hərəkətlər bunlardır.

2) İkinci dərəcədə eyni mədəni mərtəbədə bulunan insanın qullandığı hərəkətlər şəkli hərəkətlərdir **(обрисовывающие жесты)** ki, burada birinci növ hərəkətlərin daha ziyadə təkamül etmiş şəkli ilə qarşılaşırız. Birinci növ işarət hərəkətlərində insan barmaq ilə, yaxud gözü ilə hər hansı bir şeyi göstərməklə məqsədini anlatmış olur.

İkinci növ şəkli hərəkətlərdə isə əl ilə, çöhrəsi ilə o şeyin şəklinə aid hər hankı bir xüsusiyyəti göstəriyor.

3) Üçüncü növ hərəkətlər ikincilərdən çıxıb ilərilәyir ki, bunlara Vund[t] "təsviri" **(описательные)** deyilir. Bunlarda yalnız işarət və şəkli göstərməklə kifayətlənməyib, eyni zamanda o şeyin xarakteristik nöqtələrindən birisini və yaxud bir kaçını alıb təqlid ediyor.

Vund[t] bu soy təsviri hərəkətlərə misal olmaq üzrə sağır-dilsizlərin "erkək" **(мужчина)** demək üçün "şapkalarını çıxarıb göstərməklərini" alır ki, bununla sağır-dilsizlər Avropa erkəklərinin qadınlara görə ayrılan xüsusiyyətlərindən birisinə işarət etmiş olurlar.

4) Nəhayət, bu soy hərəkətlərdən bəziləri, bəlkə, pək çoxları rəmzi **(символический)** bir mahiyyət qazanırlar ki, bu surətlə daha ümumi fikirləri ifadə etmək imkanı hasil olur.

Bu surətlə hərəkət dili **(язык жестов)**, söz dilinə **(язык слов)** təqəddüm olur. Cəmiyyətin və insanın təbiətə olan münasibətlərinin dəyişməsi ilə insan əl və sima ilə yapdığı hərəkətləri sövti üzvlər ilə yapmağa alışıyor.[4]

Vund[t] bundan başqa, dilin, bir tərəfdən, düşünmə **(мышление)**, digər tərəfdən, cəmiyyət **(общество)** ilə bağlandığını ilərі sürüyor.

Vund[t]un fikrincə, dil bir fərd, bir adam tərəfindən icad edilməz. O bütün cəmiyyətin müştərək, birlik işidir. Digər tərəfdən, insanların heyvan sürüsü **(стадо)** halından çıxıb, ibtidai cəmiyyət **(орда)** halına gəlməsi ilə bağlıdır.[5]

[4] Xalqlar ruhiyyatı (rusca tərcüməsi), səh. 47.

[5] Yenə orada, səh. 42.

Ümumiyyətlə, Vund[t]un fikrincə, lisançı dili mücərrəd bir şey olaraq alıb izah edəməz. Dili cəmiyyətin və həyatın başqa hadisələrindən ayırmaq olmaz. Biləks, dilin şəkli təkamülünə toxunan, aid olan fikirlər, insanın, insan cəmiyyətlərinin və bu cəmiyyətlərdə hökm sürən adətlər və haqların təkamülü ilə bağlanmalıdır.[6]

Vund[t]un fikri, şübhəsiz, əsrimiz[in] elmi və fəlsəfi baxışları ilə tamamilə uyğundur. Vund[t] bu fikirlərlə maddəçilik **(материализм)**, marksçılıq **(марксизм)** üsulunun və bu üsul tərəfdarlarının, marksçıların gəldikləri nəticələrə aşağı-yuxarı gəlmiş olur.

Marksçılıq nöqteyi-nəzərindən dil və onun aləti olduğu düşüncə, ictimai təkamülün meydana çıxardığı iki ümumi üst quruluşdan **(надстройка)** başqa bir şey deyildir ki,[7] bunların dibində olan quruluş iqtisadi, maddi və təbii şərtlərdir.

Cəmiyyət olmadıqca dilin doğması, meydana gəlməsi qabil deyildir.

Lüdviq Navara: "Fikir ilə dilin birlikdə bir məqsədə doğru getməsindən", yəni ibtidai işdən **(из первобытного труда)** doğmuşdur, – deyir.[8]

Dil və fikir də ilərіyə doğru, cəmiyyətin üst qatını, üst quruluşunu təşkil edən başqa ruhi **(идеологический)** hadisə və müəssisələr kibi, təkamül edir, yəni bütün təkamül dövrələrində istehsal qüvvələrinin təsirləri altında bulunıyor. Texnik və aliyyatın ilərіləməsi ilə, genişlənməsi ilə, zənginləşməsi ilə dil də zənginləşir, ilərіləyir.

Həyatın zənginliyi dilin zənginliyini çəkib gətiriyor.

Çobanlıqla məşğul olan xalqların bütün söyləşmələri heyvançılığa aid olıyor. Çünki istehsalın aşağı dərəcədə bulunması bütün həyatı istehsal əməliyyələrinə münhəsir yapıyor və bu surətlə dil doğrudan-doğruya bu əməliyyə ilə bağlı bulunıyor. Əgər istehsal qüvvələri böyüyüb təkamül edərək bu gün mütərəqqi xalqlarda və dünün mədəni hövzələrində gördüyümüz üst qatları **(надстройка)** meydana gətirirsə, o vaxtda dil ilə istehsal əməliyyələri **(процесс)** arasında doğrudan-doğruya mövcud olan bağlar ortadan qalxar və dil artıq istehsal qüvvələri ilə bir taqım uzaq və bir çox başqa üst qat bağları ilə bağlanmış olur. Türk dillərini bu nöqtədən aldığımız zaman ən çox "təmiz

[6] Xalqlar ruhiyyatı, səh. 65.

[7] N.Buxarin. Tarixi maddəçilik nəzəriyyəsi. **(Н.Бухарин. Теория исторического материализма. Москва).**

[8] Lüdviq Navara. Dilin mənşəyi **(Ursprung der Sprache)**, səh. 331.

türkcə" sözlərin heyvan, otlar və silahlara aid olduğunu görürüz. Cəngavər çoban, yaxud köylü xalqların dilləri başqa dürlü də olamaz.

Əmir Əlişir Nəvainin türk dilini fars dili ilə müqayisə yaparkən türkcənin üstünlüyünü göstərmək üçün heyvan, nəbati-təbii və konkret isimləri və sövti təqlidə aid sözləri alması səbəbsiz deyildir. Çünki o, Nəvai bu surətlə köçəbə dili ilə şəhərli dilini müqayisə etmiş oluyordu. Əgər fars dilində bulunan mücərrəd və doğrudan-doğruya təbiət və istehsal ilə bağlanmayan, daha doğrusu, şəhər həyatına aid sözləri alsaydı, şübhəsiz, vəziyyət və nəticə belə olamazdı.

Bundan başqa, dürlü şivələr və hətta ədəbi dilin dürlü dövrləri və təbəqələri tədqiq edilirsə, bunların əsasında iqtisadi, mülki və sinfi qrupların təsirləri hər zaman görüliyor və göstərilə biliyor.

Akademik Y.F.Karski **(Е.Ф.Карский)** 1924 sənəsində nəşr etdiyi "Rus dialektolojisi" **("Русская диалектология")**[9] namındakı əsərinin müqəddiməsində şivə və ləhcələrin meydana gəlməsini icab etdirən səbəblərdən bəhs edərkən bunları "üzvi, ictimai, ruhi" deyə saydığı kibi, şivələrin yalnız müəyyən coğrafi mühitlərə görə deyil, bəlkə, eyni zamanda ictimai təbəqələrə görə də təşəkkül və təkamül etdiyini bildiriyor.[10]

Hər halda bu gün artıq lisaniyyat üzvi təbii, iqtisadi və ictimai amillərin dilin doğmasında və təkamül etməsində oynadıqları rolu gərəyi [ilə] təyin edib göstərmişdir. Yalnız ibtidai insanın dili və onun təkamül dərəcələri və birinci söz dilinin nə şəkildə olduğu ümumiyyətlə ibtidai mədəniyyətin bir çox məsələləri kibi izah edilmişdir.

Xülasə: Qəbləlmilad beşinci əsrdən iyirminciyə qədər keçən iki bin beş yüz illik böyük bir zaman içində dil bilgisi və onun tədrisi üsulu[nun] pək ziyadə dolambaclı bir labirint təşkil edən yolu[nu] quşbaxışı səthi bir surətdə və yalnız ana cizgiləri alaraq gözdən keçirdik.

Yunanilər tərəfindən atılan dil – təbiət, dil – iradə məsələləri İsgəndəriyyə məktəbindən ərəblərə və oradan türk dilini tədqiq edən əski Şərq türkoloqlarına keçmişdir.

Yunanilərdə "anomalist – təzadçı" və "analoqist – tənazürçi", ərəblərdə "kufiyyun" və "bəsriyyun" namlarını alan bu cərəyanlar binlərcə sənə əsas məsələ olaraq dilin şəkilləri ilə təbiətin hadisələri arasında

[9] Академик Е.Ф.Карский. Русская диалектология, Ленинград, 1924.

[10] "Являются они (языковые отличия) и особенностями отдельных сословных групп – из духовенства, напр., и купечества – и развившихся из них мелких этнографических типов".

bir bağ varmı, yoxmu məsələləri ilə uğraşmışlardır. Burada şimdiyə qədər söylədiklərimizi təkrar etməmək üçün yalnız şurasını qeyd edəlim ki, dilin təbiət ilə əlaqəsi olduğunu qəbul edənlər davalarını isbat edə bilmək üçün xalq dilini tədqiq etmişlər və qəbul etməyənlər daha ziyadə klassik ədəbiyyat ilə uğraşmışlardır.

Nəhayət, bu məsələ Darvin, Teylor, Vund[t] və Marksın qoyduqları əsaslar ilə çözülmüş və bu surətlə lisaniyyat da təbiiyyat elmlərinin üsulu ilə çalışan, tədqiq yapan bir elm halına gəlmişdir.

Bu bəhsi öz qeyrəti ilə bir az daha genişlədərək keçən oxucu lisaniyyat elminin başqaları kibi hər dövrdə ictimai, siyasi və mədəni hadisələrlə bağlı olaraq üsul və mündəricə cəhətindən nasıl dəyişmələr keçirdiyini görəcək və başlarından alaraq zamanımıza qədər bütün lisaniyyat dövrləri onun üçün açıq və anlaşılır bir hala gələcəkdir.

Dil və ədəbiyyat tədrisini belə ümumi, fəlsəfi və ictimai dövrlərlə tanış olmayan bir müəllim yalnız üsuliyyat kitablarının tövsiyələri ilə götürəməz və nə üçün filan üsulun elmən qeyri-qabili-təshih olub, başqa birinin nisbətən daha ziyadə həqiqət və məqsədəuyğun olduğunu fərq edəməz. Əsasən bütün üsullar nisbi bir qiymət və əhəmiyyətə malikdir. Bu həqiqət bilxassə mənəvi elmlər, lisan və ədəbiyyat üçün doğrudur. Ən doğru üsul ancaq uzun müqayisə və sürəkli təcrübələrdən sonra seçilə biliyor.

Bu bəhsdə bütün ədəbiyyat istemal olunmamışdır. Məqsədimiz oxucunu fəlsəfə və metafizik bəhslərinin qaranlıqlarına gətirib, ürkütmək deyil. Bəlkə, bu bəhsin başında söylədiyimiz kibi, mühüm nöqtələri bəllətməkdir.

Bu xüsusda bulunan və bəhsdə zikr olunub-olunmayan kitabiyyat məlumatı şundan ibarətdir:

1) Fr. Bacon. De dignitate et augmentis Scientiarum, 1663.
Frensis Bekon. Elmlərin qiyməti və təkamülü haqqında, 1663.
2) Locke. Essai sur l'entendement humain, 1690.
Lokk. İnsanın zehni haqqında, 1690.
3) Leibniz. Nouveaux Essais sur l'entendement humain.
Laybniç. Zehni-insan üzərində yeni təcrübələr.
4) Condillac. Essai sur l'origine des connaissances humaines, 1746.
Kondiyak. İnsan mərifətlərinin mənşəyi haqqında, 1746.
5) Charles de Brosses. Essai sur la formation mecauique des langues, 1765.
Şarl de Bross. Dillərin mexanik təşəkkülatı haqqında, 1765.

6) Adam Smith. Essai sur l'origine du langage.
Adam Smit. Dilin mənşəyi haqqında.
7) Jan Jacques Rousseau. Discours sur l'origine et les foundements de l'ineegalite parmi les hommes, 1753.
Jan Jak Russo. İnsanlar arasındakı müsavatsızlığın mənşəyi və əsasları haqqında nitq, 1753.
8) Jan Jacques Rousseau. Essai sur l'origine des langues.
J.J.Russo. Dillərin mənşəyi haqqında.
9) Le Per Lami. L'art de parler, 1670.
Le Per Lami. Söyləmək sənəti, 1670.
10) Main de Biran. Examen critique des opinion de M.Bonald, 1818.
Men de Brian. Bonaldın fikirlərinin tənqidi, 1818.
11) Frederic Schleger. Essai sur la langue et la sagesse des Indiens, 1808.
Frederik Şleger. Hindlilərin dili və fəlsəfəsi haqqında, 1808.
12) Darwin. De l'expression des emotions.
Darvin. Həyəcanların ifadəsi haqqında.
13) Frederic Schleger. Die Sprachen des Eurupas. Bonn, 1850.
Frederik Şleyxer. Avropa dilləri, Bonn, 1850.
14) Dr.H.von Steinthal. Der urspruug der Sprache. Berlin, 1858.
H.[fon] Steyntal. Dillərin mənşəyi haqqında. Berlin, 1858.
15) Humboldt. Über die Verschiedeu helt des menschlichen Sprachbaues, etc.
Humbold[t]. İnsan dillərinin ixtilafı haqqında.
16) Paul Janet, Gabrielle Seailles. Histoire de la philosophie (Leugaga), Paris.
Pol Jane. Qabriel Seal. Fəlsəfə tarixi (lisan), Paris.
17) А.А.Потебня. Язык и мысль. Одесса, 1922.
A.A.Potebnya. Dil və fikir. Odessa, 1922.
18) Wundt. Völker psychologie, 1912.
Vund[t]. Xalqlar ruhiyyatı, 1912.
19) Д.Н.Ушаков. Краткое введение в науку о языке, издание пятое.
D.N.Uşakov. Lisaniyyata müxtəsər mədxəl.
20) Mühərririn "Türk-tatar lisaniyyatına mədxəl" namındakı əsəri ki, burada Şərq filoloqlarının lisan və mənşəyi haqqındakı fikirlərindən az-çox təfsilatla bəhs olunur. Bakı, 1924.

21) Н.Бухарин. Теория исторического материализма. Москва.
N.Buxarin. Tarixi maddəçilik nəzəriyyəsi. Moskva.
22) Э.Б.Тэйлор. Первобытная культура. С-Петербург, 1896, I и II т.
E.B.Teylor. İbtidai mədəniyyət. Peterburq, 1896, birinci və ikinci cild.
23) Академик Е.Ф.Карский. Русская диалектология. Ленинград, 1924.
Akademik Y.F.Karski. Rus dialektolojisi. Leninqrad, 1924.

DİL BİLGİSİNİN VƏ TÜRK LİSANİYYATININ ƏSASLARI

Son əsrin lisaniyyatı. Türk səslərinin başlıca məxrəcləri. Türk dilinin şəkli əsasları

On doqquzuncu əsrdə, birinci bəhsdə az-çox təfsilatilə zikr və izah etdiyimiz vəchlə, bütün mənasilə bir elm halına gəlmiş olan lisaniyyat artıq gərək sövtiyyat, şəkliyyat və gərəksə cümlə, yəni nəhv haqqında qayət qəti və olduqca açıq əsaslar ilərıyə sürmüşdür ki, türk lisaniyyatı da bu əsaslar üzərinə qurulmuşdur. Gərək dil bilgisinin, gərəksə türk lisaniyyatının əsaslarını bilmədən, hər nərədə olursa-olsun, dil və ədəbiyyat tədrisinə şüurlu surətdə yanaşmaq qabil olamaz. Burada qısadan bu əsasları izah etməliyiz.

Ümumi lisaniyyat hər şeydən əvvəl canlı dili, hər zaman dəyişən və həyat, təkamül qanunlarının təsirinə ən ziyadə tabe və mövzu olan dili tədqiq edər. Çünki yalnız bu surətlə lisaniyyat, dil bilgisi təbiət və həyatın bir parçasını tədqiq və nəticələri etibarilə təbii və həyati qanunların qayət qarışıq və mürəkkəb bir sahəsini, bir köməsini izah və təsnif edə bilir.

Əlaladə məlumat ilə, daha doğrusu, təhlilsiz fikirlər, təftiş olunmamış, sistemə çəkilməmiş rəvayətlərlə yaşayan insan üçün dil ilə ruh, üzviyyət, fikir arasındakı münasibət qayət bəsitdir. Halbuki lisaniyyat bu məsələləri parça-parça ayırmış və lisani hadisələrin hər bir qrupu haqqında təcrübə əsasında müstənəd müfəssəl məlumat vermişdir.

Dil hər şeydən əvvəl üzvi və damağı fəaliyyətimizin zəruri bir nəticəsidir. Burada hər şeydən əvvəl üzviyyətimizin, üzvi təşəkkülatımızın böyük rolu vardır. Əgər damağımız və sövti üzvlərimiz olmasaydı, şübhəsiz, biz dil sahibi olamazdıq. Əskidən bəri dil alimləri sövti üzvlərimizin roluna və səslərin müxtəlif məxrəclərinə nəzər-diqqəti cəlb edə gəlmişlərdir.

Bizim söyləməmiz üçün ciyərlərdən və "diafraqm – hicabi-haciz" namı verilən pərdədən dodaqlarımıza qədər bir çox üzvlərimizin iştirak etməsi lazımdır. Ciyərlərə gedən hava dışarıya çıxmadıqca biz səs çıxarmaq imkanını əldə edəməyiz. Bəzi qəbilələr – Afrikada köpəklər və bəzən ixtiyarlar ciyərlərə gedən hava ilə söylərlər. Lakin ümumi

insan dilini heyəti-məcmuəsi ilə aldığımız zaman bu qayət nadir və müstəsna bir hadisədir.

Xülasə, biz ciyərlərimizdən gələn hava ilə səs və söz meydana gətirə bilərik. Demək ki, ciyərlərimizin söyləməkdə, təkəllümdə fövqəladə böyük rolu vardır. Ciyərlərdən sonra boğazımızda "səs telləri" namı verilən əzələciklər vardır ki, bunlar gərilərək bir-birlərinə yaxınlaşır və bu surətlə ciyərlərdən gələn havanın yolundakı kanal darlaşır və hava sürət, şiddət kəsb edir. Bu dar kanaldan keçərkən hava səs tellərini ehtizaza gətirir və bu ehtizaz səslərə başqa bir xüsusiyyət, ahəng (ton) verir. Halbuki bəzi səsləri tələffüz edərkən bu hal vaqe olmaz. Yəni səs telləri gərilməz və kanal daralmaz. Elə ki, hava sərbəst surətdə keçər, bu növ hava ilə hüsula gələn səslər də bir taqım xüsusiyyətlər alır. Səs tellərinin ehtizazı ilə meydana gələn səslər "sədalı" **(звонкий)**, səs telləri ehtizaz etmədən hüsula gələn səslər "sağır" **(глухой)** namını alırlar. Vəlhasil, səslərin birinci mənbəyi səs telləridir.

İkinci belə bir üzvümüz kiçik dildir ki, ehtizaz ilə bəzi səsləri meydana gətirə bilir. Damaq pərdəsinə **(небесная занавеска)** gəlincə, bunun vəzifəsi gah yuxarı qalxaraq burun dəliyini, gah aşağıya enərək ağız yolunu qapamaqdır ki, bunun hərəkətinə görə hava gah burundan, gah ağızdan çıxar. Yəni adi səslər və burun səsləri meydana gəlir.

Damağa **(palatum, небо)** gəlincə, bunu üç qismə ayırırlar:

1) Damaqarxası ki, buna yumşaq damaq, yaxud velum dəxi deyilir.
2) Damaqortası **"mediopalatum"**, yaxud **"среднее небо"**.
3) Damaqönü **"praepalatum"**, yaxud **"переднее небо"**.

Damağın hər üç qismində ayrı-ayrı tip səslər meydana gəlir.

Bundan sonra səs çıxarmaq və söyləməkdə mədxəldar üzvlərimizdən birisi və olduqca mühümü dişlərdir. Dişlərin arxasında, aralarında meydana gələn səslər vardır ki, bunların adları da "dişarxası, dişarası səslər" olur. Dişlərdən sonra dodaqlar gəlir ki, səs çıxarmaqda, bir az ilərıdə görəcəyimiz vəchlə, bilxassə türk-tatar səslərini meydana gətirməkdə ən mühüm üzvlərimizdən birisidir.

Bütün bu üzvlərdən başqa, hər xalqın gözündə söyləmənin yeganə amili sayılan dil **(langue)** gəlir ki, bu qayət elastiki və şəkildən-şəklə girən bir ət parçasından başqa bir şey deyildir. Dilimizin səs çıxarmaqdakı rolu, bilxassə onun damağın gah arxasına, ortasına və önünə toxunaraq boğazdan gələn səs qarşısında mane və yaxud kanal təşkil etməsi və yaxud ağzımızın gah aşağısında və gah orta və yuxarısında

bulunaraq səslərin mahiyyət və keyfiyyətini tədil və təbdil etməsi ilə alır. Dilin bütün hərəkətlərinə görə səslər dürlü-dürlü namlar olur. İştə bir kaç sözlə, bütün səs üzvlərimiz aşağı-yuxarı bunlardan ibarətdir.

Əgər bunlara az-çox sövti rolu olan yanaqları da əlavə edəcək olursaq, o vaxtda bütün lisanların səs üzvləri şöylə olur: səs telləri, kiçik dil, damaq pərdəsi, damaq arxası, ortası, önü, dişlər, dodaqlar, yanaqlar, dil. Bütün bu saydıqlarımız səs üzvləridir. Bunlar özbaşlarına səs çıxarmazlar. Bunları hərəkətə gətirən digər bir taqım üzvlərimiz və yaxud xasiyyətlərimiz daha vardır ki, bunlardan da bir kaç sözlə bəhs etməliyiz.

Bunlardan ən mühümü cümlei-əsəbiyyəmizdir ki, bütün vücudumuzda olduğu kibi, sövt üzvlərimizin hərəkətə gətirilməsində pək böyük rolu vardır. Məlum olduğu üzrə, sövti üzvlərimiz cümlei-əsəbiyyəmizin təsiri olmadan fəaliyyət göstərməz. Cümlei-əsəbiyyəmiz isə bir-birinə müvazi iki şəbəkədən ibarətdir ki, bunlardan birisi hissləri, dışdan olan təsirləri damağımıza götürür. İkincisi də damağımızdan verilən əmrlərə görə üzvlərimizi hərəkətə gətirir. Hissi əsəblərin fəaliyyəti nəticəsində ehsaslar **(ощущение)** meydana gəlir. Hissi əsəblərin hər biri kəndinə məxsus mərkəzlərə malik olub, buna da "hissi mərkəz" **(чувствующие – цензурные)** təbir olunur. Hər hissi mərkəzə qarşılıq bir hərəkət mərkəzi vardır ki, bunun əsəblərinə hərəkətetdirici **(моторные)** təbir olunur.

Bu surətlə damağımız bir teleqraf alətinə, aparatına bənzər ki, göndərici və qəbuledici alətləri birlikdə, müvazi surətdə çalışır. Qonuşulan, söylənən şeyi eşitməkdə, yaxud qarşımızda cərəyan edən şeyi görməkdə, nəhayət, tənimizə toxunan şeyi duymaqda həp hissi əsəblərimizin rolu olduğu kibi, sövti üzvlərimizi hərəkətə gətirmək, məsələn, dilimizi, dodaqlarımızı oynatmaq da hərəkət əsəblərimizin fəaliyyətinə bağlıdır. Bu surətlə söyləmək hadisəsi insanın həman bütün üzviyyətini işğal edən bir fəaliyyətdir və qayət nazik, qarışıq bir əməliyyədir. Hər hankı bir səsin tələffüzü üçün hərəkətə, fəaliyyətə gəlməsi lazım gələn əsəblərin yekununu və bunların fəaliyyəti nəticəsində sərf olunan qüdrəti – enerjini nəzəri-etibara alacaq, o vaxt da söyləşmə əməliyyəsinin nə qədər saysız və hədsiz amillərə bağlı olduğu kəndi-kəndiliyindən meydana çıxar.

Söyləmək hər çocuqda gərək ruhi, gərəksə üzvi cəhətdən müəyyən inkişaf dövrəsi keçirir. Çocuqlar birdən-birə hər səsi tələffüz edəmədikləri kibi, böyüklər kibi hər cümləni tərtib və hər sözə böyüklərin

rəbt etdikləri mənanı rəbt edəməzlər. Bundan anlaşılır ki, söyləmək ruhi və üzvi fəaliyyətimizin təkrarlanmasına və etiyad halına keçməsinə möhtacdır.

Ümumi lisaniyyat bütün bu söylədiklərimizdən başqa, hər dilə məxsus bir taqım hadisələri daha qeyd etmişdir ki, burada bir kaçını zikr etməliyiz. Ötədən bəri rus və Avropa məktəb sərflərində bəsit və qeyri-elmi bir tərzdə olsa da, qeyd olunduğu halda, türk-tatar sərflərində ismi belə çəkilməyən təmsil – uydurma **(assimilation)** hadisəsinə nəzər-diqqəti cəlb etmək istəyiriz. Bu hadisəni məktəb sərflərində bir səsin digər bir səs üzərinə olan təsiri deyə izah edirlər. Halbuki səsin səs üzərinə təsiri olmaz. Burada məsələ daha ziyadə insanın tələffüz vaxtında məruz qaldığı bəzi ruhi təsirlərdən başqa bir şey də deyildir. Məsələn, türk-tatar şivələrində hər zaman və hətta hər yerdə rast gəldiyimiz *anlar* = *annar*, *anlamaq* = *annamaq* və sair bunlar kibi bir çox sözləri gözdən keçirəcək olursaq, bu hadisənin türk-tatar dillərində, bəlkə, başqa hər dildən ziyadə hökm sürdüyünün fərqində oluruz. Əcəba, hər dildə, yəni hər söyləyən adamın üzərində təsirini göstərən bu hadisənin həqiqi və əsil səbəbi nədir?

Bunun səbəbini insanın cümlei-əsəbiyyə və üzviyyətinin yapılışında və fəaliyyətində aramalıdır.

Məsələn, yuxarıda qeyd etdiyimiz misallarda damağımızda hərəkət əsəbləri mərkəzi *anlar* sözündəki [n] səsini tələffüz edərkən dilimizi diş arxasına **(альвеоль)** yapışdırıb və dodaqlarımız vasitəsi ilə ağzımızdan hava çıxmasında mane olub, havanı burundan çıxarır, yəni bunun üçün lazım gələn əzələləri hərəkətə gətirir[iz]. Lakin bu zamanda [n]-dan sonra gələn [l] səsini tələffüz etmək üçün lazım gələn hərəkəti yapmağa meydan bulamadan ikinci səsi də eyni vəziyyətdə tələffüz edir[iz]. Yəni hərəkət mərkəzimiz əzələlərimizə [n] tələffüzü üçün yapdıqları hərəkətləri təkrar etdirir və bu surətlə bir-biri arxasından iki dəfə [n] səsi tələffüz olunmuş olur. Çox zamanlar belə hallar dildə heç bir iz buraxmadan silinib gedirlər. Bəzən isə də, *anlar* = *annar* misalında gördüyümüz kibi, dildə təməlləşir və ümumi bir hadisə şəklinə girirlər. İştə təmsil hadisəsinin ruhi və üzvi səbəbi qısadan belədir. Bəzən bunun, yəni təmsil hadisəsinin əksi olur. Məsələn, *molla*, *Allah* kibi sözlər qırqız-türk şivəsində *molda*, *Alda* şəklini alır.

Burada iki [l] səsinin rast gəlişindən hasil olan təkrar bu surətlə dəf olunur.

Təmsil hadisəsi, bütün Ural-Altay və yaxud iltisaqi dillərdə olduğu kibi, türk-tatar dillərində də fövqəladə əhəmiyyəti haizdir. Çünki bizim dilimizin əsası, skeleti bu təmsil hadisəsi nəticəsində meydana çıxmışdır. Türk dillərində, başqa Ural, Altay dillərində olduğu kibi, bulunan ahəng, geniş mənadakı təmsil hadisəsindən başqa bir şey deyildir. Bu da sözün birinci hecasının sonrakı hecaya təsirindən ibarətdir.

Türk dillərində sözün sövti xarakterini birinci heca təyin edər. *Balta, sapla, bala, ağac, üzüm, gözəllik, quru, uzun...* belə sözlərdir.

Bu surətlə türk sözləri yalnız damarla şəkilçinin münasibəti nöqteyi-nəzərindən deyil, bəlkə, bir söz, daha doğrusu, damar içərisindəki hecaların bir-birinə olan bağı nöqteyi-nəzərindən də iltisaqi dillərdir. Başqa sözlərlə, türk sözünün hecaları saitlər cəhətindən müsavi parçalara ayrılırlar.

Avropa alimlərinin "saitlər ahəngi" **(vocalharmonie)** təbir etdiyi qanun iştə budur. Burada bir çox türk sözlərinin birhecalı olduğuna diqqət etməlidir.

Bu heca da əksəriyyən bir samit, bir də saitdən ibarətdir. Başda heç bir zaman iki heca bir yerdə rast gəlməz. Sözün sonunda da pək nadirdir. *Bərraq* sözü belə nadir sözlərdən birisidir.

Ahəng türkcədə iki dürlüdür:

1) Birincisi damaq **(palatum, небо)** ahəngidir ki, burada səslər damaq səsləri olub-olmadıqlarına [əsasən] bir-birini təqib edərlər. Məlum olduğu üzrə, türkcə türk dillərində rast gəlinən şu səslər damaq səsləri **(небные)** sayılır: *e, i, ö, ü* ki, bunları *ver, biz, göz, üzüm* sözlərindən bula biliriz.

Damaq səsləri olmayanlar **(ненебные)** da şunlardır: *a, ı, o, u* ki, *ağac, qırmızı, ortaq, quru* sözlərində bu səsləri bula biliriz.

İştə damaq ahənginin qaydası bu sözlərə görə təyin edər. Yəni damaq səslərindən sonra damaq səsləri, damaq səsi olmayan saitdən sonra eyni cinsdən saitə gələ bilir. Məsələn, *ekin, ölüm, əyri...* bu qəbildəndir. Biləks, *qaranlıq, quraqlıq, qırğın...* kibi sözlərdə damaq səsi olmayan saitdən sonra eyni cinsdən digər bir saitə gəlir.

Bundan başqa, bir də dodaq səsləri ahəngi **(губное притяжение)** vardır ki, burada ahəng, yəni hecaların bir-birini təqib edən saitləri damaq səsi olub-olmadığına görə deyil, bəlkə, daha başqa bir əsas, yəni dodaq səslərinə görə bir-birinə uyar. Dodaq səsləri türk-tatar dillərində başlıca şunlardır: *o, ö, u, ü.* Məsələn: *üzüm, uzun...* i.a.

Bu soy ahəng ümumiyyətlə türk dil və şivələrində pək az görülməkdədir. Bu ahəng Ural-Altay dillərindən macarca və türk-tatar şivələrindən Altay və qaraqırqız şivələrində daha ziyadə təsirini göstərməkdədir.

Türkoloji tədqiqatı bunlardan başqa, türk dillərinin morfoloji-şəkliyyatına aid ümumi əsasları artıq olduqda açıq və müəyyən tərzdə meydana çıxarmışdır. Biz burada yalnız şurasını qeyd edə biləriz ki, türk dili iltisaqi dillərdəndir. Yəni sözün şəklindəki təbəddül-dəyişmələr damarın sonuna yapışdırılan, əlavə olunan şəkilçilər **(affixe)** vasitəsi ilə olur. Bu şəkilçilər də hind və Avropa dillərində olduğu kibi iki dürlüdür: birisi sözün mənasını, mövzusunu dəyişdirir, digəri daha ziyadə bir sözün digərinə olan münasibətinə təsir edir. Birincisinə "sözyapıcı" **(словообразующий)** dediyimiz halda, ikincisinə "sözdəyişdirici" **(словоизменяющий)** deyə biləriz. Fransız sərflərində birincisinə doğrudan-doğruya son şəkilçisi **(suffixe)**, ikincisinə "ədat" **(desinence)** təbir olunur.

Bu şəkilçilər arasında gərək vəzifə və gərəksə təsir nöqteyi-nəzərindən olduqca böyük fərq vardır. Şöylə ki, sözyapıcı şəkilçilər sözün mənasını dəyişdirdikləri, yəni əlavə olunduqları sözdən başqa bir söz meydana gətirdikləri halda, sözdəyişdirici şəkilçilər yalnız sözlər arasında olan münasibətləri dəyişdirir, yəni dürlü-dürlü surətdə sözləri bir-birinə bağlarlar. Bunun üçün birincilərə "sərfi şəkilçilər" deyildiyi halda, ikincilərə "nəhvi şəkilçilər" namı da verilir.

Türkcə sözyapıcı və dəyişdirici şəkilçilər ümumiyyətlə bütün türk-tatar şivələrində müştərəkdir. Buradan şu mühüm nəticə çıxır ki, türk-tatar dillərinin şəkliyyat, morfoloji cəhəti hənuz bir-birindən ayrılmamışdır. Bundan başqa, türk-tatar şivələrində bu şəkilçilərin yardımilə ümumi və hər kəs üçün anlaşıla biləcək istilahlar yapmaq mümkün və qayət qolaydır. Yetər ki, əsas etibarilə bu xüsusda müxtəlif məmləkətlərin mədəni və elmi təşkilatları arasında lazım gələn ahəng vücuda gətirilsin.

Sözyapıcı şəkilçilərə misal:

-yıq (qay + yıq = *qayıq, çarıq, yanıq...* sözlərində)

-an (*çalışan, quran, vuran* sözlərində)

Sözdəyişdirici şəkilçilərə misal:

-dən (*evdən, sözdən, gözdən, bizdən*)

-də (*məndə, bağçada, gözdən, göldə...*)

Türk sözlərinin şəkli sxeması, skeletini bu surətlə vermək mümkündür:

damar + sözyapıcı şəkilçi + sözdəyişdirici;
göz + lük + dən = gözlükdən.

Nə tarixi dövrlərində, nə də bugünkü türk şivələrinin hər hankı birisində bu tərtibin pozulduğunu görmək qabil deyildir. Məsələn, türkcədə *söz + dən + lük*, yaxud *dən + göz + lük* kibi tərtibində sözlər olmamışdır və bəlkə, heç bir zaman, yəni dilimiz iltisaqi qaldıqca olmayacaqdır. İştə bunun üçün bu qanuna türk dilinin "skelet qanunu" demək olur.

İştə türk dilini yeni üsul, daha doğrusu, elmi üsul üzərinə tədris etmək istəyən müəllim bu surətlə lisaniyyat qaydalarını və türk lisaniyyatı əsaslarını gözəlcə bilməlidir. Çünki ən gözəl dil tədrisi üsulu ən çox lisaniyyat qaydalarına uyandır.

Biz burada yalnız ahəng və şəkilçi məsələlərini qeyd etdik. Bu xüsusda daha ziyadə məlumatı oxuyucu, bir tərəfdən, şərf və sövtiyyatın tədrisindən bəhs edərkən, digər tərəfdən də, bu məsələlərə həsr edilmiş əsərlərə müraciətlə əldə edə bilir.

Kitabiyyat məlumatı üçün mühərririn "Türk-tatar lisaniyyatına mədxəl" ünvanlı əsərinə, yaxud professor Uşakov və Purjezinskinin "Lisaniyyata mədxəl" əsərlərinə müraciət etməlidir.

DİLİN MƏKTƏBLƏRDƏ ƏSKİ VƏ YENİ MÖVQEYİ

Türk dilinin məktəblərə girməsi, dil ətrafında mərkəzləşdirmə, məktəblərdə dil tədrisinə yeni baxış, etirazlar və cavablar

Türk dili daima məktəblərdən dışda, elmi tədqiqlərdən uzaqda yaşayıb gəlmişdir. Türk dili kibi əcib və təbir caizsə, qeyri-təbii vəziyyətdə qalmış bir dil daha dünya üzündə yoxdur, – dersək yanlış olmaz. Çünki hər xalq hər hankı bir dövrdə mədəniyyətə girər-girməz, yaxud yazı yazmağa, kitab təlifinə və məktəblər qurmağa başlar-başlamaz öz dilini az-çox işləməyə, inkişaf etdirməyə çalışmışdır. Halbuki türk-tatar xalqları başqa mədəni Avropa millətləri ilə bərabər, yazmağa, oxumağa başladığı halda, türk dili ancaq on səkkizinci və on doqquzuncu əsrlərdən başlayaraq məktəblərdə, o da pək ağır bir yürüşlə özünə yer almağa başlamışdır. İştə bunun üçün türk dilinin məktəblərdəki yeri haqqında çox-çox söz sərf etmək lazım deyildir. Hər nə qədər daha onuncu hicri əsrin başlarında, məsələn, 937 sənəsində artıq türk dili sərfləri yazılmağa başlamışsa da, bu sərflər məktəbə girmədikdən başqa tamamilə unudulmuşdur. Məsələn, Berqameli Qədri əfəndinin "Meysərətül-ülum" namilə yazdığı sərf ondan sonra gələn bir çox başqa bunun kibi kitablarla bərabər şu taleyə uğramışdır.

Rusiya türk-tatarları arasında türk dilinin tədrisi, yanılmayırsaq, Petronun 18 iyul 1700 sənələrində ruslara Şərq dillərini öyrənmək haqqında verdiyi fərmandan sonra başlaya bilmişdir. Ona qədər mövcud olan Səmərqənd, Buxara, Qazan, Krım, Dağıstan və Azərbaycan mədrəsələrində və dini məktəblərdə türk dilinin tədris olunduğuna dair əlimizdə məlumat yoxdur. Türk dilinin on beşinci əsrdə müəzzəm və dahi tərbiyəçisi və Şərq ədəbiyyatında türk dilinə layiq olduğu yerin verilməsi yolunda ən kəskin və şiddətli davanın sahibi Əmir Əlişir Nəvai də bu xüsusda yazdığı "Mühakəmətül-lüğəteyn" namındakı əsərində türk dilinin mədrəsələrə girməsi, dərs olaraq oxudulması haqqında heç bir şey söyləmir.

Əmir Əlişir Nəvaidən də əvvəl türk dilinin inkişaf etdirilməsi, elmiləşməsi xüsusunda pək böyük və pək mühüm bir əsər meydana qoymuş olan Mahmud ibn Hüseyn ibn Məhəmməd Kaşqarinin 466 hicri sənəsindən qalma "Divani-lüğatit-türk"ü müqəddiməsində türk

dilinin təlim və tədrisi haqqında daha da açıq işarətlər vardır. Netə kim, Mahmud Kaşqarinin Nişabur və Buxara imamlarından alaraq nəql etdiyi şu تعلموا لسان الترك فان لهم ملكا طوالا "Türk dilini öyrəniniz. Onların dövləti qəvidir. Uzun sürəcəkdir" hədisilə bərabər əqibində kəndisi də əlavə edər: فيكون تعلمه واجبا و لئن لم يصح فالعقل يقتضيه.

(Demək ki, onun – türkcənin öyrənilməsi borcdur, zəruridir. Əgər bu hədis doğru, səhih deyilsə, ağıl onu icab etdirir ki, bu hədisin ifadə etdiyi fikir doğru olsun).

Bu qeydlərdən anlaşıldığına görə, türk dilinin öyrənilməsi, təlim və tədris olunması məsələsi artıq miladi on birinci əsrdə ciddi bir məsələ şəklini almışdı. Lakin məəttəəssüf, bu cərəyan nə Orta, nə də Kiçik Asiyada bəklənilən nəticələri verməmiş kibi görünür. Yəni türkcə mədrəsə dili, təlim-tədris aləti olmamışdır. Burada bir çox ərəb və fars müəllif və alimlərinin türk dili tarixi haqqında əsərlər yazdığını, şübhəsiz, unutmıyoruz. Yalnız bizim söyləmək istədiyimiz tamamilə başqa bir şeydir. Türk dilində mədrəsə ədəbiyyatı yoxdur və olmamışdır. Fəlsəfə, şəriət, hüquq, lisaniyyat, ülumi-təbiiyyə, bir sözlə, ülumi-əqliyyə və nəqliyyə mədrəsələrimizdə, bu gün daha bir çox türk ölkələrində olduğu kibi, ərəbcə keçilirdi. Hətta fars dili belə bu xüsusda böyük bir həqq və mövqe qazanmamışdır. Lakin saraylar, bilxassə təkyələr, xanəgahlarda fars dili olduqca mühüm bir yer qazanmış və bir çox ölkələrdə və dürlü dövrlərdə ərəb dilinə də təvəffüq etmişdir.

Türk dili elmi bir dil, türk ədəbiyyatı nümunəlik, klassik bir ədəbiyyat olaraq tanılmamışdır. "Kutadqu bilik" öz dövründə Orta Asiyada az-çox təsir yapmış[1] və bundan sonra gələn uyğur-cığatay, Osmanlı, özbək şairləri bu təsiri daha ziyadə dərinləşdirə bilmişsələr, bu ancaq türk xalqlarının öz dillərini yaşada bilmələri ilə, canlı türk dilinin inkişaf edə bilməsi ilə meydana gəlmişdir.

Türk təsəvvüf ədəbiyyatı az-çox xanəgah və təkyələrdə tutuna bildiyi kibi, saraylarda da qəsidə, qəzəl növləri yaşamış və olduqca ilərləmişdir.

[1] V.Bartoldun "Türküstan tarixi" namilə yazdığı kiçik bir əsərində şu sözləri [oxuya] biliyoruz: Şimdiyə qədər "Kutadqu bilik"in pək az nüsxələri haqqında məlumat əldə edilmişdir. Şunun ilə bərabər, 1909-cu ildə Ural mənsəbində Sarayçıq qəryəsində bulunan əşya arasında üzərlərinə bir az dəyişdirilib "Kutadqu bilik" cümlələri yazılan çömlək qablar bu əsərin intişarı zənn edildiyi qədər az olmadığını göstərməkdədir. "Türkistan tarixi" (Fateh Kərimi tərcüməsi), 1924, Moskva.

Vəlhasil türk dili Rusiyada, yuxarıda söylədiyimiz kibi, 1700 sənəsində Petronun verdiyi fərmanla və 1744 sənəsində Orenburqda açılmış olan tatar-kalmık məktəbi **(Татарско-калмыцкая школа. История изучения Востока в Европе и России. В.Бартольд. Ленинград, 1925 г.)** namilə açılan məktəblər vasitəsilə başlamışdır.

Türkiyəyə gələcək olursaq, burada türk dilinin məktəblərdəki yeri şaşılacaq qədər təməlsizdir. Türkiyədə türkcə tədrisat məsələsi ancaq keçən əsrin başlarında meydana çıxmış və qayət ağır addımlarla məktəbə və elmə girə bilmişdir.

"Maarifi-ümumiyyə nəzarəti tarixçei-təşkilat və icraatı" namilə 1338 sənəsində darülfünun ədəbiyyat şöbəsi müdərrislərindən Mahmud Cavad ibn Şeyx Nafe tərəfindən nəşr edilən maarif müəssisələrinə aid vəsiqələr məcmuəsi bizə bu xüsusda kafi miqdarda məlumat verməkdədir.

Bu məcmuəyə görə, təhvili-ibtidaini qayət mühüm bir tərzdə, müəllifin dediyi kibi, məcburi qılan deyil, əhaliyə faydalı və zəruri bir şey olaraq təklif və tövsiyə edən fərman ancaq Osmanlı inqilabının başlanğıcı sayılan hicri 1241 sənəsindən bir il əvvəl, yəni 1240 sənəsində nəşr olunmuşdur.

Bu fərmanda ülumun təhsili dinin və şəriətin inkişafı ilə rəbt olunaraq izah olunmaqda və hər kəsin "əmri-dində şərmü həya caiz olmadığına binaən şimdiyə qədər cahil qalmış olan gənc və ixtiyar, bilcümlə ümməti-Məhəmməd cahilliyin darında vəxamətini düşünüb və bu babda bir-birindən utanmayaraq həman həqdən utanıb kəndiləri bulundıqları kari-kəsb və sənət və xidmətləri arasında bilmədikləri məsaili-diniyyə və əqaidi-islamiyyələrini dəxi öyrənib bilməklə həsbül-imkan səy və qeyrət və ol vəchlə kəndilərini darın səlamətliyinə dair görməkliyə sərfi-vəs'i və müqəddərat eləmələri fərizei-öhdeidiyanətləri olduğundan başqa fimabə'd hər kəs övladlarını mərahiq dərəcəsinə varmadıqca və elmi-hal və şəraiti-islamiyyəsini layiqilə təəllüm etmədikcə məktəbdən alıb ustaya verməmək" lazım gəldiyi eyni fərmanda təkrar-təkrar qeyd olunaraq, bu cəhətə diqqət etmək vəzifəsi də qazılar və imamların boynuna yüklədilməkdə idi. Fərmanın sonuna doğru o vaxtdakı məktəblərin dərs proqramlarına da qısadan işarət olunmaqdadır. Buna görə bu soy ibtidai məktəblərin dərsləri, fərmanın təbirincə, "Qurani-əzimüş-şanı təlim əqəbində hər bir çocuğun heysiyyət və istedadına görə təcvid və elmi-hal kibi risalələr"dən ötəyə keçəmiyordu.

1267 sənəsində Rüşdiyyə məktəblərinin imtahan cədvəlində ərəbi, farsi, hesab, hikməti-təbiiyyə, heyət, coğrafiya və həndəsə fənlərinin bulunduğunu görürüz ki, burada türk dili haqqında heç bir qeyd təsadüf olunmıyor.

Yalnız eyni ildə Darülmaarif məktəbində vüqu bulan təntənəli qüşad rəsmində "müstəşar sədri-ali, ütufətli Fuad əfəndi həzrətləri ilə müdərrisini-girami və məclisi-maarif əzasından Əhməd Cövdət əfəndinin əsasi-təhsili-maarif olan lisani-türkinin qəvaidini şamil-tərkib və təlif elədikləri kitabi-nəfisi-bimisl"i bu məclisdə təqdim etdikləri və hər kəsin alqışını qazandıqlarını oxuyuruz. Hər nə qədər bundan əvvəl, yəni 1262 sənəsində Xacə Əbdürrəhman Fövzi namında kutahiyəli bir zat "Miqyasül-lisan və qüstatül-bəyan" namındakı əsəri ilə, bizim bildiyimizə görə, Berqameli Qədri əfəndidən sonra ikinci Osmanlı sərfini yazmışsa da, bunun Cövdət və Fuad paşaların sərfi qədər təsiri olmamışdır.

İştə birinci "Qəvaid", yəni sərf kitabı türkcədə Cövdət və Fuad paşaların təlifi olan "Qəvaidi-osmaniyyə" namındakı əsərdir ki, türkcə dərs olaraq ancaq bu zamandan sonra Türkiyə məktəbləri proqramına girə bilmişdir.

Cövdət paşanın bundan başqa "Mədxəli-qəvaid" və "Qəvaidi-türkiyyə" namilə iki əsəri daha vardır ki, bilaxirə yazılmış olan sərf kitablarına əsas təşkil etmişdir.

Cövdət paşa bu əsərində, bir tərəfdən, məşhur ingilis mütsəşriqlərindən Radhausun **(Radhaus)** "Osmanlıcanın müqayisəli sərfi" namilə 1846-da yazmış olduğu sərfdən və yaxud ümumiyyətlə birinci Türkiyə maarif məclisi olan "Əncüməni-daniş"in əzayi-xariciyyəsindən olub, bir çox illər Türkiyədə "sədarət və xariciyyə tərcümanı", sonra İran ilə Türkiyə, Türkiyə ilə İngiltərə arasında siyasi vasitəçi kibi rollar oynayan bu zatın fikirlərindən faydalanmış olduğu kibi, digər tərəfdən, əsərinə əsas olaraq Sədəddin Təftazaninin "Məaniyi-müxtəsər şərhi"ni almışdır. İştə Cövdət və Fuad paşaların bu əsərləri meydana çıxdıqdan sonra artıq bəzi məktəblərin dərs proqramlarında (məsələn, 1290 hicri sənələrinin darülmüəllimat və ünas rüşdiyyələri) ərəbi, farsi, fransızca dərsləri sırasında "qiraətit-türkiyyə və imla" dərsinin də yer aldığını görürüz. Bununla bərabər, hər iki məktəbdə də (ünas-rüşdiyyəsi və darülmüəllimat) türkcə ərəbi və farsiyə görə bir il az oxunurdu.

Məsələn, darülmüəllimatda ərəbi-farsi birinci sinifdən üçüncüyə qədər davam etdiyi halda, türkcə yalnız ikincidən başlar. Ünasi rüşdiyyələrində isə dörd sinifdə də bulunan ərəbi və farsiyə qarşılıq türkcə yalnız üçüncüyə qədər davam edərdi.

Rusiya türk-tatarlarının məktəblərində də həman aşağı-yuxarı bu vaxtlarda türkcə dərs olaraq girməyə başlamışdır. Bu təbdili, zənn edirəm ki, şimalda Qəyyum Nasirinin, cənubda İsmayıl Qasprinskinin adları ilə başlamaq lazım gəlir.

Buralarda oxudulan türk sərflərinin tərtib üsulu haqqında bir kaç yerlərdə yazmış və söyləmişdik. İki sözlə burada təkrar edəcək olursaq, yenə də bu sərflərin ərəb sərfləri nümunəsi üzərinə yazılmış olduğunu qeyd etməliyiz. Bundan başqa, türk dilinin bu məktəblərdə mövqeyi yalnız kitabət, inşa və qiraətinə yardım ilə bağlı olduğundan və başqa tərəfdən, məktəblərdə əldə edilməyə çalışılan ədəbi dil, bir dəfə daha söylədiyimiz kibi, türkcə fellər islam farsisindən ibarət olduğundan türk dilinin ümumiyyətlə dərs proqramındakı, məktəb həyatındakı yeri fövqəladə kiçik idi.

Avropa və rus məktəblərində on doqquzuncu və iyirminci əsrlərdə bütün tədrisat ana dili və milli ədəbiyyat ətrafında mərkəzləşdirdiyi, toplandığı halda, bizim türk-tatar məktəblərində hər şey daha ziyadə din və ən nəhayət, liberal dinçiliyə aid əqidələr və bunların türk-islam məktəblərində yeganə istinadgahları olan ərəb və fars dilləri, ədəbiyyatları ətrafında toplanırdı. Bunun üçün bizdə rus və Avropa məktəblərində olduğu kibi dil və ədəbiyyat ətrafında mərkəziləşdirmənin **(концентрация преподавания вокруг изучения родного языка)** leh və əleyhində söyləyənlər olmamışdır.

Məsələn, avropalılar və ruslar arasında Qildebrand[t] **(Гильдебрандт)**, Olerta **(Олерта)**, K.D.Uşinski **(К.Д.Ушинский)**, Buslayev **(Буслаев)** kibi pedaqoq və lisançılar birinci və ikinci dərəcə məktəblərdə tədrisatın ümumiyyətlə ana dili və milli ədəbiyyat ətrafında toplanılmasını təklif etmişlərdir.[12]

Bunlardan Uşinski bu xüsusda şu sözləri söyləyir:

"Dildə xalqın ruhu, onun yurdu, bu yurdun təbii xüsusiyyətləri, iqlimi, havası, urmanları, fırtınaları... vəlhasil xalq şairlərinin əsərlərində rast gəldiyimiz bütün dürlü duyğular, xəyallar həp əks edir. Xalq dilinin şəffaf, aydın dərinliklərində yalnız bir təbiət, təbii yurd deyil,

[12] К.Н.Соколов. Методы комплексного преподавания. Москва, 1924 г., изд. 5-е.

bəlkə, eyni zamanda o dili qonuşan, söyləyən xalqın bütün tarixi, bütün o vaxta qədər keçirmiş olduğu acı-dadlı dövrlər gözümüz önündə açıq cizgilərlə cızılır, canlanır. Nəsillər bir-biri arxasından gəlib-keçirlər. Lakin dildə onların həyatı, duyğuları, həyəcanları bizə miras olaraq qalır. Dil yaşayıb keçən, yaşamaqda və yaşanacaq olan nəsilləri bir-birinə sıxı surətdə bağlayan ən qəvi, ən canlı bağlardan birisidir. O dil yalnız xalqın həyatını ifadə etməz. Bəlkə, eyni zamanda onun özü həyatdır. Xalq dili ortadan qalxmaqda onu – dili söyləyən xalq özü də ortadan qalxar. Bunun üçün bir xalqın dilini almaq, yox etmək istəyən zülm və cəbrdən daha ağır bir zülm yoxdur. Çünki bu surətlə yüzlərcə nəslin meydana gətirdiyi əsər ortadan qaldırılmaq istənir. Bir xalqdan hər şeyi alınız. O təkrar onları əldə edə biliyor. Lakin dilini alsanız, heç bir zaman artıq bir dəfə də onu yaradamaz, meydana gətirəməz. Hətta xalq yeni yurd bula bilir, yalnız artıq öz dilini bir daha bulamaz.

İştə bu surətlə dil xalq həyatının tam və mükəmməl bir tarixçəsi, təqvimi olduğu kibi, eyni zamanda xalqı tarixinin sonuna qədər kitabsız və məktəbsiz oxudan, öyrədən bir öyüdçüdür. Xalq dilini öyrənməklə hər yeni nəsil artıq çoxdan torpağa keçmiş, çürümüş olan nəsillərin fikirlərini, həyəcanlarını, məsələ və məqsədlərini bənimsəmiş oluyor. Bu dil çocuğa heç bir təbiətçinin verəməyəcəyi təbii bilikləri, heç bir filosofun öyrətməyəcəyi dərin, fəlsəfi nəzərləri veriyor.

Xalq dili, ana dili yalnız öyrətməklə qalmayır. Eyni zamanda pək çabuq, pək qolay, hətta doyurmadan, yormadan öyrədir, bildirir. Çocuq dili öyrənməklə yalnız sözləri öyrənmiş olmur. Bəlkə, eyni zamanda bu sözlərin dəlalət etdiyi maddələri, əşyanı da tanıyır. Çocuq iki-üç il içərisində zəhmətsiz, xəbəri olmadan o qədər çox şey öyrənir ki, biz bu qədər fikri, duyğunu üsuli və daimi mütaliələrlə iyirmi-otuz il içində əldə edəməyiz. İştə bu böyük xalq müəllimi – xalq dili belədir".

Məktəblərdə tədrisatın dil və ədəbiyyat ətrafında mərkəziləşdirilməsi xüsusunda yuxarıda isimlərini zikr etdiyimiz digər alimlərin fikirlərincə, çocuqlar məktəbə gəldikləri zaman nə coğrafiya, təbiiyyat, nə də riyaziyyat və başqa fənlərdən heç bir şey bilməyirlər. Onların bu elmlərlə tanış olması gələcəyin, istiqbalın görəcəyi işdir.

Hər 7-9 yaşında olan çocuq artıq ana dilinə gərəyi kibi malikdir. Qeyri-şüuri **(безсознательно)** olsa da, elmi surətdə həm iştiqaqları, həm sərfi, həm də nəhvi pək əla biliyor. İştə məktəbə başlayan tələbənin gətirdiyi yeganə material və zehni sərmayə bundan ibarətdir.

Pedaqoqa bu materialdan faydalanmaq və öz işini bu material üzərinə qurmaq lazımdır. [13]

Ana dili elə bir mehvərdir ki, çocuğun öyrədilməsi və tərbiyələnməsi iştə bu mehvər ətrafında toplanmalıdır. Qiraət və mükalimə yolu ilə biz onun dilini zənginləşdirməliyiz. Çünki ancaq bu surətlə ona daha yeni və dərin duyğular, fikirlər aşılaya biliyoruz.

Bu fikirdə olan adamların etiqadınca, birinci və ikinci dərəcədəki məktəblərdə dil və ədəbiyyat dərsləri başlıca izahlı oxu, qiraət və mükalimə **(беседы и объяснительное чтение)** şəklində davam etməli idi. Bu fikrin tərəfdarları izahlı qiraətə dürlü-dürlü meyillər verirdilər. Bəziləri qiraət üçün daha ziyadə ibdai, yaxud bədii ədəbiyyatı **(художественная литература)**, başqaları təbiiyyat mövzuları ilə, üçüncüləri rəsm və təsvir işləri ilə yaxlaşdırırlardı.

Buna qarşı, yəni təhsil və təlimin dil və ədəbiyyat ətrafında toplanmasına qarşı təcrübi psixoloqlardan bəzilərinin fikirləri sərd olunıyor. Məsələn, təcrübi psixolojinin müəssislərindən Meyman **(Meyman)** çocuqların inkişafı və bu inkişafın ana xətləri haqqında şu sözləri yazıyor:

"Çocuqların inkişaf dövrlərində fərdi, şəni **(конкретный)** fikirlər, təsəvvürlər üzərində durmalarını müdafiə üçün qayət əqli və məntiqi səbəblər vardır. Çünki çocuqlar bilaxirə mücərrəd fikirlərini, ümumi təsəvvürlərini bunlar belə şəni təsəvvürlər üzərinə quracaqlardır. Konkret-şəni təsəvvürlər nə qədər tam və səhih olursa, ilərdə mücərrəd və ümumi təsəvvürlər də o dərəcə və nisbətdə səhih və tam surətdə əldə edilir". [14]

Digər pedaqoq-psixoloq Dyuy **(Дьюй)** eyni məsələ haqqında şu sözləri yazıyor:

"Tənbəllik və ətalət **(инерция)** xassəsi insanları mühitlərində rast gətirdikləri fikirləri təftişsiz və şüursuz bir surətdə qəbula məcbur edir. Bəlkə, insan başqalarının nəyə inandıqlarını araşdırmaq üçün fikrini qullanıyor, lakin sonra burada qalıyor. Bu surətlə başqalarının dildə təcəssüm etmiş olan fikirlərini öz fikirləri yerinə qəbul edər. Lisani

[13] Bizim türk məktəbləri də bu sərmayədən istifadə edilməmək nəticəsindədir ki, başqa məktəblərdə birinci siniflərdə olduqca qolaylıq, bizdə isə olduqca güclük görülür. Çocuğa yeni bir dil öyrədirlər kibi olur.

[14] Мейман. Лекции по экспериментальной педагогике, 4-е изд., т.1., стр. 453 (по Соколову).

tədqiqat və üsulların insan zehnini keçmiş dövrlərin dərəcəsində tutmaq üçün yeni kəşflərdən və tədqiqlərdən boyun qaçırmaq üçün təbiət qanunlarının və hadisələrinin avtoritesi, nüfuzu yerinə ənənələrin, tarixi masalların nüfuzunu yerləşdirmək üçün şəxsiyyəti başqaların təcrübəsindən keçinən parazit (tüfeyli) dərəcəsinə endirmək üçün qullanılması məktəblərdə hökm etməkdə olan dil və ədəbiyyat təfəvvüqünə qarşı çıxan məktəb və tədris mücəddidlərinin etirazlarına ən mühüm və yeganə istinadgah təşkil etməkdədir" **(Дьюй. Психология и педагогика мышления, 2-е изд., 1919, [стр.] 158)**.

Bu gün, zamanımızda məktəb tədrisatında dilin rolu və əhəmiyyəti haqqında cərəyan etməkdə olan münaqişələr, vaxtilə kitabımızın dil və fəlsəfə bəhsində görüldüyü vəchlə, yunan və Avropanın on doqquzuncu əsrə qədər yetişmiş filosofları arasında olub-keçən münaqişələrin aşağı-yuxarı eynidir.

Burada biz yalnız şunu qeyd ebə biliriz ki, dil insanın, Uşinski və onun tərəfdarlarının iddia etdikləri kibi, yeganə mərifət mənbəyi və aləti olmadığı kibi, digər qrupun, bilxassə Dyuy[un] isbata uğraşdığı kibi, yalnız mənfi və fikri əsarəti icab etdirən bir vasitə deyildir. Fəna istemal edildiyi təqdirdə Dyuyun kəndisinə böyük bir əhəmiyyəti ətf etdiyi konkret fikirlər və təsəvvürlər üsulu da pək müxərrəb və mənfi bir mərifət vasitəsi halına gəlir və çox dəfə elmi baxış, məntiqi təfəkkürdən insanı məhrum edə bilir.

Dil hər şeydən əvvəl mərifətlərimizi, xarici aləmdən aldığımız intibaları qeyd və hifz edən mühüm bir alətdir ki, bu alətə malik olmadan heç bir zaman məlumatımızı cəm və təsnif edəməyiz. Digər tərəfdən, dil həqiqətən düşüncənin əsasıdır. Yunan filosoflarından birisinin dediyi kibi, dil olmadan mühakimə və təfəkkür üçün lazım gələn ünsürlər heç bir zaman əldə ediləməz. Dil yalnız düşüncənin şərti-əsasisi olmaqla qalmaz, bəlkə, eyni zamanda onun inkişafına xidmət edən ən böyük amillərdən birisidir. Biz çox dəfə əşyanın təsəvvürləri yerinə isimləri yerləşdirir və əşya haqqında olan mühakiməmizdə qeyriməş'ur surətdə o əşyanın isimlərini çarpışdırır, bağlar, müqayisə edər və nəticələr çıxarırız.

Türk-tatar məktəblərində ana dili və ədəbiyyatı iyirminci əsrin başlarından və on doqquzuncu əsrin sonlarından zamanımıza qədər keçən çərik əsrlik bir vaxt içində artıq bütün məktəbi qapladı və bütün məktəb həyatının əsası oldu, – demək mümkündür. Lakin bununla bərabər, dilə, onun tədrisi üsuluna baxış böyük bir dəyişməyə uğramadı.

Bu gün artıq məktəb dərsləri arasında sıxı rabitə, ahəng **(coordination)** olması lazım gəldiyi hər tərəfdən təsdiq olunmaqdadır. Elə ki, heç bir dərs, heç bir elm belə bir məktəbdə özü üçün ayrı bir yer istəməz və ayrı bir üsul təqib edəməz. Hər elmin və hər dərsin təqib edəcəyi üsul bütün məktəb həyatı, bu həyatın hər tərəfi ilə uyuşmuş olmalıdır. Bu sözlər hər şeydən ziyadə ana dili, yaxud ümumiyyətlə dil haqqında doğrudur. Bugünkü məktəblərimiz dilə yalnız müəyyən praktik, elmi xasiyyətləri, təcrübələri verən (kitabət, imla, inşa... ilax.) bir dərs sifəti ilə baxıyor. Halbuki dil hər şeydən əvvəl məktəb camaatı **(школьный коллектив)** arasında ən qüvvətli, ən ümumi və əsaslı ictimai bir amildir. Burada, bu baxışda yalnız üsuli, metodik xəta deyil, bəlkə, eyni zamanda tərbiyəvi və ictimai böyük bir xəta saxlanmışdır ki, bu sayədə məktəbin bütün simasi, mahiyyəti, məqsədi pozulmuş və əyri yola getmişdir.

Professor Dyuy **(Дьюй)** dildə iki qism görüyor: zehni **(интеллектуальное)**, ictimai **(социальное)**.

İştə əski məktəb dilin yalnız zehni cəhətinə diqqət vermişdir. Professor Dyuy "Düşünmənin ruhi və tərbiyəvi cəhəti" **(Психология и педагогика мышления)** namındakı əsərinin 160-cı səhifəsində bu xüsusda şu sözləri yazıyor:

"Dilin birinci əsası arzular, duyğular və düşüncələri ifadə yolu ilə başqalarına, başqalarının fəaliyyətinə təsir etməkdir. Dilin ikinci dərəcədə istemalı başqaları ilə daha sıxı ictimai münasibətə girişmək, ancaq üçüncü dərəcədə istemalı fikir və bilgi əldə etmək məqsədilədir".

İkinci üsulçu Qildebrand **(Гильдебранд)** "Ana dilinin məktəblərdə tədrisi haqqında" namındakı əsərində dilin ictimai və fikri cəhətinin məktəblərdə daima bir-biri ilə çarpışdığını və müəllim[in] bu iki cəhəti bir-biri ilə barışdırmadıqca, uydurmadıqca dil dərslərində böyük bir müvəffəqiyyət qazanamayacağını pək açıq surətdə göstərir.

Qildebrandın bu xüsusdakı fikirlərindən bəzilərini burada nəql ediyoruz:[15]

"Bütün başqa dərslərlə uğraşdığı zaman tələbə zehnini, şüurunu təzərtən, canlandıran fikirlər alıyor və hər dəqiqə onun qafasında yeni-yeni lövhələr cızılıyor. Digər tərəfdən, müəllim də gənclərə şimdiyə qədər heç görmədikləri, bilmədikləri xarici, daxili, təbii və mənəvi

[15] Профессор П.О.Афанасьев. Методика родного языка. Москва, 1923 г.; Ленинград, 1925 г., стр. 6.

aləmlərə gətirdiyini və buralarda onları ev sahibi kibi qarşıladığını duyaraq seviyor, şövq və həyəcan duyuyor".

Lakin iş ana dili məşğuliyyətlərinə gəldiyi zaman tamamilə başqalaşır. Burada nəzəri-etibara alınmaq lazım gələn şey hər çocuğun kəndisi ilə bərabər buraya tamamilə hazır şəkildə gətirdiyi material, məlumatdır. Bundan başqa, bu material hər kəs üçün ən qiymətli bir şeydir. Çünki bu material üzərində onun özünəməxsus dünyaya və həyata baxışı **(миросозерцание)** vardır. Şübhə yox ki, ən kiçik çocuqlar belə öz kiçik fəlsəfələri ilə məktəbə gəliyor. Bəlkə, onlarda böyüklərdə olan prinsiplər və sistemlər yoxdur. Lakin bu kiçik adamların fəlsəfəsində əsas, rüşeym halında bütün əxlaqi və əməli fikirlər **(идеи)**, təsəvvürlər vardır. Onun üçün bu xüsusda çocuqlar gərək şəkil və gərəksə mündəricəyə aid məsələlərlə sərbəst surətdə məşğul ola biliyorlar. Onlar olub-keçən haqqında, tənəffüs və yaxud oyun vaxtlarında nə qədər canlı münaqişələr yapır və nasıl müfəssəl surətdə kibin haqlı, kibin haqsız olduğunu mühakimə ediyorlar. Burada nə qədər həyəcan, cörbüzə **(красноречие)** və bilxassə dərs vaxtında ağzından bir söz almaq qabil olmayan çocuqlar burada birinci xətib kəsiliyorlar. Onlar heç irkilmədən lazım sözləri fövqəladə ustalıqla arayıb buluyorlar. Onların mükəmməl və qayət sağlam qaydalar üzərində qurulmuş nəhvləri vardır. Yalnız deyəcəksiniz ki, sözləri adi, sadə xalq sözləri... Bunun nə zərəri var? Biz bir çox şairlərdə, həm də böyük şairlərdə bu sözləri rast gətirmiyormıyız?

Bütün bu cəhətlərdən ziyadə onlarda bir xasiyyət daha oluyor ki, bunu, bu xasiyyəti onlar mükəmməl surətdə idarə ediyor, qullanıyorlar. Burada bən onların ahənglərindən **(интонация)** bəhs etmək istəyirəm. Bu ahəng onlarda nə qədər doğru, ifadəli oluyor. Yalnız bir parça ibtidai və qabaca... Bir az sonra sinfə giriyorlar və ana dili dərsləri başlıyor... Çocuqlar burada bir az əvvəl mükəmməl surətdə işlədikləri və binaən əleyh onlar üçün heç maraqlı olmayan bir bəhs üzərində durmağa məcbur oluyorlar.

Bu vaxt əgər müəllim onların bir az əvvəl oyun əsnasında başlayıb bitirəmədikləri mübahisəni duya bilsə və dərsini bu mübahisə içərisində keçən əxlaqi, hüquqi və məntiqi nöqtələri, məsələləri bulub çıxarsa və onları digər tərəfdən yavaş-yavaş xalq dilindən ədəbi dilə çəksəydi və çocuqların gözcükləri parlayaraq: "Əvət, bu belədir, bən də belə düşüniyorum", – desəydilər, iş tamamilə başqalaşardı. Bu da

ana dili dərsi olurdu, deyilmi? Və nə qədər faydalı, nə qədər maraqlı bir dərs olurdu!"

Qildebrand[t]ın bu sözləri, şübhəsiz, pək doğrudur və yalnız rus və Avropa məktəbləri üçün deyil, bəlkə, eyni zamanda bizim məktəblərimiz üçün də eynən vaqedir. Yalnız Qildebrand[t]ın yuxarıda zikr etdiyimiz sözlərində dilin məktəblərdə alması lazım gələn yer gərəyi kibi aydın, açıq surətdə görünmiyor.

Hər şeydən əvvəl şuna diqqət etmək lazımdır ki, türk və əski tipdə rus və Avropa məktəblərində şimdiyə qədər dilə yalnız zehni bir hadisə nəzəri ilə baxılmış və bunun nəticəsi olaraq müəllimlər məktəblərdə yalnız ədəbi dilin və kitabi üslub və qaydaların aşılayıcısı rolunu oynamışlardır.

Bütün yuxarıda söylədiklərimizdən çıxan nəticə şudur ki, müəllim və yaxud rəhbər çocuqlara hər hankı bir fikri və yaxud hissi aşılamadan əvvəl o xüsusda çocuqların məktəbə gəlmədən əvvəl malik olduqları məlumatı və onların istedad və ruhlarını iyidən-iyiyə tədqiq və təftiş etməyə borcludur. Əgər belə bir işə girşir və işini belə bir plan içərisində götürürsə, müəllim hər şeydən əvvəl canlı, durmadan dəyişən və cəmiyyətdən-cəmiyyətə, mühitdən-mühitə, ailədən-ailəyə keçildikcə bir çox lisani xüsusiyyətlərin ortaya çıxdığını və onun çocuqlara sunduğu, ərz etdiyi ədəbi materialın ölü, mücərrəd bir şeydən ibarət olduğunu görəcəkdir. İştə dilin belə bir hadisə olduğunu tanıyan, anlayan müəllimə elmi lisaniyyat ilə aşina olmaq, dilin hər dürlü təzahüratını az-çox elmi surətdə tədqiq etmək borc olur. Bu elmi lisaniyyatdan məqsəd onun qayda, prinsiplərini, üsullarını tələbələrə öyrətmək, bəzi bu məsələni yanlış anlayan müəllimlərin yapdığı kibi çocuqları lisaniyyatçı yapmaq üçün deyil, bəlkə, bu sayədə bəzi elmi lisaniyyatın üsullarını iyicə bənimsədikdən sonra çocuqların dili və bu dil vasitəsilə ruhlarını, fəlsəfələrini tədqiqə, anlamağa və bu tədqiq anlayışı üzərinə plan, dərs qurmağa imkan qazanmaqdır.

Dil tədrisindən məqsəd yalnız doğru oxuyub-yazmağı öyrətmək deyildir. Filvaqe bu da mühüm bir məsələdir, lakin bundan əvvəl dilin mexanizması, üzviyyəti və təşəkkülatı ilə tələbələri az-çox aşina etməkdir. Bu da ancaq çocuqların öz dilini, ana və ailə dillərini onlara tədqiq etdirmək, onların ruh və zehnlərinə, ictimai istedadlarına yaxın bir surətdə rəhbərlik və müəllimlikdə bulunmaqla qabil olur. Əşya dərsləri, ülumi-təbiiyyədən alınmış bəsit, qolay və çocuq dünyasına

yaxın təcrübələr və ibtidai məlumat ilə onları nasıl fizik, kimya və ümumiyyətlə ülumi-təbiiyyə laboratoriyalarına hazırlayırsaq, elə də onları ilərdə şüurlu surətdə, elmi üsullarla mücəhhəz olaraq öz dillərini tədqiqə alışdırmalıyız. Çünki dil hər şeydən əvvəl ol çocuğun əldə edə bildiyi, qullana bildiyi ruhi, ictimai üzvlərdən, alətlərdən birisidir. Bunu heç bir müəllim heç bir zaman ağlından çıxarmamalıdır.

Dil dərslərinin ən cansıxıcı, ən ziyadə ölü dərslərdən birisi olaraq məktəblərdə yer aldığı hər kəsə məlumdur. Əcəba, nə üçün?

Bu suala cavab vermək yuxarıdakı sətirlərdən sonra qayət qolaydır. Çünki dil dərsi, elmi, zehnaçıcı, çocuqların inkişafını ilərilədici və maraqlandırıcı bir dərs deyildir. İnsan nasıl mədəsinə, yaxud ümumiyyətlə üzviyyətinə xoş gələn, o üzviyyətin meyilləri, inkişafı ilə uyuşan şeylərə meyil edirsə, elə də zehn və ruhumuz inkişafına, istedad və meylinə müvafiq fikirlər, duyğulardan ləzzət alır. Dil dərslərini ümumi psixoloji və fizioloji əsasları ilə bağlamayan bir müəllim heç bir zaman sinifdə böyük və ciddi bir müvəffəqiyyət qazanamaz. Halbuki dil dərslərini bu əsaslarla bağlamaq elmi lisaniyyat ilə az-çox aşina, tanış olmaq deməkdir.

Bu soy üsulu və elmi əsaslara bir çox yerlərdə dürlü-dürlü etirazlar eşidilir. Bu etirazları üçə bölmək, təqsim etmək olur:

1) Birincisi, ədəbi dil tərəfdarlarının etirazıdır ki, onların fikrincə, məktəbdə dil tədrisindən məqsəd çocuqlara başqa fənləri, elmləri oxuyub anlamaq və anlatmaq üçün lazım gələn aləti verməkdir ki, belə bir alət də ədəbiyyatın, elmin, fənnin dilidir. Yəni ədəbi dildir. Halbuki ana dili[ni], ədəbi dili əldə etməkdən çocuqları alıqoymasa belə aləti əldə etmələrini gecikdirir və binaən əleyh onların zehni və mənəvi inkişaflarına mane olur, sədd çəkir. Bilxassə ədəbi dili zəif olan türk-tatar məktəbləri üçün belə bir üsul qətiyyən doğru deyildir.

2) İkincisi, dil tədrisində guya yeknəsəq və birlik üsul tərəfdarlarının etirazıdır ki, buna görə ana dili, məhəlli dil əsas olaraq alınsa belə, bu növ dillər hər çocuqda, hər ailədə və nəhayət, bir şəhərin bir kaç məhəlləsində dürlü-dürlü ola biləcəyi üçün belə ümumi cizgisi olmayan, ümumi qaydalara müvafiq gəlməyən dil ilə bütün bir məktəbi, bütün bir sinfi tədris etmək qabil deyildir. Sonra əldə kitablar, rəhbərlərlə belə bir üsulu idarə etmək də imkan xaricində qalır. Tədrisat yeknəsəq-bilik sistemini təqib etməlidir. Halbuki hər yerdə belə yalnız öz şivəsi, öz ana dili ilə dərs alacaq tələbələr bir kaç şivəni, bir kaç qəzanı birləşdirən daha böyük elmi müəssisələrə girdikləri zaman

bir-birilərini anlamaq imkanından məhrum olurlar və ən mühümü bu müəssisələrdə olan ədəbi dildən uzaq qalırlar.

3) Üçüncüsü, müəllimlərimizin və tədrisi ədəbiyyatımızın bugünkü vəziyyətini nəzəri-etibara alaraq yapılan etirazlardır. Belə fikirdə bulunanların mütaliəsincə, müəllimlərimiz, bilxassə köylərdə bulunanlar belə elmi bir üsul nəticəsində meydana çıxacaq olan müstəqil və məsuliyyətli işə yanaşacaq vəziyyətdə deyildirlər. Əski üsulda din tədrisinə alışmış olan müəllimlərin əlində, heç olmazsa, bu üsulu yeknəsəq surətdə idarə edə biləcək ədəbiyyat – qiraət, sərf, üsuli-tədris, əlifbalar... vardır. Halbuki müəllimlərin hər hankı yeni bir üsula keçməsi proqram, müəllim və tələbə cəhətindən hənuz təməlləşməyən məktəblərimizi daha ziyadə keçməkeşlərə və qarışıqlıqlara gətirə bilir.

Bütün bu etirazları birər-birər gözdən keçirəlim. Birinci dərəcədə şunu deməliyiz ki, bütün bu etiraz, tənqidlər həp yeni, elmi üsulun nədən ibarət olduğunu gərəyi kibi bilməməkdən ileri gəlir. Çünki elmi üsulun sistemi, tərtibçi təsiri ilə aşina olan heç bir kimsə bu soy etirazlara verilməz. Burada ən zəif etiraz, şübhəsiz, ədəbi dil münasibəti ilə yapılanıdır. Burada təklif olunan üsulun əsas mahiyyəti, hər elmdə olduğu kibi, dil və ədəbiyyat tədrisatında çocuqların, tələbələrin zehn və ruhiyyətini əsas olaraq almaqdır. Halbuki şimdiyə qədər anlaşılan mənasında ədəbi dil daha ziyadə müəllimin ruhuna uyğun təsəvvürlər və qaydaların heyəti-məcmuəsindən başqa bir şey deyildir. Türk ədəbi dili məsələsi qayət mühüm bir məsələdir və türk-tatar xalqlarının mədəniyyət, elm və fənn sahəsində ilərilәyə bilmələri üçün mümkün olduğu qədər sürətlə bu ədəbi dili əldə etmələri lazımdır. Buna heç kimsə şübhə edəməz. Lakin bundan əvvəl türk ədəbi dili ilə əlaqədar olan bir çox məsələləri layiq olduğu əhəmiyyət və ciddiyyətlə mühakimə etmək, ölçmək gərəkdir. Hər şeydən əvvəl ədəbi dil məsələsi qalxdığı zaman şunu xatırda tutmalıdır ki, hər ədəbi dil şivələrdən ayrı, tamamilə mücərrəd, müstəqil olaraq yaşamaz. Bu sözü bilxassə türk ədəbi dilinin bugünkü vəziyyətini nəzəri-etibara alaraq söyləmək mümkündür. Türk ədəbi dili gərək istilah, gərəksə üslub və şəkil nöqteyi-nəzərindən xalq ədəbiyyatının ünsürlərinə pək ziyadə möhtacdır. Sonra çocuqların dilini, ruhunu öyrənmək demək bu dilləri ayrı-ayrı tədris etmək deyildir. Bəlkə, bu sayədə onların lisan xəzinəsi və məlumatına vüquf qazanaraq ona görə işə başlamaqdır. Çocuqlar müəllimin sözlərini anlaya bilməli, misalları ilə aşina olmalıdır ki, onun bu misallardan çıxardığı qanunları zehnlərinə nəqş edə bilsinlər.

Riyaziyyatın "iki məlum vasitəsilə bir məchulu çözmək" qaydasını heç bir zaman zehndən çıxarmamalıdır.

İkinci etiraza, yəni çocuqların dilini, ana dilini nəzəri-etibara alaraq dərsə başladığımız zaman tədrisdə bulunması lazım gələn ahəng və yeknəsəqliyin qaib olacağı məsələsinə gələcək olursaq, buna da azçox birinci verdiyimiz cavabı verə biliriz. Çünki bu etirazda təklif olunan yeni üsulun nədən ibarət olunduğunu anlamamaqdan ileri gəlir. Burada məsələni çözmək üçün öz-özümüzə belə bir sual verməliyiz: əcəba, əski mövqedəmi dil tədrisatı elmi lisaniyyata daha ziyadə yaxın idi, yoxsa şimdi təklif olunmaqda olan yeni üsuli-tədrisdəmi?

Bu suala elmi-lisana aşina olanlar üçün cavab vermək heç də güc deyildir. Madam ki, yeni üsul elmi prinsiplərə yaxındır, elə isə ahəng və yeknəsəq məsələsi burada heç də mövzui-bəhs olamaz. Elm xüsusiyyətləri, cüzləri nəzəri-etibara alsa belə, ondan ümumi qaydalara aləmşümul nəticələr götürər, gedər. Elmi olmayan hər hankı bir üsul yeknəsəq ahəngdar olamaz. Qeyri-elmi, yaxud batil üsullarda kendi fərziyyələr, şəxsi görgülər hər zaman mühüm yer işğal edər. Burada şunu da əlavə etməliyiz ki, türk-tatar məktəblərində ana dilinin tədrisi yeknəsəq nöqteyi-nəzərindən heç bir təhlükəni haiz deyildir[...]. Bizim kibi ədəbi dilləri hənuz gərəyi kibi təşəkkül etməmiş xalqlarda, hətta ruslar kibi bütün bir yüz milyonluq kütlə üçün iki-üç əsrlik klassik ədəbiyyata malik olan millətlərdə belə ana dili, yaxud çocuq dilinin əhəmiyyəti çox dərin və elmi qeydlərlə ileri sürülməkdədir.

Professor Afanasyev "Çocuq dili – məktəbdə ana dili məşğuliyyətlərinin əsası" **(Детская речь, как основа занятий родным языком в школе)**[16] namilə yazdığı bəhsində başlıca şu sözləri söyləyir:

"Əski məktəb əsas vəzifəsi olaraq oxumaq, yazmaq və saymağı öyrədirdi. Bundan təbii olaraq çıxan bir nəticə şəklində əski məktəblərdəki dil tədrisatının mərkəzi-siqləti süni, ədəbi yazılı dil üzərində dururdu və bu surətlə söyləşmə, qonuşma dilinin təbiəti, təbii inkişafı çocuqlara və müəllimlərə görünməzdi. Onlar – çocuqlar əski məktəbdə heç belə bir şey görməzdilər. Əski məktəbdə canlı söz yerinə çocuğun ruhuna hakim və aşina olan ana dili yerinə, orada kitab, dəftər, mətbu və yazılmış mətnlər bulunardı".

Digər bir mütəxəssisdən – professor Siqorski[dən] şu sözləri eşidiyoruz: "Dili, sözü əldə etmək üçün ən doğru və ən qısa yol qulaq vasitəsi ilə öyrənməkdir".

[16] Методика родного языка в трудовой школе, стр. 14.

Sameə yalnız ruhi nöqteyi-nəzərdən deyil, eyni zamanda təşrihi **(анатомический)** nöqteyi-nəzərdən daha ziyadə təbiidir. Biz eşidərək yalnız adi sözləri deyil, bəlkə, eyni zamanda canlı sözləri də, onların fərqlərini, mənalarını təfriq ediyoruz. Nitqin və sözün səslərində, bu səslərin alçalması, yüksəlməsində, vurğularda **(ударение)**, duraqlarda **(остановка)**, tempin **(темп)** yavaşlandırılması, tezləşdirilməsində bitməz-tükənməz duyğular aləmi açılıyor ki, bunları yalnız söz skeleti ilə vermək heç bir zaman qabil olamaz. Söyləyənin üzündəki dürlü-dürlü ifadələr, vücudunun dürlü-dürlü hərəkətləri ilə hasil olan ikinci növdən intiba və təsirlər də buna qoşulur, inzimam edər... Eşidilən söz iştə bu surətlə binlərcə tədai rabitələri **(ассоциативные связи)** vasitəsi ilə zehnimizə bağlanır və təkrar hafizəmizdə canlanmaq üçün binlərcə nöqtələr və imkanlar hasil edər.

Xarici təbiətin geniş üfüqlərinə qarşılıq, kitab bizi mətbu səhifənin dar çərçivələrinə qapar, sıxışdırır. Bununla anlamaq və xatırlamağın tədai bağlarını daqlaşdırır. Canlı söz insanın bütün həyatında böyük tərbiyəvi əhəmiyyəti haizdir. Bilxassə çocuqluqda heç bir şey canlı sözün yerini tutamaz.

Bu sözlərdən canlı dilin, çocuq dilinin tədrisatda, məktəbdə nə üçün, hankı cəhətdən və nə qədər böyük əhəmiyyəti olduğu anlaşılsa gərəkdir.

Üçüncü olaraq qeyd etdiyimiz etiraza, yəni müəllimlərimizin hənuz yeni üsullara hazırlanmadığına gələcək olursaq, bu doğru olmaqla bərabər, buradan heç bir zaman hazırlıq tədbiri görülməməlidir. Nəticəsini çıxarmağa heç bir surətlə haqqımız yoxdur. Türk dili ilə qurulmuş olan məktəblərin az zaman içərisində keçirdiyi tərəqqi və təkamül göz önündədir. Əski üsulda qurulmuş olan məktəblər, yuxarıda qeyd etdiyimiz kibi, yalnız dini mehvər, mərkəz ətrafında yaşayıb gəlmişlər və burada türk dilinin böyük, bəlkə də, heç bir dürlü əhəmiyyəti olmamışdır. Türk dili haqqında keçən əsrin sonlarından zamanımıza qədər birikən dürlü ədəbiyyat qatını və yıxılmaz ənənələr meydana gətirmişdir. Bizim maarif yolunda ən böyük maneələr dini təəssüb idi. Bunlar yıxıldıqdan sonra, Avropa və rus məktəblərindəki kibi, əsri səxifələr, əski batlatı bizim məktəblərimizdə, bilxassə türk dili və onun tədrisi sahəsində böyük bir yer alamamışdır. Qasprinski dövründə birdən-birə sövti üsula keçə bilməmiz bunun ən böyük dəlillərindən birisidir. Avropanın son elmi sistemlərini əldə etməmizə heç bir mane yoxdur. Avropa məktəblərinin keçdiyi bütün dövrləri, keçidləri keçmək, bəzilərinin

zənn etdiyi kibi, bizim məktəblərimiz üçün şərt deyildir. Nasıl ki, iqtisadi, siyasi, fəlsəfi və ictimai sahələrdə eyni surətlə bir çox əsrləri adlaya biliyoruz. Əlbəttə, buradan pedaqojinin, yaxud elmi lisaniyyatın bütün yeniliklərini məktəblərimizə bir kaç ay, bir kaç il içərisində soxa biləcəyimiz nəticəsi çıxarılamaz. Yalnız şurası təslim olunmalıdır ki, müəllimlərimizin bugünkü səviyyəsi, məktəblərimizin bugünkü nöqsanları bizi yarınkı məsələlərin münaqişəsindən, yaxud artıq, qismən olsun, bu gün yapılması lazım gələn işlərin göstərilməsindən alıqoyamaz. Biz bu kitabda qeyd edəcəyimiz və etdiyimiz üsuli qaydalarda hər şeydən əvvəl məktəblərimizin bugünkü vəziyyətini nəzəri-etibara almaq lazım gəldiyini heç bir zaman xatırdan çıxarmamaqla bərabər, eyni zamanda elmi həqiqətləri, ümumi üsulları təhrif və təbdil etmək niyyətdən çox uzağız. Yalnız bir çox üsulları tədqiq etdikdən sonra bugünkü məktəblərimizin, müəllimlərimizin, ümumiyyətlə maarifimizin gedişinə, duruşuna ən ziyadə uyğun və yaxın olanlarını göstərmək borcumuzdur və sırası gəldikcə bu da yapılacaqdır.[17]

---

[17] Yuxarıda yazdığımız etirazlar xəyaldan çıxarılmış şeylər olmayıb, bəlkə, türk dilinin yeni məktəblərdə alması lazım gələn mövqe haqqında tərəfimizdən yapılan məruzələrdə, dürlü məmləkətlərin türk müəllimləri tərəfindən eşidə gəldiyimiz etirazların başlıcalarıdır. Eyni tərzdəki etirazlar rus məktəbləri dil müəllimləri tərəfitndən vaqe olmaqdadır. Bu etirazları professor Uşakov **(Ушаков)** "Məktəbdə ana dili" **("Русский язык в школе")** namilə çıxardığı "Rus Dili və Ədəbiyyatı Müəllimlərinin Daimi Komissionunun əsərləri" məcmuəsində xülasə edərək bunlara ayrı-ayrı cavab vermişdir:

1) Birinci etiraz yeni dil proqram və üsulunun pedaqojidəki təkamüllə bağlı olmayıb, bəlkə, modaya təbəiyyətlə çıxdığı fikridir ki, tamamilə yanlışdır. Çünki artıq 1914-cü sənədə bütün Rusiya rus dili müəllimlərinin qurultayında bu yeni üsul haqqında tamamilə müəyyən və sabit fikirlər meydana gəlmişdir.

2) Yeni üsul və proqramda dil və ədəbiyyat tədrisatının yalnız bir qismi – sərf əhəmiyyət qazanır. Bu da doğru deyil. Yeni proqram və üsulda sərfə yalnız layiq olduğu yer tərk edilərək birinci sıraya oxumaq, dilin inkişafı məsələləri sürülür.

3) Üçüncü etiraz yeni üsulun elmiyyət nöqtəsinədir. Bir çoxları zənn edir ki, çocuqların dilini tədqiq etmək, dilin həyatına çocuğun nəzər-diqqətini cəlb etmək onlara anlaya bilməyəcəkləri şeyləri söyləmək, bir dürlü darülfünun dərsləri keçməkdir. Halbuki yeni üsulun az-çox lisaniyyat, psixoloji, fizioloji qanunlarına istinad etməsi məktəblərdəki dil dərslərinin elmi əsaslara zidd olmaması üçündür. Riyaziyyatda nasıl "iki kərə iki dörd" elmi bir həqiqətsə, birinci dərəcədə verilən məlumat da belə elmi, ixtisasi əsaslarla, şimdiyə qədər olduğu kibi, daban-dabana zidd olmalıdır. İştə yeni proqram və üsulda istənilən elmiyyət bundan ibarətdir.

4) Dördüncü "müəllim yox" etirazından ibarətdir ki, bir kərə şimdiyə qədər davam edən üsulun elmə, fənnə qarşı olduğu anlaşıldıqdan sonra bunu ciddi bir mane olaraq iləriyə sürmək mümkün deyildir. Əgər məktəblərdə "iki kərə iki beş" deyə oxudulursa, müəllim olsun-olmasın, bunun yanlış olduğu həm proqramlarda, həm də üsulda göstərilməlidir ("Русский язык в школе", 1923, стр. 34-36. Məalən tərcümə).

O halda bütün söylədiklərimizi gözə alaraq, bu gün məktəblərdə dil tədqiqatının yeri, əhəmiyyəti, hədəfi, varıb-duracaq yeri nə ola bilir?

Rusiya məktəbləri üçün nəşr olunan dil proqramı şu əsasları göstərməkdədir:

1) Məktəb doğru oxumaq, yazmaq, söyləmək və düşünmək mərifətini verməlidir.

2) Bu növ mərifəti və bilgini ana dilinin yalnız bir şöbəsi ilə uğraşmaq, məşğul olmaq sayəsində deyil, bəlkə, ana dilinə aid məsələlərin heyəti-məcmuəsi ilə bir küll halında məşğul olmaqla əldə etmək mümkündür.

3) Ümumi təhsilə və zehnin ümumiyyətlə inkişafına aid olmasına görə məktəb bu bilgilərdən başqa bilgilər də verə bilir.

4) Sərf dil bilgisindən məlumat verməli və əməli məqsəd təqib etməməlidir. Bununla bərabər, şübhəsiz, bu növ bilgilərin əməli nəticələri, faydaları da ola bilir.

5) Dil bilgisinə, lisaniyyata aid məlumatın zehni inkişafına olan müstəsna və böyük təsirini nəzəri-etibara alaraq, bu soy məlumatı da birinci dərəcə məktəblərin proqramına keçirmək lüzumlu və zəruri tanılır.

6) Dilin bu surətlə tədqiqi bir dərəcə məktəblərdə durmayıb, çocuqların, tələbələrin yaşına və zehni səviyyələrinə uydurulmaq şərti ilə ikinci dərəcə məktəblərdə də proqrama keçirilməli və davam etməlidir.

7) Yuxarıda qeyd olunan mərifət və bilgilərin yalnız sərf tədrisi sayəsində əldə edilə biləcəyi fikrini tamamilə tərk etməlidir.

8) Buradan sərfin **(грамматика)** yalnız əməli deyil, bəlkə, dil üzərində tədqiqlər **(наблюдения над языком)** şəklində elmi qiymətini təqdir etmək lazım gəldiyini unutmamalıdır.

9) Buradan da imla **(орфография)** üslubu məntiqi təmrin və mümarisələrinin nümunələrini, üsullarını işləyib hazırlamalı və bütün bu məlumatın, şimdiyə qədər olduğu kibi, yalnız sərf vasitəsilə əldə edilə biləcəyi etiqadını buraxmalıdır.

İştə bu doqquz nöqtə içərisində bugünkü türk məktəblərinin də pək ziyadə möhtac olduğu islahatın geniş və dərin əsasları göstərilmişdir. Bizdə bu nöqtələrə əlavə ediləcək bir şey varsa, o da sərfə və ümumiyyətlə lisana aid olaraq məktəblərimizdə yürüdülməkdə olan

qüruni-vüstai fikirlərin sıxı ələkdən keçirilməsi zəruridir ki, gələcək bəhslərimizdə bu xüsusu da mümkün olduğu qədər aydınlaşdırmağa qeyrət edəcəyiz.

Xülasə: Dilin məktəblərdəki yeni və əski mövqeyi haqqında yazdıqlarımızdan çıxan başlıca nəticələr şunlardır:

1) Türk-tatar xalqları həman bütün yeni Avropa millətləri ilə bərabər oxuyub-yazmağa, yəni mədəni həyat sürməyə başladıqları halda, türk dili ancaq on doqquzuncu əsrin ortalarına doğru məktəbə girməyə başlamışdır. Gərçi Mahmud əl-Kaşqari dövründə, yəni miladi on birinci əsrdə, Əlişir Nəvai zamanlarında, yəni on beşinci əsrdə Orta Asiya və on altıncı əsrdən, yəni Berqameli Qədri əfəndinin "Meysərətül-ülum" namındakı sərfi yazıldığı zamandan başlayaraq, Kiçik Asiyada bu xüsusda bir çox təcrübələr yapılmışsa da, on doqquzuncu əsrə qədər nəticə verməmişdir.

2) Türk dili məktəblərə Rusiyada miladi 1744 və Türkiyədə hicri 1242 sənələrindən başlayaraq girmişdir. Bu xüsusda şimal türklərində Qəyyum Nasiri, cənub türklərində Cövdət və Fuad paşaların, İsmail Qaspirinski, Həsən bəy Məlikov kibi zəvatın böyük rolu olmuşdur.

3) Avropa və rus məktəblərində tədrisat – dil və ədəbiyyat ətrafında toplandığı və mərkəziləşdirildiyi halda, bizim məktəblərimizdə daha ziyadə din və dini mövzular ətrafında mərkəziləşmə olmuşdur. İştə bunun üçün bu məsələ ətrafında mərkəziləşmə üsulu **(комплексный метод преподавания)** məsələləri ilə bağlı olaraq çıxan davalar bizim məktəblərimizdə və məktəb ədəbiyyatımızda görülməz.

4) Rus və Avropa məktəblərində dilin mövqeyi haqqında çıxan davanın başlıca nöqtələri şunlardır:

Bir qisim pedaqoq və psixoloqların fikrincə, məktəblərdə tədrisat dil ətrafında mərkəziləşdirilməlidir. Çünki dil yalnız həyatın bir qismi olmayıb, bəlkə, eynilə həyatdır və tamamilə həyatı əks etdirir. Sonra çocuqlar məktəbə gələrkən yalnız dilə malikdirlər. Binaən əleyh onlara veriləcək məlumat dil ilə bağlana bilməlidir. Halbuki digər bir qisim üləmanın fikrincə, bu qabil deyildir. Çünki dil bütün həyatı yalnız pək naqis olaraq əks etdirə bildiyi kibi, çox dəfə də konkret fikirlərin, təcrübələrin qarşısında durur və zehnin təbii inkişafına mane olur.

5) Dilin məktəblərdə mərkəzi rol və əhəmiyyət qazanmasına etiraz edənlərin haqqı vardır. Çünki əski məktəblərdə dil ən cansız və maraqsız və zehni inkişafa mane olacaq bir tərzdə tədris olunurdu.

Hər şeydən əvvəl dili zehni inkişafın vasitəsi və ictimai rabitələrin ən mühümlərindən birisi olaraq tələqqi etmək lazım gəlir.

6) İştə bunun üçün yeni məktəbdə dilin yeri, təbiiyyat və riyaziyyat elmlərinin yeri kibi olmalıdır. Yəni onlar kibi dil məşğuliyyətləri də zehni inkişaf etdirməyə, çocuqlarda pək ziyadə kəskin olan ictimai meyilləri qüvvətləndirməyə xidmət etməlidir.

HƏRF VƏ SƏS

Yazının və səsin mənşələrindəki ayrılıq.
Səsin və yazının təkamülündəki ayrılıqlar. Nəticə

Şimdiyə qədər yazılmış olan sərf və əlifba kitablarımızda məəttəəssüf qayət bir cəhət unudula gəlmişdir: hərf ilə səsin qarşılıqlı münasibəti.

"Yeni" namı altında çıxan məqalə və kitabçalarda böyük həyəcan və şiddətlə müəllimlərimizə təklif olunan üsulların, yapılan alicənabanə tövsiyələrin belə bu xüsusi tənvirə zərrə qədər əhəmiyyət vermədiyi görülməkdədir. Əlifba tədrisi üsullarını gözdən keçirdiyimiz zaman görəcəyimiz vəchlə, şimdiyə qədər məktəblərdə tətbiq oluna gələn və "sövti" təbir olunan üsulların da bu iki mühüm hadisəni birbirindən ayırmağa xidmət edəmədiyini nəzəri-etibara alırsaq, bu nöqsanın nə qədər əski və tarixi bir ənənə şəklinə girdiyi özlüyündən aşkar olur.

Səs nədir? Bizim ifadə üçün qullandığımız səs, yəni lisan vahidiqiyasisi bir çox mürəkkəb hərəkətlərin nəticəsidir ki, burada başlıca iki amili ayırmaq lazım gəlir: 1) üzvi, 2) ruhi.

Bundan əvvəlki bəhslərimizdən birisində ("Lisaniyyatın əsasları") olduqca vazeh, müfəssəl surətdə izah etdiyimiz kibi, səsin meydana gəlməsində iştirak edən, rol oynayan üzvlərimizin – ciyərlərdən dodaqlara qədər – fəaliyyəti iştə bu birinci amili təşkil edir.

Ruhi amilə, yəni səsin ruhi cəhətinə gələcək olursaq, bu hər səsə zehnimizdə, ruhumuzda rəbt olunan mənadır ki, bunsuz çıxardığımız səs lisani bir qiyməti haiz olamaz. Binaən əleyh ağzımızdan çıxan hər səs, lisani bir səs isə müəyyən bir ruhi cəhətə malikdir. Biz bu ruhi cəhətə o səsin mənası deriz. Hər mürəkkəb müəssisə, vücud, aparat, alət kibi, səsin mahiyyəti də dəyişməyə, bir haldan çapucaq digər bir hala keçməyə fövqəladə meyyaldır. Hətta mütəəssib və incə fonetik-sövtiyyatçılar bir dəfə söylədiyimiz səsin ikinci dəfə eyni surətlə istehsalı, söylənməsi qabil olmadığını iddia etməkdədirlər. Çünki təcrübi səs bilgisinin **(экспериментальная фонетика)** fizioloji və anatomi elmlərinə dayanaraq bizə söylədiyinə görə, zahirdə, ən qolay, bəsit bir səsin söylənməsi üçün binlərcə əzələ, əsəb və sınırlar işləmək

lazım gəlir. Əgər bu əsəb və əzələciklərdən hər hankı birisi ikinci dəfə o səsi tələffüz etdiyimiz zaman məəttəl qalır, yaxud başqa bir tərtibdə, yəni əvvəl və ya sonra fəaliyyətə keçərsə, əldə edilən səs artıq başqa bir səsdir. Şübhəsiz, qulaq və sameəmiz bu qədər dəyişmələrin fərqinə varmaz. Sameə qulağımız yalnız səslərin bəlli tiplərini fərq edə bilib, bunların arasında bulunan yüzlərcə övfaq və intiqali **(переходной)** səsləri qeyd və təmyiz iqtidarından məhrumdur. Başqa bir dil ilə söyləyəcək olursaq, qulaq yalnız məxrəcləri qeyd edə bilir. Halbuki məxrəc nədir?

Əski Şərq sövtiyyat (təcvid) kitablarında belə qeyd edilən məxrəc **(articulation)** bir-birində fiziolojik, anatomik xüsusiyyətlər ilə ayrılan müstəqil üzvlərdən başqa bir şey deyildir. Məsələn, [i] səsini alacaq olursaq, görürüz ki, bunun istehsalında dilimiz yuxarıya, yəni damaq deyilən boğaz tavanına doğru yüksəlir və ciyərlərimizdən çıxıb gələn hava üçün bir kanal təşkil edir ki, bu surətlə havanın bu kanaldan çıxarkən meydana gətirdiyi ehtizaz qulağımıza yetişir və burada [i] səsi təsirini hasil edir. Lakin bu surətlə təşkil edəcəyi kanallar hər zaman bir-birinin eyni olmaya bilir. Bu [i] səsindən əvvəl və yaxud sonra tələffüz edilən və yaxud ediləcək olan səsin burada pək böyük təsiri vardır.

İnsan yüz binlərcə ildən bəri səs ilə məqsədini anlatmaq və lisanı təkamül etdirmək sayəsində qonuşmaq o dərəcəyə varmışdır ki, bu gün artıq bir sözü söyləmək istədiyi zaman tədaiyi-əfkar **(ассоциация идей)** sayəsində bütün bir söz, hətta bütün bir cümlə birdən zehnə gəlir və bunun üçün bir səsi söylərkən insan daima ondan sonra gələcək səsi göz önündə tutaraq, ikinci və yaxud üçüncü səsə də sövti üzvlərini hazırlar. İştə bu halın nəticəsi olaraq, daima səs özündən əvvəl və yaxud sonra gələnlərin təsiri altında bulunur. Bu nöqtəni müəllimlər daima xatırda tutmalıdırlar. Çünki bu hadisədən səslərin tədqiqi və təlimi ilə uğraşanlar üçün qayət mühüm nəticələr çıxarıla bilir:

1) Birinci nəticə, bir sözün başında bulunan bir səs ilə sözün ortasında və yaxud sonunda bulunan eyni səs arasında böyük fərq vardır. Bunun üçün sövtiyyatda, səslərin tədqiqində daima baş səs, orta səs və son səs ayrıca göstərilir və qeyd olunur. Türk-tatar müqayisəli lisaniyyatı bizə türk dilində bundan bir çox əsrlər əvvəl bulunan baş, orta və son səslərin başqa-başqa səslərə təbəddül etdiyini pək açıq, pək qəti surətdə göstəriyor.

2) Dil səslərini işdə bunun üçün ayrı-ayrı almaq qabil deyildir. Səslərin ayrı-ayrı alınması yalnız təlimi və tədrisi məqsədlə yapılmışdır ki, bunun da artıq tərk edilməyə başlandığını ilərida görəcəyiz.

3) Buradan çıxan bir nəticə də şudur ki, səsləri söz, sözləri cümlə içərisində tədqiq etmək lazımdır. Səsləri bəsit mədənlərə bənzətmək qabil deyildir. Kimya elmi mürəkkəb mədənləri və üzvi vücudları bəsitlərə təhlil edə bilir. Lakin biz səsləri elmi nöqteyi-nəzərdən tamamilə mücərrəd və bəsit surətdə əldə edəməyiz.

İştə bu nəticələri gözdən keçirdikdən sonra şunu da deməliyiz ki, elmi nöqteyi-nəzərdən səs üzviyyət ruhiyyətimizin bəlli bir qisminin fəaliyyətdən nəşət edər.

Hərf və yaxud yazıya gələcək olursaq, bunun mənşəyi və tarixi tamamilə başqadır. Səs hər şeydən əvvəl sameəvi, yəni qulaq vasitəsi ilə əldə edilən bir intiba, təsir **(ощущение)** olduğu halda, yazı yalnız basirəvi, göz vasitəsi ilə alınan intibalardandır. Səs çıxaran üzvlərimizlə yazını meydana gətirən, bir sözlə yazan üzvlərimiz və bu işdə iştirak edən əsəblərimiz, əzələlərimiz tamamilə başqadır. Daha ilərıyə gedəcək olursaq, damağımızdakı dil və səs mərkəzimizlə yazı və hərf mərkəzimiz arasında da fərq vardır. Yəni səs ilə yazı damağımızda tamamilə ayrı və müstəqil mərkəzlər tərəfindən idarə olunur.

Yazı əvvəla "təsviri" **(пиктография)** təbir olunan yazılar şəklində başlamışdır ki, burada əlaladə səs ilə yazı arasında böyük bir fərq yoxdur. Bu soy yazı bu gün də bir taqım ibtidai xalqlar arasında rast gəlməkdədir. Bu soy yazılara ən ziyadə Şimali Amerika yerlərində rast gəlinməkdədir.

Malleri **(Mallery)** namındakı alim bu yazılar haqqında bir çox əsərlər yazmış və bunların rəsmlərini nəşr etdirmişdir. Bu soy yazılara əksəriyyən daş üzərində dünyanın hər tərəfində – İngiltərə, İsveç, Norveç, Monqolustan, Afrika, Avstraliyada... rast gəlinir ki, bu surətlə ümumiyyətlə yazının bütün xalqlarda bu surətlə başladığını fərz etmək pək ziyadə qolaydır. İnsan gördüyü əşyanın əvvəla eynən şəklini kopya və təsvir etmək surəti ilə ifadə etməyə çalışmışdır. İştə bu yazıların daş üzərində qalmışlarına "petroqlif" **(петроглиф)** təbir olunur. Bu soy yazının inkişafına bir misal olaraq şu vəqeəni zikr edə biliriz:

Yerli meksikalılar latınca "pater noster" **(pater noster)**, yəni "bizim babamız" sözünü yazmaq üçün əvvəla bir "bayraq" almışlar. Bayraq yerli Meksika dilində *pan*, sonra "daş" meksikaca *te*, kaktus

meyvəsi meksikaca *noçte* **(notscn)**, son[ra] yenə "daş" *te* ki, bu surətlə: *Pante noç* **(Pante notscnte)** sözü əldə edilir və bu söz – *panter noster* ən ziyadə yaxın bir söz olaraq, daha doğrusu, bu latın sözlərinin qarşılığı olaraq qəbul olunur.

Yazının inkişafında ikinci dövr şimdi gətirdiyimiz misalda da müşahidə olunduğu vəchlə, rəsmlərin artıq müstəqil mənalarda deyil, bəlkə, müəyyən hecalar və yaxud səslərin ifadəsi üçün qullandığını görürüz. Yazının bu dövrünə "ideoqrafiya" **(ideographie)** təbir olunur ki, Misir, Çin və "çivi" **(клинопись)** bu növdəndir. Bundan sonra hecai **(syllabigue)** və hərfi **(буквенный)** və sövti **(фонетический)** yazılar gəlir.

Türk-tatar xalqları tarixlərinin bizə məlum olan dövrlərindən zamanımıza qədər bir çox yazılar qullanmışlardır. Bəzi alimlər Mesopotamiya mədəniyyətinin ən əski yazısı olan və bir çox zamanlar Kiçik Asiyada və onun ətrafında yeganə yazı olaraq qullanılan çivi – mixi və yaxud mismari yazını da Turan xalqlarının icad etdiyi fikrindəsələr də, bu xüsus gərəyi kibi hənuz isbat edilməmişdir. Bu surətlə türk xalqına isnad olunan yazıların başlıcaları Orxon, uyğur yazıları olub, bunların mənşələri haqqında da Radlov, Tomsen kibi alimlərin fikirləri az-çox mütənaqisdir. Bu yazıları türk-tatarlar təqribən beşinci əsrdən başlayaraq qullanmış olsalar gərəkdir. Bu yazılarda artıq hecai və hərfi əsasları görüyoruz. Bundan başqa, türk-tatar dilləri rum, latın, yəhudi, qot, ərəb hərfləri ilə yazılmışdır ki, bunların heç birisi bu dilləri sövti surətdə ifadə edəməmişdir.

Yazı da, dil kibi, zehni inkişafımızın və fəaliyyətimizin nəticəsidir. Lakin hər ikisinin inkişaf yolu və dərəcəsi eyni deyildir. Yazı dildən bir çox nöqtələrdə ayrılır. Birinci ayrılıq hər ikisinin inkişafındakı sürətin bir olmamasındadır. Məsələn, türk dillərinin son yazısı olan ərəb yazısının səkkizinci-doqquzuncu hicri və yaxud on birinci miladi əsrdən zamanımıza qədər olan təkamülü ilə türk dillərinin təkamülünü birbiri ilə müqayisə edəcək olursaq, dilin pək çabuq, yazının dilə görə pək ağır dəyişdiyini görəcəyiz.

464 hicri sənəsindən qalmış olan "Divani-lüğatit-türk"də türkcənin şöylə yazıldığını görürüz:

Ol tun yudu. "O kürkünü yıkadı". *Ol angar at atadı.* "O ona ad adadı, ad verdi". *Yaşlığ ər* "yaşlı ər (erkək)", *yastıq* "yasdıq", *yekən* "yalan", *yaşın* "ildırım".

Burada bəhsimiz yazımızın tarixini tədqiq etmək olmayıb, bəlkə, lisanı təbəddüllərlə yazı dəyişmələri arasındakı fərqi göstərmək olduğundan bir də yeni türkcə mətnlərdən bir parça alalım:

Uzaqda bir ada, qarlı şəvahiq ilə köpüklü bir dalğa kibi dururdu cümləsində *ada, bir, dalğa* kibi sözlərin yazılışını alacaq olursaq, Osmanlı-türk şivəsində bunların "dalğa", "ada" və "bir" şəklində söylədiyini biliyoruz. Halbuki yazı burada Mahmud Kaşqarinin imlasına yaxın bir imla ilə bu sözləri qeyd etmişdir.

Hərf və yaxud yazının səs ilə olan münasibəti, məsələn, Ayvazovskinin fırtınalı bir dənizi göstərən tablosu dəniz ilə gerçəkçi dəniz arasında olan fərqlə ölçmək olur. Burada tablo – yazı və həqiqi, canlı dəniz, dil, yaxud səs olur.

Hər halda dil oxudan, əlifba tədrisinə başlayan müəllimlərimiz xüsusu iyicə xatırlarında saxlamalıdırlar. Əski məktəb çocuqların məktəbə gələrkən nasıl bir lisani sərvət, söz xəzinəsi gətirdiklərini nəzəri-etibara almağa lüzum görmədən, doğrudan-doğruya əlifba və yazı oxutmağa qalxışırdı. Halbuki əlifbaya başlamadan əvvəl müəllim çocuqlarla gərəyi kibi aşina olmalı, bunun üçün də onlarla ən ziyadə tanış olduqları və digər dərslərin məalına, mündəricəsinə uyğun müsahibələr götürməlidir. Bu soy müsahibələrin teması, tərtib üsulu, az-çox müəllimin öz ixtiyarına bağlı qalır. Hər nə qədər son zamanlarda gərək rus və gərəksə türk-tatar üsulçuları bu xüsusda bir taqım planlar təklif etməkdə isələr də, bundan məqsəd daha ziyadə müəllimlərə tutuna biləcək istinadgah vermək olub, yoxsa müəllim tələbələrini iyi tanıdığı təqdirdə daima daha iyilərini bula bilir. Müxtəlif üsulları izah edərkən bu xüsusdakı nümunələrdən bəzilərini zikr edəcəyiz.

ƏLİFBANIN ÖYRƏDİLMƏSİ

Höccələmə üsulu. Sövti üsul. Fonomiçik (sövti təqlid) üsulu. Məxrəclər üsulu. Bütün şəkillər üsulu. Nəticə. Əlifbasız oxutma. Əlifba dərsi nümunələr.

Türk-tatar xalqları ərəb yazısını qəbul etdiklərindən onların məktəblərində qullanılan üsul da bu yazıya uyğun olaraq qəbul edilmişdir. Bu üsul "höccələmə üsulu" **(буквослогательный, слоговый)** namilə məşhur olan üsuldur ki, Avropa və rus məktəblərində də sövti üsula **(звуковой метод)** qədər hökm sürmüşdür. Bu üsul hecai yazıya uyğun bir üsul olub, hərflər yerinə o hərflərin bir və ya bir kaç hecadan ibarət adları öyrədilir və bu adların tərkibi sayəsində söz əldə edilir.

"Əlif", "be", "te", "sin", "şin", "sad", "zad", "ayn", "ğayn", "qaf", "kaf", "nun"... ilax. kibi isimlərlə zikr olunan hərflər tərkib olunur və etibari, cəbri bir yolla hərfi nəticələr əldə edilir, məsələn:

"Be" + "əlif" = *ba*, "sad" + "əlif" = *sa*, "ğayn" + "əlif" + "be" = *qab* və sairə. İştə yazı da bunun üçün əlifba **(азбука)**, yaxud **alphabeta** namilə yad oluna gəlmişdir. Bu üsulu, Afanasyevin dediyi kibi, tamamilə işdən çıxmış və məktəblərdən çıxarılmış bir üsul olaraq təsəvvür etmək əlbəttə, yanlışdır. Çünki bütün yeni Şərq və Qərb məktəblərində ən böyük yer işğal edən sövti üsul əsas etibarilə höccələmə üsulunun bir az islah edilmişdir.

Sövti üsulu Avropa məktəblərinə XVI əsrdə alman pedaqoqlarından İkelzamer **(Икельзамер)**, yenə alman pedaqoqlarından Stefani **(Стефани)** namındakı zatların himməti ilə girmişdir. Rusiya türk-tatarları arasında on doqquzuncu əsrin sonlarında məşhur qəzetçi və pedaqoq İsmail Qasprinskinin təşviqi və qeyrəti ilə məktəblərə girə bilmiş və 1905-ci inqilabından sonra böyük bir sürətlə həman bütün türk-tatar məktəblərini qaplamışdır. Bu üsulun ilk dəfə məktəblərdə tətbiqi Bəkir Əməkdar, Mahmud Rüfət[18] kibi müəllimlərin ismi ilə bağlıdır.

Dilin vahidi-qiyasisi, ən bəsit ünsürü olaraq səsi alıb bunun üzərinə əlifbanı öyrətməyə çalışan sövti üsulun bir kaç şəkli vardır:

1) tərkibi **(синтетический)**,
2) təhlili **(аналитический)**,
3) təhlili-tərkibi **(аналитико-синтетический)** üsuludur.

[18] Tatarlarda üsuli-cədid. İ.Bayburtlu, №2, 1923.

Sövti üsulun tərkibi şəkli ayrı-ayrı səsləri və bunların işarəti olan hərfləri öyrədərək, bunlardan hecalar və sözlər təşkilinə, qurulmasına doğru gediyor. Əski üsulda, yəni höccələmə üsulunda səslərin ənənəvi sırasına qarşı sövti üsul səslərin sırasını başqa dürlü, yəni bu səslərin qolaylığına, güclüyünə görə təsbit edir. Bundan başqa, səslərin hecalara və bunların bütün sözlərə çevrilməsi səslərin öyrənilməsi ilə müvazi surətdə gediyor, əski üsulda olduğu kibi, bütün əlifbanın keçilməsinə buraxılmıyor. Məsələn, çocuqlarla [b], [a] səslərini keçər-keçməz bunlardan dərhal *ba* hecası və *baba* sözü əldə ediliyor.

Üsuli-sövtinin təhlili şəklinə gələcək olursaq, bunda tərkibi üsulun əksinə olaraq, sözdən hərəkət olunur. Sonra söz hecaya, heca səslərə təhlil olunur. Bu üsulu tam şəklində məşhur fransız pedaqoqu Jokotoda **(Жокото)** (1770-1840) rast gəliyoruz ki, bu adam Fenelunun "Telemax" namındakı əsərindən bütün cümlələr alaraq, buradan sözlər, hecalar və səslər ayrılır. Bu üsul məlumdan məchula, konkretdən – şanidən mücərrədə doğru gediş olmaq dolayisilə, şübhəsiz, daha məntiqi və sağlam bir üsuldur.

Bu gün artıq məktəblərdə bu üsulların heç birisi müstəqil olaraq qullanılmıyor. Bu gün artıq məktəblərdə təhlili-tərkibi üsul keçilir. Yəni oxuma-yazma bir yerdə öyrənilir. Bu üsul bütün təfərrüatı ilə "səslərə hazırlıq mümarisələri"ni işləmişdir ki, burada nitqin sözlərə, sözlərin hecalara və bunların səslərə ayrılmasından sonra təkrar səslər hecalara, hecalar sözlərə, sözlər də bütün bir cümləyə toplanır. Cümlənin sözlərə, hecalara və səslərə, bunların da cümləyə toplanması qiraət-oxuma əsası kibi tələqqi olunurdu. Bundan sonra yazma, oxuma bir yerdə gedir. Yazılan söz dərhal oxunur. Bununla bərabər, yazma oxumadan əvvəl gəlir. Çünki təhlil tərkibdən əvvəl yapılır.

Bu üsulun əsası "səsin dilin ən bəsit vahid qiyasisi kibi tələqqi olunub, hər sözün səslərə ayrıla biləcəyini" zənn etməkdən ileri gəlir. Bunun üçün hər hankı bir sözü səslərə ayırmaq, sonra ayrılan səsləri sözlərə, cümlələrə toplamaq oxumaq-yazmağın əsasını əldə etmək üçün kifayət edər.

Bu üsul həqiqətən "oxumuş" adamın icadıdır. Çünki bu üsulun əsas etibarilə aldığı canlı dil deyil, bəlkə, yazıdır. Burada səsdən ziyadə hərf göz önündə tutulmuşdur. Səs ilə hərf yalnız sövti üsulu icad edənlərin bir-birinə qarışdırması nəticəsi olaraq meydana çıxmış deyildir. Bu üsul üçün bir çox rəhbərlik yazanlar, sərf və nəhv kitabı

tərtib edənlər eyni xətaya düşmüşlərdir. Rus məktəb və sərflərində təkrar oluna gələn bu böyük və elmi xəta, akademik Fortunatov **(Фортунатов)** tərəfindən göstərildiyi kibi, türk məktəb sərflərində eyni halın mövcud olduğu bizim bir çox məqalə və əsərlərimizdə ayrı əhəmiyyət və diqqətlə ileriyə sürülmüşdür.[19]

Şimdi sövti üsulu daha yaxından tədqiq edəcək olursaq, hər şeydən əvvəl yuxarı bəhslərdən birisində ("Lisaniyyatın əsasları"...) azçox təfsil ilə zikr etdiyimiz nöqtəni xatırlamalıyız. Canlı, yəni tələffüz olunan bir sözdən səsləri ayırmaq qabil deyildir. Bu surətlə sözdən ayrılacaq olan səs heç bir zaman belə canlı söz içərisində bulunan səsin eyni deyildir. Hər səs söz içində kəndisindən əvvəl və yaxud sonra gələn səslərə görə təbiəti dəyişdirir. Bunun üçün ayrılıb alındığı, təcrid edildiyi zaman əlimizdə artıq söz içindəki səsdən yalnız bir əsas, ümumi tip qala bilir. Saitələr haqqında bu fikir doğru olduğu kibi, samitələr **(согласн.)** haqqında daha ziyadə doğrudur.

Məsələn, [k], [p], [b] kibi səsləri *ka*, *pa*, *ba* kibi hecalardan təcrid edərək, ayıraraq tələffüz ediniz. "Maneəli" və "indifai" **(взрывные)** təbir olunan bu səslər daima ciyərlərdən gələn hava qarşısında dil, diş və dodaqların maneə təşkil etməsi və bu maneənin havanın şiddəti, qüvvəti sayəsində ortadan qalxması ilə meydana gəlir. Lakin bu maneə ortadan qalxar-qaxmaz dərhal mədid, uzun bir səs, yaxud bir saitə hasil olur ki, əvvəlki indifai səs ilə bu saitə üzvi surətdə bir-birinə yetişmiş və ayrılmayacaq bir halda bulunur. [K], [p], [b] kibi səsləri ayrıca tələffüz etmək istədiyimiz təqdirdə bunların istehsalı üçün lazım gələn indifa, patlamadan **(взрыв)** sonra daima qısa bir nəfəs **(короткое дыхание)** hasil olur ki, bu səslərin hüviyyəti şu surətlə təyin edər:

Səs + qısa nəfəsalma və bundan hasil bir növ gurultu.

Buradan pək açıq olaraq görülür ki, canlı tələffüz olunan bir sözdən səsləri ayırmaq qabil deyildir. Yazını hərflərə ayıra bildiyimiz kibi, sözü səslərə ayıramaz. Ayrı alınan səslərlə söz içərisindəki səslər arasında yalnız üzvi (fiziolojik) deyil, bəlkə, eyni zamanda sövti **(акустический)** fərq vardır. Söz səslərin bəsit və adi yekunundan ibarət deyildir. Yəni *baba* = [b] + [a] + [b] + [a], yaxud *daba* = [d] + [a] + [d] + [a] deyildir. Yuxarıdakı bəhslərimizdə dediyimiz kibi ayrı səs başdan-başa bir fərziyyə, bir xəyaldan ibarətdir.

---

[19] Bunlardan Azərbaycan "Yeni məktəb" məcmuəsinin 1925 tommuz nüsxəsində çıxan "Türk dili sərflərinin ümumi qüsurları" namındakı müfəssəl məqaləmizi göstərə biləriz.

Bütün bunlar doğru isə, sözü səslərin yekunu sayaraq, iştə başlayan sövti üsulun ən mühüm və dərin əsası öz-özlüyündən sallanmış olur.

Çocuğun qulağı da, yaşlı adamın qulağı (daha doğrusu, sameəsi) kibi, ayrı-ayrı səsləri deyil, bəlkə, bütün bir sözü, hətta cümləni bir küll, bütün olaraq qəbul edir. Həqiqətən bir nəfəsilə söylənən bir söz, bir cümlə, yaxud bir cümlə parçası bir-birinə o qədər bağlıdır ki, insanın sameəsi bunları birdən alır və birdən tələqqi edər, anlar. Buna qarşılıq sövti üsul rəhbərləri və tərəfdarları səslərin təmdid olunaraq, çəkilərək tələffüz olunmasını tövsiyə ediyorlar. Halbuki nə qədər uzadılırsa-uzadılsın, samitələri və bilxassə ani **(мгновенный)** səsləri saitlərdən və ümumiyyətlə başqa səslərdən ayırmaq qabil olmaz.

Sövti üsulun bu xüsusda nə qədər aciz olduğu, səsləri ayırmaqdan ziyadə birləşdirməkdə görüliyor. Ayrı-ayrı səsləri tərkib edərək tam bir söz əldə etmək üçün müəllimlərin faydasız yer və məktəblərdə nə qədər uğraşdıqları cümləyə məlumdur. Müəllim və tələbələr nə qədər uğraşırsa-uğraşsın, müəllimin komandası ilə çocuqlar ayrı-ayrı səsləri bir-birinin arxasından nə qədər çabuq tələffüz edərsə-etsin, heç bir zaman bir taqım süni çarələr araya qarışmadan bu ayrı və cansız səslər bütün bir canlı söz meydana gətirəmiyor. Çünki "a + b" tərkibi daima "b" və qısa bir tənəffüs ilə "a"nın tərkibindən ibarət oluyor. Halbuki *ba* hecası doğrudan-doğruya bir səs tərkibindən ibarətdir. Birinci əsası söylərkən sövti üzvlərimizin çalışması qətiyyən ikincisindəkinin eyni deyildir. Ən iyi müəllim burada sövti üsulu ən fəna tətbiq edən, – demək lazım gəlir. Belə bir müəllim çocuqları çox yormadan səslərin birləşməsindən çıxacaq hecanı və yaxud sözü söyliyor.

Sövti üsulda, bir daha təkrar edəlim, əsas səs olmayıb, bəlkə, səs yerinə alınan hərfdir. Tələbənin birisinə [b] səsini söylədərək, o birisinə dərhal [a]nı əlavə etdirmək də eyni tərzdə irtikab olunan əfv olunmaz xətalardandır. Bu surətlə əldə edilən *ba* hecası taxtaya yazılır, hətta yazı vasitəsilə bir-birinə birləşdirilir. Halbuki, yuxarıda söylədiklərimizdən anlaşıldığı kibi, iki ağızdan çıxan səs ilə bir heca tərkib və təşkil etmək lisaniyyatın və ümumiyyətlə elmin əsas qaydalarına ziddir, qarşıdır. Əgərçi bu surətlə alınan heca doğrusa, o halda "b + əlif = ba" tərkibi də eyni surətlə doğrudur. Çünki hər iki halda ayrı-ayrı hecalar birləşdirilərək, bütün hecalar əldə edilir. Bu da ancaq bu hecaların bir-birinə bənzəməsi və tədaiyi-əfkar qanunu sayəsində mümkün ola bilir. Bu təqdirdə sövti üsul ilə hərf və yaxud höccələmə üsulu

arasında qətiyyən böyük bir fərq yoxdur, – deməkdir. Burada sövti üsulun höccələmə üsuluna qarşı artıqlığı, təfəvvüqü yalnız hərflərin isimlərini, adlarını bəsitləşdirərək "əlif" yerinə, "a", "sad" yerinə, "s" kibi isimləri yerləşdirməsindən başqa bir şey deyildir. Başqa bir cəhətdən höccələmə üsulu, sövti üsula faiqdir. Çünki höccələmə üsulu doğrudan-doğruya "b + əlif = ba" deyə öyrədir və bu isimlərə səslərin isimləri, işarətləri nəzəri ilə baxır. Halbuki sövti üsul, hərfləri, səs yerinə qəbul edərək bu hərflərin tərkibindən sözlər hasil olduğuna inanıyor.

Xülasə, sövti üsulu bu gün artıq yeni məktəblərdə qəbul və tətbiq oluna biləcək bir üsul adlandıramayız. Sövti üsul, bir tərəfdən, canlı dildən çocuqları ayırır, digər tərəfdən, elmi lisaniyyatın əsaslarına müxalifdir. Nəhayət, tərbiyəvi nöqteyi-nəzərdən baxıldıqda yalnız mücərrəd və çocuqların zehnlərinə girməyəcək dərəcədə xəyali olan səslər və lisani hadisələrlə məşğul olduğundan eyni surətdə mənfi bir üsul olaraq görülür.

Bizim məktəblərimiz sövti üsul üzərində elmin son nəticəsi olaraq durub-qaldığı halda, Avropa və rus məktəbləri uzun zamanlardan bəri yeni-yeni üsullar aramağa qoyulmuşlar və artıq zamanımıza qədər bu yolda bir çox diqqətəlayiq təcrübə və nəticələr əldə etmişlərdir.

Bu gün artıq əsasları elmi lisaniyyatın verdiyi nəticələr, məlumatdan alınmış üsullar vardır ki, bunların başlıca mövzuları tələffüzlərin təhlilindən ibarətdir. On altıncı əsrdə sövti üsulun əsasını qurmuş olan İkelzamer səslərin təbiətini meydana çıxarmaq üçün təhlil və tərkibdə tələffüzlərin **(произношения)** tədqiqini ilərıyə sürmüşdür. Lakin daha açıq və daha qəti surətdə tələffüzləri təhlil üsulunu fransız pedaqoqu Olivye **(Оливье)**, alman pedaqoqları Kruqa **(Круга)**, Şave **(Шаве)** on doqquzuncu əsrin başlarında tətbiq etməyə başlamışlardır. Ruslarda bu üsulun Anastasyev **(Анастасиев)** tərəfindən təcrübə olunduğunu biliriz. Bu üsulun şimdiyə qədər məktəblərə girəməsinin səbəbi bu üsulda tələb olunan qarışıq tələffüz, daha doğru[su], məxrəc **(articulation)** isimlərinin əlifba tədrisini qolaylaşdıracaq yerdə daha ziyadə güclaşdirməsindəndir.

Ən maraqlı və səs fiziologiyası-üzviyyətinin bütün xüsusiyyətlərini və elmi sövtiyyatın verdiyi məlumatı qullanan üsul Meymanın "Təcrübi pedaqoji haqqında mühazirələr" namındakı əsərinin üçüncü qismində də zikr etdiyi, alman pedaqoqu Şpizer **(Шпизер)** tərəfindən

tətbiq olunan üsuldur. Bu adam burun və ağız boşluğunu ikiyə ayıran kəsmə bir model ilə çocuqlara müxtəlif səslər istehsal olunurkən nəfəsin nasıl çıxdığını göstəriyor. Bundan başqa, üzərində səslər istehsal, yaxud tələffüz olunurkən dodaq, dil, dişlərin, damağın **(небо)** oynadığı rolları, aldığı vəziyyətləri göstərən lövhəciklər hazırlayaraq bunlar vasitəsi ilə bütün qonuşma, söyləmə, nitq əməliyyəsini **(процесс)** çocuqlara öyrətməyə çalışıyor. Çocuqlar hər səsin lövhəciyini və bu lövhəcikdə göstərilən tələffüz əməliyyəsini, şəklini görərək bəllədikdən sonra bu lövhəciklərin **(карточки)** dürlü-dürlü tərtibdə birləşdirilməsi ilə dürlü hecalar və sözlər təşkilinə çalışıyorlar. İşlər məktəbdə ilərilədikdən və çocuqlar birinci hazırlıq dövrəsini keçirdikdən sonra bu lövhəciklər yerinə, hərflər qoyularaq işə başlanır. Lakin bu hərflərə sövti üsulda və yaxud höccələmə üsulunda verilən isimlər deyil, bəlkə, bu səslərin məxrəclərinə, əldə edilmələri üsuluna işarət edilə biləcək başqa adlar veriliyor.

Bundan görünür ki, Şpizer hərflərin səs adı ilə adlandırılmasından və səs yerinə hərf öyrədilməsindən qaçaraq, bu üsulu həqiqətən təcrübi və elmi fonetika qaydaları üzərinə qura bilmişdir.

Lakin professor Meyman Şpizerin üsulunu izah edərkən çocuqların bu üsul sayəsində tamamilə canlı səslə tanış ola biləcəklərindən haqlı olaraq şübhə ediyor. Bundan başqa, yuxarıda ismini çəkdiyimiz fransız, alman və rus pedaqoqlarının üsullarında gördüyümüz güclüyü burada da görüyoruz. Çünki çocuqları birdən-birə olduqca qarışıq bir əməliyyə olan səs istehsalı, tələffüz, məxrəc məsələləri ilə – müşahidə, göstərmə üsulu ilə olsun – tanış etmək, sonra o vaxta qədər eşitmədikləri bir taqım rəmzi **(символический)** isimləri çocuqların zehnlərinə soxmaq qolay işlərdən deyildir.

Son zamanlar Rusiyada getdikcə kəndisinə böyük bir yer ayırmaqda olan üsullardan birisi də bütün şəkillər üsuludur **(метод целых образов)**. "Amerikan üsulu" **(американский метод)** namilə şöhrət bulan və Rusiyada Y.Yanjulun **(Е.Янжул)** "Amerikan məktəbi" namilə yazdığı əsəri vasitəsi ilə intişar edən üsul da "bütün şəkillər" üsulunun bir budağıdır. Professor Meyman bu üsulu "bütün şəkillər üsulu" təsmiyə etdiyi kibi, başqaları "tərkiblər üsulu" **(метод совокупностей)** adlandırırlar.

Bu üsul çocuqları birdən-birə yaşlı adamların oxumaqdakı vəziyyətinə qoyar. Təcrübi pedaqojinin bizə göstərməsi boyunca yaşlı adam

ayrı-ayrı hərfləri deyil, bəlkə, bütün sözləri, cümlələri birdən oxur. Bu üsulun hərəkət nöqtəsi çocuqlara tanış olan maddələrin rəsmini cızmaq, yaxud surətini göstərməkdir. Hər rəsmin, yaxud surətin altına, yaxud yanına onun ismi də yazılı bulunuyor. Çocuqlar bu rəsmlə yazını bir arada görə-görə ikisini bir arada xatırlamağa alışdıqdan sonra rəsm ortadan qaldırılıyor, yalnız yazı qalıyor. Bu surətlə çocuqlar ayrı-ayrı səsləri tanımadan bu sözləri və yaxud cümlələri oxumağa öyrəniyorlar. Tərkib üsuluna, yəni çocuqlara başda hərfləri, sonra bu hərflərin birləşdirilməsindən hasil olan sözləri, daha doğrusu, bunların yazılarını öyrənməyə alışan bizlər üçün bu üsul fövqəladə güc və tətbiqi mümkün olmayan bir şey kibi görünür.

Bu üsulun ən böyük məziyyətlərindən birisi eyni zamanda həm basirəvi-göz (rəsmi-surət vasitəsi ilə), sameəvi (rəsmlərin və altına yazılan yazıların ağızdan söylənməsi), əzələvi (yazıların və rəsmlərin oxunması, söylənməsi və bu sayədə sövti üzvlərin hərəkət etməsi) intiba və təsirləri birləşdirərək çocuqların zehnində – başqa üsullarda – yalnız yazıdan hasil olacaq xəfif və zəif xatirələri möhkəm surətdə yerləşdiriyor. Bunun üçün hənuz hərfləri və yazını tanımayan çocuqlar buna baxmayaraq oxuduqlarının mənasını anlayaraq və eyni zamanda lazım gələn ahəng və vurğunu da əldə edərək oxuyurlar ki, bu da ifadəli qiraət[ə] **(выразительное чтение)** hazırlıq xidmətini görüyor.

Bundan başqa, bütün şəkillər üsuluna pək yaxın digər bir üsul daha vardır ki, bu da səs təqlidi **(фономимический)** təbir olunan üsuldur. Bu üsul 1889-1900 sənələrində Parisdə fransız pedaqoqu Qroslen **(Гросслэн)** tərəfindən işlənmişdir. Bu üsulun əsası müstəqil mənaları olan ayrı-ayrı səsləri alaraq çocuqlara bunları öyrətmək və nəhayət, bunların tələffüzü zamanında simanın, ağzın aldığı vəziyyətləri göstərir[...]

Məsələn: "ş!", "s!", "a!", "u!", "e!" kibi nida səsləri **(междометия)**, yaxud "a?", "e?" kibi istihfam, sorğu hecaları, səsləri ilə əlifbanın təliminə başlar.

Təqlidi səs üsulunu Qroslen canlı dildən yazılı dilə qolayca keçmək üçün bir intiqal, keçmə üsulu olaraq qullanıyor və bu nöqteyi-nəzərdən diqqətəlayiqdir. Bu üsulu göz önündə tutmaq əlifbanın birinci zamanlarında faydalı material verə bilir.

Əcəba, şimdiyə qədər zikr olunan üsullardan ən iyisi hankısıdır?

Bir çoxları bu suala: "Ən çabuq əlifbanı öyrədəni" deyə cavab verməyə meyil edərlər. Lakin son zamanların pedaqojisi ümumiyyətlə

tezlik, sürətdən sakınılmasını tövsiyə ediyor. Bütün şəkillər təqlidi səs üsullarını müvəffəqiyyətlə tətbiq edə bilmək üçün sıxı və zorluqlu sürətdən vaz keçilməsi lazım olduğu ayrıca qeyd olunuyor. Zəhmət məktəbinin birinci sənələrində çocuğun zamanını yalnız əlifba tədrisilə doldurmayıb, bəlkə, əlifba ilə başqa məşğuliyyətlərin (rəsm cızma, kəsmə, yapışdırma, ümumiyyətlə əl işləri...) də sıxı-sıxıya bağlanmasını şərt qoyuyorlar.

Bunları nəzəri-etibara aldıqda ən iyi üsulun çocuqların təbiətinə, inkişaf xətlərinə müvafiq olan üsul olduğunu qeyd etmək lazım gəlir. Hər dürlü üsulun qiymətini verə bilmək üçün əlimizdə bulunan yeganə mizan budur. Burada, heç şübhəsiz, müəllimi də göz önündə tutmaq lazımdır. L.N.Tolstoyun fikrincə, ən iyi üsul müəllimin ən iyi bildiyi və ən gözəl qullana bildiyi üsuldur. Bu fikir doğrudur. Lakin buradan müəllimin yeni heç bir şey öyrətməyib, öz dar mühitinin çərçivə və təamülləri, ənənələri içərisində sıxışıb qalması mümkündür, – nəticəsi çıxarılamaz. Bununla bərabər, çoxdan-çox üsul dəyişdirməsi, yaxud bir üsuldan başqasına adlayıb durması da pək ziyadə təhlükəli bir hadisə olaraq qeyd olunmalıdır. Bir sözlə, müəllim öyrədirkən o öyrənməlidir.

Bundan başqa, Tolstoyun bu xüsusda gözəl bir fikri daha vardır ki, bunu da burada zikr etməliyiz. Tolstoy deyir ki, heç bir iyi və yaxud fəna üsul yoxdur. Ən fəna üsul yalnız bir üsul içinə saplanıb qalmaqdır. Ən iyi üsul elə bir üsulsuzluqdur ki, müəllim hər üsuldan iyi, müsbət nöqtələri bulub ala bilsin və hər müşkül qarşısında yeni bir çarə, tədbir görə bilsin.

Məşhur lisançılardan professor Tomson **(Томсон)** da buna yaxın fikirlər bəyan ediyor:

"Məktəblərdə dil öyrətmənin ən məqul üsulu (əvvəldən hazırlanmış reçteyə, əvvəldən qurulmuş plana bənzəyən) üsulsuzluqdur. Yəni məktəbdə istemalı və fayda gətirməsi mümkün olan hər dürlü üsulu tətbiq edə bilməlidir. Çünki hər üsulun faydalı və müsbət nəticələr verə bilməsi üçün bir taqım şərtlər vardır. İştə bunun üçün ayrı-ayrı hər dəfədə, hər halda və vəziyyətdə müəyyən üsullara, məktəbin daxili və xarici həyatına görə lazım gələn əlavə və təshihləri yapmasını bilməlidir.[20]

[20] *Общее языковедение*, 2-е изд., стр. 413, 409 (по Афанасьеву).

ƏLİFBASIZ OXUMA

Безбуквенное обучение грамоте

Yuxarıdakı bəhslərimizdə ibtidai məktəblərdə, birinci basamaq zəhmət məktəblərində dil tədrisatının mövzusu çocuqların ana dili olduğunu qeyd etdik. Halbuki çocuqların ana dilini, məhəlli şivəni nəzəri-etibara alan bir tədris planına uyğun əlifba kitabı tərtib etmək pək ziyadə gücdür. İştə bunun üçün pedaqoji, tərbiyə aləmində "əlifbasız oxutma" lehində getdikcə böyük bir cərəyan doğmaqdadır. Əskidən bəri rus və Avropa məktəblərində və bir az əvvəl bizim məktəblərdə əlifbasız oxutmaya doğru götürən ünsürlər girmişdir ki, karton hərflər, əlifba cədvəlləri belə bir hərəkətin başlanğıcı kibi tələqqi oluna bilir. Zəhmət məktəblərinin qurulması və bu zəhmət məktəblərinə uyğun proqramların tərtibi ilə əlaqədar olaraq, bu son sənələrdə bu cərəyan daha da artmış və qüvvətlənmişdir.

Karton hərflərin çocuqlar tərəfindən yapılması, oxunan səslərin, sözlərin, cümlələrin çocuqlar tərəfindən rəsmləri çəkilməsi və nəhayət, dilə, şivəyə aid cədvəllərin düzülməsi dil tədrisində zəhmət ünsürünün birinci dərəcələri kibi tələqqi olunmaqdadır. Doğrudan da, əlifbasız oxutmanın faydasına bir çox əsasları, dəlillər vardır. Əlifbasız oxutma çocuğun təbii ana dili ilə süni ədəbi dil arasında köprü, keçid qurmaq pək ziyadə qolaydır. Əlifbanı oxutma çocuğu sürətlə təbii dildən, əsasdan ayıraraq süni və mücərrəd sahələrə sürükləməyə çalışdığı halda, əlifbasız oxutma təbii dil ilə süni, mücərrəd və ədəbi dili tərbiyə, elm qanunlarına və çocuqların ruhlarına, zehinlərinə daha uyğun və daha faydalı bir surətdə ahəngləşdirə bilir, prozsuz, maneəsiz birisindən digərinə onları keçirir.

Hazır əlifbalarda basmaqəlib və ümumi tərzdə bəzən və çocuğun nə şəxsiyyət, nə ruh və nə də mühitini nəzəri-etibara almayan materiala qarşılıq əlifbasız oxutmada material tələbələrin həyat və məişətinə daha ziyadə yaxlaşa bilir. Rəsmlərin altına, divarlara, bayraqlara yazılacaq dürlü-dürlü yazılar belə oxutmanın – əlifbasız [oxutmanın] planına pək qolay girə bilir. Bu surətlə çocuqların öyrənib yazacaqları sözlərə, əlifbalarda olduğu kibi, artıq cansız və çocuqlar üçün mücərrəd sözlər gözilə baxılamaz. Bu sözlər çocuqların öz məktəblərindən, öz təbiətlərindən, yaşayışlarından alınmışlardır.

"Ana dilinin öyrənmə üsulu" namındakı əsərilə son zamanlarda dilçilər və tərbiyəçilər aləmində böyük bir şöhrət qazanmış olan P.O.Afanasyevə görə, ruslardan üç müəllim və müəllimə bu xüsusda ən ciddi addımlar atmışlardır. Bunlardan Tixeyeva **(Тихеева)**, Morozovanın **(Морозова)** yazdıqları "Əlifbanın təbii surətdə öyrənilməsi üsulu" **("Способ естественного усвоения грамоты")** əsərləri ilə, bundan sonra meydana çıxmış olan İ.N.Şapoşnikovun **(И.Н.Шапошников)** əsəri hər cəhətdən marağa və tədqiqə layiqdir.

Bir neçə əsərin müəllifləri Tixeyeva, Morozova çocuqların birinci dərəcə tədrisatda xarici, təbii intibalarını nəzəri-etibara almaq lazım gəldiyinə istinad edərək, birinci zamanlarda kitab yerinə üstlərinə cümlələr və sözlər basılan lövhəciklərin **(карточка)** qullanılmasını tövsiyə edirlər. Hər məktəbin öz çocuqlarının işlərindən, təbiətindən və maraqından əks edən məsələ və fikirləri göstərəcək lövhəcikləri olmaq lazım gəlir. Əlifba və yaxud bu müəlliflərin verdiyi ada görə "lüğət" **(словарь)** (çünki çocuqlar hərfləri deyil, bütün sözləri oxumaq məcburiyyətindədirlər) çocuqlar oxumaq işində az-çox təcrübə sahibi olduqdan sonra lazım olacaqdır.

Çocuqların basılı bütün sözləri birdən oxuya bilmələri üçün onlara sövti və imla cəhətdən ən qolay sözlərdən başlayaraq, müəyyən, bəlli əsaslar üzərində tərtib olunmuş kartoçka – lövhəciklər sistemini veriyorlar. Sameədən (qulaq) başqanın basirə – göz, görmənin də əlifbanı öyrənmədə çocuqlara yardım edə bilməsi üçün bütün bu əlifba tədrisinə oyun şəkli veriliyor. Bu "oyun"un iki tərəfi vardır:

1) oyun üçün lazım gələn oyuncaq və əşyanın seçilməsi,

2) bu oyuncuqların və əşyanın adları olan yazıların tərtibi.

Bu oyunun dürlü üsulları vardır:

1) Çocuqların əlinə lövhəciklər veriliyor. Onlar bunlara baxaraq, lazım gələn maddələri arayıb bulmalıdır. Yaxud, biləks, maddələrə baxaraq, onların adları yazılı olan kartoçkaları bulmalıdır.

2) Masa üstünə bir kaç maddələr qoyulur. Rəhbər (müəllim) və tələbələr masanın çərçivəsində, ətrafında oturuyorlar. İçlərindən birisi masa üzərindəki maddələrdən birisinin ismi yazılı kartoçkanı masa üzərinə buraxıyor. Kim əvvəlcə bu ismi oxuya bilirsə, o kartoçkada yazılı olan maddəni masadan alıyor. Bunun da əksi yapıla bilir. Masa üzərinə əvvəla maddələrin ismi yazılı kartoçkalar qonulur. Bundan sonra sıra ilə maddələr soruluyor və çocuqlar maddə isimləri yazılı olan kartoçkaların üstünə qoyurlar.

Bu kitabda bundan başqa daha bir çox oyun üsulları göstəriliyor ki, bütün bu üsullar sözlərin çocuqların zehnində yerləşməsinə yardım ediyor.

İştə bu surətlə çocuqların zehnində kafi miqdarda söz ehtiyatı **(запас)** toplandıqdan sonra artıq sözləri hecalara, bunları da səslərə və hərflərə ayırmağa başlıyorlar. Hecaları meydana çıxarmaq üçün müəlliflər sözləri kəsmək və yaxud bükmək üsulunu qullanıyorlar. Çoxhecalı sözlərdən əvvəl ikihecalı sözləri alıyorlar. Çocuqlar bu hecaları tanıdıqdan sonra artıq bu hecaların bir yerə gətirilərək eyni sözün təşkil edilməsi, yaxud başqa yeni sözlər yapılması çocuqlara həvalə olunur və bundan sonra üç-dörd, daha ziyadə hecalı sözlərin təhlil və tərkibinə keçilir. Bütün bu işlərdən sonra çocuqlara bütün bir qutu kartoçka verilir və onların özbaşlarına sözləri təhlil və tərkib etməsinə yol buraxılır.

Bu üsulun son dərəcəsi kartoçkaların hərflərə bölünməsi, kəsilməsi və eyni surətlə bu kəsilmiş hərflərdən sözlər təşkili[dir] Şapoşnikovun **(Шапошников)**[21] əsəri də müəllimləri əlifba tədrisi üsulunda sərbəst və icadçı işə gətirmək xüsusunda pək faydalı və maraqlı bir kitabdır.

Bu rəhbərin müəllifi əsərində əsas olaraq canlı dili alır və şəkil təsirlərinə dayanaraq, çocuqları nəqş sənəti **(графическое искусство)** qaydaları ilə yazıya başladır və öyrədiyor.

Nitqin qrafik sənətdəki ifadəsi üçün müəllif iki dürlü işarətdən **(символ)** faydalanıyor:

1) sözlərin yerini tutacaq maddələrin rəsmləri,

2) eyni surətlə sözlərin yerini tutan cizgilər.

Qalan material hekayə, qiraət, canlı müsahibədən alınır.

Əlifbasız oxutmada pək elə mükəmməl alətlər, rəsmlər, cizgilər olmasa da, böyük zərər verməz. Yalnız kəsmə hərflərdən bir kaç nüsxə olmalıdır. Heç olmazsa, bu hərfləri də çocuqların, tələbələrin əli ilə yaratmaq olur. Rəsmlərə gəlincə, onları da təsvirli nəşriyyatdan almaq olur. Burada ən mühüm məsələ prinsip olub, konkret əməli şəkilləri müəllimin özü və tələbələrin marağı bulub çıxarır.

Əcəba, bizim türk məktəblərində bu üsulların hankısı daha ziyadə əlverişlidir?

---

[21] И.Н.Шапошников, Живые звуки. Руководство для обучения детей письму и чтению без букваря с приложением 94 отдельных рисунков. Государственное издательство, 1922.

Burada dilimizin, bilxassə yazımızın, yəni ərəb yazısının təbiətini nəzəri-etibara alaraq, şübhəsiz, bütün şəkillər üsuluna **(метод целых образов)** doğru getməliyiz. Türk dili iltisaqi dillərdən olduğundan sözləri bütünlə aldığımız və yan-yana düzdüyümüz zaman onlarda müştərək olan qisimləri, yəni ədat, şəkilçiləri **(affixe)** ayırıb çıxarmaq pək ziyadə qolaydır. Başqa tərəfdən, onu da nəzəri-etibara almalıdır ki, türk dilində sözün bitməsinə, yəni kəndisindən əvvəl və sonra gələn sözdən ayrıldığına məna və sərf əlamətlərindən başqa, sövti əlamət də vardır ki, bunu da bizə saitələr ahəngi **(vocalharmonie)** verir. Sövti nöqteyi-nəzərdən alındıqda, yüksək, yaxud incə bir səsdən sonra incə və yaxud yüksək, qalın və yaxud alçaq bir səsdən sonra qalın və ya alçaq səs gəldiyini görüyoruz ki, çocuqların nəzər-diqqətini bu hadisəyə cəlb etmək pək ziyadə qolaydır.

Sonra türk dilində birhecalı müstəqil sözlər pək çoxdur. Əlifba tədrisində, şübhəsiz, bu sözləri işləmək böyük faydalar gətirə bilir. Sonra sövti təqlid sözləri də hər türk şivəsində bol-bol bulunıyor. Bu sözləri də unutmalıdır. Vəlhasil, ərəb yazısı ilə yazdıqca bizim üçün bütün sözlər, yaxud bütün şəkillər üsulundan əlverişli bir üsul yoxdur. Zatən ərəb yazısı ilə yazmanı öyrənənlər ayrı-ayrı hərfləri bir-birinə rəbt edib, bağlayıb və yaxud tam bir sözü ayrı-ayrı hərflərə ayırır ki, çəkdikləri güclükləri, daha sonra ərəb hərfləri ilə türk səslərinin işarətində daima meydana çıxan əskiklikləri və çocuqlar üçün pək böyük əhəmiyyəti olan məntiqsizlikləri heç bir zaman unutmazlar və əlifbanı istər-istəməz bütün şəkil, yaxud bütün söz əməliyyəsi ilə əldə edərlər. Ərəb yazısını tətbiq etdikcə əsasən ayrı-ayrı hərflərin bəhsini çocuqlara açmaq və onları qandırmaqdan daha çətin, daha müşkül bir iş olamaz.

Halbuki bütün şəkil üsulunu tətbiq etmək də qolay deyildir. Bunun üçün olduqca böyük hazırlıq və iyi təchiz edilmiş siniflər lazımdır. Məlum olduğu üzrə, belə məktəblər hənuz bizim türk-tatar maarif dünyasında pək azdır. Bir çox yerlərdə və tələbələrimizin əmrinə ancaq bir az tabaşir (bur) ilə bir siyah taxtadan (lövhədən) başqa bir şey verilmiş deyildir. Bu gün əməli və mümkün bir üsul bu surətlə yenə müəllimlərin çoxdan bəri alışıb gəldikləri sövti üsul ola bilir. Lakin sövti üsulu da müəllim dürlü-dürlü verə bilir. Əgər bizim şimdiyə qədər verdiyimiz məlumatı və aşağıda hər üsula aid olaraq gətirəcəyimiz dərs nümunələrini nəzəri-etibara alır və yalnız bununla

qalmayıb, tədqiqatını daha ziyadə ilərilədirsə, əlbəttə, öz mühitinə, öz tələblərinə, məktəbinə uyğun fənni bir əlifba tədrisi planı bulmaqda gecikməyəcəkdir. Bizim bu bəhsimizdən müəllim əlifba tədrisi məsələsinin hər şeydən əvvəl çocuğun zehni, istedadı, təbiəti, mühiti və oxutduğu dilin mahiyyəti ilə bağlı olduğunu iyicə anlaya bilmişsə, bizim məqsədimiz hasil oldu, – deməkdir. Hər halda əlifbaya hərfi-hərfinə yapışıb qalmaq nə elmi, nə də tərbiyəvi cəhətdən doğru olamaz. Əlifbasız oxutmada hər müəllim öz təcrübəsini hecaba ala bilir ki, tədris və tərbiyədə də ən qiymətli ünsür iştə budur.

ƏLİFBA DƏRSİ NÜMUNƏLƏRİ

TİMOFEYEVİN (**ТИМОФЕЕВ**) TƏBİİ SƏS ÜSULU İLƏ (**ЕСТЕСТВЕННО-ЗВУКОВОЙ МЕТОД**) VERDİYİ DƏRS

[**а**] dediyim zaman nə yapıyorum?

Ağzımı geniş surətdə açıyorum və səs çıxarıyorum. İştə [**а**] deyən adamın siması (*şəkil göstərir, yaxud özünü*). Uzunca bir müddət [**а**] deyiniz və əlinizi ağzınıza tutunuz. Ağızdan sıcaq havanın çıxdığını duyuyorsunuz.

İnsan ağzı qapalı ikən söyləyə bilirmi? Xeyr. Mənə baxınız! (*Ağzımı qapayır*). Səs çıxarıyorum və [**м**] diyorum. Bən [**м**] dedikcə ağzım qapalıdır. Şimdi bir az uzun müddət [**м**] deyiniz və əlinizi burnunuza götürünüz. Burnunuzdan sıcaq havanın çıxdığını duyuyorsunuz.

İştə [**м**] deyən adamın siması. İnsan [**а**] dediyi zaman ağzı hər zaman açıq oluyor. Halbuki [**м**] dediyi zaman qapalı (müəllim uzadaraq [**а**] və [**м**] deyir).

Bənə baxınız! Bən "**ма**" dediyim zaman nə yapıyorum?

(*Müəllim "**ма**"nı əvvələn ağır, sonra tez söyliyor. Lakin hər halda hər iki səsi bir hecaya birləşdiriyor*).

Ağız həp qapalı qalıyormu?

Xeyr. Dəyişiyormu? Əvət. Başda nasıl idi? Qapalı. Sonra? Açıldı. Demək ki, bən "**ма**" [dedikdə] ağzımı qapayır, sonra dərhal açıram. Bən ağzımı əvvələn qapayıb, sonra açan bir adamın rəsmini cıza bilərmiyəm?

Xeyr.

Nə üçün?

Ağzını açıb-qapamağa ancaq canlı adam müqtədirdir. Halbuki cızılan rəsm cansız olduğu üçün ağzı qapalısa, qapalı, açıqsa, açıq qalır.

Demək ki, bən ancaq [**а**], yaxud [**м**] deyə adamın simasını cıza bilirəm: birinci halda ağız açıq, ikincidə qapalı qalır). Lakin "ма" deyən adamın simasını cızamam, adamın "ма" dediyini sizə göstərmək üçün nə cızmalıyam? Bu rəsmə baxınız (***"ма"** deyən adamın simasını təsvir edən rəsmi göstərir*). Bu rəsm nə göstərir? Eyni adamın iki Simasını göstəriyor. Birinci sima nasıl ağzı qapalı olduğunu, ikincisi nasıl [а] deməyə başlandığını və ağzını geniş surətdə açdığını təsvir ediyor.

Siz bu rəsmə baxaraq "ma" deyərkən adamın nə yapdığını görür və özünüz də "**ма**" deyə bilirsiniz. Şimdi elәsə, sizə "**ма**" demək lazım gəldiyini anlatmaq üçün nasıl simalar cızmalıyam? Birinci simanı qapalı ağız, ikinci simanı açıq ağız ilə.

Şimdi mənə baxınız! Mən "mama" sözünü söylərkən nə yapıyorum? (*Müəllim bu sözü əvvələn hecalara ayıraraq yavaş-yavaş, sonra tez və hecaları birləşdirərək söylər*). Əvvəla ağzımı qapayıram. Sonra geniş surətdə açıram. Sonra təkrar qapayır, təkrar açıyorum.

Kaç kərə ağzımı qapayıram?

İki kərə.

Kaç kərə açıyorum?

İki kərə.

Adamın "mama" sözünü söylədiyini anlatmaq üçün nə yapmalıyam?

Baxınız, bu surətlə! (*"Mama" sözünü söyləyən adamın təsvirini göstəriyor*).

Bu surət nəyi göstəriyor?

Bir adamın dörd simasını. Bütün bu rəsmlər eyni adamın "mama" sözünü söylərkən nə yapdığını göstəriyor.

Bu rəsmə baxaraq, siz "mama" deyən adamın nə yapdığını görüyorsunuz. Bir adamın "mama" dediyini göstərmək üçün kaç rəsm cızmalıyam? Dörd. Birincisi qapalı ağızla, ikincisi açıq ağızla, üçüncüsü qapalı, dördüncüsü açıq. Bütün bu lövhələri oxuyunuz:

М, а, ма, мама (*Çocuqlar olduqca sürətlə söyləməlidir*).

AMERİKAN MƏKTƏBİNDƏ ƏLİFBA DƏRSİ

*Yek. Yanjulun (**Ек. Янжул**) "Amerikan məktəbi" kitabından*

Məktəbə (ən iyisi çocuqlardan birisi tərəfindən), misal üçün deyəlim, çəyirtkə gətirilir. Çocuqlar onu müayinə ediyorlar. Müəllimə soruşuyor:

– Bizə nə gətirmişlər?

– Bizə çəyirtkə gətirmişlər.

Bu cümlə taxtaya yazıyor. Eyni surətlə (sual-cavab üsulu ilə) taxtaya çəyirtkə haqqındakı başqa cümlələr yazılıyor. Məsələn:

Çəyirtkə siyah otda yaşıyor. Çəyirtkə daşlar altında saxlanır, – sözləri yazılıyor: *O yüksəyə sıçraya biliyor*, ilax. ilax.

Bir kaç gündən sonra çocuqlar bu cümlələrdə təkrar edən "çəyirtkə" sözünü və başqa belə sözləri tanımağı təcrübə ediyor və öyrəniyorlar. Çocuqlar cümlədən sözləri ayırmağı öyrəndikdən sonra müəllim bu sözlərdən müfəssəl və xüsusi surətdə tədqiq etmək istədiklərini ayırır.

Bütün cümlələri və bunlar içərisindəki sözləri öyrənmənin üsullarından birisi o cümlələri daimi surətdə taxtada yazıb buraxmaq və lüzum görüldükdə bu cümlələri çocuqlara xatırlatmaqdır.

İki həftə[yə] qədər çocuqlar dürlü mühavirə söyləşmələrlə məşğul edilir ki, bu söyləşmələrdən lazım görülən cümlələr taxtaya yazmaq üçün ayrılır. Sonra bu cümlələrdən sözləri ayırmanı öyrənirlər. Yalnız yeddi-səkkiz həftə keçdikdən və çocuqlar kafi dərəcədə söz materialı əldə etdikdən sonra onları sözlərin ünsürləri olan səslərə gətirmək, onlarla tanış etmək mümkündür. O vaxtda cümlədən nasıl sözləri ayırmanı öyrənmişlərsə, elə də sözdən səsləri ayırmanı öyrənmək olur. Sözdən səslərin ayrılması üçün səscə bir-birinə yaxın, bir-birinə bənzəyən parçalar olan sözlər seçiliyor.

Nyu-York məktəblərində gündə iki söz öyrəniyorlar. Bu surətlə yüz iyirmi beş söz ancaq yarım sənədə öyrəniliyor.

Bütün bu söylədiklərimizi toplayacaq olursaq, Amerikan məktəbində əlifba tədrisi şu surətlə cərəyan edir:

1) tələbələrlə çox dəfə özləri tərəfindən gətirilən maddələr üzərində söyləşmələr,

2) tələbələrin özləri tərəfindən söylənilən və özlərinin qolaylıqla tanıya bildikləri cümlələri uzun bir zaman qalmaq üçün taxtaya (lövhəyə) yazıb, buraxmaq,

3) sözlərin cümlədən ayrılması; başda çocuqların özləri tərəfindən cümlədə təkrar etməsi dolayısilə tanılan sözlər,

4) sözlərin sövti ailələrə **(звуковое семейство)** görə toplanması,

Nəhayət, 5) səslərin və bunların işarətləri olan hərflərin ayrılması bu üsulun son dövrünü təşkil edər.

MONTESSORİNİN ÜSULU İLƏ DƏRS

Montessorinin "Mənim üsuluma rəhbər" namındakı kitabından

Tədris materialı: Əlifba işarətləri ilə doldurulmuş bir kaç qutu; bundan başqa, üzəri düz kağızlar qaplanmış və bu kağız üzərində bıçaq

kartonundan **(наждачная бумага)** kəsilmiş hərflər yapışdırılan kartlar **(карты)** bulunur. Hərflər əlyazmasını təqlid edərək yazılmalıdır. Çocuqlar yazar kibi hərfləri barmaqları ilə yoxlayıb, baxıyorlar. Çocuqlar hərflərə orta və işarət barmaqlarının ucları ilə toxunuyorlar. Müəllimə də hərflər üzərində barmaqlarını gəzdirərək yazmaq üçün lazım gələn hərəkətin nasıl yapılacağını göstəriyor. Bu surətlə alışmış olan tələbə barmaqları bıçaqtəmizləyən karton üzərində gəzdiriliyor. Çocuq hərf yazmaq üçün lazım gələn hərəkəti yanlışdan sakınmayaraq, istənildiyi qədər təkrar edə biliyor. Əgər o, bıçaq kartonundan yapılmış olan hərflərdən kənara çıxarsa, düz kağız dərhal yanıldığını ona duyuracaqdır. Lakin gərəyi qədər mümarisə və təcrübə əldə etmədən çocuğun əli hərfli kartonlar üzərində qolayca yürüyəməz. Çocuqlar üzərində yapılan tədqiqat yazı üçün əzələvi hazırlığın **(мусскульная подготовка)** böyük əhəmiyyəti olduğunu göstəriyor. Belə əzələvi mümarisə yapmadan çocuğa yazmanı əmr etməklə biz onlar üzərinə icrası qabil olmayan bir yük yükləmiş oluyoruz. Kartondan yapılmış olan hərfləri barmaqları ilə yoxlamaqdan fövqəladə ləzzət alır və istənildiyi qədər təkrar edirlər. Bu surətlə tərbiyə işinə lamisə, toxunma duyğusu da çəkilmiş oluyor.

Çocuq barmaqları ilə hərfi yoxladığı zaman müəllimə bu hərfin qarşılığı olan səsi söyliyor. Bu surətlə müəllim iki saitə **(гласн.)** göstəriyor və yavaş-yavaş bunları yoxlamasını və yoxlarkən ağızdan bu saitələrin ismini təkrar etməsini tapşırıyor, həvalə ediyor. Sonra bu işi sualla bitirir:

– Bu nədir?

Çocuq cavab verir, məsələn: – **О, и**.

Müəllimə bütün səslərlə bunu yapıyor. Yalnız samitələrdə **(согласн.)** bunları tələffüz ediyor, ismini söyləmiyor. Çocuq, tələbə bundan sonra da hərfləri yoxlamaqda davam ediyor. Nəhayət, bu surətlə hərfləri cızmağa baxmaqlarını alışdırıyor. Eyni zamanda çocuq hərflərin basirəvi şəkillərini **(зрительный образ)** əldə etmiş oluyor. Bütün bu əməliyyə çocuqları həm yazmağa, həm də oxumağa hazırlıyor. Çocuq əlyazmasına uydurularaq yapılmış olan hərfləri barmaqları ilə yoxladığı zaman, bir tərəfdən, yazma hərəkətlərini əldə edərkən, digər tərəfdən, hərfləri də tanıyır, yəni əlifbanı öyrəniyor. Çocuq artıq bütün yazma hərəkətlərini bir çox təkrarlarla əldə etmişdir, artıq yaza biliyor. Bu onun üçün xəbərsiz yapılan əkinçiliyin məhsul, hesab günüdür.

Sözlər yapmaq üçün ayrı, alçaq və gözlərə, şöbələrə, bölmələrə ayrılmış olan bir sandıq içərisində yerləşdirilmiş gülgüni **(розовый)** və mavi kartondan kəsilmiş hərflər qullanılır. Sandıqdakı hər bölmənin **(отделение)** dibinə (bu bölmələrin böyüklüyü hərflərin ölçüsünə bağlıdır) hərflər yapışdırılmışdır ki, çocuq bunlara baxaraq hərfləri təkrar lazım gələn bölmələrə yerləşdirir. Fonetik dildə, məsələn, italyancada çocuğun hər səsi ayrı-ayrı qavraya bilməsi üçün sözün hər səsini aydın-açıq tələffüz etmək [növbəsi] yetişir.

Məsələn:

М + *а* + *н* + *о* = "əl".

Bu sözü eşitdikdən sonra çocuq səyyar-mütəhərrik əlifbada **(подвижной алфавит)** bu səslərin işarətləri olan hərfləri arayıb bulur və bunları yan-yana düzmək sayəsində sözü yazıyor: *Мано*.

Yavaş-yavaş özü sözlər seçərək onların səslərini bulur və bu səsləri də eyni surətlə hərflər vasitəsi ilə ifadə edir və bunların tərkibi ilə sözləri yazıyor.

Özbaşına tərtib etdiyi sözləri çocuq eyni zamanda oxuya biliyor.

Bənim üsulumda yazmağa götürən işlər, əməliyyələr eyni zamanda oxumağa da götürüyor. Fonetik yazıya malik olmayan dillərdə, məsələn, ingiliscədə müəllimə kəsmə hərflərdən dürlü-dürlü sözlər meydana gətiriyor və bu sözləri yavaş söyliyor. Bundan sonra çocuq bir mümarisəni **(упражнение)** təkrar edərək, sözləri təhlil və tərkib edər. Təcrübə bənə yazma ilə oxumanın eyni zamanda qabil olmadığını öyrətdi. Ümumiyyətlə mövcud olan fikrin əksinə olaraq, yazma oxumadan əvvəl gəliyor. Təbii, bən yazını kontrol edərək, çocuğun yapdığı təcrübəni hecaba almıyorum. Çocuq burada əvvəlcə səsi işarətə təbdil etdiyi kibi işarəti səsə təbdil ediyor. Bu təftiş əsnasında artıq əvvəlcə kəndi-kəndinə təkrar etdiyi sözü biliyor. Bən "Oxuma" altında fikirlərin anladılmasını, izahını anlıyorum. Çocuq bu sözün nasıl söyləndiyini bilmədiyi halda, yalnız masa üzərində karton hərflərdən yapılmış halda görərək onu oxuya bildiyi və nə demək olduğunu söyləyə bildiyi təqdirdə, bəncə, o sözü oxumuş olur.

Çocuq yazılmış sözlərin mənasını anlayamadıqca – oxuyamır, – deməkdir. İstərsəniz belə demək mümkündür. Yazma elə bir hadisə, vaqeədir **(факт)** ki, bunda ruhi-hərəki **(психомоторный)** mexanizm iş görüyor. Halbuki oxumaqda yalnız zehni iş yapılır. Bizim üsulumuzun – Montessori üsulu[nun] – durmadan yazıya hazırladığı açıq bir

şeydir. Həqiqətdə yazma çocuğa sözləri təşkil edən hərflərin mexanik surətdə anlaşılmasını öyrədiyor.

Bizim məktəbimizin yetişdirməsi **(питомец)** yazmağı biliyorsa, sözü təşkil edən səsləri oxumasını da biliyor, – deməkdir.

Bən oxuma təmrin və mümarisələrini, tamamilə əlifbanın **(азбука)** yardımını rədd edərək, şu surətlə görüyorum:

Əlaladə yazı kağızlarından kartoçkalar və biletlər hazırlıyorum. Hər biletin üzərində kursiv və bir santimetr o yüksəkliyindəki hərflərlə çocuqların bu vaxta qədər çox dəfə söylədikləri, iyi tanıdıqları və bizdə olan maddələrin adlarını yazıyorum. Əgər söz çocuğun yanında olan maddəyə təəllüq ediyorsa, o vaxtda sözün oxunmasını və anlaşılmasını qolaylaşdırmaq üçün bu maddəni çocuğun gözü önünə gətiriyorum. Bu münasibətlə deyə biliyorum ki, mən çocuq evlərində **(дом ребенка)** hər şeydən ziyadə oyuncaqlardan faydalanıyorum. Çünki bunlar bu evlərdə çox bulunıyor.

İştə bu surətlə, dediyim kibi, bən nomenklaturadan, yəni maddələrin adlarını öyrənməkdən işimə başlıyorum. Hankı sözdən, qolaydanmı, gücdənmi başlamaq məsələsini çoxdan-çox düşünmək lazım gəlməz. Çocuq səslərdən yapılmış hər sözü oxuya bilir. Bən çocuğu yazılmış sözü yavaş-yavaş səsə çevirməyə məcbur ediyorum. Əgər bu çevirmə doğrusa, onu tez oxuduyorum. Çocuq ikinci dəfə sözü daha tez oxumaqla bərabər, onun mənasını çox zaman anlamıyor. O vaxtda bən təkrar ediyorum:

– Daha tez, daha tez!

O, eyni səs yığınını daha ziyadə tez söylər və nəhayət, söz onun şüurunu aydınladıyor. O sezdi, tanıdı. Onun siması dostunu tanıdığı vaxtdakı kibi oluyor. Bununla oxumaq mümarisəsi bitiyor. Dərs qayət tez gediyor. Çünki biz bu dərsləri artıq yazıya alışqan çocuqlara veriyoruz.

Doğrudan da, biz qolaysız və cansıxıcı əlifba **(азбука)** ilə bir taqım cizgilər cızılan (əski üsulda yazı mümarisəsi) dəftəri görmədik. Çocuq sözü oxuduqdan sonra aid olduğu maddənin dibinə qo[yu]r və oxuma bitər. Çocuğu tezliklə oxumağa öyrədərək, bən sözlərin oxunması üçün oyun icad etdim. Böyük masa üzərində bir çox oyuncaqlar səriyorum. Bütün bu oyuncaqlar üçün bir taqım kartoçkalar var ki, hər biri üzərində bir oyuncağın ismi yazılmış bulunıyor. Bu kartoçkaları **(карточки)** bir səbət içərisində qarışdırır və oxumaq bilən çocuqlara birər-birər sıra ilə səbətdən bir kartoçka, bilet çıxardıyoruz.

Hər çocuq səbətdən çıxardığı kartoçkanı öz masacığına gətirməyə və yavaşca açıb içindən **(про себя)** oxuduqdan sonra yanındakılarına da göstərməyə borcludur. Sonra bileti (kartoçka) təkrar qatlayıb içərisindəki yazısını sirr olaraq saxlamağa borcludur. Əlində bu bilet olduğu halda o masaya yaxlaşıyor. Burada o, açıq surətdə biletdə yazılı olan sözü söyliyor və masa üzərində bu sözün ifadə etdiyi maddəni göstərir. Müəllimə biletindəki sözün doğru oxunub-oxunmadığını anlamaq üçün bileti görməlidir. Öz sözünü doğru oxuyana müəllimə masa üzərindən o sözün aid olduğu maddəni, oyuncağı alması üçün çocuğa müsaidə veriyor. Çocuq bu oyuncaqla istədiyi qədər oynaya biliyor. Oxumağı öyrənən çocuqlar oyuncaqları almaqdan vaz keçdilər. Oyuna vaxt qaib etmək istəmiyorlar və böyük bir aclıqla torbadan biletləri çəkib almağa və oxumağa çalışıyorlar. Bu vaxt biz oyuncaqları ortadan qaldırdıq və yüzlərcə biletlər, kağız parçaları üzərinə çocuq adları, şəhər və dürlü maddə və onların xasiyyətlərinin isimlərini yazdıq. Bu kağızları, biletləri biz açıq sandıqlara doldurduq ki, bundan çocuqlar sərbəst surətdə fayda ala biliyorlardı.

Əlyazması hərflərdən təşkil olunmuş sözləri oxuyan çocuqlar böyük qolaylıqla mətbu, basma hərfləri oxumağa keçiyorlar. Lakin biz kitabların oxunmasını sonraya buraxdıq. Çünki çocuqlar kitabları anlamıyordu. Sözləri oxumaq ilə kitabı anlamaq arasında sözləri söyləmək ilə nitq söyləmək arasındakı qədər uçurum, fərq vardır. Mən kitabların oxunmasını buraxdım və bəkləməyə qərar verdim.

Bir gün çocuqlarla söyləşmə dərsində dörd çocuq taxtaya yanaşdılar və "Nə qədər seviniyoruz ki, bağçada çiçək açdı" kibi bir cümlə uydurmağa başladılar. Bən burada anladım ki, cümlələrin oxunmasına keçmək zamanı gəldi.

Bən də çocuqların müraciət etdiyi vasitəyə, çarəyə müraciət etdim. Yəni cümlələri taxtaya yazmağa başladım. Çocuqlar taxtaya yazılan cümlələri, səsləri oxumağa başladılar. Elə ki, onlarla bənim aramda artıq yazı dili **(письменная речь)** vasitəsi ilə münasibət qurulmuş oldu, bu girişdən sonra yeni bir oyun gəldi. Bən də taxtada çocuqlara yapdırdığım hərəkətləri təsvir edən uzun cümlələr yazmağa başladım... Bən yazını bitirir-bitirməz çocuqlar biletciklərə yapışıb, öz yerlərində bu cümlələri böyük bir diqqətlə oxuyur və tərkib ediyorlardı. Bundan sonra orada işləklik **(деятельность)** qaynayırdı. Hər kəs biletdə oxuduğunu icraya qoşardı. Bu oyun bizim ən sevimli oyunlarımızdan birisi oldu.

İSTANBUL DARÜLMÜƏLLİMİNİ ƏLİFBA NÜMUNƏ DƏRSİ

Bu dərs nümunəsini "Tədrisati-ibtidaiyyə məcmuəsi"[nin] 18-ci nömrəsindən (ikinci sənə) alıyoruz. Bu dərsin mürəttibi Türkiyənin məşhur pedaqoqlarından Sate bəydir. Bu dərs, bir tərəfdən, türk məktəblərində tətbiq olunan üsulu, digər tərəfdən, bu dərsi başqa üsullarla verilən dərslərlə müqayisə-çarpışdırma imkanını verir.

Əlifba dərsləri

Əlifbanı təşkil edən hərflərin hər birisi birər sövtin işarətidir. Onun üçün elm ruh nöqteyi-nəzərindən düşünülüncə, oxumaq demək görülən hərflərdən onların dəlalət etdikləri səslərə intiqal etmək deməkdir. Yazmaq demək isə eşidilən və ya təxəyyül edilən səslərin işarəti olan hərfləri sıralamaq deməkdir. Bu səbəblə hərfləri öyrənmək və onlardan istifadə etmək üçün ol əmrdə sövtləri bilmək lazımdır. Halbuki sövtlər çocuqlarca əsasən məlum deyildir. Onlarca məlum olan şey sözlər və kəlmələrdir. Onun üçün sövtlər haqqında vazeh bir fikir vermək üçün işə kəlmələrdən başlamaq, ən əvvəl kəlmələri təhlil və tədqiq edərək, onları təşkil edən heca və sədaları ayırmaq lazımdır.

Tətbiqat məktəbində bir əsas nəzəri-diqqətə alınaraq, əlifba dərslərinin ilk həftəsi kamilən kəlimat və əsvatın təhlil və tədqiqinə həsr edilmiş, ikinci həftə hərflərin təliminə başlanmaqla bərabər, o hərfləri havi bir taqım kəlmələrin təhərri və təhlil və tədqiqi yolunda müməarisələrə davam olunmuşdur.

1

Çocuqların ənzari-diqqəti pəncərələrə tövcih edərək, onlardan gördükləri şeylərin isimləri sorulacaq. Bu surətlə "pərdə" və "cam" kəlmələri tələffüz etdiriləcək. Sonra bu kəlmələr bir çocuğa bir kaç dəfə təkrar etdiriləcək və diqqət ediniz, baxayım "cam" sözü ağzınızdan nasıl çıxıyor, "pərdə" sözü ağzınızdan nasıl çıxıyor. Bir nəfəsdə, bir çırpıdamı çıxıyor, yoxsa parça-parçamı çıxıyor? Deniləcək "pərdə" kəlməsi "pər...də" surətində tələffüz edilərək, bunun iki bölükdən mütəşəkkil olduğu anlanılacaq. Bu kəlmə ilə "cam" kəlməsinin tərzi-tələffüzləri müqayisə olunaraq, bölük – yəni heca fikrinə qüvvət və

vüzuh veriləcəkdir. Sonra çocuqlara qarşılarında bulunan şeylərin isimləri söyləniləcək (*divar, taxta, masa...*). Bu kəlmələrin tərzi-tələffüzlərinə diqqət etdirilərək, hecaları təfriq etdiriləcəkdir.

2

Bir kaç çocuğa əvvələn kəndi isimləri, sonra babalarının isimləri sorulacaqdır və bu isimlərin bölükləri təfriq etdiriləcəkdir. Əzayi və nəvahiyi-bədənin isimləri sorulacaq, bu kəlmələrin bölükləri ayrılacaqdır. *Baş, üz, göz, burun, dodaq, boyun, bel, qarın, köks, qol, əl, barmaq, dırnaq, bacaq, ayaq, qabırğa...*

3

"Bölük" fikrini təqviyə üçün təmrinlər yapdıracaq. Bir tərəfdən, müxtəlif kəlmələr söylənib, bunları təşkil edən bölüklər təfriq etdiriləcək. Digər tərəfdən: "Geydiyimiz əlbəsə arasında ismi birbölüklü olanlar hankılardır? İkibölüklü olanlar? Üçbölüklü olanlar?.. Yediyiniz şeylər arasında?.. Meyvələr arasında?.." – Yolunda bir taqım suallar soruşaraq birər, ikişər, üçər, dördü... bölüklü kəlmələr təhərri etdiriləcəkdir.

4

Bu gün [a] sədası haqqında bir fikri-vazeh verməklə iştiğal ediləcəkdir.

Əvvələn, insanın bir şeyə heyrət etdiyi vaxt bilaixtiyar ağzından çıxan [a] nidası üzərinə bir misali-müşəxxəs vasitəsi ilə cəlbi-nəzər olunacaq.

Saniyən, *ana, ada, atəş, arı, araba, aralıq, aramaq...* kibi ilk hecaları münhəsirən [a]-dan ibarət olan kəlmələr tədqiq olunaraq, bunların birinci bölüklərinin nida sədasının eyni olduğu göstəriləcək.

Salisən, *at, aç, ağ, al...* kibi "a" ilə başlayan təkhecalı kəlmələr etdirilərək, bunlardakı [a] səsi digər səsdən ayrılacaq. Bunun üçün bu kəlmələr mubaliğəli birər mədd ilə [a...t], [a...ç], [a...ğ], [a...l] surətlərində tələffüz ediləcək. Bu surətlə sakin [t], [c], [l] səsləri üzərinə cəlbi-nəzər edilmiş olacaqdır.

Rabiən, *qat, kaç, dağ, dal...* kibi iki samitə arasında [a] səsindən mütəşəkkil olan təkhecalı bir taqım kəlmələr tədqiq ediləcək, bunlardakı [a] səsi təzahür və təbarüz etdiriləcək. Bunun üçün qat kəlməsi *at* kəlməsi ilə, *kaç* kəlməsi *aç* ilə, *dağ* və *dal* kəlmələri *ağ* və *al* kəlmələri ilə müqayisə ediləcək və [q...a...t], [k...a...ç], [d...a...ğ], [d...a...l] surətində ilk samitləri kəkələmə dərəcəsinə çıxaraq və saitini ziyadəsilə mədd edərək tələffüz ediləcək və etdirəcəkdir. Bu surətlə bu kəlmələrdəki üçər səs təhlil və təfriq etdirilmiş və hətta bunlardan yalnız [a] səsinin yalnız başına çıxıb, o birilərinin ona bağlandığı dəxi sezdirilmiş olacaqdır.

Xamisən, başda, ortada, nəhayətdə [a] səsini havi mütəəddid hecalı kəlmələr tədqiq olunacaq, bunlardan hər birinin hecaları təfriq və bu hecaların [a] səsini havi olanlar təhlil etdiriləcəkdir.

5

Bu gün [o] sədası ilə iştiğal ediləcəkdir. Əvvələn, hazır bulunmayan birindən bəhs edərkən [o] deyildiyindən bir misali-müşəxxəs vasitəsi ilə cəlbi-nəzər ediləcəkdir.

Saniyən, *oda, ona, olan...* kibi ilk hecaları [o]-dan ibarət kəlmələr,

salisən, *on, ot, ol...* kibi [o] ilə başlayan təkhecalı kəlmələr,

rabiən, *tovuq, yox, çox, bol, yol...* kibi iki samit arasında [o]-dan mütəşəkkil və son samitləri və ahəng tələffüzləri etibarı ilə *ox* və *ol* kəlmələrinə müşabeh kəlmələr tədqiq olunacaq və bu surətlə çocuqların zehnində münfərid və mürəkkəb [o] səsi haqqında vazeh bir fikir hüsula gətiriləcəkdir.

6

1) *Su, uşaq, qulaq, üç, suç, burğu, udqunmaq...*

2) *ölən, ödən, ötən, ön, öz, söz, göz, kök, örtmək, vurmaq...*

3) *ögütmək, öyüd, böyütmək, böyüt, üstün, tütün, bütün, çürümək, çürük* kibi kəlmələri təhlil və tədqiq edərək, [o] səsinin səqil, xəfif, məqbuz, məbsut şəkilləri təzahür etdiriləcək və bu halda təmrinlər yapdırılacaqdır.

7

1) *İpək, iman, irad, inanmaq, epik,*

2) *is, iş, in, it, iç,*

3) *sis, pis, diş, şiş, çin, din, fit, çit,*

4) *iri, diri, dibək, çilək, dirək, inci, irmik, ilmək, dəlik, sinsi, sisli, şişkin...* kibi kəlmələri tədqiq və təhlil edərək, [i] səsi təzahür və təbarüz etdiriləcəkdir.

8

1) *Ərimiş, əkili, əlimiz, əsən (əsmək), əşən (əşmək),*
2) *ən,ək (əkmək), əl, ər, əş, əs (əsmək),*
3) *bən, çək (çəkmək), bel, ver, deş (deşmək), fəs, kəs (kəsmək),*
4) *bəla, dəvə, dərə, çərəz, həvəs, nəfəs, dəli, dəri, dəlilik, çevirmək...* kibi kəlmələri tədqiq və təhlil edərək, [ə] səsi təzahür və təbarüz etdiriləcəkdir.

9

Səslər üzərinə ümumi təmrinlər yapdırılacaq və səvait ilə səvamit təfriq etdiriləcəkdir.

10

Əsvat təmrinatına davam.

11

1) Çocuqlara "I" hərfini havi müqəvva göstərilərək, bunun [a] səsinə işarət olduğu söylənəcək. Bu səs çocuqlara müctəmeən və münfəridən təkrar etdiriləcək. Bu səda ilə başlayan, bu səda ilə bitən və bu sədanı havi olan bir kaç kəlmə sorularaq, zehnlərində və bu hərfin şəkli ilə [a] sədası arasında qüvvətli bir irtibat hüsula gətiriləcək.

2) "İ" müqəvvası göstərilərək, bunun [i] səsinə işarət olduğu söylənəcək. Bu səs bir kaç çocuğa münfəridən, bütün çocuqlara müctəmiən təkrar etdiriləcək. Bu səs ilə başlayan, bitən, bu səsi havi olan kəlmələr təhərri və təxəttür etdiriləcək.

3) "D" müqəvvası göstərilərək, bunun dəlalət etdiyi səs anladılacaq. Bu səs ilə başlayan, bitən kəlmələr təhərri və təxəttür etdiriləcək. Bu müqəvvanın yanına "a" müqəvvası qonaraq, bunun nasıl oxunması lazım gəldiyi sorulacaq. [Da] səsi ilə başlayan və bitən kəlmələr təhərri etdiriləcək (*davar, dana, dalaq, darı, dadi, dadanmaq, adamaq, budala, budaq, dodaq*). Yenə "d" müqəvvasının yanına "i" müqəvvası qonaraq, bunun nasıl oxunması lazım gəldiyi sorulacaq. [Di]

səsi ilə başlayan, bitən və bu səsi havi olan kəlmələr təhərri və təxəttür etdiriləcək (*dirək, dibək, dilim, kədi, kədilər, gəldi, getdi, verdi, gədik*).

Müqəvvalar *dada, dadi, dida...* tərzlərində düzülərək oxudulacaq.

İxtar: Hürufi-samitənin təlimində ən məntiqi və fənni xətti-hərəkət bunları sakin olaraq tələffüz etmək və etdirməkdir. Məsələn;,"d" hərfinin təlimində tamamən məqul bir xətti-hərəkət təqib edilmək istənirsə, *ad, od* kibi "d" ilə nəhayətlənən kəlmələrdə saiti mübaliğəli bir surətdə mədd edərək, yəni [a...d] və [o...d] tərzində tələffüz eləyərək, [d] səsini qulağa sakin və bir dərəcəyə qədər münfərid olaraq çarpdırmalı, "d" hərfinin mədlulunu iştə belə mümkün olduğu qədər münfərid və sakin bir [d] səsi ilə göstərməlidir. Dar, dam... kibi "d" ilə başlayan kəlmələri kəkələrkən yapıldığı kibi, cəbri-nəfəs ilə, dili diş ətinin üstündə iyicə tutaraq tələffüz etmək və etdirmək surətilə də bu münfərid və sakin [d] səsi üzərinə cəlbi-nəzər edilməlidir.

Məəmafih, biz bütün müəllim əfəndilərə bu yolda hərəkəti tövsiyə etmək istəməyiz. Şimdilik daha az müşkül olan digər bir tərzdə müraciəti də təcviz edəriz. Bu tərz səvaiti fəthə ilə tələffüz etmək, məsələn; "d" hərfini "də" deyə göstərməkdir. Gərçi bu halda "da"nı hecalarkən "dəa = da" demək lazım. Bu da ağıl və məntiqə qeyri-müvafiq fəzlə olar olaraq müşkülatı da daimi isə də, şübhəsiz, "dal + əlif = da" deməyə nisbətliyoruz, qat daha qolay və məntiqidir. Hərflə "də", "a" isimləri verildiyi halda bunlar yan-yana gəldiyi vaxt "da" oxunacağını anlatmaq üçün "dəa"nı çabuq söyləyiniz. Bir daha, daha çabuq, çabuq, çabuq. Beş-altı dəfə deyərək yetdikcə mütəzayid bir sürətlə bir çox dəfələr mütəvaliyən təkrar etdirmək kafidir. Bu səri təkrarlar əsnasında "dəa" ləfzini təşkil edən iki heca arasındakı fasilə azaldıqca söz ağızdan birhecalı olaraq [da] şəklində çıxmağa başlar.

12

"D", "a", "i" hərfləri üzərinə təmrinat yapılaraq bunların şəkilləri və mədlulları çocuqların zehnində nəqş ediləcək. Bu hərflər çocuqlara taxta başında yazdırılacaq. Evdə də hər birisini onər dəfə yazıb, vəzifə halında gətirmələri tənbeh ediləcək.

13

1) "R" müqəvvası göstərilərək mədlulu olan səs anladılacaq. Bu səsi havi kəlmələr təhərri etdiriləcək. Bu hərf əvvəlcə öyrənilmiş

olan [a], [i] saitlərinin əvvəlinə qonaraq, "ra", "rı" hecalarının nasıl oxunacağı soruşulacaq. Bu hecaları havi kəlmələr təhərri etdiriləcək: *razı, rahat, raf, rafadan, araba, daraq, mağara, rıyal, ayrı, diri, ayrıca...*

"D", "r", "a," "ı" hərfləri *darı, dara, rar, rara, radı, rada, dar, rar, dırır...* surətlərində tərkib ediləcək və etdiriləcəkdir.

2) "Vav" müqəvvası göstərilərək [o/u] səsinə işarət olduğu anladılacaq. Bu səsi havi kəlmələr təhərri və təxəttür etdiriləcək. "Vav" müqəvvası "d", "vav", "r" müqəvvalarının nasıl oxunması lazım gəldiyi soruşulacaq, bu hecaları havi kəlmələr təhərri etdiriləcək: *donanma, dolab, dolu, duru, roman.* Şimdiyə qədər görülmüş olan hərflər tərkib ediləcək və etdirəcək: *daru, dura, radu, raru, ruri, rudi, dudi...*

3) Yeni öyrədilən hərflərdən evdə bir kağız on dəfə yazmaları tənbeh ediləcək.

14

"A", "i", "o", "d", "r" hərfləri üzərində təmrinat yapılacaq, şəkillərinin və mədlullarının zehnlərdə nəqş etdirilməsinə çalışılacaq; taxtaya yazdırılacaq, evdə yazmaları üçün tənbehat da bulunacaq.

15

1) "Z" müqəvvası göstərilərək, mədlulu anladılacaq, bu səsi havi kəlmələr buldurulacaq, bu hərf [a], [i], [o] saitləri ilə birləşdirilərək "za, zi, zo" hecaları təşkil ediləcək və hər biri təşkil edildikcə, bunun nasıl oxunması lazım gəldiyi soruşmaqla bərabər, bu hecanı havi kəlmələr aradılacaq: *zar, zavallı, qəza, qəzəl, zinət, qazi, ziyan, ziyadə, zor...* Bu sərf əvvəlcə görülmüş olan hərflərlə tərkib ediləcək və etdiriləcək: *dazi, daza, zadi, zada, zora, zori, zuru, zuda, zudi, zudu... zar, zor, razi, zir...*

2) "Ə" müqəvvası göstərilərək [ə] səsinə əlamət olduğu söyləniləcək, bu səsi havi kəlmələr təhərri etdiriləcək, əvvəlinə "d", "r", "z" saitlərinin müqəvvaları qonaraq, "də"nin, "rə"nin və "zə"nin nasıl oxunması lazım gəldiyi soruşulacaq, bu hecaları havi kəlmələr buldurulacaq: *dəlik, dəvə, dədə, evdə, ödəmək, gedəcək, gəvəzə, təzə, zəman, zərdə, rəçinə, çevrə, kövrək.* Bu hərf ilə şimdiyə qədər göstərilmiş

olan səvamitin həpisi müxtəlif surətlərlə tərkib ediləcək və etdiriləcək: *dərə, dədə, rəzə, zərdə, zədə, zərə, dəzə, rədə, dərədə, zərdədə.*

3) Yeni öyrədilən hərflərin evdə iyirmişər dəfə yazılması tənbeh ediləcək.

16

"A", "i", "o", "e" – "d", "r", "z" hərfləri üzərinə təmrinat yapılacaq. Çocuqların bunların müqəvvalarını tanımalarını, şəkillərini taxtaya cızmalarını təmin üçün mümarisələr yapdırılacaq, bu hərflərdən kəlmələr təşkil etdirilib, qiraət olunacaq. Yenə bu hərflərdən mütəşəkkil kəlmələr söylənib, əvvələn tərkib və bə'dəh təhrir etdiriləcək. Evdə öyrədilmiş olan hərflərin hər birindən beş dəfə yazılması tənbeh olunacaq.

17

1) "O"nun əvvələn zəmmei-səqilei-məqbuzə, saniyən zəmmei-xəfifei-məbsutə, salisən zəmmei-xəfifei-məqbuzə... tərzində qiraəti, bunlara aid misallar, kəlmələr, tərkiblər, təhrirlər: *dodaq, tökmək, düdük...*

2) Ümumi təmrinlər.

18

1) "İ" hərfinin kəsrei-səqilə və kəsrei-xəfifə halında tələffüzü (*aldı, verdi*), bunlara aid misallar, kəlmələr təhərrisi, tərkibi, təhriri, qiraəti.

2) Ümumi təmrinlər.

19

Öyrədilmiş olan hərflərin müxtəlif surətlərlə tərkibi ilə ümumi oxuma və yazma təmrinləri.

20

Eyni vəchlə ümumi təmrinlər.

* * *

Sate bəyin əlifba tədrisinə aid bu planını yaxın vaxtlara qədər türk məktəblərində əlifba öyrətmənin hankı yollarla getdiyini göstərmək məqsədi ilə buraya dərc etdik. Burada, bu planda əsas olaraq sövti üsul alınmış və bu üsul[la] ərəb yazısı müəllimlərin səviyyəsi, məktəblərin təchizatına, alət-ədəvatına görə az-çox uydurulmuşdur. Şübhəsiz, bu əsərimizi gözdən keçirəcək olan müəllim bu planı daha yuxarıda gətirdiyimiz dərs şəkilləri ilə müqayisə etməkdən geri durmayacaqdır. Bundan əvvəl də qeyd etdiyimiz kibi, türk dilləri ərəb yazısı ilə yazıldıqca ən uyğun üsul bütün şəkillər üsuludur. Çünki ərəb yazısını hərflərə bölmək və bu hərflərə qarşı türk səsləri aramaq ən təhlükəli yollardan birisidir.

Bununla bərabər, Sate bəyin bu planında bu günün türk məktəbləri üçün nəzəri-etibara alınacaq bir çox sağlam nöqtələr vardır.

Azərbaycan məktəbləri üçün tərtib olunub, 1923 sənəsində nəşr olunan "Birinci dərəcəli məsai məktəbləri proqramı"nın dil tədrisinə məxsus olan qismində birinci qrupda dil tədrisi üç qismə ayrılmaqdadır:

1) şifahi və hazırlıq dərsləri,
2) əlifba təlimi,
3) izahlı qiraət.

Yuxarıda söylədiklərimizi göz önünə gətirəcək olursaq, bu təqsimin son elmi tələqqilərə uyğun olduğuna şübhə yoxdur.

Əlifba təlimi haqqında tərkib və təhlil üsulu, yəni, yuxarıda söylədiyimiz kibi, sövti üsulun üçüncü şəkli tövsiyə olunmaqdadır. Burada "əlifba təlimində oxunan əşyanın mümkün olduqca rəsmini çəkmək və ya müqəvvasını gildən və ya ağacdan yapmaq gərəkdir", – deyilir. Bu planı tərtib edənlər hər halda türk məktəblərinin bugünkü xarici və daxili vəziyyətini göz önündə tutmuş olsalar gərəkdir.

Məktəblərimizdə əlifba öyrətmənin üsulları gərəyi kibi yoluna qonulmaq üçün bu xüsusda rəhbərliklər çoxalmalı və iyiləşməli, bundan başqa, əlifba kitablarımız da düzəldilməlidir.

YAZI VƏ DOĞRU YAZMA

Письмо и орфография

Məktəb kitablarımızın, bilxassə sərflərimizin baş səhifəsində elan olunan şüar "doğru oxuyub-yazmağı öyrətmək" idi. Bununla bərabər, yazının və doğru yazmanın dib, əsas məsələləri haqqında bu günə qədər pək az şey yazılmışdır. Burada "Hərf və səs" bəhsində yazdıqlarımıza əlavə olaraq bu məsələni bir parça daha aydınlaşdırmalıyız.

Hər dürlü yazı xüsusi bir göz dilidir **(зрительный язык)** ki, bəlli işarətlər yardımı ilə insanın damağında doğan duyğu və düşüncələri anladır. Belə dil insanın uzaqda bulunan adama öz düşüncələrini bildirmək istəməsi, yaxud bu düşüncə və duyğuları təsbit etmək, bilgiləmək arzusunda bulunması nəticəsində doğmuşdur.

Bu dilin sameə-qulaq dilindən **(слуховой язык)** ayrılığı ordadır ki, bunda söyləşmənin ahəngi, məqamı təsbit olunamaz. Halbuki bu cəhət bizim üçün fövqəladə böyük marağı haiz ola bilirdi. Bunu ancaq səsyazıcılar **(фонограф)** vasitəsi ilə yapmaq olur. Necə kim, L.Tolstoyun sözləri belə alətlər vasitəsilə qeyd olunmuşdur.

Yazının nə surətlə başlayıb bugünkü şəklinə gəldiyi səs və hərf bəhsində gərəyi qədər təfsilatla izah və bəyan edilmişdir.

Yazı dilini meydana gətirən bir çox ruhi-üzvi **(психо-физиологический)** ünsürlər, amillər vardır ki, bunları gözdən keçirmədikcə, bu amilləri iyicə anlamadıqca yazını öyrətmək üsullarını doğru yola qoymaq qabil deyildir.

Şimdiyə qədər yapılmış olan tədqiqatın bizə göstərdiyi şudur ki, damağımızda bütün ruhi-üzvi fəaliyyətimiz üçün olduğu kibi dil və yazı üçün də şu mərkəzlər **(центр)** vardır:

1) yazılmış sözlərin şəkillərini qeyd və idarə edən mərkəz,
2) söyləşmə zamanında yapılan hərəkət təsəvvürləri üçün mərkəz,
3) yazma zamanında yapılan hərəkət təsəvvürlərinin mərkəzi,
4) sözlər haqqında əldə edilən sövti (səm'i) təsəvvürlər üçün bulunan mərkəz.

Bunlardan ikinci və dördüncü mərkəzlər yazı fəaliyyətimizlə doğrudan-doğruya bağlı olmayıb, daha ziyadə dil və onun təsəvvürlərinə aiddirlər. Bununla bərabər, yazı mərkəzləri ilə bunlar arasında sıxı münasibət bulunur.

Birinci və üçüncü mərkəzlər doğrudan-doğruya yazı fəaliyyəti ilə bağlı olub, yalnız oxur-yazar (savadlı)larda bulunur və oxumaq-yazmaq fəaliyyəti, məlkəsi artdıqca bu mərkəzlər də dərəcə-dərəcə inkişaf edər və bu inkişaflarında iki əvvəlki mərkəzlərə sıxı surətdə bağlı bulunurlar. Bu iki cins mərkəzlər (yazı və dil) arasındakı bağ – rabitə yazmağa-oxumağa başlarkən daha ziyadə şiddətli olmalıdır. Yəni yazıya başlayan çocuq, yaxud adam yazacağı sözləri sövti təsəvvürlər və hərəkətlər ilə bağlaya bilməli, yəni söyləməlidir. Yazının bu dövründə hərflər və səslər, hecalar, sözlər bir-birilə bağlanır. Bu dövrdə yazı sövtidir **(фонетический)**.

Yazı ilərilədikcə, yəni yazan adam mexaniki bir surətdə səslərin qarşılığına hərfləri qoymağa və onları eyni surətlə bağlayaraq, yazını meydana gətirməyə alışdığı zaman artıq sövti mərkəzlər ilə yazı mərkəzləri arasında o qədər sıxı bağlanma olmaz. Artıq burada, birinci dövrdə olduğu kibi, yazının vahidi-qiyasisi **(единица)** hərf deyil, bəlkə, bu və yaxud şu məna ilə bağlanan bütün söz şəkilləridir. Yazı bu dövrdə fonetik-sövti haldan şəkli-morfolojik hala keçiyor və az-çox yuxarıda izah edildiyi vəchlə, ideoqrafik olur. Burada daha açıq söyləyəcək və bu xüsusda şimdiyə qədər söylədiklərimizi xülasə edəcək olursaq, deməliyiz ki, çocuq, yaxud yazmaya yeni başlayan bir adam hərfləri ayrı-ayrı damağında yerləşdirər. Məsələn, dörd-beş hərfdən ibarət bir sözü yazmaq istədiyi zaman bu hərfləri ayrı-ayrı təsəvvür edib, bunların birləşməsindən hasil olan sözləri təsəvvür edəməz.

Lakin yazıda böyük işləklər sahibi olan adamlarda belə, yuxarıda qeyd etdiyimiz dörd mərkəzin öz aralarında münasibəti bir dərəcədə olmaz, hər kəsə görə dəyişir. Bu mərkəzlər arasındakı münasibəti tədqiq etmək dil və yazı üsulçusu üçün pək böyük əhəmiyyətə malikdir. Bu tədqiqat nəticəsində görülmüşdür ki, yazını gərəyi kibi əldə edən yaşlı adamın ruhi, üzvi təsəvvürləri ilə çocuğunku bir-birindən pək ziyadə ayrılır.

Yaşlı adam bir söz yazmaq üçün bir iradəvi dəprənmə – hərəkət **(волевой импульс)** yapdığı halda, çocuq eyni sözü yazmaq üçün bir çox iradəvi dəprənmələr yapar. Digər tərəfdən, yaşlı bir sözü bütün bir qrafik şəkil kibi yazdığı halda, çocuq ayrı-ayrı hər hərfi və hətta hər hərfin ayrı qisimlərini cızmağa çalışıyor. Bunun üçündür ki, yaşlı adam imla **(диктовка)** zamanında bir sözü birdən-birə qolaylıqla yazdığı halda, eyni sözü ayrı-ayrı hərflərinə, ünsürlərinə bölərək, ayıraraq yazmaqda pək böyük güclük çəkər.

İştə yazı ruh və üzviyyətinin **(психо-физиология)** bu nəticələrini nəzəri-etibara alaraq, biz yazı və doğru yazı üsulunu çözə biliriz, təyin edəriz. Burada şu məsələlər qarşımıza çıxar:

1) Yazı ilə oxu bir yerdəmi olmalıdır?

2) Yazı öyrətmə üsulu nasıl olmalıdır? Təhlilimi, tərkibimi?..

Üsuli ədəbiyyatda birinci məsələ haqqında üç cərəyan vardır:

1) Bir yerdə yazdırmaq və oxutmaq.

2) Yazı oxudan əvvəl öyrədilməlidir.

3) Oxu yazıdan ayrı olaraq və ondan əvvəl öyrədilməlidir.

Bunlardan birinci cərəyan oxu-yazının tərkibi-təhlili bir surətdə, bir yerdə oxudulması şəklində məktəblərdə çoxdan bəri kəndisinə qayət sağlam və təməlli bir yer qazanmışdır.

İkinci cərəyan son zamanlarda Montessorinin üsulunda böyük əhəmiyyət qazandı ki, çocuq evlərində bu üsul mövcibi əvvələn yazı, sonra oxu öyrədilir. Bu sistemdə, öz bəhsində gördüyümüz kibi, bir çox əzələvi mümarisələr, bilxassə barmaq mümarisələri böyük yer alır.

Yuxarıda göstərilmiş üsullardan üçüncüsü də yeni deyildir. Yalnız son zamanlarda bu üsul Linderin **(Линдер)** şəxsiyyətində istedadlı və parlaq müməssilini bulmuşdur. Yuxarıda gördüyümüz kibi, psixo-fizioloji ünsürlərin yazı və oxudakı sıxı rabitələrini göz önünə gətirəcək olursaq, elə görünür ki, oxu-yazını biryerdə oxutmaq elmi və pedaqojik əsaslara pək ziyadə uyğundur. Lakin son zamanlarda Leypziq pedaqoqu Linder yazı ilə oxumanın ayrı-ayrı işlər olduğunu ileri sürərək, bu üsula şiddətlə etiraz etmişdir. Oxumaq hissi **(сенсорный)** bir iş olduğu halda, yazmaq hərəkidir **(моторный)**. Bundan başqa, motor və sensor mərkəzləri bir surətdə, müvazi olaraq işləmir. Hərəki fəaliyyət **(моторная деятельность)** daima hissi fəaliyyətdən geri qalır. Söyləşmə nitqdən əvvəl nitq üçün lazım gələn materialın toplanması dövrü bulunduğu kibi, yazıdan da əvvəldə yazılacaq şeyin hazırlığı görülməlidir.

Yazı ilə oxunun ayrı-ayrı öyrədilməsi, bir çox texniki uyğunluqlar və məziyyətlərdən başqa bir çox ümumi tərbiyəvi və səhih məziyyətlərə malikdir. Oxumaya nisbətlə pək ziyadə qarışıq və güc qeyrətlər istəyən yazı və yazmaq üçün alınacaq vəziyyətlər çocuqların sağlığına pək ağır təsirlər yapa bilir. Bütün bu səbəblər yazı ilə oxumanı bir-birindən ayrı, oxutmaq lehində fikir verməyə məcbur ediyor.

Təbii, burada yazıdan məqsəd əlyazısıdır **(рукопись)**. Əgər yazını geniş mənasında alacaq olursaq, sözləri ifadə edən işarətləri anlaya

bilmək və bu işarətlərlə səsləri və sözləri bilgiləmək hər zaman zəruri bir iş olacaqdır. Çocuqlar karton hərflərindən sözlər yaparaq, bunları yazır və yazılarını təhlil edərək oxuyur.

İ.N.Şapoşnikov **(И.Н.Шапошников)** "Canlı səslər" **("Живые звуки")** namındakı əsərində yazmanın qarşısında bulunan bir taqım texniki maneələri ortadan qaldırmaq üçün bir çox təcrübələr nəticəsində əldə etdiyi və diqqətlə işlədiyi üsulu, qrafik üsulunu təklif ediyor. Şapoşnikov yazını rəsmlə birləşdirir. Yazıdan əvvəl rəsm mümarisələrini ileri sürür.

Şapoşnikov öz üsulunun təməlinə, nəqş və işləmə **(кайма, узор)** rəsmlərini qoyaraq çocuqların belə rəsmlər üzərində yapdıqları mümarisələrdən sonra yazarkən istifadə etməni təklif ediyor. Bu surətlə mümarisələrə alışmış olan çocuqlar yazı üçün lazım gələn bütün ünsürləri əldə etmiş olurlar. Şapoşnikovun kitabına əlavə etdiyi nümunəlik nəqşləri gözdən keçirmiş olan türk müəllimləri türk köylərində, evlərində daha pək bol bulunan və bütün Avropa muzeylərində pək böyük qiymət və əhəmiyyətlə toplanıb saxlanılan türk nəqşlərindən və işləmə parçalardan faydalana bilir.

Yazı məsələsində qarşımıza çıxan ikinci məsələ yazının hankı üsul ilə, tərkibi, yoxsa təhlili üsul ilə öyrədilməsi məsələsi idi. Bu məsələ pedaqoji ədəbiyyatında dürlü surətdə çözülməkdədir. Avropa və Rusiya məktəblərinin əksəriyyətində yazı tərkibi üsulla keçilməkdədir. Yəni çocuqlar sözü yazmadan əvvəl sözün ünsürlərini, hərfləri yazmasını öyrənməkdə, hətta bundan əvvəl hər hərfi parça-parça cizgilərə bölərək, ayıraraq bu parçalar üzərində mümarisə yapmaqdadırlar.

Amerikan məktəbində bunun əksi, yəni təhlili üsul tətbiq olunmaqdadır. Çocuqlar bu məktəblərdə, oxumada olduğu kibi, birdən bütün sözləri yazmanı öyrənməkdədirlər. Başqa sözlərlə deyəcək olursaq, amerikan məktəbi çocuqları dərhal yaşlıların yazma tərzinə, üsuluna alışdırmağa çalışıyor. Yəni bir sözü bir iradəvi dəprənmə ilə yazdırıyor. Bu surətlə hər dürlü yazının varıb duracaq yeri olan avtomatik mexaniki surətdə yazmaq dərəcəsini olduqca böyük sürətlə əldə etməsi dolayısilə bu üsul çocuqları bir çox yanlışlıqlardan saxlıyor. İştə bu səbəbdən dolayı yazının təhlili üsulilə öyrədilməsi getdikcə son zamanlarda böyük etibar qazanmağa başlıyor. Yuxarıda ismi keçən Leypziq pedaqoqu Linder qəti surətdə təhlili üsulun tərəfdarı bulunıyor.

Bununla bərabər, təhlili üsulla yazı öyrətmənin olduqca mühüm nöqsanları vardır. Yazının ayrı-ayrı ünsürlərini verəmədiyindən bu üsul

yazılanı kontrol etmək üçün lazım gələn meyarı **(критерий)** çocuğun əldə etməsinə mane oluyor. Bundan başqa, bu üsulun tətbiq oluna bilməsi üçün məktəbin gözəl, mükəmməl təchizata malik olması lazım gəlir. Rəsmə böyük əhəmiyyət verilən və hər dürlü alətlə pək gözəl surətdə təchiz olunmuş olan amerikan məktəbində, şübhəsiz, bu cəhət hesaba alınmaz.

Buradan şu nəticə çıxar ki, yazının hankı üsulla oxudulması lazım gəldiyi məsələsini iki nöqteyi-nəzərdən çözməlidir. Bunlardan birincisi yazının ayrı-ayrı ünsürlərinin öyrənilməsi, digər tərəfdən, məktəbin alət və ədəvatca zənginlik və fəqirliyi[dir]. Bu sonuncusu türk məktəbləri, bilxassə köy məktəbləri üçün pək ziyadə mühümdür. Bu iki nöqteyi-nəzərdən baxıldıqda nəticə tərkibi üsul lehinə çıxmış olur. Bununla bərabər, təhlili üsulun çocuğun zehninə, yazının hədəfinə, məqsədinə daha ziyadə uyğun olduğunu göz önündə tutaraq, müəllimlər tərkibi üsulla yazının ünsürlərini, hərfləri öyrətdikdən sonra bunun arasından gələcək mümarisələri təhlili üsul ilə keçə bilirlər. Yəni hərflər yerinə bütün sözləri yazmasını öyrədə bilirlər.

Buradan doğru yazma **(орфография, правописание)** məsələlərinə keçərkən hər şeydən əvvəl şunu deməliyiz ki, bu məsələləri sərf məsələləri ilə qarışdırmaq və yalnız sərfin tədrisinə əlavə olunan əməli işlər kibi görmək tamamilə yanlışdır.

Hər yerdə, hər kitabda imla məsələsi ilə sərf məsələsinin bir-birinə qarışdırıldığını görüyoruz. Belə qarışdırma onsuz da qarışıq və güc olan doğru yazma əməliyyəsini daha ziyadə gücləşdiriyor. Doğrudur, doğru yazma məsələsi türk məktəblərində hər şeydən ziyadə, hər şeydən əvvəl yazımızın, yəni ərəb yazısının türk dilinə görə bir çox nöqtələrdə heroqlif mövqeyində olmasından doğuyor. Lakin doğru yazma məsələsi və üsulu çözülmədikcə burada müəllimlərimizə heç bir yeni və yaxud islah olunmuş yazı yardım edəməz.

Afanasyev rus imlasının beş əsasa dayandığını söyləyir:

1) fonetik-sövti, 2) şəkli **(морфологический)**, 3) tarixi, yaxud ənənəvi, 4) əcnəbi sözləri yazmaq əsası, 5) təxalüf, ayrılma əsası **(принцип дифференциации)**.

Bunlardan birinci prinsip bizim şimdiyə qədər qullana gəldiyimiz ərəb yazısında qətiyyən yoxdur.

Ərəb yazısını türk dilinə tətbiq edənlər pək zəif əsasları göz önündə tutmuşlar. Hətta, bir sözlə demək lazım gəlirsə, türk dilinin sövti

xüsusiyyətlərinə və burada türk dili ilə ərəb dili arasında bulunan böyük ayırmalara heç kimsə qulaq asmamışdır.

Ərəb yazısı bu surətlə türk dilini yazmaqda qullanıldıqca onda dar mənası ilə fonetik əsaslar aramaq qabil deyildir. Bu xüsusda qayət geniş ədəbiyyat mövcud olduğundan təfsilindən vaz keçiyoruz.

Latın hərfləri üzərinə qurulmuş yeni türk əlifbası bu xüsusda, şübhəsiz, böyük iləriləmə sayıla bilir. Belə bir əlifba[nın] yardımı ilə hər hankı bir türk dilinin və yaxud şivəsinin başlıca səslərini təsvir etmək ərəb əlifbasına görə pək ziyadə qolaydır. Yalnız burada qarşımıza çıxan böyük bir güclük vardır. Bu güclük türk dilinin bu gün keçirməkdə bulunduğu dəyişmələrlə bağlıdır ki, bu da ədəbi dil və şivə dili məsələsidir.

Bir dilin gərək şəkli, gərəksə sövti mündəricəsi[ni] təyin etmədikcə orada doğru söyləmək, doğru yazmaq məsələlərini qəti surətdə çözmək qabil olamaz. Bunun üçün bu gün yazılmaqda olan türk dillərinin imlası sövti və şəkli cəhətdən elə bir anarxiya-qarışıqlıq içərisindədir ki, belə bir imlanı birinci basmaq, məktəblərə və onun tələbələrinə gətirmək qabil deyildir. Bu xüsusda İstanbul ədəbi şivəsi az-çox istisna təşkil edər. Çünki orada hər sözün müəyyən yazılışı var, demək mümkündür. Bundan başqa, az-çox qətiyyətlə Qazan, Azərbaycan... imlası gəlir. Doğru yazmanın şəkli cəhəti də bizdə eyni surətlə qarışıqdır. Burada bir yeknəsəqlik bulunmadıqdan başqa dilin şəkli xüsusiyyətləri də, yuxarıda söylədiyimiz kibi, bizim ərəb yazısında ehmal edilmişdir.

Bizim yazımızda (təbii, burada ərəb yazısı göz önündə tutuluyor...) ən ziyadə qəvi əsas tarixi, yaxud ənənəvi cəhətdir. On üçüncü əsrdən başlayaraq, yazılmış olan kitablarımızda türk-tatar sözləri nasıl yazılmışsa, əsas etibarilə bugünkü imlamız bu surətlə yazmanı tövsiyə ediyor. Bunun üçün bir çox sözlərin səs tərkibləri, mündəricələri çoxdan dəyişmiş olduğu halda, yazımıza baxarsaq, bunun heç də fərqinə varamayız. Bundan başqa, bir çox mürəkkəb sözlər rusca və latınca imlada bir yerdə yazıldığı halda, bizdə ayrı-ayrı yazılıyor.

Professor Afanasyev yazıdan məqsəd ayrı-ayrı səslərin bəllənməsi olmayıb, bəlkə, bütün sözlərin birdən yazılması olduğunu söyləyirlərsə də, bu sözlər bizim yazımız və imlamız üçün heç də varid deyildir. Bundan başqa, ümumiyyətlə alındıqda bu fikir doğru deyildir. Çünki fonetik yazı, yazı bəhsində də göstərdiyimiz kibi, parçalanmış nitqin **(членораздельная речь)** inikas və elmi lisaniyyatın tərəqqisi

sayəsində ileri gəlmişdir. Əgər bir çox məmləkətlərdə tam mənası ilə belə yazı daha meydana gəlməmişsə, bunun səbəbi lisaniyyat elminin lüzumi dərəcədə tərəqqi etməməsindən və nəhayət, məktəb həyatında bu elmin prinsiplərinə əhəmiyyət verilməməsindəndir. Əgər Afanasyevin bu fikrini məntiqi nəticəsinə qədər götürəcək olursaq, o vaxtda ideoqrafik yazı ilə, heroqlif ilə bizim bugünkü yazımız arasında eyni münasibəti görmək lazım gəlir. Qısası, yazımızın, hər nəyə mal olursa-olsun, sövtiləşdirilməsi və sözdə bulunan səsə qarşı yazıda hərf bulundurmağa çalışılması bizim üçün borcdur. Bizim yazımızda ən ziyadə riayət olunan və təməlində tarixi-ənənəvi prinsipilə birləşən bir cəhət də əcnəbi sözlərin yazılışıdır. Baxüsus ərəb-fars sözlərinin yazılışında bizim qədər mütəəssib bir xalq daha, bəlkə, dünya üzündə yoxdur. Əgər bu sözlərin, bilxassə ərəbcədən alınmışların yazılışını bu sözlərin çıxmış olduğu dillərin ən əski abidələrilə müqayisə edərsək, arada heç bir fərq olmadığını görəcəyiz. Məsələn, dilimizdə bulunan ərəb sözlərinin yazılışını əski Qur'an nüsxələrindəki şəkillər ilə müqayisə etsəniz, bu fikirlərimizin doğruluğuna qane olursunuz. Ərəb sözlərinin yazılışında onların həm fonetik, həm də morfolojik hərfləri gözə alınmışdır.

Afanasyevin rus dilində göstərdiyi beşinci əsas, yəni bir-birinə səscə bənzəyən sözlərin işarətləndirilməsi məsələsi də bizdə gərəyi kibi göz önündə tutulmamışdır. Daha on beşinci əsrdə Əmir Əlişir Nəvai sinonimlər, mütəradiflər üzərinə nəzər-diqqəti cəlb etdiyi halda, bunların yazılışı xüsusunda heç bir şey söyləməmişdir.

Xülasə, bu günə qədər bizim qullana gəldiyimiz yazı ancaq tarixi-ənənəvi prinsiplər üzərinə qurulmuş və bilxassə əcnəbi sözlərinin öz şəkilləri ilə buraxılmasına pək ziyadə diqqət etmişdir. Ancaq bu əsrin başlarında imlamızın, başda türk sözlərinin az-çox söylənişə uydurulması, sonra on yeddinci sənənin oktyabr inqilabından sonra Krımda, Qazanda, Türküstanda, Başqırdıstanda ərəb sözlərinin də bu surətlə, yəni söylənişə uydurularaq yazılmağa başlanması görülür.

Bütün bu xaos, hay-küyə, qarışıqlığa baxmadan, biz burada imla tədrisinin baş nöqtələrini qeyd etməliyiz. Burada məşhur lisan və üsul alimlərindən Tomsonun şu sözlərini xatırlamalıyız:

"Əgər məqsədimiz yarımçıq oxur-yazarlar deyil, tam mənasilə oxuyub-yazan adamlar yetişdirməksə, rus imlasını nasıl da dəyişdirsən, bundan böyük bir fayda hasil olmaz. Burada imladan əvvəl imla tədrisi üsulunu dəyişdirmək lazımdır".

Dürlü imla üsullarından hankısının daha ziyadə işə yaradığını anlamaq üçün şu amillərin doğru yazma məsələsində nasıl bir rol oynadıqlarını meydana çıxarmalıdır:

1) sözün doğru söylənməsi,
2) sözün doğru eşidilməsi,
3) yazılan sözün görünüşü, şəkli,
4) yazı yazarkən yapılan hərəkətlər, və nəhayət,
5) imla qaydalarının öyrənilməsi nə kibi bir əhəmiyyətə malikdir.

Yalnız son zamanlarda yapılan tədqiqlər və təcrübələr imla məsələlərinə elmi bir mahiyyət vermiş və yuxarıda saydığımız amillərin əhəmiyyəti ancaq bu sayədə meydana çıxa bilmişdir.

Sözün doğru eşidilməsinə əhəmiyyət verildiyi üçün bu xüsusda bir çox mümarisələr tövsiyə ediliyordu. Bu xüsusda ən ziyadə gözəçarpan üsullardan birisi diktant **(диктант)** idi. Əgər yazılan sözün görünüşünə, şəklinə daha ziyadə əhəmiyyət veriliyorsa, burada sözlərin kopya edilməsi tövsiyə olunuyordu. Əgər imla qaydalarına daha ziyadə əhəmiyyət veriliyorsa, bunun üçün bütün müstəsnalar ilə bərabər, imla qaydaları əzbərlətdirilirdi. Bəzən də diktant ilə bərabər, kopya üsulu, hətta "kakoqrafiya" **(какография)** namı verilən və yanlış yazılan sözləri düzəltməkdən ibarət olan üsul birlikdə tövsiyə olunurdu. Lakin kakoqrafiya ilə diktantın bir-birinə tamamilə zidd təsirlər yapdığı fərq edilməzdi.

Əgər belə təzadlara düşmək istəmiyorsaq, yazının psixo-fiziologiyası haqqında söylədiklərimizi xatırlamalıyız.

Bu xüsusda bu gün ən ziyadə mühüm sayılan təcrübə və nəticələr professor Layın **(Лай)** təcrübələridir. Bu professorun təcrübələri göstərmişdir ki, yazı hər şeydən əvvəl basirəvi bir hadisə və tərsimi **(графическое)** bir sənətdir. Bunun üçün sameə yolu ilə, qulaq yardımı ilə imlanı öyrənmək pək ziyadə gücdür. Professor Layın təcrübələrindən anlaşıldı ki, göz diktantı **(зрительный диктант)** qulaq diktantına görə iki kərə az yanlış verir (yəni qulaq vasitəsilə yapılan imla yerinə mətnin əvvəlcə oxunması ilə yazılan yazı). Kopya üsulu qulaq, yaxud sameə imlasına görə altı kərə az yanlış verdi. Əl ilə yazılmış mətndən **(текст)** kopya yazılıb alınma, yaxud köçürülmə üsulu basma hərflərdən yapılan kopyaya görə iki kərə ziyadə yanlış verir. Foksun **(Фокс)** və Xaqenmüller **(Хагенмюллер)** kibi başqa alman pedaqoqlarının təcrübələri də aşağı-yuxarı eyni nəticəni vermişdir.

Bu surətlə yapılan təcrübələr yazı psixo-fiziologiyasının bizə verdiyi məlumatı qüvvətləndiriyor. Yazılı mətndən kopya edərkən əl əzələlərinin hərəkəti ilə göz hərəkətləri bir-birilə pək sıxı və uyğun münasibətdə bulunıyor və bir-birinə yardım ediyor. Halbuki qulaq vasitəsilə imla yazdırıldıqda, yəni şifahi imla (diktə) dərslərində nə sövti təsəvvürlər, nə də əl əzələləri hərəkəti təsəvvürləri bir-birilə heç bir ahəng və münasibət peyda edəmiyorlar. Sağır – dilsizlər üzərində yapılan təcrübələr sözün mənası ilə sözün şəkli, basirəvi təsəvvürləri arasındakı münasibəti bir qat daha artdırıyor. Yaşlı sağır – dilsizlər əgər kafi dərəcədə oxuya biliyorlarsa, heyrət ediləcək dərəcədə məharətlə yazıyorlar. İştə bunun üçündür ki, professor Tomson **(Томсон)** hərflərin şəkillərinə pək böyük əhəmiyyət veriyor və məktəblər üçün basılan kitablardakı yazının əlyazısına yaxın olması lazım gəldiyini ilərıyə sürüyor.

Bu surətlə Lay tərəfindən yapılan təcrübələr yazının psixo-fiziologiyası tərəfindən verilən məlumatı qüvvətləndirməklə imlada sameəvi və sövti təsəvvürlərin o qədər böyük əhəmiyyəti olmayıb, bəlkə, burada ən böyük rolu yazılı şəkli və yazıda əlin hərəkəti oynadığını bildiriyor.

İmla qaydalarına gələcək olursaq, imla öyrənilərkən buna ən əhəmiyyətsiz bir yer ayrılmalıdır. Elə çıxır ki, yeni üsul məktəblərimizdə tətbiq olunan imla üsuluna görə, əski məktəblərin məşq üsulu pedaqoji və psixoloji nöqteyi-nəzərindən daha uyğun bir üsuldur. Bununla bərabər, Layın şimdiyə qədər izah edilən üsuluna bir kərə çocuqları şüursuzlandırması, ikincisi, bir çox tələbələrin ruhi və damağı təşəkkülatına uymaması nöqteyi-nəzərlərindən etirazlar, həm də haqlı etirazlar olmaqdadır.

Bütün bu təfərrüat üzərində olan bəzi anlaşılmazlıqları kənara buraxacaq olursaq, şu nöqtələr elmi cəhətdən tamamilə bilgilənmişdir, – deyə biliriz:

1) Sameəvi imla və bilxassə təshihli imla təmrinləri doğru yazma vasitəsi olamaz. Professor Tomson bu xüsusda deyir ki, yalnız çocuqların hər halda doğru yazacaqları mətni qulaqdan yazdırmaq olur. Tarixi yazılar **(исторические орфографии)** daima fonetik-sövti deyil, bəlkə, morfolojik-şəkli olduğundan (yəni sözü söyləndiyi [kibi] yazmayıb, bəlkə, əski tarixi şəkli mənşəyinə görə yazdığından) belə sameəvi imla sayəsində yazı bilən adam da, savadlı da savadsız olar. Bilxassə

hənuz yazını təməlli surətdə bəlləməyən tələbələrdə belə hallara çox rast gəliniyor.

2) Bundan başqa, bütün şimdiyə qədər söylədiklərimizdən şu nəticə də çıxır ki, imla zamanında yanlış buraxmaq olmaz. Çünki bir kərə çocuğun zehninə girmiş olan yanlış bir daha güc çıxar və təkrarı halında yerləşib qala bilir. Burada məxsus yanlış yazılmış mətnlərin düzəldilməsi məqsədini daşıyan kakoqrafiya **(какография)** üsulunun başdan-aşağıya zərərli olduğu anlaşılır.

Halbuki bir çox sərf kitablarında rast gəldiyimiz mümarisə-təmrinlərin əksərisi bu yolu təqib etməkdədirlər ki, bundan başqa basirəvi təmrinlər **(зрительный диктант)** də eyni nöqteyi-nəzərdən məqsədəuyğun sayılmıyor. Arada bir və yaxud iki daha ziyadə hərfi buraxaraq tərtib olunan belə təmrinlərdə buraxılmış hərflərin yerinə ya (+), yaxud (-) işarəti qonulıyor.

3) Bəzi yazılması güc sözlərin əzbərdən öyrənilməsinə və imla qaydalarının bəllənməsinə böyük əhəmiyyət vermək doğru deyildir. Digər tərəfdən, bu xüsusda ifratçılığa düşmək də doğru deyildir. Bəzən yazı qaydalarının öyrənilməsi tələbəyə böyük yardımlar göstərə bilir.

4) Professor Tomsonun: "Yalnız doğru yazaraq yazı öyrənilir", – dediyini biliyoruz. Bu surətlə doğru yazmanı öyrənmək üçün yeganə çarə kopya etmək, yazıb almaq, yaxud məşq etmək ola bilir. Rus Maarif Komissarlığının və Dövləti Elmi Şuranın proqramları da məşq üsulunu ən faydalı üsullardan birisi olaraq tövsiyə etməkdədir. Burada şuna diqqət etməlidir ki, çocuqlar hətta birinci zamanlardan başlayaraq, ayrı-ayrı hərflər üzərində durmayıb, bütün sözləri yazmasını öyrənməlidirlər.

Müəllim bu məqsədi əldə etmək üçün şöylə bir üsula müraciət edə bilir. Müəllim bütün sinif qarşısında qısa bir cümləni taxtaya yazıyor. Çocuqlar müəllimin əlinin hərəkətini diqqətlə təqib ediyorlar. Sonra yazdığı şeyi taxtadan silir və bu surətlə çocuqlar bir az əvvəl taxtada gördükləri cümləni, yaxud sözləri hərflərə ayırmayaraq birdən yazmaq fürsət və imkanını əldə edərlər. Yazılacaq, məşq olaraq alınacaq mətn üçün Alferov **(Алферов)** namındakı pedaqoq şu şərtləri göz önündə tutmanı tövsiyə ediyor:

1) Yazılıb alınmaq, yaxud kopya edilmək üçün veriləcək mətn qısa, üç-dörd mətbu sətirlik olmalıdır. Alferov bu tövsiyəsinə səbəb olaraq uzun mətnlərin zehni yorduğunu, bu surətlə zehndə yapdığı təsirin zəiflədiyini göstəriyor.

2) Yazılmaq üçün qullanılan mətnlərin hərfləri böyük olmalı və yazan çocuqlar yavaş və gözəl **(каллиграфически)** yazmalıdırlar. Bu sonuncu sözlərə qarşı şunu demək mümkündür ki, yavaş və gözəl yazmağa çalışmaq çocuqları hərflər üzərində qalıb, bütün sözü gözdən qaçırmağa sövq edər ki, bu da yuxarıda gətirdiyimiz psixo-fiziolojik məlumata qarşıdır. Bunun üçün bunun yerinə, mümkün olan sürətlə yazıb, yazının aydın, açıq və doğru olması şərtlərini qoymalıdır.

3) Sözlər üçün xarakteristik olan bəzi səslərin və hecaların altına cızmanı tövsiyə ediyor. Bu altını cızma pək böyük diqqətlə yapılmalı və yalnız lazım gələn səsin və yaxud hecanın altı cızılıb, başqa səs və yaxud heca qarışdırılmamalıdır. Burada Afverovun tövsiyəsinə şunu əlavə etməlidir ki, səs və yaxud hecanın altını cızacaq yerdə sözün şəkli qisminin altını cızmalıdır.

4) Verilən yazı, yaxud imla vəzifələrini geri alarkən tələbələrdən sözləri nə üçün elə yazıb, başqa dürlü yazmadıqlarının səbəbini soruşmalıdır. Alferovun bu tövsiyəsində məqsəd çocuqlarda mümkün olduğu qədər fəaliyyət və maraq doğurmaqdır. Bu xüsusda başqa bir pedaqoq Flerov **(Флеров)** tərəfindən sərbəst məşq **(свободное списывание)** üsulu təklif olunmaqdadır. Bu üsul şu surətlə tətbiq olunur:

Çocuqlara ufaq və onlar üçün anlaşılacaq bir mətn verilir. Əgər mümkünsə, səs ilə, mümkün deyilsə, səssiz oxudulur. Sonra əllərindən kitablar alınır və ağıllarında qalanı kağız üzərində anlatmaları, yaxud yazmaları təklif olunur. Burada mətn sürətlə tətbiq olunur.

Burada mətnin doğru, hərfi-hərfinə kağız üzərinə əks etdirilməsi şərt qonulmaz. Çocuqlar bu işə alışdıqca mətnlər gücləşdirilir. Sərbəst imla və yaxud məşqin və texniki cəhətini bəzi pedaqoqlar belə təsəvvür ediyorlar:

Sərbəst imla dərsi əvvəlcə elan olunuyor. Lakin parça (yazılacaq mətn) əvvəlcə bildirilmiyor. Birinci dərsdə sərbəst imlanın hankı şərtlərlə yazdırıldığı çocuqlara bildiriliyor. İmla dərsləri bir kaç sual ilə başlayır ki, bu suallar çocuqların zehnini yazı ilə, mətnin mündəricəsi ilə məşğul ediyor. Bundan sonra parça bir dəfə fasiləsiz, durmaqsızın başından sonuna qədər oxunıyor. Bundan sonra bir dəqiqəlik ara verilir. Sonra bu mətni parça-parça oxumağa başlıyorlar. Hər parça dörd-beş sətirdən ibarət olub, yalnız bir dəfə oxunuyor. Belə qısa bir parça oxunur-oxunmaz çocuqlar dərhal zehnlərində qalanı kağız üzərinə yerləşdirməyə qoyuluyorlar. Əgər bu parçalar içində imlası güc sözlər var isə, ayrıca taxtaya da yazılıyor.

Yazılıb bitdikdən sonra imla dəftərləri toplanır. Sonrakı dərslərdə bəzi imla vəzifələri sinifdə səslə oxunur. Çocuqlar bu əsnada öz fikirlərini söyləyirlər.

Buradan təklif olunan sərbəst imlanın dar və cansıxıcı təmrinlər, mümarisələr, inşa və kitabət (**изложение**) arasında gözəl keçid vəzifəsini görə biləcəyini söyləməyə hacət varmıdır? Hər halda ibtidai məktəblərində baş əhəmiyyət çocuqların yanlışsız imla öyrənmələrinə verilməyib, daha ziyadə imlanın, bilxassə yuxarıdakı sətirlərimizdə sərbəst imla namilə izah edilən şəkildə dilin əldə edilməsinə verilməli və qulaq asılmalıdır.

Yazı islahı, hətta dəyişdirilməsi dövründə bulunduğumuzdan bu xüsusda daha şəkli, konkret tövsiyələrdə bulumağı zaid, faydasız buluyoruz. Hər halda şimdiyə qədər verilən məlumatı iyicə bənimsəyən ibtidai məktəb müəllimi, hankı əlifba ilə olursa-olsun, doğru yazma məsələsini elmə və tərbiyəyə uyğun bir şəkildə alıb gedər və lazım gələn parlaq nəticələri əldə etməkdə gecikməz.

İNŞA VƏ KİTABƏT

Изложение и сочинение

Məktəblərdə çocuqların öz fikirlərini sərbəst şəkildə anlatmaları, düzmələri, yazmaları şimdiyə qədər imla – doğru yazma qaydalarının qurbanı ola gəlmişdir. Türk-tatar məktəblərində "İnşa və kitabət" namını daşıyan bu dərslər son zamanlara görə, yaxud bu xüsusda yazılmış, tərtib olunmuş hesabsız inşa nümunələrinin verdiyi mücərrəd, çocuqların təbiət və damağından, yaşayışından uzaq qəliblərə görə idarə oluna gəlmişdir. Halbuki keçən bəhsdə gördüyümüz kibi, bugünkü pedaqoq və lisançılar bir çox təcrübələr və elmi qanunlara dayanaraq, imla və doğru yazma dərsləri bir az ilərilədikdən sonra ona sərbəst imla və fikir yazma, mövzu genişlətmə simasını, cərəyanını verməni təklif ediyorlar. Deyə biliriz ki, son zamanlarda bu məsələnin əhəmiyyəti türk məktəblərində olduqca doğru anlaşılmağa başlamışdır. Nətəkim, mərhum Əli Nüsrət bəyin Türkiyə darülmüəlliminin naşiri-əflakı olan "Tədrisati-ibtidaiyyə" məcmuəsinin bir çox nüsxələrində "Kitabət dərsləri" namı altında yazdığı məqalələr buna şahiddir. Nüsrət bəy bu məqalələrində hafizə qanunlarını və çocuqların ruhunu, damağını, mühitlərini, zövqlərini göz önündə tutmanı, hərarətlə tövsiyə ediyor. Digər tərəfdən, şimal türklərində Qalimcan İbrahimov kibi pedaqoqlar bu xüsusa nəzər-diqqəti cəlb edərək, bəzi risalə və məqalələr meydana qoymuşlardır.

Rus məktəblərində də bu məsələnin yalnız son zamanlarda layiq olduğu əhəmiyyətlə münaqişə və müzakirəyə qoyulduğunu biliyoruz. Şimdiyə qədər müstəqil və sərbəst düzmə və anlatmaya varmazdan əvvəl şu dövrələrdən keçmək tövsiyə olunurdu:

1) oxunan parçanı suallara görə anlatmaq, əvvələn olduqca müfəssəl, sonra daha ziyadə ümumi surətdə;

2) oxunan şeyi – planı və çərçivəsi saxlanmaq şərti ilə suallı və yaxud sualsız anlatmaq;

3) oxunan şeyin planını saxlamaqla bərabər, şəklini dəyişdirərək anlatmaq; məsələn, bir adamın ağzından yazılan şeyi bir kaç adamın ağzına qoymaq, yaxud biləks; bir sözlə, monoloq üsulunda olan parçanı dialoq şəklinə, yaxud biləks çevirmək;

4) oxunan şeyi planını və şəklini dəyişdirərək anlatmaq; hekayəni rol oynayan qəhrəmanlardan birisinin ağzı ilə anlatmaq;

5) oxunan parçanın qısaldılması **(конспектирование)** planını çıxarmaq;

6) biləks, qısa bir parçanın genişlədilməsi;

7) oxunan parçanın planına və mövzusuna görə mövzu və plan uydurmaq;

8) böyükcə bir parçanın bir qismini çıxarıb almaq; bir hekayədən yalnız bir qəhrəmanı, yaxud bir hadisəni çıxarmaq;

9) oxunmuş olan bir kaç parçaya dayanaraq, başqa bir hekayə və yaxud məqalə düzmək;

10) nəhayət, verilən mövzuya görə müstəqil hekayə.

Demək ki, yalnız kitabət və inşa dərsinin sonuna doğru müstəqil yazma və anlatmaya keçirlərdi. Bu vaxtda da çocuqlara tamamilə sərbəstlik verilməzdi. "Müstəqil" təbir olunan yazılarda verilən mövzu və şəklə görə yapılırdı.

Amerikan məktəbində yazı mümarisələri tamamilə əks üsulla idarə olunıyor. Orada birdən-birə sərbəst yazı ilə işə başlayırlar. Çocuqlar öz fikirlərini, duyğularını sərbəst surətdə yazıyor, anladıyorlar. Sərbəst yazıda ən ziyadə sevimli şəkil olaraq məktub şəkli alınıyor və mövzular doğrudan-doğruya çocuqların ömrünə, mühitinə toxunıyor. Amerikan üsulu ilə rus və türk məktəblərində qullanılan üsulu bir-birilə çarpışdıracaq olursaq, amerikan məktəblərində çocuğun sərbəstliyinə, icadlığına daha ziyadə əhəmiyyət verildiyi halda, türk və rus məktəblərində daha ziyadə texniki cəhətə, müəyyən və mücərrəd qəlib və şəkillərin əldə edilməsinə əhəmiyyət verildiyi açıq surətdə gözə çarpar.

İştə sərbəst yazıda bu iki cəhətə texniki və ibdal cəhətləri **(техническая и творческая стороны)** bir-birilə müəyyən və faydalı ahəng və müvazinə altında tuta bilməlidir ki, bu işdən məktəblərdə bəklənilən fayda hasil olsun. Texniki, süni cəhətdən qarşımızda çocuqları ədəbi dilə yaxınlaşdıracaq üsul və qaydalarla aşina etmək vəzifəsi duruyor. Biz burada çocuğa ədəbi üslubun **(литературный стиль)** əsaslarını verməliyiz.

Digər tərəfdən, çocuğun ruhca-damaqca inkişafına yardım təqib edərək, öz düşüncə və duyğularını ürkmədən, çəkinmədən yazacaq, meydana qoyacaq yazıçıların, mühərrirciklərin doğmasına yardım etməliyiz.

Burada şifahi nitqin əhəmiyyətini ayrıca qeyd etməliyiz. Şifahi nitqin **(устная речь)** əhəmiyyətini son zamanın üsuli ədəbiyyatı getdikcə böyüməkdə olan əhəmiyyətlə qeyd etməkdədir. Çocuqları məktəbə gəldiklərinin birinci günündən başlayaraq, əcnəbi fikirlərin, yabancı duyğuların hücumundan, təsirindən qurtarıb, daima öz fikirlərini, öz duyğularını anlatmağı, öz fikirlərini bildirməyi, müqtədir bir hala gətirməyi heç bir zaman unutmamalıdır. Belə söyləşmə, anlatmaları **(беседы-сочинения)** məktəbdə ana dili dərslərinin proqramına ayrı bir iş olaraq yerləşdirib, bunun üçün əvvəldən açıq və hərtərəfli düşünülmüş planlar düzəltmək lazımdır.

Müsahibə, söyləşmə üsulu rus və Azərbaycan Maarif Komissarlığının proqramlarında bütün şöbələr üçün təklif olunıyor və bu surətlə belə bir plan tərtib edib, bu müsahibələri sağlam bir üsul altına almaq ehtiyacı daha ziyadə qüvvətləniyor.

Bu soy müsahibələr üçün birinci materialı rəsmlər, təsvirlər veriyor. Bu rəsmləri müəyyən, lüzumlu sıraya soxmaq sayəsində müəllim çocuqları sıxmadan, yormadan böyük bir məharətlə cümlələr tərtib edər və bu cümlələrin bağlanması ilə kiçik-kiçik hekayəciklər əldə ediliyor.

Keçən bəhslərimizdə çox dəfə ismi keçən Şapoşnikov "Canlı səslər" namındakı əsərinə bu məqsədə xidmət üçün yüzə qədər çocuq həyatından alınmış rəsmlər əlavə etmişdir.

Təbii, şifahi nitq, söyləşmə işləri yalnız ana dili dərslərinə bağlı deyildir. Bu xüsusda əvvəldən bəri türk məktəblərinin proqramlarında yer alan əşya dərsləri böyük əhəmiyyəti haizdir. Bu gün "zəhmət məktəbi" adını daşıyan şura türk-tatar məktəbləri bu yolda daha ziyadə əlverişli vəziyyət almışlardır. Təbiət, tarix, ictimaiyyat, coğrafiya və başqa dərslərdə çocuqların müstəqil və icadçı fəaliyyətlərini göz önündə tutmaq məcburiyyətində bulunduqlarından burada da müsahibə üsulunun və sərbəst anlatmanın böyük yeri vardır və bu dərslərin müvəffəqiyyətli getməsi ilə ana dili dərsləri böyük qolaylıqlar qazanır.

Dövləti Elmi Şuranın **(Г.У.С.)** düzəltdiyi proqramlarda bu soy müsahibə başlıca iki qismə ayrılmaqdadır. Birincisi, məktəbə yeni girən çocuqlarla olan müsahibədir ki, burada çocuğun məktəbə qədər yazın keçirdiyi məişət müsahibənin mövzusu olmalıdır. Burada yazdakı təbiət, çocuqların yaz oyunları, işlər, ailə və onun əzaları... başlıca məsələlər oluyor. Bundan sonra məktəb və onun işilə tanış olmaq başlıca mövzu olaraq təklif olunuyor. Burada çocuğun məktəbdə keçirdiyi

həyata bağlı olan cəhətlər göz önünə alınıyor və çocuq bunlar üzərində düşündürülüyor. Burada nitqin, söyləşmənin şəkli, texniki cəhətlərinə əhəmiyyət vermək, diqqət etmək lazımdır. Bu da bilxassə rəsmlər üzərinə müsahibə yaparkən qolay əldə edilə bilir.

Buradan yazı işlərinin ən sona, yəni müsahibələrin bitməsinə və çocuğun mükəmməl surətdə söylənməyə başlaması zamanlarına qaldırılması lazım gəldiyi nəticəsi çıxarılmasın. Yazı mümarisələri birinci müsahibələrdən başlayaraq, müvazi surətdə getməlidir. Çocuqlar cümlələri tərtib edərlər, müəllim isə bu cümlələri taxtaya açıq və gözəçarpacaq bir surətdə yazar, çocuqlar da burada özləri üçün kopya edərlər. Müəllimə çocuqlar imla edərlər və bu arada müəllimin əl hərəkətlərinə diqqət verirlər.

Burada xəstə məsələlərdən birisi də mövzu seçilməsi məsələsidir. Şimdiyə qədər yazılmış olan türk qiraət kitablarını göz önünə gətirəcək olursaq, burada çocuq ruhunun və damağının heç də nəzəri-etibara alınmadığını təəssüflə görürüz.

Alman pedaqoqlarından Lemanın **(Leman)** və L.N.Tolstoyun çocuqlar üzərində yapdıqları təcrübələr göstərmişdir ki, qiraət kitablarında verilən gözəl, bədii və təsviri **(описательный)** parçalar heç də çocuqların ruhuna uyğun gəlmiyor. Hər iki pedaqoq çocuqların bir az əvvəl yapdıqları, yaxud hər zaman gördükləri, qullandıqları əşyanı, hadisələri, maddələri tərif və təsvirdə böyük güclük çəkdiklərini qeyd və işarət ediyorlar. Çocuqlar təsvirdən ziyadə hekayəni, təfərrüatdan ziyadə əsası və bilxassə hərəkətləri qavrayırlar.

Buradan təsvirlərin hekayə, daha doğrusu, təhkiyədən **(повествование)**, mühakimənin **(рассуждение)** bundan da güc olduğu kibi bir nəticə çıxarılmamalıdır.

Bu xasiyyətlər (təsvir, hekayə, mühakimə) həyatda ümumiyyətlə bir arada bulunub, yalnız qiraət kitablarında ayrı-ayrı göstərilirlər.

Bu xüsusda Lakler **(Лаклер)** və Bine **(Бинэ)** namındakı alimlərin yapdıqları təcrübələr, heç şübhəsiz, həqiqətə daha ziyadə yaxındır. Bu təcrübələrə görə, yaşlılar arasında olduğu kibi, çocuqlar arasında da şöylə dörd qrup şəxsiyyət ayrıla bilir:

1) təsviri, passiv **(пассивный)**, yalnız qəbuledici tip,

2) tərəssüdedici, yaxalayıcı və bağlayıcı tip,

3) döyüşçü tip, hər gördüyü şeyin bağlarını, mənasını görməyə, qeyd etməyə çalışan,

4) alim tipi **(учетный тип)**; tərəssüd və müşahidə yerinə artıq hazır məlumatı qoyan.

Bütün dörd tipin xarakteristikasını vermək üçün bunların yazılarını gözdən keçirmək faydasız olmaz.

"Bağda xəzinə" mövzusu üzərinə birinci qrup müməssillərdən birisi olan çocuq şu sözləri yazıyor:

"Bu lövhədə şunlar rəsm olunmuş: Yataqda bir ixtiyar, onun yanında üç gənc, qoltuq **(кресло)**, kiçik çocuq, əlində çocuğunu tutan ana, onun arxasında doqquz yaşında bir qızcığaz duruyor. Qapıya doğru köpəklə bir qadın bulunuyor. Yerdə ağacdan bir beşik və çanaq".

İkinci qrupun müməssili olan başqa bir çocuq yazıyor:

"İxtiyar tezdən öləcəyini duyub, yanına çocuqlarını çağırdı. Çocuqları dörd dənə idi. Üç yaşlı çocuqlar on beş, on altı, on yeddi yaşlarında idilər. Kiçik çocuq anasının dizində oturdu. Birisi qoltuğuna oturub ixtiyarı dinləyirdi. İxtiyar şu sözləri söyləyirdi:

"Çocuqlarım, bənim babamdan qalmış olan toprağı satmayınız. Onda xəzinə saxlıdır. Toprağı gözəlcə qazınız, eşiniz və xəzinəni bularsınız". O söylərkən xidmətçi qız şkafdan, dolabdan şərab gətirdi. Köpək gözləri ilə onun hərəkətlərini təqib edirdi.

İxtiyar: "Toprağı satmayınız!" – dedi və gözləri qapandı".

Üçüncü tipə mənsub olanlardan birisi yazıyor:

"Bu acıqlı səhnə fəqir bir qələbədə olub keçdi. Fəqir köylü özünün acıqlı döşəyində ölüm halında yatıyordu. Eşidilir-eşidilməz bir səslə ixtiyar çocuqlarına dedi: "Oğullarım, toprağı bir kaç kərələr kürəklə iyicə qazınız. Heç bir yeri buraxmayınız". Ölüm yatağı yanında, əlində çocuğu ana duruyor. Çocuqlarından biri babasının yatağı yanında onun ağıllı sözlərini dinləyirdi. Evdə qayğı və kədər hökm sürüyordu".

Nəhayət, dördüncü qrupun müməssili olan çocuq şu sözləri qeyd ediyor: "Köylü ölümün yaxınlığını duyaraq bütün oğullarını və kiçik çocuqlarını çağırdı. Həpsi toplandıqdan sonra köylü onlara dedi ki, tarlada xəzinə çaxladır və qeyrət edilirsə, onu bulmaq olur.

"Gediniz, – dedi onlara, – ərkəkcəsinə çalışınız. Mətin olunuz, xəzinəni bulursınız!"

Çocuqlar tarlanı bir başdan-bir başa bir kaç kərə qazdılar. Xəzinəni bulamadılar. Lakin gələn sənə iki kərə ziyadə məhsul aldılar".

Bundan sonra başqa pedaqoqlar tərəfindən yapılan təcrübələr eyni nəticələri verdi və yuxarıda qeyd olunan dörd tipin hər halda varlığını göstərdi.

İştə bütün bu tədqiqat şimdiyə qədər (təsvir, hekayə və mühakimə) kibi inşa və kitabət işlərində böyük rol oynayan ruhi amillərin birbirinə olan münasibəti haqqında mövcud olan fikirləri təməlindən dəyişdirmək lazım gəlir.

Bu soy tədqiqləri nəzəri-etibara aldıqda inşa və kitabət üçün alınacaq mövzuların sinifdə bulunan tiplərə görə dürlü-dürlü olması lazım gəlir. Dürlü tiplərə mənsub olanları birləşdirən sinifdə eyni mövzuya hər çocuğun eyni dərəcədə müvəffəqiyyətlə cavab verə biləcəklərini düşünmək faydasız və yanlışdır. Bu vəziyyətdən müvəffəqiyyətlə çıxmaq üçün bir çox yollar vardır. Bir sinfə bir kaç dürlü mövzular verilə bilər. Sonra çocuqlar bunlar içərisindən istədiklərini seçə bilirlər. Hər halda bir mövzu verildiyi təqdirdə belə, elə mövzu intixab olunmalıdır ki, çocuqlara sərbəst düşünmək və duymaq imkan və fürsəti qalsın. Ən iyisi veriləcək mövzuları sual şəklində ifadə edib, müəyyən çərçivə və şəkildə verməkdir.

Çocuqların müstəqil mövzular üzərində çalışmalarından bəhs edərkən bunların yalnız oxunan parçalarla bağlı olmamasını kafi saymaq olmaz. Burada ən ziyadə qaçınılacaq mövzu mücərrəd olanlardır. Mücərrəd mövzular, hətta ikinci dərəcə məktəbdə tövsiyə olunmadığı bir zamanda qalxıb belə mövzular üzərinə birinci dərəcə məktəb tələbələrinə düşünməni təklif etmək pək böyük yanlışdır.

İnşa və kitabət məsələləri ilə bağlı mühüm bir nöqtə də şagirdlərin yazı vəzifələrini təshih məsələsidir. Bu xüsusda yuxarıda ismi keçən və İstanbul maarifçiləri arasında kitabət və dil üsulçularının ileri gələnlərindən tanınmış olan Əli Nüsrət bəy "Tədrisati-ibtidaiyyə" məcmuəsinin birinci sənə 12-ci nömrəsində "Kitabət tədrisi" namilə yazdığı məqaləsində gərək öz təcrübəsinə və gərəksə başqa türk məktəblərində gördüklərinə dayanaraq, müfəssəl surətdə məlumat veriyor. Əli Nüsrət bəyin ileriyə sürdüyü nöqtələr bugünkü elmi baxışa olduqca uyğun və türk məktəbləri həyatına uydurula biləcək şeylərdir. Müəllimlərin pək çox vaxtını, pək çox enerjisini aldığı, yotduğu halda, yanlışların düzəldilməsi lazım gələn nəticələri çox vaxt verəmiyor.

Yanlışların düzəldilməsinə üç cəhəti ayırmalıdır: 1) doğru yazma nöqteyi-nəzərindən düzəltmə; 2) üslub cəhətindən düzəltmə; 3) nəhayət, mündəricə cəhətindən düzəltmədir.

Müəllim şimdiyə qədər yapa gəldiyi bu üç işdən ən faydasız və nəticəsizi birinci cəhətdən olan düzəltmədir. İmla nöqteyi-nəzərindən

göstərilən yanlış yalnız faydasız olmaqla qalmaz, bəlkə, bir kərə yapılan qüsuru çocuğun zehnində bir daha təkrar etdirərək yerləşdirməyə xidmət edər. Digər iki cəhətdən yapılan düzəltmə də böyük bir fayda gətirəməz. Çünki çocuğa başqasının (müəllimin) üslub və mündəricəsini yüklətmək surətilə onun öz inkişafına mane ola bilir.

Çocuqlar tərəfindən yapılan yanlışları müəllim[in] kəndisi üçün qeyd edərək, onları sonra bütün sinif qarşısında izah etmə[si] ən iyi üsuldur.

Amerikan məktəblərində yanlışların düzəldilməsi yanlış yapanların özlərinə yükləniyor. Müəllim tələbəyə işini üç kərə oxumaşını təklif ediyor. Birinci dəfə oxuduqda tələbələr yazılan şeyin mündəricəsinə, ikinci dəfə üslubuna və nəhvi cəhətinə, nəhayət, üçüncü dəfə oxuduqda imla tərəfinə diqqət ediyorlar. Hər halda yanlışların düzəldilməsi üçün ən iyisi tələbələrin özlərinə müraciət etməkdir. Bununla bərabər, inşa və kitabətin şəkli tərəfini ehmal etmək olmaz. Əski məktəb yalnız bu cəhəti gözə aldığından bu cəhətlər gözəl surətdə işlənmişdir. Tələbələrin yalnız icadçı **(творческий)** işlərinə diqqət edərək, bu cəhəti ehmal etmək doğru deyildir.

Çocuqları müxabirəyə alışdırmaq da inşa və kitabətin mühüm nöqtələrindən birisidir. Əski türk və bugünkü amerikan məktəblərində bu cəhətə ayrıca əhəmiyyət verilirdi. Əli Nüsrət bəy eyni "Tədrisati-ibtidaiyyə" məcmuəsində bu xüsusda bir kaç yazmışdır. Bir məktəb çocuqlarının başqa məktəb çocuqları ilə müxabirədə bulunması, xaric **(заграница)** məktəbləri çocuqlarına yazmaları arzu ediləcək hallardandır.

Bundan başqa, məktəb qəzet və jurnallarının əhəmiyyətini də ayrıca qeyd etməliyiz. Oktyabr inqilabından sonra şura məktəblərinin hər birində bir və bəzən bir kaç əlyazması divar qəzetələri **(стенные газеты)** bulunıyor. Bu adətin gərək inşa və gərək imla və qiraət, icadçı iş üçün fövqəladə əhəmiyyəti vardır. Belə jurnal və qəzetələrdə olan hekayə, məsəl, şeir, məruzə, tənqidi məqalələr, müxabirə və bilməcə... ilax. kibi şöbələrin hər biri çocuqlar üçün pək böyük qiyməti haizdir. Burada yalnız fikri və ruhi cəhətdən deyil, eyni zamanda zahiri şəkli, texniki cəhətdən böyük faydalar əldə edilir. Çocuqların özləri içindən çıxacaq təshihçi və tənqidçilər, ana dili müəlliminin yolbaşçılığı altında böyük-böyük qazanclara malik ola bilirlər.

Jurnal və qəzetələrdən başqa, dürlü məktəb gəzintilərindən, yaxud məktəbdə yapılan təcrübə və yaxud elmi, ədəbi axşamlardan sonra

yapılacaq yazı vəzifələrinin inşa və kitabətin elmi və ruhi yola girməsinə böyük xidməti olur.

Nəhayət, tələbə yövmiyyələrinin **(дневник)** də əhəmiyyətini unutmamaq lazımdır. Bunlar iki dürlü ola bilir: şəxsi və iştiraki **(коллективный)**. Şübhəsiz, məktəb üçün ən böyük əhəmiyyəti olan ikincilərdir. Məktəb tələbələri məktəb həyatının, məmləkət iqliminin, mühitin dürlü-dürlü dəyişmə və hadisələrini bu yövmiyyələrdə qeyd edə bilirlər.

TÜRK SƏRFİNİN TARİXÇƏSİ

Dilə iki dürlü baxış. Sərflərin növü: elmi sərf və məktəb sərfi. Sərfin təkamülü və əskikləri

Türk sərfinin tədris üsuluna yanaşmadan əvvəl onun keçirdiyi tarix və təkamülü göz önünə gətirməliyiz.

Dil bir halda duran bir şey deyildir. Onun üçündür ki, fon Humbold[t] dili "bir iş deyil, daimi bir fəaliyyət" deyə tərif etmişdir. Lakin dilin elə abidələri və hadisələri vardır ki, onları insanlar bənimsəmişlər və müəyyən məqsədlərə görə ondan istifadə edə gəlmişlərdir. Qısadan söyləyəcək olursaq, bir "dil-həyat", bir də "dil-alət" vardır. Birisi həyati fəaliyyətimizin, digəri ictimai həyatımızın məhsuludur. Bu iki dili anlamaq, yaxalaya bilmək üçün iki dürlü baxış lazımdır:

1) obyektiv, afaqi; 2) qaidəvi, iradi baxış.[22]

Obyektiv baxışda ümumiyyətlə həyəcani və iradi ünsür bulunmayıb, yalnız zehni, əqli **(познавательное)** münasib bulunur. Hər hankı bir şeyə obyektiv baxışın əlaməti qiymət və dərəcə kəsməmək, verməməkdir. Riyazi və təbii elmlərin öz mövzularına münasibətləri belədir. Təbiiyyat, məsələn, filan heyvan və yaxud ot cinsinin filan ot və ya heyvan cinsindən aşağı və yaxud yüksək, adi və yaxud ali olması ilə uğraşmaz. Hər üzviyyət və yaxud vücud özünə görə tam və mükəmməldir. Təbiiyyatın uğraşmağı nöqtə və üzviyyət və vücudlar arasında olan münasibət və təsir, əks-təsiri meydana çıxarmaq, bir sözlə üzvi və təbii qanunları bulmaqdır.

Lisaniyyat da bir elmdir. O da öz mövzusuna təbiiyyat və riyaziyyat kibi baxar. Hər nə qədər son zamanlara qədər lisaniyyatda da bir taqım ənfəsi, iradi baxışlar yer almışsa da, bunlar artıq büsbütün deyiləcək dərəcədə bu elmin çərçivələrindən çıxarılmışdır. Artıq lisaniyyat da, təbii və riyazi elmlərdə olduğu kibi, tərəqqi **(progress)** fikri yerini təkamül və inkişaf **(evolution)** fikri tutmuşdur. Halbuki mənəvi, insani elmlər **(гуманитарные науки)** psixolojinin "təcrübi" namını daşıyan dar bir qismi çıxarılmaq şərti ilə, yalnız obyektiv olamaz. Bu elmlərdə təkamül hadisəsi daima tərəqqi hadisəsi ilə qarışdırılır. Çünki burada

[22] Bu məsələ haqqında A.M.Peşkovskinin: Объективная и нормативная точки зрения на язык. Русский язык в школе, 1923, Москва-Петроград.

əsas olaraq alınan ölçü insan və cəmiyyətdir. Bu soy elmlərdə subyektivizmdən, cərəyançılıq, tərəfgirlikdən qaçmaq mümkün deyildir. Çünki insaniyyət cəmiyyətin qayə və idealı hər yerdə, hər əsrdə eyni surətlə anlaşılmamışdır. Buna görə dürlü hadisələrə dürlü qiymətlər verilir və dürlü cərəyanlara görə hadisələrin tərəqqi və yaxud tədənni (proqres və reqres) olması lazım gəlir. Bir az əvvəl lisaniyyatda hökm sürən belə qiymət fikirlərini xatırladırsaq, məsələ daha ziyadə aydın olur.

Kitabımızın birinci bəhsində ("Dil və fəlsəfə") oxuyucu Şleyxerin "Avropa dilləri" ünvanı ilə 1850-də yazdığı əsərində hecai dillərə cəmadata, iltisaqi dilləri nəbatata və insirafiləri heyvanata bənzədib, birincilərin ən aşağı, sonuncuların isə ən yüksək tərəqqi, təkamül dərəcəsi olduğunu iddia etdiyinə şahid ola bilir. Bu fikir bir çox sənələr lisaniyyat əsərlərində etibarlı bir yer almış, nəhayət, lisaniyyatın bir az əvvəl üsulca, mündəricə cəhəti ilə yapdığı böyük müvəffəqiyyətlər nəticəsində silinib getmişdir.

Digər tərəfdən, Vilhelm Humbold[t], Fransua Bub kibi dil bilgisinin böyükləri arasında keçmiş əsrdə dilin ömrünə olan baxış şöylə idi:

Dilin ömrü iki dövrəyə ayrılır: birisi dilin doğub böyüdüyü, kamala gəldiyi dövr, ikincisi yavaş-yavaş inhitat etməsi, çökməsi və ən sonu ölməsidir. İştə hər iki nöqteyi-nəzərdə subyektiv, iradi, həyəcani baxışdan doğar. Çünki obyektiv lisançı üçün dilin "fənası-iyisi pozulmuş, naziki-qabası" olamaz. Nasıl ki, kimya nöqteyi-nəzərindən kübrə pislik yox, müəyyən əczaların, mədən və yaxud qazların birləşməsi, ayrılması vardır.

Əgər dil bilgisinə **(linguistique)** bu iki, subyektiv və obyektiv nöqteyi-nəzərlərdən yanaşacaq olursaq, bu elm mənəvi və insani elmlərdən ziyadə təbii elmlərə yaxlaşır. Bu elmdə dilin tərəqqisi fikri dilin təkamülü fikri ilə dəyişdirilmişdir. Burada lisaniyyatda artıq doğru, yanlış, gözəl, çirkin fikri olamaz. Yalnız izah və qanun fikirləri ola biliyor.

Bununla bərabər, dilə ikinci bir baxış, həyəcani və iradi münasibət də mümkündür. Nasıl ki, təbiiyyat və kimya elmlərinin tətbiqi, əməli **(прикладной)** qisimlərində "faydalı" və "zərərli" fikirlərilə rast gəliyoruz. Bütün sənaye və mədəniyyət[in] bu elmlərə bu soy əməli və tətbiqi münasibətdən və bu meydanda alınan nəticələrdən doğduğunu isbata hacət yoxdur.

Dilin də insanlar və cəmiyyət üçün böyük, pək böyük bir əhəmiyyəti vardır ki, bu da onun insanların görüşmə, anlaşma aləti, vasitəsi olmasıdır. Dili heç çəkinmədən ən böyük istehsal alətlərindən birisi

saya biliyoruz. Dilsiz cəmiyyət, dövlət və istehsal, qısası, insani fəaliyyət şimdiyə qədər olmamışdır, – desək, zərrə qədər yanılmayız. İştə bunun üçün dilə tətbiqi və əməli surətdə yanaşmanı ehmal edib, unudub, yalnız elmi və obyektiv baxışla kifayətlənmək pək böyük bir xəta sayılmalıdır. Bir çox lisançılar subyektiv, qaidəvi **(нормативная)** nöqteyi-nəzəri heçə sayaraq, çox dəfə belə fikri daşıyan münəvvərlər və dil müəllimləri üzərində gülüyorlar. Halbuki lisançılarda belə baxış, dilin cəmiyyət içərisində, mədəniyyət işindəki rolunu gərəyi kibi anlamamaqdan ileri gəlir. Dünyada təbiətdə bulunan bütün hadisələr kibi, dilə də insanlar iki dürlü yanaşmışlardır: zehnlərilə və iradə-həyəcanlarilə. İştə bu ikinci dürlü baxışdan, münasibətdən ədəbi dil meydana gəlmişdir. Doğrudan da, ədəbi dil nədir? Bir cəmiyyət, bir dövlətin həyatında nümunə mərkəz rolunu oynayan məhəllin, yaxud zamanın yazılı, yaxud şifahi şivəsi, dilidir. İştə bunun üçün ədəbi dil **(литературный язык)** yalnız böyük və klassik ədiblərin, şairlərin dili deyildir. Dini, siyasi, ticari, iqtisadi üstünlük sayəsində hər hankı bir mövqenin dili belə nümunə mövqeyini ala biliyor. Başqa xüsuslarda olduğu kibi, dildə də insanlar bu yerin şivəsini təqlidə, onu öyrənməyə başlarlar. Türk-tatar xalqlarının dürlü siyasi və iqtisadi mərkəzlərə malik olduqları dövlətlərdə, dürlü ədəbi dillər çıxmış və bunların yıxılması ilə bu dillər də yalnız ədəbi əsərlərdə qalmışdır.

Ədəbi dildə ən əsaslı nöqtə dili müəyyən qaydalara sığışdırıb, bu qaydaların çərçivəsi içində onu mühafizəyə qeyrət etməkdir ki, buna qaidəvi **(нормативная)** nöqteyi-nəzər deniliyor. Ədəbi dilin bir çox xüsusiyyətləri vardır ki, bunlardan birincisini mühafizəkarlıq **(conservatisme)** saymaq mümkündür. Bir ədəbi dili qonuşan adam o dilin qaydalarını ideal surətində tələqqi edərək artıq onun qayda və üsullarından heç bir şey dəyişdirməməyə qeyrət ediyor. Bu surətlə ədəbi dil müəyyən bir durğunluq qazanıyor ki, bu sayədə canlı şivə ilə ədəbi şivənin arası açılıyor. Elə ədəbi dillər var ki, bir kaç əsr əvvəlki şəklini eynən saxladı, – demək mümkündür. Bu gün italyan bu ədəbi dil sayəsində Danteni qolaylıqla oxuyub anlayır. Halbuki eyni italyanı Dantenin köyünə gətirmək qabil olsaydı, o köylülər pək güclüklə anlaşırdı, yaxud heç də anlaşamazdı. Eyni surətlə ərəb münəvvərinin Qur'anı, əski islam filosoflarının, şairlərinin əsərlərini anlaya bilməsi ancaq bu sayədədir. Ədəbi dil bir çox nəsilləri, bir çox əsrləri birləşdirmək sayəsində heç bir nəslin, heç bir əsrin birdən doğamayacağı böyük bir ədəbiyyat, böyük bir mədəniyyət meydana gətiriyor.

Ədəbi dilin ikinci xüsusiyyəti məhəlləçilikdir **(localisme)**. Bir dildə qonuşan adam yalnız keçmiş nəslin dilini təqlid etməz, eyni zamanda müəyyən bir mövqenin dilinə də uymağa çalışır. Rusların ədəbi dili Moskva şivəsi, fransızların Paris, Osmanlı türklərinin İstanbul şivələridir. Bundan başqa, rus ədəbi dilinin doğmasında Moskva "Kiçik" **("Малый")** və "Bədii" **("Художественный")** teatrlarının, fransızlarda "Komedi Fransez"in oynadığı rol hər kəsə məlumdur.

Bir xalqın, bir dövlətin, bir cəmiyyətin ədəbi dilə malik olub-olmaması pək böyük ciddi bir məsələdir. Bunun üçündür ki, hər dövlət, hər cəmiyyət mədəni müəssisələrini ədəbi dil üzərinə qurar və maarif ocaqlarından ədəbi dilin əldə edilməsi[ni], öyrənilməsini istər. Bu ədəbi dil olmazsa, o dövlətin, cəmiyyətin mühüm bağlarından birisi, bəlkə, bel gəmiyi qırılmış olur. Buradan məktəblərdə oxudulan ana dilinə normativ nöqteyi-nəzərdən baxmanın nə qədər əhəmiyyəti olduğu anlaşılır.

Demək ki, məktəblərdə dili bir hadisə, ruhi, üzvi **(психофизиологический)** bir əməliyyə olaraq öyrənməkdən başqa, bir də əməli və ictimai bir müəssisə olaraq təlim etməlidir. Başqa sözlərlə deyəcək olursaq, yalnız dilin təkamülünü deyil, tərəqqisini, yanlış və doğrunu və gözəl – çirkini də öyrətməlidir.

Bu iki nöqteyi-nəzər məktəblərdə pək qolay bir-birilə barışa bilir. Gözəl, doğru söyləmədən, bu xüsusdakı qaydaları əzbərləmədən əvvəl ümumiyyətlə söyləmək nə olduğunu, canlı şivə[nin] nədən ibarət olub, ədəbi dilin nərədən çıxdığını bildirmək lazımdır. Yalnız qanun məcmuələrini əzbərləməklə insanın iyi və işəyarar bir yurist-hüquqçu olmayacağı kibi, ədəbi dilin üslub və imla – sərf qaydalarını əzbərləməklə də insan doğru dil məlumatı almış olmaz və onun gözəl-doğru söyləməsindən fayda hasil olmaz.

Qısası, hər elmin bir saf elmi, bir də əməli qismi olduğu kibi, dilin belə iki mühüm şöbəsi, daha doğrusu, rolu, təzahürü vardır. Nasıl siyasi iqtisad **(политическая экономика)** bir elm olaraq hökumət və dövlətlərin iqtisadi siyasətlərinə **(экономическая политика)** təməl və əsas ola biliyorsa, dildə obyektiv nöqteyi-nəzər də subyektiv nöqteyi-nəzərin təməli olmalı, çocuqlar, ümumiyyətlə, dili bildikdən sonra ədəbi dili əldə etməlidir.

İştə bu iki nöqteyi-nəzərə görə yazılan şərtlər də dürlü-dürlü ola bilir. Dil, yuxarıda söylədiyimiz kibi, daima dəyişən bir şey olduğu üçün onun üzərində yapılacaq tədqiqlər də bu dəyişmələrin hər dürlü

şəklini bulmalı və izah etməlidir. Dilin dəyişməsi iki tərəfdən alınır: tarixi və coğrafi. Dilin tarixi dəyişməsi o dilin meydana çıxmasından son dövrəsinə, şəklinə qədər keçirdiyi istihalələrdir ki, bu onun başlıca təkamül cizgisini verir. Heç bir dilin yüz il əvvəlki halını qulağımızla eşidib bilmək bizim üçün mümkün olmadığından bu xüsusda rəhbərlik yapan yeganə vasitələr o dildən qalmış olan yazılı abidələr, nişanlardır. Bu nişanlar kağız, taxta, topraq və yaxud başqa bir yol ilə qalmış olsun, əhəmiyyəti yox, bizə az-çox qətiyyətlə o dilin şəkli, mahiyyəti, o vaxtkı halı haqqında məlumat verə bilir.

Bir dilin belə dürlü zamanlardan qalmış olan abidələrini **(памятник)** yan-yana qoyub, müqayisə etdiyimiz zaman o dilin dürlü əsrlərdə hankı şəkillərə malik olduğunu meydana çıxarırız. İştə dili bu surətlə tədqiq tarixi tədqiqdir ki, bir dil haqqında belə tədqiqlər sonunda yazılacaq sərf də tarixi sərf **(историческая грамматика)** təbir olunur. Türk dilinin birinci yazılı abidələri "Orxon kitabələri" namilə məşhur olan yazılı daşlardır ki, miladi yeddinci əsrdən qalmaqdadır. Bu abidələrin dili "göytürkcə" namilə anılmaqdadır. Bundan sonra on birinci əsrdən qalma "Kutadqu bilik" namında və Yusif Xas Hacib ismində bir türk tərəfindən yazılmış əxlaqi mündəricəli bir əsər gəlir ki, bunun dili uyğur namilə anılan türklərin dilidir və bəzi alimlərin fikrincə, Orxon kitabələri dilinin təkamülündən başqa bir şey deyildir. Eyni əsrdən qalma və bunların hər ikisindən də mühüm başqa bir əsər daha bulunmuşdur ki, bu da Mahmud Kaşqari namında digər bir türk tərəfindən yazılmış olan "Divanü-lüğatit-türk" namındakı əsərdir. Bu əsərdə Mahmud Kaşqari öz zamanındakı bir çox türk şivələrini bir-biri ilə çarpışdırmış və bizim üçün çox qiymətli bir material buraxmışdır. Deyə biləriz ki, bu əsər sayəsində bir çox türk şivələrinin tarixi abidələri əldə edilmişdir. Bu əsərə "abidələr məcmuəsi", – desək, caizdir.

Bundan sonra on üçüncü əsrdə Əhməd Yəsəvinin "Divani-hikmət"i ilə Orta Asiyada və Yunus İmrə, Sultan Vələd kibi aşıqların divanları, əsərləri ilə Kiçik Asiyada başlayan türk dilindəki əsərlər tarixi tədqiqlər üçün olduqca bol material təşkil edər.

Bununla bərabər, türk dilinin tarixi təkamülü hənuz başından sonuna qədər təqib və tədqiq edilmişdir, – demək olmaz. Daha türk tarixi sərfi yazılmamışdır.

Dilin obyektiv-elmi nöqteyi-nəzərdən tədqiqində ikinci məsələ dilin, təbir caizsə, coğrafi dəyişmələrini, inkişafını araşdırmaqdır. Bundan məqsəd bir dilin bu gün ayrıldığı budaqlarını, şivələrini bir-birilə

müqayisə etməkdir ki, bu surətlə meydana gələn sərfə "müqayisəli sərf" **(сравнительная грамматика)** təbir olunur. Burada abidələrdən ziyadə canlı, bu gün söylənilən şivələr göz önündə tutulur. Bununla bərabər, müqayisənin yalnız canlı şivələrin tədqiqində lazım gəldiyini düşünmək yanlışdır.

Tarixi sərfin əsas üsulu da müqayisədir. Bu cəhətdən lisaniyyat heyvanat və nəbatat elmlərinə çox bənzər. Bu elmlərdə nasıl dürlü heyvan və nəbat şəkillərinin dürlü nöqteyi-nəzərdən bir-birilə müqayisəsi yapılır və bu müqayisə nəticəsində müəyyən siniflər meydana gətirilirsə, elə də dürlü şivələrin müqayisəsi ilə bir-birinə bənzəyən ilə bənzəməyənlər ayrılır və bunlar arasındakı münasibət təyin olunur.

Türk-tatar canlı şivələrinin müqayisəsinə doğru çox ciddi addımlar atılmışdır. Bu gün artıq deyə biliriz ki, türk canlı, yəni bu gün yaşayan-şivələrindən tədqiq olunmamış, sövti, şəkli, nəhvi xüsusiyyətləri meydana çıxarılmamış heç bir şivə qalmamışdır. Lakin bununla bərabər, türk müqayisəli sərfi hənuz yazılmamışdır və yazılmasına da daha imkan və zəmin yoxdur.

Sərfin üçüncü növü yalnız bir şivənin bir zamanındakı halını nəzəri-etibara alaraq yazılan sərfdir ki, buna "təsviri sərf" **(описательная грамматика)** təbir olunur. Bu soy sərfdə müəyyən bir şivənin sərf yazılan zamandakı halı – səsləri, sözlər, söz bağlamaları, cümlələri gözə alınıb, tədqiq olunur.

Yuxarıda da söylədiyimiz kibi, türk şivələrinin hər biri haqqında belə sərflər meydana gətirilmişdir. Katanovun "Uryanxay şivəsi", Aşmarinin "Çuvaş dili", Boltinqin "Yakut sərfi", Y.Deninin "Osmanlı sərfi", Samoyloviçin "Krım-tatar sərfi" bu soydandır.

Filvaqe, bu sərflərdən bir çoxları tədqiqinə yanaşdıqları şivələri başqa türk şivələri ilə müqayisə etməyə qalxmışdır. Lakin bundan məqsəd bu şivələrin xüsusiyyətlərini və bu xüsusiyyətlərin mənşələrini az-çox doğru bir surətlə meydana çıxarmaq, izah edə bilmək üçündür. Onun üçün biz bu sərfləri təsviri sərflər sırasına keçirə biliriz. Nəhayət, dördüncü tip sərflər ədəbi dilin şəkil və xüsusiyyətlərini izah etmək və qaydalarını bildirmək üçün yazılan sərflərdir ki, bunlara "məktəb sərfləri" **(школьная грамматика)** denilir. İştə bu soy sərflər tələbələrə və müəllimlərə ədəbi dilin qaydalarını bildirmək və bu qaydalara təqlid və riayəti təmin etmək niyyətilə yazıldığı üçün bunlar qaidəvi-normativ nöqteyi-nəzərin məhsuludur. Bunlarda dil hadisələri daima doğru-qələt nöqteyi-nəzərindən təhlil və izah edilir.

Şimdiyə qədər türk müəllimləri və hətta alimləri tərəfindən yazılan sərflər həp bu dördüncü qismə, məktəb sərfi qisminə daxildir. Yalnız son zamanlarda Qəyyum Nasirinin dil haqqındakı tədqiqatından və bir çox türk məktəblərində və ədəbiyyatında canlı şivələr əsas olaraq alınmağa başladıqdan sonra təsviri sərf tipində məktəb sərfləri meydana gəlməyə başlamışdır.

Ümumiyyətlə, obyektiv-elmi nöqteyi-nəzərdən türk dilini çoxusu rus və Avropa alimləri tədqiq etdiyindən türk dilinin təsviri və müqayisəli sərflərinə dəyişli əsərləri də bunlar meydana qoymuşdurlar.

Məktəblərdə obyektiv və subyektiv nöqteyi-nəzərdən bir-birilə gərəyi kibi uyuşdurulmadığından böyük-böyük tənaqüzlərə və yanlışlıqlara yol verilməkdədir.

Buradan elmi sərf ilə məktəb sərfi arasında böyük bir ayrılıq və boşluq doğmuşdur.[23]

Elmi sərf ilə məktəb sərfi arasında törəyən ayrılığın səs bəhsinə aid olan cəhətlərini, qısadan olsa da, əlifbanın üsuli-tədris bəhsində görmüşdük. Eyni ayrılıq sərf və nəhv tədqiqatında da görülməkdədir.

Məktəb kitabları ilə elmi əsərlər arasında ümumiyyətlə fərq vardır. Lakin bu fərq məktəb sərfi ilə elmi sərf arasında olan fərq kibi deyildir. Məktəbdə oxunan hesab dərsləri ilə elmi riyaziyyat, əşya dərsləri ilə bəiiyyat arasında zidlik yoxdur. İki kərə iki dörddür və dünya həm birinci dərəcə məktəbdə, həm ali təhsil müəssisələrində dönər. Cazibə qanunu... ilax. eynidir. Yalnız tələbələrin yaşına, istedadına, məlumatına görə bu bəhslər bəsit və ya mürəkkəb ola bilir.

Halbuki məktəbdə oxuduğu sərf məlumatı ilə ali müəssisələrə gələn tələbə burada birdən-birə başqa aləmə düşüyor. Əvvəlcə bildiklərinin çox dəfə tamamilə əksini öyrənmək məcburiyyətində qalıyor. Digər bilgilərdə olduğu kibi, məlumatını dərinləşdirəcək yerdə əvvəlcə öyrəndiklərini tamamilə qafasından çıxarıb, yenidən öyrənmək məcburiyyətində qalıyor. Bu vəziyyətdə olan bir adamın ən böyük duyğusu, şübhəsiz, əvvəlcə oxuduğu şeylərə qarşı düşmənlik və peşmanlıqdan başqa bir şey olamaz. Qısadan söyləyəcək olursaq, məktəbdə oxunan sərf yalnız məktəb sərfi deyil, eyni zamanda qeyri-elmidir.

---

[23] Bu xüsusda daha ziyadə məlumat almaq istəyənlər, Peşkovskinin "Школьная и научная грамматика" (1923, Петрорград) namındakı əsərinə və "Родной язык" namındakı rusca jurnalın bütün nömrələrinə müraciət etməlidirlər. Bundan başqa, son zamanlarda nəşr olunan rus sərflərini gözdən keçirməlidirlər.

Məktəb sərfinin elmi sərfə qarşı olan nöqtələrini qısadan bir kaç sözlə göstərib keçərək, bu nöqtələrlə daha ziyadə dərindən tanış olmaq istəyənlərin aşağıda işarət etdiyimiz rus dilindəki üsuli ədəbiyyata və yaxud türk-tatar lisaniyyatına aid əsərlərə, bilxassə türk tarixi və təsviri sərfini tədqiqdən hasil olan elmi əsərlərə müraciət etməsini tövsiyə edəcəyiz:

1) Elmi sərf ilə məktəb sərfi arasında birinci ayrılıq məktəb sərfinin tarixi baxışa və dilin təkamülü cəhətinə yabancı olmasıdır. Dilin durmadan dəyişən bir hadisə olduğunu hər yerdə söyləyib gəldik. Hər nə qədər təsviri məqsədlə yazılmış sərflərin bulunması mümkün və məktəbdə əsas olaraq keçiləcək sərf də bundan ibarətsə də, hər halda dilə aid hər sözün, hər tədqiqin tarixi nöqteyi-nəzəri unutmaması lazım gəlir.

2) Məktəb sərfində sərfi-təsviri **(описательная)** cəhət də nöqsandır. Dilin bugünkü halını bitərəfanə, obyektiv bir tərzdə izah edən məktəb sərfi pək azdır, yaxud heç yoxdur. Əgər bəzi sərflərdə bəzi şəkillərin, cümlələrin, yaxud sözlərin qullanılıb-qullanmadığı işarət olunsa belə, bu xüsusda verilən izahlar yenə də açıq deyildir. Çünki buradakı "qullanılır-qullanılmaz" (bizdə "müstəməl, möhməl") təbirindən məqsəd qullanılması "icab edər", yaxud "icab etməz" deməkdir. Çünki məktəb sərfinin yeganə məqsədi doğru oxuyub-yazmanı öyrətməkdir, yəni əməlidir. Sərf məktəbdə ana dillərini qonuşmasını bilən çocuqlara öyrədildiyindən buradakı doğru oxuyub-yazmaqdan məqsəd öz şivə, ölkə dilindən vaz keçib, ədəbi dili əldə etməkdir. İştə məktəb sərfi məktəb çocuğu qarşısında ədəbi dil ilə qeyri-ədəbi dili, doğru dil ilə yanlış dili bir-birindən ayırmaq vəzifəsini yükləyir. Ədəbi dil isə bir taqım ədəbiyyat və şeir nümunələrinin dili, yəni bir, nəhayət, bir kaç qrup şəxslərin dili olduğundan burada sərfçilərin şəxsi zövqü (zövqi-səlim) namı altında böyük, geniş meydan bulur. Bununla bərabər, təkrar ediyoruz məktəblərdə əməli nöqteyi-nəzərin bulunmasına qarşı söz söylənməz. Az-çox hər elm belə əməli nəticələr verir və verməlidir. Lakin bu əməli nəticələr və qaydalar elmi qanunlar ilə sıxı-sıxıya bağlanmış bulunmalıdır. İştə bunun üçündür ki, sərf müəllimi hər şeydən əvvəl elmi nöqteyi-nəzəri əldə etməli və doğru söyləmək, oxuyub-yazmağı belə elmi qanunlar üzərinə qurmalıdır. Ədəbi dilin mümkün və mövcud olan yeganə dil olduğunu zənn etməyib, ümumiyyətlə dil və bilxassə ana dili haqqında lazım gələn məlumat və bilgini özü əldə etdikdən sonra tələbələrinə verə bilməlidir.

3) Məktəb sərfi dil hadisələrini anladırkən dilə müəyyən bir məqsədlə yaradılmış iradi və keyfi bir şey kibi baxdığından bu hadisələri elm, səbəbiyyət **(причинная связь)** gözlüyü ilə görməyib, məqsədçilik **(teleologie)** nöqtəsindən görüyor və "nə üçün?" sualından ziyadə "nədən üçün?" **(зачем?)** sualına cavab verməyə çalışıyor. Bir sözlə, hadisələri bir-birinə olan təsirləri ilə anladacaq yerdə insanın iradəsi və ağlı ilə izah etməyə çalışır. Məktəb sərfinə görə, "lisana rəkakət verməmək", "tələffüzü qolaylaşdırmaq", "ahəngi düzgün gətirmək" üçün insan bir taqım səslər əlavə ediyor, bir çoxlarını da söyləmiyor.

4) Məktəb sərfinin hadisələri ayırması, siniflərə bulması məntəqə, hətta əxlaqi baxışlara görə oluyor. Heç kimsə antropologiyada insanları axmaq, ağıllı, sarışın və əsmər siniflərə bölməyə və ayırmağa qalxmaz. Eyni surətlə musiqini də ağızdan çalınan, alətlə çalınan, yaxud şən, kədərli, qayğılı siniflərinə ayırmaz. Çünki burada ayrı-ayrı siniflər bir-birinə qarışıyor. Başqa elmlərə aid olan məktəb kitablarında, nə qədər kiçik tələbələr üçün, nə qədər bəsit və ibtidai surətdə yazılmış olursa-olsun, məsələn, təbiiyyatda bədəni qatı, sulu **(жидкий)**, karbonlu qisimlərinə ayırmaq olamaz. Halbuki məktəb sərfində hər bəhsdə belə bir və yaxud bir kaç əlamətin bir-birinə qarışdırıldığı görülür:

a) Sərfi əlamətlər mənayi **(семасиологический)** əlamətlərlə qarışdırıyor. Sərf kitablarında rast gəldiyimiz isim, sifət, zəmir, fel, zərf, nida, ədat yolundakı təqsim bunun şahididir. Əgər sərfi əlamətə görə ayıracaq olsaq, *birinci* və *ikinci* sözləri *yemişçi*, *kilimçi* sözlərindən, *yemək*, *içmək*, *əkmək* sözləri *bilmək*, *getmək*, *gülmək* sözlərindən, nəhayət, *durmuş*, *toxtamış*, *yemiş* sözləri *getmiş*, *saxlamış*, *demiş* sözlərindən ayrılmaz. Çünki bunlar sərfi nöqteyi-nəzərdən eyni əlamətlərə malikdir. Halbuki sözləri mənalarına görə ayıracaq olursaq, məsələn, *birinci* sözü daha ziyadə *bir*, *birlik*, *birlikdə*, *birər*... sözləri ilə bir sinfə girmək lazım gəlir. Çünki bunlar mənaca bir-birinə bağlıdırlar. Yuxarıda saydığımız yeddi şöbə həp sözlərin mənalarına görə təşkil edilmişdir.[24]

b) Dar mənasında sərfi əlamətlər nəhvi əlamətlərlə qarışdırılır. Şəkilsiz sözlər şəkilli sözlərlə bir şöbəyə, yaxud bir kaç şöbəyə sığışdırılır. *Pək*, *ancaq*, *kibi*, *iştə*, *hələ*, *ya*, *nasıl*... kibi sözlər şəkilsiz sözlər olduğu halda, gah zərf, felin və ya sifətin mənasını tamamlayan sözlər olaraq (*nasıl*, *daima*, *dərhal*, *pək*, *üçün*, *qayət*), gah ədat (*iştə*, *hələ*, *ha*,

[24] Çox dəfə eyni sözlər dürlü-dürlü şöbələrə girə bilir. *Yemək* bir kərə məsdər, bir kərə isim, *dadlı* bir kərə isim, bir dəfə sifət, *Xudaverdi* sözündəki *verdi* bir dəfə isim, bir dəfə fel olur...

ya, kibi, sanki) və gah nida (*ey, hey, hı, haydı, ya...*) kibi göstərilirlər. Halbuki şəkli nöqteyi-nəzər əsas alındıqda bunlar şəkilsiz, yəni sərfi əlamətə malik olmayan sözlərdən başqa bir şey deyildir.

c) Sərfi əlamətlər ruhi-məntiqi **(логико-психологический)** əlamətlərlə qarışdırılırlar. Bütün məktəb sərfi bu müxtəlif əsasların qarışdırılması əsası üzərinə qurulmuşdur. Məsələn, türk məktəb sərflərində *Babamın evi* ilə *Evi görüm* tərkiblərindəki *evi* ayrı-ayrıdır. Birisi müzaf, birisi məf'ul bih.

Məktəb sərfinə görə, "ağılsız adam" = "ağlı olmayan adam" = "dəli adam"dır. Halbuki sərfi və şəkli nöqteyi-nəzərdən bunlar qətiyyən bir-birinə müsavi olamaz.

5) Çox dəfə iradidə də gördüyümüz kibi, bilxassə türk məktəb sərflərində elmi sərfə uymayan nöqtələr yalnız üsulsuzluq nəticəsi olmayıb, bəlkə, elmi lisaniyyatın nəticələrindən xəbərsizlik dolayısı ilə vaqe oluyor. Bu söz daha ziyadə rus və Avropa məktəb sərfləri haqqında doğrudur. Çünki məktəb türk sərfləri ümumiyyətlə türk dilinin qayda və qanunları ilə pək az məşğul bulunduqlarından sərfi səs ilə qarışdırmaları, zəmiri "ismin yerini tutan söz" deyə tərif etmək və bir taqım suallarla nəhvi təhlillər yapmaq cəhətləri çıxarılacaq olursa, burada türk dili nöqteyi-nəzərindən tənqid bulunacaq cəhət pək azdır.

Ümumiyyətlə sərf haqqında bu sözləri yazdıqdan və oxuyucumuzu az-çox sərfə aid ümumi məsələlərlə tanış etdikdən sonra türk sərfinin təkamülünü və tarixini yalnız ana cizgilərində gözdən keçirəlim.

Türk dilinin sərfi ilk dəfə 1075-94 sənələrində hökumət edən Abbasi xəlifəsi Əbülqasim Abdulla bin Məhəmməd əl-Müqtədi Biəmrillah zamanında, müəllifin özünün qeydinə görə, 466 hicri sənəsində yazılmış olan "Divanü-lüğatit-türk"dür. Hər nə qədər bu əsər "lüğət" adını daşımaqdasa da, türk dillərinin sərfi xüsusiyyətlərinə də böyük diqqət və əhəmiyyət vermiş və bu xüsusda çox qiymətli qeydlər yapmışdır.

Mahmud əl-Kaşqari bu əsərində ərəb dili üçün yapılmış olan qəlib və qaydaları türk dilinə uydurmağa çalışmışdır, türk sözləri üçün ərəb sözləri kibi "Kitabüs-salim", "Kitabül-müzaəf"... yaxud sülasi, rübai, xümasi... kibi çərçivəni qəbul etmişdir.

Məlum olduğu üzrə, bu təqsim on birinci əsrdən bir kaç əsr əvvəl ərəb dilində rum filoloji və lisaniyyat əsərlərinin təsiri altında qurulmuş idi. Ərəblər arasında yeddinci miladi əsrin sonlarına doğru Əbüləsvəd, İbn Həmmad, İbn Müqəffa... kibi alimlər tərəfindən İsgəndəriyyə rum

filoloji məktəbi, digər bir rəvayətə görə, hind lisançılarının təsir və rəhbərliyi altında doğan lisaniyyat üsulları artıq "Divanü-lüğatit-türk"ün göstərdiyi vəchlə on birinci əsrdə türk dillərinə tətbiq olunmuşdur. "Divanü-lüğatit-türk"də nə türk dilinin xüsusiyyətləri, nə də türk dilindən yığılan material üzərinə əsasən qeyri-məntiqi olan ərəb dili tədqiqatına aid təqsimin mənfi və zərərli təsiri olmamışdır. Bunun səbəbi açıqdır. Kaşqarlı Mahmudun qarşısında o vaxtlarda daha ərəb-fars təqlidi meyvəsi olan sonrakı əsrlərin türk ədəbiyyatı yox idi. Bunun üçün müəllif əsərinə lüğət və sərfinə lazım olan materialı doğrudan-doğruya canlı şivələrdən toplamağa məcbur qaldı. Mahmud Kaşqari, sonrakı lüğət və sərf müəllifləri kibi, yalnız bir kitab alimi deyildir. O, eyni zamanda səyyah və tədqiqçidir. O hətta Kaşqarın hər məhəlləsində ayrı-ayrı şivələr bulunduğunu bildiyi kibi, eyni zamanda Bizansdan Çin-Maçin və Çin okeanusuna qədər söylənilən saysız türk qəbilələrinin şivələri arasında yalnız sövti fərqlər bulunub, bunların bir-birlərindən anlaşılmayacaq qədər ayrılmadığını da bilir.

İştə ərəb üsulu ilə yazılan birinci türk sərfi on birinci əsrdən sonra təşəkkül edən ədəbi dilin hənuz meydanda olması və müəllifin şimdiyə qədər həman heç bir Şərq, bilxassə türk sərfçisində görülməyən düha və qeyrətə malik olması sayəsində şimdiyə qədər yazılan sərflərimizin ən elmi və ən parlağı sayılıyor.

Mahmud Kaşqari "Kitabü-cəvahirin-nəhv fi lüğatit-türk" namilə başqa bir əsər daha meydana gətirdiyini "Divan"ın birinci cild 24-cü səhifəsində xəbər veriyorsa da, bu xüsusda hənuz məlumatımız yoxdur.

On birinci əsrdə yazılan türk əsərləri on üçüncü əsrdə Orta Asiya və ümumiyyətlə müsəlman, türk aləmində meydana gələn dürlü qarışıqlıqlardan olsa gərək, çox böyük talesizliklərə uğramışdır. Gərək "Kutadqu biliy"in, gərəksə Mahmud Kaşqarinin əsəri, bir tərəfdən, gərəyi kibi sonradan gələnlər üzərinə təsir edəməmiş, digər tərəfdən isə, sonradan gələn ədəbiyyat, türk ədəbiyyatı ərəb-fars ədəbiyyatlarının qüvvətli təsirləri altına düşərək, o zamanlarda başlayan qüvvətli türk ədəbi cərəyanı tamamilə yolunu dəyişdirməyə məcbur olmuşdur. Hər halda biz türk sərfçiliyinin başlanğıcını on birinci əsrdən və Mahmud Kaşqaridən almalıyız.

Bundan sonra yazılan türk sərfi ilə Mahmud Kaşqari arasında iki əsrlik bir zaman vardır. Bizə məlum olan ikinci türk sərfini yazan zat Məhəmməd ibn Qeys namında bir zatdır ki, 1220 miladi sənəsində ölmüş olan Qütbəddin Məhəmmədin oğlu Cəlaləddin Münkəburni

namına ərəb dilində türkcəyə, onun sərfinə dair bir əsər yazmışsa da, zamanımıza qədər qalmamışdır. Bununla bərabər, bu əsərin mövcudiyyəti haqqında qəti məlumatımız vardır. Çünki farsi, türkcə və moğolcanın lüğət və sərfini ərəbcə izah edərək, "Kitabül-hilyətil-insan və həlbətil-lisan" namında bir əsər yazmış Seyid Cəmaləddin İbn Mühənna kitabının doxsan üçüncü səhifəsində bu xüsusda açıq işarət veriyor.

İbn Mühənnanın nə vaxt yaşayıb, nə vaxt öldüyü bizə məlum deyilsə də, hər halda on üçüncü əsrdən əvvəl olmadığı şübhəsizdir. Eyni zamanlarda, yəni on dördüncü əsrin başlarında başqa bir ərəb lisançısı türk dili haqqında digər bir əsər meydana gətirmişdir ki, özünün adı Əbu Həyyan Qərnati olduğu kibi, bizə qədər gəlmiş olan əsərinin ismi də "Kitabül-idrak li-lisanil-ətrak"dır.

Əbu Həyyanın bundan başqa bir kaç əsəri daha varsa da, zamanımıza qədər gəlməmişdir.[25]

Əbu Həyyan da, İbn Mühənna kibi, özündən əvvəl türk sərfi yazmış bir çox müəlliflərdən bəhs edirsə də, bunların əsərləri əlimizə keçməmişdir.

Burada yanaşması **(подход)** üsuli cəhətindən Mahmud Kaşqariyə bənzəyən başqa bir türk lisançısını xatirimizə gətirməliyiz.

Lisaniyyat haqqında yazdığı kiçik bir risaləsi ilə bu yolda böyük nam qazanmış olan bu lisançı Əlişir Nəvaidir. Burada biz Əlişir Nəvainin "Mühakimətül-lüğəteyn" namındakı əsərini qəsd ediyoruz.

Əlişir Nəvainin əsərinə hər şeydən ziyadə onun isbatına çalışdığı həqiqət qiymət verməkdədir. Bu da ərəb-fars ədəbiyyatları və dilləri təsiri altından qurtularaq təmiz türkcə yazmanın əhəmiyyəti və mümkünlüyüdür. Əlişir Nəvai bu əsərində xalq dilindən bir çox misallar almış və bunları iştiqaq, məna və ahəng cəhətlərindən tədqiq etmişdir. Hər nə qədər bu əsərə sərf deməzsək, öz əsri üçün qiymətli və bizim zamanımızda bir daha dirilmiş olan türk ədəbi dili ətrafındakı cərəyanlar nöqteyi-nəzərindən diqqətəlayiq bir əsər saymalıyız. Bu əsər 1499 sənəsində yazılmışdır. Bu zamandan başlayaraq, gərək Əlişir Nəvainin, gərəksə cığatay ədəbiyyatının dürlü əsərlərini təhlil etmək üçün bir çox lüğətlər və sərflər yazılmışdır.

Bundan sonra Osmanlı türklərindən 937 hicri sənəsində fövqəladə maraqlı bir sərf kitabı yazmış olan Berqaməli Qədri əfəndini zikr etməliyiz. Bu zat "Meysərətül-ülum" namilə yazdığı sərfində öz zamanına

[25] Bunları da bəhsin sonuna əlavə etdiyimiz türk sərfləri cədvəlində zikr ediyoruz.

qədər belə bir sərfin yazılmadığını qeyd ediyor ki, buradan onun kəndisindən əvvəl keçən türk sərfçilərindən xəbəri olmadığı anlaşılır.

Bütün bu Şərqdə ərəb və yaxud fars, türk mühərrirləri tərəfindən yazılmış olan sərflər üsuli nöqteyi-nəzərdən ərəb sərfini və ərəb dili üçün hazırlanan çərçivəni əsas almışdılar. Belə yanaşmanın şu nəticələri olmuşdur:

1) Ərəb hərfləri heç ixtisarsız, dəyişməsiz türk dilinə uydurulmuş, tətbiq olunmuşdur. Ərəb sərfində hərflə səsin bir-birindən ayrılmağını söyləməyə hacət yoxdur.

2) Ərəb sərfi üçün qullanılan istilahlar türk sərfi üçün də qəbul edilmişdir.

3) Sözlərin təqsimi, sərfin şöbələrə bölünməsi ərəb sərflərinin kopyasıdır.

4) Ərəb lisanı əsərləri kibi, türk sərfi də şəkli və sövti cəhətlərdən ziyadə lüğəvi cəhətə əhəmiyyət vermişdir.

Burada bir kaç yerdə qeyd etdiyimiz kibi, bilxassə on üçüncü-on dördüncü miladi əsrdən başlayaraq təşəkkül etmiş olan ədəbi dilin pək böyük rolu vardır. Bu ədəbi dидə türkcə namına yalnız fellər qalmış olduğundan belə kitabı, dili izah və təhlil niyyətilə yazılan sərflər də hər şeydən ziyadə fellərə əhəmiyyət vermişdir.

Türk ədəbi dilinin mücərrəd və şəni sözləri, şəkilçiləri, idari-siyasi, ictimai istilahları ərəb, fars sözləri ilə dəyişdirildikdən sonra, şübhəsiz, türk dilində yalnız fellər qalmışdır. Əgər on doqquzuncu əsrə qədər gərək cığatay və gərəksə Osmanlı şivəsində yazılmış olan ədəbi və elmi əsərlər alınıb, bunlarda rast gəlinən fellər toplanacaq, bunlardan xüsusi bir lüğətcə tərtib olunacaq olursa, o vaxtda fellərin getdikcə qullanışdan çıxmağa başladıqları və nəhayət, *etmək*, *eləmək*, *qılmaq*, *irmək* (*irir*, *imas* kibi şəkillərdə) fellərinin ən çox qullanılanlardan olduğu gözə çarpacaq, meydana çıxacaqdır. Burada şunu da qeyd etməliyiz ki, bu fellər müstəqil mənalarında deyil, bəlkə, *idxal etmək*, *fəhm eləmək*, *aqil irir*, *məqbul imas*..." kibi tərkiblərdə şəkilçilər, ədatlar kibi qullanılırlardı.

Qısadan söyləyəcək olursaq, Mahmud Kaşqaridən başlayan türk tədqiqi Misirdə, Orta Asiyada, Kiçik Asiyada təkrar olunmaqla bərabər, türk dərəbəyliyinin və daimi türk mühacirətinin təsiri altında sınmış və mədrəsə-təkyələrə girməmişdir. Gərək Orta və Kiçik Asiyada və gərəksə Misir və Suriyada bulunan türk kütlələri, heç olmazsa, farslar kibi öz ədəbi abidələrini toplayamamışlar və türk sərfinin

təkamülünü sağlam, qanuni, qeyri-təsadüfi bir cizgi üzərinə qoyamamışlardır. Şəriət idarəsi, xilafət hökuməti və təsəvvüf ictimaatı buna mane olmuşdur. Bunun da öz sırasında səbəbi türklərin müsəlman şəhərlərində yarıtamamalarıdır. Daha on birinci əsrdə hər cəhətdən pək böyük diqqət və tədqiq sahibi olduğunu qeyd etdiyimiz Mahmud Kaşqari "şəhərlərə enildikcə türk dilinin pozulduğunu, ən təmiz türkcənin köçəbə xalqlar arasında bulunduğunu" qeyd ediyor.[26]

Gerçəkmi türk ədəbiyyatı iştə bu köçəbələr arasında şifahi və yazısız surətdə yaşamışdır? Şəhərlər, yəni hökumət divanı, mədrəsə, təkyə, saray təmiz ərəb-fars və yaxud bundan pozma türk kitabı ədəbiyyatının meydanı olmuşdur. Bu günə qədər yapılan türk ədəbiyyatı tarixinə aid tədqiqat türk kütləri arasında yapılan yazılı ədəbiyyatın aşıq, sufi, məsəl və dini mənqəbələrə aid ədəbiyyat olduğunu meydana çıxarmaqdadır.

İştə bizim nöqteyi-nəzərimizdən türk sərfinin birinci dövrü Şərqdə on birinci əsrdən on doqquzuncuya qədər, başqa təbirlə, Mahmud Kaşqaridən Cövdət və Fuad paşalara qədər davam edər.

Şimdiyə qədər bəhs etdiyimiz sərflər həm tədqiqi **(исследовательский)**, həm də elmi sayıla bilir. Bundan sonra Şərqdə türklər tərəfindən yazılmış olan sərflər yalnız əməli mahiyyəti haizdir.

Avropa və Rusiyaya gələcək olursaq, burada türk sərfi ilə ancaq on səkkizinci əsrin ortalarına doğru uğraşılmaya başlandığını görüyoruz.

Əgər yanılmıyorsaq, bu xüsusda ən birinci əsər sayıla biləcək sərf 1730-da İstanbulda Holdeman **(Holdemanne)** namında bir zat tərəfindən yazılmışdır.[27]

Türk sərfinin böyük genişlik və sıcaqlıqla tədqiq və tərtib edilməsi on doqquzuncu əsrə düşür. Bunun səbəbi ikidir:

[26] Burada Mahmud Kaşqaridən bu nöqtəyə toxunaqlı sətirləri eynən köçürüyoruz:
افصح اللغات لمن لا يعرف الا لسانا واحدا و لم يختلط بالفارسي و لم يتعود نزول البلاد. و من كان ذا لسانين
و اختلط باهل المدن في الغلظه تدخل التركة و هم مثل صغداق و كنجاك و ارغو
Tərcüməsi: "Şivələrin ən təmizi türkcədən başqa bir dil bilməyən, farslara qarışıb şəhərlərə enməyən türklərin dilidir. İki dil bilən və şəhər xalqı ilə qarışan türklərin dili pozmadır. Safdaq, kəncək, arqu şivələri kibi" (I cild, səh. 29).

[27] Bu əsər bizə doğrudan-doğruya məlum olmayıb, bu məlumatı J.Deninin sərfinə əlavə etdiyi cədvəlindən alıyoruz. Bu soy on səkkizinci əsrdə yazılmış olan sərflər, bizə məlum olduğuna görə, dörd dənə olub, ikincisi Meninski **(Meninski)** tərəfindən Vyanada 1756-da, üçüncüsü Viqye **(Viguier)** tərəfindən İstanbulda 1790-da, dördüncüsü Karboqnano **(Carbognano)** tərəfindən Romada 1794-də yazılmışdır ki, bunların müfəssəl ünvanları bu şöbəyə əlavə etdiyimiz cədvəldə vardır.

Birincisi, on doqquzuncu əsrdə gərək Yaxın və gərəksə Uzaq Şərqdə, gərək Orta və gərəksə Kiçik Asiyada, Avropa və bu arada Rusiya dövlətlərinin müstəmləkəçi siyasətinin daha ziyadə genişlənməsi, ikincisi isə, ümumiyyətlə Avropa elmlərinin belə genişlənmə nəticəsində əldə edilən tarixi, irqi, lisani materialların yardımı ilə başqa dövrə girməsidir. Bundan başqa, 19-cu əsrdə təbii elmlərdən ziyadə mənəvi, insani elmlər daha ziyadə tərəqqi etmişdir. Bu vaxta qədər ayrı bir elm olaraq tanınmış olan lisaniyyat müəyyən, xüsusi bir üsula malik olmuş və bu sayədə müstəqil, ayrı bir elm olaraq tanınmışdır.[28]

Bir əsr içində Avropanın və Rusiyanın dürlü mərkəzlərində həman bütün türk dillərinə aid sərf kitabları və lüğətçələr nəşr olunmuşdur. Bunlardan əlli qədəri bizim bu şöbəyə əlavə etdiyimiz cədvəldə zikr olunuyor.

Kütübxanamızda bulunan Qiqanov **(Гиганов, 1801)**, Troyanski **(Троянский, 1824)**, Artur Lumley Davids **(Arthur Lumley Davids)** kibi müəlliflərin türk sərflərini gözdən keçirib, bunları, məsələn, daha sonrakı türk sərfi əsərləri ilə müqayisə edərsək, görüyoruz ki, hər dövrdə yazılan sərf kitablarında türk dilinin xüsusiyyətlərindən ziyadə yazan müəlliflərin təhsillərini aldıqları dilin ərəb, rus, fransız, ingilis... əsərləri üzərinə pək böyük təsiri olmuşdur. Türk müəllifləri, yuxarıda söylədiyimiz kibi, daha ziyadə ərəb filoloji məktəblərinin təsiri altında qaldıqları halda, Avropa və rus müəllifləri öz ana dillərinin təsirindən qurtulamamışdırlar.

İştə burada türk sərflərinin, bilxassə məktəbdə oxudulmaq üçün yazılmışların qüsurları ilə qarşılaşmış oluruz.

Digər bir yerdə[29] olduqca müfəssəl surətdə qeyd etdiyimiz bu soy qüsurları burada bir kaç nöqtədə xülasə etmək faydasız olmaz ümidindəyəm:

1) Hər şeydən əvvəl türk sərfləri ümumi lisan elmində şimdiyə qədər hökm sürüb gəlməkdə olan məntiqi üsul ilə yazılmışdır. Kitabımızın birinci şöbəsində ("Dil və fəlsəfə") gördüyümüz vəchlə, filosoflar və lisançılar bin beş yüz-iki bin ildən ziyadə bir zaman içərisində dilin fikirlə münasibəti üzərində düşünər, münaqişə edə gəlmişlərdir. Bu gün artıq dilin qanunları ilə fikir qanunlarının bir-birinin eyni

[28] Bu xüsusda V.V.Bartoldun "История изучения Востока в Европе и России" namındakı əsərinin 125-164 səhifələrinə baxınız.

[29] Müəllif bu məsələ haqqındakı fikirlərini "Yeni məktəb" məcmuəsinin 5-6 təmmuz 1925 nüsxəsində daha müfəssəl surətdə izah etmişdir ("Türk dili sərflərinin ümumi qüsurları").

olmadığı, hətta çox dəfə bir-biri ilə qətiyyən bağları bulunmadığı meydana çıxarılmışdır. Dil hər şeydən ziyadə özünün şəkilləri, qanunları ilə yaşar. Bizim dil şəkillərinə yapışdırdığımız mənaların bu şəkillər üzərinə olan təsiri ikinci dərəcədə qalır. Əgər belə olmasaydı, hind-Avropa dillərindəki cins şəkillərinin (müənnəs, müzəkkər, orta) sözlərin mənaları ilə bir əlaqəsi olmaq lazım gəlirdi. Bundan başqa, bir sözün bir kaç mənaya, yaxud bir kaç sözün bir fikrə dəlalət edə bilməsi, nəhayət, dildəki mənaların dəyişmələri ilə şəkillərin dəyişmələri arasında müvazilik və nisbət bulunmaması buna pək açıq dəlillərdəndir.

Halbuki şimdiyə qədər yazılan məktəb sərfləri artıq sözlərin təqsimindən başlayaraq, məntiq və fikri əsas almışlar və bu surətlə bütün sərfi tədris və tədqiqin çərçivəsini möhkəm surətdə təhdid və təyin etmişlərdir. Dili fel, isim, zəmir, sifət... kibi parçalara ayırmaq ancaq dildəki məna və fikirləri gözə almaq şərti ilə doğrudur. Şəkilcə belə bir təqsim meydana gətirmək pək ziyadə gücdür, bəlkə, ümumiyyətlə qabil də deyildir. İştə bunun üçün yeni məktəbdə daha elmi və əsas etibarilə daha qolay olan şəkli üsul, şəkli yanaşma **(формальный метод и подход)** tövsiyə olunmaqdadır.

Bu gün Rusiya lisançıları arasında bu nöqteyi-nəzər ətrafında üç qrup peyda olmuşdur. Bunlardan birinciləri əski, məntiqi üsulun tərəfdarları olub, bunlar əksəriyyətlə geridə qalmış vilayət məktəblərinin ixtiyar və lisaniyyat elminin son dövrdə yapdığı tərəqqi və təkamül nəticələrindən xəbərsiz adamlardır. İkinci qrup yalnız şəkli üsul müdafeləridir ki, bunlar da hənuz qələbə çalmamışlar, – demək mümkündür. Çünki bir çox nöqtələrdə, gərək sərf və gərəksə nəhv məsələlərində bunların arasında da birlik yoxdur.[30]

Nəhayət, üçüncü qrup şəkli və məntiqi ünsürləri müvazi gözdə tutmaq tərəfdarlarıdır ki, rusların Şerba, Peşkovski... kibi alimlərini bu üçüncü qrupa qeyd etmək mümkündür.

2) İkinci dərəcədə türk sərflərində gördüyümüz qüsur, yuxarıda söylədiyimiz kibi, türk dilinin nə zümrəvi **(групповой)**, nə də sövti və şəkli xüsusiyyətlərinə əhəmiyyət verməməkdir.

Hər hankı bir məktəb sərfini gözdən keçirəcək olursaq, burada türk dilinin insirafi **(flective)** və hecai **(syllabique)** dillərdən olmayıb, iltisaqi **(agglutinative)** dillərdən olduğunun fərqinə varmayız. Çünki damar ilə

[30] Bu məsələ haqqında rus lisançılarından Peşkovski ilə Peterson arasındakı münaqişə pək maraqlıdır (Petersonun məruzəsi. Русский язык в школе, 1923, стр. 44).

şəkilçinin münasibətləri, ahəng məsələsi, vurğunun sözyapıcı əhəmiyyəti bu sərflərdə heç də etibara alınmamışdır. Türk dilinin hind və Avropa dillərinə görə ayrılığı gərək Maks Müller **(Max Muller)**,[31] gərəksə J.Deni tərəfindən artıq böyük əhəmiyyətlə qeyd olunmaqdadır. Netəkim, professor Deni "Osmanlı sərfi" namındakı müfəssəl əsərində şu sözləri qeyd ediyor:

"Şimdiyə qədər türkcə haqqında yazılan fransız əsərləri daima fransız və latın sərflərinin qayda və hadisələrini əsas alaraq işə başlamaq xətasında bulunmuşlardır. Türk-tatar morfolojisi (şəkliyyatı) hind və Avropa dillərindən pək ziyadə fərqli olduğundan bu növ sərfçilər heç bir zaman xətasız və təhlükəsiz bir nəticəyə varamaz.

Bununla bərabər, belə bir işin, yəni türk dillərinin şəkli xüsusiyyətlərini gözə alaraq, sərf yazmanın nə qədər güc olduğu yenə Deninin 1218 səhifəlik müfəssəl sərfində görünüb durmaqdadır.

3) Türkcə sərflərin, bilxassə məktəb sərflərimizin ən böyük qüsurlarından birisi izah və plan cəhətində görülməkdədir. Əgər sərflərimizə diqqət edəcək olursanız, burada başda qaydaların, sonra bəzi artıq əskimiş misalların gəldiyini görərsiniz. Bu surətlə çocuqlar əvvələn mücərrəd qaydaları, sonra bunlara əhəmiyyətsiz surətlə yapışdırılan misalları əsil dil hadisələrinin fərqinə varmaqsızın əzbərləmək məcburiyyətində qalırlar. İsmin, sifətin, zəmirin... tərifləri, heç şübhəsiz, dil və onun dürlü hadisələri haqqında çocuqlara, ümumiyyətlə bu sərfləri oxuyanlara heç bir sağlam, doğru fikir verəməz. Halbuki bu sərflərdə belə tərifləndən başqa, heç bir şey yoxdur, – desək yanılmış olmarız.

4) Məktəb sərflərimizdə qeyd olunacaq qüsurlardan birisi də qarışıqdan-qarışıq, müşküldən-müşkül istilahlar, terminlərdir. Bu istilahlar, sərflərimizdə mədrəsə sxolastikasının qırıntılarından başqa bir şey deyildir. Bu təbirlərin sərflərimizdə böyük yer alması, dil hadisələrinə qətiyyən əhəmiyyət verilmədiyinə dəlalət edir. Nasıl Qur'anın sözləri dəyişmədən, tələffüzü, nəhvi, sərfi ilə zamanımıza qədər gəlmişsə, bu sərf-nəhv təbirləri də eyni surətlə pək əski zamanlardan bəri daş olub qalmışdır. Hər şeydən əvvəl bu sərf təbirlərini bəsitləşdirməmiz və türk çocuqlarının zehninə, hafizəsinə vəlhasil ruhuna yaxınlaşdırmamız lazım gəlir. Şimdiyə qədər Şimal-Qazan və qazax türklərində ərəbcə

[31] Maks Müller 1825 sənəsində yazdığı "La Science du langage" namındakı əsərinin 333-cü səhifəsində və bunu da alaraq professor J.Deni "Osmanlı sərfi"nin müqəddiməsində və başqa türkoloqlar bu xüsusda olduqca müfəssəl surətdə fikir bəyan etmişlərdir.

istilahların yerinə Qazan və qazax istilahları qonularaq, bəzi sərf kitabları yazılmış isə də, bir kərə bu istilahların az-çox endi və şəxsi mahiyyəti haiz olması, başqa tərəfdən də, çox dəfə olduqca müvəffəqiyyətsiz bir surətdə təşkil edilmiş olmaları ərəbi istilahların nüfuzunu bitirməməkdədir. İlərida görəcəyimiz vəchlə, artıq sərfin tədrisində təklif edilən üsul ümumiyyətlə sərfdə istilah qullanmaq məsələsini, əlifbada hərflərin adlarını olduğu kibi, lüzumsuz və hətta zərərli saymaqdadır.

5) Nəhayət, sərflərimizin mövzularının müəyyən və sabit olmamasına nəzər-diqqəti cəlb etməliyiz. Yuxarıda göstərdiyimiz kibi, sərflərin ədəbi və yaxud canlı dili mövzu olaraq seçmələrinə görə bu sərflərin təbiətləri tamamilə dəyişilir. Bir çox sərf kitabları vardır ki, yazılı dil ilə canlı, söylənilən dili bir-birinə qarışdırırlar və çox kərə heç bir dil sahəsini, nə şivə, nə də kitabları tədqiq etmədən təlif və təsnif olunurlar. Bizim sərflərimiz, yəni məktəb sərfləri çox dəfə bir-birindən kopyadır. Bunun üçün bu sərflərdə nə ədəbi, nə də canlı dilin təkamül və dəyişmələrini görmək mümkün olamaz.

Cövdət paşa zamanından Əhməd Cavada qədər yazılan türk-Osmanlı sərflərini gözdən keçirəcək olur və bunlar arasındakı fərqi Cövdət paşadan zəmanəmizə qədər dəyişən ədəbi dil ilə qarşılaşdıracaq olursaq, bu sərflərin nisbətən pək ziyadə geridə qalmış olduqlarını görəcəyiz.

İştə bütün bunları nəzəri-etibara alaraq, hər sərfin mövzusunu, yəni tədqiq və izahını üzərinə yükləndiyi lisan sahəsini iyicə təyin etməsi, bəlkə, hər şeydən mühümdür. Burada müəllimlərimizə ürkməmələrini ixtar ilə bərabər, şunu da demək məcburiyyətindəyiz ki, artıq məktəblərdəki əski sərf tədrisi üsulunun kənara çıxarılması nəticəsində yavaş-yavaş hazır sərflərin əhəmiyyəti də ortadan qalxmaqdadır.

Müəllimin doğrudan-doğruya, bir tərəfdən, qarşısında bulunan tələbə və onların dili və dil haqqındakı məlumatlarına, digər tərəfdən, lisaniyyat **(языковедение)** elminin qayda və qanunlarına, üsuluna istər ibtidai və səthi surətdə olsun, aşina olmaq hər dürlü sərfdən daha faydalıdır. Çünki heç bir sərf kitabı hər məktəbin vəziyyətinə, o məktəbdəki tələbələrin məlumatına və ruhuna uyğun olamaz. Tələbələrini və məktəbini hesaba alan, onları iyi tanıyan bir müəllim daima bu sərfləri təshih, təbdil etmək məcburiyyətində qalır. Eyni sözü yalnız canlı və ana dili haqqında deyil, ədəbi dil haqqında da kəmali-müvəffəqiyyətlə söyləyə biliriz. Çünki ədəbi dil də, zənn edildiyi kibi, elə pək dar,

pək sabit bir sahə deyildir. Burada, bəlkə, müəllimin qarşısına daha çətin, daha qarışıq məsələlər çıxa bilir. Bir kərə ədəbi dil, nə qədər klassik, nə qədər ümumi və müntəzəm və müşkül olursa-olsun, hər ədibin özünəməxsus lüğətçəsi, təbir caizsə, sərfi, nəhvi, vəlhasil üslubu vardır. Bizim əski məktəb müəllimlərimiz bu soy xüsusiyyətlərə gəlişigözəl bir ad dağışdırıb keçir və çox dəfə müəllim üçün qəbul olunan sərfi qaydalara uyğun yazmayan mühərrirlər məktəblərdə afuruz olunur, "dili zəif" və yaxud "xətalı" namilə çürüyə çıxarılardı. Halbuki hər mühərririn dilini, dilindəki xüsusiyyətlərini görə bilmək, göstərə bilmək dil təhsili məsələlərinin başlıcalarından sayılmalıdır.

Əskilər bizə görə bu xüsusda daha da doğru və məntiqi davranmışlar. Onlar müəyyən şair, ədib və mühərrirlərin dillərindəki xüsusiyyətləri anlatmaq üçün bəzən çox müfəssəl sərf-nəhv kitabları meydana gətirmişlərdir. İslam ədəbiyyatında rast gətirdiyimiz bir çox şərh, tibyan və təfsir kitabları bu soy əsərlərdən başqa bir şey deyildir. Nətəkim, Orta Asiyanın on beşinci əsrdə törəyib Hinddən Ruma, İstanbula qədər namı çınlamış olan böyük türk şairi Mir Əlişir Nəvainin otuza varan əsərlərini izah üçün Kəlküttədən İstanbula qədər yüzlərcə Nəvai lüğəti, yaxud sərfi kibi əsərlər yazılmışdır.

Qısası, türk məktəb sərfinin gərək mündəricə, gərəksə şəkil və üslubca təshihə möhtac yerləri pək çoxdur.

Bu şöbəmizin adını "Türk sərfinin tarixçəsi" qoymuşduq. Sərf yazacaq və yaxud oxudacaq türk müəllimi, müdəqqiqi bu sərfin zamanımıza qədər keçirdiyi dövrləri və hər dövrün xüsusiyyətini göz önündə tutmalıdır.

Zaman etibarilə bu sərfləri Şərqdə və Qərbdə üç dövrə təqsim etmək mümkündür. Şərqdə:

1) birinci dövr Mahmud Kaşqaridən Osmanlı sərfçisi Kütahiyyəli Əbdürrəhman Fevziyə qədər keçən aşağı-yuxarı 7-8 əsrlik bir zamandır ki, bu dövr içində yazmış olan sərfçilər daima nümunə olaraq qarşılarında ərəb və fars sərfçilərini bulmuşlardır. Bu dövrün sərfi məhsulu pək bol və pək maraqlıdır. Misir küləmənlərindən Şərqi uyğurlara qədər həman bütün türk qəbilələrinin şivələri az-çox elmi surətdə tədqiq və tətəbbö olunmuşdur.

2) ikinci dövr Cövdət paşadan Hüseyn Cahid və Əhməd Cavadlara qədər, şimalda Qəyyum Nasiridən Qalimcan İbrahimov, Cəmaləddin Vəlidi və Baydursuna qədər olan dövrdür ki, burada artıq ərəb

nümunələrinin təsiri azalmaqda, burada, bir tərəfdən, İstanbulda Avropa, başqa tərəfdən, Qazan və sairə... Rusiya lisançılarının və sərfi əsərlərinin təsiri görülməkdədir.

3) üçüncü dövr artıq əcnəbi nümunələrin kənara buraxılaraq, doğrudan-doğruya lisaniyyatın ümumi üsulları ilə türk dilinin sərfi tədqiqinə yanaşılması dövrüdür ki, hər nə qədər bu dövrün məhsulları gözümüz önündə aydın-açıq bir surətdə hənuz durmursa da, yuxarıda qeyd etdiyimiz kibi, artıq bir çox alimlər bu xüsusda çalışmaqdadırlar və yaxında bu qeyrətin kəndinə məxsus meyvələri olacağına ümid etmək mümkündür.

Qərbdə də türk sərfçiliyi üç dövrədən keçmişdir, – denilə bilir. Lakin burada üsul nöqteyi-nəzərindən deyil, bəlkə, məqsəd və türk dilini tədqiqə sövq edən səbəblər nöqteyi-nəzərindən üç dövr təyin edə biliriz:

1) Birinci dövr on səkkizinci əsrin başlarında doğmuş və Avropa dövlətlərinin müstəmləkə siyasəti, xristian missionerlərinin öz əqidələrini Şərqdə, bilxassə türklər arasında yapmaq qeyrətilə bərabər böyümüş, iləriləmiş, bu dövrdə yazılan sərflərin, gərək Rusiya, gərəksə Avropada məqsədi tamamilə əməli olub, bu da türklərin öz dilində onlara lazım gələn Avropa və xristian fikirlərini aşılamaqdır. Təbir caizsə, bu sərflərə "tərcüman sərfləri" deyə biliriz.

2) İkinci dövrdə artıq elmi nöqteyi-nəzər görülməyə başlamışdır. On doqquzuncu əsrdə doğub inkişaf edən bu soy sərflərin müəllifləri "türkoloq" namını daşıyan və elmi nöqteyi-nəzərdən türkləri tədqiq edən Avropa-rus alimləridir. Bunlar hind-Avropa dillərinin çərçivəsini və Avropa millətləri tarixini tamamlamaq üçün türk dillərini və xalqlarını tədqiqə başlamışlar və türk dilinə hind-Avropa dillərinin üsul və çərçivəsini tətbiq etmişlərdir.

3) Nəhayət, üçüncü dövr türk dili tədqiqatının "türkoloji" denilən müstəqil elmin mühüm bir şöbəsi halına keçdiyi dövrdür ki, burada türk sərfi hind-Avropa sərfinin bir şöbəsi kibi tələqqi olunmayıb, bəlkə, müstəqil bir sahə kibi alınır və elə də tədqiq olunur. Burada isimlərini zikr etməyə hacət olmayan bir çox türkoloqların əsərləri bu qəbildən sayılmalıdır. Məktəb sərfləri üçün də eyni məsələ, türk dilinə məxsus üsul ilə tədqiq məsələsi Avropa və rus alimləri tərəfindən, məhsulları etibarilə müvəffəqiyyətsiz də olsa, ortaya atılmışdır.

ŞİMDİYƏ QƏDƏR ŞƏRQDƏ VƏ QƏRBDƏ YAZILAN BAŞLICA TÜRK SƏRFLƏRİ

Müəllimlərimizə və türk sərfinin tədqiq və tədrisi ilə uğraşan münəvvərlərimizə burada şimdiyə qədər yazılan türk sərflərinin az-çox tam bir cədvəlini təqdim etməyi münasib gördük. Bu cədvəlin bir çox nöqtələrdə müəllimlərimizə pək böyük yardımı ola bilir. Çox dəfə görüldüyü kibi, yalnız bir sərfdən dərs söyləməmək və bu surətlə bir sərfçinin təsiri altında qalmamaq üçün bu cədvəldəki yüzü keçən sərflərdən, heç olmazsa, bir kaçını gözdən keçirmək ehtiyacını duyacaqdır. Bu cədvəldəki sərflər zaman sırası ilə düzülmüşdür. Bundan başqa, Şərq və Qərb sərfləri bir arada göstərilmişdir.

I. On səkkizinci əsrə qədər:

1) Mahmud əl-Kaşqari. Kitabü-divani-lüğatit-türk. 466 hicri (miladi 1074). Hicri 1333-1335 sənələrində Kəlisli müəllim Rüfət nəzarəti ilə İstanbulda üç cild olaraq təb və nəşr olunmuşdur. Şərqdə yazılan lisan əsərlərinin ən mükəmməllərindən birisidir. Bütün türk şivələri haqqında pək bol və heyrət ediləcək dərəcədə tam və maraqlı material verir və ərəb üsulu ilə işlər.

2) Əbu Həyyan əl-Qərnati. Kitabül-idrak li-lisanil-ətrak. 716 hicri (miladi 1313) sənənin ramazan ayı 20 sənəsində bitirildiyi məlumdur. Bu əsər hicri 1309 sənəsində Mustafa bəy tərəfindən 213 səhifə olmaq üzrə nəşr olunmuşdur.

3) Seyid Cəmaləddin ibn əl-Mühənna. Kitabü-hilyətil-insan və həlbətil-lisan (farsi, türkcə, moğolca). Müəllifin təqribən 828-də vəfat etdiyini Kəlisli müəllim Rüfət İbn Mühənnanın "Ümdətüt-talib fi-ənsabi-Əbitalib" namındakı kitabına dayanaraq qeyd etməkdədir.

4) Məhəmməd ibn Qeys. On üçüncü əsrin ilk yarımında Cəlaləddin Münkəburni namına bir sərf yazdığı məlumsa da, əsəri şimdiyə qədər bulunamamışdır.

5) Kitabü-Yəhya əl-Məlik, yaxud Hilli əl-Məlik (bu əsəri İbn əl-Mühənna yuxarıda ismi keçən sərfinin 96-cı səhifəsində zikr edirsə də, şimdiyə qədər nə əsər, nə də müəllif haqqında bir şey məlum deyildir).

6) Kitabü-nadirid-dəhr əla lüğəti-məlikil-əsr (İbn əl-Mühənnanın 78-ci səhifəsində zikr olunıyor).

7) Kitabü-töhfətil-məlik (İbn əl-Mühənnanın 129-cu səhifəsində zikr olunıyor).

8) Berqaməli Qədri. Meysərətül-ülum. 937 hicri sənəsində yazılmış olan birinci Osmanlı-türk sərfi sayılmaqdır. Yeganə nüsxəsi Bursalı Tahir bəydə bulunur. Tahir bəyin "Osmanlı müəllifləri"ndə və Kazım Nami bəyin "Türk yurdu"nda bu xüsusda yazdıqları məqalələr ilə bu əsərin varlığından və bəzi xüsusiyyətlərindən xəbərdar oluyoruz.

9) Məhəmməd Yaqub Cəngi. Kitabü-zəbani-türki. On yeddinci əsrin sonlarına doğru Hindistanda yazılmış bir əsər olub, Britaniya müzesində bulunmaqdadır.

10) Qas ibn Birbal. Həft əxtər. Hindistanlı mühərrir tərəfindən on yeddinci–on səkkizinci əsrlərdə yazılmış cığatay sərfidir.

11) Aşur bəy ibn Niyaz bəy. Fəvaidi-türki. Fars dilində yazılmış cığatay sərfidir. Müəllif burada irani, qızılbaş, rumi, kaşqari, noqay dillərini bir-birilə müqayisə etmişdir. On yeddinci və yaxud on səkkizinci əsrlərdə [yazılmışdır].

12) Sərf və nəhv məə lüğəti-türki. Müəllifi məchul bu əsərdə türkmən, noqay və kaşqar şivələrindən bir taqım misallar vardır.

13) Şeyx Təbib Buxari. Əlfazi-cəlilə fi bəyani-lüğətit-türkiyyə. Bu namla Orta Asiya türkcəsi haqqında fars dilində lüğət, sərf və mükamilə qisimlərindən ibarət bir əsər meydana gətirmiş və Hindistan hökmdarı Məhəmməd şaha ithaf etmişdir.

II. On doqquzuncu əsrə qədər:

1) Holdemanne. Grammaire turque ou Methode courte et facile pour apprendre la langue turque. Constantinople, 1730, 194 pages.

Bu sərf Avropada yazılmış birinci türk sərfi sayılmaq lazım gəlir. Bu sərf bizə Deninin əsəri ilə məlumdur.

2) Meninski (Francıscia Mesgnien Meninski). Institutions linguae turcicae, Vienne, 1756, İki qisim, I-256, II-252.

3) Viguier. Elemens de la langue turque. Constantinopile, 1790, del'imprimerie du palais de France. 462 pages.

4) Carbognano (Cosimo Comidasde). Primi della grammatica, ad uso dei missionari apostolici di Constantinopoli, Rome, 1794, 730 pages.

İştə bu surətlə on səkkizinci əsrdə yazılmış olduğu məlumumuz olan dörd türk sərfi – fransızca, latınca və italyanca yazılmış və İstanbul, Vyana, Roma... kibi Şərqə yaxın mərkəzlərdə təb edilmiş olmaqla nəzər-diqqəti cəlb edərlər. Bu sərflər on doqquzuncu əsrin türk sərfi üçün daha parlaq, daha qüvvətli və bərəkətli dövrünə başlanğıc və təməl xidmətini görmüşlərdir.

III. İyirminci əsrə qədər:

1) Иосиф Гиганов. Грамматика татарского языка, Санкт-Петербург, 1801, при Импер. Ак. Наук Грамм., 187 стр., словарь 75 стр.

Bu sərf Rusiyada yazılan birinci türk sərflərindən olub, Qiqanov namındakı bir rus missioneri ilə Samançı Yarməhəmməd oğlu, Baqi Ətnəmit oğlu, Məhəmmədbaqı Sevdik oğlu, Dusbaqi Şeyx oğlu Məhəmmədşah Şeyx namındakı müəllim, şeyx və ağsaqqallar tərtib etmişdir.

2) Pinzola (Bernardino). Grammatica, dizionari e colloqui per imperare le lingue italiana, grecavolgare et turca e varie scienze. Editione terza. 1801, Venezia, 1801.

3) Александр Троянский. Татарская грамматика. Казань, 1824. Sərf qismi 163, mühavirə qismi 32.

4) Hindoglou (Artin). Theoretisch-praktische turkische Sprachlehre für Deutsche, mit einer Auswahlo der nothwendigen Gesprache. Leseubungen, etc... Vienne, 1829, 178 pages.

Bu sərf fransızcaya da tərcümə edilmiş və Parisdə 1834 sənəsində basılmışdır.

5) Jaubert (Amadee). Elements de la grammaire turke. 2-edition, Paris, 1833, 376 pages.

6) Arthur Lumley Davids. Grammaire turke.

Kitabül-elmin-nafe fi təhsili-sərf və nəhvi-türki.

Trois parties: grammaire, textes et discours preliminair. 214 pages + LXXIX.

7) Radhous (James W.). Grammaire raisonnee de langue ottomane, Paris, Gide, 336 pages.

Radhous Türkiyədə islahat dövrünün başlanğıcında maarif, hətta siyasət sahəsində böyük rol oynamış və ilk "Türk əncüməni-daniş"ində üzv olaraq iştirak etmiş bir adamdır. O vaxtın böyük və islahçı türk maarifçilərindən olan Cövdət və Fuad paşalar kibi simalara az-çox təsiri olmuşdur. Netəkim, Cövdət paşanın yazdığı lisani əsərlərin Radhousun təsiri altında bulunduğunu zənn edənlər bunun üçün çox yanılmış deyildirlər.

8) Xacə Əbdürrəhman Fevzi (Kütahiyyəli). Miqyasül-lisan və qustasül-bəyan, 1262 hicri, İstanbul.

Bu sərf hər nə qədər "Meysərətül-ülum"dan sonra ikinci Osmanlı sərfi sayılmaq lazım gəlirsə də, birincisi kibi, bunun da türk dilinin tədrisi və türk sərfçiliyinin inkişafı üzərinə pək böyük təsiri olamamışdır.

9) Cövdət paşa. a) Mədxəli-qəvaid; b) Qəvaidi-türkiyyə (təqribən hicri 1267 sənələrində İstanbulda təb və nəşr olunmuşdur).

Cövdət və Fuad paşaların türk (Osmanlı) sərfinə aid əsərləri, xüsusi bəhsində də göstərildiyi vəchlə, Türkiyədə sərfçiliyin təməl daşını qoymuşdur. Hər nə qədər Cövdət paşanın sərfinə əsas olmaq üzrə Caminin "Məaniyi-müxtəsərə şərhi"ni aldığını biliyorsaq da, yuxarıda söylədiyimiz kibi, hər halda Avropa lisaniyyatının bu əsərlərə təsir etdiyini inkar etmək qabil deyildir.

10) Pfizmaier (Auguste). Grammaire turque ou developpement separe et methodique des trios ganres de style usites sovoire l'arabe, le persan et le tartare, Vienne, 1847.

11) Казембек (Мирза А.). Общая грамматика турецко-татарского языка. 2-е издание, Казань, 1848.

Eyni əsər 1848-də Tsenker **(Zenker)** tərəfindən almancaya tərcümə olunmuş və Leypziqdə basılmışdır.

12) Boehtlingk (Otto). Ueber die Sprache der Jakuten. Grammatik, text and Werterbuch. Besonderes Abdruck der dritten Bandes von Dr. A. th. v. Middendorps. Reise in aussersten Norden nud Osten sibirien, Saint-Petersbourg, 1851, 380, 97 et. 184 pages.

13) Fuad və Cövdət əfəndi. Qəvaidi-osmaniyyə. İstanbul, litoqrafi basması, 1851.

14) Fəzlüllah xan. Lüğəti-türki, 1852, Kəlküttə.

Fars dilində Baburun xələfi Məhəmməd Urungəzibin oğlu namına tərtib olunmuş bir lüğətdir ki, içində sərfə aid bir mədxəl vardır. Müəllif burada fel, isim, ədat və lahiqələrdən bəhs edir. Bu lüğət münşi Əbdürrəhim tərəfindən "Risalei-Fəzlüllah xan" namilə Kəlküttədə nəşr olunmuşdur.

15) Castren (Alexander). Versuchn einer koibaeischen Sprachlehre nebst Wörterverzeich nisseu aus dem tatarishen. Mundarten des minussinscheu Kreises, Petersbourg, 1857.

16) Будагов. Практическое руководство турецко-татарского, азербайджанского наречия, Москва, 1857.

17) Хитров. Краткая грамматика якутского языка, Москва, 1858.

18) К.Насыров. Краткая татарская грамматика, изложенная в примерах. Казань, 1860.

Qəyyum Nasiri şimal türkləri arasında ilk dəfə sərf yazan alimlərdən birisi sayılmaqdadır. Bu zatın "Ünmuzəc" namındakı sərfi 1895-də

basılmışdır. Qəyyum Nasiri sərfinə əsas olaraq ədəbi dil ilə bərabər, xalq dilini də almışdır.

19) Ильинский. Материалы к изучению киргизского наречия. Казань, 1861.

20) Лазарев. Турецко-татарско-русский словарь с приложением краткой грамматики. Москва, 1864.

21) Vambery (Armin). Cagataische Sprachstudien, Leipzig, 1867.

Burada Orta Asiya türkcəsinin sərfi bir taslağı (sxeması) vardır ki, əsərinin bu qismində Vambery bütün Orta Asiya türk şivələrinə ümumi bir göz gəzdirir.

22) Максимов. Опыт исследования тюркских диалектов в Худавендигяре и Карамании. Петербург, 1867, 98 стр.

23) Wahrnmund (Adolf). Praktisch grammatik der osmanische-türkischen Sprache. Giessa 1869, en deux parties 428+104.

24) Макарий. Грамматика алтайского языка. Казань, 1869, 289 стр.

25) Михаил Терентьев. Грамматика турецкая, киргизская и узбекская. Санкт-Петербург, 1875 (типография Академии наук), 209 стр.

26) Sehaw. Sketch of the Turki language as spoken Eastern Turkistan (Kasgar and Yarkand). Part I grammar, Calcutta, 1878.

27) Vambery. Məxdumqulu. Divan, 1879.

Burada Vamberi Məxdumqulunun şeirləri ilə bərabər, türkmən dilinin sərfi və nəhvi təşrihatını verir.

28) Добролюбов и Золотницкий. Ознакомление с фонетикой и формами чувашского языка, 1879, 60 стр.

29) Wells.A. Practical grammar of the turkisen langage. London, 1880.

30) Radloff. Phonetik der nordlichen Turksprachen, Leipzig, 1882, 316 pages.

31) Şeyx Süleyman əfəndi. Lüğəti-cığatai və türki-osmani. İstanbul, 1882.

Bu lüğətdə 9 səhifədən ibarət bir də kiçik sərf vardır ki, Şeyx Süleyman əfəndi burada fel çəkilişlərindən, söz təşkilindən, sözün parçalarından bəhs edər.

32) Наливкин и Наливкина. Русско-сартовский и сартовско-русский словарь общепотребительских слов с приложением краткой грамматики Намангонского уезда. Казань, 1884.

33) Müller (Auguste). Turkische grammatik mit paradigmen, Litterature, Chrestomatie und glossar von A.Müller unter Mitwirkung von Hermaun gies. Berlin, 1889.

34) Наливкин. Руководство к практическому изучению сартовского языка. Самарканд, 1889.

35) Joussouf R. (Jozeph Reali). Grammaire complete de la langue ottomane comprenant les frois elements turc, persan, arabe, Constantinople, 1892, XI et 34 pages.

36) Qəvaidi-lisani-türki, İzmir, 1309-1310, 400 səh.

37) Manissadjinan J.J.Lehrbuch der modernen osmanischen sprache. Stuttgart, 1893.

38) Архангельский. Грамматика народно-татарского. Оренбург, 1894.

39) Воскресеньский. Русско-татарский словарь с предисловием о произношениях и этимологических изменениях татарских слов. Казань, 1894.

40) Мелиоранский П. Краткая грамматика казак-киргизского языка. Петербург, 1894.

41) Jehlitschka (Henry). Türkische Konversations Grammatik, Heidelberg, 1895, 420 pages.

42) Məhəmməd Sadıq. Üssi-lisani-türki. İstanbul, 1896.

Orta Asiya türkcəsinə aid bir sərfdir.

43) Н.И.Ашмарин. Материалы для исследования чувашского языка. Казань, 1898; Опыт исследования чувашского синтаксиса. Казань, 1903.

44) Катаринский. Грамматика киргизского языка. Оренбург, 1898.

45) Bonelli Luigi. Elementi di grammatica turca osmanli con paradigmi, cretomazia e glossario. Milano-Noepli, 1899, 193 pages.

46) Wied Karl. Leichtfassliche Anleitung zur Erlernung der Turkischen Sprache für den Scqul-und Selbstunterricmi 4-edit. Vienne, Leipzig, 184 pages.

47) Wahrmund. Praktisches Handbuch der Osmanische-turkischen Sprache Giessen, 1887.

IV. İyirminci əsrdə:

1) Vambery Armin. Altosmaniche Sprachstudien mit einem azerbaizanischen. Texte als Appendix. Leiden, 1901, 232 pages.

Burada Vamberi əski osmanlıcanın sərfinə aid bəzi qeydlər yapar.

2) Писарев. Несколько слов о Трабезундском диалекте, 1901.

3) W.Thomsen. Sur le Systeme des consonnes daus la langue ouigour. Keleti Szemle, 1901, p. 241, 259.

4) Hartmann Martin. Cagataisches, Die Grammatik ussi "Lisani turki" des Mehemed Sadiq. Heidelberg, 1902, 83 pages.

5) Н.Ф.Катанов. Опыт исследования урянхайского языка. Казань, 1903, 1539 стр.

6) Kunos Jgnacz. Oszman-török nyelvkönyv, nyelvtan, szotar, olvasmanyok. Budapest, 1905, 524 et 89 pages.

7) Hadopian V.H. Ottoman-Turkish conversation grammatik, a practical method of learning the Ottoman-Turkich language. London, D.Nutt, 1907.

8) Komission. Müfəssəl yeni sərfi-osmani. Bir kaç qisim. İstanbul, 1325.

9) Hüseyn Cahid. Türkcə sərf və nəhv. Bir kaç qisim. İstanbul, 1324-25.

10) Əli Nüzeyma. 1) Lisani-osmani; 2) Müəllimi-sərfi-türki.

11) F.E.L. (Frere Eustache Lonis). Grammaire complete de la Langue turque comprenant les trois elements: turc, persan, arabe. Constantinople, 1907.

12) Dal Medico (Moise Bey). Methode theorique et pratique pour l'enseiguement de la langue. Constantinople, 1908, 425 pages.

13) Vilmos Pröhle. Karatchaische Studien. Keleti Szemle, 1909.

14) Bonelli (Luigi) et Jasigian. Ji turco parlato. Milano, Napoli, 1910.

15) Əhməd Hadi Məqsudi. Türki sərf. Qazan, 1910.

16) Əhməd Rasim. Əməli və nəzəri təlimi-lisani-osmani. III təb, İstanbul, 1323, 245 səh.

17) Saleh Ehsan. Osmanlı lisanı. İstanbul, 1323, 192 səh.

18) Məhəmməd Rüfət. Xacei-lisani-osmani. İstanbul, 1327, 560 səh.

19) Andon B. Tanqar. Türk dilinin sərf təhlilisi (Grammaire analytique de la langue turque). Birinci və ikinci cild. Naşiri: müsəvvər "Sərvəti-fünun" məcmuəsi.

20) Əhməd Cavad. Lisani-osmanı, sərf və nəhv. Bir kaç qisim. İstanbul, 1328.

21) Raquette G., Eastern Turki grammar, practical and theoretical with Vocabulare. Berlin, 1913 (Mitthenlungen des seminarss für orientaliscue sqracue. Lahrgang XVI).

22) M.Əbdülqadir. Qəvaidi-lisani-türki. Bağçasaray, 1914.

23) Qalimcan İbrahimov. Tatar sərfi, Tatar nəhvi. Qazan, 1914-1915.

İstilahları təmiz Qazan-tatar şivəsində yaratmağa çalışması ilə diqqətəlayiqdir.

24) Əbdürrəhman Sə'di. Öz dilimizcə mükəmməl sərf-nəhv. Qazan, 1915.

25) Гордлевский В.А. Руководство для изучения османского языка. Егличка. Переработал В.А.Гордлевский. Москва, 1916 г.

26) Самойлович. Опыт крымско-татарской грамматики. Петроград, 1916.

27) Yəhya Bayburtlu. Tatar sərfi. Simferopol, 1918.

28) M.Horten, Einführuug in die türkischen sprache und jchrift. Halle, 1916, 167 seite.

29) Hans Stumme. Arabisch, persich und türkisch. Leipzig, 1916, 66 seite.

30) M.Padel. Türkisch. Leipzig, 1917, 179 seite.

31) J.Denny. Grammaire de le langue turqe (Dialcte-Osmanli). Paris, İmpimerie nationale, 1921, 12, 18 p. xxx.

32) Şövqi Bəkturə. Tatarca sərf və nəhv. Ağməscid, 1922.

33) Altı müəllimdən ibarət bir komission. Türkcə sərf-nəhv. Bakı, 1924, Azərnəşr.

34) Baytursun ulu Ahmet. Til qural: 1) Qazaxca əlifba; 2) Sövt; 3) Söz, söyləm (cümlə). Orenburq, 1924-1925.

35) Fitrət. Sərf (Özbək tili qaydaları toğrusunda bir təcrübə). Birinci kitab, ikinci basma. Naşiri: Özbəkistan Dövlət Nəşriyyatı, Daşkənd, 1925, 69 səh.

36) А.Н.Самойлович. Краткая учебная грамматика современного османско-турецкого языка. Ленинград, 1925, 154 стр.

37) Cəmaləddin Vəlidi. Tatar tilinin qrammatikası. Qazan, 1919, Qurultay şirkəti nəşriyyatı, 171 səh.

38) Weil. Qrammatik der osmanisch-türkischen sprache. Berlin, 1917.

39) Yusif Talıbzadə Tiflisi. Kitabü-təhsilil-qəvaid (Türk dilinin sərf və nəhvinə dair qəvaidi asan vəchlə bəyan edər). Bakı, 1902, 119 səh.

40) B.Çobanzadə, Krım-tatar elmi sərfi. Ağməscid, 1925, 185 səh.

41) Nəriman Nərimanov. Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi (rus və müsəlman məktəblərində türkcə oxuyan uşaqlar üçün düzəldibdir). Badkubə gimnaziyasının türk dili müəllimi Nəriman Nərimanov, 1899, 47 səhifə **(Типография губернского правления)**.[32]

Bizim, şübhəsiz, pək naqis olan bu cədvəlimizdə on səkkizinci əsrə qədər 13, on doqquzuncu əsrə qədər 4, iyirminci əsrə qədər 47, iyirminci əsrdə 40 sərf görünməkdədir. Buraya, pək iyi məlumumuz olduğu halda bu cədvəli tərtib etdiyimiz, daha doğrusu, bu bəhsi yazdığımız zaman, məəttəəssüf, əlimizdə bulunmayan sərf kitabları girməmişdir. Xüsusilə Şərqdə yazılan sərflərin sayısı və mahiyyəti haqqında yapılan tədqiqat hələlik kafi deyildir. Bununla bərabər, az-çox doğruluqla toplanmış olan bu yüz dörd sərf müəllimə və sərfçiyə şimdiyə qədər bu yolda yapılan işlər haqqında əsaslı məlumat verməyə kafidir. Bizim gələcək sərf tədrisi bəhsində yürüdəcəyimiz mütaliələr iştə bu cədvəldə görünən iyirmi-iyirmi beşindən başqası mündəricə və üsulilə bizə məlum olan sərflərə dayanacaqdır. Burada biz elmi sərf ilə məktəb sərfi, əməli sərf arasında fərq qoymadıq. Çünki yuxarıda da izah etdiyimiz kibi, məktəbdə sərf tədrisinin üsulu qarşısında duran ən böyük vəzifə iştə bu fərqi qaldırmaqdır. Türk sərfinin tarixçəsi haqqında hazırlamaqda olduğumuz daha müfəssəl əsər bu xüsusda səthi surətdə keçdiyimiz bir çox nöqtələri bu mühüm məsələyə maraq edənlər üçün daha açıq və daha ətraflı və dərin surətdə aydınladacaqdır.

Bu xüsusda, məəttəəssüf, olsun ki, şimdiyə qədər heç bir şey yazılmadığını əlavə etməliyiz.[33]

---

[32] Gərək Yusif Talıbzadənin, gərəksə Nəriman Nərimanovun sərfləri cədvəlimiz və türk sərfinin tarixçəsinə aid bəhsimiz bitdikdən sonra əlimizə keçdiyindən bu xüsusda daha müfəssəl məlumat verəmədiksə də, bu xüsusda ayrıca və müfəssəl surətdə hazırlayacağımız əsərdə daha geniş surətdə, ümumiyyətlə bu məsələ ilə uğraşacağımızı vəd ediriz.

[33] Sərfin tədris bəhsinə, bəlkə, bir az başqa şəkildə əsərimizin ikinci qismində bir daha dönəcəyiz.

TÜRK SƏRFİNİN TƏDRİSİ ÜSULU

Şəkillərin öyrədilməsi. Səslərin tədqiqi.
Cümlələrin tədqiqi sərfinin meyillərə bölünməsi

Şimdiyə qədər yazılan dil kitablarımızda "sərf, nəhv, imla..." kibi sözlər təkrar olunub durmaqdadır. Halbuki lisaniyyat elmi dili və onun tədrisi planını tamamilə başqa dürlü təsəvvür etməkdədir. Buna görə dildə şu parçalar vardır: səslər, sözlər, cümlələr (Baytursunun təbirincə, "söyləm") və mənalar. Buradan dilin tədqiqindən doğan bəhslərdə:

1) sövtiyyat **(фонетика)**,
2) şəkliyyat **(морфология)**,
3) nəhv **(синтаксис)**,
4) mənaiyyat **(семасиология)** olur ki, bunlardan əvvəlki üçünə sərf **(грамматика)** ümumi adı verilir.

Digər tərəfdən, sərfdən məqsəd doğru oxuyub-yazmağı öyrətməkdir. Bu surətlə dil dərslərinə tamamilə əməli və faidəvi **(утилитаристический)** bir baxış hökm sürməkdədir. Belə baxış nəticəsində sərf imlanın qolu olmuşdur. Bu da çox təbiidir. Çünki qarşısında yalnız yazı və hərf görən tələbə və göstərən müəllim üçün bundan başqa çarə yoxdur.

Yeni sərf yazı ilə dili açıq surətdə bir-birindən ayırır. Sərf yazını kənara buraxıb, yalnız sövti, şəkli nəhvi və məna cəhətlərindən dili tədqiq etməli və etdirməlidir.

Yeni sərf dilə məna və fikrin ifadəsinə alət gözü ilə baxmaz. Dilin fikirdən, məntiqdən ayrı bir təkamül cizgisi və fikrin təkamülü qanunlarından tamamilə ayrı üzvi və ruhi qanunlara malik olduğunu qəbul etməklə, əski məktəb sərfinin yapdığı kibi, sözlərin yalnız məna cəhətindən tədqiqi faydasız və hətta zərərli sayar.

Nəhayət, yeni sərf ədəbi və yazı dili yerinə, canlı söyləşmə dilini tədqiq və təhlilə mövzu olaraq alır. Çünki tələbələrin ruhuna ən yaxın, dil qanunlarının bulunub çıxarılmasına ən ziyadə müsaid, əlverişli ancaq canlı dildir. Bunun da səbəbi sərf tədrisindən şimdiyə qədər bəklənilən doğru oxuyub-yazmaq nəticəsi yerinə, yeni pedaqojinin nasıl söyləyib, nə surətlə söz və cümlə meydana gətirdiyimizi anlamaq və anlatmaq məqsəd və nəticəsini qoymasıdır.

Doğrudan da, biz məktəbdə təbiəti, bir çox ictimai kompleksləri, tərkibləri yalnız fayda çıxarmaq və əməli işlərimizdə qullanmaq üçün öyrənmiyoruz. Hər şeydən əvvəl təbiətin və cəmiyyətin nə surətlə doğub təkamül etdiyini, gərək təbiət, gərəksə cəmiyyəti idarə edən faktorlar, amillər, qanunları öyrənmək, bilmək istəyiriz. Elm və elmi tədqiq əsasən bundan ibarətdir.

Dil cəmiyyətin və üzvi təbiətin böyük hadisə və tərkiblərindən birisidir. Dildən yalnız faydalanmaq (söyləmək, yazmaq) ilə bu hadisəni gərəyi kibi anlamış olmayız. Dili anlamaq üçün onun ünsürlərini, şəkillərini, mənşəyini, təkamülünü və bütün həyatını doğuran, idarə edən səbəbləri anlamaq lazım gəlir.

Şimdiyə qədər dilə, təbir caizsə, yalnız filolojik-ədəbi baxış var idi. Dil ilə uğraşmaq da yalnız şairlərin, ədiblərin, mühərrirlərin işi sayılırdı. Halbuki yeni pedaqoji dili təbii və ruhi hadisələr zümrəsinə girdirmiş və bu nöqteyi-nəzərdən dilin tədqiqi təbiət və cəmiyyət bilgilərinin tamamlığı üçün şərtdir. Nasıl təbiətin, cəmiyyətin, üzviyyətin əsas amillərini, təməl qanunlarını bilmək ümumiyyətlə zehni inkişaf, şüurlu düşüncə üçün lazımsa, hankı məsləkdə olursa-olsun, təhsil və mərifət sahibi olmaq istəyən hər adam üçün dilin başlıca hadisələrini anlaya bilmək labüd və lazımdır. Bu surətlə dil yalnız başqa elmlərin öyrənilməsi üçün alət məqamında qalmaz. Bəlkə, ona başqa elmlərin (riyaziyyat, təbiiyyat və ilax.) yanında məktəbin birinci qruplarından başlayaraq yer verməlidir.

Bundan, bəzilərinin zənn etdiyi kibi, ibtidai məktəbə lisaniyyat darülfünun mühazirələri, leksiyaları soxmaq anlaşılamaz. Heç bir elm yoxdur ki, yalnız darülfünunda başlasın, yaxud birinci və ikinci dərəcə məktəbdə bitsin. Gərək ibtidai, gərəksə edadı və darülfünun kurslarında ümumiyyətlə iki mövzu vardır: təbiət və cəmiyyət. Təhsilin hər basamağında dəyişən yalnız üsulu və tələbələrə verilən biliyin dərəcəsidir. Təbiiyyat, riyaziyyat və başqa buna bənzər elmlər kibi, dilin də bir darülfünun, bir də ibtidai məktəbi üçün veriləcək, öyrədiləcək sahələri, hissələri vardır. Nasıl çocuqlar öz ölkələrinin, öz mühitlərinin, cəmiyyətlərinin tədqiqi ilə yavaş-yavaş artaraq, qüvvətlənərək, ilərivərək darülfünunlara, bütün insaniyyətin, bütün təbiətin tədqiqinə yanaşırlarsa, belə də öz ana dillərindən başlayaraq, dilin ümumi, insani, aləmşümul qayda və qanunlarına yetişə bilirlər ki, bu da ancaq darülfününun lisaniyyat və ədəbiyyat şöbələrində qabil olur.

Sərfə və sərfin mövzusuna olan baxışın dəyişməsi ilə sərfin üsuli-tədrisi də asılı surətdə dəyişmişdir. Rusların iləri gələn alimlərindən P.N.Sokolin sərf tədrisinin son zamanlara qədər üç dövrdən keçdiyini söyləyir:

1) Bir vaxtlar sərfi, daha doğrusu, sərf kitablarını tamamilə şüursuz bir surətdə əzbərlədirlərdi.

2) İkinci dövrdə artıq sərfə yalnız əməli – doğru oxuyub-yazmağa xidmət etməsi dolayısilə – gözlə baxılıyor və onun tədrisindən yalnız əməli nəticələr bəklənіyor.

3) Nəhayət, üçüncü dövrdə artıq müstəqil bir elm başqa elmlər kibi, zehnin, mühakimənin biliyi dairəsinin artmasına, genişlənməsinə xidmət edən bir mövzu olaraq məktəbdə yerləşiyor.

İştə bunun üçün yeni tədris planının təməlinə şu əsasların və məqsədlərin qonulduğunu öyrəniyoruz:

1) Məktəb doğru oxumanı, yazmanı, söyləməni və düşünməni öyrətməlidir.

2) Bu məqsədlər ana dili tədrisi ilə bir çox tərəfdən bağlandığından ana dilinin yalnız bir şöbəsi ilə məqsədləri təmin etmək qabil olmadığını ağıldan çıxarmamalıdır.

3) Məktəb birinci maddədə göstərilən məqsədlərdən və mələkələrdən başqa bilgilər də verə bilir. Çünki məktəbdə dildən başqa ümumi inkişafa xidmət edən **(общеобразовательное)** başqa bir çox elmlər daha bulunur.

4) Sərf dil sahəsindən, dil hadisələrindən məlumat veriyor və lisaniyyat bilgilərinin tələbələrin zehnlərində yerləşməsinə çalışıyor. Doğru oxuyub-yazmaq da... kibi əməli məqsədlərə yardımı olacağı şübhəsiz bulunmaqla bərabər, belə əməli məqsədlərə doğrudan-doğruya xidmət etməyir.

5) Dil bilgisinin, dilə aid məlumatın ümumi inkişafa olan böyük və dərin təsirini gözə alaraq, bu soy dərsləri birinci dərəcə məktəblərin, şəkil və dərəcəsini dəyişdirərək, ikinci dərəcə məktəblərin dərs planına soxmalıdır.

6) Birinci maddədə göstərilən mələkələrin yalnız sərf tədris vasitəsi ilə əldə edilə biləcəyi fikrini qətiyyən zehndən çıxarmalıdır.

7) Buradan sərfə yalnız müstəqil bir elm olaraq baxıb, ondan əməli nəticələr bəkləməmək lazım gəldiyi anlaşılır.

8) Buradan da şimdiyə qədər sərfə yüklənən əməli vəzifə və məqsədlərin əldə edilməsi üçün ayrı üslub, imla, məntiq mümarisələri üçün proqram və plan və üsul hazırlamaq lazım gəldiyi bəlli olur.[34]

Sərfin məktəblərdə belə bir yer alması sərf kitabının **(грамматический учебник)** rolunu ikinci dərəcəyə düşüriyor. Çünki ana dili üzərinə qurulacaq olan sərf dərslərini bütün məktəblər üçün hər hankı bir sərf kitabında qavramaq qabil olamaz. Sərfin bu yeni şəklinə dil üzərində müşahidə **(наблюдение над языком)** ünvanı verilməkdədir ki, pək doğru və pək uyğundur. Sərfin şimdiyə qədər yükləndiyi əməli nəticə və vəzifələr ondan alındıqdan sonra artıq lisani hadisələr müşahidə və tədqiq üsulu ilə keçmək fürsəti və imkanı meydana çıxar ki, ümumiyyətlə dil dərslərinin canlanması üçün bu çox qiymətli bir ünsürdür. Burada mücərrəd və quru sərf qaydaları yerlərini canlı və əməli tədqiqlərə buraxmaq məcburiyyətində qalırlar. Bunun üçün bu gün sərfin yeni üsul ilə öyrənməsi tərəfdarları olanlar ümumiyyətlə nəzəriyyə və qaydaların sərf dərsləri planında ən son yeri işğal etməsini tövsiyə edərlər (Afanasyev, Şeremetyevski).

Bu üsulun türk sərfi tədrisi üçün pək qiymətli və pək də uyğun olduğu[nu] qeydə belə hacət yoxdur. Çünki yuxarılarda bir kaç münasibətlə qeyd etdiyimiz kibi, əsasən məktəblərimizdə bu günə qədər işlədilib gələn sərf kitabları nə mündəricə, nə də plan və qaydaca türk dilinin həyat və təkamülünə uyğun deyildir. Bundan başqa, bir çox qaydalar yanlış surətdə tərif və izah edilmişdir. Eyni şey sərf istilahları **(грамматическая терминология)** haqqında söyləmək lazım gəlir. Pək çoxu təmiz rus dilindən alınmış olan sərf istilahlarının buraxılması mümkünsə, sərf istilahlarını qaldırıb atmaq daha da mümkün və daha ziyadə faydalıdır. Bu sərf təbirlərinin yerinə, amerikan və Münxen məktəblərində tətbiq olunduğu kibi suallar yerləşdirilməsi tövsiyə olunmaqdadır.

Şimdiyə qədər məktəb sərflərində təhlil üçün fel, fail, mütəmməm kibi təbir və istilahlar qullanılırdı. Məsələn, *Bən dənizi gördüm* kibi bir cümlə alacaq olursaq, burada *bən* = fail, *dənizi* = məful, *gördüm* = fel olurdu. Halbuki bu istilahları qaldırıb onların yerinə suallar yerləşdirəcək olursaq, məsələ və çocuqlara bildirilməsi lazım gələn əsas zərrə qədər zərər görmədiyi kibi iş pək ziyadə qolaylaşmış olur:

[34] Русский язык в школе, 1923. Статья Ушакова: Словесник перед новой программой грамматики.

"Mən nəyi gördüm?" – sorur müəllim. Çocuqlar: "Dənizi", – cavabını verirlər. Bu surətlə çocuqlar yavaş-yavaş bütün cümlə üzviyyətinin, təşəkkülatın fərqinə varırlar. Bu soy izahatı qiraət, oxuma zamanında vermək lazımdır. İzahlı oxuma **(объяснительное чтение)** ilə sıxı surətdə bağlandıqda artıq ayrıca sərfi təhlilin pək o qədər əhəmiyyəti qalmaz.

Nəhv **(синтаксис)** tədrisində ən yeni cərəyan yalnız sözlər arasındakı münasibətin hankı şəkildə, hankı şəkilçilər yardımilə ifadə olunduğunu (yaxud ifadə olunmadığı təqdirdə, sözlər arasındakı müəyyən tərtibi) göstərməklə kifayətlənməyi tövsiyə ediyor. Cümlə və sözlərin məna cəhətinə gəlincə, mənaya ümumiyyətlə bu sözlərin vəzifəsi, iş **(функция)** kibi baxmaq lazım gəlir.

Bu xüsusda rus dilçi pedaqoqlarından Şeremetyevski **(Шереметьевский)** şöylə təqribi bir plan və sxema təklif ediyor:

1) Müəllim çocuqlarla bərabər, bu və yaxud şu hadisə haqqında mükaliməyə, söyləşməyə qoyulur.

2) Çocuqlar bu söyləşmədən lazım gələn nəticələri özləri çıxarırlar. Burada müəllim yalnız yardım edər.

3) Tələbələr lazım gördükləri misalları toplar və yazarlar.

4) Artıq yazılmış olan bu misallar yazılı mətn halında təhlil və tədqiqə qoyulurlar.

5) Dəftərlərə verilən sual və cavablar və zəruri istilahlar qeyd olunur. İştə bu dəftərlər sərf kitablarının yerini tutar.

6) Müəllim tərəfindən keçilən bəhslərin, yapılan təhlillərin iyicə qavranılması üçün yazı vəzifələri verilir.

Sərf materialını hankı sıra və tərtib üzrə verməlidir məsələsinə şimdiyə qədər üsuli-tədris iki dürlü cavab verə gəlmişdir. Ən ziyadə qəbul olunmuş sistema şudur: sövtiyyat, şəkliyyat **(морфология)**, nəhv. Lakin sərf materialını başqa dürlü də sıralamaq mümkündür. Birinci sıra müəllim üçün ən uyğun, ən əlverişlidir. Çünki burada böyük bir təcrübə və ayrıca bir zəhmət lazım gəlməz. İkinci tərtibdə qolaydan gücə, bəsitdən mürəkkəbə getmək yolu seçilir. Sərf materialını mərkəzi surətdə bölmək həpsindən isidir. Pedaqoji üsulu hər şeydən ziyadə tələbələrin istedad və hazırlığı ilə hesablaşdığından burada yeknəsəq və ümumi bir üsul və tərtib etmək pək ziyadə gücdür. Şimdiyə qədər qəbul edilən üsula görə, sövtiyyatdan başlayıb, şəkliyyat (etimologiya), bundan da nəhvə keçilir.

Bu sistemin tərəfdarları daima imla və yazı gözdə tutarlardı. Lakin pedaqoji ədəbiyyatında ən son cərəyan bunun əksinədir, yəni sərfə nəhvdən başlamaq tərəfindədir. Çünki cümlə bütün bir fikri anladıyor və bu surətlə sərf tədrisinə təqib olunan yeni sistemə uyğun gəliyor. Gərək Dövləti Elmi Şuranın, gərəksə Azərbaycan Maarif Komissarlığının proqramlarında sərf üçün ayrı bir yer verilmiyor. Bununla bərabər, çalışılacaq tələbələrin istedad, həvəsi və hazırlıqlarını göz önündə tutmaq üçün müəllimə fürsət veriliyor.

Burada Afanasyevin rus məktəbləri üçün təklif etdiyi dördillik planı və türk dilinin xüsusiyyətlərini göz önündə tutaraq, şöylə bir plan təqdim ediyoruz:

Birinci il. Bəsit və çocuqların mühitlərindən alınmış ərəb, fars sözləri bulunmayan cümlələr, tərkiblər. Bunların başlıca tipləri. Sözlərin bir-birinə olan münasibətləri, bağları üzərində tədqiqat. Cümlənin bitməsinə işarət olan səs dəyişiyi. Türkcədə söz bitdiyinə işarət olan səs dəyişiyi (ahəng).

Səslər üzərində tədqiqlər. Səsin alçalması, yüksəlməsi, yavaşdan, bağırıb söyləmək, uzadaraq, çabuq. Bu arada dil, dodaqları, dişlər, burun, yanaqlar... kibi səs üzvlərinin rolunu qeyd etməli.

Cümlə içində ayrı söz. Sözü hecalara ayıraraq söyləyiş. Hecaların sözlərə tərkibi. Hecadan səsin ayrılması.

Yumuşaq, qatı (qalın, incə), yuxarı-aşağı... səslərin ayrılması və türkcədəki ahəng qanununun iyicə bəllənilməsi.

İkinci il. Müfəssəlcə, uzunca cümlələr üzərində tədqiqat. Sözlərin qarşılıqlı münasibəti. Yarımsözlər, şəkilçilər. Bunların söz tərkiblərindəki rolu. Dürlü yazı işarətlərinin (nöqtə, təəccüb, sorğu işarətləri...) səslə bildirilməsi.

Samit və sait səslər üzərində tədqiqlər. Bununla bərabər, səs aparatını, səslərin məxrəclərini tədqiq.

Səs və hərf. Hərf ilə səsin bir-birinə uymadığı, yaxud səsin yazılmayıb qaldığı nöqtələr. Türk dilinin səsləri (misallar ilə) və yazımızın hərfləri.

Sözlərin dəyişən və dəyişməyənlərini tədqiq (məsələn: *iş*, *işləmək*, *işçi*, *işlə* və *pək*, *kibi*, *ancaq*, *yoxsa*...).

Türk sözlərinin tələbələr üçün tanış və qolaylı sözlərdə damar və şəkilçiyə ayrılması və sözlərin şəkilçilərinə görə qruplara ayrılması (söz və fel təsrifi). Burada istilahlar söylənmədən yalnız misallar üzərində tədqiq yapılacaqdır.

Üçüncü il. Cümlələrin tələffüzü üzərində tədqiqlər (iki nöqtə, vergül, nöqtəli vergül...). Bəsit cümlələrin bir-birinə bağlanması. Ahəng və işarətlər. Vurğu məsələsi, məntiqi vurğu **(логическое ударение)**. Səslərin dəyişmələri üzərində tədqiqlər.

Söz sonlarının dəyişmələri üzərində tədqiqlər və bu dəyişmənin siniflərə ayrılması (sözlərin, fellərin, sifətlərin təsrifi).

Dördüncü il. Dürlü söz tərkiblərinin mürəkkəb cümlələrə toplanması. Belə cümlələrdə tənqit işarətləri. Sözlərin cümlə içərisindəki yerləri. Cümlə, fel, fail, failsiz (daha doğrusu, mübtədasız cümlələr). Səslərin bir-biri üzərinə təsiri. Təmsil **(ассимиляция)**, təhlil **(диссимиляция)**. Səs üzvlərinin daima qısa və qolay hərəkətə meyil etmələri. Hərf ilə səs, söylənilən, yazılan arasındakı fərq.

Sözlərin şəkillərinə görə siniflərə ayrılması:

1) şəkillərini dəyişdirən sözlər,

2) dəyişdirməyən sözlər.

Şəkillərini dəyişdirənlər: isim, fel, sifət...

Sözlərin cümlə içərisindəki mənaları üzərində tədqiqlər.

Ümumi nəticələr

Dil insanın ayırması, əlaməti-müməyyizəsidir.

Dilin, dil hadisələrinə dəyişikliyi: dil yaşıyor, dəyişiyor, yox oluyor.

Bir-birinə bənzəyən dillər. İltisaqi dillərin başlıca ayırmaları.

Türk dilinin başqa dillər və bilxassə şəkilcə kəndisinə yaxın dillər arasındakı yeri.

Xalq dili və ədəbi dil.

Biz bu sxemanı Afanasyevdən müəllimlərimizə nümunə olmaq üçün köçürdük. Lakin belə bir sxemanı məktəblərdə tətbiq etmənin qarşısında böyük, pək böyük maneələr olduğunu bilməz deyiliz. Bu maneələrin ən böyüyü, şübhəsiz, belə bir sxemaya görə tərtib olunmuş bir sərfin yoxluğudur. Sərf kitablarımızda səs bəhsi tamamilə yoxdur. Demək ki, Afanasyevin bu sxemaya səs haqqında keçirdiyi nöqtələr bizim türk məktəbləri üçün heç də tətbiqə gəlməz. Digər tərəfdən, türk sözlərinin gərək sərfi və gərəksə nəhvi şəkilləri haqqında pək az tədqiq yapılmış və "Türk sərfinin tarixçəsi"ndə saydığımız yüz sərfdən müəllimlərimizin əlinə pək az şey düşmüşdür. Bütün bunlara baxmayaraq, doğru üsulu bilmək lazımdır. Türk dilini tədris etmək onun səslərini, nəhvini, sərfi şəkillərini, məna qanunlarını vermək demək

olduğunu bilməliyiz, eşitməliyiz. Türk dilinin qanunlarını bulmaq, yaxud bunlardan alıb öyrənmək imkansız, güc şeylərdən deyildir. Yetər ki, müəllimlərimiz və ümumiyyətlə məktəblərimiz əski üsulun çürükliyini və yeni üsulun ümumi əsasını qavramış olsunlar. İştə eyni məqsədlə biz yeni üsul ilə dilin birinci dərəcə məktəblərdə nə surətlə keçilməsinə aid nöqtələri qeyd etməkdə davam ediyoruz.

Azərbaycan Maarif Komissarlığının birinci dərəcə məktəblərə məxsus olan proqramı canlı sözün əhəmiyyətini pək doğru olaraq qeyd etmiş və ağırlığı hər şeydən ziyadə şifahi dərslər və müsahibələr üzərinə qoymuşdur.

1) Söz bağları üzərində müsahibə.

Belə müsahibə və tədqiqlərdən məqsəd söylərkən sözlərin nə kibi qarşılıqlı münasibətdə bulunduqlarını və söz düzəlişinin sistemini qavramaqdır.

Belə müsahibələri ən bəsit tərkib və cümlədən başlamalıdır, məsələn:

Uçan quşun rəsmi göstəriliyor.

– Bu rəsmi hankı sözlə dəyişdirmək, yaxud anlamaq olur?

– *Quş*.

– Quşu dəftərinizə cızınız.

– Quşun yanına nasıl söz yazıram?

– *Uçmaq*.

– Bu sözü (*uçmaq*) sizin dəftərinizə cızdınız. Quşa bağlamaq üçün quşa nasıl şəkil verməlidir?

– Quşun qanadlarını açmalı və ayaqlarını çəkməli.

– O vaxtda dəftərinizə nə yazarsınız?

– *Quş uçıyor*.

– Şimdi bu sözləri birinci və ikinci halda bir-birilə müqayisə ediniz (*Quş, uçmaq*).

– *Quş uçıyor*. Hər ikisində kaç söz var?

– Birincidə iki söz bir-birindən ayrı bulunur, aralarında vergül var. İkinci halda aralarında vergül yoxdur.

– Birinci və ikinci halda bu sözləri nasıl söylədiyimə diqqət ediniz!

– Birinci ehtimalda söz duraq ilə söyləniyor, bundan başqa, hər iki söz eyni surətlə söyləniyor. İkinci halda iki söz birdən, duraqsız söyləniyor və ikinci sözün sonunda səs alçalıyor.

– Birinci və ikinci halda tərkibləri bir-birilə hərfcə müqayisə ediniz! Hankı sözdə hankı hərflər dəyişmişlərdir?

– İkinci halda son üç hərf dəyişmişdir. *Uçmaq* yerinə *uçur* olmuşdur.

– Şimdi hər iki sözü axırdakı üç hərf dəyişmədiyi halda söyləməni təcrübə ediniz, duraqda yapmayınız!

– *Quş uçmaq*.

– Təbii çıxıyormu?

– Xeyr.

– Elə isə ikinci sözün sonunu dəyişdirmək bizə nə üçün lazım imiş?

– Hər iki sözdən bir cümlə, tərkib yapmaq, bir-birinə bağlamaq üçün.

Bu surətlə quş "oynamaq", "ötmək", "sıçramaq"... kibi sözlər yazılır və eyni nəticələr əldə edilir.

Səslər üstündə müsahibə

Daha əlifbanı keçərkən çocuqlar başlıca səs məxrəcləri ilə tanış olurlar. Çocuqlar hər zaman səsləri özləri tələffüz etməlidirlər. Çünki ancaq bu surətlə başlıca məxrəcləri ayırır və yerlərini bəllərlər.

Sinifdə qapını göstərərək soruyorum:

– Bu nədir?

– Qapı.

– Dəftərinizə cızınız!

– Dəftərinizdə nə var?

– Qapı.

– Qapını açınız!

– Şimdi də dəftərinizə yazdığınız "qapı"nı açınız!

– Nə üçün mümkün deyil?

– Bu gerçəkmi qapı deyil? Yalnız qapının rəsmi!

– Qapının rəsmi altına adını yazınız!

Taxtadan qapının rəsmini siliyorum. Yalnız altında adı yazılmış qalıyor.

– Taxtada nə qaldı?

– Qapı.

– Rəsmi?

– Xeyr.

– (Qapını göstərərək) Bu nədir?

– Qapının özü. Gerçəkmi qapı?

– Ya bu nədir?

– Rəsmi.

– Ya bu?

– Söz?

– "Qapı" nasıl meydana gəldi?

– Maranqoz yapdı.

– Ya rəsm nasıl meydana gəldi?

– Biz qurşun qələm karandaşı ilə cızdıq.

– Ya "qapı" sözü?

– Biz karandaş (qurşun) və tabaşirlə yazdıq.

– Şimdi taxtada nə var?

– Heç bir şey yox. Biz yazını sildik.

– Dinləyiniz! Qapı.

– Nə eşidiyorsunuz?

– "Qapı".

– Bu bənim şimdi söylədiyim "qapı" taxtada yazılı "qapı"dan nasıl ayrılıyor?

– Birincisi taxtada yazılı idi. Biz görüyorduq. İkincisini qulağımızla eşidiyoruz.

– Demək, biz sözlə nə yapa biliriz?

– Onu taxtada, dəftərdə qurşun qələm, tabaşirlə, mürəkkəblə yaza biliriz, yazılanı görürüz. Onu ağızla, dodaqlarımız, dilimizlə söyləyə biliriz, qulağımızla eşidiriz.

– Şimdi bənim ağzıma baxınız! "Qapı" dediyim zaman ağzım kaç kərə hərəkət ediyor, oynayır?

– İki kərə.

– Birinci hərəkəti yapınız!

– Qa.

– İkinci hərəkəti yapınız!

– Pı.

Bu surətlə heca fikri hasil olur.

Hecadan səsi ayırmaq üçün məxrəcdən faydalanıyoruz. Bu məxrəcləri çocuqlar əlifbanı keçərkən artıq tanımağa alışıyorlar. Bunun üçün bəsit məxrəcləri çocuqlarla tədqiq etmək kafidir. Məsələn, *ma*, *ya*, *na*, *ta*...

Bundan sonra daha güc, daha qarışıq məxrəclər **(артикуляция)** tədqiq olunur.

Səsi hecadan ayırdıqdan sonra cümlə içərisindəki səs ilə ayrı səsin bir dürlü söylənib-söylənmədiyini tədqiq edəriz. Bu tədqiq nəticəsində

anlaşılıyor ki, bəzi səsləri ayrı söyləmək qolay, bəzilərini pək ziyadə güc, başqalarını isə ayrı söyləmək heç mümkün deyildir.

Səslərin təsnifi onların tələffüzünə görə olmalıdır. Çocuqlar səslərin nə surətlə tələffüz edildiyini görüyor və yaxud duyuyor. Buna görə də səslərin siniflərini ayırıyor və adlandırıyorlar.

Söz şəkilləri üzərində tədqiqlər

Məktəbin birinci illərində çocuğu sözlər arasındakı bəzi bənzəyişləri görməyə alışdırmaq mümkündür. Bu surətlə onlarda yavaş-yavaş "şəkil" **(морфем)** fikri hasil olur. Zatən çocuqlar bir-birinə şəkilcə bənzəyən sözləri daima araşdırırlar. Qiraət dərsləri belə bir-birinə şəkilcə bənzəyən sözləri toplamaq üçün böyük bir fürsət verir.

Çocuqlar qiraət dərsləri zamanında, yaxud yazı yazarkən bəzi sözlərin şəkilcə dəyişib, bəzilərinin dəyişmədiyinə diqqət etdiriliyor (*ov, ova, ovçu, kibi, pək, ancaq...*).

Bundan sonra sözlərin sonu dəyişdiyi təyin edilərək, bu soy sözlər sonlarının bənzəyişinə görə siniflərə ayrılır. İş bu dərəcəyə gəldikdən sonra çocuqlar bilxassə türkcədə pək qolay damar ilə şəkilçini birbirindən ayırırlar. Bundan sonra çocuqlara ayrı-ayrı sözlər verilərək, bunlar cümlə halında söylədilir. Cümlə halında dəyişən sözlərə diqqət olunur və bu dəyişmələr tədqiq edilir. İsmin və felin hallarını göstərmək üçün münasib cümlələr düzülür və gərək isim halları və gərəksə fel şəkilçiləri belə cümlələrdən çıxarılaraq cədvəllərə düzülür. Bununla bərabər, bu şəkillərin istilahlarını (məfulbih, ileyh, ənh, yaxud mazi, müstəqbəl...) öyrətmək hənuz erkən və lüzumsuzdur. Bundan sonra (yəni çocuqlar damar ilə şəkilçiləri ayırdıqdan sonra) artıq bəzi şəkilçilərin sözləri bir-birinə bağladığını:

Kitab + ı ver — *Kitab + a yaz*
Kitab + dan öyrən — *Kitab + da var*

bəzilərinin də yalnız ayrı-ayrı sözləri dəyişdirdiyini qeyd etmək lazım gəlir:

Baġ – baġlı, daġ – daġlı, dağlıq – dağıcı, iş – işlək – işçi, yıx – yıxıq, qorx – qorxaq...

Bundan sonra şəkilsiz sözlər (*pək, kibi, amma, lakin...*), yaxud yarımşəkilli (*qışın, sonra, yazın...*) kibi sözləri təhlil etmək lazım gəlir.

Bizim türk məktəblərində, yuxarıda da qeyd etdiyimiz kibi, sərfin şəkli meyil və surət ilə keçilməsi bugünlərdə qabil deyildir. Halbuki türk dili üçün ən əlverişli üsul, şübhəsiz, budur. Çünki şəkli nöqteyinəzərdən alındıqda türk dili, doğrudan da, öyrənilməsi ən qolay, təhlili ən ziyadə maraqlı dillərdən birisidir. Türkcədə əsas məsələ damar ilə şəkilçini ayırmaqdır. Bundan sonra şəkilçilərin siniflərə ayrılması sayəsində bütün türk dili təşəkkülatını əldə etmək qabildir. Digər tərəfdən, türk dilində şəkilçi yalnız sözün sonuna gəldiyindən çocuqlar istisnasız surətdə sözlərin sonları ilə uğraşmağa məcbur olurlar. Bundan başqa, türkcədə damarlar **(основа)** heç bir zaman səs etibarilə dəyişməzlər. Demək ki, hind və Avropa dilləri üçün tövsiyə olunan şəkli üsul türkcə üçün pək ziyadə uyğundur və şəkli nöqteyinəzərdən alındıqda öyrənilməsi türkcədən qolay dillər pək azdır. Netəkim, esperantonu düzənlər ona daha ziyadə iltisaqi şəkil vermişlərdir.

Yalnız şurasını unutmamalıyız ki, bu gün müəllimlərimizin əlində mükəmməl və üsuli bir sərf kitabı yoxdur. Türk dilinin cümlə, söz və səsləri gərəyi kibi meydana qoyulmamışdır. Bilmədiyi bir şeyi – üsul nə qədər gözəl olursa-olsun – müəllim oxutmamaqda məzurdur. Türkcənin səsləri haqqında sərflərimiz zərrə qədər doğru məlumat verməz, fellərdən başqa şəkilləri də tanımaz və tanıtmaz. Bizdə az-çox yazılmış və inkişaf etdirilmiş bir şey varsa, o da nəhvdir. Bu da ərəblərin təsiri altında meydana gəlmiş və əsas etibarilə ədəbi dili aldığı üçün kafi sayılamaz.

Hər halda yaxın zamanda, bir tərəfdən, Avropa lisani üsulunu, digər tərəfdən də, canlı türk dilini qarşısına alaraq, müəllimlərimiz və yaxud lisançılarımız yeni üsula, canlı türk dilinə uyğun türk sərfini meydana qoymağa borcludurlar.

Bəhsimizi bitirmədən əvvəl şunu deyəlim ki, çocuqlar dil dərslərində öz dillərini təhlil və tədqiq etməni öyrənməli və sərfi də bu dilin üzərinə qurmalıdırlar. Bu gün psixoloji, fizioloji elmlərinə və öz üsullarına dayanaraq pedaqojinin və lisaniyyatın Amerikadan Rusiyaya qədər atdığı şüar, göstərdiyi yol budur və bu yol, dediyimiz kibi, hər kəsdən ziyadə bizim üçün iltisaqi şəkildə dilə malik olanlar üçündür.

DOĞRU SÖYLƏMƏ

Орфоэпия – правопроизношение

Şimdiyə qədər yazılan türk sərflərində, bir kaç kərələr söylədiyimiz kibi, ilərıyə sürülən mühüm məsələlərdən birisi doğru söyləmək idi. Halbuki nə sərfçilərimiz, nə də bu sərflərin mündəricəsini çocuqlara, məəttəəssüf, çox dəfə olduğu kibi aşılamağa çalışan müəllimlərimiz bu doğru söyləmənin nədən ibarət olduğunu, əsası, ünsürləri üzərində düşünməmiş kibi görünürlər.

Bu məsələ rus üsuli ədəbiyyatında son zamanlarda böyük toz qaldırmışdır. Peşkovski, Çemışev, Uşakov, Afanasyev... kibi lisan üsulçuları bu məsələlər haqqında olduqca müfəssəl məlumat verə gəlməkdədirlər.

Doğru söyləmə **(орфоэпия)** işi bilxassə bizim məktəblərdə türk dili tədrisi zamanında mühüm və müşkül bir məsələ olur. Gərək əski Rusiya və gərəksə əski Osmanlı imperatorluğu türklərinin hər hankı bir məclisini, teatrosunu ziyarət və tamaşa edən adam burada İzmir, Qəstamon, Konya, Qazan, Azərbaycan, noqay, özbək... tələffüzlərini eşidir. Krım kibi kiçik bir yerdə belə cənub-şimal tələffüzləri bir-birinin yanında səhnədə, məktəbdə, mətbuat və nəşriyyatda yer alır.

Vaxt-vaxt mətbuatda gərək teatro, gərəksə ədəbi dil məsələsi ilə bağlı olaraq doğru tələffüz çevrəsində böyük-böyük gurultular qalxar. Bu günlərdə eyni məsələ Azərbaycanın əməkdar mühərrir və qəzetçilərindən Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin"in "Sirkə" namilə yazdığı risaləsi ilə bir daha alovlandı, parladı.

Cəlil Məmmədquluzadə bu risaləsində "balıq"mı, "balıx"mı demək lazım gəldiyi məsələsini ortaya atır və Azərbaycanda "balıx" demək lazım olduğunu ilərı sürüyordu. Bu məsələ üzərində Azərbaycan ədəbiyyat dərnəklərində, qəzetələrində çoxdan-çox münaqişə oldu. Lakin bir çox ədəbi məsələlər kibi, zənn ediyorum ki, bunun da nəticə və əsası anlaşılmadı.

Türk ellərində deyil, yalnız təmiz türk sözlərinin, hətta ümumiyyətlə mənası və tələffüzü bəlli olan pək çox ərəb-fars sözlərinin tələffüzündə belə, ümumilik, uyğunluq, düzgünlük yoxdur. Qal'a, qalə, qala, ğala, ğalə, haqiqat, həğiqət, məscid, meçit, məçit, məşet... ilax. kibi tələffüzləri hər yerdə rast gətirirsiniz.

Əcəba, belə şərtlər içərisində doğru söyləmənin əsas və qaydaları nədən ibarət ola bilir? Bizim bütün türklər üçün ədəbi dilimiz olmadığı inkar olunamayacaq həqiqətlərdəndir. Əvvəldən də belə bir ədəbi dilə malik olduğumuz haqqında heç bir işarət və əlamət yoxdur.

Miladi-İsadan iki buçuq-üç əsr əvvəl tarix səhnəsində qəti surətdə görünən türklərin şimal-cənub, şərq-qərb qisimlərinə ayrılmayıb, bir mərkəz ətrafında toplandıqları pək az görülür.

On birinci miladi əsrdə türklər daha cənuba və cənub-qərbiyə doğru kütlə-kütlə axınlara başlamazdan əvvəl də bütün qəbilələr üçün fəsih, yəni doğru və nümunə tanılacaq ümumi bir ədəbi dilə malik olmadıqları Mahmud Kaşqarinin "Divanü-lüğatit-türk"ündən pək açıq görülür. Bunun üçündür ki, Mahmud Kaşqari ən fəsih dil olmaq üzrə dürlü qövmün dürlü şivəni tanıdığını və kəndisinin, özünün ana dili olması mümkün olan xaqaniyyə türkcəsini saydığını və nəhayət, ən təmiz türkcənin köçəbələrdə bulunduğunu qeyd ediyor.

İslamiyyəti qəbul etdikdən sonra da türklərin ümumi ədəbi dili və binaən əleyh ədəbi və doğru söyləmələri olmamışdır. On üçüncü əsrdə törəyən cığatay və ondan sonra çıxıb yayılan Osmanlı ədəbi dilləri bir çox nöqtələrdə bir-biri ilə təmasda və qarşılıqlı münasibətdə bulunmaqla bərabər, birləşib, bir ümumi ədəbi dil meydana gətirməyə doğru təkamül etməmişlərdir.

Bundan başqa, son zamanlara qədər hər iki ədəbi dildə müəyyən bir şivəyə, bir şivə sahəsinə dayanmamışlardır. Bu sözümüz bilxassə cığatay ədəbi dili üçün doğrudur. Ümumiyyətlə denilə bilir ki, türklər öz dillərinə qaidəvi surətdə baxmamışlardır. O halda türk məktəblərində, teatro və cəmiyyətlərində doğru söyləmə məsələsi ola bilirmi? Ola bilir.

Doğru söyləmə məsələsi hər xalqda nisbi bir qiymət və mahiyyətə malikdir. Qonuşulan dili, istər ədəbi, istər şivəvi olsun, dar və sağlam qaydalar içinə qapatmaq heç bir zaman qabil olamaz. Professor Uşakov pək doğru olaraq rus doğru söyləməsini başlıca artistlərin və deklamatorların bəlləməsi lazım gəldiyini, bundan başqa, yanlış söyləmənin yalnız fonetik surətdə yazılan sözlərin yanlış oxunmasına həsr edilməsini təklif ediyor.

Hər nə qədər bizim, rusların ədəbi dilinə mövzu və əsas olan Moskva şivəsi kibi, ümumi bir şivəmiz yoxsa da, şunu inkar etmək olmaz ki, böyükcə türk ölkələrinin bir kaç əsrlik ədəbiyyatı vardır. Bura-

da Osmanlı, Azərbaycan, özbək, Qazan kibi ölkələri qəsd ediyoruz. Buna görə bizdə ədəbi söyləmə, doğru söyləmənin ölçüsü ümumi türk miqyasında olmasa belə, Azərbaycan, Qazan, Osmanlı şivələri miqyasında ola bilir. Ərəb-fars və yaxud başqa əcnəbi sözlərin tələffüzünə gəlincə, burada bu sözlərin xalq dilinə girib-girmədiyini göz önündə tutmaq lazım gəlir. Xalq dilinə girib türk ahəngini, türk sözlərinin sövti rəngini almış olan sözləri o surətlə söyləmək doğru olduğu kibi, girməyənləri də əslinə uyğun olaraq söyləmək və söylətmək gərəkdir. Məsələn, Azərbaycanda olduğu kibi [h-ğ]-lı əcnəbi sözləri "q-k" ilə yazmaq və söyləmək, şübhəsiz, doğru olmaz və bir çox yanlışlıqlara səbəb ola bilir.

Burada doğru söyləməni yalnız sövti, fonetik mənada anlamamalıdır. Doğru söyləmədən məqsəd ümumiyyətlə ədəbi üslub, məntiqi surətdə fikir və duyğuları söyləməsini, yazmasını bəlləməkdir. Bunun da çarəsi tələbələrə, çocuqlara bol-bol nümunələr və mümarisələr verməkdir. Bu xüsusda bizim məktəblərimizdə, teatro və ədəbiyyat məhfillərimizdə yapılacaq bir iş varsa, o da bütün türk ədiblərindən onların üslub və ifadələrindəki təzəlik, dərinlik və zənginlikdən faydalanmasını bilmək, sonra pək qaba, gülünc ifadələrə, cümlələrə meydan verməməkdir.

Doğru söyləmənin meydana gəlməsinə ən ziyadə xidmət edən başlıca amil – milli teatro bizdə hənuz doğmamışdır. Buna qədər doğru yazmanı olduğu kibi, doğru söyləməni də məktəblərimizdə öyrətmək lazım gələcəkdir. Bunun da əsası ədəbi üslubu, heç olmazsa, çocuqların öz şivələrində mövcud ədəbiyyata və ədəbi söyləməyə dayanaraq bəllətmək və elmi-fənni fikirləri ifadəyə doğru düzgün, açıq ifadəyə alışdırmaqdır ki, bu işin ilərilədilməsi, dərinləşdirilməsi artıq bizdə ikinci dərəcə məktəblərin vəzifəsidir. Bunun üçün bu məsələnin daha müfəssəl surətdə tədqiqini əsərimizin dil və ədəbiyyatın ikinci dərəcə məktəblərdəki üsuluna aid olacaq ikinci qisminə buraxıyoruz. Şimdilik yalnız şunu əlavə etməliyiz ki, doğru söyləməni öyrənmək xatiri üçün çocuqların öz təbii tələffüzləri və ifadələri üzərinə şimdiyə qədər söyləyib gəldiyimiz səbəblərdən dolayı heç bir dürlü təzyiq yapılmamalı, biləks, bütün dil tədrisi çocuqların öz dillərinə istinad etməlidir.

Doğru söyləmə və ədəbi üslub ilə yavaş-yavaş, dərəcə-dərəcə tanış edilməlidir. Bu xüsusda ədəbi parçaların oxunması pək böyük

yardım edər. Bu xüsusda türk dilində, ümumiyyətlə üsul haqqında olduğu kibi, ədəbiyyat pək az olduğundan burada yalnız rus ədəbiyyatında bulunan bir kaç kiçik məqalə və parçanı göstərmək məcburiyyətindəyiz:

1) Орфоэпия и ее место в школе I ступени (Краткая методика родного языка). Афанасьев, стр. 121.

2) Маленькая заметка о большом вопросе. Д.Н.Ушаков (Родной язык в школе). Сборник 8-ой, стр. 106-108.

OXUMA

Чтение – qiraət

Məktəbdə oxumanı idarə etmək üçün bir çox üsullar ola bilir. Yalnız burada şunu demək lazım gəlir ki, oxumanın üsulu hər şeydən ziyadə oxunacaq şeyin məzmunu ilə təyin edilir. Məktəbdə oxuma dərsləri ictimai tərbiyənin birisidir. Oxunacaq materialı temalara ayırmalıdır. Bu temalarda həyatımızın başlıca məsələlərinə, yaxud tarix boyunca ağrıyan-acıyan məsələlərə təəllüq edər.

Oxuma vasitəsi ilə veriləcək ictimai tərbiyədə üç nöqtəni gözdə tutmaq lazımdır:

1) Vəq'ə və hadisələri, onları doğuran tarixi və ictimai səbəbləri amillərlə daima bağlamağa çalışmalıdır.

2) Oxuma izahlarında daima plan, ciddiyyət üzərinə hərəkət etməlidir. Gəlişigözəl izahat burada faydadan ziyadə zərər verə bilir.

3) Üçüncü diqqət ediləcək nöqtə də oxunan mövzu ətrafında lazım gələn faktları, hadisələri toplaya bilməkdir.

Əgər qiraətdən, oxumadan birinci bəklənən nəticə ictimai tərbiyə vermək olsa, ikinci nəticə də bir taqım təbii və ilərdə tələbənin qarşısına çıxacaq elmlərin sahəsindən faydalı məlumat əldə etməsinə yardımda bulunmaqdır. Bunun üçün qiraət kitablarının məzmunu məsələsi həqiqətən mühümdür. İş bu məsələyə gəldikdə, biz Qalimcan İbrahimovun təklifini, yəni qiraət kitablarında başlıca iki əsas bulunmasını qəbul etməliyiz. Bu da:

1) milli və tarixi ədəbiyyatdan parçalardır ki, burada hər şeydən ziyadə əsrin ruhuna, xalqımızın yaşayışına, çocuğun psixolojisinə yaxın parçalara üstünlük verilməlidir;

2) təbiətə və fənnə aid məlumatdır. Burada türk məktəblərindən çıxan tələbələrin çox dəfə doğrudan-doğruya həyata atılıb, ikinci və üçüncü dərəcə məktəblərə gedəmədiklərini unutmamaq lazım gəlir. Bunun üçün qiraət kitablarında az-çox təbiət və fənn haqqında həyat üçün lazım gələn ibtidai məlumatı verməkdən geri durmamalıdır.

Bizim şimdiyə qədər tərtib olunan qiraət kitablarımızın hər iki nöqtədən nöqsanları aşkardır. Bunun üçün şimdiyə qədər tərtib olunan nümunəlik rus və başqa əcnəbi qiraət kitablarından faydalanmaq lazım olduğu aşkardır.

Oxumada mühüm və şimdiyə qədər üzərində bir çox münaqişələr olan məsələlərdən birisi də sual məsələsidir. Burada sualı oxunacaq parça oxunduqdan sonramı, yoxsa əvvəlmi verilməlidir cəhəti üzərinə üsuli ədəbiyyatda münaqişələr getməkdədir. Əgər oxunmadan əvvəl sual verilsə, tələbələrin tədaisi, şəxsiyyəti üzərinə təsir və hətta təzyiq yapılmaq, onların marağını cəlb etməyən məsələlərlə məşğul olmaq ehtimalı vardır. Əgər sual oxunduqdan sonra verilsə, bir çox mühüm nöqtələri gözdən qaçırmaq mümkündür. Ən iyisi sual vermələrini tələbələrin özlərinə təklif etməkdir.

Vəlhasil, oxunduğu zaman çoxdan-çox izahatdan qaçınaraq üç nöqtəyə diqqət lazım gəlir:

1) oxunan hər sözü anlamaq,

2) oxunan cümlənin ifadə etdiyi hökmü, fikri qavramaq,

3) bütün oxunan parçanın məfhumunu, mənasını, şəkli və daxili xüsusiyyətlərilə birlikdə açıqca təsəvvür edə bilməkdir.

Söz və cümlədən bütün bir parçaya keçmək üçün ən qolay çarə zərbül-məsəl, bilməcə... kibi şeylərdir. Bütün əsər və yaxud əsərcikləri parçalara ayırmaq mümkün deyilsə, birdən oxumaq icab edər.

İzahata gəlincə, 1) ya oxumadan əvvəl, 2) ya oxurkən, 3) yaxud oxuduqdan sonra verilə bilir ki, əsasən bu məsələ, başda da dediyimiz kibi, oxunan şeyin təbiətinə bağlıdır.

Oxunan şeyin məalını izah xüsusunda iki dürlü hərəkət edilə bilir:

1) parçalardan bütünə,

2) bütündən parçalara.

Bu da yenə oxunan şeyin məalına və məfhumuna bağlıdır. Şeirlə nəsri oxumanın ayrı-ayrı yolu vardır. Şeir oxurkən lövhəni, təsvir edilən simanı buldurmalı və qalanını çocuqların özünə buraxmalıdır.

Oxuma əsnasında diqqət ediləcək nöqtələri Çernışev şu surətlə xülasə etmişdir:

1) Söylədiyin kibi oxu.

2) Kəndi səsinlə oxu.

3) Sadə və təbii surətdə oxu.

4) Tənqit işarətlərinə (nöqtə, vergül...) diqqət et.

5) Sözləri açıq və anlaşılacaq kibi söylə.

6) Başqasının sözlərini söylərkən onun səsini bulmağa çalış.

7) Səsini yüksəldib, alçatmağı bil.

8) Hər vaxt yüksək səslə açıq, qüvvətli surətdə oxu.

9) Şairin, yaxud mühərririn duyğularını anlayıb, onu ifadə etməyə çalış.

10) Vurğulara diqqət et.

11) Üzünü, gözünü, əlini oynatma.

A.M.Smirnov "Məktəbdə ana dili" jurnalının 7-ci nömrəsində oxuma haqqında yazdığı məqaləsində kompleks mərkəzləşmə üsulunda oxumanın qazandığı rol xüsusunda bəzi, çox doğru qeydlər yapmışdır. Smirnovun fikrincə də, oxumanın təməlində iki ünsür olmalıdır:

1) iş; 2) təbiət.

Kompleks üsulunda dil bütün elmlərin yardımçısı və bağı olur. Bu vəzifəni ancaq oxuma vasitəsilə yerinə gətirir. Şeri tədqiqlər kompleksi dərinləşdirdiyi kibi, nəsr parçalarının oxunması məktəbdə elmi dilin meydana gəlməsinə xidmət edər.

Bundan başqa da bir çox üsullar ola bilir:

1) Filoloji üsulu sözləri anlatmağa,

2) Psixoloji üsulu müəllifi təqlid etdirməyə, onun duyğularını bildirməyə,

3) Nəhayət, estetik, bədii üsul da oxunan şeylərin dış (kənar) və iç gözəlliklərini göstərməyə çalışır.

Nəhayət, Smirnov da bu üsulların hər birində müsbət bir tərəf görərək, Afanasyev, Tolstoy ilə bərabər, bir nəticəyə gəlir ki, bu da:

"Ən iyi üsul can sıxmayan üsul"dan ibarətdir.

Oxunanı təmsil

Драматизация, инсценировка

Oxunanı təmsil və təsvir çocuqların təbiət və məzacına pək ziyadə uyğundur. Çocuqlar ətraflarında gördüklərini təqlid etməyə pək ziyadə həvəslidirlər. Onların teatroya, kinematoqrafa olan maraq və sevgiləri bunu göstərir. İngilis və amerikan məktəblərində oxumanın yardımçısı olaraq ifadə, təqlid və səhnələşdirməkdən geniş surətdə faydalanmaqdadırlar.

Burada iki dərəcə vardır:

1) ifadə – **драматизация,**

2) səhnələşdirmə – **инсценировка.**

Birincidə bilxassə hərəkətlər vasitəsilə çocuqlar oxuduqlarındakı duyğu və fikirləri ifadəyə çalışırlar. Dramatizasiya üçün daha ziyadə

hərəkət və cərəyan olan əsərlər yarar. Yalnız daxili həyəcanlardan ibarət olan şeri, lirik şeylər o qədər yaramazlar.

Çocuqlar bu surətdə oxuduqlarını hərəkət, mimika və hər duyğuya, həyəcana uyğun ahəng, tonu bulmaq yolu ilə ifadə edirlər.

Səhnələşdirməyə gəlincə, burada dramatizasiyadan artıq təmsil olunacaq tiplərin, vəq'ələrin daha ziyadə gözə çarpması, xatirdə qalması üçün bir də süni mühit (kostyum, səhnə, qrim) işə qarışır.

Bir parçanı səhnələşdirmək üçün bütün sinif müəllimin rəhbərliyi altında bu parçada təmsilə yarayacaq nöqtələri bulmalı, qeyd etməlidir. Bu iş çocuqları hərəkətləri tədqiq etməyə, dürlü məzacları bir-birindən ayıran əlamətləri öyrənməyə alışdırır.

Bundan sonra səhnə üçün lazım gələn şeylərin hazırlanması başlar. Burada da çocuqlar iştirak etməlidirlər. Hankı tipi nə surətlə təmsil və ifadə edə biləcəklərini bulmaqda çocuqlar üçün böyük, geniş icad yolu açılır.

Burada məktəb səhnələrinin məktəb divarlarından dışarıya çıxmamasına çalışmalıdır. Çünki görünmək həvəsi çocuqları və məktəb səhnəsinin əsas məqsədini şaşırda bilir. Belə səhnələr məktəb divarları içərisində olub keçməli və auditoriya ancaq məktəb üzvlərindən ibarət olmalıdır.

Hər bir parça oynanıb bitdikdən sonra yapılan müvəffəqiyyətlər, buraxılan qüsurlar haqqında yenə sinifdə münaqişə yapılmalıdır.

Gərək dramatizasiya, gərəksə səhnələşdirmə çocuqları müstəqil surətdə düşündürməyə, hərəkətə və çalışmağa alışdırması dolayısilə pək ziyadə qiymətli ünsürlərdən sayılır.

Burada bir kaç söz də oxunan şeylərin cızılması, tərsim olunması haqqında söyləməliyiz. Oxuma dərslərində əldə edilən materialı gözəlcə, qəvi surətdə bənimsəmək üçün əl işləri və yaxud rəsmlər vasitəsilə bunları cızmanın pək böyük əhəmiyyəti vardır. Lakin bununla bərabər, bu xüsusda ifrata varılmaması, sözlər yerinə yalnız rəsmləri və şəkilləri öyrənməkdən sağınılması, qısası, burada rəsmin yalnız oxunan materialı iyicə bəlləmək xatiri üçün olduğunun unudulmaması tövsiyə olunmaqdadır.

Ana dilinin tədrisində dürlü ədəbi-bədii **(литературно-эстетический)** gəzintilərin də olduqca böyük əhəmiyyəti ola bilir. Çocuqların oxuma dərslərində keçdikləri hər hankı bir mövzuya toxunan yeri (bir şairin doğduğu, olduğu yer, yaxud hər hankı bir məşhur ədəbi

parçanın saxlandığı muzey, yaxud hər hankı bir xalq şairinin bulunduğu köy, məhəllə) ziyarət edərək, edəndikləri məlumatı döndükdən sonra referat, mühazirə, yaxud yazı ilə təsbit etmələri də oxuma dərslərinin, ümumiyyətlə dil tədrisinin canlanmasına xidmət edər.

Ədəbiyyat:

1) Краткая методика родного языка. П.О.Афанасьев, 1925, стр. 123-151.

2) Психологические методы обучения чтению. Проф. А.Нечаев, Москва, 1923.

3) Родной язык в школе, №7, стр. 70-77, А.М.Смирнов.

TÜRK DİLİ KABİNETİ

Məktəblərdə şimdiyə qədər yalnız təbiiyyat, fizik kabinetləri yapmaq fikri var idi. Lakin dil dərslərində geniş surətdə müşahidə **(наглядность)** üsulunun qullanılması və tələbələrin də müstəqil işə cəlb olunmaları dil dərsləri üçün bir taqım alətləri və bu alətlər vasitəsilə əldə edilən nəticələrin hecaba alınmasını zəruri yapmışdır.

Belə bir kabinet tələbələrə müstəqil dil işləri üçün lazım gələn mühiti yaratmaq etibarilə də böyük əhəmiyyətə və qiymətə malikdir. Belə kabinetlər həm müəllim və həm tələbə üçün xidmət etmək məqsədi ilə yaradıldığı üçün hər iki tərəfə lazım gələn vasitə və alətləri kəndisində toplamalı və hər iki tərəfin əməyi ilə meydana gətirilməlidir. Bunun üçün belə bir kabinetə yalnız məhfəzə, muzey gözü ilə baxmayıb, bəlkə, dil dərslərinin laboratoriyası kibi baxmalıdır.

Tomin və Sokolov tərəfindən yazılan "Ana dili kabinəsi"ndə bu kabinetin şu nöqtələrə cavab verməsi lazım gəldiyi göstəriliyor:

1) dil dərsləri üçün zəruri rəsm, təsvir və modellərin toplanması,

2) dil dərsləri üçün lazım olan alətlər (karton, hərflər, cizgilər, əlifba cədvəlləri),

3) əşya dərslərinin müzesi, dürlü maddələr, onların modelləri,

4) imla və doğru yazma cədvəlləri,

5) sərf cədvəlləri (isim, fel təsrifləri, şəkilçilər...),

6) dilin inkişafına xidmət edən alətlər (xəyal fanarı),

7) fotoqraf, yaxud qrammofon,

8) çocuqların işləri: rəsmlər, təsvirlər, modellər, çocuqlar tərəfindən toplanan surətlər, lövhələr,

9) mühərrir, ədib və şairlərin rəsmləri, onların həyatını və əsərlərini təsvir edən materiallar,

10) kitablar (kütübxana),

11) sinifdə oxumaq üçün kitablar bir kaç nüsxədən,

12) sinifdən dışda (kənarda) məcburi və sərbəst oxunacaq kitablar,

13) çocuqların müstəqil işləri üçün lazım olan kitablar,

14) lüğətlər və dürlü təqvimlər **(справочники)**.

Bundan başqa, dil kabinəsində qiraətxana üçün lazım olan kitablar bulunmalıdır ki, bunun da mündəricəsi şöylə təyin oluna bilir:

1) dil tədrisinə aid məqalə və kitablar,
2) ədəbiyyat tarixi, lisaniyyat kitabları, tənqid ədəbiyyatı,
3) qiraət kitabları,
4) başlıca rəhbərlər, lüğətlər, ixtisas jurnalları, hesablar və müəllim qurultaylarının hesab[at]ları...

Bütün bu maddələr rus dili kabinəsi üçün düzülmüş olmaqla bərabər, türk dili kabineti qurmaq istədiyimiz zaman da başqa dürlü hərəkət etmək imkanı yoxdur. Bu xüsusda S.Baranov **(С.Баранов)** da "Məktəbdə ana dili" jurnalının 7-ci nömrəsində təqribən eyni fikirləri yazmaqdadır.

TÜRK XALQ ƏDƏBİYYATI VƏ ONUN MƏKTƏBLƏRDƏKİ YERİ

Xalq ədəbiyyatı və yazılı ədəbiyyat.
Türk xalq ədəbiyyatı ilə yazılı ədəbiyyatın təmas nöqtələri.
Türk xalq ədəbiyyatında şimdiyə qədər yapılan tədqiqlər.

Bu əsərimizi, nə qədər az diqqətlə olursa-olsun, gözdən keçirən oxuyucu yeni məktəbdə yeni üsuli-tədrisin daha ziyadə, canlı dil üzərinə qurulduğunu görəcəkdir. Canlı dil burada ədəbi, kitabi dilin qarşılığıdır. Canlı dil daima dəyişən, inkişaf və təkamül edən bir dil olduğu halda, kitabi, yaxud ədəbi dil müəyyən və sabit əsərlərə dayanır. Bununla bərabər, canlı dili yalnız söyləşmədən ibarət saymaq doğru deyildir. Canlı dilin də özünəməxsus çox qiymətli əsərləri vardır ki, bunların heyəti-məcmuəsinə "xalq ədəbiyyatı" deyiriz.

Xalq ədəbiyyatının yazılı ədəbiyyatdan pozma və azma olduğu bir çox zamanlara qədər lisançıların, filoloqların inandıqları bir həqiqət olaraq tanıtmışdır. Hətta Vilhelm fon Humbold[t], Fransua Bup kibi alimlər başda [olmaqla], əski zamanlarda hər kəsin yazılı ədəbiyyat dili ilə söyləşdiyi halda, sonra get-gedə dilin, ədəbiyyatın pozulduğunu iddia edirlərdi.

Xalq ədəbiyyatına bitərəfanə, onun ünsürlərini, amillərini anlamaq, bəlləmək niyyətilə baxanlar bu gün də azdır. Qüruni-vüsta bu gün belə "mənəvi" denilən elmlərdən təsir və nüfuzunu qaldırmamışdır. Bütün bu iddialarda hənuz keçmiş olan qüruni-vüsta sxolastikasının bəqayası, izləri vardır. Bu gün, artıq insanların yazı və kağız dövründən binlərcə il uzaq vaxtlarda belə, özlərinə məxsus öz ruhlarına uyğun ədəbiyyata malik olduqları isbat edilmişdir.

Xalq ədəbiyyatı adını verdiyimiz ədəbiyyat yazılı ədəbiyyatın, elmi və ədəbi dilin təməlidir. Dilin alimlər, oxumuşlar, yaxud ağıllılar tərəfindən icad edilmiş bir şey olduğu haqqındakı fikirlərin çürüklüyü artıq qəti surətdə göstərilmişdir. Dil üzvi və ictimai fəaliyyətimizdən doğmuş, meydana gəlmiş bir hadisə olunca, əsl təbii dil, söylənilən dil xalq dilidir.

Türk xalq ədəbiyyatı da şu halda türk xalqı ilə doğmuş və təkamül edə gəlmişdir.

Birinci dəfə türk xalq ədəbiyyatını toplayan yenə də məşhur Mahmud Kaşqaridir. Bu adam divanının dürlü yerlərində xalq ədəbiyyatından o qədər çox misal gətirmişdir ki, bunlar toplandığı təqdirdə on birinci miladi əsrə aid olduqca mühüm bir türk xalq ədəbiyyatı nümunələri məcmuəsi ortaya çıxar. Türk xalq ədəbiyyatı başlarında gərək şəkli, gərəksə mündəricə və üslub cəhətlərindən fin-uqor xalqlarının ədəbiyyatları ilə birləşir. On birinci əsrdən sonra yazılı ədəbiyyatın xalq ədəbiyyatı üzərinə olan təsirini inkar etmək qabil deyildir. Bu günə qədər yapılan ədəbi tədqiqlərin verdiyi nəticəyə görə, xalq zehninə və ağzına islam dövründə ən ziyadə təsir edən şairlər "aşıq" və yaxud "sufi" namını daşıyanlar olmuşlardır. Orta Asiya dərvişləri Kiçik Asiya aşıqları ilə, daha doğrusu, cığatay sufi ədəbiyyatı ilə Osmanlı aşıq ədəbiyyatı, təbir caizsə, bütün türk aləmini aralarında paylaşdırmışlar.

Bundan başqa, xalq ədəbiyyatında rast gətirdiyimiz bəzi quyudan quyu ədəbi, daha doğrusu, ərəb-fars təbirlərini yalnız kitabların təsirinə yazmaq, ətf etmək doğru deyildir. Fars, yaxud ərəb dili avropalıların latın dilinə bənzəməz. Bu dilləri söyləyən xalqlar zamanımıza qədər yaşaya gəlmişlərdir. Türk xalq kütlələrinin bunlarla təması bilxassə islamiyyətdən başlayaraq pək qüvvətli və daimi olmuşdur. Elə ki, biz bu dillərin təsirini on ikinci miladi əsrdən başlayaraq müsəlman olmayan türk qövmlərində belə bulıyoruz. Məsələn, on dördüncü əsrin başlarından qalma (1303 miladi) və heç şübhəsiz, on ikinci və on üçüncü əsr dillərinə aid Kon məcmuəsində artıq bugünkü türk-tatar xalq dillərində rast gəldiyimiz bir çox ərəbi-farsi iqtibasların, alma sözlərin yerləşdiyini görüyoruz. Digər tərəfdən, çuvaş, yakut xalqları kibi müsəlmanlığın dini, siyasi nüfuzundan uzaq qalmış olan türk xalqlarını alacaq olursaq, bunların dillərində eyni cinsdən bir çox ünsürlər (sərfi, nəhvi, lüğəvi) buluruz. İştə bu zamanlardadır ki, ərəb dili çox kərə türk şivələrindən keçərək rus, leh, rumın, macar, serb, italyan... kibi Avropa dillərində iz buraxmışdır.

Xalq ədəbiyyatı ilə yazılı ədəbiyyatımızın birinci rast gəlişi, təmas nöqtəsi buradadır.

Son zamanlarda ikinci təmas nöqtəsi də hasil olmuşdur ki, bundan da bir kaç sözlə bəhs etmək lazım gəlir. Həmin bütün türk məmləkətlərində on doqquzuncu əsrdə böyük bir intibah, oyanma və Avropa elmlərinə qarşı getdikcə artan və artmaqda olan bir meyil və həvəs başlamışdır. Qazanda Qəyyum Nasiri, Tokay, Türkiyədə Şünasi Kamalı,

Məhəmməd Əmin, Azərbaycanda Fəfəli Axundov, Sabir, Krımda İsmail Qasprinski, Çerkiyev, qazaxlarda Baytursun ulı Amet, türkmənlərdə Maxdumqulu, özbəklərdə Fitrət, Çolpan, kumuklarda Qazax, Manay, başqurdlarda Babiç, qaraçaylarda Nani Tuqoğlu kibi şair, ədib, mühərrir və dilçilərin meydana çıxması xalq dilinin yazılmasına, təbir caizsə, ədəbiləşməsinə pək böyük xidmət etmişdir. Şimdilik qısadan sayıb çəkdiyimiz şair-ədiblərin hər zaman qarşılarında iki yazılı ədəbiyyatımızdan birisi və yaxud hər ikisi birdən nümunə olaraq bulunmuşdur. Şimal türklərində daha ziyadə cığatay və cənub türklərində Osmanlı ədəbi dili xalq şairləri üzərinə təsirlərini göstərmişdir. Bu surətlə bu xalq şairləri, yaxud xalqçı mühərrirlər eyni zamanda xalq ədəbiyyatı ilə az-çox tərbiyə gördükləri yazılı klassik ədəbiyyatı bir-birinə yaxlaşdırmışlardır. Bütün bu ədib və şairlərin əsərlərini gözümüz önünə gətirəcək olursaq, bunlardan bəziləri, məsələn, Osmanlı xalqçı şairləri (Kamal, Məhəmməd Əmin) yazılı ədəbiyyatdan pək az ayrıldıqları kibi, bəziləri də, məsələn, Manay, Tuqoğlu, Babiç kibi şairlərin əsərlərini adsız xalq ədəbiyyat parçalarından ayırmaq gücdür.

Vəlhasil, yazılı ədəbiyyatımız ilə xalq ədəbiyyatı arasında belə iki cəhətdən hasil olan təmas nəticəsində xalq ədəbiyyatı ilə münəvvər ədəbiyyatı arasında olan uçurum və uzaqlıq azalmış və kiçilmişdir. İştə bunun üçün türk məktəblərində xalq ədəbiyyatının əhəmiyyəti daha ziyadə artmışdır. Bugünkü türk məktəbləri üçün düzülən xrestomati, qiraət kitablarında, ədəbiyyat tarixlərində bu xalq şairlərinə mühüm-mühüm yerlər verildiyini görüyoruz. Məktəblərdə xalq ədəbiyyatı yerinə, biz məktəblərdə xalq şairlərinin keçilməsindən, tədqiq olunmasından bəhs etsək, bu gün artıq böyük bir etirazla qarşılaşmayız. Azərbaycan məktəbləri Fətəli Axundov, Ələkbər Sabir... kibi xalqçı şair və ədibləri tədqiq edərkən öz-özlüyündən gəlib xalq ədəbiyyatına çatacaqdır.

Türk xalq ədəbiyyatı son zamanlarda Radlov, Kunoş, Prohle... kibi Avropa və rus türkoloqları tərəfindən toplanmışdır. Türk lüğətçilərindən Əhməd Rəfiq paşa 4230-a qədər atalar sözü toplayaraq, 1871-də İstanbulda nəşr etmişdir.

Əgər bütün şimdiyə qədər toplanmış olan türk xalq ədəbiyyatı nümunələrini gözdən keçirəcək olursaq, bizdə şu qənaətlərin doğacağına şübhə yoxdur:

1) Bizdəki xalq ədəbiyyatının iki ünsürü vardır. Birincisi bütün türk xalqları üçün ümumi olan ünsürdür ki, bu ümumilik şəkildə, məndəricədə özünü göstərir. İkincisi, hər qrupun, hər şivənin doğurduğu ədəbiyyatda özünəməxsus əlamətlər, şəkil-üslub, məna-məndəricə damağaları vardır.

Hər halda xalq ədəbiyyatımızın şəkil və məndəricəsi olduqca zəngin[dir] və şimdiyə qədər törənən şair və mühərrirlərimiz tərəfindən gərəyi kibi tədqiq, təhlil və istifadə edilməmişdir.

2) Yazılı ədəbiyyatımız fars və ərəb ədəbi nümunələrinə bağlı olduğu halda, xalq ədəbiyyatımız daha ziyadə müstəqil, daha ziyadə orijinaldır. Ta on beşinci əsrdə böyük türk şair və filosofu Mir Əlişir Nəvai bunun fərqinə varmışdır. Çünki onun "Mühakimətül-lüğəteyn" namındakı əsərində fars dilinə qarşı qoyduğu türk dili ədəbi türk dili olmayıb, xalq dilidir.

Əcəba, məktəblərimizdə xalq ədəbiyyatımızdan nə kibi istifadələrdə buluna biliriz? Bu məsələ haqqında getdikcə maraqlı dövr, açıcı məqalələr, kitablarla zənginləşən rus lisaniyyat və ədəbiyyat jurnalları şimdiyə qədər pək az məlumat vermiş, məktəblə xalq ədəbiyyatı arasındakı münasibəti təyin nöqtəsinə pək az diqqət etmişlərdir.

"Məktəbdə ana dili" **("Родной язык в школе")** namındakı jurnalın 7-ci nömrəsində (85) A.Petroviçin **(А.Петрович)** məqaləsindən başqa bir şey görülmiyor. Petroviç bu məqaləsində bir çox fərzi suallara cavab verərək, xalq ədəbiyyatının məktəblərdə yer alması fikrini müdafiə etməkdədir. Bizim məktəblərimizdə isə xalq ədəbiyyatının ayrı bir əhəmiyyəti vardır.

I. Yazılı ədəbiyyatımız hənuz təşəkkül və təəzzüv etməmişdir və xalq ədəbiyyatına bağlanmadıqca buna imkan da yoxdur.

II. Həman bütün mədəni xalqların dili və ədəbiyyatı xalq dili və ədəbiyyatı üzərində təməl atmış və meyvə vermiş olduğu bir zamanda yeni mədəniyyətə girməyə hazırlanan bizlər üçün bu cəhəti gözdən qaçırmaq heç də caiz deyildir.

III. Xalq ədəbiyyatı bir çox ağır və qarışıq istilah və təbirlərdən qurtulmaq üçün yeganə çarədir.

IV. Ümumiyyətlə pedaqoji üsulları, bir tərəfdən, ana dili, başqa tərəfdən, "ana mühiti", yəni ölkəşünaslıq prinsiplərini iləri sürməklə məktəbləri, bilxassə bizim məktəblərimizi xalq ədəbiyyatına doğru sövq

etmiş olur. Xalq ədəbiyyatının məktəblərə girməsi məktəblərimizə başqa bir sima, ayrı bir ruh və həyəcan verəcəyinə biz qane olmaqla bərabər, üsulsuz, materialsız və ən mühümü bu xüsusda artıq hazır, əmin yollar yapılmadan işə başlayacaq bir məktəb və yaxud maarif idarəsi, əlbəttə, acı peşmanlıqdan başqa bir şey əldə edəməz. Bu sözümüz eyni zamanda xalq ədəbiyyatının tədris mövzusu olmasına, məktəblərə soxulmasına qarşı yapıla gələn bir çox etirazlara cavab olur.

Bu etirazlar şu nöqtələrdə xülasə edilə bilir:

1) Xalq ədəbiyyatı müasir bir ruhdan uzaq, mühafizəkardır.

2) Xalq ədəbiyyatı fanatizm, feodalizm, xurafat dövrlərinin izlərini daşıyır.

3) Xalq ədəbiyyatı yekparə bir şey deyil, bəlkə, yaxınlaşıldığı zaman sərab kibi uçan, buz kibi əriyən, nə dil, nə də məndəricə etibarilə qayda və qanun içərisinə alınmayan bir şeydir.

Bütün bu etirazlar yalnız xalq ədəbiyyatına deyil, təbiətdən, həyatdan məktəbə gətiriləcək hər şey haqqında söylənə bilir və üsul, sistem, plan... məsələləri unudulduğu təqdirdə, pək də doğrudur. Mədənləri çamur, nəbatları və heyvanları təbiətin qarışıq sinəsindən doğrudan-doğruya alacaq olursaq, bir çox təbiiyyat elmlərinə qarşı da eyni etirazı yapmaq olur. Lakin müəyyən təsnifçi meyil və xarakteri bizdə olursa, görəcəyiz ki, ədəbi dilimiz daha ziyadə qarışıq, dağınıq və təsadüfi bir şeydir. İki ədibimizin dilini, təbirlərini müqayisə edəcək olursaq, məsələ pək gözəl anlaşılır.

Xalq ədəbiyyatının mühafizəkar olmasına gəlincə, bu doğru olmaqla bərabər, bir tərəfdən görüşdür. Xalq ədəbiyyatında xalqı bütün ruhu, həyəcanları ilə təsvir edən parçalar pək çoxdur. Mühafizəkar parçalar əsrimizin ruhuna uymayan yerlərdə, birinci dərəcə məktəblərdə olmasa, ilərıki siniflərdə işimizə yarar. Tarixdə feodalizm, ictimaiyyatda xurafələr dövrünü oxuduğumuz zaman bu soy xalq şeirləri çox dəfə bizim yeganə mənbəyimiz olur. Akademik Y.F.Karski **(Е.Ф.Карский)** "Rus dialektolojisi" **("Русская диалектология")** namilə 1924 sənəsində yazdığı əsərində xalq ədəbiyyatının müxtəlif siniflərin, qrupların ruhi, iqtisadi, ictimai... hallarını göstərdiyini yazarkən pək doğru olaraq, şivə ədəbiyyatının əhəmiyyətini qeyd edir.

Türk xalq ədəbiyyatını şimdilik şu cəhətlərdə istemal etmək mümkündür və hətta zəruridir:

1) Xalq şairlərini oxurkən onlara ilham verən xalq parçalarını göstərmək, onlar üzərində lazım gələn təhlilləri yapmaq;

2) Dərslərə, dil dərslərinə başlarkən "atalar sözü" təbir olunan parçalardan seçərək işə qoyulmaq;

Yeni üsul tədrisin, yuxarıda göstərdiyimiz kibi, tövsiyə etdiyi şeylərdəndir.

3) Çocuqlara bildikləri xalq şərqilərini, məsəllərini, bilməcələrini söyləmək və bu surətlə əldə edilən materialı dil kabinəsində toplamaq və saxlamaq;

4) Ölkəşünaslıq işlərində xalq adətlərini, təsərrüfat alətlərini öyrənərkən xalq ədəbiyyatında bunların aldığı yeri qeyd etmək, ifadələrini aramaq;

5) Bilxassə ədəbiyyat axşamlarında, dramatizasiya işlərində xalq ədəbiyyatının mövzuları işlənə bilər.

Xalq ədəbiyyatı ilə yazılı ədəbiyyat arasında müəyyən nisbəti hər zaman gözdə tutmaq lazım gəlir. Bu xüsusda "Türk sərfinin tarixçəsi" bəhsində lazım gələn məlumatı verdiyimizdən burada təkrara qoyulmağa lüzum görmiyoruz.

Türk xalq ədəbiyyatının başlıca məcmuələrinə aid məlumatı burada qeyd ediyoruz:

1) Ignacz Kunoş. Oszman-török nepkoltesi Gyüjtemeny. Budapest, 1887-1889.

Osmanlı-türk xalq şeri məcmuəsi. İqnatis Kunoş, Budapeşt, 1887-1889.

2) Владимир Гордлевский. Образцы Османского народного творчества. Москва, 1916 (часть 1).

Osmanlı xalq ədəbiyyatı nümunələri, Vladimir Qordlevski, birinci qisim, Moskva, 1916.

3) Борис Мюллер, Турецкие народные песни, 1903.

4) W.Radloff. Die sprachen der türkischen Stamme. Proben der Volkslitteratur (VIII том), 1889.

Radlov külliyyatının səkkizinci hissəsi. Türk xalq ədəbiyyatının nümunələri.

Azərbaycan xalq ədəbiyyatı nümunələri.

5) "Сборник материалов для описания местностей и племен Кавказа" namındakı məcmuənin müxtəlif cildlərində Zelinski, Mahmudbəyov, Sultanov... kibi müəllim və müdəqqiqlər tərəfindən toplanmış nümunələr vardır.

Son zamanlarda daha müfəssəl və mükəmməl surətdə Azərbaycan-türk xalq ədəbiyyatı nümunələri Hənəfi Zeynallı yoldaş tərəfindən toplanmış olub, yaxında təbi gözlənməkdədir. Bundan başqa, 1917-ci sənədən bəzi çalışmaqda olan məhəlli türk nəşriyyat idarələri böyük-kiçik xalq ədəbiyyatı məcmuələri nəşr etməkdədir. Burada bütün şimdiyə qədər toplanmış olan xalq ədəbiyyatı nümunələri haqqında bəhsimizdən və məqsədimizdən kənar olduğundan daha ziyadə məlumat verməyi lüzumsuz görüyoruz. Bu xüsusda "Türk dialektojisi" namilə hazırlamaqda olduğumuz ayrı əsər lazım gələn məlumatı verəcəkdir.

KİTABİYYAT

Dil tədrisi üsuluna aid əsərlər türkcədə pək azdır. Bunun üçün müəllimlərimizə və üsulçularımıza daha ziyadə rus mənbələrinə müraciət etməsini tövsiyə etmək məcburiyyətindəyiz. Bununla bərabər, ruslarda da üsula aid ədəbiyyat pək o qədər bol deyildir.

1) П.О.Афанасьев. Краткая методика родного языка. Гос. издательство, Ленинград, 1925.

2) П.О.Афанасьев. Методика родного языка. Москва-Петроград, 1923.

3) А.М.Пешковский. Школьная и научная грамматика. Москва-Петроград, 1923.

4) Н.С.Державин. Учебник русской грамматики. Опыт научно-элементарного курса. Москва-Петроград, 1923.

5) Qalimcan İbrahimov. Tatar tilin necək oxuturğa? Qazan, 1919.

6) М.А.Рыбникова. Работа словесника в школе. Москва-Петербург, 1922.

7) И.А.Челюсткин. Методы работы в трудовой школе. Ленинград, 1924.

8) Н.С.Державин. Маленькая грамматика. Крымское гос. издательство, 1924.

9) А.М.Пешковский. Наш язык, часть 1. Книга для учителя. Гос. издательство. Москва.

10) И.Н. Шапошников. Живые звуки. Гос. издательство, 1922.

11) П.О.Афанасьев. Родной язык в трудовой школе. Москва, 1924.

12) Василий Гипнус. Учебник русской грамматики. Ленинград, 1925.

13) Hüseyn Raqib. Türkcənin üsuli-tədrisi.

14) B.Çobanzadə. Türk-tatar lisaniyyatına mədxəl. Bakı, 1924.

15) А.М.Пешковский. Русский синтаксис в научном освещении. Государственное издательство, Москва, 1920.

16) Родной язык в школе, №1-8.

17) Qazan "Maarif", İstanbul "Təbdrisati-ibtidaiyyə", Bakı "Maarif və mədəniyyət", Ağməscid "Oxu işləri" jurnalında müəllim və üsulçuların dil və onun üsuli-tədrisi haqqında məqalə və işarətləri.

18) К.Н.Соколов. Методы комплексного преподавания. Москва, 1924, издание 5-е.

19) А.Д.Алферов. Родной язык в средней школе, Москва, 1911.

TÜRK DİLİ VƏ ƏDƏBİYYATININ TƏDRİS ÜSULU

İKİNCİ QİSİM

BİR NEÇƏ SÖZ

"Türk dili və ədəbiyyatının tədris üsulu" adlı bu əsərimizin birinci qismi daha ziyadə birinci dərəcəli məktəblərin tədris sahələrinə məxsus məsələləri ehtiva etmişdir. Bunun üçün bu ikinci qisimdə ikinci dərəcə məktəblərin dil və ədəbiyyat məsələlərinə təxsis edildi. Birinci qisimdə olduğu kibi, bu qisimdə də, təbii, mövzumuza bağlı bütün məsələləri qavrayamadıq; əsasən buna çalışmadıq da. Bütün metodika və metodologiya məsələlərini bir əsərdə, neçə parçadan ibarət olursa-olsun, toplamaq, izah və təhlil etmək, əlbəttə, qabil olamaz.

Bu qisimdə daha ziyadə əsərimizə metodoloji xarakteri verməyə çalışdığımızı oxucu görəcəkdir. Ümumiyyətlə metodika – üsuli-tədris işinin metodolojiyə bağlı olmasından başqa, mətbuat və məktəblərimizdə bir-iki ildən bəri çox kəskin surətdə duyulmaqda olan ehtiyac da buna səbəb oldu. Əsərimizi bir çox əcnəbi lisanda yazılan əsərlərlə doldurmayaraq, yalnız bəzi mühümləri ilə iktifa etdik; bunun yerinə müəllimlərimizə daha ziyadə məlum olan rus dilindəki əsərləri aldıq. Bununla bərabər, oxucu hər hansı bəhsimizi öz qüvvəsilə işləmək və genişlətmək istədiyi təqdirdə lazım gələn rus və başqa əcnəbi biblioqrafi materialını burada tapa biləcəkdir.

Bir sözlə, əsərimizin ikinci qismi də, birincisi kibi, müəllim yalnız yardımçı olmaq arzusu ilə yazıldığından klassik və ensiklopedik bir əsər olmaq iddia və niyyətindən uzaqdır.

Türk-tatar ədəbiyyatında bu zamana qədər bu məsələlər haqqında nə qədər az şey yazıldığı ümumiyyətlə məlum olmaqla bərabər, əsərimiz mütaliə edildikdən sonra daha ziyadə meydana çıxacaqdır. Əsərin lüzumi və möhtəməl olan qiyməti də buradadır.

B.Çobanzadə
Bakı, 8 yanvar 1927-ci il

ƏDƏBİYYATIN MƏNŞƏ VƏ İNKİŞAFI

İbtidai xalqlarda şeir və sənət. Türk-tatarlarda ibtidai şeir – iş və sənət. İctimai təşkilatın ədəbiyyat və sənətə təsiri. Ədəbiyyatların bir-birinə təsiri.

Ədəbiyyatın, ümumiyyətlə gözəl sənətlərin mənşəyi haqqında əsaslı, elmi, doğru məlumat almadan əvvəl onun tədqiq və tədrisinə bağlı məsələlərə yanaşmaq, bunlar haqqında diqqətəlayiq fikir və mütaliələr ortaya qoymaq qabil deyildir.

Bu məsələ ətrafında zamanımız ictimaiyyatçılarının fikir və əqidələrini bəyan etməzdən əvvəl sənət və ədəbiyyatın ibtidai təşkilinə bir göz gəzdirmək lazım gəlir; ancaq bu sayədə, birinci baxışda qarışıq və mücərrəd kibi görünən nəzəriyyələr, mütaliələr, qarşımızda tamamilə konkret, açıq və qəti bir şəkil qazanırlar.

İbtidai xalqların və bu arada türk-tatar xalqlarının başlanğıc ədəbiyyatı haqqında bir çox dillərdə xatiri sayılacaq miqdarda material və tədqiqnamələr toplanmışdır.

İbtidai xalqların şeir və sənətlərilə təbiət və iş arasında vasitəsiz bir bağ bulunduğunu görməmək qabil deyildir.

Plexanov gözəl sənətlərin mənşəyindən bəhs edərkən bu cəhətə ayrıca işarət etmişdir: "İbtidai xalqların məişəti tədqiq edildikdə, tarixi materializmin "şüuru məişət doğurur"[1] düsturunu hər şeydən açıq və qəti surətdə isbat etmək və göstərmək mümkündür. Buna misal olaraq Büxerin **(Bücher)** "İş və ahəng" adlı mükəmməl əsərində gəldiyi nəticəni xatırlada bilirik. Büxer bu əsərində belə deyir: "Bən o nəticəyə gəldim ki, ibtidada iş, musiqi və şeir birlikdə bulunur və bərabər inkişaf edir. Bu üç ünsürün içində əsas iş olub, digər ikisi, yəni şeir və musiqi ikinci dərəcədə bir əhəmiyyətə malikdirlər".[2]

Burada söylənən fikirləri, ibtidai mədəniyyət tarixi mütəxəssislərinin əsərlərinə müraciət edərək, daha ziyadə açıq və qəti surətdə anlaya bilərik. İnsanlığın bu dövrünə, ibtidai başlanğıc mərtəbələrinə

[1] Марксист. метод исследования худож. произвед. слова. В.Д.Сперанский, Москва, 1925 г., стр.6.

[2] Bücher K. Arbeit und Rhytmus, 1899 (пер. "Новая Москва", 1923).

aid əsərləri ilə məşhur olan Şurts **(Шурц)**[3], Taylor **(Тайлор)**[4] kibi alimlərin əsərlərində bu xüsusda çox maraqlı materiallar vardır. Şurts bu materialları Avstraliya, Şimali və Cənubi Amerika, Afrika və Asiyanın ibtidai mədəniyyət dərəcəsində bulunan xalqları arasında dolaşmış olan yüzlərcə səyyahların əsərlərindən toplamışdır. Bunlardan mövzumuza doğrudan-doğruya aid olan bəziləri ilə oxucumuzu tanış etməliyik.[5]

Dili əczalarına ayırdığımız zaman qarşımıza damarlar çıxır ki, bunları daha ziyadə parçalamaq qabil deyildir. Bu damarlar hər şeydən ziyadə insanın fəaliyyəti ilə bağlı kibi görünür. Lüdviq Nuare bu xüsusda yazır ki, "yemək, qazımaq" kibi fikirləri ifadə edən sözlərlə "bağlamaq və yığmaq" fikirlərini anladan sözləri də almalıdır. Ən əski söz damarları insanın iş və çalışması ilə sıxı surətdə bağlıdır və iş zamanında çıxarılan bəsit, sadə səslərdən meydana gəlmişdir.

Bu məsələni daha dərin, daha ətraflı bir surətdə tədqiq etmiş olan başqa bir alim yuxarıda ismi keçən Karl Büxerdir. Bu adam bir çox qənaətverici misallarla göstərir ki, hər mədəni və ibtidai xalqda iş – bilxassə camaatla, el, birlik ilə yapılan iş – müəyyən bir gurultu və səda ilə uyğunlaşır və işçi şərqiləri də bu gurultudan meydana gəlir və eyni zamanda əczalarına ayrılmamış **(нечленораздельный)** dildən bugünkü mənasında əczalarına ayrılmış sərfi və yaxud nəhvi şəkillərinə malik dil doğur. Demək olar ki, Şellinqin: "İbtidada şeir dil içərisində var idi", – deməsi bu surətlə bir daha təsdiq olunur. Hər hansı bir səs, işlə bərabər çıxarılmaq adəti əldə edildikdən sonra eyni səsin dəyişmiş şəkillərilə işin nəticələrini və alətlərini də öyrənmək, yəni onlar üçün də adlar meydana gətirmək asan olur.

Nuarenin bu fikirləri başqa yollar ilə eyni nəticəyə gəlmiş olan, müddəqiqlərin, mütəfəkkirlərin nöqteyi-nəzərlərilə qüvvətlənir. Məsələn, Vund[t] **(Вундт)** xəbəri, yəni feli dilin birinci ünsürlərindən, ibtidai damarlarından sayır. Eyni surətlə Adam Smit **(Адам Смит)** də

[3] История первобытной культуры. Генрих Шурц, Москва, 1923.

[4] Антропология. Эд. Тайлор, 1898, С.Петербург; Первобытная культура, 1896 г.

[5] Sənətin bu nöqteyi-nəzərdən tədqiqi xüsusunda Q.Plexanovun "İbtidai sənətin ictimai kökləri" **("Социальные корни первобытного искусства". Сборник "Искусство", издание "Новая Москва", 1922 г., стр. 60-100)** adlı məqaləsini gözdən keçirməlidir. Eyni surətlə V.Qauzenşteynin **(В.Гаузенштейн)** "Sənət və cəmiyyət" **("Искусство и общество")** adlı əsəri də müqayisə yolu ilə oxunduğu zaman tövsiyə olunacaq əsərlərdəndir **(Издание "Новая Москва" 1923 г.)**.

dildə birinci sözlərin fellər olduğunu söyləyir. Bugünkü ibtidai xalqlarda daha bu kibi hallara çox rast gəlirik. Karl Fundenşteyn Şimali Şinqu **(Bingu)** xalqları (hindlilər) haqqında yazır ki: "Bunların dilində sözləri bir-birinə qarışdırmamaq qabil deyil, çünki şeylərin adı soruldüğu zaman bunlar daima onun niyə yarandığını söyləməklə cavab verirlər". Madam ki, dil insani işin ünsürlərindən, tamamlayıcılarından birisi olaraq meydana gəlir, o halda eyni dil mədəniyyətin tərkibinə girən mühüm parçalardan birisidir; çünki hər dürlü mədəniyyət iş nəticəsidir".[6] Şurtsun kitabında əski və ibtidai xalqların ədəbiyyatlarına aid olaraq toplanan nümunələr içində yuxarıdakı fikirləri kafi dərəcədə əsaslandıracaq parçalar tapırıq. Məsələn, Bruqş **(Brygs)** tərəfindən söylənilən Qədim Misir şərqisi bu cəhətdən çox maraqlıdır. Bu şərqini qədim misirlilər xırman vaxtında söyləyirlərmiş. Burada yalnız məalını veririk:

Siz özünüz üçün üyüdürsünüz,
Siz özünüz üçün üyüdürsünüz,
Siz öküzlər,
Siz özünüz üçün üyüdürsünüz,
Siz özünüz üçün üyüdürsünüz,
Buğda özünüz üçün,
Buğda əfəndiləriniz üçün.[7]

Eyni kitabda maqlardan alınaraq zikr olunan "Alman künyəsi", yerlilərin "saqu" işlərkən söylədikləri şərqi də, yuxarıdakı Qədim Misir şərqisinə çox bənzəyir:

Bom, bom, marare,	Saqu, saqu yapırlar,
Marare, tamole,	Yapırlar adamlar,
Mara, marare,	Yapırlar, yapırlar,
Bom, bom, marare,	Saqu, saqu yapırlar,
Marare, marare,	Yapırlar, yapırlar,
Bom, bom, marare...	Saqu, saqu yapırlar...

Edvard Taylorun əsərlərində də bu misallar və fikirlərin təyid və təqviyə olunduğunu görürük: "Mədəniyyətin aşağı dərəcəsində tans

[6] "История первоб. культуры", стр.533-34.
[7] Yenə orada, səh. 586.

və tamaşa oyunları bir arada bulunur. Şimali Amerika "köpək oyunu", "ayı tansı" bu heyvanların bütün təbiət və xasiyyətlərini, səslərini, yürüşlərini, ovçulara hücumlarını... təsvir etmək dolayısilə təqlidi tanslardandır. Eyni surətlə ovçuluq və uruşma – cəng, vəhşilərlə tans və başqa sənət mövzuları verir".[8] Taylorun kitabında gərək ibtidai xalqların oyunları və gərəksə cəng və iş vaxtlarındakı şərqiləri haqqında söylənən fikirlər Şurtsun verdiyi məlumatı, söylədiyimiz kibi, tamamlar, lakin onu zəiflətməz. Bu gün nisbətən yüksək mədəniyyət səviyyəsindəki xalqlardan bir çoxunun, məsələn, ərəblər, farslar, hindlilərin birinci dövr ədəbiyyatı da yuxarıda söylədiklərimizə dəlil və misal ola bilər.

Böylə iş ilə bağlı şərqiləri türk-tatar xalqlarında da görürük. Xalq şərqilərinin çox bir qismi xırman basmaq, buğda üyütmək, yun əyirmək, xalı toxumaq, yekə evlər qurmaq... kibi camaatla yapılan işlər zamanında söylənən şeirlərdir. Təbii, türk-tatar şeri bu gün artıq ümumiyyətlə ibtidai şeirlərdən, heç olmazsa, mündəricəsi etibarilə uzaqlaşmış bulunduğundan belə toplu iş zamanlarında söylənən şərqilərin mövzusu, işin özünə deyil, bəlkə, başqa həyati nöqtələrə aid ola bilər.

Buraya qədər göstərdiyimiz misallar yalnız şeir və ədəbiyyatın mənşəyinə aid olub, bir kərə meydana gəldikdən sonra onun ilərіyə doğru necə inkişaf etdiyini bizə bildirəməz. Bilxassə cəmiyyətin istehsali əsasları daha ziyadə ilərіləyərək, ortaya cəmiyyətin yüksək sinifləri çıxdıqdan sonra bir çoxları, doğrudan-doğruya istehsal əməliyyələri ilə bağlı olmayan bu siniflərin ədəbiyyatında istehsal və iqtisadi həyat təsirlərinin (inikaslarının) tapılıb göstəriləməyəcəyini zənn edərlər.

Bununla bərabər, ədəbi hadisələri, hər dövründə, bir çoxlarının yanlış olaraq anladığı kibi, doğrudan-doğruya iqtisadi həyatla müvazi olaraq götürmək və onun cürbəcür təzahürlərilə izaha qalxışmaq heç də doğru deyildir. Bu xüsusda Plexanov deyir ki: "Heç şübhəsiz, belə hallarda – siniflərin ədəbiyyatları meydana gəldiyi zaman – məişət ilə şüur arasındakı bağı **(связь между бытием и сознанием)** tapıb çıxarmaq o qədər asan deyildir. Burada iş ilə sənətin, ədəbiyyatın arasına bir taqım aralıq **(промежуточный)** ikinci dərəcədə mərhələ və təbəqələr girər ki, çox dəfə tədqiqlər bunlara saplanıb qalırlar. Bu surətlə sənət və ədəbiyyat eyni surətlə bütün mədəniyyət – həyat və məişətin inikasından ibarətdir, – demək doğru bir fikir bəyan etmək isə də, qəti

[8] Эд.Тайлор. Антропология, стр.224, изд. 1924 г., Петроград.

bir şey söyləmək sayılamaz. Bu həyatın sənət və ədəbiyyatda nə surətlə əks etdiyini bilmək üçün onun – həyatın mexanizmasını **(механизм)** bilmək, öyrənmək lazım gəlir. Mədəni xalqlarda bu mexanizmanın ən mühüm purjınlarından, ünsürlərindən birisi siniflərin öz ara mübarizə və mücadiləleridir. Yalnız siniflər mübarizəsini və bir mübarizənin cürbəcür şəkillərini göz önündə tutmaq sayəsində mədəni xalqların mənəvi mədəniyyətini izah etmək qabil olur.[9] Fridrix Engels bu xüsusda, deyə bilərik, daha açıq və daha qəti fikirlər meydana qoyur ki, ilərideki nəticələrə əsas ola bilməsi üçün Engelsin fikirlərini burada zikr etmədən keçməyəlim: "Tarixə materialistik anlayışa görə yanaşdıqda, tarixi hadisələrdə nəticə etibarilə təyinedici qüvvənin **(momentin)** istehsal və insanların artıb törəməsi olduğu görülür. Nə mən, nə də Marks bundan artıq bir şey söyləyəmədik. Əgər birisi bu qanunu pozub, iqtisadiyyatın yeganə təyinedici bir qüvvə olduğunu söylərsə, bu iqrarını heç bir şey söyləməyən mücərrəd, mənasız bir cümlə halına döndərmiş olur. İqtisadi vəziyyət əsasdır, lakin tarixi mübarizənin gedişinə və onun dürlü şəkillər almasına başlıca təsir edən amillər binai-ictimainin üstqurumundakı **(надстройка)** müxtəlif momentlərdir: sinfi mübarizənin siyasi şəkilləri və nəticələri-qalib gələn sinif tərəfindən tərtib edilən qanuni-əsasilər, hüquqi şəkillər, siyasi, hüquqi nəzəriyyələr, dini əqidələr və bunların həmin sistemlər halına gəlməsi kibi.

Burada bütün bu nöqtələrin, amillərin qarşılıqlı münasibətləri, birbirlərinə təsiri qarşımıza çıxır ki, iqtisadi cərəyan bu saysız təsadüflər kütləsi, yığını içindən özünə yol açır. Əgər belə olmasa idi, bu nəzəriyyəni hər hansı tarixi dövrə tətbiq etmək riyaziyyatda bir dərəcəli müadilə həllindən daha asan bir şey olurdu. Tariximizi biz özümüz yapırıq, lakin qayət qəti və müəyyən qeydlər və şərtlər dairəsi içində bulunaraq yapırıq. Bu şərtlər arasında nəticə etibarilə iqtisadi şərtlər qətedicidirlər. Lakin siyasi şərtlər və sairə, hətta insanların başlarında yaşayan ənənələr – tradisyonlar, qəti olmasa da, hər halda mühüm rol oynayırlar...

Zənn etmirəm ki, hər hankı bir adam gülünc olmaqsızın, keçmişdə və bu gün bir çox xırda alman dövlətlərinin varlığını və yaxud yuxarı alman **(верхний немецкий)** dillərindəki saitlər dəyişməsini ki, bu surətlə Almaniya dil cəhətindən ikiyə bölünür, doğrudan-doğruya

[9] Плеханов. Соч., т. 14. Французск. драм. лит. и фр. живопись 18-го века с точки зрения социологии.

iqtisadi amillərlə izah edə bilsin... Marks və mən gənc marksistlərin iqtisadi cəhətə lüzumundan ziyadə əhəmiyyət vermələrində bir dərəcəyə qədər məsuluz".[10]

Hər dövrdə hakim sinif və onun idealı budur, üzərinə öz boyasını, öz möhürünü basır. Bu surətlə də hər dövrün ədəbiyyatında bu əsas nöqtəni qavramaq lazım gəlir. Hər dövrdə müəyyən bir din, əsnaf, tüccar, mütləqiyyət, böyük və yaxud kiçik burjuaziya hakimiyyətdə bulunduğundan sənətdə də bu sinfin idealı əks edir. Həmin bunun üçündür ki, ümumi, mütləq sənət mövcud olmayıb, yalnız sinfi ədəbiyyat və sinfi sənət vardır.

E.Fuks bunun üçün Avropa sənətinin müxtəlif dövrlərində bulunan bu xarakteristik cəhəti bu surətlə təsrif edir: "Orta əsrlər feodal dövlətində şevalye və onun qüvvət, cəsarət kibi sifətləri, XVI əsrdə bütün dünya üzərində hökm sürən tüccar və durbinlik, düşüncəlilik kibi cizgiləri şəxsi hakimiyyət, mütləqiyyət dövründə əzəmət – Allaha bənzəyiş və qeyri-qabil vüsul olmaq arzusu bu dövrlərin ədəbiyyatlarını başqa dövrlərdən ayırır".[11]

Türklərin ilk ədəbi əsərləri sayılan Orxon kitabələrinə baxacaq olursaq, orada həqiqətən müəyyən dövrün damğasını taparıq. Məlum olduğu üzrə, türk xalqı bu zamanda yalnız köçəbələrdən ibarət olmayıb, torpağı suvarmaq və mərkəz – siyasi və iqtisadi – xidmətini görən şəhərciklər meydana gətirmək, nəhayət, ticarətlə məşğul olmaq iqtidarını qazanmış idilər. Qərbi tokyoların Çin, Bizans və İran ilə münasibətləri bunların hətta dünya ticarəti meydanında da özlərinə sağlam bir mövqe təmin etmək istədiklərini çox gözəl göstərir. Lakin Orxon kitabələrində, yuxarıda qeyd etdiyimiz kibi, təbir caizsə, dövrün ruhunu bizə göstərən: "Üstdə, mai səma altda yağız yer yarıldıqda bunlar arasında insan oğlu yaradılmış, insan oğlunun üstündə mənim əcdadım Bumin xaqan, İstəmi xaqan yaradılmış..."[12] yaxud "türk xalqının adı və şanı yox olmasın deyə, ol Səma özümi xaqan etdi, taxta oturtdu"[13] kibi parçaları aldığımız zaman bu dövrdə xaqanların özlərini, başqa bir çox ölkələrdə olduğu kibi, səma-tanrı tərəfindən mövqei-iqtidara gətirilmiş adamlar saydıqları görülür. Eyni kitabələrin müxtəlif yerlərində

[10] Фр.Энгельс. Письмо к Иосифу Блоху. Лондон, 1890 г.
[11] Марксистский метод исслед. художеств. произведений слова, стр.27.
[12] Inscriptions de l'Orkhon. Vilh. Thomsen, 1896, F II, Iioraison, p. 97.
[13] Yeno orada, soh. 106.

rast gəldiyimiz şadlar, bəylər, xaqan və tarxanlar arasındakı qovğa və bunların çox zaman mütləq və mərkəzi xaqana qarşı çıxışlarda bulunmaları bu dövrdəki ədəbiyyatın xarakteristikasını təşkil edir. Bu kitabələrin Tomsen, Bloşe kibi mütəxəssislərin çox haqlı olaraq qeyd etdikləri kibi, böyükcə bir milli dastanın parçaları olduğuna dəlalət edən ənənəvi bir şəklə malik cümlələri, məsələn:

"Qərbdə Dəmirqapıya, Şərqdə Qadir kan ormanına qədər yaşlıların başını əkdirdik, dizlilərin dizlərini çökdürdük", yaxud: "Elliləri elsiz, kağanlıları kağansız etdik", nəhayət: "Yer suları sahibsiz qalmasın" – surətində təkrar edən parçaları ilə bu kitabələr qara kamığdan ziyadə Bilgə kağan və şad, yabqu, bəylərin ədəbiyyatı olur.

Eyni cizgiləri müəllifi və yaxud başlıca siması olan Dədə Qorqudun[14] hansı əsr və necə mühitdə yaşadığı, hətta həqiqi, yoxsa əfsanəvimi olduğu haqqında qəti bir şey söylənəməyən "Kitabi-Dədə Qorqud əla lisani-taifei-oğuzan"da da tapırıq. Burada isimləri keçən Dirsə xan, Dəli Domrul, Qazan bəy, Uşun Qoca oğlu Səgrək, bir sözlə, Daş oğuz və İç oğuz bəyləri, türk-oğuz dərəbəyləri burada nəsr, nəzm şəklində rast gəldiyimiz parçalar bizim dərəbəylik dövrümüzün ədəbi şəkil və ruhunu təmsil edir.

[14] Dədə Qorqud adam adıdır. Dədə Qorqud bir kitab yazmışdır ki, adı "Kitabi-Dədə Qorqud"dur. Bu əsərin yeganə nüsxəsi Almaniyada, Drezden kütübxanasında bulunmaqdadır. 1894-cü ildə V.V.Bartold bu kitabın ehtiva etdiyi bəzi hekayələri **"Записки восточного отделения русск. археолог. общ-ва."** adlı məcmuədə nəşr etdi. 1909-cu ildə yenə Bartold eyni məcmuədə **"Еще известие о "Коркуде"** namilə digər bir məqalə nəşr etdi. Hicri 1332 (1912)-ci ildə Kəlisli müəllim Rüfət tərəfindən "Kitabi-Dədə Qorqud əla lisani-taifei-oğuzan" namilə İstanbulda nəşr edildi. 1925-ci ildə nəşr edilən "Türkiyyat məcmuəsi"ndə Əbdülqadir F.Süleymanın "Kitabi-Dədə Qorqud" haqqında adlı olduqca maraqlı bir məqaləsi nəşr edilmişdir. Bu məqalədə türkmənlər, azərbaycanlılar, qazaxlar və başqırdlar arasına yayılmış olan "Dədə Qorqud" mənqəbələrinə aid qazax xalq dastanlarından bəzi maraqlı parçaları toplamışdır.

Bizcə, dərəbəylik ədəbiyyatının bir nümunəsi olan bu əsərin, daha doğrusu, əsərlər, yaxud hekayələr məcmuəsinin adı, şəkilləri və ideoloji mündəricəsi nöqteyi-nəzərindən tədqiqi çox arzu olunur.

KÖPRÜLÜZADƏ MƏHƏMMƏD FUAD ƏSKİ TÜRK ƏDƏBİYYATI HAQQINDA

"Məhdud, bəsit, ibtidai olmaqla bərabər, türklərin bu ilk dövrdəki ədəbi məhsulları bütün bir qövmün ruhundan qopur, onun kədərlərini, sevinclərini səmimiyyətlə tərənnüm edir. Xaqandan ən əhəmiyyətsiz nəfərə qədər bütün fərdlər o nəğmələrdə özünü duyurdu..."[15] – deməsi, əcəba, həqiqət hala nə qədər uyğundur? Məlum olduğu üzrə, Orxon kitabələrində xaqanın özü xalqdan və bəylərdən şikayət edir; bütün Orxon kitabələri, bunların, xalqın və bəylərin xaqana qarşı üsyanı ilə doludur. Əcəba, bu münasibətlər öz ədəbi inikaslarını doğurmamışdımı? Xalq və hətta bəylər Orxon kitabələrində gördüyümüz xaqanların mütləqiyyət siyasətinə və üluhiyyət ilə birləşən mənşələrinə inanırdımı? Tarix bizə göstərir ki, xeyr, çox dəfə inanmırdı və ona üsyan, hətta onu qətl etməkdən, bıçaq sümüyə dayandığı zamanlarda geri durmurdu. Xalqın özünəməxsus qeyri-dini və qeyri-rəsmi ədəbiyyatı olduğuna şübhə yox. Lakin bu ədəbiyyat xaqanlara, Orxon kitabələrinə, kutadqu biliklərə qədər soxula bilmir, orada izlər buraxa bilmirdi. Necə ki, Mahmud əl-Kaşqarinin "Divanü-lüğatit türk"ündə dərc olunan lisani və ədəbi parçalar daha ziyadə xəlqi olması etibarilə Bilgə kağanların əli ilə dikilən tokyo abidələrindən, Buğra xan üçün yazılan "Kutadqu bilik"dən və yaxud dərəbəylərin saray şairi olan Dədə Qorqud hekayələrini nəql edən və məchul şair və yaxud hekayəçidən mal, ruh, xülasə, ideolojicə tamamilə ayrılır. Heç şübhəsiz, bəhs etdiyimiz ədəbiyyat, yuxarıda söylədiklərimiz kibi, dövrün hakim sinfinə məxsus, klassik, nümunəvi, yüksək ədəbiyyat idi və ümumiyyətlə xalq ədəbiyyatı üzərinə öz damğasını qoymuşdu. Bununla bərabər, bu ədəbiyyatı ("qövmi şəxsiyyət"in mövcudiyyətini göstərən)[16] yekparə və bəsit, ümumi ədəbiyyat olaraq almaq heç bir surətlə qəbul olamaz. Köprülüzadə özü də eyni əsərinin başqa səhifəsində: "Bizim bildiyimizə görə, müəxxər dövrlərdə ozan ilə şaman, yəni ruhani ilə şair bir-birindən ayrılmışdı. Fəqət, bu ayrılma o vaxtlara nisbətən daha çox yeni olduğu cəhətlə hər ikisi də əski müştərək dövrlərin izlərini hələ daşıyırlardı",[17] – fikirlərini dərmiyan edir.

[15] Türk ədəbiyyatı tarixi, İstanbul, 1920, səh. 96.
[16] Yenə orada.
[17] Yenə orada, səh. 95.

Altun ordu dövründə şimal türklərində[18] və səlcuq və Osmanlı dövrlərində cənub türklərində[19] daha açıq cizgilərlə gördüyümüz bu ədəbi dairələr, heç şübhəsiz, ədəbiyyatımızın Orxon və "Kutadqu bilik" dövrlərində, yəni altıncı və bilxassə on birinci əsrlərdə də mövcud idi. İləridə ədəbiyyatın dövrlərə ayrılmasından bəhs edərkən təkrar dönmək niyyətilə oxucumuza yalnız bu qədər bir nəticəni təqdim etməklə iktifa edəlim. Müxtəlif siniflərin, yaxud cəmiyyət təbəqələrinin meydana çıxması ilə bunların öz ədəbi yaradıcılıqları da başlar, lakin hakim sinfin özü kibi, ədəbiyyatı da bu dövrü təmsil edir. Demək ki, iki məfhumu, ümumi ədəbiyyat ilə, dövrün təmsilçi xarakteristik ədəbiyyatını bir-birindən ayırmaq lazımdır. Bu bəhsimizi bitirmədən əvvəl bir məmləkət ədəbiyyatının digər birinə təsiri haqqında da bir neçə söz söyləməliyik. Çünki ədəbi varlığın inkişafında bu qarşılıqlı təsirin çox böyük əhəmiyyəti vardır. Plexanov bu məsələ haqqında bu fikirləri bəyan edir: "Bir məmləkət ədəbiyyatının digər məmləkətinkinə təsiri bu məmləkətlərin ictimai münasibətlərinə bağlıdır. Əgər ictimai münasibətlərdə bənzəyiş, müşabihət yoxsa, bu təsir də sıfra, heçə müsavi olur. Məsələn, Afrika zənciləri üzərlərində Avropa ədəbiyyatının zərrə qədər təsiri görülmür. Əgər bir xalq geridə bulunduğundan digərinə nə şəkil və nə mündəricə etibarilə heç bir şey verməzsə, bu təsir birtərəflidir, – demək olur. Misal [üçün], fransız ədəbiyyatı keçmiş əsrdə rus ədəbiyyatına təsir etdi, halbuki rus ədəbiyyatından heç bir təsir almadı. Əgər ədəbi təsir altına girən xalq təsir edən xalq qədər mədəniyyətə sahib isə, hər ikisi də bir-birinin təsiri altına düşə bilir və bu surətlə ədəbi mübadilə, qarşılıqlı təsir meydana gəlir. Misal [üçün], fransız ədəbiyyatı ingilis ədəbiyyatına təsir etdi və öz sırasında, ingilis ədəbiyyatının təsiri altına düşdü".[20]

Demək ki, bir şair, yaxud bir ədib, filosofun digəri üzərinə təsiri ədəbi, fəlsəfi məsələ olmaqdan ziyadə, ictimai bir məsələdir ki, mahiyyət və səbəbiyyəti ancaq bütün bir əsr və bu əsrdə təsir alan və təsir edən tərəfin ictimai vəziyyəti, yəni mənsub olduqları sinfin cürbəcür halları – iqtisadi, siyasi, ədəbi məziyyələri – bu təqlid və yaxud mübadilədə hesaba alınmaq lazım gəlir.

[18] Tatar ədəbiyyatı tarixi (feodalizm dövrü). Qali Rəhim, A.Qaziz. Qazan, 1925.

[19] Kitabi-Dədə Qorqud əla lisani-taifei-oğuzan.

[20] "К вопросу о развитии монистического взгляда на историю. Г.В.Плеханов (В.Бельтов), Москва, 1923, стр. 157-158.

Türk-tatar xalqları Çin xalqları ilə iqtisadi münasibətdə bulunduğu zaman ədəbiyyatımıza da ənənələri və bəlkə də, mündəricə və şəkli ilə Çin ədəbiyyatının təsiri olsa gərəkdir. Necə ki, şamanizm əqidələrində və bunun ətrafında təşəkkül edən ədəbiyyatda yazılı və yazısız cinsləri də – bu müştərək ünsürləri bulub çıxarmaq qabildir. Eyni surətlə əski İran mədəniyyəti və ədəbiyyatının da təsirlərini fərz etmək və bəzilərini tapıb göstərmək bu gün də mümkündür.[21]

Ərəb və fars mədəniyyətləri, daha doğrusu, hakim sinifləri ilə türk-tatar xalqlarının hakim sinifləri, saraylar münasibətə girişdikdən sonra yapılan ədəbi təqlidlər də bu əsas ilə izah edilməlidir. Zamanımızda türk-tatar xalqlarının, bunlardan bilxassə Anadolu, Qazan, Azərbaycan, Krım ədəbiyyatları daha ziyadə Avropa ədəbiyyatının təsiri altına düşür. İqtisadi-ictimai ömrümüzün başqa meydanlarını gözdən keçirəcək olursaq, eyni təsirin burada özünü göstərdiyini fərq etməmək qabil deyildir. Bu günə qədər ədəbiyyatımız Avropa ədəbiyyatından aldıqlarını geri çevirəməmişdir. Çünki hakim siniflərimizin feodal, xırda burjua-mədəni səviyyəsi hələ çox aşağıda idi.

Türk-tatar xalq ədəbiyyatı və yaxud xəlqi ədəbiyyatı başqa xalqların ədəbiyyatlarına təsirdən geri durmamışdır. Türk xalq ədəbiyyatının erməni, rus, rumın, macar, fars... xalq ədəbiyyatları üzərinə təsiri bu qəbildəndir.[22] Çünki İntibah, renessans dövründə, bir çox zamanlar

[21] Bu xüsusda Edqar Bloşenin "Mazdeizm və türklər", Ziya Göyalpın "Türklərdə ictimai təşkilat" (birinci əsər "Milli tətəbbölər" məcmuəsinin birinci cildi, 1331-ci ildə, ikincisi eyni məcmuə, sayı 31-də) bulunur.

[22] Bu məsələ son dərəcə mühüm olmaqla bərabər, imdiyə qədər gərəyi kibi tədqiq olunmamışdır. Macar dili və ədəbiyyatı üzərinə olan təsirlər az-çox macar ədəbiyyatı tədqiqçiləri tərəfindən göstərilmiş, sözlər isə macar lisançısı Zoltan Qumbots tərəfindən "Macarcadakı bulqar-türk sözləri" adındakı əsərində toplanmışdır. Erməni ədəbiyyatına türk ədəbiyyatının təsiri Köprülüzadə Fuad tərəfindən tədqiq olunmuşdur. Fars ədəbiyyatına da türk ədəbiyyatının təsiri bir çox cəhətdən olmuş isə də, imdiyə qədər bu xüsusda əsaslı bir əsər meydana qoyulmamışdır. Professor Kovalski rübainin belə iranilərə Orta Asiya türklərindən keçdiyini iddia etməkdədir. Slav-bulqar dilinə türk dilinin təsiri haqqında bir çox səthi və yanlış yerləri olmaqla bərabər, maraqlı bir silsilə məqalə bolqar alimlərindən İvan Manulov tərəfindən "Türk yurdu" məcmuəsində nəşr edilmişdir. Rus dilində çox bol olan türk sözləri və ədəbi iqtibaslar haqqında təbii xalq ədəbiyyatı sahəsində cüzi tədqiqlər, bizim bildiyimizə görə, çox azdır. Yalnız Korş ilə Melioranski arasında olduqca müfəssəl münaqişələrə səbəb olan rusların bəlli epik əsərlərindən **"Слово о полку Игореве"**dəki türk ünsürlərinə dair olan ədəbiyyatı göstərə bilərik. Rumın, yeni yunan, ərəb və başqa belə uzun müddətlər Avropa və Asiyada türklərin qonşuluğunda yaşayan xalqların ədəbiyyatlarında türk-tatar xalq ədəbiyyatının buraxması möhtəməl olan izlər haqqında bəlli-başlı tədqiqlər hələ meydana gəlməmişdir.

sonra da, məsələn, on yeddinci əsrin başlarına qədər xalqımız iqtisadi əsaslarında irəli gələn qismində kəndli olması dolayısilə ictimai quruluşunda hənuz orta əsrlər həyat və aləmindən çıxmayan qonşularından o qədər geridə qalmış deyil idi. Ziraətin, kənd təsərrüfatının heyvana baxmaq, əkinçilik... kibi bir çox meydanlarında qonşularının bəzilərindən üstün idilər. Bununla bərabər, türk xalqlarının iki böyük budağı, Orta Asiya və Kiçik Asiya türkləri arasında bu ədəbi mübadiləni daha canlı misallar ilə bilirik. Bu vaxtlar Yəsəvi, Füzuli, Əlişir Nəvai... kibi böyük şairlər iki tərəfin də şairləri və ədibləri sayılırdı. Bunlar arasındakı münasibətin bir cəhəti müəyyən bir sahə ətrafında çox gözəl tədqiq olunmuşdur.[23] Bu münasibətin yalnız ədəbi və fikri şəklində qalmayaraq, ilərıdə bu ədəbi mübadilənin təməlində bulunan digər ictimai sahələrdəki yəqinliyi tapıb göstərmək lazım gəlir.

Köprülüzadə Fuad qarşılıqlı təsirin əsas səbəbi olaraq, iki tərəfdə, yəni Orta və Kiçik Asiyada "xalq ədəbiyyatının əsrlərdən bəri adətən sabit qalması və xalq zövqünün böyük bir təhəvvülə uğramaması"nı göstərir.[24] Təbii, ədəbi nöqteyi-nəzərdən Yunus İmrə – Əhməd Yəsəvi arasındakı qarşılıqlı təsiri izah etməyə kafi olan bu hökm, digər tərəfdən, bu sabitqalmanın daha dərin səbəbləri ilə hər iki məmləkət ictimai quruluşuna aid izahatla tamamlanmaq lazım gəlir.

Eyni surətlə Orta Asiya, Kiçik Asiya saray dövlətlərinin birbirlərilə olan münasibətlərini də bu nöqteyi-nəzərdən izah və təfsir etməyə çalışmalıdır. Təbii, bunu söyləmək asandır. Lakin ədəbiyyat və tarix labirintinə girildigi kibi bu yolda bir addım atmaq üçün onlarca illər, bəlkə, yetişməz. Buradan, bu sözümüzdən bununla bərabər çıxan iki mühüm nəticə vardır ki, hər halda ədəbiyyat müəllimi bunları göz önündə tutmaq məcburiyyətindədir:

1) Ədəbi mübadilələrin altında daima ictimai şərtlərin, ictimai həyatın bir-birilərinə təmas və təsirləri vardır.

2) Ədəbiyyatı tarixdən, ictimaiyyat və hətta iqtisadiyyatdan mücərrəd, ayrı olaraq almaq qabil deyildir.

Aşağıdakı bəhslərimiz bu cəhətləri daha açıq bir surətdə meydana qoyacaqdır.

[23] Türk ədəbiyyatında ilk mütəsəvviflər. Köprülüzadə Məhəmməd Fuad, İstanbul, 1919.

[24] Yenə orada, 372-ci səhifə.

ŞƏKİL VƏ MÜNDƏRİCƏ

Şəkil və məzmunun bir-biri ilə əlaqəsi. Ədəbi tədqiqdə şəkil və məzmunu bir-birindən ayırmaq mümkünmüdür? Şəkil və məzmuna ictimai siniflərin təsiri. Şəkil və yaxud məzmunun daha ziyadə əhəmiyyət qazanmasındakı səbəblər. Türk-tatar ədəbiyyatında şəkil və məzmun məsələsi

Şəkil və məzmunun biri-birilə əlaqəsi və bədii əsərlərdəki rolu haqqında uzun zamanlardan bəri ədəbiyyat nəzəriyyəçiləri arasında daimi və atəşli münaqişələr olmaqdadır. Bu gün də məsələ lazımi qədər həll edilmiş deyildir. Bu məsələ ətrafındakı fikirlərin başqa-başqa olduğundan şəkilçilik (formalizm), futurizm, ifadəçilik (ekspressionizm) və qeyri bu kibi bədii və ədəbi məsləklər doğmuşdur.

Hər hansı bir dövrdə meydana gəlmiş olan bədii, yaxud ədəbi əsəri alacaq olursaq, bu əsər üzərində iki sual qarşısında bulunuruq: müəllif, yaxud sənətkar nə verir? Nə söyləyir? Necə verir? Necə söyləyir? Haman bunlardan "nə" sualına alacağımız cavab məzmuna, "necə" sualına alacağımız cavab da məzkur əsərin şəklinə aid olur.

Burada "ədəbi əsər"in mahiyyətini nəzəri-etibara almaq lazım gəlir. Bu məsələ üzərindən yazılmış olan yüzlərcə fəlsəfi əsərlər işi daha ziyadə qarışdırmaqdan başqa bir şey etməmişlərdir. "İcadçı xəyal", "düha", "yaradıcılıq" haqqında müfəssəl əsərlər meydana gətirən Ten, Rebu, Lazurski, Yevlaxov kibi alimlərdən sonra da bu xüsusda hər kəsi qane edəcək bir formul vermək imkanından məhrumuq.

Bizim bu məsələyə baxışımız, birinci bəhsdə olduğu kibi, müəyyən ictimaiyyatçıların nöqteyi-nəzərindən olacaqdır və zamanilə, bizim etiqadımızca, təbiiyyat və ruhiyyat elmlərinə daha ziyadə yaxın və uyğun olan bu fikirlər, şübhəsiz, digərlərinə üstün gələcəkdir.

İnsan xaricdə bulunan hər hansı bir maddəni necə tanıyır? Təcrübi psixolojinin bizə öyrətməsinə görə, əvvəla o şeyin müxtəlif xassələrimiz tərəfindən tanınan rəng, qoxu, qatılıq, yumşaqlıq, uzunluq, qısalıq... kibi vəsfləri, sifətləri birbəbir, cürbəcür xassələrimiz – basirə-sameə-lamisə... – vasitəsilə zehnimizdə yerləşir. Bu vəsflərin hər birinə ayrıca "intiba" **(impression)** deyilir. Daha sonra bu intibalar zehnimizdə birləşərək, o şeyin təsəvvürünü **(reprezentation)** meydana gətirirlər.

Xaricdən aldığımız intiba və təsəvvürlərdən bu surətlə daxildə, damağımızda hüsula gələn şəkil, surət **(образ)**, xaricdəki maddənin özü, bəzilərinin zənn etdiyi kibi, bu şəkli yalnız basirəvi, gözəgörünən şəkil saymaq da doğru deyildir (əsasən "şəkilçilik" təbir olunan mübaliğəçi cərəyanın ən böyük qüsuru da buradadır). Bu şəkil hər şeydən artıq sözdə, sözün də yalnız məntiqi cəhətində deyil, bəlkə, daha artıq onun həyəcani, hissi təsirində, ahəng, vəzn kibi gizli nöqtələrində özünü göstərir. Bədii, şeri şəklin bizim üçün əhəmiyyəti özündə deyil, bəlkə, daha artıq olduğu şeyləri, maddələri canlı və təsirli yapmasındadır.

Bundan çox əvvəl Gete, Belinski, Turgenev kibi sənət və şerin ustadları sənətkarın başlıca rolunu həyatda, təbiətdə gördükləri parçaparça şeyləri, cürbəcür təsadüfləri birləşdirərək ümumiyə, tipə keçirilməsində tapmışlar. Bunun üçün sənət əsərlərində rast gəldiyimiz şəkillər və şəxsiyyətlər ümumi, tipikdirlər **(типический)**. Bununla bərabər, bu tipləri elmdə, bilxassə təbiiyyatda rast gəldiyimiz şəxsi təklik xüsusiyyətlərindən məhrum, mücərrəd cinslər və növlər zənn etmək və yaxud riyaziyyat düsturlarına bənzətmək doğru olmaz. Bunlar ümumi olmaqla bərabər, canlı və fərdlərin bütün konkret boya və əlamətlərini yüklənən şəkillərdir. Odur ki, sənətin və bu arada ədəbiyyatın qiymətli xüsusiyyətlərindən birisi də bu ümumi ilə xüsusini, cinsi ilə şəxsini birləşdirə bilməsidir. Bu surətlədir ki, sənət və ədəbiyyat, bir tərəfindən, doğrudan-doğruya həyatla, digər tərəfindən, elmlərlə, ümumiyyətlə insanın yüksək damağı, zehni məhsullarilə birləşir, təmasa gəlir.

Bir ədəbi əsərdə iki cəhət vardır: zehni **(интеллектуальн.)**, həyəcani **(эмоциональн.)**. Ədəbi əsərin bunun üçün mündəricəsi nə qədər qüvvətli, nə qədər maraqlı, bu əsərin ehtiva etdiyi həyəcani nöqtələr nə qədər dərin və kəskin olursa, əsər də o nisbətdə qiymətli və təsirli olur. Belə bir əsərin mövzusu ən xəfif məzacdan ən ciddi və ictimai məsələlərə qədər dəyişə bilir. Hər hansı bir əsərin şəkli ilə mündəricəsini bir-birindən ayırmaq mümkündür. Lakin bu surətlə əsərin siması dəyişir və yapacağı təsir heçə enir. Bununla bərabər, məzkur əsər mövzuca az zehni və həqiqidirsə, belə şəklə və mündəricəyə ayırmaqdan daha artıq sınıq düşər. Çünki mənzum əsərin mövzusu fəqir də olsa, yapacağı təsir onun ahəngi, musiqisi ilə olduğu kibi, mənsur əsərin buraxacağı iz də eyni surətlə lisan və üslubunun bədiiliyi ilə meydana gəlir. Bədii əsərlərin, mənzum olsun-mənsur olsun, xarici

cəhətlərini, təbir caizsə, musiqi və ahəngə təmas edən nöqtələrini ayırıb çıxarmaq, bu ayrılan parçaların tədqiqi sayəsində bir taqım qaydalar əldə etmək qabildir. Lakin bu surətlə əldə ediləcək nəticələr birtərəfli və əsərin anlaşılması üçün qeyri-kafi olmaqdan qurtulamaz. Çünki bu xarici cəhətlər şəkil, əsərin əsası, mündəricəsi ilə görülən-görülməyən bir çox bağlarla mərbut bulunur. Halbuki mündəricə nədir? Hər hansı bir əsərin qaba taslağını, quru çatısını nəzəri-etibara aldığımız zaman mühərririn, müəllifin işini iki nöqtədə görərik:

1) götürdüyü mövzuya girən məsələ və yaxud maddələri həyatda yan-yana, bir-birinə qarışmış maddələr içindən seçib almasında.

2) bu almış olduğu şeyləri öz zövq və məntiqinə görə təğyir, izah və şərh etməsində.

Odur ki, hər əsər – pis, yaxşı – hər mühərrir – böyük, kiçik – öz rəngi, öz gözlüyü, həyat və ideoloji prizması ilə başqalarından ayrılır. Bunun üçündür ki, Tendən Qustav Lansona qədər bir çox Avropa ədəbiyyat nəzəriyyəçiləri: "Bədii əsərdə əsas ən mühüm olan ünsür şəxsiyyətin – mühərrir və yaxud şair şəxsiyyətinin – əsərdə buraxdığı izdir", – fikrini yürütmüşlərdir. Bu fikirlər, Köprülüzadə Fuad, Şihabəddin Süleymanlar kibi Türkiyənin Avropa üsulu ilə çalışan son dövr ədəbiyyatçılarının qələmilə türk ədəbiyyatına da girmişdir.[25] Əcəba, bu şəxsi damğa nədir? Bu haradan gəlir? Şübhəsiz, insanlardan birisini, hətta bir çoxunu maraqlandıran, həyəcana gətirən maddə, fikir, yaxud lövhə başqalarını tamamilə laqeyd buraxır. Burada, əlbəttə, ilk və əsas hissəni mühərririn həyatı və üzvi **(био-физиологический)** mənşəyinə buraxmalıyıq və işi qarışdırmamaq üçün mühərririn bu həyati və üzvi xüsusiyyətlərini özünün şəxsi, zatı malı, sərmayəsi sayaq. Bu halda da heç kimsə inkar edəməz ki, əsərə girən maddə və lövhələrin mövzusunu təşkil edən ünsürlərin konkret, şani cəhəti xaricdən, mühitdən alınmışdır. Burada mühit ilə mühərrir arasındakı münasibət qarşımıza çıxar. Bu münasibətin keyfiyyət və təbiətinə mühərririn qövmi, sinfi və əsnafi mənsubiyyətləri, bağları qəti təsir yapar. Bunlardan – qövmi, sinfi, əsnafi **(профессиональн.)** ünsürlərdən hər biri cürbəcür dərəcələrdə mühərririn əsərindəki material və o materialın düzülüş, quruluş cəhətlərinə təsir edərlər. Bədii əsər bu surətlə mühərrir və ictimai mühitin qarşılıqlı münasibətindən doğur. Yuxarıda

[25] Köprülüzadə Fuad və Şihabəddin Süleyman: Məlumati-ədəbiyyə. Yeni Osmanlı tarixi ədəbiyyatı; Ədəbiyyatdakı əsərlərinin məsələmizə dair bəhsləri.

saydığımız ünsürlərin hər biri bir dərəcədə, eyni zamanda təsirini göstərə bilmir. Bəziləri zəif, bəziləri qüvvətli, bəziləri daimi və təsadüfi surətdə mühərrirə xidmət, təzyiq, rəhbərlik edirlər. Lakin mühərririn hər halda özünü qurtara bilməyəcəyi müəyyən daimi bir təsir var ki, o da əsəri meydana gəldiyi zaman tərbiyəvi, ruhi, zövqi ənənələri və nəhayət, şəxsi və ictimai həyatilə bağlı bulunduğu ictimai sinifdir. Odur ki, bu sinfi bağlılıq mühərririn bir az əvvəl söylədiyimiz iki cürə fəaliyyətini, yəni mühitindən material seçməsi və bu materiala qiymət verməsi nöqtələrini izah edir.

Bunun üçündür ki, bir çox ictimaiyyətçi və ədəbiyyatçılar məndəricəni sinfi nöqteyi-nəzərdən seçilmiş və qiymətləndirilmiş material olaraq göstərməkdədirlər. Məsələn, Q.Pospelov "Şəkil və məndəricə məsələsinə dair" ünvanı ilə yazdığı məqaləsində "məndəricə"ni bu surətlə tərif edir: "Şeri və bədii bir əsərin məndəricəsi sinfi idrak, sinfi seçmə və qiymətləndirmə məhsulunun söz vasitəsilə təsbit edilməsi deməkdir. Bu surətlə hər hansı ədəbi əsərin məndəricəsi sinfi mənsubiyyətin nəticəsidir. Təbii, sinfi mənsubiyyət məsələsində sinif xaricində və içindəki münasibətlərin mühərririn mənsub olduğu sinfə bağlılığı və yaxud ondan ayrılması kibi bir çox bir-birinə zidd olan mücadiləvi, dialektik **(диалектический)** nöqtələr[in]də göz önündə tutulması lazım gəlir... Bu nöqteyi-nəzərdən baxıldığı zaman ədəbi əsər eyni zamanda ictimai hadisədir. Bunun belə olması yalnız əsərin təsiri, yəni bir çox adamlar tərəfindən oxunması və bu surətlə eyni əsərin, bir çox nəzəriyyəçilərin düşündüyü kibi, mühərrirlə oxucular arasında bir ictimai bağ (vasitə) xidmətini görməsindən ibarət deyildir; bəlkə, mənşəyi etibarilə bədii əsər sinfi idrakın sözdə təsbit edilən bir məhsuludur... Seçmə və qiymətləndirmə **(выбор и оценка)** məsələlərinə gələcək olursaq, burada sinfi mahiyyəti və məfkurəvi əsası, ideolojik ünsürləri tapırıq. İkinci nəticə də ədəbiyyatın həyatı əks etdirməsi məsələsinə aiddir. Bizdə bir az əvvəl cəmiyyət tarixini ədəbi əsərlər vasitəsilə tədqiq etməni çox sevərlərdi. Bir çoxları ədəbi əsərlərə baxaraq, rus ziyalı təbəqəsinin və Rusiyada ictimai fikrin inkişafı tarixini meydana çıxarmaq məqsədilə xüsusi tədqiqnamələr **(монография)** meydana gətirdilər.

Burada Pereverzevin **(Переверзев)** Qoqol haqqındakı əsərini xatırlatmaq kafidir. Ədəbi əsərlərdə həyat əks etmir, hətta dəyişdirilir, təmsil edilir. Ədəbi idrakın əsasi materialının bir qismi xaricdən gəlməklə

bərabər, digər bir qismi də şüurun dərinliklərindən alınaraq sözlə təsbit olunur. Lakin bu söz də elmin qəti, doqmatik sözü deyil, təsir və təsbit məqsədlərinə uydurulmuş zövq və həyəcan süzgəcindən keçirilmiş bədii, həyəcani sözdür. Bunun üçün də bütün bu yarımtərifləri buraxaraq, bədii əsərin məndəricəsi sözdə təsbit olunmuş sinfi idrak məhsuludur, – demək məcburiyyətindəyik".[26]

Şəklə gəlincə, burada mühərririn yuxarıda söylənən mənbələrdən aldığı materialı işləməsi nöqtəsinə rast gəlirik. Bu işlənmə **(обработка)** cəhəti əsərin texniki, şəkli, yaxud başqa təbirlə, xarici cəhətini təşkil edir. Mühərrir, yaxud sənətkar müəyyən bir mövzu, yaxud material aldıqdan, topladıqdan sonra onu gəlişigözəl, istədiyi hər cürə şəklə soxa bilir. Əsasən işlənəcək nədir? Məndəricənin parçaları deyilmi? O halda burada əsərin texnikası, üsulu da bu məndəricəyə bağlıdır.

Şəkli, yaxud işləmə üsulunu dəyişdirmək üçün məndəricəni də başqalaşdırmaq lazım gəlir. Çünki şəkil və məndəricə, ikisi də xüsusi bir mahiyyətə malik, təkrarı və nöqtəsi-nöqtəsinə təqlidi qeyri-qabil bədii şerin və yekparə əsərin iki üzüdür. Əsasən şəkil də məndəricə ilə bərabər doğur. Yalnız sənətkar cürbəcür tədailər, təmsillər **(ассоциация, ассимиляция)** vasitələri ilə gərək məndəricə və gərəksə işlənmə cəhətləri tərəfinə bir taqım yeni parçalar daha toplayır.

Bu surətlə Şklovski **(Шкловский)** kibi bədii əsərdə şəkli əsas və ən mühüm ünsür sayan nəzəriyyəçilərin düşündüyü kibi, yeni şəkil yeni məndəricəni deyil, biləks, yeni məndəricə yeni şəkli icab etdirir. Yalnız ayrılıb alınmış bir əsər haqqında deyil, bütün bir ədəbi üslub, məktəb haqqında da belədir. Yeni bir ədəbi məktəbin doğması üçün yeni idrak və anlayışların, bu vaxta qədər mövcud olmayan görüşlərin doğması, bunun üçün də yeni ictimai münasibətlərin qurulması lazım gəlir. Həman bu sonuncusu həm məndəricəni, həm də şəkli verir. Bir çox ədəbi dövrlərin bu nöqteyi-nəzərdən izahı qabildir. F.Merinq **(Ф.Меринг)** Lessinq **(Лессинг)** dramlarının,[27] Karl Kautski **(Карл Каутский)** Şiller **(Шиллер)** səhnə əsərlərinin,[28] Q.Plexanov fransız klassik faciəsinin (tragediyasının)[29] əsri və ictimai damarlarını, amillərini göstərmişlərdir. Plexanovun fransız faciəsi (tragediyası) haqqındakı

---

[26] Г.Поспелов. Красная новь, 1925, книга пятая.

[27] Ф.Меринг. Легенда о Лессинге, Москва, 1923 г. Meringin digər əsəri bu xüsusda çox maraqlıdır: Мировая литература и пролетариат, 1925.

[28] К.Каутский. К юбилею Шиллера, Петроград, 1920.

[29] Бельтов (Г.Плеханов). За двадцать лет, Петербург, 1909.

fikirləri bu meydanda və bu nöqteyi-nəzərdən yazılmış sətirlər içində nümunəlik bir mahiyyəti haizdir.

Plexanov məşhur fransız esteti, sənət mütəxəssisi Hippolit Tenin fransız klassik faciəsi haqqında "fransız faciəsi nəcabət üzərinə qurulmuş və adabi-müaşirət əsaslarının **(приличие)** hakimiyyətini təsis etmiş olan on dördüncü Lui **(Луи)** monarşisi ilə peyda olur və inqilab zərbələri altında zadəganlıq və saray ədəbiyyatlarının yıxılması ilə ortadan götürülür", – yolundakı fikrini əsas etibarilə qəbul etməklə bərabər, məsələni sadə və olduqca məhdud bir tərzdə təsvir edən bu izaha çox dərin və qiymətli material və şərhlər əlavə edir: "Əgər bu dövrün fransız faciəsini əvvəla şəkil cəhətindən alacaq olursaq, fransız romantikləri ilə klassikləri arasında birinci qovğanın üç birlik, vəhdət (zaman, məkan və mövzu birliyi) üzərinə cərəyan etdiyini görürük. Üç birlik məsələsi Fransada ta intibah (renessans) zamanlarından bəri məlum olsa da, bunu birinci dəfə əsərlərində tətbiq edən Mere oldu.

Merenin **"Sophonisbe"** adlı və birlik qaydalarına uyğun surətdə yazılmış olan faciəsi o zaman da bütün Fransada ədəbiyyat adamları arasında atəşli və kəskin münaqişə doğurdu. Bu qaydaların əleyhdarları bir çox nöqtələrində romantikləri andıran etirazlar və tənqidlərlə çıxışda bulundular. Lakin əski yunan və Roma ədəbiyyatlarının məftunları olan alimlər birlik qaydalarını və bu qaydalara sadiq qalanları müdafiə etdilər və qəti qüvvətli bir qalibiyyət qazandılar. Əcəba, bu qalibiyyət haradan gəldi? Hər halda o vaxtkı alimlərin məlumatı sayəsində deyil, çünki xalqın bu quru nəzəriyyələrlə alıb-verəcəyi yox idi".

Fransızların adlı ədəbiyyatçılarından Qustav Lanson bu fikirləri belə bəyan edir: "Bu birlik altında saxlanan fikir, yəni həqiqi doğru olaraq təsvir və təqlid etmək fikri yüksək tərbiyəli, incə zövqlü xalqı öz təsiri altına alacaq və arxasında aparacaq idi. Bu isə əsas mənasında əsgəri bir qeydçilik **(минимум условности)** demək idi. Bunun üçün birlik fikrinin qələbəsi həqiqətdə xəyal və üzərində realizmin qələbəsindən başqa bir şey deyil idi".[30]

Halbuki ictimaiyyət dilinə və sahəsinə çevirdiyimiz zaman bunun mənası nəcabət və əsalət üzərinə qurulmuş olan incə aristokrat zövqünün qələbəsi demək idi. Başqa ictimai amillər aristokratiyanı, zadəgan sinfini görmək istəməyənlərin də daha sonra bu əsasları müdafiə

[30] Histoire de la literature française. G.Lançon, pp. 415-16.

etməsini mucib oldu. Lakin bütün bu hallarda, ilərida romantizmin qələbəsində olduğu kibi, ictimai faktor və amilləri tapıb çıxarmaq hər zaman qabildir.

Eyni halı hər hansı türk ədəbiyyatının bir neçə dövrünü müqayisə etdikdə meydana çıxara bilərik. Əski türk ədəbiyyatının mündəricə və şəkilləri bir-birlərilə sıxı surətdə bağlı olaraq, yəni ayrı bir cins təşkil edərək, gərək Orta Asiya və gərəksə Kiçik Asiyada ancaq ərəb və fars mədəniyyətləri ilə və bir az sonra səlcuq və Osmanlı türkləri üçün Bizans, Rum mədəniyyəti ilə təmas etmələri dövrünə qədər davam edir. Artıq on birinci əsrdə, məsələn, "Kutadqu bilik"də gərək şəkil və gərək mündəricə etibarilə əski, bu zamana qədər olan türk ədəbiyyatı şəkillərinə və mündəricəsinə uymayan bir növə rast gəlirik. Saqu-mərsiyə, dastan (ozan) və başqa lirik şəkillərlə əski türk ədəbiyyatı yüksək təbəqənin, türk əmir və sultanlarının saraylarından qovulur. Yalnız Köprülüzadə Fuadın[31] çox doğru olaraq qeyd etdiyi kibi, "varsağı", "türki", "türkmani", "qoşuq", "qoşqu", "qoşma", "bayatı" kibi şəkillər musiqi ilə bağlanaraq, yəni təbiri-məxsusilə, "kefdə" olaraq, bəzən klassik şairlərimizin qələmlərinə ilişmiş və sarayların xəfif məşrəbanə, içki və zövq məclislərinə qədər soxula bilmişdir. Birinci bəhsimizdə adı keçən Taylorun dediyi kibi, yeni dövrün adamları, əski dövrün ciddi əsərlərini daima oyuncaq görürlər.

İslami dövr adlandırılan zamanlarda bilxassə feodal və saray ədəbiyyatı gərək mövzuca, gərəksə şəkilcə qəzəllər, qəsidələr, mərsiyələr, xəmsələr... meydana gəlir. Bu dünənki dövrün ədəbi mövzuları, bu mövzuların töküldükləri şəkillər hər kəsə məlum...

İmdi biz yeni şəkillər, yeni ölçü, təbiri-məxsusilə, "milli vəzn" davaları arasında yazır və düşünürük.

Keçən əsrin ortalarından başlayaraq bilxassə Türkiyədə heca vəzni, milli vəzn üçün böyük bir münaqişə sahəsi açıldı. İlk dəfə Cövdət paşa ərəb və fars vəzninin türk dilinə uymadığını ortaya atdı. Başlıca dəlili, ərəb sözləri kibi, türk sözlərinin "mədd və işba"ya dayanmayacaqları, türk dilinin mütəşəkkil və üzviyyətcə buna müsaid olmadığı idi. Bundan sonra Ziya paşa "Şeir və inşamız" adındakı məqaləsində bu fikirləri daha atəşli, daha şiddətli bir lisanla müdafiə etdi. Daha sonra bu məsələ bütün bir məslək və məktəb halına girərək, türk yurdu və türk ocağı ətrafında toplanan bir qrup gənclərin idealı, əqidəsi, imanı oldu.

[31] Bugünkü ədəbiyyat. Köprülüzadə Fuad, səh. 45.

Bunların əleyhdarları əruzçulardır. Bunlar əski ərəb və fars nümunələrinə uydurularaq yazılan əsərlərin qiymətdən düşmədiyini, bunların yeganə nümunələr, yəni klassik əsərlər olduğunu iddia edirlər. Bu qovğa fransız ədəbiyyatında yuxarıda bəhs etdiyimiz klassik və romantiklərin mücadilələrini andırır.

Əcəba, bir neçə yüzillər türk dilinə uydurulan və özü ilə zamanının şah əsərləri yazılan əruz nədən birdən-birə belə çürüyə çıxarılır? Sonra, əcəba, bu qovğa yalnız "milli vəzn" qovğasımı? Bu bir-iki suala burada mövzumuza lüzumi qədər qısadan cavab verməliyik. Əruz vəznində yüzlərcə illərdən bəri yaşayıb gələn ədəbiyyata birinci zərbəni Tənzimat dövrü adlandırılan dövr vurdu. İqtisadi, ictimai həyatın Avropa biçiminə düşməsi, heç olmazsa, türk xristian təbəələrini nəzər-etibara aldıqda, mövcud və əski şər'i əqidələr üzərinə qurulan feodal və dini monarxiya – teokrasiya üzərinə qurulan mənəvi həyatı (ədəbiyyat, elm, qanunçuluq, ənənə...) qeyri-mümkün qıldı. Yavaş-yavaş Xariciyyə Nəzarəti yanındakı tərcümə bürosundan, mühəndisxana və tibbiyyə kibi ilk Avropai tərbiyə ocaqlarından yetişən türk ziyalı təbəqəsi, məmur, zabit, müəllim sinifləri əski ədəbiyyatla, yalnız saraya məxsus bədii əsərlərlə yaşayamazdı. Məktəb kitabları, türk qəzetələri, saraydan artıq bu sinfə xitab etmək məcburiyyətində qalan şeirlər gərək nəsrdə, gərəksə nəzmdə başqa şəkil, başqa mündəricə istəyirlərdi. Bu nöqteyi-nəzərdən baxıldıqda Köprülüzadənin: "Lisan və ədəbiyyatımızın hər dürlü əcnəbi və müzirr nasirlərdən qurtularaq müstəqil və şəxsi bir mahiyyət alması qayəsini təqib edən "milli ədəbiyyat cərəyanı", bəzilərinin iddia etdikləri kibi, bu son illərin doğurduğu əlaladə bir bidət deyildir. Bunu çox uzun bir keçmişi, imdiyə qədər hər nədənsə məchul qalmış əski tərəfdarları və bu son illərdə isə müvəffəqiyyət səbəblərini hazırlayan bir çox ictimai və dərin amilləri vardır", – tərzindəki sözləri həqiqətə yaxınlaşmaq istəyirlər. Eyni əsərin digər bir yerində bu sətirləri oxuyuruq: "Əvvəla bir cəhət təbiidir ki, bir millətdə sənət tələqqisinin vəsə bir nisbətdə dəyişməsi əski bir dövr yadigarı olan ənənəvi şəkillərin davam edəməyərək, yerlərinə yeni şəkillərin qayim olması, bütün həyat ünsürlərinin dəyişməsi ilə olur. Bunun üçün də onun yeni bir mədəniyyət zümrəsinə girməsi və yalnız bədii deyil, dini, hüquqi, əxlaqi, lisani müəssisələrinin də bu yeni mədəniyyətdən alacağı ünsürləri, ənənələri təmsil etməsi lazımdır. İctimai həyatın bütün ünsürləri bütün mənzumələri bir-birilə bir

ahəng təşkil etdiyi üçün bədii müəssisələrdəki təhəvvülləri digər müəssisələrin də dəyişməsini, yaxud digər müəssisələrin dəyişməsi bədii tələqilərin də təhəvvülünü intac edər".[32]

Bir çox ictimai və dərin amillər sifətilə qayət mübhəm surətdə ifadə edilən və bu amillərin sinfi nöqteyi-nəzərdən baxaraq, heç olmazsa, Engelhardın az-çox səthi və dəlilsiz olan "Türkiyə və Tənzimat"[33] adındakı əsərini oxuyan və bunu Türkiyə maarif məsələlərinin inkişafı tarixi üçün olduqca qiymətli materiallar verən "Maarifi-ümumiyyə nəzarəti-tarixçei-təşkilat və icraatı"[34] adındakı əsər ilə müqayisə edə bilən adam məsələnin yalnız "milli vəzn" məsələsindən ibarət olmadığını və burada bir çox amillərin deyil, bəlkə, müəyyən amillərin rol oynadığını görəcəkdir.

Əruzçular yalnız əruz müdafiəçiləri deyil, bəlkə, eyni zamanda əski klassik türk ədəbiyyatının tərəfdarlarıdırlar. Bunun üçündür ki, onlar daima "avtoritet" **(авторитет)** və "ədəbi əfkari-ümumiyyə"dən, tarixdən bəhs edirlər. Onlar nümunələrdən, əski ustadlardan ayrılamayırlar. Əski şeir və ədəbiyyatın verdiyi etiyadlar və bu etiyadların texniki asanlıqları onları imdilik əskinin, keçmiş dövrün əsiri yapır. Burada sualımızı daha ileri götürə bilərik. Əcəba, əruzçular yalnız əski ədəbiyyatın tərəfdarıdırlarmı? Xeyr! Onlar eyni zamanda əski həyatın, əski zehniyyatın da müməssili bulunurlar. İçlərində yeni ilə əski arasında sallananlar çıxarılacaq olsa, əruzçu qrupunun həqiqi tipləri olan ədib və şairlər əski teokratik Türkiyənin bu dövrlərə aid bəqiyyələrinin gözətçisidirlər. Onlarca, maziyə aid hər dürlü xatirə, mazidən qalan hər şey doğrudur. Bütün bu fikirlər onların mövzusunu verir: əsərlərindəki mündəricəyə görə, bu mündəricəni vermək üçün işlətdikləri şəkillər əsas etibarilə bir-birinə uyğundur.

"Milli vəznçilər"ə gələcək olursaq, bunlar P.Rizal,[35] yaxud Valter Lirau kibi, məsələlərə və ümumiyyətlə, Türkiyə islah və inqilab hərəkətlərinə səthi surətdə yanaşan mühərrirlərin zənn etdikləri kibi, yalnız

---

[32] Bugünkü ədəbiyyat, səh. 77 və 57. İdarə: Məlum ki, "ictimai həyatın ünsürləri" deyən Köprülüzadə heç bir zaman bizim düşündüyümüz sinfi mübarizələri, iqtisadi dəyişiklikləri meydana atmayır. Bu da bir çox burjua alimlərində olduğu kibi, fikrini məntiq üzrə sona qədər davam etmədiyindən ileri gəlir.

[33] Türkiyə və Tənzimat. Engelhard, hicri 1329, İstanbul.

[34] Maarifi-ümumiyyə nəzarəti-tarixçei-təşkilat və icraatı. Müəllifi Məhəmməd Cavad ibn əş-Şeyx Nafe, hicri, 1338.

[35] Les Turcs a la racherche d'une ame nationale, P.Risal (Mercury de France, №364).

"milli ruh arayan" (P.Rizal) və "fanatizm əqidələri ilə hərəkət edən" (Valter Lirau) [36] adamlar deyildirlər. Bunlar, yuxarıda söylədiyimiz kibi, kiçik burjua içindən çıxmış və bacara bildiyi qədər avropalılaşan ziyalılardır.

Türkiyədə XVIII əsrin sonlarından bəri başlayan islahat təprənişlərinin zamanımızda haraya varıb durduğu çox gözəl anlaşıldı. E.Butayevin zamanımızda nəşr olunmuş qiymətli kitabçasında çox gözəl göstərildiyi kibi, Türkiyədə yavaş-yavaş bir çox dolanbaclı yollarla burjuazi, həm də türk burjuazisi doğurdu. Feodal əsasları bulunan əski Türkiyə yıxılır, məmləkətin içindən və xaricindən hücum edən əcnəbi sərmayəsi qovulur, yerinə milli sərmayədarlıq, milli burjuazi çıxırdı.[37] Belə burjuazi ancaq Avropa əsasları üzərində yaşaya bilər, ancaq milli hökumət ilə yaşar və milli ədəbiyyatla ifadei-məram edər. Bunun bir çox misallarını Avropa milli dövlətlərinin mənşə və inkişaflarında görmürükmü? Milli vücud demək olan burjuazi meydana gəldikdən sonra milli ruh demək olan milli ədəbiyyat, milli zehniyyət özlüyündən doğar, P.Rizalın dediyi kibi, onu araşdırmaq lazım gəlməz.

"Milli vəznçilər" də demək olar ki, yalnız ədəbiyyatçı deyil, bəlkə, müəyyən sinfin ideoloqlarıdır ki, bu gün hər cəhətdə özlərinə bənzəyənləri Avropadan arayıb tapmışlar. Hər biri ictimaiyyatda, iqtisadiyyatda Berqsondan Durkhayma qədər öz ustadlarını yadlarında saxlamışlar. Doğrudur, "milli vəznçilər" də əskilikdən, bozqırların, yakutların, altaylıların ədəbiyyatından, "Kitabi-Dədə Qorqud", "Oğuznamə" kibi islamdan əvvəlki ədəbi nümunələrdən bəhs edirlər. Lakin tarixin bizə çox gözəl öyrətdiyi kibi, belə davalər, hətta təcrübələr təkamülün öz yolunda getməsinə təsir edəməz. İşin varacaq yeri mündəricə etibarilə olduğu kibi, şəkil etibarilə də mazi deyildir. Bu gün burjuazi Avropadan öyrənməkdədir. Ədəbiyyatı ondan ayrılıb başqa yurdlar və başqa ustadlar bulamaz. Məsələn, Tevfiq Fikrətin hər hansı əruz ilə yazılmış əsərini alaq. Bunların şəkil etibarilə Mocce, Lamartin, Verlen, Teofil Qutye kibi Qərb şairlərinin əsərlərindən fərqi varmıdır? Burada ümumiyyətlə şəklin (vəzn) məsələsi kibi dar çərçivə

[36] Новая Турция. Вальтер Лирау, Ленинград, 1924 г.

[37] E.Butayev "Türkiyə məsələləri" ("Проблемы Турции", 1924 г.) adındakı əsərində yeni Türkiyə haqqında bir çox iqtisadi və ictimai faktorlara dayanılaraq bu nəticələrin çıxarıldığını görürük: 1) Türkiyə milli kapitalizm yoluna girdi. Türkiyə xarici imperializm və daxili feodalizm hücumlarına qalib gəldi (106); 2) Türkiyə milli burjua dövlətini-milli cümhuriyyəti meydana gətirdi (130).

içinə qapadılması cəhətini düşünmək lazım gəlir. Şəklə yuxarıda verdiyimiz tərif – materialın, mündəricənin işlənməsindəki yollar **(приемы)** bu cəhəti çox gözəl aydınlada bilir.

Qalimcan İbrahimov [və] Qəyum Nasiridən başlayaraq, son dövr Qazan-tatar ədib [və] şairlərinə qədər gördüyümüz ədəbi təkamülü Volqaboyu türk-tatarlarının təbii-natural təsərrüfat dövründən çıxaraq, Avropa burjuazisinin silahı ilə silahlanmağa məcbur olması və öz burjuaziyasını meydana gətirməyə çalışması hadisəsi ilə bağlamaq da Butayevin Türkiyə haqqında verdiyi hökmlərlə birləşmiş olur.[38] Eyni fikirləri digər Qazan-tatar tarixçilərində, məsələn, Qaziz Qubaydullində və Cəmaləddin Vəlididə görürük.[39]

Bütün bu fikirlərdən çıxan nəticə mündəricə ilə şəklin bir-birindən ayrılmayacağıdır. Son zamanlarda gərək Almaniya, Fransa kibi Avropa məmləkətlərində, gərəksə Rusiyada bu baxış özünə getdikcə qüvvətli bir mövqe qazanmaqdadır. Belə əsərlərin çoxunda ədəbi və bədii yaradıcılığa mündəricə və şəkil kibi iki parçaya ayrılmayacaq üzviyyət gözü ilə baxıldığını görürük.

Sakulin mündəricə və şəklin birləşdirilərək tədqiqi cəhətini ayrı və ən doğru bir üsul olaraq təklif etməkdədir. Sakulinin bu sözləri bu xüsusdakı fikirlərini xülasə edə bilər: "Mündəricə və şəklin tərkibi gərək ayrı əsərlərə, mühərrirlərə, gərəksə ədəbi cərəyanlara, hətta bütün ədəbiyyat tarixinə tətbiq edilməlidir. Bədii üzviyyət olmaq dolayısilə, ədəbi əsər şəkil və mündəricəsinin birliyi ilə doğar və meydana çıxar. Şəklin altından mündəricə görünür. Mündəricə şəkli təyin edir və şəklin özü də mündəricəni təyin edir".[40] Burada Sakulinin mündəricəni və şəkli ifrata vardıranların arasını [düzəltmək] və məsələnin ortasını tapmaq istədiyi də anlaşılır.

Bəzi ictimaiyyatçılar və ədəbiyyatın ictimaiyyat və tarixin yarımşöbəsindən, xidmətçisindən başqa bir şey olmadığını iddia edənlər[41], formalistlər kibi, "şeir və ədəbiyyat tarixi dürlü ədəbi şəkillərin tarixindən ibarətdir",[42] – fikrində bulunanlar arasında mündəricə ilə şəklin

[38] Qalimcan İbrahimov. Til, imla və ədəbiyyat məsələləri. Qazan, 1925.

[39] Д.Валидов. Очерк истории литературы и образованности волжских татар. Москва, 1923 г.

[40] П.Н.Сакулин. Синтетическое построение литературы. Москва, 1925, стр.18-20.

[41] Родной язык в школе, №7 (статья Д.Введенского).

[42] А.В.Багрий. Формальный метод в литературе. Краснодар, 1925. Bu əsərdə bir çox formalistlərin fikirləri izah edilmişdir. Yaxud Trotskinin **"Литература и революция"** adındakı əsərinin "Şəkli məktəb və marksizm" bəhsinə baxınız.

birliyini altını cızaraq xatırlatmaq, göstərmək, doğrudan da, heç də faydadan xali deyildir.

Şəklin məzmunu daha böyük əhəmiyyət qazanması, yaxud mühərrir və ədiblərin yalnız şəklə əhəmiyyət verməsi də müəyyən ictimai münasibətlərin təsiri altında olur.

Öz əsərlərinin məfkurəvi məzmunu cəhətinə heç də əhəmiyyət verməyən Qotye, Rafaelin rəsmlərini əslində görə bilmək üçün fransız vətəndaşlığından belə çıxmağa hazır olduğunu söyləyirdi. Mütləq surətdə şəklə əhəmiyyət vermək daima ictimai-siyasi qeydsizlik və bədbinliyin nəticəsi olur. Necə ki, Rusiyadakı şəkilçilik cərəyanlarının inqilab və onun nəticələri ilə hesablaşmaq istəməyən bir qisim ziyalıların məsləki olduğunu Trotski olduqca açıq bir surətdə göstərir.[43]

Digər tərəfdən, yeni dövrlər gəlib, yeni siniflər hakimiyyətə keçdiyi zaman məzmun-mövzu şəkildən ziyadə əhəmiyyət qazanır. Yeni fikirlər, duyğular, təsəvvürlər sahibi olan yeni dövr şairləri çox zaman əski şəkilləri işlətmək məcburiyyətində bulunurlar. Məsələn, Rusiyanı aldığımız zaman bir çox inqilabi şairlərin hələ əski, bəzilərinin hətta çox əski şəkillərlə öz yeni duyğu, məfkurələrini anlatmaqda olduqlarını görürük. L.Trotskinin Demyan Bednı adlı inqilabçı rus şairi haqqında bu sözləri bunun üçün çox doğrudur: "Demyan yeni şəkillər axtarmayır. O hətta başlıca əski şəkillərdən faydalanır. Lakin bu əski şəkillər bolşevik fikirlər dünyasının təmsilçi, təsvirçisi sifətilə yenidən doğur, yenidən canlanır. Tarixdə az yeri olmayan Ferdinand Lassal Londona Marks və Engelsə yazmışdı: "Yapa biləcəyim şeyləri yapmaq üçün bildiklərimi böyük sevinclə yazılmamış olaraq buraxırdım". Bunun kibi, Demyan da özü haqqında deyə bilər: yeni şəkillərdə inqilab haqqında yazmağı məəlməmnuniyyə başqalarına buraxıram, mən əski şəkillərdə inqilab üçün yazıram".[44]

Eyni halı, yuxarıda işarət etdiyimiz kibi, türk-tatar şairlərində və ədiblərində görmürükmü? Hər türk-tatar cümhuriyyətində bir çox yeni şairlərimiz var ki, xalq vəzni ilə yazırlar. Bununla bərabər, məzmun tərəfindən onların şeirlərini xalq şeirlərilə heç bir dürlü müqayisə etmək olmaz. Eyni surətlə Tevfiq Fikrət, cənab Şəhabəddin, Rza Tevfiq... kibi bir çox türk şairləri də əski klassik ərəb-fars ölçülərilə bir çox parçalar, şeirlər yazdılar. Bununla bərabər, Köprülüzadə Fuadın

[43] Л.Троцкий. Литература и революция, 119-121, 158.

[44] Yenə orada.

çox doğru olaraq qeyd etməsi kibi, bunları Nədim, Baqi, Nəfi kibi əski məfkurə və əski dünyamız şairləri ilə müqayisə etmək qabil deyildir. Qəzəl, məsnəvi şəkli, yaxud şərqi tərzi baqilər, nədimlər dövrü ədəbiyyatına aid olmaqla bərabər, bu əski ənənəvi şəkillərə yeni bir zövqün, yeni bir sənət tələqqisinin məhsulu olan yepyeni hisslər soxmaq nədən qabil olmasın? Bunun qabil olduğunu Əbdülhəq Hamidin bir çox mücəllləd (daimi) əsərləri vazeh surətdə göstərdi: "Fateh türbəsi" ilə "Səlimiyyə" qəzəl və qitə şəklində yazıldığı kibi, "Məcəllə" "Ölü"də yenə əski ədəbiyyat şəkillərindən tamamilə fərqsizdir.[45]

Bütün bu bəhsdə göstərdiyimiz fikirlər və mütaliələr şəkil və məzmunun mahiyyəti və bir-birinə olan əlaqəsi haqqında oxucumuza kafi dərəcədə qənaət və məlumat versə gərəkdir. Bu sətirlərimizdən bu nəticələri çıxarmağa, zənn edərəm, haqqımız vardır: 1) Şəkil və məzmun mənşəyində, inkişafında daima bərabər bulunur; 2) Şəkil və məzmunun simasını hər vaxt zamanın ictimai münasibətləri təyin edir; 3) Ədəbiyyat tarixçisi bir ədəbi əsəri, yaxud cərəyan və dövrü tədqiq etdiyi zaman həm şəkli, həm də məzmunu müsavi və müvazi surətdə göz önündə tutmalıdır; 4) Ədəbiyyat müəllimi şəkil və məzmunu birlikdə tanıtdırmalı, gərək bunları meydana gətirən səbəbləri və gərəksə bunların (şəkil və məzmun) bir-biri ilə olan qarşılıqlı münasibətlərini tənzim edən qanunları, amilləri şagirdlərinə tapdırmağa, göstərməyə çalışmalıdır.

[45] Bugünkü ədəbiyyat, səh. 56.

ƏDƏBİYYAT BİR ELMMİDİR?

Elmin qısadan tərifi. Elmin mövzu və üsul cəhətindən bürcləri. Şeir və sənətin mövzusu, xüsusiyyətləri, qanunları

Ədəbiyyatın məktəblərdəki yeri, tədqiq və tədrisindəki üsullar haqqında fikir yeritmədən, qaydalar, qanunlar göstərmədən əvvəl, onun – ədəbiyyatın bir elm, yaxud müəyyən bir elmin yardımçısı olduğunu açıqca təyin və təsbit etməliyiz.

Hər hansı bir tədqiq sahəsi elm və ya sənət haqqını qazana bilmək üçün bu istəklərə cavab verə bilməlidir: 1) ayrı-ayrı hadisə və faktorlar arasındakı səbəbiyyət **(причинность)** bağını tapmaqla bərabər, bir hadisənin digərinə təsirini açıqca göstərə bilməli; 2) aralarında tapılıb meydana çıxarılan səbəbiyyət əlaqəsinə görə fakt və hadisələri sistem, nizam altına almalı; 3) nəhayət, faktorların doğruluğu haqqında konkret dəlil və əlamətlər tapıb göstərməli.[46]

Akademik V.V.Bartoldun tarix üçün qəbul etdiyi bu tələblər eynilə ədəbiyyat və onun tarixinə də tətbiq oluna bilər. Yalnız burada hər şeydən əvvəl elmin mövzusu, mündəricəsi, tədqiq sahəsi yadda saxlanılmalıdır. Akademik Perets bu xüsusda bu sözləri yazır: "Məlum olduğu üzrə, təbii elmlər təbiiyyat, təbiiyyatın mənşə, inkişaf və dəyişmələrini, bir sözlə, onun yaradıcılığını tədqiq edir. İnsani elmlər **(гуманитарные науки)** isə təbiət tərəfindən meydana gətirilməyib yalnız insanın, yaxud da insan cəmiyyətlərinin işləkliyi, fəaliyyəti nəticəsində doğan hadisə və zühurələri tədqiqdə bulunur, yəni bunu özünə mövzu olaraq alır. Təbii elmlər, insanı təbiiyyatın bir parçası olaraq tədqiq etdiyi halda, insani və ictimai elmlər onu özünəməxsus, özünün fəaliyyətindən doğmuş duyğuları, fikirləri, hərəkətləri etibarilə alır və bu nöqteyi-nəzərdən də onun tədqiqinə girişir.

Bu surətlə biz insanların xarici aləmdə zühur edən hərəkətlərini, (məsələn, həyat və məişət şəkillərinin meydana gəlməsi, dövlət təşkilatı, iqtisadi münasibətlər...) tədqiq edərək, "tarix"i və bu fəaliyyətin sözdə və ədəbiyyatdakı izlərini öyrənmək məqsədilə "filoloji"ni ayırırıq".[47]

Professor Ernst Meyman da, estetikanın mövzusunu təyin edərkən əsas etibarilə eyni surətlə mühakimədə bulunur.[48]

[46] В.В.Бартольд. История изучения Востока. Ленинград, 1925 (Введение).
[47] В.Н.Перетц. Краткий очерк методологии истор. русской лит., Петербург, 1922.
[48] Эрнст Мейман. Эстетика, Москва, 1920.

Tarixçi dürlü vəsiqələri axtarıb taparaq, onlar üzərində bir insanın, yaxud insan cəmiyyətlərinin dürlü dövrlərdə, dürlü vəziyyətlərdə elə, yaxud belə hərəkət etməsindəki səbəb və nəticələri izah etməyə çalışır.

Ədəbiyyat tarixçisi müəyyən dövrdəki ədəbi cərəyanları, ədəbi zövq və üslubları və bunların sinfi münasibətlərlə əlaqəsini meydana çıxartmaq yolunda çarpışır. O, həqiqi həyatı, ölmüş, bitmiş deyil, bəlkə, müəyyən dövrün həqiqi həyatını o zamanın şair və sənətkarlarının necə gördüklərini, necə təsəvvür etdiklərini əvvəla göstərməyə, sonra izah etməyə çalışır. Hər hansı bir yazılı vəsiqə tarixçi və ədəbiyyat tarixçisi üçün eyni nöqteyi-nəzərdən və eyni dərəcədə mühüm deyildir. Tarix üçün vəsiqənin əhəmiyyəti müəyyən hadisələri, vəq'ələri doğru və yaxud yanlış surətdə bilməsi etibarilədir. Ədəbiyyat tarixçisi üçün isə daha artıq onun özü, vəsiqənin ehtiva etdiyi üslub, dil, zövq və məfkurə mühümdür. Tarixçi belə bir vəsiqənin mündəricəsi ilə əlaqədar olduğu halda, ədəbiyyat tarixçisi hər şeydən ziyadə onun ədəbi əsərlər silsiləsi və növləri arasındakı yerini göstərməklə məşğuldur. Məsələn, Orxon kitabələrini aldığımız zaman türk-tatar xalqlarının müəyyən üç yüz il və əvvəlki keçmişlərinə aid olan bu abidələrin həm ədəbiyyat tarixçisi, həm də tarixçi üçün çox böyük qiyməti, əhəmiyyəti vardır. Tarixçi V.V.Bartold bu abidələrin tədqiqinə tarix nöqteyi-nəzərindən yanaşdığı və bu abidələrin böyük tarixi əhəmiyyətini mükəmməl surətdə meydana çıxardığı kibi, ədəbiyyatçı və yaxud lisançı Tomsen, Radlov, Banq kibi alimlər də lisani və ədəbi cəhətlərdən hər zaman nümunə xidmətini görə biləcək qiymətli tədqiqlərinə bu abidələri mövzu etmişlərdir.[49]

Təbii hər yazılı əsər tarixi vəsiqə olamaz. Digər tərəfdən, tarixçi bütün əsərini yazılı vəsiqələr üzərinə bina edəməz. Buna görə bu cəhətdən tarix ilə ədəbiyyat və lisan tarixini bir-birindən ayırmaq zəruridir.

[49] Doğrudan da, Bartoldun "Əski türk kitabələrinin tarixi əhəmiyyəti "adı ilə yazıb 1897-də Petersburqda nəşr etdiyi [əsər] Nəcib Asim tərəfindən türkcəyə tərcümə edilmişdir. "Orxon kitabələri" (1341), yaxud Edvard Şaranın "Qərbi tokyolara aid vəsiqələr" adı ilə yazılıb, 1903-cü ildə Petersburqda nəşr edilən mühüm əsəri ilə Tomsenin "Orxon kitabələri" adı ilə 1896-da Helsinqforsda nəşr olunmuş əsərini, yaxud eyni müəllifin eyni kitabələr haqqında "Tursika" adı ilə yenə Helsinqforsda 1915-də nəşr olunmuş əsərini, Radlovun "Moğolustanın əski türk kitabələri"ni (1897), Banqın "Göy türkcədən osmanlıcaya" (Berlin, 1917-19) adındakı əsərlərini bu nöqteyi-nəzərdən tədqiq etmək türk tarixçisi ilə lisançı və ədəbiyyatçısı arasında hər iki tərəfi maraqlandıran bir mövzuya nə surətlə yanaşmaq lazım gəldiyi və bunlar arasında iş bölümü haqqında faydalı və açıq bir fikir verərlər. Eyni surətlə türk-tatar xalqlarının hər hansı yazılı abidəsini tədqiq etmək qabildir.

Bununla bərabər, tarix ilə ədəbiyyat tarixinin, yuxarıda söylədiyimiz kibi, mahiyyətləri bir olduğundan onların elm ola bilmələri, yuxarıda qoyulan ümumi tələblərə cavab verə bilmələri eyni və müşabeh şərtlər içərisində vüquya gələ bilər. Əsas etibarilə, elmi düşüncə iki yol ilə fəaliyyətdə bulunur: 1) Qanunları təsbit edər **(номотетический)**, 2) hadisələri təsvir edər **(идеографический)**. Birinci halda hadisələrin meydana gəlməsində rol oynayan qanunlar, ikinci halda müəyyən kateqoriyaya aid hadisələr müfəssəl surətdə təsvir olunur. Bir çox elmlərdə hər iki cəhət də işlənir. Bu arada ədəbiyyat tarixi tədqiqləri də ədəbi hadisələrin təsvirindən hərəkət edir və xüsusi əsərlər ayrı hadisələrdən başlayaraq, ümumiyə, tipə, dövrə və o dövrün üslub və cərəyanlarına qədər çıxmağa çalışır. Bu işində ədəbiyyat tarixçisi də, təbiiyyatçı və tarixçi kibi, ədəbi yaradıcılığın inkişafını öyrənirkən əsri və elmi tədqiqin bütün fikri əməliyyələrini istiqra (induksion), istedlal (deduksion), təcrid (abstraksion), təyin (determinasion), qiyas və təsnif... yapmağa məcbur olur. Bunsuz onun çalışmasından çıxacaq nəticələr heç bir surətlə elmi olamaz və qiymətli bir ədəbiyyat tarixi tədqiqi sırasına girəməz.

P.N.Sakulinin dediyi kibi, artıq bu gün heç kimsə ədəbiyyat tarixinin "tarixi inkişafında bədii ədəbiyyatı öyrənmək məcburiyyətində olduğunu", yəni bu elmin mövzusu[nun] bədii "ədəbiyyatın tarixi inkişafı"[ndan][...] başqa bir şey olmadığını inkar edə bilməyir.[50] Bununla bərabər, zamanımıza qədər tarixi-ədəbiyyatın ayrı bir elm olduğuna şübhə edənlər çox-çoxdur. Bəziləri bununla bərabər, tarixi də əlavə edərək, hər şeydən əvvəl bu elmlərdə müşahidə və təsbit işindən başqa bir şeyin qabil olmadığını, bunlarda, məsələn, təcrübənin **(эксперимент)** yeri tapılmadığını ileri sürürlər. Halbuki ən qəti elmlərdən sayılan astronomiya – heyət elmində də bu təcrübə qabil deyildir.

Bəziləri ədəbiyyat tarixinin tapıb çıxardığı qanunların sabit və daimi olmadığını göstərirlər. Əcəba, hansı elmin tapdığı qanunlar daimi və sabit bir qiymətə malikdir? Təbii elmlərin qanunları 19-cu və 20-ci əsrlərdə bir çox nöqtələrində kəsişmələrə uğramışdır. Bu gün mexanik, fizik elmləri sahəsində də eyni böhranı görməmək qabil deyildir. Elmi fikirlərin getdikcə kəskinləşməsi, tədqiqlərin daha dərin və daha geniş bir miqyas və surətdə götürülməsi hər elmin hissəsinə bir çox yeni nəticələr, imdiyə qədər məlum olmayan qanunlar çıxarır.

[50] П.Н.Сакулин. Социологический метод в литературоведении. М., 1925, стр. 24.

Bəziləri deyirlər ki, riyaziyyat və təbiiyyat kibi elmlərdə tədqiq edən insan olduğu halda, tədqiq mövzusu təbiətdə, xaricdəki hadisələrdir. Bu hadisələr insanın iradə, arzu, qiymətvermə kibi şəxsi məziyyətlərinə bağlı deyildir. Halbuki tarixi elmlərdə insan eyni zamanda həm tədqiq edən, həm də tədqiq mövzusu olur. Halbuki bu yanlışdır. Çünki ədəbiyyat tarixinin tədqiq etdiyi bədii əsərlər artıq bizim iradə və arzumuza bağlı olmayaraq, xaricdə lap təbii hadisələr kibi mövcud bulunur. Onun ehtiva etdiyi şeylərin dəyişməsi, dəyişdirilməsi qabil deyildir. Dəyişən bu əsəri oxuyan, işlədənlərin ona ətf etdikləri qiymətdir. Bu nöqtədən başqa bir etiraz daha qarşımıza çıxır. O da bizim ədəbi əsər və hadisələrə ətf edəcəyimiz qiymətlərin şəxsi, ənfəsi (subyektiv) olması və binaən əleyh daimi və qəti xarakter və mahiyyət daşımamasıdır. Bu ehtimal vardır. Yalnız tarixi-ədəbiyyat meydanında deyil, aşağı-yuxarı insanın mühit və hadisəyə verdiyi bütün qiymətlər haqqında bu şəxsi nöqtəni tapıb çıxarmaq qabildir. Burada olduqca müfəssəl surətdə göstərdiyimiz kibi, bədii əsərləri yaradan sənətkar daima sinfi təsirlərin təzyiq və nüfuzu altında bulunmuşdur. Eyni surətlə ədəbiyyat tarixçisi də, ümumiyyətlə tarixçi, yaxud başqa elmlərin əhlləri kibi, öz sinfi mahiyyətini əsərlərinə qarışdıra bilər. Lakin bu hər hansı bir elm sahəsinin, yaxud onun meydana qoyduğu məhsul və nəticələrin diqqətəlayiq olmadığını heç bir dürlü isbat edəməz. Ədəbi əsərlərə tənqidçinin verdiyi qiymət ilə ədəbiyyat aliminin bağladığı hökm məsələlərini bir-birlərindən ayırmaq lazım gəlir. Bir əsərin gözəl, çirkin, müvəffəqiyyətli, müvəffəqiyyətsiz olması ayrı bir şey, onun haradan və necə gəlib çıxdığı daha başqa bir şeydir. Bu surətlə ədəbiyyat tarixçisinin vəzifəsi əsərə qiymət verməkdən ziyadə, onu elmi mənasında anlamaqdır. Doğrudan da, hansı[sa] bir adam türk ədəbiyyatının bir çox ölkələrdə onuncu əsrlərdən başlayaraq ərəb, bilxassə fars ədəbiyyatları təsiri altına düşdüyünü, nəhayət, on doqquzuncu əsrin ortalarından alaraq Avropa ədəbiyyatlarının təsiri görülməyə başladığını inkar edə bilərmi? Bununla bərabər, bu təsirin nəticə etibarilə yaxşı və yaxud yaman, müsbət və ya mənfi olduğu haqqında istədiyiniz qədər münaqişə etmək, dürlü mütaliələr meydana sürmək mümkündür. Necə ki, son zamanlara qədər ədəbiyyat tarixçilərimizin bir çoxu, öz əsil vəzifələrini kənara qoyaraq, ancaq belə məsələlərlə məşğul ola gəlmişlərdir. Ədəbiyyat tarixçilərini elmi yoldan çaşdırıb, şəxsi və qiymətsiz və hissi sahələrə düşürən belə

maneələri akademik Perets yuxarıda söylənən əsərində[51] doqquz nöqtədə toplamışdır ki, mühümləri bunlardır: 1) ədəbiyyat tarixçisinin öz mühitində hakim sinfin zövqünə görə tərbiyə alıb, bu surətlə bəzi ədəbi əsərlər və yaxud hadisələri başqalarından üstün və yaxud aşağı görməsi; məsələn, Rusiyada on səkkizinci əsr münəvvərlərinin "aşağı" və "qiymətsiz" mujik – köylü şərqisinə, ədəbiyyatına qarşı duyduqları nifrət;[52] 2) hazır, lakin yanlış fikirləri təkrar etmək adəti; 3) nəticə və hökmlərdə əcələ etmək və topladığı materialla mütənasib olmayan tə'mimlər yapmaq; 4) elmi tədqiqlərin qarşısına çıxan maneələrdən zamanımızda ən ziyadə yayılmış olanı, şübhəsiz, birinci mənbələri buraxaraq, yalnız başqalarının fikirlərini əks etdirən hazır rəhbərliklər ilə qənaətlənmək[dir].

Yalnız mütəxəssislər arasında deyil, ədəbiyyat tarixinin bir elm olub-olmaması haqqında ədəbiyyat müəllimlərinin özləri arasında da böyük şübhə hökm sürməkdədir. Dil və ədəbiyyat tədqiqlərinə həsr edilən bir çox məcmuələrdə bu davanın davam edib getməkdə olduğunu görürük. Bu cümlədən "Məktəbdə ana dili" məcmuəsinin yeddinci nömrəsində bu məsələ haqqında üç məqalə nəşr edilmişdir. Bunlardan D.Vvedenski **(Д.Введенский)** tərəfindən yazılmış olan məqalədə mühərririn tarixi-ədəbiyyatını ayrı bir elm olaraq oxunmasına qarşı bulunduğu anlaşılır. Bu zatın başlıca dəlili ədəbiyyatın nə olduğu, ədəbiyyat sahəsinin sərhədləri hələ təyin etmədiyinə aiddir.[53] Rusiya

[51] Крат. очерк метод, стр.17.

[52] Eyni halı biz bir çox ədəbiyyatla məşğul olan adamlarımızda bu gün də görürük.

[53] Родной язык в школе, №7, Москва, 1925. (О литературе, ее научности, способы изучения и преподования, стр. 34). Vvedenskinin məqaləsində əsası bu mühakimələr təşkil edir: Bir qismi deyirlər ki, ədəbiyyat şəkli lisan ədalarının heyəti-məcmuəsidir. İkinciləri, ədəbi növlərin heyəti-məcmuəsidir. Roman, hekayə, dram lirik növlərdir. Üçüncüləri, mühərririn təkrar ediləməyən, təqlid olunmayan şəxsiyyəti, mənəviyyətidir **(психика)**. Dördüncüləri ədəbi əsərləri beynəlmiləl sayır və onları şəkli və ideoloji cəhətindən xalqların, millətlərin bir-birinə təsirindən doğan məhsul kibi tədqiq edir. Beşinciləri, ədəbiyyatı bir çox ədəbi məktəblərdən, klassisizm, romantizm, realizm, naturalizm, neoromantizm, neorealizm, neonaturalizmdən... ibarət sayır. Altıncılar ədəbiyyatı müəyyən bir əsr və yaxud dövrün ictimai həyatına vəsiqələr sayırlar. Nəhayət, yeddincilər, biləks, deyirlər ki, ədəbiyyat saf sənətin **(чистое искусство)** məhsuludur. Binaən əleyh bələkələ, nə olduğu hələ məlum olmayan bilgini məktəblərə soxmaq qabil deyildir. Bundan başqa, yuxarıda söylədiyimiz məcmuənin eyni nömrəsində M.Qriqoryev **(М.Григорьев)** adlı bir müəllim **"В защиту преподавания литературы"** adı ilə yazdığı məqalədə ədəbiyyatın əhəmiyyətindən və onun ayrı bir bilgi sahəsi olaraq məktəb proqramlarında bulunmasından bəhs edir. →

lisançı və ədəbiyyatçılarının qurultayında yapdığı məruzəsində rus lisan və ədəbiyyat üsulçularından V.V.Danilov **(В.В.Данилов)**[54] çox təsirli bir dil ilə bu şübhələrdə ədəbiyyatın məktəblərdəki vəziyyətini və ədəbiyyat müəllimlərinin fəaliyyətini qüsurlu və səbəbçi hesab etməkdədir.

Bura qədər söylədiklərimiz xülasə ediləcək olursa, ədəbiyyat hadisələrini başqa elmlərin, məsələn, tarixin, təbiiyyatın, riyaziyyatın... ilax. tədqiq etdiyi hadisələrdən ayrı olması və binaən əleyh bu ayrı sahəni öyrənmək üçün ayrı tədqiqçilərin, ədəbi hadisələrin təbiətinə uyğun üsulların, bir sözlə, ayrı bir elmin təşkili, yaşaması zəruridir, – deyə bilərik. Şübhə yox ki, ümumiyyətlə sənət, yaxud sənayei-nəfisə kibi, ədəbiyyat da ictimai hadisələrdən sayılmaq icab etsə də, bununla bərabər, başqa ictimai hadisələrdən, ədəbi hadisələri ayırmadıqca onun özünəməxsus mənşə və inkişaf qanunlarını meydana çıxarmaq qabil ola bilməz. Burada Sakulinin bu fikirlərini xatırlamalıyıq: "Şeir hər xalqda və hər dövrdə tapılır. Onu hər yerə və hər zaman şeir qayıran bir şey, bir ünsür var. Yəni şerin özünəməxsus və öz üzviyyətinə görə xüsusi qanunları havi təbiəti vardır... Bunsuz şerin, ədəbiyyatın inkişaf tarixini qoymaq, meydana gətirmək qabil ola bilməzdi.

Bir şeri şairdən ayırmayaraq alırıq. Hər şair hər şeydən əvvəl şairdir. Bunlardan hər biri özünü şair qayıran bəzi xüsusiyyət və məziyyətlərə malikdirlər. Bununla bərabər, hər şair canlı bir cüzdür. Biolojik bir mövcudiyyət olaraq, onlar bütün canlıların keçirdiyi səfhələri – gənclik, kamal və qocalıq dövrlərini keçirirlər. Bu dövrlərdə onların üzərinə həyati (biolojik) və ruhi (psixolojik) amillər təsir edir".[55]

Ədəbiyyat tarixinin, yaxud şeri sənətə dair yapılan tədqiqlərin heyəti-məcmuəsi, heç şübhəsiz, ayrı bir elm təşkil etməyə kafidir. Bu həqiqətin imdiyə qədər gərəyi kibi anlaşılmamasına başlıca səbəb əvvəla ədəbiyyat sahəsinin, bir tərəfdən, ən qarışıq ictimai hadisələr zümrəsinə mənsub olması, digər tərəfdən, ədəbi yaradıcılıq sahəsinin

→ "Ədəbiyyat yeni rolda" **("Литература в новой роли")** adı ilə üçüncü məqaləni yazmış olan Leonid Boqoyavlenski **(Леонид Богоявленский)** beş nöqtədə ictimaiyyat ilə ədəbiyyat tarixi arasında bulunan rabitələri xülasə edərək, məktəblərdə də ictimaiyyatla bərabər oxudulmasını təklif edir.

[54] Изучение литературы в школе (сборник под редакцией А.М.Лебедева), стр.14-18.

[55] Социологический метод в литературоведении., стр.28-29.

az bir zamanda vəsəti tədqiqlərlə qavranamayacaq qədər geniş olmasıdır. Bunun üçün ədəbiyyat tarixi hələ çox ibtidai dövrdə bulunmaqda və elm olaraq özünə layiq olan mərtəbə və dərəcəni qazanmaqdadır. Buna, nəhayət, ədəbiyyat tarixi üsulçularının və məktəblərdə ədəbiyyatı təmsil edən tədrisçilərin bu xüsusda üsul və tədqiq cəhətindən, başqa elmlərə nisbətlə geridə qaldıqlarını da əlavə etməliyik. Ədəbiyyatın əiddi bir elm sahəsi olaraq tanılması üçün onun tədqiq və tədrisinə aid üsulları layiqli dərəcədə inkişaf etdirmək lazımdır ki, gələcək bəhslərimiz həmin bu xüsuslara həsr ediləcəkdir.

ƏDƏBİYYATIN TƏDQİQİNDƏKİ DÖVRLƏR

Qrek və romalılarda ədəbi tədqiqlər. Orta əsrlərdə ədəbiyyat tarixçiliyi. İntibah dövründə. On yeddinci və on səkkizinci əsrlərdə. Yaxın Şərqdə ədəbiyyat tədqiqlər

Son əsrlərdə ədəbiyyatın bir elm olaraq qəbul olunmasından sonra onun hansı üsulla çalışsa məqsədinə daha tez, daha yaxın vara biləcəyi məsələsi qarşımıza çıxar. Hər hansı bir elm sahəsində üsul məsələsini çözmək üçün indiyə qədər bu meydanda nə kibi üsullarla işləndiyini gözdən keçirmək, yəni ədəbiyyatın tədqiqindəki dövrlərlə aşina olmaq lazım gəlir.Üsul məsələsinə doğrudan-doğruya keçmədən bu məsələni qısadan izah etməliyik.

Avropada ədəbiyyat tarixi az-çox ciddi və elmi bir sahə olaraq 19-cu əsrin başlarında zühur etmiş isə də, insanların ümumiyyətlə ədəbi yaradıcılığı tədqiq etməyə, öyrənməyə başlamaları çox əskidir. Avropa ədəbiyyat tarixi, renessans-İntibah dövründən başlayaraq, əski dünyanın qrek, Roma bəqiyyələri üzərində yüksəldi. Binaən əleyh Avropa ədəbiyyat tarixçiliyinin mənbəyi də həmin bu əski aləmi-mədəniyyət dövrü oldu.

Miladi-İsadan altı əsr əvvəl Yunanıstanda "İliada" və "Odissey" kibi Homerin adına isnad olunan əsərləri toplamaq təşəbbüsünü görürük. Məlum olduğu üzrə, Perikles dövrü adlandırılan bu zamanda eyni surətlə ədəbi tənqid də özünü göstərir. Pisistrat zamanında Atinada bir neçə kütübxana olduğunu bilirik. Miladdan əvvəl beşinci əsrdə bir çox xüsusi əllərdə də kütübxanalar var idi. Yəni ədəbi materiallar toplanırdı. Aristofan adındakı yunan alimi "Qurbağalar" əsərində faciələr haqqında fikir yürüdür, tənqid edirdi. Aristot özünün "Poetika"sında **("Поэтика")** şəkil ilə mündəricəni bir-birindən ayırır, "Ritorika" **("Риторика")** adındakı əsərində nasir **(прозатор)** mühərrirlərin üslub və ədalarını təhlil edir.

Miladi-İsadan üç əsr əvvəl ədəbiyyat və lisaniyyat tədqiqlərinin mərkəzi İsgəndəriyyə **(Александрия)** olmuşdur. Burada toplanan alimlərin, filosofların lisan və lisaniyyat haqqındakı fikirləri, nəzəriyyələri əsərimizin birinci qismində olduqca müfəssəl surətdə izah və şərh olunmuşdur.[56] Ptolemey – Bitlemius ailəsindən olan padşahlar

[56] Bu əsərin birinci qismi "Dil və fəlsəfə" bəhsinə baxınız.

tərəfindən burada böyük bir ədəbiyyat kütləsi yığılmışdı. O vaxtdakı ədəbiyyatın bütün əlyazmalarından ibarət olduğu düşünülürsə, bu qədər müntəzəm və böyük kütübxanaların meydana gətirilməsindəki güclüklər özlüyündən anlaşılır.

Bu əlyazmalar bir çox adamlar tərəfindən kopya edilərək, bir çox yerləri bəzi dəfə hətta kitabın və mühərririn adları ilə də keçdiyindən İsgəndəriyyə ədəbi və elmi heyətinin birinci qayğısı bu əlyazmalarının birinci və əski şəklini meydana çıxarmaq idi. Həmin bu qayğı və məqsəd onların iş planını təyin edirdi: 1) müəyyən ədəbi əsərləri cədvəlləmək **(каталогизация)**, 2) mətnlərini tənqid və islah, 3) əski mətnlərin anlaşılmayan yerlərini təfsir və şərh etmək, 4) müəllifləri məchul olan, adları bəlli olmayan əsərlərin ünvanlarını və müəlliflərini meydana çıxarmaq, 5) bədii əsər haqqında o zamanda mövcud olan nəzəriyyələrə uyduraraq, bu ədəbi əsərlərin təhlilinə girişmək. Bu vaxtdakı alimlərin nə qədər çalışdığına 800 tumardan (yazılı dəri) ibarət olan təfsir və bir çox orijinal əsərlər yazmış olan Aristarx ilə bütün İsgəndəriyyə kütübxanasının elmi təsvirlərini meydana gətirən Qallimax misal ola bilir. Bir az sonra Luqiyan tarix yazmaq üsulu haqqında ayrı bir əsər meydana gətirir. Burada Luqiyan tarix ilə şeri bir-birindən ayırır. Bu iki fikri hadisənin məqsədləri başqa-başqa: şeir (ədəbiyyat) həqiqət və şaniyyət ilə bağlı deyil, tarix isə faydanı göz önündə tuta bilməz. Bunun üçün bir taqım süni və düşünülüb çıxarılmış zinətlərə, üslubi artırmalara ehtiyac yoxdur.

Romaya gələcək olursaq, burada başqa cəhətlərdə olduğu kibi, bu xüsusda da Yunanıstanın təsirini görürük. Horas **(Гораций)** "Pizonlara risalə" adilə miladdan bir əsr əvvəl yazdığı əsərində, bəzi elmi qaydalardan başqa, nəzəri və mühüm heç bir prinsip ortaya ata bilmir. Horasa görə, şair "xoş" ilə "faydalı"nı birləşdirməlidir. Yenə eyni vaxtlarda xətiblik sənətinin əsasları haqqında bir əsər meydana qoymuş olan Kvintilian **(Квинтилиан)** nəsr sahəsində eyni mahiyyətdə əməli qaydalar vəz etməyə çalışmışdır. Birinci xristian alimləri də ədəbi əsərlərə yalnız fayda və əməli nöqteyi-nəzərdən baxırlar. Buradan Origen **(Ориген)** əski yəhudi Bibliyası ilə bunun yunanca edilən tərcümələrini bir-biri ilə müqayisə edir (miladi 182-251). Qezixi **(Гезихи)** tarix, ədəbiyyat və ətiqiyyat (arxeoloji) ensiklopedisinə bənzəyən "Lüğət"ini yazır (miladi 4[-cü] əsr). Nəhayət, onuncu əsrdə müəllifinin vase məlumatı olduğunu göstərən "Soydaleksikon "adındakı əsər meydana gəlir.

Əski Bizansda yunan şair və filosoflarının əsərləri öyrənilirdi. Bu tədqiqlər, deyə bilərik, 14-cü əsrə qədər davam etdi. Ümumiyyətlə xristianlıq Şərqdə və bilxassə Qərbdə əski yunan və Roma əsərlərinə düşmən gözü ilə baxdığından, bütün qüruni-vüsta yunanca əski alim, ədib və filosofların əsərləri ilə müqayisə edilə biləcək taliflər bu dövrdə görünmür.

İntibah dövrü, məlum olduğu üzrə, yunan və Roma ədəbiyyatına olan məhəbbəti ilə ortaya atıldı. Renessansı təmsil edən adamlar eyni zamanda əski dünyanın yunanca və latınca əsərlərini araşdırmağa, onları toplamağa və təbliğ etməyə qoyuldular. Qüruni-vüsta ədəbiyyatında təbiət və insan bulunmur.[57] Halbuki İntibah dövrü öz zamanının şair və ədiblərinə çox böyük qiymət verir və insan ədəbiyyatın mərkəzində yer alır.

Həmin bunun üçün də İntibah dövrü bizə çox tərcümeyi-hal – bioqrafi buraxdı. Eyni zamanda ədəbi əsərlərə olan məhəbbət və maraq da son dərəcəyə varır. Məsələn, 1364-cü ildə anadan olduğu məlum olan Leonardo Bruni **(Леонардо Бруни)** qadın, erkək – hər kəs üçün ədəbi əsərləri oxumağı lazım və zəruri sayır və şeir, ədəbiyyatı fəlsəfədən yüksək hesab edir. Şeirdə nümunə əski yunanilər, nəsrdə nümunədə romalılar olur. Eyni zamanda əski dövrə aid olub, bir çox kopyaçılar tərəfindən mətni və üslubu pozulmuş olan əsərlər tənqid və müqayisə yolu ilə əski halına qaytarılır. Təbii, bu nöqtədə İntibah dövrü ədəbiyyatçılarının nə qədər müvəffəqiyyət qazandıqlarını söyləmək gücdür. Lakin hər halda tənqid və müqayisə kibi müəyyən üsulların doğması nöqteyi-nəzərindən bu başlanğıcın ədəbiyyat və hətta mədəniyyət tarixi üçün çox böyük əhəmiyyəti vardır. On dördüncü əsrdən on altıncıya qədər davam edən zaman içində filoloqlar İsgəndəriyyə ədəbi və fəlsəfi məktəbinin bundan bir çox əsrlər əvvəl yapdığı işi təkrar, yenidən yapmaq məcburiyyətində qaldılar. Yalnız İntibah dövrünün alimləri şeir və ədəbiyyatı elmdən və şairi tarixçidən ayıra bilmirlərdi. Ancaq on altıncı əsrdə fransız alimləri Boduen **(Бодуэн)** və Beni **(Бени)** tarixçinin sənəti (yəni üsul və mövzusu) ilə şair və xətibin sənəti arasındakı fərqi qeyd edə bildilər. Daha sonra gənc Skaligerin **(Скалигер)** 1651-də yazdığı "Poetika" **("Поэтика")** namındakı əsərilə fransız klassisizmini yuxarıda gördüyümüz vəchlə

[57] Ümumiyyətlə, insanlar ibtidai dövrdə təbiətin o qədər fərqində deyildir. Bu xüsusda Plexanovun "За двадцать лет. Эстетическая теория Чернышевского" məqaləsinə baxın.

hazırlayan "üç vəhdət" və başqa bunun mütəmmimi olan nəzəriyyələr meydana gəlir.

İntibah dövrü alimlərinin mütəmadi müvəffəqiyyətləri, ortaya yüzlərcə kitabiyyata **(библиография)**, tərcümeyi-hala **(биография)** aid əsərlər çıxardı.

"Ədəbiyyat tarixinin atası" alman alimi Konrad Gessner **(Конрад Гесснер)** sayılır (1516-1556). Bu adam "Ümumi kütübxana" **("Всеобщая библиотека")** adı ilə yazdığı əsərində, deyə bilirik ki, ilk dəfə əski və yeni zaman ədib və mühərrirləri haqqındakı məlumatı toplamış. Bu kitab yalnız kataloq olub, tarix deyildir. Bundan sonra yazan Fexner **(Фехнер)** də əsərini eyni ruh və qəlibdə meydana gətirmişdir **"Theatrum virorum eruditione clarorum"** adını daşıyan bu kitabda tənqidsiz və təhlilsiz bir surətdə yalnız mühərrirlərin deyil, eyni surətlə bəzi məşhur adamların tərcümeyi-halları da toplanmışdır. "Ədəbiyyat tarixi"[58] sözü birinci dəfə Lambek **(Ламбек)** adlı zatın **"Prodromus historiae litterariae"** adındakı əsərində peyda olur. Lambekin **(Petri Lambeku)** bu əsərində elmi əsaslar və təhlillərə rast gəlirik. Vaxler **(Вахлер)** adlı alim bütün bu imdiyə qədər sayılan və bu mahiyyətdə bulunan əsərlər haqqında bu mütaliələrdə bulunur: "Əsrlər boyunca ədəbiyyat tarixi hafizəni yükləmək və ismi-xaslarla (yəni mühərrir və ədiblərin adları ilə) oynamaqdan ibarət idi. Ədib **(литератор)** adını ən əhəmiyyətsiz şeylər haqqında material və təfsilat toplayan adamlar qazanırdı. Məsələn, alim olmaqla bərabər, çəkməçi olanlar, yaxud dərziliklə məşğul olanlar, əkiz olaraq doğanlar, yaxud öz ölümünü əvvəldən xəbər verən şairlər və ilax. Bu ədiblər ədəbiyyat tarixçiləri içində ən irəli gələnləri, hər mühərririn doğduğu, öldüyü ili, bütün silsiləsini, şəcərəsini, əsərinin neçə səhifə olaraq harada, nə vaxt, nə şəkildə nəşr olunduğunu bilənlər idi".

Doğrudan da, İntibah dövrünün alimləri biblioqrafi və bioqrafidən o yana gedə bilmədilər. On altıncı əsrin sonlarına doğru ədəbiyyat tarixinin yapacağı işlər bitməmiş və yavaş-yavaş kökləşmiş olan bəsit qaydalar bu sahədə yenidən özünəməxsus bir sxolastika sahəsi doğurmaq ərəfəsində bulunurdu.

Həmin bu illərdə, bütün aləmdə olduğu kibi, ədəbiyyat sahəsində də bu vaxta qədər heç görülməmiş bir yenilik, canlılıq, heç mübaliğəsiz

[58] Bu əsərin əsli və müfəssəl ismi böylədir: "Biolitheca universalis sive catalogus omnium scriptorum".

deyə bilərik ki, böyük bir inqilab özünü göstərdi. Bu yeni dövrü Beykinin və Dekartın əsərləri açır. Beykin (1561-1625) birinci dəfə elmi tədqiq üçün zəruri olan prinsipləri (müşahidə, təcrübə və istiqra üsulu ilə məsələləri tədqiq, hadisələrin təsnifi, səbəbiyyət bağlarını tapıb çıxarmaq və qanunların öyrənilməsini) təyin etdi və birinci dəfə tarix ilə ədəbiyyatın yerlərini göstərdi və tarixin növləri haqqında tədqiqatda bulundu. Eyni adam üsulun zəruriliyini isbat etdiyi kibi, ictimai və coğrafi şərtlərin tarixin gedişi üzərinə olan təsirini yalnız göstərməklə qalmayıb, bu təsirin əsaslarını və yollarını da təhlil və tədqiq etməyə girişdi. Dekarta gəlincə, bu fransız filosofu hər şeydən əvvəl tənqid fikrinin doğmasına və qüvvətlənməsinə yardım etdi və bu surətlə tarix və ədəbiyyat tarixi üsullarının irəli getməsinə səbəb oldu.[59] Bunların da yanında üçüncü bir zatın – italyan alimi Vikonun **(Вико)** "Yeni elmin prinsipləri"[60] adındakı əsərini göstərmək lazım gəlir. Viko bu əsərində 19-cu əsrdə tarixin rəhbər fikirləri və əsasları halına gələn prinsipləri irəli sürmüşdür. Lakin, məəttəəssüf, bu italyan əsəri öz zamanında lazım gələn təsiri yapa bilmədi və Vikonun fikrindən bir çoxunu alimlər on doqquzuncu əsrdə yenidən və özbaşlarına kəşf etmək məcburiyyətində qaldılar.

Vikonun bu kitabında, söylədiyimiz kibi, ədəbiyyat tarixi üçün də son dərəcə mühüm nöqtələr vardır. Məsələn, Viko deyir ki, xalqların, millətlərin həyatında müəyyən qanunilik vardır ki, bu səbəbdən dürlü xalqların həyatı və mədəni inkişafı bir-birinə bənzəyən yollarla gedir. Yeni elm üçün mənbə və əsas fəlsəfə və filolojidir. Bunlardan ikincisi, filoloji, həqiqət və faktlar üzərinə qurulmuş elm olub, fəlsəfənin nəzəriyyələrinə əsas olacaq kibi materiallar ərz edir. Viko təbiəti-insaniyyənin birliyini, bəzi cüzlər və məhəlli boyalar çıxarılacaq olursa, fikir və düşüncə qanunlarının yollarının ümumiliyini qəbul edir. İbtidai adam, Vikonun fikrincə, çocuğa bənzəyirsə də, onda yaradıcılıq istedadı var ki, bu yaradıcılığın nəticə və məhsulu da şeirdir. Birinci

[59] Dekartın bu yoldakı fikirləri onun bu qaydalarında olduqca açıq surətdə anlaşılır: 1) tələsik və dəlilsiz hökm vermək kibi bir xəta irtikab etməmək üçün ağlın bədii surətdə tanımadığı şeylərdən heç birisini də doğru olaraq qəbul etməməli; 2) hər məsələ həll edilməsi asanlaşmaq üçün parçalara ayırmalı; 3) daima on bəsit və sadədən işə başlayaraq, tədrici surətdə mürəkkəbə doğru getməli və hər nə qədər hadisələr arasında təbii təaqüb olmasa belə, müəyyən bir sıra və nizam meydana gətirmək; 4) heç bir parçanın unudulub qalmadığı haqqında tam bir qənaət hasil edə bilmək üçün tədqiq sahəsinə girən məsələləri hər tərəfindən yoxlamaq, araşdırmaq.

[60] Bu əsər 1725-ci ildə nəşr olunmuş idi.

mədəniyyət dövrəsində ədəbiyyat və şeir insanlar üçün fəlsəfə və elm yerini tuturdu. Lakin burada, fəlsəfə və elmdə olduğu kibi, təcrid və tə'mim (abstraksion və generalizasion) olmayıb, hər şey, hər ünsür bu şeirdə xəyal və duyğudan ibarət idi. Həmin bunun üçün də işarət və təsvir dili söz dilindən əvvəl gəlir. Mənzum söz hər yerdə mənsurdan əvvəl gəlir. Öz zamanındakı yanlış əqidələrə qulaq asmayaraq xalq ədəbiyyatının tədqiq edilməsində böyük əsas görür. Oxucuya məlum olduğu üzrə, bu fikirlərin həman cümləsi on səkkizinci və on doqquzuncu əsrlərin elmi və fənni tədqiqlərilə parlaq surətdə isbat edilmişdir.

Yeni dövrün ədəbiyyat tarixi xüsusundakı fəaliyyətinə və ileri sürdüyü prinsiplərə keçmədən əvvəl, qısadan olsa da, Yaxın Şərqin bu növ fəaliyyətlərini də gözdən keçirməliyik.

Məlum olduğu üzrə, türk-tatar xalqlarının filologiyaya aid fəaliyyəti və bu fəaliyyətin nəticəsi olan əsərlər hər şeydən çox ərəblərin təsiri altında yazılmağa başlamışdır. Bunun üçün də ərəblərin bu xüsusdakı fəaliyyətinə dair bəzi cizgiləri burada göstərməliyik.

Ərəb dili və ədəbiyyatının tədqiqi daha əməvilər dövründə başlayır. Əgər ilk dörd xəlifə zamanında Qur'anın dürlü hafizlər tərəfindən toplanıb yazılmasını və "Suqi-Ukaz" adı verilən və cahiliyyət (qəbləl-islam) dövründə böyük iqtisadi və ictimai rol oynamış olan bazarda hörmət və təqdir qazanmış olan şairlərin bəzi əsərlərinin Kəbə divarlarına "müəlləqə" namilə asılmasını çıxaracaq olursaq, ərəb dili və ədəbiyyatının tədqiqi həqiqətən əməvi xəlifəsi Əbdülmalikin divan dili olaraq ərəb dilini qəbul etməsindən, yəni yeddinci miladi əsrin sonlarından başlayır. Burada ərəb dilinin rəsmiliyə keçməsindən başqa, Qur'anın ədəbi və lisani bir nümunə olaraq meydana çıxması da olduqca böyük rol oynamışdır. Bununla bərabər, yalnız Qur'an kafi deyildi. Bunun üçün 694 və 771 illəri arasında yaşamış olan Həmmad əski ərəb müəlləqə və cahiliyyə ədəbiyyatına aid nümunələri toplamışdır ki, həmin bu məcmuə Müsəlman Şərqində meydana gətirilmiş birinci ədəbi məcmuədir.[61] Bundan başqa, Qur'anın lisani və ədəbi cəhətdən tədqiqi də "bəsriyyun" adını daşıyan və Abbasilər dövründə öz fəaliyyətinə xitam verən ədəbi heyətin bilikli rəhbərləri tərəfindən meydana gətirilmişdir. Səqəfi (766-da ölmüş), Əbu Əmr (770-də ölmüş), Yunus (798-də ölmüş) beylə adamlardan idi. Geniş məlumatlı İbn əl-Müqəffa (757-də edam edildi) tərəfindən pəhləvi dilindən

[61] История арабов и арабской литературы. А.Крымский, 1911, часть 1, стр. 70.

"Kəlilə və Dimnə" adındakı hekayələr məcmuəsi, rumcadan Aristotun bəzi fəlsəfi və ədəbi əsərləri ərəbcəyə tərcümə edilmiş və eyni zamanda sözün qisimlərinə aid fikirləri də ərəblərə ancaq bu tərcümələrlə məlum olmuşdur.

Abbasilər dövründə Sibəveyh (793-də ölmüş) ərəb sərfini meydana gətirmişdir ki, bundan sonra yazılan sərf kitabları bütün bu əsəri əsas və nümunə olaraq almışdır. Sibəveyh məşhur Xəlil bin Əhmədin şagirdi və xələfi idi. Bu Xəlil ərəb əruzunu, bəlkə, bu xüsusdakı yunan və yaxud başqa xalqların əsərlərindən faydalanaraq, təsbit etdi. İbn Xəlliqan yunanca bildiyini və əruz haqqındakı fikirlərini oradan aldığını iddia edir.[62] Hər halda bunu qətiyyətlə deyə bilirik ki, Xəlil bu nəticələrini xalq ədəbiyyatı nümunələrini tədqiq edərək meydana gətirmişdi. Xəlil bundan başqa "Kitabül-eyn" namilə bir də lüğət kitabı meydana gətirdi. Bundan sonra yenə eyni yolda fəaliyyətdə bulunan alimlər tərəfindən başqa bir məktəb (kufiyyun) qrupu meydana gətirildi. Bunlar əl birliklə çalışaraq və bir-birlərilə çox dəfələr atəşli münaqişələr və davalara girişərək, ərəb ədəbiyyatı və lisaniyyatının zəruri əsaslarını vazeh etdilər. Bunların fəaliyyəti nəticəsində əsrlərcə öz təsirini qeyb etməyən ərəb nəhvi və məani – semantiki elmlərinin qanunları əldə edildi. Bunlar elmi fəaliyyətlərində bu üç mənbədən faydalanırlardı: 1) islamdan əvvəlki şerin dili, 2) Qur'anın dili, 3) özlərinə müasir olan bədəvi ərəblərin və yaxud oxumaq-yazmaq bilən şair və ədiblərin dili.[63]

Miladi onuncu əsrdə artıq son zamanlara qədər əsas etibarilə islam məmləkətlərində öz sima və mahiyyətini qeyb etməyən fəsahət, bəlağət və bəyan... kibi ədəbi bəhslərin təməli qurulur. 889 miladi sənəsində ölən İbn Qüteybə bu saydığımız elmlərin əsaslarını qurur.[64]

Artıq bu zamanlarda, yəni onuncu əsrlərdə türk-tatar xalqları islami nüfuz altına düşüb, öz ədəbi və elmi fəaliyyətlərilə bu aləmdə görünməyə başlayırlar.

Türk ədəbiyyatı materiallarının toplanması və işlənməsi, bununla bərabər, yalnız islamiyyətlə başlamış, – demək xəta olur. Bu xüsusda məşhur türkoloqlardan vəfat etmiş Yojef Turi Çin mənbələrinə

[62] Tarixi-ədəbiyyati-ərəbiyyə. I cild, səh. 248. (Məhəmməd Fəhmi, İstanbul, 1919).

[63] История арабов и арабской литературы. А.Крымский, 1911, часть 1, стр. 72.

[64] Yenə orada, səh. 73. Bu məsələlər haqqında müfəssəl məlumat bu əsərlərdə olduğu kibi, mühərririn "Türk-tatar lisaniyyatına mədxəl" əsərinin 120-141 səhifələrində mövcuddur.

dayanaraq, bu fikirləri yazır: "Elə düşünürəm ki, türklərdə yazının istemalı və ədəbiyyatın müxtəlif şöbələrə ayrılıb işlənməsi nisbətən yaxınlarda inkişaf etmiş bir şey deyil. Bəlkə, ən əski zamanlara qədər irca edilə biləcək bir mənşəni haiz ola biləcəyi kafi dərəcədə məlum bir keyfiyyətdir. Həmin bu ən əski əsərlərə gəlincə, tamamilə etimada şayan tarixi mənbələrə müstənidən bilirik ki, böyük bir qövmi və lisani zümrənin münfərid şöbəsi olan uyğur qövmü ki, öncədən Tyan-şan dağlarının şimal və şimal-şərqi cəhətlərində, sonradan cənub tərəflərində məskən etmişdir, daha miladi-İsadan iki əsr əvvəl yazını bilir və işlədir, miladdan sonra beşinci əsrdə zəngin, parlaq bir ədəbiyyata malik bulunurdu".[65]

Onuncu miladi əsrdə çinli bir səyyah, Van Yanqte uyğur elində bir çox kütübxanalar gördüyünü söyləyir. Eyni surətlə Çin, əcəm və türk tarixləri əskidən bəri türklərin öz vəqayenamələrini təqribən miladdan min il əvvəlindən başlayaraq yazdıqlarını söyləyir.[66] Lakin bunlara aid əlimizdə heç bir vəsiqə, heç bir əsər yoxdur. Orxon kitabələri, "Kutadqu bilik", "Divanü-lüğatit-türk" kibi əsərlərin qiyməti bu səbəbdən daha çox artar.

Orxon kitabələri ibtidai bir dil deyil, bəlkə, artıq bütün ədəbi ənənələri, üslubi şəkilləri ilə işlənmiş bir dildir.[67] "Kutadqu bilik"ə gələcək olursaq, bunun da islami tərzdə yazılmış birinci əsər olduğunu zənn etmək gücdür. "Kutadqu bilik"dəki üslubi tərkiblərin və şəkillərin on yeddinci əsrə qədər bir çox əsərlərdə, məsələn, Krım xanlarının on yeddinci əsrə aid bəzi yarlıqlarında[68] təkrar edildiyini görürük.[69]

Bütün bu əsərlər yalnız ədəbi mahiyyətdə olub, ədəbiyyat tarixinə təməl təşkil edə biləcək kibi əsər yalnız Mahmud Kaşqarinin "Divanü-lüğatit-türk"üdür. Bu əsər yalnız lüğət və sərf kitabından ibarət olmayıb, məlum olduğu üzrə, bir çox xalq ədəbiyyatı nümunələrini

[65] On dördüncü əsr sonlarına qədər türk dili yadigarları. Yojef Turi. Milli tətəbbölər məcmuəsi, cild 2, sayı 4, səhifə 84.

[66] Yenə orada.

[67] M.Köprülüzadənin "Türk ədəbiyyatı tarixi", I kitab.

[68] Xan və ya xaqanlar tərəfindən verilən yazılı əmr və qanun.

[69] Bu xüsusda V.Velyaminov-Zernov tərəfindən "Krım yurtına və ol tərəflərğə dair bulğan yarlığlar və xətlər" (**"Материалы для крымского ханства"**) namilə 1864-cü ildə Peterburqda nəşr olunan yarlıqlar məcmuəsinin 9-cu səhifəsində bulunub: "Allah və xoday izəd və iqəd və oğan tanrı təala..." kibi sözlərlə başlayan yarlıqları "Kutadqu bilik"in məlum müqəddiməsi ilə müqayisə etməli. Azərbaycanın əski dərəbəyliyə aid vəsiqələrində də bu kibi nöqtələrə təsadüf olunur.

də ehtiva etməkdədir.[70] Kaşqarlı Mahmud heç bir bəlli-başlı qayda və nəzəriyyə ortaya sürməməklə bərabər, əsəri ilə bu xüsusda yapılacaq tədqiqlər üçün öz zamanına görə mükəmməl bir nümunə ortaya qoymuşdur.

Mahmud Kaşqaridən sonra həqiqətən bir çox alimlər onun açdığı yoldan yarımış və "Divanü-lüğatit-türk"ə bənzər bir çox əsərlər meydana gətirmişlərdir.[71]

Ədəbiyyat tədqiqi də islamdan sonra ərəblərin və onların da təqlid etdiyi qrek nümunələrinə uyaraq meydana gəlmişdir. Son əsrlərə qədər ədəbiyyat tarixinə başlanğıc kibi ala biləcəyimiz əsərlər iki mahiyyətdədir. Divanlar və ya şairlərin məcmuei-asarı, sonra onların tərcümeyi-halları – təzkirei-şüəralar. Yuxarıda qeyd etdiyimiz qüruni-vüstada Avropada gördüyümüz biblioqrafi və bioqrafi dairəsinə girən əsərlərdən bunların fərqləri yoxdur. Lap orada olduğu kibi, Şərqdə də bu əsərlər tənqid və təhlil fikrindən çox-çox uzaq olan adamlar tərəfindən yüzlərcə dəfə kopya edilmiş və bu surətlə əsərlərin əsılləri tanılmayacaq hala gəlmişdir. Məsələn, Əhməd Yəsəvinin "Divani-hikmət"i, Füzulinin əsli divanı əlimizdə bulunmamasının başlıca səbəbi həmin bu kopyaçılardır. Tərcümeyi-hallara gəlincə, bunlara dayanaraq, heç bir şair, heç bir dövr haqqında doğru və qəti məlumat almaq və fikir edinmək imkan xaricindədir.[72] Deməli, on doqquzuncu əsrin sonlarına qədər davam edən qüruni-vüstamızın ədəbiyyat tarixçiliyi əsas etibarilə bu mərkəzdə idi. Bu divan və təzkirələrə bir də ərəb fəsahət və bəlağət qaydalarının tərcüməsindən başqa bir şey olmayan nəzəriyyati-ədəbiyyə kitabları da əlavə olunacaq olursa, ədəbiyyat tarixi sayəsində Avropa qüruni-vüstasından bizimkinin nə dərəcəyə qədər ayrıla biləcəyi özlüyündən anlaşılır. Onların biblioqrafisinə qarşılıq bizdə divan, ritorika və poetikasına qarşılıq fəsahət və bəlağət risalələri, nəhayət, bioqrafilərinə qarşılıq da təzkirələr bulunur. Ümumilik yalnız burasındamı? Daha iləriyə gedərək, ədəbiyyat və

[70] "Divanü-lüğatit-türk" haqqında Nəcip Asim "Əski savlar" ("Ədəbiyyat fakültəsi məcmuəsi"), Martin Hartmanın milli tətəbbölərdə tərcümə edilmiş məqaləsi, professor Jüzenin "Azərbaycan şərq fakültəsi məcmuəsi"ndəki məqalələri (birincisi "Milli tətəbbölər"in 4-cü sayında, ikincisi "Şərqiyyat məcmuəsi"nin I və II qisimlərində).

[71] Bu xüsusda mühərririn "Türk dili və ədəbiyyatının tədris üsulu" əsərinin birinci qismində kafi dərəcədə izahat verilmişdir ("Türk sərfinin tarixçəsi" bəhsinə baxınız).

[72] Türk ədəbiyyatında ilk mütəəvviflər. "Xacə Əhməd Yəsəvinin əsəri" bəhsinə müraciət ediniz.

ədəbiyyat tarixi meydanlarında son zamanlara qədər hökm sürən prinsiplərin, nəhayət, Avropa qüruni-vüstasının da mənbəyi olan İsgəndəriyyə məktəbindən nümunə və ilham aldığını buna əlavə edə bilərik ki, bu surətlə hər iki məmləkətdə, Avropa və Yaxın Şərqdə ədəbi həyatın ümumiliyi tamamilə anlaşılır.

Gərək Qərbdə, gərəksə Şərqdə hökm sürən sxolastik şəkildəki ədəbiyyat tarixçiliyindən çıxaraq, yeni elmi təməllər üzərinə qurulan bir elmi sahənin meydana gəlməsinə, yuxarıda gördüyümüz kibi, Beykin, Dekart, Viko kibi alimlər xidmət etmiş isə, daha sonra gələn alimlər bu təməlləri daha dərin və daha geniş bir surətdə inkişaf etdirmişlər və eyni prinsipləri doğrudan-doğruya ədəbiyyat tarixini meydana gətirmək yolunda tətbiq etmişlərdir.

On altıncıdan on səkkizinci əsrlərə qədər davam edən fransız klassisizm dövrü ədəbiyyat tarixi xüsusunda özünəməxsus ayrı bir dövr təşkil edər. Bu dövrdə insaniyyət və ümumiyyət fikirləri hakim bulunur. Bu da öz sırasında əski qrek və Roma nümunələrinin əsasları ilə bağlanır. Klassisizmin ümumiyyətlə nə demək olduğu haqqında yuxarıda ("Şəkil və məzmun" bəhsində) kafi dərəcədə məlumat verdiyimizdən burada daha ziyadə təfsirə ehtiyac görmürük.

On səkkizinci əsrin sonlarında və on doqquzuncunun başlarında zühur edən romantizm bütün bu vaxta qədər gələn ədəbiyyatla əlaqəsini kəsməyə çalışaraq, ədəbi həyatda bir çox yeniliklər törədir. Ancaq romantizm dövründə şair və sənətkar öz şəxsiyyətini bir taqım quru və mücərrəd qaydaların hökmü altından qurtarır və sərbəst yaradıcılıq imkanını qazanır. Digər tərəfdən, klassisizm dövrünün ümumisi yerinə, məhəlli, insanisi yerinə, milli şüarları qaim olur. Tarixçilər on səkkizinci əsrin ikinci yarısında öz xalqlarına aid ədəbi əsərləri, abidələri araşdıraraq, qüruni-vüstaya və bu dövrün ədəbiyyatına müraciət edirlər.

Bu dəyişmə ədəbiyyatda iki dürlü təsir buraxır: 1) Elmi və ədəbi tənqidin maziyə görə daha sərbəst, daha geniş qayda və prinsipləri təsbit olunmuşdu. Bu xüsusda Vingelman və yuxarıda adı keçən Lessinq kibi adamların böyük yardımları oldu. 2) Ümumi və insani şüarlardan ayrılaraq, ayrı xalqların, millətlərin ruhunu araşdırmağa başlayırlar. Bu zamanın alimlərindən Herder **(Herder)** ədəbiyyatı bu surətlə tərif edir: "Ədəbiyyat bir dildə yazılmış bütün əsərlərin heyəti-məcmuəsi, yekunu deyil, bəlkə, bir xalqın "xüsusi ruhunu" göstərən əsərlərdir".

Odur ki, Herder bu ruhu arayaraq, xalq ədəbiyyatına müraciət etmişdir. Bunun üçün alman xalq ədəbiyyatı parçalarını toplamış və bunları başqa xalqların ədəbiyyatı ilə də müqayisəyə çalışmışdır. Onun "Şərqilərdə xalqların səsi" **("Stimmen der völker in Liedern")** ünvanı ilə yazdığı əsəri xalq ədəbiyyatı parçalarının Qərbdə birinci məcmuəsidir.

Qrimm **(Гримм)** qardaşları Herderin işini davam etdirdilər, burada "xalqların ruhu"nu aradılar. Nəhayət, klassisizm dövründəki alimlərin düşündüyi kibi, seçmə, güzidə xalqların bulunmadığını iddia etdilər. Halbuki klassiklər qrek və Roma xalqlarını böylə güzidə xalqlardan sayırlardı. Hər xalq eyni dərəcədə mədəniyyətə istedadlıdır. Çünki hər yerdə mənəvi və tarixi qanunlar birdir. Bunun üçün Qrimm qardaşları iddia edirlərdi ki, bir-birinə bənzəyən şərtlər içində bir-birinə müşabeh əsərlər doğur. Bir çox yerlərdə, bir taqım xalqlarda bir-birinə bənzəyən əqidə və ənənələrin bulunması bununla izah oluna bilər.

Qrimmlər klassiklərin tanımadığı bir çox əsərləri təkrar ədəbiyyata idxal etdilər. Məsələn, klassiklər [...] xalq ədəbiyyatını, hətta kəlisa ədəbiyyatını da tanımırlardı. Roman şəklində yazılan əsərlər, onlarca, ədəbi deyildi. Çünki Aristot və Horas özlərinin "Poetika"larında belə bir növi-ədəbini zikr etməmişdilər. Onlar bu iki və maraqlı ədəbi növü **(жанр)** filoloji üsulu ilə tədqiq edərək, bir taqım qiymətli nəticələr meydana qoydular.

Bütün bu müsbət cəhətlərinə baxmayaraq, romantik ədəbiyyatçılar subyektivizmdən, şəxsi və hissi hökmlərdən və öz əski alman ədəbiyyatlarını xəyallarında qiymətcə və mahiyyətcə böyütməkdən ötəyə keçəmədilər. Zamanımızın ədəbiyyat tarixçilərinə bənzəyən ilk filoloq Vaxler **(Вахлер)** olub, 1804-cü ildə "Tarixi-ədəbiyyat rəhbəri" adilə buraxdığı kitabda ədəbiyyatı mədəniyyətin və ədəbiyyat tarixini mədəniyyət tarixinin bir parçası hesab edir.[73] Ədəbiyyat tarixi, Vaxlerin fikrincə, insanın fikri həyatındakı mənşə və inkişaf üçün doğru və qəti məlumat ərz edir.

Fridrix Şlögel isə "ədəbiyyat" sözü altında insanın həyatını mövzu olaraq alan əsərləri qəsd edir.

---

[73] Bu fikir yuxarıdakı bəhslərimizdə ismi keçən "Yeni Osmanlı ədəbiyyatı" kibi əsərlər vasitəsilə bizim ədəbiyyat tarixinə aid kitablarımıza da girmişdir. Məsələn, bu əsərin müqəddiməsində "tarixi-ədəbiyyat tarixi-mədəniyyətin bir parçasıdır" deyilir və bunun isbatına bütün bir bəhs təxsis olunur. Hətta daha çox iləri gedərək, eyni mühərrir: "Tarixi-ədəbiyyat tarixi-təkamüli-bəşər, tarixi-mədəniyyət deməkdir", – deyir.

Hervinus **(Гервинус)** adlı alim "ədəbiyyat" altında yalnız şeri **(поэзия)** anlayır. Bununla bərabər, ədəbiyyat tarixçisi estetik-bədii üsuldan vaz keçərək, şeri tarixi üsulla tədqiq və təhlil etmək istəyir. Karyer ədəbiyyat tarixini "fikirlər tarixi"adlandırır. Qetner ingilis, fransız və alman ədəbiyyatları üçün yazdığı tarixdə deyir ki, "on səkkizinci əsrə qədər ədəbiyyat tarixi kitablar tarixi idi, sonra elmi və bədii fikir və şəkillərin tarixi oldu".

Ədəbiyyat və şeir qanunlarını tədqiq yolunda bilxassə fransızlar çalışdılar. Madam Destal, [...] Vilmen, Kizu, Kuzen, Hippolit Ten, Bruntyer bütün fransız alim və ədibləridir. Madam Destal, "Almaniya haqqında" adilə məşhur olan əsərində ədəbi əsərin təxalüf və tənəvvösündə irqin **(race)** təsirini görür.

Kuzen "Fəlsəfə tarixinə mədxəl" namındakı əsərində təbii-coğrafi mühiti ədəbi hadisələri yaratmaqda birinci amil olaraq alır.

Sent Bev adlı fransız filosofu öz ədəbi tədqiqlərində anatomi, fizioloji və psixoloji elmlərindən də yardım almağa çalışır. Bundan başqa, Sent Bev ədəbiyyat tarixini "zehinlərin təbii tarixi" adlandırır ki, bu surətlə ədəbiyyatı təbiət ilə yaxınlaşdırmış olur. Necə ki, Maks Müller də bir az sonra lisaniyyatı yenə təbiət ilə yaxınlaşdırdı.

Hippolit Tenin adilə bağlı olan tədqiqat ədəbiyyat tarixinin inkişaf yolunda son dərəcə maraqlı bir mənzil, mərhələ təşkil edir. Hippolit Ten təbiiyyat elmlərinin bütün istilah və üsullarını ədəbiyyat tarixi üçün iqtibas və qəbul edir. Tenin "yalnız bir əsər vasitəsilə müəllifi tanıya biləcəyini, kiçik bir qırıntısı vasitəsilə bütün bir mədəniyyət sistemini təkrar canlandıra biləcəyini" iddia etməsi ona müasir olan təbiiyyatçıların "bir kəmik vasitəsilə bütün skeleti və aid olan heyvanın təbiətini meydana çıxara biləcəklərini" iddia etmələrini xatırladır. Ten əsasi fikirlərindən birisi olaraq, bu qaydanı ileri sürür: "Əgər qabığı, yumurta qabığını heyvanı tanıya bilmək üçün tədqiq edirlərsə, əsəri də insanı tanıya bilmək üçün öyrənməlidir".

Tencə, ədəbiyyat tarixi nəbatat kibi bir elmdir. Ten romantiklərdən hadisəni öyrənmək üçün onun xarakteristik cizgisini almaq yolunu iqtibas etdi. Ten özündən əvvəlki ədəbiyyat tarixi tədqiqlərini xülasə etdikdən sonra daha ileri gedir və qarşılıqlı rabitə qanunlarını öyrənməyə çalışır. Bu qanunlar da şairin irq, mühit və zaman ilə olan əlaqəsidir. Həmin bu surətlə nəticə; Tencə, ədəbi əsər təsadüf əsəri deyil, bəlkə, səciyyə-xarakterlərin inikası, müəyyən zamanda zehinlərin

bulunduğu vəziyyətin dəlilidir.[74] Eyni fikirlərə Almaniyada Hervinus gəlmişdir. Lakin bu fikirlər onlarda elmi bir üsul, əməli bir taqım tövsiyələrdən başqa bir şey təmsil etmədiyi halda, fransızlarda bu fikirlər qanun əhəmiyyətini qazanmışdır. Fransız alimləri bundan başqa, öz nəzəriyyatçılıqları, nəzəriyyata meyilləri ilə şəkil və şəkli cəhətlərin tədqiqinə daha ziyadə verilmişlərdir.

Romantizm dövrünə qədər ədəbiyyat tarixçiləri guya mündəricəyə görə şəklin çox yavaş, çox az dəyişdiyi fikrində idilər. Birinci ədəbiyyat nəzəriyyələri, "Poetika" əsərini meydana gətirən Aristotdan bu zamana qədər yazılan və bu yoldakı əsərlər bir-birinə bənzəyirdi. Lakin romantizm dövrü bu xüsusda böyük dəyişmələr meydana gətirdi. Bu dövrdə çox gözəl anlaşıldı ki, dəyişən yalnız mündəricə deyil, bəlkə, eyni zamanda həm də şəkildir. Yalnız bu dövrə qədər alimlər yeni şəkilləri hesaba almaq istəmirlərdi.

Fransız akademiki F.Bruntyer "Ədəbiyyat tarixləri növlərinin təkamülü" adı ilə 1890-cı illərdə yazdığı əsərində çox maraqlı bir nəzəriyyə ileri sürdü. O, Bruntyer ədəbiyyatın başlıca şəkli tərəfindən tədqiqini təklif edirdi. Bu zat ədəbiyyat tarixini doğrudan-doğruya təbiət tarixi, təbiət ilə müvazi olaraq qurmaq fikrində bulundu. Onun fikrincə, Darvin ilə Hegelin nəzəriyyələrini doğrudan-doğruya ədəbiyyata tətbiq etmək mümkündür. Təbii növlərin, yaxud cinslərin təkamülü ilə ədəbi növlərin təkamülü eyni şeydir. Binaən əleyh ədəbiyyatdakı lirika, epika, faciə, komedi, kritika, publisistika... kibi növlər Darvinin heyvanlar və otlar içində tapdığı növlər kibi, öz xüsusi həyatı ilə yaşayan üzviyyətlərdir **(организм)**. Bu nəzəriyyəsinə dayanaraq, Bruntyer yeni bir "Poetika" meydana gətirmək istəmişdir. Burada o, ədəbi növlərin təxalüfə (diferensiasiyaya) uğradığını, yəni əski qeyri-müəyyən şəkildə sinkretizm halından çıxıb ayrıldığını, eyni növlərin zaman ilə kökləşməyə müvəffəq olmadığını və nəhayət, şəkillərin intiqalını (transfarmasiyon), bir haldan digər hala keçdiyini göstərməyə çalışmışdır.

Bruntyer şəkillərin dəyişdiricilərini ayrıca tədqiq edir. Nəzəriyyəsinin bu qismində, doğrusu söylənəcək olursa, Bruntyer əski Ten fikirlərinə yeni təsnif və yeni adlar verməkdən o yana keçməmişdir.

---

[74] Ten daima sosiolojiya əsaslar[ın]a dayanan, ictimaini, tarixi, mühiti qəbul edən və bunların hamısından idealistcəsinə bir nəticə çıxaran eklektikdir. Bu xüsusda Plexanovun əsərində tənqid mülahizələri vardır.

Zamanımızda, bir çox tali dərəcədəki nəzəriyyə və bu nəzəriyyələrin doğurduğu qısa dövrləri kənarda buraxacaq olursaq, iki mühüm cərəyan ilə qarşılaşırıq ki, əvvəlki və ilərideki bəhslərimizdə oxucuya bu cərəyanlar haqqında müxtəlif münasibətlərlə bir çox məlumat daha ərz olunmuş olduğunu və olunacağını qeyd etməklə bərabər, tamamlıq xatiri üçün burada bir-iki söz söyləməkdən keçə bilmərik.

Bu cərəyanlardan birincisinin adı şəkilçilik – formalizm olub, gərək Avropa və gərəksə Rusiyada bəhsləri çox-çoxdur. Bunlar içində saf şəkilçilk tərəfdarlarından birisi, bəlkə, birincisi, şübhəsiz, Adolf Qildebranddır. Bu zatın "Təsviri sənətdə şəkil məsələsi"[75] adındakı əsərində şəkli və şəkilçiliyin əsas prinsipləri ortaya qoyulmuşdur. Qildebrandın fikrincə, bədii əsərdə bütün diqqət əsərin çatısına, tərkibinə **(архитектоника)** verilməlidir. Burada əsərin şəkli skeletindən başqa, qalan parçaların əhəmiyyəti yoxdur.[76] Bu cərəyanın başlıca müməssilləri Rusiyada Jirmunski **(Жирмунский)**[77] və Şklovski **(Шкловский)**[78] kibi zatlardır. Bunlar ədəbi əsərin şəkil və mündəricə olaraq alınmasına qarşılıq və onun material və əda **(материал и прием)** olaraq alınıb tədqiq edilməsini təklif edirlər. Onlarca, şeir və ədəbiyyatın materialı, zənn etdikləri kibi, təsəvvür, həyəcan kibi şeylər deyil, bəlkə, yalnız sözdür. Bunun üçün poetika-şeir nəzəriyyatının əsasını lisaniyyat təşkil etməlidir. Ancaq lisaniyyat bizə sözün tabe olduğu qanunları və onun əsas mahiyyətini göstərə bilər. Bu surətlə bütün poetika söz və söz tərkibi və şəkil qanunlarından ibarətdir.[79]

İkinci cərəyana gələcək olursaq, bu da bir çox tali və üsul etibarilə müxtəlif budaqlara malik olmaqla bərabər, əsas etibarilə ictimai cərəyan **(социологизм)** adlandırıla bilər. Yuxarıdakı bəhslərimizdə (ədəbiyyatın mənşəyi, şəkil və mündəricə...) gördüyümüz kibi, bu cərəyanın əsası ədəbi əsərin ictimai – ictimai bir məhsul və hadisə olmasından nəşət edər. Şəkilçilərin əsas fikrinə qarşı ictimai cərəyan tərəfdarları həmin bu nöqteyi-nəzəri ileri sürərlər. Bununla bərabər, ictimai cərəyan tərəfdarları, ədəbi əsərlərdə şəkil məsələsinin əhəmiyyətini

[75] Адольф Гильдебранд. Проблема формы в изобразительном искусстве (перевод И.Б.Розенфельда, 1914 г.).

[76] Yenə orada, 4-5.

[77] В.М.Жирмунский.

[78] В.Шкловский. Теория прозы. Ленинград-Москва, 1925 г.

[79] А.В.Багрий. Формальный метод в литературе. Владикавказ, 1925 г. Bu məsələ haqqında tərkibi və cameəvi materialı bu əsərdə bulmağa qabildir.

inkar etməz, yalnız şəklə və onun dürlü növlərinə tamamilə ayrı nöqteyi-nəzərdən yanaşır və başqa təfsirlər verirlər.[80]

Bu fikrə görə, əsəri, sənətin hər hansı sahəsində meydana gəlmiş olursa-olsun, şəkil və mündəricə kibi, yaxud material və əda kibi iki qismə ayırmaq qabil deyildir. Ədəbi əsər ictimai həyat hadisələrinin bir parçası, bütün parçaları ilə üzvi surətdə, bir-birindən ayrılmayacaq şəkildə birləşmiş olmaq dolayısilə onu bir yerə, tərkibi bir surətdə alıb tədqiq etməli və burada ictimai amilləri və təsirləri heç bir zaman gözdən uzaqlaşdırmamalıdır. Bu yolda rus alimlərindən P.N.Sakulin bu xüsusdakı iki əsərilə mühüm bir addım atmışdır. Şpenqlerin **(Шпенглер)** "Avropanın qürubu" **("Закат Европы")** adındakı əsərində tarix üçün təklif etdiyi tərkibi üsulu Sakulin ədəbiyyata tətəbiq etmək fikrindədir və bu xüsusdakı fikirləri çox artıq diqqətə layiqdir.[81] Digər tərəfdən, ədəbiyyat tədqiqlərinin tərkibi quruluşu **(синтетич. построение)** yanında və onun üzərində ədəbiyyat tarixçisi" ictimai üsulunu **(социологич. метод)** da işlətməlidir.[82] Tərkibi üsulla ədəbiyyat tarixçisi əsəri ətraflı surətdə tədqiq edə bildiyi, təbir caizsə, əsərin üzviyyətini anlaya bildiyi kibi, ictimai üsulla bu əsəri meydana gətirən ictimai amilləri qavraya bilər. Sakulin mühərririn zühuruna təqdim edən amillərin sıra ilə sxemini belə göstərməkdədir:

İqtisadi-ictimai mühit + mədəni mühit + ədəbi mühit + ədəbi məktəb = mühərrir.

Əsər də bu faktorların təsiri altında meydana gəlir:

İqtisadi-ictimai mühit + mədəni mühit + ədəbi mühit + ədəbi məktəb + mühərrir = əsər.[83]

Bu surətlə tədqiqdə də bu nöqtələrdən hərəkət istəməlidir. Hər halda əsrimizdə hələ bir çox münaqişələr atəşli bir surətdə davam etməklə bərabər, ədəbi əsərə ictimai bir hadisə olaraq baxmanı və o yolda tədqiqdə bulunmanı əsas etibarılə qəbul etmişdir.

Bununla bərabər, ədəbiyyatın özünəməxsus bir taqım iş üsulları vardır ki, bunları bilmədən ədəbi əsərlərin nə məktəbdə və nə də başqa laboratoriyalarda tədqiq və tədrisi qabil olamaz.

[80] Əvvəlki bəhslərimizdəki Marks, Plexanov, Meringq kibi alimlərin əsərlərinə baxınız.

[81] Синтетическое построение литературы. П.Н.Сакулин. Москва, 1925.

[82] Социологический метод в литературоведении. П.Н.Сакулин. Москва, 1925.

[83] Yenə orada, səh. 148.

ƏDƏBİYYAT TARİXİ ÜSULLARI

Üsul nədir? Müxtəlif ədəbiyyat tarixçiləri tərəfindən irəli sürülən üsullar. İctimai üsul

Yuxarıda bundan əvvəlki bəhsimizdə gördük ki, zamanımıza qədər ədəbiyyatın tədqiqi işində alimlər bir-birindən çox uzaq, hər halda çox fərqli və hətta bir-birinə zidd bir taqım yollar tapmışlar, bir çoxları isə yalnız öz zövqü və əqli-səlimi ilə ədəbiyyat tarixinə aid əsərlər yazmağa, meydana gətirməyə çalışmışlardır.

Əcəba, tədqiq olunacaq material və mövzu ilə aşina olmadan üsul məsələsinə keçə bilərikmi? Hətta ədəbiyyatın geniş, ucsuz-bucaqsız sahələrini bir üsul içərisinə almaq qabil ola bilərmi?

Akademik Perets, çox doğru olaraq burada ehtiyat tövsiyə edir. Perets deyir ki, "yalnız bir çox üsulların diqqətlə gözdən keçirilməsindən və qarşımızda işlənmək üçün duran materialın mahiyyəti məlum olduğundan sonra biz ancaq məlumumuz olan üsullardan bu və ya o birinin yaxud bir neçəsinin işimizə yarayıb-yaramayacağı haqqında hökm verə bilərik".[84] Professor P.N.Sakulin də eyni fikirdə bulunur: "Əvvəldən üsul öyrənmək, təyin etmək olmaz. Üsul özbaşına nə yaxşı, nə pisdir. Bütün məsələ üsulun nəyə, hansı mövzuya tətbiq olunacağındadır. Hər tədqiq mövzusu əsas etibarilə öz üsulunu tələb edir. Yaxşı ola bilmək üçün üsul tədqiq olunacaq materialın sinif və mahiyyətinə uyğun olmalıdır".[85]

Demək olur ki, ədəbiyyat və yaxud ədəbiyyat tarixi sahəsində qarşımıza çıxan və yaxud çıxması mümkün olan mövzu və materialları və bu materialların tədqiqə möhtac cəhətlərini gözdən keçirmədikcə, bir sözlə, ədəbiyyat tarixi məsələlərini bilmədikcə üsul haqqında düşünmək mümkün deyildir. Həmin bunun üçündür ki, professor Sakulinin üsul haqqında verdiyi bu tərif doğrudur: "Qarşımıza çıxan hər məsələni ayrı-ayrı, ən gözəl surətdə cıza bilən çalışma yolları eyni zamanda bu elm sahəsində tətbiq olunacaq üsuldan ibarət olmuş olur. Yaxud başqa dürlü deyəcək olursaq, üsul tədqiq olunacaq mövzunun xarakteri və mahiyyətindən nəşət edən çalışma yollarının heyəti-məcmuəsidir".[86]

[84] Акад. Л.Н.Перетц. Методология истор. русской литературы, стр. 29.
[85] П.Н.Сакулин. Социологический метод в литературоведении, стр. 25.
[86] Yenə orada, səh.25-26.

Yeni bir üsulun meydana çıxması tədqiq sahəsində imdiyə qədər nəzəri-diqqəti cəlb etməyən yeni bir cəhətin, yeni bir məsələnin ortaya çıxması deməkdir.

Bütün bu sözlərdən ədəbiyyat sahəsində bir plan və bir yol ilə çalışmaq qabil olmadığı anlaşılır. Ədəbiyyat çərçivəsinə girən məsələlərin çoxluğu, genişliyi, çeşid[li] olması mütəxəssisdən bir çox tədqiq üsullarına aşina olmasını istəyir.

İmdiyə qədər üsulların təsnifi ilə məşğul olan alimlər bir çox üsullar göstərmişlərdir. Professor A.M.Yevlaxov "Bədii yaradıcılıq fəlsəfəsinə mədxəl" adlı əsərində ədəbiyyat tarixi üsullarını "qeyri-elmi" və "elmi qeyri-əqli" **(научные нерациональные)** adla ikiyə ayıraraq, səkkiz üsulu tənqid etmişdir. Bunlardan qeyri-elmi siniflərinə girən üsullar: əxlaqi **(этическ.)** və populist üsullar. Elmi qeyri-əqli kateqoriyasına (sırasına) girənlər: filoloji üsul, müqayisəli üsul, tarixi üsul, Tenin üsulu, bədii-ruhi üsul, Ennekenin üsulu, təkamül üsulu, bioqrafi-tərcümeyi-hal üsulu, Sent-Bevin üsulu, Bruntyerin üsulu girər. Yevlaxov bu əsərində, ədəbiyyatın mahiyyət və təbiətindən çıxan doğru və məntiqi üsulların ilərdə göstəriləcəyini vəd eləmişdir.[87]

Akademik Perets metodoloji haqqında yazdığı əsərində 11 üsuldan bəhs etməkdədir və bunlar Peretsin təqib etdiyi sıra ilə bu üsullardır: 1) estetik üsul, 2) əxlaqi üsul, 3) publisist üsulu, 4) tarixi-siyasi üsul, 5) tarixi üsul, 6) tarixi-ruhi üsul, 7) mədəni-tarixi üsul, 8) bədii-ruhi üsul, 9) müqayisəli-tarixi üsul, 10) təkamül üsulu, 11) filoloji üsulu.[88]

Bütün bu üsulları akademik Perets bir nöqteyi-nəzərə görə təhlili **(аналитический)** və tərkibi **(синтетический)** qisimlərinə ayırmaqdadır. Birinci sinfə aid üsullar, yəni təhlili olanlar ədəbiyyat tarixi üçün material hazırlar. İkinciləri, yəni tərkibi olanlar isə bu toplanmış materialları işləmək, tərtibə salmaq üsullarını göstərir. Bundan başqa, digər bir nöqteyi-nəzərdən bu üsullar obyektiv və subyektiv (başqa dürlü, doqmatik və kritik üsullar) qisimlərinə ayrılır. Yuxarıda sayılan üsullardan bədii, əxlaqi və publisist üsulları subyektiv sinfinə gətirdiyi kibi, qalanları obyektiv sinfinə aiddirlər.

Pavel Merker yeddi üsul göstərir ki, bunlar da filolojik, etnolojik, psixolojik, fəlsəfi, bədii (estetik), ictimai-ədəbi **(социально-литературный)** üsullardır. Professor V.Sipovski üç əsas üsul meydana qoyur:

[87] Введение в философию художественного творчества, т. I., Варшава; т.II., Варшава, 1912 г.; т. III., Ростов, 1917 г.
[88] Очерк методологической истории, стр. 20.

tarixi, təkamüli və müqayisəli üsullar.[89] Professor Sakulin, yuxarıda söylədiyimiz kibi, əsas etibarilə iki üsul ayırır: tərkibi **(синтетический)**, ictimai **(социологический)**. Dilimizdə məxəzlərimizi təşkil edən bu əsərlərin heç birisi bulunmadığından, bu xüsusda akademik Peretsi təqib edərək bütün mövcud üsullar haqqında az-çox kafi məlumat verməni zəruri sayırıq. Təbii, əlavə etməni də unutmayalım, ədəbiyyat tarixi sayəsində ortaya çıxan üsullar yalnız bu qədər, yəni Peretsin göstərdiyi kibi on birdən ibarət deyildir. Lakin bir çox ədəbiyyat tarixçilərinin gərək tədqiq və gərəksə tədris işində işlətdikləri üsulların başlıcaları bunlardır:

1) Bədii üsul (estetik metod). Mövcud üsullar içində ən ibtidaisi və ən əvvəl meydana çıxan bu üsuldur. Bu üsulu təqib edənlər özləri üçün müəyyən gözəllik və bədii ölçüləri alır və bunlara görə əsərləri ya bütünilə, yaxud parçaları qiymətləndirirlər. Təbii, bu gözəllik miqyasları nümunə sayılan ədəbi əsərlərdən çıxarılır. Hər əsrin, məlum olduğu üzrə, özünəməxsus ədəbi və bədii idealı olur. Bir əsrin, daha doğrusu, müəyyən bir sinfin gözəli, ədəbi nizamı, digər sinif tərəfindən qəbul edilməyir. Həmin bunun üçün də bədii üsulla əldə edilən nəticələr hətta bu üsulla çalışanın özü üçün də çox artıq müvəqqəti, keçici bir mahiyyət daşıyır. Türk ədəbiyyatını alacaq olursaq, Orxon dövrünün, uyğurların, cığatay və əski Osmanlı, Azərbaycan, Qazan ədəbi əsrlərinin əsərləri bizə bu gün bədii nöqteyi-nəzərdən heç təsir edəməz. Bunun üçündür ki, bu gün daha öz zövqü ilə öz əsrinin bədii ölçüləri ilə maziyə, ədəbiyyatımız tarixinə baxan gənclik "mazidə, keçmişdə bizim ədəbiyyatımız yoxdur", – fikrində bulunur və çox dəfə şifahi və yaxud təhlili surətdə bu hökmünü müdafiəyə də qalxışır. Bu fikri yaxşıca alamadan tənqid etmək də doğru deyildir. Əlbəttə, baqilərin, nəvailərin, füzulilərin... əsərləri nə şəkil və nə də məndəricə etibarilə əsrimizin türk-tatar oxumuşlarını təmin və tətmim edəməz. Yalnız belə həvəskarlara anlatmalıdır ki, oxucunu hər zaman həyəcana gətirəcək, ona hər zaman xoş gələcək ədəbiyyat heç bir xalqda yoxdur. Bununla bərabər, ədəbiyyat tarixçisi ədəbi əsərin məndəricəsindəki həyəcanı və hissi ünsürləri və bu ünsürlərin öz zamanında oxucuları üzərinə yapdığı təsiri heç bir zaman gözdən qaçıramaz. Bütün məsələ həmin bu həyəcanın, gözəllik fikrinin necə

[89] Проф. В.Сиповский. Лекции по истории русской литературы. Баку, 1921 г., стр. 117, 132.

dəyişdiyini tapıb çıxarmaqdadır. Mütləq gözəllik olmadığı və bunun qanunlarını tapmaq qabil olamayacağı bədihidir.[90]

2) Əxlaqi üsul. Estetik, bədii üsul gözəli, çirkini araşdırdığı kibi, bu üsulla da tədqiqçilər bir çox zamanlar ədəbi əsərlərdə yaxşını və yanlışı, yalan fənanı axtarıb tapmağa çalışmışlardır. Bu da əxlaqi əsasların ədəbiyyata tətbiqi deməkdir. Bu prinsipi Horas və onun İntibah dövründəki müaqibləri ədəbiyyatın əsaslı kriteriyası, miqyası olaraq ortaya atdılar. 19-cu əsrdə Sent Bev bu əxlaqi əsasın müməssili olur. Bizdə, Yaxın Şərqdə ərəblər başda olmaq üzrə son zamanlara qədər, yəni ədəbiyyat tarixçilərimizdə bədii üsul peyda oluncaya qədər əxlaqi baxış və üsul hökm etmişdir. Hətta "ədəbiyyat" sözü özü "ədəb" sözündən iştiqaq etdirilərək, əxlaqi tələblərə uymayan əsərlər ədəbiyyatdan sayılmamışdır.[91] Bununla bərabər, şairin, yaxud sənətkarın əxlaqi məfkurələrini də tamamilə ehmal etmək, onlara tamamilə laqeyd və yabançı qalmaq doğru deyildir. Hər şairin, hər ədibin əxlaqi baxışında onun şəxsiyyət və mühitindən mənsub olduğu ictimai sinif və hətta ədəbi məktəbdən bir taqım maraqlı ünsürlər vardır. Bundan başqa, əxlaqi məfkurələrin ədəbi əsərlər içindəki təkamülü də ədəbiyyat tarixçisi üçün əxlaqi məfkurələrin, əxlaqi cəhətin ədəbiyyat əsərlərində heç bir zaman əsas olamayacağını və bu nöqteyi-nəzərlərdən əsərlərə yanaşmaq qabil olmayacağını bu gün ədəbiyyat tarixi ilə az-çox aşina olan heç bir adama isbata hacət yoxdur.

3) Publisist üsulu. Bu üsul müəyyən və müasir hər hansı ictimai nöqteyi-nəzərdən ədəbi əsərə yanaşmaq və bu nöqteyi-nəzərlə onun təhlilinə girişməkdir. Hər hansı bir zamanda belə ictimai cərəyanlar və qruppalar bir neçə dənə olacağından ədəbi əsər haqqında veriləcək hökmlər də cürbəcür ola bilər. Publisist gözü ilə əsərə baxan adam bu əsərdəki tarixi və yaxud bədii cəhətləri heç də nəzəri-etibara almaz.

[90] Искусство и литература в марксистском освещении, 1925. Burada Plexanov və Lunaçarskidən alınmış parçalara baxınız, səh.9-14.

[91] Bu xüsusda "Tarixi-ədəbiyyati-ərəbiyyə" müəllifi bu məlumatı verir: "Ədəb" kəlməsi inqilabati-ictimaiyyənin təsiri altında bir neçə dövr keçirmişdir. Birinci dövrdə "dəvət etmək" mənayi-lüğəvisində işlənirdi. Bundan alınan "adab" sözü "dügün cəmiyyəti" mənasına gəlirdi. Sədri-islamda "ədəb"in mənası tövsi edilərək əxlaqi-fazilənin məcmusuna itlaq olunmuşdur... İbn Xəldun bu xüsusda belə deyir: "Bu elmin (yəni ədəbin) əvarizini isbat və nəfy etmək xüsusunda əmali-fikrə məzar ola biləcək mövzusu yoxdur: əhli-lisanın ədəbdən qəsd etdikləri şey ədəbin qayə və səmərəsidir ki, ərəblərin üslublarına müvafiq surətdə nəzm və nəsrə hüsni-ədaya qadir olmaqdan ibarətdir" (səh. 97-99).

Onun üçün bunlar ikinci dərəcədə olan şeylərdir. Osmanlı türklərində Köprülüzadənin son elmi və ciddi əsərlərinə qədər ədəbiyyatda publisist üsulunun çox yer tutduğunu görürük. Təbii, belə hərgünkü ictimai nöqteyi-nəzərlərə qəzetəçi məntiqi ilə yapılacaq təhlillərin o qədər böyük əhəmiyyəti yoxdur. Belə təhlillərin özü də ədəbiyyat tarixçisi üçün xarakteristik material olaraq, ilərdə ədəbi əsrin anlaşılması üçün xidmət edə bilər.

4) Tarixi-siyasi üsul. Bir xalqın, yaxud bir dövlətin ədəbi hadisə və əsərlərini bir taqım siyasi hadisələrlə bağlamaq üsuludur ki, publisist üsuluna olduqca yaxındır. Ədəbi əsərlərlə siyasi hadisə və şərtlər arasındakı bağlılığı inkar etmək qabil deyildir. Bununla bərabər, ədəbiyyatın yalnız siyasi amillər təsiri altında təkamül və təhəvvül etməyini iddia etmək, əlbəttə, xətadır. Necə ki, professor Krımski[92] kibi bəzi ciddi alimlər belə yalnız siyasi hadisələri göz önündə tutaraq, türk ədəbiyyatı tarixini tədqiqə qalxışmışlar və ədəbi dövrləri siyasi təkamül və inhitat (aşağı düşmə) dövrlərilə bağlamaq təşəbbüsündə bulunmuşlardır. Belə tədqiqlər birtərəfli və səthi olmaqdan qurtulamazlar.

5) Tarixi üsul. Tarixi üsul, ədəbiyyatda on doqquzuncu əsrin başlarında tətbiq olunmağa başlamışdır. Tarixi üsulun əsası ədəbi əsərlər və hadisələr arasındakı bağı tapıb çıxarmaq və bu əsərləri doğuş **(генетический)** cəhətindən izah etməyə çalışmaqdan ibarətdir. Bu nöqteyi-nəzər ədəbi əsəri təhlil etmək, hər halda son dərəcə ciddi bir tədqiq meydana gətirməkdir. Ədəbiyyat tarixçisi hər şeydən əvvəl "tarix" fikrini, məfhumunu əldə etməlidir. Heç bir hadisə özbaşına, birdən-birə meydana çıxmır. Bəlkə, meydana gəlmədən əvvəl bir çox rüşeym dövrləri keçirir. Həmin bu mərhələləri, ədəbi əsərin doğmasında rol oynayan amilləri tapıb çıxarmaq[la] tarixi üsul ədəbiyyatçıya qiymətli materiallar verə bilər. Bununla bərabər, tarixi üsulu yeganə və kafi bir üsul saymaq caiz deyildir. Əsərin mazisini, tarixini bilmək o əsəri tanımaq, anlamaq üçün kafi deyildir. Bundan başqa, ədəbi əsərlər vasitəsilə bir xalqın tarixini öyrənməyə qalxışmaq da yanlış bir düşüncədir. On səkkizinci əsrin sonunda Herder, yuxarıda gördüyümüz kibi, ədəbi əsərlərin xalqın vəziyyətini göstərəcəyini zənn edirdi. Eyni fikirlər o vaxtın fransız, ingilis və başqa Avropa xalqlarının ədəbiyyatına və oradan iyirminci əsrin birinci illərində bizim

[92] Проф. А.Крымский. История Турции и ее литературы. Москва, 1916 г., т. I и II.

ədəbiyyatımıza da girmişdir.[93] Təbii, bu fikirlər həqiqətə uyğun deyildir. Teofil Qutye deyir ki, "şeir heç bir şey isbat etmədiyi kibi, heç bir şeyi də hekayə etməz". Plexanov da eyni surətlə "sənətkar öz üsulilə ifadədə bulunur. Publisist fikirlərini məntiqi dillərlə ifadə etdiyi halda, sənətkar şəkillər **(образ)** və təsəvvürlərlə ifadə edir",[94] – fikirlərində bulunur. Binaən əleyh ədəbi əsərlər vasitəsilə, məsələn, orta dərəcəli məktəblərdə hər hansı bir müəssisənin tarixini yazmaq qabil deyildir.

6) Tarixi-ruhi üsul. Bu üsulun bir adı da tərcümeyi-hal – bioqrafi üsuludur. Adından da anlaşıldığı kibi, bu üsulda əsas şair, yaxud sənətkara təsir edən xarici və daxili, ruhi və üzvi amillər və səbəblər araşdırılıb tapmaqdır.

Sent Bev və onun müaqibləri sənətkarın həyatı ilə əsərini birbirindən ayırmayaraq tədqiq edərkən bu üsulu tətbiq etmişlərdir. Belə tarixçilər ruhi təhlil vasitəsilə mühərririn, ədibin ruhi, daxili həyatını təkrar canlandırmağa və bu daxili həyat yardımı ilə onun əsərini anlamağa çalışırlardı. Eyni zamanda bu üsulun tərəfdarları mühərririn əsərlərindəki qəhrəmanların həyat və əməllərini təhlil edərək şairin ruhuna nüfuz etməyə çalışırlar. Təbii, şairin, yaxud mühərririn yalnız həyatını bilməklə əsərini və ədəbi fəaliyyətini izah etmək qabil olamayacağını bilməyən və bioqrafi üsulunu təqib edən ədəbiyyat tarixçiləri bioqrafinin ən xırda cüzlərinə qədər tədqiq etməyə qoyulurdı. Mühərrirlərin bu surətlə xatirələrini, yövmiyyələrini (jurnal) başından sonuna qədər tədqiq edərlərdi. Bu yol ilə toplanacaq materialın şairin ədəbi təsvirinə aid qismi, şübhəsiz, ədəbiyyat tarixçisinə faydalı bir əsas verə bilər. Lakin bu növ materialları çox böyük ehtiyatla işlətməlidir.

7) Mədəni-tarixi üsul. Məşhur fransız ədəbiyyat nəzəriyyəçisi Hippolit Tenin adı ilə bağlı olan bu üsulun əsası, yuxarıda ədəbiyyatın dövrləri bəhsində gördüyümüz kibi, irq, mühit və an kibi üç ünsürdən ibarətdir. Həmin bu üç ünsür şairin ruhi vəziyyətini təyin edir. Tenin bu üç ünsürlə meydana gətirməyə ümid etdiyi şair və onun zamanına aid portretin bizə ədəbiyyat tarixi üçün az-çox material

[93] "Yeni Osmanlı ədəbiyyatı"nın "Asari-ədəbiyyənin zühuru" bəhsinə baxınız. Buradan bu xarakteristik sətirləri gətirə biliriz: "Şeri tədqiq və halәti-ruhiyyei-bəşəriyyəni tədqiq etmək qövmün təkamülati-mədəniyyəsini, təhəssüsat və təfəkküratını xütvəxütvə anlamaq" deməkdir (səh. 18).

[94] Марксистический метод исследования художественных произведений, стр. 40-41.

verə biləcəyinə şübhə yoxsa da, bir tərəfdən, bu təsəvvürün nə qədər həqiqətə uyğun çıxacağının şübhəli bulunması, digər tərəfdən, ədəbiyyat tarixində bizim üçün ən zəruri nöqtə yalnız şairin ədəbi siması və dövrünün səciyyəsi olmayıb, bəlkə, daha çox ədəbi yaradıcılıq keyfiyyəti və ümumiyyətlə ədəbiyyatın təkamülü olması yalnız bioqrafi üsulilə hazırlanan materiallar[ın] yalnız tənqidi və ehtiyatlı surətdə işlətdiyi təqdirdə faydalı olacağını göstərir. Ten, əvvəlcədə söylədiyimiz kibi, ədəbiyyat sahəsini təbiiyyat elmləri ilə yaxınlaşdırmağa çalışaraq, hər halda obyektiv və ciddi bir üslub meydana gətirmişdir. Bu üsulun bu gün sistem etibarilə yalnız tarixi əhəmiyyəti olmaqla bərabər, ayrı-ayrı nöqtələrində hələ bir çox cəhətlərdən qiymətlidir.

8) Bədii-ruhi üsul. Ennekenin **(Эннекен)** adına isnad olunan bu üsul əsasən Tenin üsulunun təfsirindən və inkişaf etdirilməsindən başqa bir şey deyildir. Enneken başlıca yenilik olaraq Ten nəzəriyyəsinə şair və oxucu arasındakı münasibəti soxmuşdur. Bu zatın fikrincə, ədəbiyyat tarixi üçün ən mühüm məsələ şairin əsrindəki bədii məfhumların və zövqlərin tədqiqidir. Enneken bu cəhətə aid məsələləri cıza bilmək üçün öz üsulunda üç nöqtə göstərir: 1) bədii əsərin nəyi və necə ifadə etdiyini tapmalı, 2) əsəri meydana gətirən zehniyyətin tapılıb izah edilməsi, 3) şairi oxuyan və şairə bədii zövqündə istiqamət verən oxucu və tənqidçi mühitinin mahiyyətini anlamaq.

Ədəbiyyat tarixinin bütün məsələlərini bu üsulun da qavrayamadığı aşkar. Bununla bərabər, Ennekenin qeyd etdiyi nöqtələr heç də əhəmiyyətdən xali deyildir.

9) Müqayisəli-tarixi üsul. Bu üsul daha ziyadə bütün əsr və dövrlərin ədəbi əsərləri təhlil olunduğu zaman işlənir. Bu üsulun on səkkizinci əsrdə peyda olmağa başladığını görürüz. Bu vaxtlarda alimlə şairin bir-biri üzərinə təsir edə bildiklərini fərq etmişdilər. Lakin bu üsul ən ziyadə xalq ədəbiyyatları öyrənildiyi zaman lazım oldu və qüvvət, nüfuz qazandı. Bilxassə Şərq və Qərb xalqlarının ədəbiyyatlarını tədqiq yolunda müqayisəli üsul gözəl nəticələr verdi. Denlon **(Денлон)** (1814), Librext **(Либрехт)** (1854), Benfey **(Бенфей)** (1859) kibi adamların əsərlərilə tarixdən əvvəlki zamanlarda belə Şərq ilə Qərb, Şimal ilə Cənub, bir sözlə, bütün dünya xalqları arasında ədəbi münasibət bədii yaradıcılıqda mübadilə olduğu meydana çıxdı.

Ümumiyyətlə, tarixi elmlər müqayisəsiz tədqiqatda bulunamaz. Lisaniyyat və ədəbiyyatın ən üsuli əsaslarından birisi müqayisədir.

Bunun üçün müxtəlif xalqların lisanlarını bir-birlərilə müqayisə edərək lisanın təkamül və inkişafına məxsus qanunları təsbit edən elmə "müqayisəli lisaniyyat" **(сравнительное языкознание)** təbir olunur. Müxtəlif şairlərin, hətta xalqların ədəbi əsərlərini bir-biri ilə müqayisə edərək müəyyən və elmi nəticələrə gələ bilmək üçün böyük və geniş məlumat, bilxassə bir çox dillərə aşina olmaq lazımdır. Bununla bərabər, yalnız geniş məlumat sahibi olmaq da kifayət etməz. Boş və yanlış nəticələrə varmamaq üçün son dərəcə kəskin tənqidə sahib bir zehniyyətə malik olmaq da şərtdir. Hər müqayisə bir taqım müşabeh, birbirinə bənzəyən qisimlər ortaya çıxardığı kibi, bənzəməyən qisimləri də göstərir. Bəzi alimlər (tələsik) əcələ səthi müqayisələr nəticəsində tapdıqları bu müşabeh qisimləri çox dəfə iqtibas **(заимствование)** məhsulu olaraq təfsir etməkdədirlər. Halbuki iki məmləkətdə, iki ayrı mühitdə bulunan müşabeh və bir-birinin eyni olan amillər, təbii, eyni şəkli və mündəricəvi nəticələri verə bilər. Bundan anlaşılır ki, bu müşabehətlərin mənşəyini və səbəbini anlamaq üçün müqayisə üsulu kifayət etməz. Bir sözlə deyəcək olursaq, ehtiyatlı surətdə və yerində işləndiyi təqdirdə müqayisəli üsul ümumiyyətlə ədəbiyyat tarixi meydanında və xüsusilə xalq ədəbiyyatı sahəsində qayət faydalı nəticələr verə bilər. Necə ki, ibtidai mədəniyyət tarixini tədqiq edənlər bu üsulu olduqca müvəffəqiyyətli bir surətdə işlədə bilməkdədirlər. Köprülüzadə Fuad türk ədəbiyyatının və yaxud aşıq tərzinin mənşəyində müqayisə üsulundan olduqca müvəffəqiyyətlə istifadə etmişdir.[95]

10) Təkamül üsulu. Hər şeydə olduğu kibi, ədəbiyyatda da təkamülü inkar etmək qabil deyildir. Türk-tatar ədəbiyyatlarının hər hansı faktını, yaxud əsərini alıb onu əvvəlkiləri və yaxud sonrakılarilə müqayisə etdiyimiz zaman bu əsərin onlara bənzəmədiyini və bir çox başqa əsərlərdəkinə bənzəyən ünsürlərinin dəyişmiş olduğunu görəcəyiz. Yalnız xarici təsirlə deyil, bəlkə, özündəki inkişaf qüvvətilə hər şey təkamül edir. Ona görə də ədəbi tədqiqlərdə bu təkamülü də göz önündə tutmaq, ədəbi əsərləri bu nöqteyi-nəzərdən tədqiq etmək lazım gəlir. Bununla bərabər, hər dəyişməni təkamül deyə almaq qabil deyildir. Şairin, yaxud sənətkarın mühitində hüsula gələn hər hansı bir süqut, iqtisadi böhran, ictimai ibtidailəşmə, mədəni geriləmə hadisəsi şairi yenidən geriyə, əski və ibtidai şəkildə mövzulara çevirə bilər. Türk-tatar

[95] Türk ədəbiyyatında aşıq tərzinin mənşə və təkamülü (Milli tətəbbölər, sayı 1, 1331); Türk ədəbiyyatının mənşəyi (Milli tətəbbölər, sayı 4, 1331).

xalqlarının bir çoxunda bunu görürük. On beşinci və on altıncı əsrlərdəki özbək ədəbiyyatilə on doqquzuncu və on yeddinci ilə qədər olan iyirminci əsrin özbək ədəbiyyatını bir-biri ilə müqayisə etdikdə böyük ədəbi dövrlər yaşamış olan Orta Asiyanın necə gerilədiyini çox gözəl görürük. Eyni surətlə, Krım kibi bir çox türk-tatar ölkələri bir zamanlar öz sahələrinə və zamanlarının zehniyyətinə görə çox artıq və inkişaf etmiş ədəbi bir həyata malik olduqları halda, son zamanlara qədər xalq şifahi ədəbiyyatından başqa, bir şeyə malik deyildirlər. Hər iki hadisə həm Krımda, həm Orta Asiyada iqtisadi və ictimai böhranlarla bağlıdır. Təbii, təkamülü yalnız ilərıyə doğru gediş mənasında anlamaq həmin bunun üçün xəta olur. "Təkamül" sözünün və məfhumunun müxtəlif alimlərin ağzında dürlü-dürlü mənalara gəldiyini görürük.

Təkamül nəzəriyyəsi ətrafında iki əsaslı cərəyan meydana gəlmişdir: 1) Mexaniki təkamül cərəyanıdır ki, burada hadisələr səbəblərlə izah olunur və hər hadisənin səbəbləri araşdırılır. 2) Qayəvi təkamüldür ki, burada həyatın müəyyən bir hədəf və məqsədə doğru inkişaf etdiyi fərz olunur. Məşhur fransız filosofu Henri Berqson **(Henri Berqson)** buna bir də daxili və ibtidai meyil nəzəriyyəsini əlavə etmişdir.[96] Spenser də təkamül nəzəriyyəsini ümumi və mücərrəd sözlərlə izah etməkdədir.

"Təbiiyyat elmində təkamül və inqilab"[97] adilə bir əsər yazmış olan A.Suxov, yaxud "Mədəniyyət və inqiraz – tərəddi" adilə olduqca qiymətli bir əsər meydana gətirmiş olan Münxen Darülfununu professoru Osvald Bumke[98] "təkamül" və yaxud tərəddi, inqirazın nədən ibarət olduğunu qəti və açıq surətdə təyin edəməmişlərdir. Onlarda təkamül çox dəfə "tərəqqi" məfhumilə bir-birinə qarışmaqdadır.

Digər tərəfdən, "təkamül" məfhumu[nu] çox qəti bir surətdə təyin etsə belə, təkamül üsulu doqmatik və istedlali (deduktiv) üsul olmaqdan qurtulamaz. Bundan ədəbiyyat tarixçisinin təkamül məfhumunu və əsasını tamamilə kənara atması lazım gəldiyi anlaşılamaz. Biləks, təkamül cizgisini heç bir tədqiqçi gözdən qaçırmamalıdır. Ədəbiyyat dərslərində də şagirdlərin nəzər-diqqəti daima ədəbi hadisələrin təkamülü cəhətinə cəlb edilməlidir. Lakin bu cəhət yalnız nəticə və yekun yapıldığı zaman düşünülür. İş üsulu olaraq, təkamül üsulu ədəbiyyat

[96] А.Бергсон. Творческая эволюция, стр.91.

[97] А.Сухов. Революция и эволюция в естествознании. Одесса, 1922 г, глава II.

[98] Освальд Бумке. Культура и вырождение. Москва, 1926 г., глава I и V.

tarixçisinə böyük bir şey verəməz. Yalnız bu üsul dairəsində qalındığı zaman hətta zərər və xəta da törədə bilir.

11) Filoloji üsul. Akademik Perets yuxarıda adıçəkilən əsərində bu üsulu tövsiyə etməkdədir. Bu üsulun əsası, akademikin fikrincə, "insanın söz vasitəsilə zühur edən yaradıcılığına aid faktları ətraflı surətdə, ədəbi fikirlər və şəkillərin intiqalını, mənşəyini, doğuş zaman və mövqeyini nəzəri-etibara alaraq tədqiq etməkdən ibarətdir".[99] Filoloji üsulu namilə ayrı bir üsul təyin etmək qabil deyildir. Bəlkə, yuxarıda söylədiyimiz və aşağıda bunlara əlavə edəcəyimiz üsullardan yapacağı tərkib sayəsində filoloq öz üsuli-tədqiqini meydana gətirə bilər.[100]

12) Təbii üsul. Yuxarıda Ten, Bruntyer... kibi ədəbiyyat nəzəriyyəçilərinin ədəbiyyat ilə təbiət arasında müqayisələr yapdığını və bu elmlərin üsulları ilə ədəbiyyat üsulunu yaxınlaşdırmaq istədiyini görmüşdük. Ten bilxassə nəbatat elminin üsulunu ədəbiyyata tətbiq etmək fikrində idi. Yalnız professor V.Sipovski bu nəzəriyyəni daha ziyadə təfsil edərək, təbiət üsulunun ədəbiyyata tətbiqi qabil olduğunu ilərı sürmüşdür.[101] Bu zatın fikrincə, təbiət elmi ilə ədəbiyyat arasındakı münasibət fərqlər və müşabehətlər cəhətindən bu nöqtələrdə icmal oluna bilər: 1) Şeir həyatı idrak şəkillərinin birisidir. 2) Şeir, yaxud ədəbi yaradıcılıq əməli yaradıcılığa, daha doğrusu, əməli-təbii yaradıcılığa bənzər. 3) Şeir, təbiətdən idrak şəkilləri və təmsil cəhətləri ilə ayrılır. 4) Həyatın həm şeri idrakı, **(поэтическое познание жизни)**, həm də təbii-elmi idrakı müvazi surətdə inkişaf edir və onların tarixi müəyyən zamanda bir-birindən ayrılamaz. 5) Şeir vasitəsilə həyatın idrakı və təmsili inkişaf etibarilə həyatın bütün başqa hadisələrinə bənzəyir. 6) Buradan çıxacaq nəticə: bədii və ədəbi əsərlərin taleyini, tarix boyunca nəşad və inkişafını öyrənən elm – ədəbiyyat tarixi ilə təbiət elmi arasında yaxınlıq vardır.[102] Sipovskinin bu fikirləri, özünə bu xüsusda yapdığı məruzədə göstərildiyi kibi, quru bir mühakimə və nəzəriyyədən ibarət olub, daha ilərıyə gedərək təbiət üsullarının nə surətlə ədəbiyyata tətbiq edilə biləcəyini göstərəməz.

[99] Краткий очерк методологии, стр. 51-52.

[100] Bütün buraya qədər saydığımız üsullar əsas etibarilə Peretsin yuxarıda zikr olunmuş əsərindən iqtibas olunmuşdur. Bu üsullar içində, Sipovskinin haqlı olaraq göstərdiyi kibi, bir çoxları müstəqil üsul olmaqdan ziyadə müstəqil üsulların fər'ləri, cüziləridir. Perets özü də bunları subyektiv üsullar adlandırmaqdadır.

[101] Проф. В.Сиповский. О методах естествознания в литературе и истории литературы. Баку, Известия АГУ, №1.

[102] О методах естествознания в литературе и т.д. Баку, Известия АГУ, №1, стр. 278.

13) Şəkli üsul (formal metod). Şəkilçilik – formalizm üsulunu burada mübaliğəli və ifratçı şəklində almağa hacət yox. Şeri səslərin tərkibi, rəssamlığı boyaların qarışdırılmasından ibarət sayan bu safdil və dar cərəyanla elmi sahədə ciddi surətdə hesablaşmayacaqlarına şübhə yoxdur. Lakin şəkil məsələsinin ədəbi və bədii əsərlərdə ən mühüm ünsürlərdən birisi olduğunu heç kimsə inkar etmir. Mənşəyi və inkişaf yolu etibarilə bir-birindən ayrılmayan şəkil və mündəricə tədqiq zamanında, bilxassə təhlili tədqiqlərdə mühəqqəq əvvələn ayrı-ayrı alınmaq icab edər. Heç bir ədəbiyyat tarixçisi, istidlali (deduktiv) olmamaq şərtilə, tərkibi surətdə əsərin tədqiqinə yanaşmaz. Aşağıda görəcəyimiz kibi, tərkibi üsulu təklif edən professor Sakulin də bu cəhəti heç bir dürlü nəzəri-etibardan qaçırmır. Xülasə, şəkli üsul ədəbiyyat tarixçisinin iş üsullarından birisi olaraq zikrə və ədəbiyyat tarixçisi tərəfindən ətraflı və incə bir surətdə tədqiqə hər zaman şayandır.

Formalizm üsulunu heyəti-ümumiyyəsi ilə şiddətli tənqid altına alan L.Trotski bu cəhəti olduqca müfəssəl surətdə qeyd etməkdədir: "Bu qismi və təhlili iş ki, layiq olmadığı halda formalistlər tərəfindən şeri-elmi, yaxud poetika adlandırılır, şübhəsiz, faydalı və lazımlıdır. Şəkli üsul şeir sənətinin tərkibi içinə faydalı bir ünsür olaraq girə bilir. Öz təbii və qanuni çərçivələrinə irca edildiyi halda formalizm bədii əsərlərdəki şəklin bədii və ruhi səflərini, cizgilərini göstərməyə yardım edər. Buradan öz növbətində şairin yaxud sənətkarın, yaxud bütün bir şeir və sənət məktəbinin bədii qayə və məfkurəsini anlamağa əmin bir yol açılır".[103]

Eyni surətlə Azərbaycan Darülfünunu professorlarından A.V.Baqri bu sözləri yazmaqdadır: "Şəkli üsul son illərdəki ifratçılıqların ortadan qalxması hər kəs tərəfindən faydalı və qiymətli bir üsul olaraq tanılmağa başladı. Lakin dar şəkilçilərin anladığından daha geniş bir mənada oldu".[104]

Şəkli üsul lisaniyyat və dil tədrisi sahəsində də özünə hörmətli bir yer qazanmışdır. Peşkovski, Uşakov kibi alimlərin, lisançıların əsərləri, fikirləri bu xüsusda Jirmunski, Şklovski, Yakobson kibi şəkilçi ədəbiyyatçıların əsərlərindən daha bəxtli çıxmışdır. Çünki lisaniyyat sahəsini ədəbiyyat sahəsilə birləşdirmək, hər ikisinin üsullarını tamamilə bir-birinə uydurmaq gücdür, bəlkə, qabil deyildir.

[103] Литература и революция, стр.120.

[104] Формальн. метод в литературе (предисловие).

Rus ədəbiyyatının şəkli xüsusiyyətlərini tədqiq sahəsində olduqca ciddi əsərlər mövcud olduğu halda, türk ədəbiyyatının şəkli tədqiqi keçmişdə ərəb və son zamanlarda fransız əsaslarına uydurulmuş və bu halda da dilimizin şəkli xüsusiyyətlərinə tətbiq edilməmiş ədəbiyyat nəzəriyyələrindən başqa bir şeyə malik deyildir və binaən əleyh ədəbiyyat tarixçisinin, yaxud müəlliminin bu üsul ilə işləməsi, bir tərəfdən, elmi zərurətlərə cavab təşkil etməklə bərabər, digər tərəfdən də, böyük bir boşluğu dolduracaqdır.

14) İctimai üsul (sosioloji metod). İctimai üsulun əsası ədəbi hadisələri ümumiyyətlə ictimai hadisələrdən olaraq almaq və bu nöqteyi-nəzərdən onların tədqiqinə girişməkdir. İctimai üsul haqqında olduqca müfəssəl bir əsər meydana qoymuş olan P.N.Sakulin bu sözləri söyləyir: "Ədəbiyyat, ümumiyyətlə gözəl sənətlər kibi, ictimai hadisədir. Həmin bu sözlərdə bizim əsasımızın tərifi verilmişdir. Bu sözlər ədəbiyyat sifətilə qarşımıza elə bir məsələ çıxarır ki, bunu ancaq ictimai üsulla həll etmək qabil ola bilər".[105]

Sakulin hər ədəbi əsərdə üç cəhət görür: 1) mühərririn bədii yaradıcılığının məhsulu, 2) tarix boyunca (gərək mühərririn və gərəksə ədəbi əsərin ətrafında) daima təbəddül halında bulunan həyati hadisə, 3) ictimai hadisə.

Təbii, bu cəhətləri bir-birindən ayrı və müstəqil fərz etmək xətadır. Bununla bərabər, ədəbiyyat aləmi ədəbi əsərləri gah statik (hali-sükunətdə), gah dinamik (hali-hərəkətdə), yaxud gah immanent **(имманентно)** (olduğu kibi), gah kauzal (səbəbi cəhətdən) ala bilər. Tədqiqat əvvəla immanent bir surətdə ayrı-ayrı əsərləri olduğu kibi alaraq başlamalıdır. Axırda bu əsərlər arasındakı münasibətləri araşdırmaq, tapmaq (səbəbi cəhətdən) tərəfi tutulur. Ədəbi əsərləri tədqiq edərək, onların mənşəyini araşdırmamaq qabil olamaz. Yalnız bir çox alimlər əsərlərin doğmasında ancaq ədəbi səbəblər, bədii amillər gördükləri halda, ictimai üsulla çalışan ədəbiyyat tarixçisi burada daha çox ictimai səbəbiyyət qanunlarını tapmağa çalışır. Birinci dövrdə, yəni immanent surətdə alındığı zaman ədəbi əsər yalnız bədii bir qiymət olduğu halda, ikinci dövrdə yəni səbəbi-rabitə ilə alındığı vaxt ictimai bir qiymət olur.

Sakulin ədəbi hadisələrdə iki sıra vəzifə çıxarır: 1) ədəbi mövzunun, yaxud əsərin statik və dinamik halında immanent surətdə tədqiqi, 2) ədəbi əsərin təkcə və inkişaf etibarilə səbəbiyyət nöqteyi-nəzərindən

[105] Социологический метод в литературоведении, стр. 33.

tədqiqi. Bunlara üçüncü bir vəzifə daha əlavə oluna bilər ki, bu da tərkibi işdir. Ədəbiyyat tarixçisi, başqa elmi sahələrin mütəxəssisləri kibi, eyni zamanda tərkib və tə'mim cəhətinə də gərəyi qədər əhəmiyyət verməlidir. Tə'mimlərə, ümumiyə, tiplərə yüksələməyən tədqiqçi tam bir iş yapmış olmaz. Təhlil, elmi təhlil son dərəcə qiymətli olmaqla bərabər, elmi həqiqətin yarısından çox verəməz. Həmin bunun üçün Sakulin elmi tərkibin ədəbiyyatda da zərurətini isbat üçün ayrıca bir əsər meydana gətirmişdir ki, burada ayrı əsər və mühərrirlərin üzərində durulmayıb, ədəbi dövrləri ətrafı ilə qavramanın lüzumunu, yollarını göstərmişdir.[106]

Sakulin ictimai üsulla çalışıldıqda belə bir tərtib təklif etməkdədir: "Tədqiq işinin üç dövrəsinə uyğun olaraq üç sıra məsələ təsbit etmək mümkündür: 1) immanent məsələlər sırası, 2) səbəbi sıra, 3) tərkibi sıra.

I. İmmanent sinfinin üsulu məsələləri: a) statik məsələlər: şəkil və mündəricənin bədii təhlili; b) dinamik məsələlər: 1) mənşəi məsələ: ədəbi əsərin yaradılması tarixi, 2) təkamüli məsələ: əsərin immanent təkamülü.

II. Səbəbi sinfin üsulu məsələləri: a) statik məsələ: ictimai tədqiq; b) dinamik məsələ: tarixi-ictimai tədqiq.

III. Tərkibi sinfin üsulu məsələləri: a) statik məsələ: tip nöqteyi-nəzərindən tə'mim, tə'mimçi üsul **(генерализующий метод)**; b) dinamik məsələ: ədəbiyyat tarixinin tərkibi quruluşu;[107] immanent sinfə girmiş olan məsələləri tədqiq edərkən şəkli üsuldan faydalanmalı.

Səbəbi sinfə girən məsələləri isə ictimaiyyatın yardımı ilə öyrənmək lazımdır. İstilahları dolayısilə bir az çarpaşıq olmaqla bərabər, professor Sakulin hər halda bu gün ədəbiyyat tarixi sahəsinə aid olaraq törəyən ən mühüm üsuli məsələləri əsas etibarilə bu tərzdə olduqca müvəffəqiyyətli bir sistem altına çəkmiş olur.

Türk-tatar ədəbiyyatında üsul məsələsi ümumiyyətlə çox ehmal edilmiş bir məsələdir. Bir çox ədəbiyyat tarixçiləri hələ bədii və bioqrafi üsul ilə keçinməkdədirlər.

Bu xüsusda, bizim bildiyimizə görə, yalnız yenə Köprülüzadə Fuadın ümumi nöqtələrdən o yana keçməyən bir məqaləsi və bəzi əsərlərində, məsələn, "Türk ədəbiyyatında ilk mütəsəvviflər"də bəzi qeydləri vardır ki, burada Köprülüzadə, bilxassə fransız sosioloqu Emil

[106] Систематическое построение литературы. Москва, 1925 г.
[107] Социологический метод в литературоведении, стр. 38.

Durkhaymın təsiri altında, ictimai amillərə diqqət verilməsini və ümumiyyətlə ictimai üsulun əsas olmasını təklif etməkdədir.[108]

Digər tərəfdən, Köprülüzadə türk ədəbiyyatı tarixinin bir küll, bir bütün şəklində tədqiqini və bu bütün[ün] içində dürlü parçaların birbirinə təsirini qaçırmamalı, – təklif etməkdədir ki, əsas etibarilə Sakulinin tərkibi quruluş **(синтетич. построение)** nəzəriyyəsinə bənzəyir.

Köprülüzadənin əsas fikirləri bu cümlələr içində xülasə edilmişdir: "Bu zərurətlər anlaşıldıqdan, yəni bu yeni nöqteyi-nəzərlər qəbul edildikdən sonra ədəbiyyat tariximizin müxtəlif dövrlərdə, müxtəlif türk ləhcələrinin ədəbiyyatlarına, müxtəlif böyük şəxsiyyətlərə dair monoqrafiyalar vücuda gətirmək, yəni müxtəlif ədəbi hadisələr haqqında tərkibi bir damaqla incədən-incəyə çalışılmış elmi təhlillər yapmaq şərtdir. Lakin bugünkü tarix nəhayətsiz və rabitəsiz təfərrüatdan ibarət bir məlumat yığını deyil, bir tərkib və inşa məhsuludur və ictimai... **(determinisme cosial)** qəbul edən bir müvərrix üçün tarix bir sənət əsəri olmadığı kibi, sırf bir təbəhhür yığında deyildir".[109]

Ədəbiyyatımızı əsri və elmi üsullarla işləmək və öyrətmək üçün, şübhəsiz, bu qədəri kafi deyildir. Üsuli tədqiqlərimiz ancaq Avropa və rus alimləri arasında bu xüsusda imdiyə qədər yapılan işlərlə aşina olduqdan və onları tətbiq etməsini öyrəndikdən sonra meydana çıxmağa başlayacaqdır. Həmin bu bəhsimizdə verdiyimiz məlumat da bu məqsədə məbnidir. Bu bəhsdə zikr olunan üsulların bir çoxu gərək ədəbiyyat tarixinə dair tədqiqlər yapılırkən, gərəksə bu xüsusda yapılmış hazır tədqiqlərdən tənqid gözilə faydalanırkən oxucumuzun işinə yarayacaqdır.[110]

Bu üsulların, səthi surətdə olsun, gözdən keçirilməsi ədəbiyyat tarixçisini yalnız ədəbi əsərlərdə tapdığı materialla iktifa edəməyib, digər ədəbiyyat sahəsinə yaxın bir çox elm sahələrinə aşina olması lüzumunu açıq surətdə isbat edir.

[108] Türk ədəbiyyatı tarixində üsul (Bilgi məcmuəsi, tişrini-sani, 1329, səh. 1-52).
[109] Türk ədəbiyyatında ilk mütəsəvviflər, səh. 7.
[110] Ədəbiyyat tarixi üsulları haqqında daha müfəssəl məlumat vermək bizim mövzumuza girmir. Bu arzusunu tətbiq etmək üçün oxucu tədqiqatının birinci dövrəsində bu əsərlərə müraciət etməlidir: 1) Краткий очерк методологии русской литературы. В.Н.Перетц, 1922 г., Петроград; 2) Социологический метод в литературоведении. П.Н.Сакулин, 1922 г., Москва; 3) Синтетическое построение истории литературы. Москва, 1925 г.; 4) Формальный метод в литературе. А.В.Багрий. Владикавказ, 1925 г.; 5) Л.Тротский. Литература и революция,. 1923 г.; 6) Искусство и литература в марксистском освещении, 1925 г., часть 2, № 5 /17 a. Əcnəbi lisanında olan əsərlər kitabımızın sonundakı cədvəldə mövcuddur.

YARDIMÇI ELMLƏR

Ədəbiyyat tarixinə qonşu sahələr. Biblioqrafiya. Paleoqrafiya. Lisaniyyat. Xronologiya. Bioqrafiya. Tarix. Etnoqrafiya. İctimaiyyat

Hər ixtisas sahibi, başqa bir çox elmlərin tədqiq sahəsi ilə təmasda bulunur, hətta eyni mövzu üzərində çalışır. Digər tərəfdən, elmlərin ayrı-ayrı sahələri mövzular və üsullar meydana gətirməsi, təqsimiə'mal məqsədilə olub, yoxsa insan bilgisi bütün elmlərin yekunu deməkdir? Elmin az inkişaf etdiyi dövrlərdə bir alim bütün elmlərə aşina olmaq məcburiyyətində idi. Tədqiq sahəsi genişləndikcə, qarışdıqca mütəxəssislər də ayrı-ayrı elmlərdə çoxalmaqdadır.

Bunun üçün də hər elm başqa qomşu elmlərlə mümkün olduğu qədər sıxı rabitədə bulunmaq məcburiyyətindədir. Bu söz bilxassə ədəbiyyat elmi üçün doğrudur. Çünki insanın söz vasitəsilə olan yaradıcılığı üzvi, ruhi (psixoloji), ictimai amillərin təsiri altında meydana gəldiyi kibi, bu amillərin özləri də bəsit şeylər olmayıb, bəlkə, təhlil olunduğu zaman görünəcəyi vəchlə, bir çox daha bəsit amillərdən tərkib etmişdir. Bəsit – mürəkkəb, bütün bu faktorların mahiyyətini anlamaq, onlara münasib məqamda lazım gələn əhəmiyyəti verə bilmək üçün bir taqım elmlərə aşina olmalıdır. Tarix üsuluna, metodolojisinə aid olan əsərlərdə belə yardımçı elmlərin tədqiq edilməsi lüzumu tarixçiyə də tövsiyə olunmaqdadır.[111] Pedaqoji, psixoloji, ictimaiyyat (sosioloji)... kibi elmlərin heç birisi belə yardımçı elmlərlə aşina olmaq məcburiyyətindən azad olamazlar.

Tarixçiyə bir çox tali məbhəslərdən başqa, ədəbiyyat tarixini bilmək də tövsiyə olunmaqdadır.[112] Ümumiyyətlə, bir alimin hər hansı bir tədqiq işində hansı elmlərlə təmasda bulunacağını əvvəldən görmək, bu xüsusda gəlişigözəl tövsiyələrdə bulunmaq həm qabil deyildir, həm də faydasızdır. Lakin ədəbiyyat tarixini elmi surətdə öyrənməyə və öyrətməyə hazırlanan adam zəruri olaraq bəzi elmi sahələrlə aşina olmalıdır. Çünki bunları bilməyən bir şəxs ədəbiyyat tarixi sahəsində faydalı meyvələr verəcək surətdə çalışamaz.[113]

[111] Лангуа и Сеньобес. Введение в изучение истории, 1899.
[112] Bernhim. Lehrlucu der historiischen metode etc., 1903.
[113] Лаппо-Данилевский. Методология истории, 1913.

1) Biblioqrafiya. Hər elmin özünəməxsus bir mazisi və bu mazini təmsil edən ədəbiyyatı vardır ki, buna aşina olmadan tədqiqata girişən adam ya şaşırıb qalır, yaxud əvvəlcə cızılmış olan məsələləri bir daha cızmaq və bu surətlə nahaq yerə yorulmaq təhlükəsi qarşısında qalır. Bunun üçün daima "biblioqrafi-kitabiyyat" deyilən elmin nəticələri ilə tanış olmalıdır. Avropa və Rusiyada hər elm sahəsində zamanımıza qədər yapılan tədqiqlərin yekunu müəyyən kataloqlar, yaxud lüğətlər, ensiklopediyalar, qamuslar halında verilmişdir. Bundan başqa, hər müəllim, hər alim özü üçün belə cədvəllər və kiçik biblioqrafi cədvəlləri tərtib edə bilər. Türkoloji aləmində, məəttəəssüf, biblioqrafiya işi çox ziyadə geridə qalmışdır. Bir az əvvəl vəfat edən kitabiyyat alimlərimizdən Bursalı Məhəmməd Tahir ancaq Osmanlı və Anadolu sahəsində çalışmışdır və üsulu etibarilə Avropa kitabiyyatçıları ilə müqayisə ediləməz. Bu surətlə türkolojiyə aid kitabiyyat məlumatı hələ dürlü əsərlərin haşiyələrində və "İslam ensiklopediyası" kibi bəzi qamuslarda dağılmış bir halda bulunmaqdadır. Həmin bunun üçün türk ədəbiyyatı tarixçisinin kitabiyyat məsələlərinə verəcəyi əhəmiyyət daha da artıq olmalıdır.

2) Paleoqrafiya. Türk ədəbiyyatına aid mühüm əsərlərin böyük bir qismi hələ əlyazma halında bulunmaqdadır. Bundan başqa, professor Samoyloviçin çox haqlı olaraq göstərdiyi kibi, türklər-tatarlar imdiyə qədər ondan ziyadə əlifba işlətmişlərdir ki,[114] bunların başlıcaları Orxon-Yenisey, uyğur-moğol, ərəb, latın, slavyan... yazılarıdır. Bundan başqa, ərəb yazısı ilə yazılmış olan bir çox əlyazma kitabları dürlü-dürlü xarakterdədir (təliq, divani, nəsx, süls, rüqə...). Öz tədqiqatını birinci mənbələrdən, yəni əsərlərin əslindən tapmaq məcburiyyətində bulunan ədəbiyyat müəllimi əski yazılara aşina olmalı, onların səsləri, sözləri vəlhasil türk dilini qeyd etmək xüsusunda keçirdiyi inkişaf və təbəddülləri də öyrənməlidir. Türk dilini yazmaq üçün işlənmiş olan bütün bu yazılardakı nümunələr və əlifbalar müxtəlif məmləkətlərdə nəşr olunmuşdur. Bununla bərabər, bu yazıların bir nümunə məcmuəsini əlifbaları və oxunuş üsulları ilə nəşr etmək vəzifəsi qarşısında çoxdan bəri bulunuruq.

3) Lisaniyyat. Ədəbiyyat əsas olaraq söz təməlində meydana gəldiyindən sözün, dilin qanunlarına, təkamül və inkişaf yollarına, onun

[114] Проф. А.Н.Самойлович. Опыт крымско-татарской грамматики. Петроград, 1916 г.

tarixinə aşina olmayan bir adam gözəl bir ədəbiyyat tarixçisi olamaz. Türk ədəbiyyatında Füzulinin, yaxud Nəsiminin və bunun kibi bir çox şairin və ədiblərin hansı şivəyə mənsub olduğu haqqında zaman-zaman çox atəşli davalar, münaqişələr qaldırılmaqdadır. Belə zamanlarda ədəbiyyatçılarımız məzkur şairlərin dilindən, ədəbi ədalarından ziyadə, tali və belə davaların cızılmasında əhəmiyyəti olmayan nöqtələr ətrafında dolanmaqdadırlar. Məsələn, Füzulinin haralı olduğu, kimdən öyrəndiyi və sairə... Halbuki belə məsələlərin doğru və qəti olaraq çözülə bilməsi üçün hər şeydən əvvəl mühərrir və ya şairin əsil əsərlərini taparaq dilini təhlil etməkdən başqa çarə yoxdur. Yuxarıda ədəbiyyat tarixinin keçirdiyi dövrlərdən bəhs edərkən qeyd etdiyimiz kibi, bu əsli əsərlər bir çox kopyaçılar, müstənsixlər tərəfindən təbdil və təhrif edilmişdir. Həmin bunun üçün bir çox tarixi şair və ədiblərimizin əsərlərini az-çox təqribi surətdə hali-əsliyyəsinə irca etmək məcburiyyəti vardır ki, bütün bu məsələləri çözmək üçün lisaniyyata müraciət etmək lazımdır.

Ədəbiyyat abidələrini müqayisəli surətdə tədqiq etdiyimiz zaman onların dillərini bir-biri ilə çarpışdırmaqdan işə başlamaq lazım gəlir. Bunun üçün bu abidələrin yazıldığı dilin tarixi və inkişaf yolları ilə tanış olmaq zəruridir. Çünki belə müqayisələri tərcümələr vasitəsilə öyrənmək faydasızdır. Türk ədəbiyyatı tarixçisi yalnız türk lisaniyyatına vaqif olmaqla da iktifa edəməz. Ona az-çox elmi surətdə ərəb, fars və Avropa dillərinə, sonra ümumi lisaniyyat üsullarına aşina olmaq da şərtdir.

4) Xronoloji. Hər hansı bir məsələnin tarixini öyrənmək üçün o məsələni meydana gətirən faktların, hadisələrin meydana çıxdığı zamanları öyrənmək lazım gəlir. Ədəbi əsərlərin zühur və tərtib zamanlarına aşina olmayan bir tədqiqatçı tarixi yolaqdan və cizgidən kənara çıxmış və inkişaf, təkamül haqqında qəti bir şey söyləmək imkanından məhrum olmuş olur. "Xronoloji" namı verilən elm sahəsi tarixi əsərlərin tərtib və tərkib tarixlərini tərəssüd etmək və bir çox nöqtələrdən aldığı dəlillərlə bu tarixləri tapıb meydana çıxarmaqla məşğul olur. Şərq aləmində yazılmış bir çox əsərlərin ya müəllifləri, yaxud və çox dəfə yazıldıqları tarixlər məchul olur. Daha fənası, bir çox tarixlər də yanlışdır. Ona görə də bütün bu maneələr ədəbiyyat tarixçisinin müvəffəqiyyətlə ilərilləməsini durdururlar. Buna bizdəki əsərlərdə rast gəldiyimiz hicri təqvimin dürlü-dürlü cilvələri də əlavə olunacaq

olursa, xronolojinin əhəmiyyəti özlüyündən anlaşılır. Bir çox ədəbiyyatçılarımızın əsərlərindəki qeyri-təbiiliklər, mühakimələrindəki səthilik və əsərin tarixi gözlə tədqiqindən uzaq olmaları bu xüsusa, yəni xronolojiyə ayrıca əhəmiyyət verilməsi lazım gəldiyinə başlıca dəlildir.

Anaxronizm – dilin və keçmişi imdiki kibi görməkdən ibarət olan xəstəlik bizdə ən çox intişar etmişdir. Şərqiyyatçıların iləri gələnlərindən mütəvəffi professor Qoldsiher: "Şərqdə tarix və zaman fikri yoxdur", – deyirdi. Bunun səbəbi xronolojiyə əhəmiyyət verilməməsidir. Xülasə, ədəbiyyat tarixçisi başlıca əsərlərin yazılış və doğuş vaxtlarını gözəlcə öyrənməyə çalışdığı kibi, müxtəlif dövrlərin təqvimi üsulları ilə də tanış olmalıdır. Əks təqdirdə, bir çox əqfallara qapılmaq safdilliyində bulunacağına şübhə yoxdur. Məsələn, Firkoviç adlı bir həvəskar Krım – Bağçasaraydakı məzar daşlarının tarixlərini təhrif edib öz məqsədinə uydurараq, bir çox illəri alimlərin zehnini qarışdırmışdır. Xronoloji elminin və müxtəlif təqvim üsullarının tədqiqi sahəsində belə şantaj – əqfalın nə surətlə meydana çıxarıldığı xronolojinin əhəmiyyətinə dəlil olaraq gətirilə biləcək nümunələrdəndir.[115] Eyni surətlə türk tarixi sahəsində "Təvarixi-bulqariyyə" adındakı əsərdə bunun açıq və maraqlı nümunələrindən birisinə rast gəlirik.[116]

5) Tərcümeyi-hal. Ədəbiyyat tarixçisinə tədqiq etdiyi müəllifin necə bir adam olduğunu bilmək də lazımdır. Müəllifin həyatını öyrənmək sayəsində, onun mühiti və ədəbi zövq və idealı haqqında da fikir edilmək mümkündür. Bununla bərabər, əvvəlcə, söylədiyimiz kibi, bioqrafidən – tərcümeyi-haldan özümüzə lazım olan materialı seçib faydalanmasını bilmək də şərtdir. Yoxsa bir taqım cüziyyat heç bir dürlü məqsədə götürəməz və nahaq vaxt itirməkdən başqa bir şeyə yaramaz. İntibah dövründən on doqquzuncu əsrin ortalarına qədər ədəbiyyat tarixçiləri bu növ cüziyyata ziyadə qapılaraq ciddi tədqiqlərdən uzaq düşmüşlərdi. Bizdə hələ bir çox ədəbiyyat tarixinə aid parçalar belə boş tərcümeyi-hal əcibələrilə doludur.

Sözümüzə istədiyiniz ədəbi jurnaldan və yaxud tərcümeyi-hal məqaləsindən misal tapıla bilər. Burada yalnız birisi ilə iktifa edəlim: Kazım Nami Əhməd Midhədin tərcümeyi-halını yazarkən kamali-ciddiyyətlə bu məlumatı verir: "Xəmir aşını, sirkəli soğanı çox sevərmiş,

---

[115] И.Ю.Марков. Одно из названий Турции в еврейской литературе. Известия Российской Академии наук, №1-18, 1923 г., стр. 157, 182.

[116] "Təvarixi-bulqariyyə" haqqında baxınız: Tatar ədəbiyyatı tarixi (feodalizm dövrü), ikinci basma, Qazan, 1925, səh.123, 127.

Əhməd Midhəd əfəndi, bununla bərabər, hər yeməyi yeyər, heç birindən nifrət etməzmiş, meyvələrdən tut, qovun və portağalı, içkilərdən yaxşı su və pivəni içərmiş, suyu stəkanla içməklə qanamaz, parç və qrafin ilə içərmiş". Yaxud: "Gecə uyğusunda bağıra-bağıra sayıqlar, dişlərini qıcırdadırmış. Bir gün bağçasına semiz ot toxumu almış. Gecələr bir sair filmənam **(лунатик)** kibi qalxaraq odasını sularmış. Ertəsi günü yatağının ətrafındakı islaqlıqları özünə göstərdikləri vaxt gündüz əkdiyi semiz otu toxumlarını gecə röyasında sulamış olduğunu xatırlarmış".[117]

Təbii bu növ məlumatın məşhur türk mühərrirlərindən birisi olan Əhməd Midhədin nə ədəbi simasını, nə də mühitini müəyyən etmək işində heç bir qiyməti yoxdur.

Bioqrafi, təkrar edəlim, ancaq əsəri və mühiti izah edə bilmək, anlamaq üçün tədqiq etməli və öyrənməlidir.

Burada təmas olunacaq məsələlərdən birisi də əsərləri vasitəsilə müəllifin həyatını anlamağa çalışmaqdır ki, çox dəfə qaba yanlışlıqlardan başqa nəticə verməz. Binaən əleyh bizim ədəbiyyat tarixçisi üçün faydalı və maraqlı saydığımız tərcümeyi-hal daha ziyadə hər şair və yaxud sənətkarın həyat və əsəri haqqında meydana gətirilən monoqrafiyalardır ki, türk ədəbiyyatında buna nümunə olaraq Köprülüzadənin Əhməd Yəsəvi və Yunus İmrə haqqındakı məlum əsərini və İ.Hikmətin "Türk ədəbiyyatı tarixi"ndə ayrı-ayrı şairlər haqqında verdiyi məlumatı gətirə bilərik.

6) Tarix. Burada tarixi geniş mənasında, yəni mədəniyyət tarixi miqyasında almalıdır. Bir xalqın mədəniyyəti və bu mədəniyyətin dürlü inkişaf dövrlərini bilməyən ədəbiyyat tarixçisi bizə onun ədəbiyyatı haqqında elmi və ciddi olmaq şərtilə nə söyləyə bilər? İslama qədər olan türk ədəbiyyatını bilmək üçün əski türk tarixini bilmək şərt olduğu kibi, saray, aşıq ədəbiyyatlarını, yaxud son dövr ədəbi məhsullarını tədqiq edə bilmək üçün də türk-tatar xalqlarının tarixinə gərəyi kibi aşina olmaq ehtiyacı vardır. Bilxassə ədəbiyyatı ictimai bir hadisə olaraq qəbul edib ictimai üsulla çalışan ədəbiyyatçı üçün bu lüzum və ehtiyac daha çox artar.

Burada yalnız siyasi tarixlə qənaətlənməkdən ehtiyat etməli, sakınmalıdır. Eyni zamanda ədəbiyyatını tədqiq etdiyi dövrün iqtisadi münasibətlərini, sinfi təzadlarını, texniki icadlarını, maarif və elmi

[117] "Türk yurdu" məcmuəsi, ikinci il, səh. 238-239.

həyatını da qavramalıdır. Ədəbiyyat, bədii yaradıcılıq sahəsinin məhsullarından birisi olmaq dolayısilə rəsm, musiqi, heykəltəraşi, nəqş, memari və teatro, tans... kibi sənət növləri ilə sıxı-sıxıya bağlıdır. Bunun üçün digər nəfis sənətlərin vəziyyəti və inkişaf yolları ilə aşina olmadıqca ədəbi tədqiqatımız daima naqis qalmağa məhkumdur. Binaən əleyh sənət tarixi də ədəbiyyatçının əsas və mənəvi qida alacağı mənbələrdən birisi sayılır.

Nəhayət, xalq ədəbiyyatını tədqiq edərkən xalqın məişətini və maddi mədəniyyətini öyrənməni də, yəni yaxşı xalq ədəbiyyatçısı, təbiri-məxsusi ilə, folklorçu olmaq üçün eyni zamanda etnoqraf olmaq lüzumunu da unutmamalı.

Xülasə, ədəbiyyat müəllimi və yaxud tədqiqçisinə: "Öz mövzusundan başqa daha nələr bilmək lazım?" – sualına belə cavab verilə bilər.

Ədəbiyyatçı öz sahəsinin mütəxəssisi olmaqla bərabər, ədəbiyyatla qomşu olan başqa sahələrin də aşinası, təbir caizsə, ensiklopedist olmalıdır. Geniş məlumat **(эрудиция)** sahibi olmayan adam üçün əsri mənasında ədəbiyyat tarixçisi olmaq çox gücdür. Yalnız bunu bilməlidir ki, bu məlumat ədəbiyyat tarixinə əlaqəsi cəhətindən toplanmalı və bu nöqtədən də sistem, təsnif altına alınmalıdır. Psixoloji, ictimaiyyat, siyasi-iqtisad, arxeoloji... kibi ədəbiyyatçıya məlum olması labüd bulunan bir çox bəhslərin təfsilindən bununçün vaz keçdik.

ƏDƏBİYYAT TARİXİNİN DÖVRLƏRƏ AYRILMASI

Ədəbiyyat tarixinin dövrlərə ayrılmasında prinsiplər. Türk-tatar ədəbiyyatının dövrlərə ayrılması. Bu xüsusda mövcud olan təcrübələr. Bu gün mümkün olan ayırma

Ədəbiyyatın dövrlərə təqsim olunub-olunmaması məsələsində bütün ədəbiyyat tarixçilərinin fikri bir nöqtədə birləşə bilmir. Birinci baxışda bu məsələ çox o qədər də mühüm və zəruri görülmür. Akademik V.N.Perets ədəbiyyatı dövrlərə ayırmanı yalnız elmi və tərbiyəvi nöqteyi-nəzərdən mühüm görüb, elmi və nəzəri cəhətdən ona əhəmiyyət vermir.[118]

Elmi, müəyyən sifət və əlamətlərə görə parçalara, dövrlərə ayırmanın pedaqoji və tədris cəhətindən, əlbəttə, birinci dərəcədə əhəmiyyəti vardır. Lakin heç bir ədəbiyyat tarixçisi mövzunu müəyyən bir sistem altına almadan, yəni dövrlərə bölmədən tədqiqata girişəməz. Qərb alimləri ədəbiyyat tarixinin dövrlərə bölünməsi **(периодизация)** məsələsinə çox böyük əhəmiyyət verirlər.

Məsələn, Riçard Meyer özünün "On doqquzuncu əsr alman ədəbiyyatı" adındakı əsərində bu məsələyə ayrı bir şöbə, bəhs təxsis edir.[119] Hər şeydən əvvəl dövr **(период)** nə deməkdir? Meyer zikr olunan əsərində dövrü bu surətlə tərif edir: "Elmi və bilxassə tarixi əsərlərdə "dövr" namı altında müəyyən bir vəhdət altına alına bilən və müəyyən vəsflərlə gərək özündən əvvəl və gərəksə sonra gələn dövrlərdən ayrılan zaman parçasını anlayırıq. Təbii, hər dövr özündən əvvəl və sonra gələn dövrlərin arasında bulunmaq etibarilə bir çox cəhətlərdən onlarla ittisal peyda edir və müəyyən şərtlər və vəsflər altında bir neçə dövr bir araya toplana bilər ki, buna Avropa və rus ədəbiyyatlarında **"эпоха – epoque"** təbir olunur. Bizdə, türk ədəbiyyatı tarixinə aid əsərlər və tədqiqnamələrdə yalnız "dövr" sözü işlənir. Halbuki bu sözü ədəbiyyat tarixçilərimiz hələ müəyyən və qəti bir istilah şəklinə soxmamışlardır. Məsələn, Köprülüzadə "İslam dövrü", "Avropa dövrü",[120] "İslamdan əvvəlki dövr" sözlərini işlətdiyi,

[118] Методология ист. лит., стр.109.

[119] Richard Meyer. Deutsche Literature des 19 Lahrhunderts. Principien der wissenschaftlichen periodenbildung, s. 3.

[120] Türk ədəbiyyatı tarixi, səh. 7.

daha doğrusu türk, ədəbiyyatını belə üç dövrə ayırdığı halda, eyni zamanda "saray dövrü", "İbrahim paşa dövrü", "təsəvvüf dövrü" kibi təbirləri də işlətməkdədir.[121] "Təsəvvüf", yaxud "saray" bir dövr təşkil edincə, "İslam dövrü", "Avropa dövrü" bunun müsavisi olmayacağı meydandadır.

Bizdə "period" və "epok" sözlərindən birisinə "çağ", digərinə "dövr" desək, iki olduqca bir-birindən ayrı məfhumu qarışdırmazdıq.

Son elmi əsərlərdə ədəbiyyat tarixinin dövrlərə təqsimi işinə çox ciddi bir məsələ kibi baxırlar. Çünki dövrlərə ayırma işi yalnız xronolojik, təqvimi bir məsələ olmayıb, bəlkə, bir çox nöqtələrdən də prinsip məsələsidir. Bizim ədəbiyyatı və onun inkişafını anlamamıza bağlı olaraq, bu dövrlər dürlü-dürlü ola bilər, digər tərəfdən, ədəbiyyatın məntiqi və elmi bir tərzdə dövrlərə bölünməsi onun inkişaf və təkamül cəhətindən asanca anlaşılmasını və tədris edilməsini intac edir. Bunun üçün yaxşı bir təqsim həm caiz olduğu əsasi vəsfləri ilə, həm də ehtiva etdiyi zamanın miqdarı etibarilə, nəhayət, bədii mündəricəsi ilə oxucunu təmin və tətmim edə bilməlidir. Riçard Meyer dövrlərə bölünmə işinin elmi cəhətinə də layiqi dərəcədə əhəmiyyət verdiyindən dövrlərin sayca tək, məsələn, üç-beş olmasını təklif edir.

Dövrləri hansı prinsiplə ayırmalı? Dövrlərin lüzum və əhəmiyyətini qəbul etdikdən sonra qarşımıza çıxacaq ən mühüm məsələ budur. Bu bəhsimizdə bir neçə başlıca prinsipləri gözdən keçirməliyik. Belə prinsiplərdən birinci üsul "təqvimi" **(хронологический, аналитический)** prinsipdir. Bu üsulun ən ibtidai bir üsul olduğunu qeydə belə hacət yoxdur. Çünki bu üsul ilə zatən hər dürlü periodizasion imkanı ortadan qalxır. Müxtəlif dövrlərin ayrılıb çıxarılması üçün bulunması lazım və zəruri olduğunu qeyd etdiyimiz əsasi vəsflərə burada heç də qulaq asılmaz. Bununla bərabər, yuxarıda adı söylənilən Riçard Meyer kibi Avropa ədəbiyyatçıları və rus ədəbiyyatçılarının bir çoxu bu prinsipi işlətməkdən vaz keçməməkdədirlər. Məsələn, rus ədəbiyyatında "otuzuncu illər", "qırxıncı illər" kibi təbirlərə hər zaman rast gəlirik. Bununla bərabər, heç kimsə bu rəqəmləri doğrudan-doğruya riyazi mənasında anlamır. Əgər rus ədəbiyyatında otuzuncu, qırxıncı... illərdən bəhs olunursa, bu illər içində onun müəyyən şəkli və mövzusu vəsflərə malik olduğu qeyd olunmaq istənilər.

[121] Yeni Osmanlı ədəbiyyatı, səh. 40.

İkinci prinsip ədəbiyyatla müvazi olaraq, bir zamanda və bir sahədə doğan hər hansı xarici bir əlamətlə ədəbi dövrü adlandırmaqdır. Burada ədəbi olmaqla bərabər, ədəbiyyatla əlaqəsi, onun inkişafına təsir etdiyi fərz olunan siyasi, iqtisadi və ictimai əlamətlər əsasi alınır. Bu prinsipin iki budağı, iki dürlü tətbiqini görürük. Birincisi, siyasi hadisələri əsas almaqdır ki, bu surətlə yapılan ədəbi dövrlərin başında dövrün ileri gələn simaları, çox dəfələr padşahlar oturur. Məsələn, rus ədəbiyyatında Böyük Petro, Birinci Nikolay, Yekaterina kibi rus padşahlarının adlarına nisbət edərək, bir taqım dövrlər təşkil etmişlərdir. Halbuki rus ədəbiyyat tarixçilərindən Kotliyarevskinin dediyi kibi, bu dövrdə mövcud olan ədəbiyyat sarayın və zadəganın çox dəfə sevmədiyi bir ədəbiyyat idi. Türk ədəbiyyatında da "Səlimi-salis dövrü", "İbrahim paşa dövrü", yaxud "Lalə dövrü" kibi adlara son zamanın ədəbiyyat tarixinə aid əsərlərdə çox rast gəlirik.

Bunun digər bir şəkli olaraq, professor Sakulin ədəbiyyat tarixi dövrlərinin "fikri və ictimai həyat əlamətləri" ilə ayrılmasını göstərir.

Kummerə **(Куммер)** görə, xalqın mənəvi həyatı bir küll, bir bütün təşkil edir ki, ədəbiyyat bu bütünün ancaq bir parçasıdır. Bu parça, başqa minlərcə mənəvi iplərlə bağlı bulunur ki, bu bütün ictimai üzviyyət içindən ədəbiyyatı çəkib çıxarmaq mümkün deyildir. Ədəbiyyat tarixi, məfkurələr, fikirlər tarixidir. Ədəbiyyat tarixi bu prinsip üzərinə dayanılaraq təsnif edilməli, dövrlərə bölünməlidir.[122]

Yenə Sakulin, çox doğru olaraq, bəzi yalnız ictimai və iqtisadi əsasları alaraq, ədəbiyyatı dövrlərə ayırmaq təşəbbüsündə bulunan ədəbiyyat tarixçilərini də bu zümrəyə soxur. Məsələn, V.M.Friçe **(В.М.Фриче)** "Qərbi Avropa ədəbiyyatı tarixi taslaqları"[123] adındakı əsərində şəkli prinsip üstünə qurulan təsnif təcrübələrinə qarşılıq iqtisad və təsərrüfat dövrlərini əsas alaraq, ədəbiyyat dövrlərini ayırmağa çalışır və onun kitabında bunun kibi dövrləri görürük, məsələn: "Təbii və təsərrüfat dövrü", "şəhər təsərrüfatının doğma dövrü", "ticarət sərmayədarlıq dövrü", "burjuaziya cəmiyyətinin doğması", "feodal monarşi reaksionu", "sənaye inqilab dövrü"... Bu surətlə Dante təbii təsərrüfat dövrünün, Şekspir ticari sərmayədarlıq çağının müməssilləri olaraq görünür. Doğrudur, bu iqtisadi amillər hamısı ədəbiyyat üzərinə

[122] Фридрих Куммер. О смене литературн. поколений, 1910, стр. 1-3.
[123] М.Фриче. Очерк развития западно европейской литературы, М., 1922.

təsir etmiş və bu dövrlərin ictimai və fikri, binaən əleyh ədəbi həyatının əsasını təşkil etmişlərdir, lakin bununla bərabər, ədəbiyyatın xüsusi bir hadisə olaraq inkişaf və təkamül dövrləri burada göstərilmir.

Madam ki, yuxarıda söylədiyimiz kibi, ədəbiyyat tarixi ilə ictimaiyyat tarixi bir küllün, bir bütünün iki tərəfindən ibarətdir, bu rabitə əsasən lazım olan ədəbi tərəf, ədəbi cəbhənin xarakteristiki və ayırıcı vəsfləridir. Ədəbiyyat özünün xüsusi təbiətinə, ümumi ictimai və iqtisadi qanunlardan əlavə, öz xüsusi inkişaf yollarına, qanunlarına da malik deyilmi? Buna görə də ədəbiyyat tarixini dövrlərə ayırmaq da bu xüsusi əlamətləri göz önündə tutmaqla qabil ola bilər. Təbii, bunun üçün yalnız şəkli xüsusiyyətlərə istinad etmək lazım və kafi deyildir. Burada bütün ədəbiyyatı öz xüsusiyyətlərilə həm şəkil, həm də mündəricə cəhətindən bütün bir üzviyyət kibi alıb, həmin bu ədəbi üzviyyətin təkamülündəki mərhələləri tapmağa çalışmalıdır.

İkinci prinsip olaraq gətirdiyimiz və "xarici" adını verdiyimiz prinsipə professor Sakulin "geterogen prinsipi" **(гетерогенный принцип)** adını verərək öz tərəfindən yalnız ədəbi və muxtariyyətli, avtonom prinsip üzərinə təsnif yapılmasını təklif edir.[124]

Ədəbiyyat tarixini bu surətlə, yəni özünəməxsus əlamətlərinə görə sistem altına almaq və dövrlərə ayırmaq prinsipi çox mühüm olmaqla bərabər, tətbiqi də çox çətindir.

Hələ rus və Avropa ədəbiyyatlarında gərəyi kibi tətbiq edilməyən bu üsulu türk-tatar ədəbiyyatları kibi nisbətən çox az işlənmiş və inkişaf məsələləri, başlıca xüsusiyyətləri hələ cızılmamış ədəbiyyat sahələrinə tətbiq etmək qabil deyildir.

Bizdə, türk-tatar ədəbiyyatları sahəsində bu məsələdə artıq mövcud olan bəzi təcrübələri burada qeyd etmədən keçə bilmərik.

Ərəb ədəbiyyatı tarixində rast gəldiyimiz "cahiliyyə", "möhzərəmin", "müvəllidin", "mühəddisin"... kibi dövrlər aşağı-yuxarı, bir tərəfdən, xronolojik, digər tərəfdən, dini əsaslar üzərinə qurulmuşdur.

Bütün türk ədəbiyyatı tarixi sahəsində, bu ədəbiyyatı bir bütün olaraq tədqiq etməyə çalışan Köprülüzadə başlıca üç böyük dövr görməkdədir: 1) islamdan əvvəl türk ədəbiyyatı, 2) islam mədəniyyəti təsiri altında türk ədəbiyyatı, 3) Avropa mədəniyyəti təsiri altında türk ədəbiyyatı.[125]

[124] Синтетическое построение истории литературы, стр. 65.
[125] Türk ədəbiyyatı, səh. 7.

Bu dövrlərin adlarından anlaşıldığı kibi, ayrılmasında əsas xarici və hətta tali prinsip götürülmüşdür. Burada əsas olaraq alınan türk ədəbiyyatı və onun inkişafı olmayıb, bəlkə, ona xaricdən yapılan islam (yəni ərəb, fars), Avropa (ən ziyadə fransız) ədəbiyyatları tərəfindən yapılan təsirdir. Əcəba, türk ədəbiyyatını islamdan əvvəl və sonra türk ədəbiyyatı yapan ünsürlər nədir? Heç şübhə yox ki, bu ünsürlər vardır. Ondan başqa, yalnız dil vasitəsilə bu ədəbiyyatı tanımaq mümkün olamazdı.

Köprülüzadə bir az sonra bu dövrləri və daha kiçik ədəbiyyat dövrlərini xronoloji bir sıra ilə tərtib edəcəyini söylədikdən sonra bunları təkamüli-tarixilərinə görə izaha çalışdığını qeyd edir, eyni sətir içində böyük ədəbi şəxsiyyətlərə və yaxud böyük xarici cərəyanlara görə tali təqsimatı meydana gətirdiyini bildirir. Burada bir neçə prinsipin bir-birinə qarışdığını görməmək mümkün deyildir.[126]

"Yeni Osmanlı ədəbiyyatı"nda Şihabəddin Süleyman və Köprülüzadə "Bir dövr ədibinin hüdudu necə təyin edilir" sərlövhəsi ilə olduqca müfəssəl bir bəhs açaraq: "Ədvari-ədəbiyyəni təyin və tövzih xüsusunda ən ziyadə nəzəri-diqqətə alınacaq keyfiyyət və cəhət cəmiyyətin təaqübati-şəkliyyəsidir. Cəmiyyətin təxalüfü ilə ədvari-ədəbiyyə də təxalüf edər. Cəmiyyətlə sənətin, ədəbiyyatın təsir mütəqabili fərziyyei-sabitiyyəsini heç bir zaman unutmamaq müqtəzidir",[127] – tosiyəsini iləri sürmək, yəni ədəbiyyat dövrlərini cəmiyyətin müəyyən dövrləri ilə müvazi surətdə təyin etməni iləri sürməklə bərabər, Osmanlı ədəbiyyatının dövrlərə təqsimində açıq və qəti prinsiplər üzərində durmamışlardır. Bu təqsimə görə, beş dövr çıxır: 1) dövri-təsəvvüf, 2) saray ədəbiyyatı dövrü, 3) dövri-Kamal, 4) dövri-fikri, 5) dövri-inhitat və şəxsiyyət. Bu dövrlər haqqında verilən xarakteristikdən bu təsnifin nə qədər mütənaqiz və hətta mübhəm, qeyri-müəyyən əsaslar üzərinə qurulduğu anlaşılır. "Dövri-təsəvvüf dövri-tərəddüd və biqərardır, lisan və ədəbiyyat qatıdır. Gözəldən ziyadə mətindir. Saray ədəbiyyatı dövründə də lisan əskisinə nisbətlə daha mütəkamil fikirlər,

[126] Türk ədəbiyyatı. Birinci kitab, səh. 7 ("Bir-birindən tamamilə ayrı səcapayi-fariqaya malik olan bu üç böyük dövrə müxtəlif ləhcələr ədəbiyyatlarını, aralarındakı rabitə və münasibətləri gözdən qaib etməmək üzrə, ayrı-ayrı və zamani **(chronologique)** bir sıra təqib edərək təkamüli-tarixilərinə görə izaha çalışdıq. Böyük ədəbi şəxsiyyətlərə, yaxud bəzi böyük tarixi cərəyanlara görə yapdığımız tali təqsimatda da endi mülahizələrə əsla tabe olmayaraq icabati-tarixiyyəyə itbadan geri durmadıq").

[127] Yeni Osmanlı tarixi ədəbiyyatı, səh. 30-31.

hisslər daha incədir. Dövri-kamala gəlincə, lisan əzəmətli, fikir əzəmətli, dəbdəbəli, təntənəli, gurultuludur. Dövri-fikridə isə gözəllik yalnız fikirlərdə axtarılır. Ən ziyadə dağınıq hadisat bir fikrə təkzif olunur. Heyəti-ümumiyyənin hüsnündən ziyadə bir misrada mövcud bir fikrin hissini nəzəri-etibara alınır bir haldadır. Dövri-şəxsiyyətə gəlincə, artıq bitmək üzrə bulunan bir həyat, cəmiyyətin bütün mərzləri və illətləri görülməkdədir. Artıq bu dövrdə şairlər ya fövqəladə xüsusi və şəxsidirlər və ya müqəllidin müqəllidi, bayağı və adidirlər. Çünki ictimai müəssisələr artıq əskimiş, şəxsiyyət cəmiyyətə hökm etməyə başlamışdır".[128]

Bütün bu sözlərdən müəyyən bir məna çıxarmaq, səmimi olaraq söylənəcək olursa, qabil deyildir. Bundan başqa, mühərrirlər – Şihabəddin Süleyman və Köprülüzadə Məhəmməd Fuad bu beş dövrü tali ikinci dərəcə cürbəcür hesab edərək, bütün Osmanlı ədəbiyyatını, yuxarıda "Türk ədəbiyyatı tarixi"ndə gördüyümüz kibi, iki böyük dövrə ayırırlar ki, bu da biri mayei-Şərq ilə bəslənən, xörəyini ərəb, əcəm ədəbiyyatından alan Aşıq paşadan başlayaraq Akif paşa – Şünasi dövrünə gələn dövri-tarixi-ədəbi, digəri də Akif paşa ilə başlayan, mayasını Qərbdən alan, hələ davam edən dövri-ədəbi-tarixi...[129]

Bu bəhsimizin birinci qismində göstərdiyimiz fikirləri diqqətlə oxuyan adam bu "beşli" və yaxud "ikili və üçlü" təqsimlərin prinsip etibarilə münasib tarixi yerlərini özü tapa biləcəyindən bu xüsusda çox söz söyləməyə hacət yoxdur. Yalnız burasını bir daha təkrar edəlim ki, bütün bu təsniflər nə prinsip etibarilə vəhdətə malikdir, nə də xarakteristikləri etibarilə aydındır: professor Vladimir Qordlevski "Yeni Osmanlı ədəbiyyatı taslağı"[130] adı ilə yazdığı əsərində eyni surətlə bəzi xırda-para dövrlər ayırmağa çalışmış isə də, bu təsnifi müəyyən və mətin prinsipləri üzərinə qura bilməmişdir.

Qordlevskinin "Yeni Osmanlı ədəbiyyatı"nda ayırdığı başlıca dövrlər bunlardır: 1) Avropa ədəbi məktəbi, 2) dini reaksion, 3) milli cərəyan, 4) "Sərvəti-fünun" dövrü.

Bu dövrlər haqqında Qordlevski ədəbi və bədii cəhətdən xarakteristik vermədən, doğrudan-doğruya bu dövr müməssillərinin əsərlərini tədqiqə girişir. Zatən belə xarakteristik bədii və ədəbi vəsflər axtarıldığı zaman yuxarıda gətirdiyimiz təsnif tikiş tuta bilərmi?

[128] Yeni Osmanlı ədəbiyyatı, səh. 40.

[129] Yeno orada, səh. 41.

[130] В.Л.Гордлевский. Очерк по новой Османской литературе. Москва, 1912.

Professor A.Krımski "Türkiyə tarixi və ədəbiyyatı"[131] adındakı əsərində türk ədəbiyyatında bəzi dövrlər qeyd edir. Məsələn, "Türk ədəbiyyatının Kamal dövrü", yaxud "Türk ədəbiyyatının altun dövrü", "İstanbulun fəthinə qədər", "Sufi ədəbiyyatının inhitatı" kibi subyektiv və xronolojik, yaxud əxlaqi prinsiplər üzərinə qurulmuş bir təsnif meydana gətirmişdir. Əsas etibarilə yuxarıda, bilxassə "Yeni Osmanlı ədəbiyyatı"nda gördüyümüz təsnif ilə bunun arasında böyük bir fərq yoxdur.

Osmanlı ədəbiyyatını, yaxud ümumi türk ədəbiyyatı sahəsini buraxıb, daha kiçik sahələrdə yapılan türk-tatar xalqları ədəbiyyatına, məsələn, Volqaboyu türklərinə gələcək olursaq, burada ədəbiyyata məxsus, onun xüsusi və bədii vəsflərini təsbit edəcək kibi bir təsnifin hələ meydana gətiriləmədiyini söyləməklə bərabər, bu xüsusda yazılan əsərlər də imdiyə qədər az-çox düşünülə və yazıla gəldiyini də bildirməliyik.

Cəmaləddin Vəlidi "Volqaboyu tatarlarının tarixi-ədəbiyyatı taslağı"[132] adı ilə yazdığı əsərində daha çox bioqrafik və xronolojik üsul təqib etmişdir, bəzi nöqtələrdə siyasi və mədəni əlamətləri də bəhsləri içərisinə sığışdırmışdır. Bu surətlə onun əsərində belə bəhslər və ayırmalara rast gəlirik: "Bulqar və Qazan xanlıqları dövrü", "Qazanın zəbtindən Puqaçov buntuna qədər". Burada Cəmaləddin Vəlidinin yalnız ədəbiyyat tarixini deyil, maarif tarixini də əsərində özünə mövzu olaraq aldığını əlavə etməliyik.

Q.Qaziz və Əli Rəhim tərəfindən yazılmış olan "Tatar ədəbiyyatı tarixi"ndə iqtisadi və ictimai prinsipin əsas alındığını və bunun üçün də feodalizm dövrü ədəbiyyatı kibi qisimlərin ayrıldığını görürük.[133]

Şimal tatar ədiblərindən Qalimcan İbrahimov bu məsələyə ayrıca əhəmiyyət verməklə bərabər, Qazan-tatar ədəbiyyatının dövrlərinə aid olduqca müfəssəl xarakteristik də təsbit etməyə çalışmışdır. "İmla, til, ədəbiyyat məsələləri"[134] adındakı əsərində Qalimcan İbrahimov əsas etibarilə üç dövr ayırmaqdadır: 1) Birinci dövr feodalçılıq dövrü, 2) Təbii təsərrüfat dövrünün bitib sərmayədarlıq dövrünün və bu dövrün ideoloqları olan burjuaziya islamçılarının (reformator) meydana

[131] А.Крымский. История Турции и ее литературы. Москва, 1916, т. I и II.

[132] Д.Валидов. Очерк истории образованности и литературы волжских татар. Москва, 1923.

[133] Tatar ədəbiyyatı tarixi (feodalizm dövrü), Qazan, 1925.

[134] İmla, til, ədəbiyyat məsələləri. Qalimcan İbrahimov, Qazan, 1925.

çıxması dövrü, 3) Min doqquz yüz beş sənələrində başlanıb oktyabr inqilabından sonra daha tez, daha səri bir surətdə inkişafa başlayan proletar ədəbiyyatı, inqilabi ədəbiyyat dövrü.[135] Azərbaycan ədəbiyyatına gəldikdə, bu olduqca geniş sahədə doğan və inkişaf edən ədəbiyyatın da özünəməxsus dövrləri olduğuna şübhə yoxsa da, imdiyə qədər yazılmış olan Azərbaycan ədəbiyyatı tədqiqinə aid ayrı əsərlər və yaxud az-çox müfəssəl məbhəslərdə bu xüsusda, məəttəəssüf, ağıllı-başlı heç bir qeydə və mülahizəyə rast gəlmirik.[136]

Türk ədəbiyyatı tarixinin keçirdiyi inkişaf və təkamül mərhələlərini gözəlcə qavramaq üçün ədəbiyyatımız xüsusundakı tədqiqatın daha çox ilərilməsini lazım gəldiyini bu bəhsimizi gözdən keçirən oxucu özlüyündən kəsdirə bilər. Bütün xalqların ədəbiyyatında olduğu kibi, türk ədəbiyyatında da, təbir caizsə, həm üfüqi, həm də şaquli müqəttələrində (kəsmələrində) tədqiq etmək lazım gəlir. Üfüqi surətə tədqiq olunduğu təqdirdə müxtəlif şivələrdə bulunan ədəbiyyat məhsulları arasındakı müşabehət və fərqlər özlüyündən meydana çıxacaqdır. Belə tərkibi tədqiqin lüzumu, deyil bizim ədəbiyyatımız kibi, çox geniş sahə üzərində yapılmış ədəbiyyat aləmində, hətta rus ədəbiyyatından belə təklif edilməkdədir. Məsələn, professor Sakulin Belarus və Ukrayna ədəbiyyatlarını da rus ədəbiyyat tarixində tədqiq etməni təklif etməkdədir.[137] Avropa türkoloqları bu üfüqi cizgi və mühiti öz tədqiqlərində heç də gözdən qaçırmamaqdadırlar. Hər halda hər hansı bir ölkə və yaxud şivənin ədəbiyyatını ayırıb alaraq tədqiqdə bulunmaq və daha fənası belə tədqiqlərə dayanaraq inkişaf mərhələlərini təyin etmək qabil deyildir.

Şaquli cizgi ilə, yaxud müqəttə'lə alacaq olursaq, türk ədəbiyyatının da özünəməxsus təbəqələri olduğu meydana çıxacaqdır. Son

[135] İmla, til, ədəbiyyat məsələləri. Qalimcan İbrahimov, səh. 14-25. Qabdurrəhman Sədi "Tatar ədəbiyyatı tarixi" adı ilə keçən ilin son aylarında çıxan əsərində tatar ədəbiyyatı dövrlərinin təyinində əsas prinsip etibarilə Qalimcan İbrahimovu təqib etməkdədir. Əsəri də eyni prinsipə dayanılaraq yazılmışdır. Ədəbi dövrlər turunda bir neçə söz. Tatar ədəbiyyatı tarixi, Qazan, 1926.

[136] İmdiyə qədər nəşr edilmiş olan Köçərli Firidunun "Azərbaycan ədəbiyyatı tarixi materialları" əsərində (1925), Krımskinin yuxarıda zikr olunan əsərinin ikinci cildində **"Заметка об азербайджанской литературе"** adındakı bəhsində, Karl Foyun **"Azerbajdganische studien, etc."** (1904) adındakı kitabçasında, yaxud Köprülüzadənin "Azəri ədəbiyyatına aid tədqiqlər" (1926) adındakı tədqiqnaməsində bu xüsusda heç bir qeydə rast gəlmədik.

[137] Sakulinin **"Вертикальный и горизонтальный разрез"** adındakı **("Синтетическое построение литерат.")** bəhsinə baxınız.

zamanlara qədər türk ədəbiyyatı tarixçiləri ancaq böyük və incə şairlərin tarixini yaza gəlmişlərdir. Halbuki bir dövrün böyük şairləri əksəriyyən o dövrdəki hakim sinfin şairləri olduğundan digər məhkum siniflərin şeir və ədəbiyyatını almadıqca bilxassə ictimai üsulla çalışan ədəbiyyat tarixçisi vəzifəsini ikmal etmiş olmaz. Eyni səbəbdən xalq ədəbiyyatının da gərək ədəbiyyat tarixçiləri tədqiqnamələrində, gərəksə məktəblərin münasib siniflərində özünə yer tapması lazım gəlir.

Köprülüzadə Fuad aşıq ədəbiyyatı kibi bu zamana qədər ehmal edilmiş bir sahəni tədqiqə qoyulduğu kibi, digər ədəbiyyat tarixçimiz İ.Hikmət də imdiyə qədər nəşr olunmuş cildlərində böyük-kiçik bütün türk şairlərinə yer vermiş və bundan sonra gələcək cildlərində xalq ədəbiyyatına da klassik əsərlər yanında yekunlamanı vəd etmişdir.

Keçən il Bakıda olub-keçən Türkoloji qurultayı öz qərarları arasında türk ədəbiyyatının üfüqi və şaquli, coğrafi və tarixi kəsmələrində dərinliyi və genişliyi ilə tədqiqini təklif etmişdir.[138]

[138] Первый Всесоюзный Тюркологический съезд. Стенографический отчет, Баку, 1926, стр. 401-402.

ƏDƏBİYYATIN TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ VƏ MƏKTƏBLƏRDƏKİ YERİ

Ədəbiyyatın zehni fəaliyyətə təsiri.
Ədəbiyyatın həyatı əks etdirib-etdirəməməsi.
Ədəbiyyat dərsliklərinin dayanması lazım gələn əsasları.
Ədəbiyyatçılar qurultayının qərarları. Ədəbiyyat dərsləri

Ədəbiyyat yalnız gözəl sənəti, yaxud şəkli və texniki bir alət deyil, bəlkə, eyni zamanda insanın mənəvi üzvü, ictimai... həyatından doğan bir həyat içərisində çox mühüm bir rol oynayan amillərdən birisi olmaq dolayısilə bir çox zamanlardan bəri məktəblərdə əsrlər boyunca cürbəcür adlar altında təşəkkül edən dərsxanalarda özünə olduqca mühüm və hətta çox zaman mərkəzi bir yer ala gəlmişdir.

İnsanın həyatında həyəcan və xəyal – şəkil kibi ruhi və damağı xüsusiyyətlər çox böyük rol oynayır. Biz təbiəti, ictimai-siyasi həyatı tamamilə şəkli, xəyali və həyəcani bir surətdə təsəvvür edirik. Həyəcani-şəkli təfəkkür **(эмоционально-образное мышление)** məktəblərimizdə nəfis sənətlər içindən yalnız ədəbiyyat vasitəsilə təmsil edilir. Həmin bu surətlə ədəbiyyat mühüm tərbiyəvi bir əhəmiyyət qazanmış olur.

Sənətkar əsərini parça-parça, bəsitdən mürəkkəbə doğru gedərək tərkib etdiyi, yazdığı üçün bu əsəri ancaq əvvələn təhlili surətdə tədqiq etməklə insan, oxucu anlaya bilər. İnsanların həyat və zehniyyətinə ən ziyadə yaxın və səmimi olan ədəbiyyatı tədqiq etmək sayəsində oxucu və məktəb tələbəsi təhlil və istiqra **(индукция)** üsulunu tətbiq etmiş olur və ədəbi əsərləri təhlil etdikcə həmin zehni fəaliyyət sahəsində böyük tərbiyəvi amillərdən birisini – təhlil və istiqra üsulunu işlədir.

Digər tərəfdən, ədəbiyyatda ən mühüm məsələ, yuxarıda üsulları gözdən keçirirkən tanış olduğumuz kibi, əsərin, təbir caizsə, ruhunu, bütün üzviyyət və tərkibini qavramaqdır ki, burada tərkibi üsul, induksion üsulu tətbiq edilir. Tələbə, yaxud ümumiyyətlə tədqiqçi təcrid **(абстракция)** və təmim **(обобщение)** yollarına aşina olur.

Təbii, burada ədəbiyyatın mahiyyətinə qarşı yapılan etirazları gözdən qaçırmırıq. Bu xüsusda lazım gələn məlumat xüsusi bəhsimizdə ("Ədəbiyyat bir elmmidir?") verildi. Burada ilərdə tədris üsulu məsələləri üçün də əhəmiyyəti olan bəzi nöqtələri daha qeyd etməliyik.

Ədəbiyyat tədqiqçisi və müəllimi faktların, hadisələrin yalnız bəsit surətdə təsvir və təsbiti ilə iktifa edəməz. O da zehni fəaliyyəti təmərküz etdirməyə, bir çox hadisə və əsərlərdən topladığı material üzərində müəyyən tərkib və təmimlər yapmağa borcludur.

Bu təmimlər üç cürə ola bilər: 1) təcrübi, 2) tipik, 3) numulojik.[139] Hər hansı bir əsər və hadisəni tədqiq edərək onun üslub və mahiyyəti haqqında verəcəyimiz hökm birinci qismə, təcrübi zümrə aid olur. Tipolojik təmim isə eyni əsərin aid olduğu zümrə və yaxud ədəbi məktəbin təyini zamanında yapılmış olur. Numulojik təmim də eyni əsərin və bu əsərin mənsub olduğu ədəbi məktəb və cərəyanın öz inkişaf və təkamülündə tabe olduğu qanunları meydana çıxarmaqla əldə edilir.

Təbii, bu sonuncu iş, yəni ədəbiyyat sahəsində ümumi qanunlar tapmaq işinin o qədər asan olmadığı meydandadır. Hər halda ədəbiyyatın, hansı ölkədə və hansı əsrdə doğmuş olursa-olsun, özünəməxsus bir həviyyəti vardır ki, bu surətlə bütün xalqların və bütün əsrlərin ədəbiyyatları başqa cürə ictimai hadisələrdən ayrıla bilər. Nəzm və nəsrin bütün insan ədəbiyyatı üçün müəyyən və ümumi qanun və yolları vardır ki, bunlar çoxdan tapılmış və izah olunmuşdur. Bununla bərabər, bir çox sahələr hələ tədqiq edilməmiş və yaxud gərəyi kibi sistem altına alınmamışdır. Çünki ədəbiyyat tədqiqləri ciddi və elmi surətdə ancaq son zamanlarda başlamışdır. Ədəbiyyat elmi daha çox gəncdir. Lakin bütün bu nöqsanlar onun məktəblərdə və dərs laboratoriyalarında layiq olduğu yeri işğal etməsinə mane olamaz. Burada uzun-uzadı təhlilə girişməyərək, yalnız burasını deyə bilərik ki, bir çox elmlərdə, məsələn, təbiiyyat, ictimaiyyat və tarix kibi elmlərdə, ədəbiyyata görə son, əsri üsullar ilə daha ziyadə işlənmiş sahələrdə də bu nöqsanlar və ehtiyaclar daha çoxdur.

Hər halda ədəbiyyat şibhi-elm **(elmkibi – наукообразный)** bir şey deyil, bəlkə, eyni zamanda ən ciddi elmlərin zehni əməliyyələri və üsulları ilə işləyə biləcək müstəqil bir elmdir.

Ədəbiyyatı bir də ictimai amil, sosial faktor olması etibarilə tədqiq edəlim. İmdiyə qədər yazdıqlarımızdan görüldi ki, ədəbiyyat, özü ictimai bir hadisədir və onun tədqiqində əsas olaraq tətbiq oluna biləcək üsul ancaq ictimaiyyat üsulu ola bilər. Lakin ədəbiyyat, digər tərəfdən, qüvvətli və mühüm ictimai amillərdən birisidir. Əsasən hər ictimai

[139] Bu istilahları Sakulindən aldıq: Ədəbiyyatın tərkibi quruluşu, səh. 80-85.

hərəkət **(функция)** özündən sonrakı hərəkət və hadisələrə qarşı daima amil (faktor) olaraq təsir edə bilər.

Əvvəla, ədəbiyyat öz tərəfində min bir "ədəbi həyat" törədir. Bu ədəbi həyatın camaatı arasında biz yazıçı, oxucu, tənqidçi və nəzəriyyəçiləri... tapırıq. Demək olar ki, ədəbiyyat məsələləri arasına eyni zamanda mühərrir və əsərdən başqa, bir də "oxucu" və "tənqidçi" məsələsi girir. Doğrudan da, oxucusu olmayan ədəbi əsərin mövcud olması, doğması qabil deyildir. Binaən əleyh mühərrir və əsərlə bərabər, bu əsərin oxucularını və onların əsərdən ala bildikləri təsiri də tədqiq etmək lazım gəlir.

Ona görə də burada ədəbiyyatın ictimai mahiyyəti və insan cəmiyyəti içindəki rolu daha aydın, daha qəti bir surətdə meydana çıxar. Ədəbiyyat nəzəriyyəçilərindən Enneken: "Ədəbiyyat yalnız mövzusu, şəkli, üslubu etibarilə xalq içindən çıxdığı və doğduğu üçün deyil, bəlkə, xalq tərəfindən oxunduğu, qəbul edildiyi, müxtəlif dərəcələrdə qiymətləndirildiyi üçün də xalqın ifadəsidir",[140] – deyir.

Enneken eyni zamanda oxucular mühitini öyrənmək, tədqiq etmək üçün bir taqım qaydalar da vəz edir. Məsələn, müəllifin şöhrətini və nüfuzunu meydana çıxarmaq üçün əsərlərinin tirajını, miqdarını, aldığı qələm ücrətini, əsərinin satış fiyatını... tədqiq etməni tövsiyə edir. Bundan başqa, fransız ədəbiyyat tarixçisi Qustav Lansondan professor Beletskiyə qədər bir çox mütəxəssislər oxucu və əsərin mühitində yapdığı təsir məsələsilə məşğul olmuşlardır. Bu xüsusda professor Sakulinin "həyəcani-şəkli sözdə, ədəbiyyatda özünü göstərən yaradıcılıq heç bir zaman insandan ayrılamaz. Bu onun təbiətinə məxsusdur. Şeri, ədəbi yaradıcılıq insanın, istər yazan olsun, istər bu yazılanı oxuyan olsun, əsasi ehtiyaclarına cavab verir",[141] – sözlərini burada xatırlamaq faydadan xali deyildir.

Binaən əleyh ictimai fəaliyyətin mühüm mexanizmalarından birisi olaraq da ədəbiyyatın mühüm bir qiyməti vardır. Ədəbiyyatın başlıca əhəmiyyətlərindən birisi də onun təşkilatçı olmaq təsirindədir. N.Yurski[142] maraqlı bir risaləsində bu cəhəti gərəki kibi təhlil etməkdədir. Ədəbiyyatın və bədii sözün tədqiqi ətrafında məktəblərdə çox

[140] Emile Henneqinn. La critique scientifique, 1888.

[141] Социологический метод в лит., стр. 177-178.

[142] Н.Юрский. Литература как фактор общественно-организационной работы, 1923 г.

qüvvətli və faydalı bir təşkilat meydana gətirmək və bu surətlə sözün təşkiledici qüvvətindən şüurlu surətdə, ta məktəb sıralarında, dərsxanalarında xəbərdar olmaq çox mühümdür. Bu da məktəblərdəki ədəbiyyat dərnəkləri, divar qəzetələri, ədəbi müsahibələr, referatlar... kibi işlər ətrafında meydana gətirilir ki, gələcək bəhslərimizdə bu məsələlər sırasilə izah olunacaqdır.

• Bütün bu cəhətlərinə rəğmən, məktəblərdə ədəbiyyat dərslərinin mövqeyi heç də qənaətləndirəcək bir şəkildə deyildir. S.A.Zolotaryov **(С.А.Золотарев)**[143] təlim və tədris mövzusu olaraq ədəbiyyat tarixi namilə yazdığı məqaləsində bu cəhətləri çox gözəl göstərməkdədir.

Bu məqaləsində Zolotaryov məktəblərdə ədəbiyyat tədrisinin üsullarını bu nöqtələrdə xülasə etməkdədir:

1) Ümumiyyətlə alındıqda, ədəbiyyat, dərs mövzusu olaraq, imdiyə qədər öz istiqlaliyyətini qazanmamışdır. Özünəməxsus **(самодавлеющий)** bir əhəmiyyət qazanmayaraq, başqa qəti **(точный)** elmlərin arxasından sürünməkdədir və bunlar arasında şibhi elm kiçik və mütəvaze ünvanı ilə iktifa etməkdədir.

2) Çox dəfə ədəbiyyat dərsləri mühərrirlərin həyatı haqqında müəllimlərin bəzi hekayələrindən, onun əsəri haqqında bir yığın təmtəraqlı, zinətli və mübhəm sözlərdən ibarətdir və bütün bu dilbazlıq, cürbəzə "istedadlı" şairlərlə "istedadsız"ları bir-birindən – o da, təbii, çox dəfə xətalı olaraq – ayırmaqdan o yana keçə bilməz.

3) Bu surətlə ədəbiyyat bəzi maraqlı hekayələrlə vaxt keçirməkdən başqa bir şey verməz.

Riyaziyyat elmi, deyirlər ki, cansıxıcı bir şeydir. Lakin evində bir riyazi məsələni cızmış olan və başqa qrek arkadaşıyla bərabər eyni nəticəyə gəlmiş olan tələbə başqalarının fikrinə hörmətə alışır və həyatda həqiqəti, doğrunu aramanın mənasız, tapmanın imkansız olmadığını görür. Bu "maraqlı" olmadan ziyadədir. Bu həyat üçün zəruridir. Halbuki yeddi-səkkiz il ədəbiyyatla məşğul olduqdan sonra ikinci dərəcə məktəb tələbəsi nə qazanır? Özündən heç bir zaman Puşkin olmayacağı haqqında acı bir qənaət və əlavə olaraq filan və filan ədəbi dövrlərin artıq keçmiş olduğu və hansı ədəbi dövrdə bulunduğumuzun təyini hələ qeyri-qabil bulunduğu haqqında bir sürü mühakimə və fəlsəfə...

---

[143] С.А.Золотарев. История литературы как наука и предмет преподавания. Изучение лит. в школе, стр. 14-18.

Digər təcrübədidə rus ədəbiyyat müəllimi və nəzəriyyatçısı V.V.Danilov "Tədris mövzusu olaraq ədəbiyyat"[144] adlı yazdığı əsərində eyni surətlə ədəbiyyatın əsas və prinsip etibarilə məktəblərdə təəssüflü, acınıqlı bir mövqe və vəziyyətində bulunduğunu qeyd edir.

Bu zatın fikrincə, məktəblərdə ədəbiyyatın qeyri-təbii bir mövqe almasına səbəb olan ən böyük qüsurlardan birisi ona, ədəbiyyata öz xüsusi vəsfləri cəhətindən deyil, yalnız mündəricə cəhətindən yanaşmaq, baxmaqdan doğur. Bunun üçün ədəbiyyatda hər şeydən əvvəl tərbiyəedici və həyatla tanışedici yarıəxlaqi, yarıtəbii bir elm görürlər. Bu nöqteyi-nəzərlərdən ədəbiyyata yanaşan müəllimlər daima süni surətdə bu qayələrə görə material toplamağa çalışırlar. Belə subyektiv baxış ilə, şübhəsiz, dərsi elmi surətdə qurmaq və bir elm olaraq təqdim etmək qabil deyildir. Çünki bu cürə mühakimələr şəxsi və subyektivdir.

Ədəbiyyatın məktəblərdə gərəyi kibi anlaşılmamasına və elmi bir mahiyyət almamasına ikinci səbəb də ədəbi şəkillər və təsvirləri həyati faktlarla bir tutmaqdır. Ədəbi təsvirlərlə bu təsvirlərin aid olduğu hadisələr, həyati faktlar arasında sözlə bu sözün işarət etdiyi əşya arasındakı qədər fərq vardır. "Ədəbiyyat, həqiqi həyatın inikasıdır", – fikrini məktəblərdə tələbələrinə aşılayan müəllim ədəbiyyat əsaslarına, elmi təhlillərə daban-dabana zidd bir fikir nəşr etmiş olur. Üçüncü dərəcədə ədəbiyyat dərslərinin qeyri-müəyyən bir şəkil almasına "ədəbiyyat" məfhumunun və onun tarixinin hüdud, tərif və mündəricə etibarilə açıq surətdə öyrənilməmiş olması da təsir edir. Zatən ədəbiyyat müstəqil bir elm olaraq öyrənilməməsinə və məktəblərdə yer almamasına qarşı gətirilən dəlillərdən ən mühümü də həmin bu nöqtələrə aiddir. Danilovun fikrincə,[145] ədəbiyyat dərsləri bu məsələlərin təhlil və tədqiqi üzərinə qurulmalıdır:

1) Ortaya atılan məsələlər, qoyulan tezislər bunlara lazım gələn dəlillər və isbatları əsərlərdə axtarmağa, tapmağa xidmət etməlidir.

2) Tələbələrin nəzəri-diqqətini bir çox müəyyən faktlar üzərinə cəlb edərək, bunlardan lazım gələn nəticələri çıxarmaları təklif edilməlidir.

3) Ədəbi və bədii əsərləri parçalara ayırmağı və bu parçalar arasındakı üzvi və məntiqi bağı tapmağı öyrənməlidirlər.

---

[144] Литература как предмет преподавания. В.В.Данилов. Изучение литературы в школе, стр. 20.

[145] Yenə orada, səh. 24.

4) Əsərin ortaya atdığı əsas bədii məsələnin inkişafını təqib edə bilməli və əsərin başlıca nöqtələrini ayırıb çıxarmanı bacarmalıdır.

5) Eyni zamanda şagirdlər tədqiq etdikləri əsərlərə yaxın olan digər əsərləri xatırlamalı, bunları bir-biri ilə müqayisə edərək, lazım gələn təmimləri **(обобщение)** yapmaq sənətini bənimsəməlidirlər.

6) Ümumiyyətlə müşahidə və diqqət məziyyətlərini, istedadını inkişaf etdirməlidirlər.

Həmin bu məsələləri cıza biləcək bir quruluş ədəbiyyat dərslərinin həm elmi və həm də bir çox cəhətlərdən tərbiyəvi əhəmiyyətini artırmış, təmin etmiş olurdu.

Bizim məlumumuz olan türk ölkələrinin birinci və ikinci dərəcəli məktəblərində ədəbiyyat dərslərinin vəziyyəti daha müşkül və qeyritəbiidir. Bir kərə Qalimcan İbrahimovun çox gözəl göstərdiyi[146] kibi, hələ ədəbiyyatımızın hüdudları, mündəricəsi, başlıca məsələləri öyrənilmiş deyildir. Bu gün əlimizdə bulunan materiallarla deyil, müxtəlif ədəbi cərəyanları və tipik nöqtələri tədqiq etmək, hətta hər hansı bir prinsiplə, ədəbi nümunələri təqdim etmək belə qabil deyildir. Buna öz sırasında ədəbiyyat tədrisi üsullarının ibtidailiyi, geriliyi də əlavə olunacaq olursa, ədəbiyyat dərslərinin bizim ikinci dərəcəli məktəblərimizdəki qarışıq, böhranlı və əhəmiyyətsiz vəziyyətləri meydana çıxmış olur. Ədəbiyyat materialının toplanması, sistem altına alınması üçün bilxassə Şuralar İttifaqı türk-tatar cümhuriyyətlərində olduqca mühüm addımlar atılmaqdadır.[147] Lakin bu kafi deyildir. Eyni zamanda üsulun dəyişməsi, tədris üsullarının əsri bir mahiyyət və yol alması da şərtdir. Ədəbiyyatı tədqiq cəhətindən yüzillik və bəlkə də, artıq bir tarixə malik olan ruslar da belə bu məsələnin müntəzəm və əsri relslər üzərinə qoyulması üçün gərək mətbuat və nəşriyyat cəhətindən, gərəksə təşkilat yolilə müəllim kursları ədəbiyyat və lisaniyyatçıların bir çox konfransları kibi cürbəcür tədbirlər görülməkdədir. Bizdə də ədəbiyyatımızın mündəricə, üsul və qarışıq, imdiyə qədər cızılmamış məsələlərinin müəyyən və az-çox qəti nəticələrə vardırıla bilməsi üçün buna bənzər tədbirlər görmək lazımdır. Türkoloji konfransında ədəbiyyat məsələsi bu nöqteyi-nəzərdən baxılmadı və buna imkan da

[146] Tatar ədəbiyyatı tarixinin mündəricəsini bilgi və təyin məsələsi. "Bizinq yol" məcmuəsi, №2, 1922.

[147] "Ədəbi parçalar"da mühərririn "Ədəbiyyatımızda yeni qiymətlər" məqaləsinə baxınız (Bakı, 1924).

yox idi. Belə məsələlərin çözülməsi üçün mütəxəssislərin və bilxassə təcrübəli müəllimlərin sıxı rabitədə bulunması lazımdır ki, bu da ancaq müxtəlif ölkələrdə və sonra olduqca geniş miqyasda çağırılacaq ədəbiyyatçılar konfransları və meydana gətiriləcək daimi müşavirə təşkilatları ilə təmin edilə bilər. Buna qədər bu xüsusda Avropa və bizə gərək məsələləri və təcrübələri və gərəksə pedaqoji həyatlarilə daha ziyadə yaxın olan rus ədəbiyyatçılarının tədbir və müvəffəqiyyətlərindən faydalanmaq lazım gəlir. Həmin bunun üçün Moskvada toplanmış olan Birinci Bütün Rusiya Ədəbiyyatçıları Qurultayının qərarlarından mühümlərini burada zikr etməni münasib görürük. Bu qurultay Rusiyanın həman bütün dil və ədəbiyyat tədrisi və tədqiqi sahəsində iləri gələn alimlərini toplamaq etibarilə olduğu kibi, qərarlarının Rusiya Dövləti Elmi Şurası və Maarif Komissarlığı tərəfindən məktəb proqramlarında əsas tutulması etibarilə də diqqətəlayiqdir.[148] Bu qərarların başlıcaları bunlardır:

1) Ədəbiyyat şəkli və həyəcani **(эмоционально-образный)** düşüncənin məhsulu olmaq dolayısilə üsul və mündəricə cəhətindən ayrı bir tədris mövzusu təşkil edər.

2) Bir çox başqa elmlər məntiqi düşünməyə (təfəkkürə) alışdırdığı zamanda, ədəbiyyatçı bədii düşünməyə tələbələri alışdırmaq məcburiyyətini daşıyır.

3) Ədəbi əsərlər mövzu, şəkillər **(образы)**, üslub, tərtib və ümumiyyətlə bədii yaradıcılığın ayırıcı vəsfləri cəhətindən öyrənilməlidir.

4) Ədəbiyyatı tədris işinin ən mühüm nöqtələri ədəbi əsərləri ruhi (psixolojik) və məfkurəvi – ictimai cəhətdən tədqiqdir. Bu sonuncu cəhətə bilxassə on doqquzuncu əsrin iyirminci illərindən başlayaraq əhəmiyyət verməlidir. Çünki ancaq bu surətlə gənclik müasir cəmiyyəti anlamağa hazırlanır.

5) Tələbələrin yaşlarına görə ədəbiyyatı tarixi və təkamüli nöqteyi-nəzərlərdən tədqiq etməlidir.

6) Bir əsrin, yaxud bir dövrün bədii hadisələri arasındakı müvazilik (ədəbiyyat, rəsm, heykəltəraşlıq, musiqi...) əyani surətdə ədəbiyyatı tədrisə xidmət edə bilər.

7) Ədəbiyyat dərslərini elə qurmalıdır ki, mərkəzi-siqlət yeni ədəbiyyat üstündə qalsın.

[148] I Всероссийский съезд словесников о преподавании литературы в школе. Изучение литературы в школе, стр. 12-14.

8) Əski dövrlərdən ancaq bədii və şeri sahəyə aid olanlar keçilir. Məsələn, legendalar, apokriflər, hekayələr və əski rus ədəbiyyatının abidələri.

9) Xalqın şifahi, ağız [ədəbiyyatı] ədəbiyyat dərsləri arasında özünə ciddi bir yer işğal etməlidir. Xalq ədəbi əsərlərinin tədqiqini daha ətraflı və tamam yapa bilmək üçün tələbələrə xalq ədəbiyyatını təmsil edən hekayəçilər və şairlərlə doğrudan-doğruya təmas və rabitədə bulunmaq imkanı verilməlidir. Bundan başqa, xalq ədəbiyyatına aid parçalar da toplanmalı və bilxassə məktəbin bulunduğu ölkənin şifahi ədəbiyyat parçalarına diqqət verilməlidir.

Eyni qərarlar arasında ədəbiyyat tarixinə məxsus rəhbərlik və dərslik kitabları haqqında belə deyilir:

1) İkinci dərəcə məktəblərin ehtiyacını təmin etmək üçün qiymətcə ucuz və rus münəqqid və ədiblərinin əsərlərini ehtiva edəcək məcmuələrin nəşr edilməsi arzu olunur.

2) Rus ədəbiyyatı tarixinə dair yazılan əsərlərə tələbələrin müstəqil surətdə işləmələrinə mane olmamalıdır...

3) Rus dili müəllimi məktəbdə oxudacağı dərsliyi seçməkdə sərbəst buraxılmalıdır.

Bu qurultayın maraqlı qərarlarından birisi də "ədəbiyyat nəzəriyyatı"dır ki, son zamanlara qədər məktəblərdə müstəqil bir elm olaraq öyrənilirdi. Bu qurultayda yalnız ədəbiyyat tarixinin mütəmməm parçalarından birisi olaraq tanılır.

Bu xüsusdakı qərar eynən belədir: "Ədəbiyyat nəzəriyyatına aid təmimlər, yəni üslub və şeri, nəsri yaradıcılıq haqqındakı nəticələr, orta məktəbin davamı boyunca ədəbiyyat nəzəriyyatı deyilən bəhs müstəqil dərs olaraq artıq tanılmır".

Bu bəhsimizi tamamlamazdan əvvəl bir az da ədəbiyyat tədrisinin yeni prinsipləri üzərində durmalıyıq. Daha min doqquz yüz on beşinci ildə B.Eyxenbaum **(Б.Эйхенбаум)** "Orta məktəblərdə ədəbiyyat tədqiqinin yeni prinsipləri"ndən[149] bəhs edərkən çox doğru olaraq: "Tədris üsulu tədqiq prinsiplərinə görə təyin olunur", – deyir. Bu prinsiplərdən biz yuxarıkı bəhslərimizdə lüzumi qədər bəhs etdik.

Bir çox ədəbiyyatçıların fikrincə, orta məktəblərdə ən ziyadə əhəmiyyət veriləcək nöqtə şair və yaxud mühərririn əsərindəki şəkillər

[149] Б.Эйхенбаум. Русская школа, №2, 1925.

sistemini bənimsəməkdir. Həmin bunun üçün də hər mühərririn əsəri sinifdə oxunmalı, heç olmasa, tələbələr bu əsərin parçaları ilə tanış olmalıdırlar. Bu zamanda ədəbiyyat tarixi dərsliyi [kibi] ancaq lüğət **(справочник)** rəhbər xidmətini görə bilər. Burada müəllimin vəzifəsi bütün təfərrüatı tələbələrinə göstərməklə bərabər, onların, yəni bütün əsərin üzviyyət və təşkilini qavramalarına da diqqət verməlidir. Əgər bu surətlə əsərin əsasını qavramaq qabil olursa, ta əskidən olduğu kibi, əsərləri şəkil və mündəricəyə ayırmaq təhlükəsi də ortadan qalxar.

Məktəbdə ədəbiyyatın son zamanlarda getdikcə işğal etməkdə olduğu yeni mövqe ilə ilərideki məqalələrimizdə məşğul olacaqdır. Bunun üçün burada bir də yeni ədəbiyyat kitabları nə şəkildə olmalı məsələsini gözdən keçirməliyik.

Rus ədəbiyyatı üçün təklif olunan ədəbiyyat dərsliyi, məsələn, V.Vodarskinin[150] fikrincə, bu mövzuları havi olmalıdır:

1) Mühərrir haqqında həyati qeydlər, tərcümeyi-hala aid məlumat,

2) Mühərririn başlıca əsərlərini yaratması əməliyyəsinə və tarixinə aid qısa məlumat,

3) Mühərririn başlıca əsərlərinin tarixi, bədii və ictimai əhəmiyyətini izah,

4) Mühərririn ədəbi fəaliyyətinin əhəmiyyəti,

5) Bu əsərlər meydana gəldiyi zamanın, dövrün tarixi və ictimai xarakteristiki,

6) Başlıca ədəbi cərəyanları göstərən məqalələr,

7) Təqvimi cədvəl **(хронологическая таблица)**,

8) Müstəqil işlər üçün (yazı, müsahibə və bəzi asan tədqiqlər) məsələlər.

Bir sözlə, dərslik qısa, açıq olmaqla bərabər, orta dərəcə məktəblərdə oxudulan materialı izah üçün əlverişli olmalıdır.

Ədəbiyyat dərslikləri məsələsində türk-tatar məktəblərinin ən ziyadə möhtac olduğu nöqtə ədəbi materiallar və ədəbi xrestomatiyalardır. Bu ədəbi xrestomatiyalar, bir tərəfdən, tarixi, digər tərəfdən, ləhcəvi (dialektolojik) hacətlərə cavab verməli və xalq ədəbiyyatı nümunələrini də ehtiva etməlidir. Bu xüsusda artıq Tatarıstan[151]

[150] В.Водарский. Наука и школа, № 4-5.

[151] Tatarıstan Cümhuriyyətinin "Tatar ədəbiyyatı kütübxanası" adilə yapmaqda olduğu nəşriyyat bizim burada qoyduğumuz məqsədə söylədiyimiz surətdə tövsiyə etdiyimiz şərtilə tamamilə uyğundur.

və Azərbaycan[152] cümhuriyyətlərində birinci tədbirlər görülməkdədir. Bu tədbirləri yalnız başqa şivələrə doğru, bir tərəfdən, tarixi dövrlərə doğru, ikinci tərəfdən, genişlədilmək və dərinləşdirilmək lazım gəlir.

Bu xüsusda Birinci Türkoloji Qurultayı da öz sözünü müxtəsər və az-çox, səthi olsa da, söyləmiş və bu xüsusdakı əsas fikirlərini bildirmişdir: "Ədəbiyyat ikinci dərəcəli məktəbdə epizodik və ədəbiyyat tarixi planilə əsri ədəbiyyata ziyadə əhəmiyyət verərək və ictimaiyyat dərsləri ilə bağlı olaraq oxudulmalıdır. Ədəbiyyat tarixi taslağına bir-birinə yaxın türk xalqlarının ədəbiyyatları ilə, heç olmazsa, qısa bir surətdə tanışlıq üçün lazım gələn parçalar idxal edilməli və bu məqsədə uyğun ədəbi xrestomatiyalar nəşr edilməlidir".[153]

Əksəriyyət etibarilə rus məktəbləri həyat və təcrübəsi üzərinə qurulan bu fikirlər əsas etibarilə türk məktəblərinə də tamamilə qabili-tətbiqdir. İləridə türk məktəblərinin elmi surətdə və sistematik bir yol ilə yapılacaq tədqiqi bu əsaslara əlavələr verə bilər, lakin təbdil və təhvil edəməz.

[152] Firidun Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" da bir addım olaraq alına bilir.

[153] I Всесоюзный тюркологический съезд (стеногр. отчет), 402.

ƏDƏBİYYAT DƏRSİNİN QURULUŞU

Bədii ünsürün əhəmiyyəti. Ədəbiyyat dərsinin ictimaiyyatla bağı. Ədəbiyyat dərsinin başlıca ünsürləri. Ədəbiyyatımızın mündəricəsi: xalq ədəbiyyatı, ölkə ədəbiyyatı, ümumi əsərlər

Rıbnikova "Ədəbiyyatçının məktəbdə işi"[154] adındakı əsərində bu sərlövhə ilə yazdığı bəhsində əsas etibarilə münaqişəli olmaqla bərabər, bir çox cəhətləri etibarilə, bilxassə tətbiqi cəhətindən çox maraqlı fikirlər meydana qoymaqdadır.

Rıbnikova bütün əsərini: "Məktəblərdə ədəbiyyat tarixinə qarşı və müəllifin dərin və diqqətli surətdə tədqiqi lehinə!" şüarı ilə meydana gətirir. Onun fikrincə, gəncliyə yalnız əbədi yoldaşlar **(вечные спутники)** lazımdır; zamandan və məkandan xaricdə qalaraq ədəbiyyatın şah əsərlərini tədqiq etməlidir.

Digər tərəfdən, yenə Rıbnikovanın fikrincə, gənclər "tarix" məfhumuna qarşı həm nifrət hiss edirlər, həm də onu gərəyi kibi, yəni obyektiv bir surətdə anlamırlar. On altı yaşında bulunan tələbələr üçün on altıncı, yaxud on səkkizinci əsr ... hamısı birdir, bunları maraqlandırmır.

Eyni müəllifin ədəbiyyatı tarixi çərçivədən çəkib çıxarmanın lüzumu lehinə son dəlili də rus ədəbiyyatının nə şəkil, nə tərkib və təşkil məsələlərinin elmi və tərbiyəvi cəhətdən gərəyi kibi tədqiq edilməməsidir. Ona görə məzkur əsərdə daha müfəssəl bir surətdə izah və şərh olunan bu səbəblərdən dolayı ədəbiyyatı, tarixi və mənşəni **(генетический)** bir tərzdə deyil də, bəlkə, tələbələrin yaşına, səviyyə və məlumatına görə qurulmalıdır.

Sakulinin dediyi kibi, birinci baxışda anarşi kibi gələn bu əsaslarda, Rıbnikovanın özünün də qeyd etdiyi kibi, uzun illər boyunca əldə etdiyi təcrübə vardır.

Məktəblərdə çox dəfə ədəbiyyat tarixi ədəbiyyatın özü ilə olacaq tanışlığın yerini tutur. Bir şair və yaxud müəllifin ailəvi vəziyyətini, ictimai rolunu, deyəlim, tarixi əhəmiyyətini çox gözəl bilən tələbə onun əsərindən heç bir şey xatırlamır. Bunun öz sırasında iki dürlü zərəri görülür: birincisi, bütün məktəb təhsili boyunca keçdiyi dövrlər, ədəbi məktəblər və cərəyanlar onun zehnində yalnız mücərrəd

[154] М.А.Рыбникова. Работа словесника в школе, 1922, стр. 180.

və əcnəbi fikirlər olaraq müvəqqəti bir təsir yapır. İkincisi, ədəbi və bədii əsərlərin ona bəxş edəcəyi zehni və həyəcanlı inkişafdan məhrum qalır. Demək, ədəbiyyat öz xüsusi rolunu oynamır. Bunun üçün ədəbiyyat tarixindən ziyadə ədəbiyyatın özü ilə doğrudan-doğruya ədəbi əsərlərlə tanış olmanın çox böyük əhəmiyyəti vardır.

Təbiət üzərindəki müşahidələri bir kənara buraxaraq, yalnız təbiət haqqında fikir bəyan etmiş alim və filosofların nəzəriyyələri ilə qənaətlənmək və ən əcaibi bunu təbiiyyat, yəni təbiət bilgisi adlandırmaq mümkünmü? Həmin bu surətlə ədəbiyyatı öyrənmədən ədəbiyyat tarixindən bəhs etmək də qabil olamaz. Burada iki məhzur ola bilər: birisi, xronolojik nizamın pozulması və bunun nəticəsi olaraq tarixi təkamül ünsürlərinin gözdən qaçırılmaq ehtimalı, ikincisi də, ədəbiyyat tarixi dərsinin "qiraəti-ədəbiyyə" dərəcəsinə düşməməsi, belə dərsin cansıxıcılığı bir tərəfdə, yuxarıkı bəhslərimizdə bir çox dəfələr qeyd etdiyimiz ədəbi təkamül haqqında da böyük bir şey verəməz. Bununla bərabər, birinci nöqtədə, yəni xronolojik nizamın bilxassə kiçik siniflərdə pozulması mümkün olduğunda aşağı-yuxarı bütün ədəbiyyat mütəxəssisləri müttəfiqdir, – deyərsək, yanılmış olmarıq. Gərək Moskva, gərək Leninqrad lisançılar qurultayının, gərəksə türkoloji qurultayının qərarları da bu mərkəzdədir.

Rıbnikovadan əvvəl M.O.Kerşenzin vaxtilə Rusiya Maarif Komissarlığına yapdığı məruzəsində məktəblərdə ədəbiyyat tarixi dərslərinin ortadan qaldırılıb, onun yerinə bütün tələbələrə ədəbiyyat tədqiqinin məcburi yapılmasını, xronolojik nizama riayət edilməməsini, ədəbi əsərlərin təhlili üsulla deyil, tərkibi yolla öyrənilməsini təklif edirdi.

Bu fikirlərin təsiri altında 1921-də Petroqradda toplanan Petroqrad Lisançılarının Ölkə Qurultayı belə qərar qəbul etmiş idi: "Tarixdən uzaqlaşmayaraq, xronoloji sıranı pozmaq mümkündür. Buna müqabil bütün məktəblər müəllifi dərin və müfəssəl surətdə tədqiq etməlidir. Ədəbi axşamlar, səhnəvi tamaşalar, ədəbi sərgilər – bütün məktəbin qüvvələri cəlb edilmək şərtilə – başlıca tədqiq və tədris vasitələrindən sayılır".

Bu qısa qərardan anlaşıldığı vəchlə, qurultayda iki tərəf, yəni ədəbiyyat tarixinin lehində və əleyhində olanlar bir-biri ilə çarpışmışlar və nəticədə belə anlaşdırıcı bir qərar qəbul edilmişdir. Həqiqətdə belə bir qərar, belə prinsip normal və sağlam bir plan üçün zəruridir. Çünki ayrı-ayrı alındığı zaman müəllifləri, yaxud ədəbi əsərləri tamamilə,

yəni bütün ictimai, bədii, təkamüli... cəhətləri ilə anlamaq, bənimsəmək qabil deyildir. Xronoloji nizamı pozmaq həm mümkündür, həm də lazımdır. Deyil yalnız ədəbiyyatda və dildə, hətta bütün başqa dərslərdə də hərəkət nöqtəsi mühit və müasir hadisələrdir. Lakin bunu, bu hərəkət nöqtəsini təkamül şərtlərini göstərəcək kibi almalı və eyni fikri heç bir zaman gözdən uzaqlaşdırmayaraq ilərıyə doğru yeriməlidir. Bu cəhəti Rıbnikova da unutmur: "Mən mənim məlumum olan rus ədəbiyyatı və ədəbiyyat nəzəriyyatına aid fikirlər və nəticələri heç də unutmuram, onları sırası gəldikdə tələbələrimə bildirirəm də. Lakin əsərlərin təkamülündən və bu təkamülə aid nəzəriyyə və əsasları söyləmədən əvvəl, ədəbi əsərləri, bədii şəkilləri qiymətləri ilə mükəmməl və nümunə olacaqlarını keçməliyəm",[155] – deyir.

Oxucunun buraya qədər söylədiklərimizdən anlaya biləcəyi kibi, burada məsələ prinsip və plan üzərində deyil, bəlkə, daha ziyadə onun necə və kim tərəfindən tətbiq ediləcəyi üzərindədir. Bilxassə türk məktəbləri üçün bu cəhət çox artıq mühümdür. Çünki müəllimlərimiz hələ əllərinə ikinci dərəcə məktəblərinin bütün ehtiyaclarını dəf edə biləcək kibi rəhbərliklər, dərsliklər almış deyildirlər. Türk ədəbiyyatını hər hansı bir cümhuriyyətin ikinci dərəcəli məktəblərində dərinliyi, yəni tarixi təkamülü və genişliyi, yəni coğrafi və məhəlli fərqləri ilə oxutmaq üçün zəruri olan məcmuələr və dərsliklər hələ meydana gətirilməmişdir.

Burada ikinci məsələni də unutmamalıyıq. Bu da ədəbiyyat ilə başqa dərslər arasındakı münasibətdir. "Ədəbiyyatın məktəblərdəki mövqeyi" haqqındakı bəhsimizdə göstərdiyimiz kibi, ədəbiyyat hələ birinci tədqiq dövründə bulunmaqla bərabər, ən qəti elmi sistemlərlə öyrənilə biləcək və hər elmin verdiyi inkişafı təmin edəcək bir xarakter və mahiyyətə malikdir. Bunun üçün ədəbiyyata yalnız "gözəl söyləməni öyrədən, duyğuları incəldən bir sənət və yaxud mümarisə" kibi baxmayıb, bəlkə, həyat və fəaliyyətimizin mühüm bir sahə və parçasını izah edən ciddi bir elm kibi əlaqədar olmalı, yanaşmalıdır. Ancaq bu zaman onunla təbiiyyatdan başlayaraq, psixoloji və ictimaiyyətə qədər bütün elmlər arasında sıxı rabitə təsis edilə bilər. Təbii və ictimai hadisələri öyrənməyən bir tələbə necə öz işini yapmış, zehnini inkişaf etdirmiş sayılamazsa, ədəbi hadisələri anlamayan tələbə də eyni surətlə naqis və geridədir. Həyat hadisəsinin dürlü cəhətlərdən

[155] Работа словесника в школе, стр. 12.

tədqiqini üzərinə götürən ikinci dərəcəli məktəblər bu həyatın bu və ya başqa cəhətini artıq və yaxud əskik surətdə tənvir edə bilər, lakin bunlardan heç bir tərəfini ehmal edəməz. Ehmal etdiyi təqdirdə tədqiq etdiyi başqa cəhətlərin də tam və mükəmməl olmasını təmin etmək imkanından məhrum olur. Bundan başqa, ümumiyyətlə ədəbiyyatın, dilin, daha doğrusu, ədəbi dilin bütün ikinci dərəcə məktəblərin ən böyük ifadə alət və müvəffəqiyyət şərti olduğu düşünülürsə, bu əhəmiyyət daha artıq meydana çıxar.

Ona görə də ədəbiyyatla hər elm arasında bu surətlə ikitərəfli əlaqə olmalıdır. Hər elmi sahənin müəllimi, rəhbəri öz məlumatının, təcrübələrinin istilahlarının tələbələrinə keçib-keçmədiyini bilmək üçün onların lisani ifadələrinə müraciət edəcəkdir. Bu tələbələrin ifadələri nə qədər düzgün, lisani və ədəbi tədaiyyələri nə qədər sağlam olursa, dərslər də o qədər tez, o qədər müntəzəm və təməlli surətdə öyrədilir.

Bununla bərabər, ədəbiyyat, bilxassə yuxarıda üsul və mənşə bəhslərində göstərdiyimiz kibi, ictimai sinfə mənsub hadisələri tədqiq edən elmlərdəndir.

Əsas etibarilə bu sahənin tədqiqində işlənəcək üsul da ictimai üsuldur. Həmin bu nöqtələri nəzəri-etibara alaraq, deyə bilərik ki, ədəbiyyat dərsləri ikinci dərəcəli məktəblərdə başqa elmlərdən artıq ictimaiyyat elmləri ilə bağlanmalıdır. Bu surətlə ədəbiyyat tamamilə yeni bir əhəmiyyət qazanmış, yeni bir rola keçmiş olur. Leonid Boqoyavlenski "Ədəbiyyat yeni rolda"[156] adilə yazdığı məqaləsində bu cəhətləri olduqca açıq surətdə beş nöqtədə toplamışdır. Onun fikrincə, ədəbiyyatın tədrisi ilə bu nəticələr əldə edilir:

1) Ədəbiyyat birinci dərəcədə bədii yaradıcılıq əməliyyəsi ilə bizi tanış edir.

2) Həyatın bir parçasını bizə bildirir.

3) İctimai inqilabın təkamülünü və dövrlər mərhələlərini müəyyən bir cəhətdən tədqiqinə imkan açır.

4) İnsanların müəyyən əsrlər və dövrlərdə meydana çıxardıqları əbədi xarakterlərlə bizi əlaqədar və tanış etmək üçün çox zəngin materiallar verir.

5) Nəhayət, ədəbiyyat yaradıcı insanların fikir, duyğu və həyatları haqqında bizə məlumat verir.

[156] Литература в новой роли. Л.Богоявленский. Родной язык в школе, №7, стр. 42.

Boqoyavlenski bu nöqtələrdən hərəkət edərək, ictimaiyyatla həyatın sıxı rabitədə bulunması, hər iki dərsin mümkün olan yerlərdə bihəmei-hal müvazi surətdə götürülməsini təklif edir.[157] Tarixçi və ictimaiyyatçı ilə ədəbiyyatçı arasında bulunacaq belə bir rabitə hər halda hər iki elm üçün faydadan xali olmaz. Mövzular və dövrlər hər iki hadisənin mütəxəssisləri arasında müəyyən surətdə meydana çıxarılmış əlaqələr və bağlarla bir-birinə rəbt edilməlidir. Bununla bərabər, gərək tarix və ictimaiyyatın və gərəksə ədəbiyyatın ümumi təmas nöqtələrindən başqa, özlərinə məxsus ayırıcı bir çox nöqtələrin, vəzifələrin bulunduğu da unudulmamalıdır. Bəzilərinin zənn etdiyi kibi, ədəbi əsərlərin səhifələrindən ictimaiyyat dərslərinə material tapmaq, yuxarıda söylədiyimiz kibi, ədəbiyyatı tamamilə həyati-həqiqini və cəmiyyəti əks etdirən bir ayna kibi anlamaq, daha doğrusu, ədəbiyyatın mahiyyətini, əslini heç bir dürlü qavrayamamaqdır.

Ədəbiyyat dərsinin quruluşu nöqtəsində olduqca münaqişələri mucab olan məsələlərdən birisi də xalq ədəbiyyatının gərək dərs planında və gərəksə ədəbi dövrlər arasındakı yeridir. Bir çoxları xalq ədəbiyyatını ikinci dərəcəli məktəblərin son siniflərində oxutmaq fikrini ileri sürməkdədirlər. Bu fikir iki nöqteyi-nəzərdən yanlışdır: birincisi, xalq ədəbiyyatı nümunələri, canlı dil daha ziyadə birinci dərəcəli məktəbdə mərkəzi bir mahiyyətə malik olduğu üçün birinci dərəcəli məktəblə doğrudan-doğruya təmas edən aşağı siniflər xalq ədəbiyyatının keçilməsinə daha münasibdir. İkincisi, ikinci dərəcəli məktəblərin bilxassə son üç sinfində mərkəzi-siqlət ədəbi dilin üzərində bulunması lazım gəldiyi üçün xalq ədəbiyyatı bu xüsusda şaşırdıcı bir təsir yapar və ədəbi dil nümunələrinin tədqiqində ayrı və əcnəbi bir ünsür olaraq meydana çıxar. Həmin bunun üçün də xalq ədəbiyyatının yeri daha artıq aşağı siniflərdədir.

Ədəbiyyat dərsinin quruluşu bəhsində bilxassə türk-tatar məktəbləri üçün ən mühüm məsələlərdən birisi də ədəbiyyat dərsinin mündəricəsi məsələsidir. Məlum olduğu üzrə, bizdə, türk-tatar xalqlarında bütün mənası ilə inkişaf etmiş ədəbiyyata malik iki xalq, daha doğrusu, iki ölkə vardır: Orta Asiya, Anadolu. Bunlardan Orta Asiya

[157] Eyni fikri daha konkret bir surətdə müdafiə edərək, A.A.Rusanov "İctimaiyyətlə bağlı olaraq ədəbiyyat dərsi" adilə bir əsər meydana gətirmiş və burada ictimai məhvər ətrafında ədəbiyyat dərsinin nə surətlə təmərküz və təsnif etdirilə biləcəyini olduqca böyük müvəffəqiyyətlə göstərmişdir.

ədəbiyyatı ki, cığatay namı altında məşhur olmuşdur, on yeddinci və bəlkə, on səkkizinci əsrlərə qədər öz yerini və əhəmiyyətini saxlaya bilmişdir. Bundan sonra Səmərqənd, Xoqənd, Buxara, Xivə... kibi xırda sahələr içərisinə qapanmış olan ədəbiyyatın ancaq məhəlli əhəmiyyəti vardır. Bu əsrlərdən sonra ortada yazılı əsərləri, ədəbiyyatı ilə mərkəzi və birinci mövqeyi, şübhəsiz, Anadolu türkləri alır. Əvvəlcə Orta Asiya ədəbiyyatı təsiri altında olan Volqaboyu kibi ölkələr ən doqquzuncu əsrin başlarından alaraq, öz ədəbiyyatlarını yaratmaq yoluna düşmüşlərdir.

Hər iki ədəbi dairənin ortasında və çox dəfə İran dövləti tərkibində qalan Azərbaycan, çox ağır bir templə olsa da, üç-dörd əsr içində öz ədəbiyyatını yaşada və təkamül etdirə gəlmişdir. Bunun üzərinə min doqquz yüz beşinci il inqilabından alaraq, qırğızlar, başqırdlar, özbəklər, türkmənlər, kumuklar... zamanımıza qədər öz şivələrində az-çox ədəbi və yazılı əsərlər yarada gəlmişlərdir. Bütün bu şivə ədəbiyyatlarını xalq ədəbiyyatı zümrəsinə soxmaq və onlara məktəblərdə xalq ədəbiyyatının yerini vermək tərəfindən klassik və tam mənasilə təşkil etmiş bir ədəbiyyat kibi alaraq, bütün ikinci dərəcəli məktəbi bu dar və olduqca səthi, daha bir çox yerlərdə rüşeym – embrion halında bulunan ədəbiyyatla məşğul etmək, digər tərəfdən, qabil deyildir. Ona görə bizdə imdiyə qədər göstərdiyimiz üsuli və tədrisi güclüklərə əlavə olaraq ədəbiyyat dərsi planının və quruluşunun qarşısına çıxan ən böyük maneələrdən birisi də budur. Bir sözlə deyəcək və yaxud bir çoxlarının söyləyəcəklərini burada nəql edəcək olursaq: "Bizdə ədəbiyyat yox!" – fikri belə vəziyyətdə bir çox türk xalqları üçün doğru və təbii bir nəticə olaraq həmin bu vəziyyətin müşahidəsindən çıxarılır.

Doğrudan da, yalnız öz ölkə ədəbiyyatlarilə qənaətləndirdikləri təqdirdə krımlılar, kumuklar, başqırdlar, qazaxlar, türkmənlər, hətta Qazan və azərbaycanlılar öz ikinci dərəcəli məktəblərində ədəbiyyat namına nə oxuda bilərlər? Bu məsələ üzərində olduqca ciddi və ətraflı surətdə düşünən Qalimcan İbrahimov bu qərara gəlir: "Orxon, uyğur, cığatay ədəbiyyatları tatar ədəbiyyatı tarixinə və binaən əleyh dərs planına... üzvi bir maddə olaraq girmir. Xəzər, Altun Ordu, Bulqar, Qazan dövlətləri zamanından tatar ədəbiyyatı qalmamış. Bu zamanlarda yalnız dil yadigarları olaraq az-maz yarlıqlar, məzar daşları kibi şeylər var. Lakin həqiqi mənasilə ədəbi-fikri-elmi materiallar yalnız on altıncı əsrin son yarımından alınıb bu tərəfə, yəni zamanımıza doğru

başlanır. Həmin bu zamandan etibarən həqiqi mənasilə üzvi surətdə bir-birinə bağlı tatar ədəbiyyatı tarixi başlanır".[158]

Bütün bu fikirlərin əsas etibarilə doğruluğuna şübhə yox. Lakin belə başlanan mühakimələrdən bunlar, yəni Orxon, uyğur, cığatay... kibi ədəbiyyatlar bizim ədəbiyyatımız deyil, binaən əleyh biz onlarla məşğul olmağa, onları öyrənməyə məcbur deyiliz, – nəticəsi çıxarılmaz. Eyni nəticəyə Orta Asiya, Sibir, Anadolu, Azərbaycan türk-tatar xalqları da gəldiyi təqdirdə Orxon kitabələri ancaq tokyo məktəblərində, uyğur əsərləri də uyğur mədrəsələrində öyrənilmək lazım gəlir!..

Əcəba, ruslar, almanlar, fransızlar özlərinin, hətta latınca yazılmış ədəbiyyatlarını ədəbiyyat tarixlərindən çıxarırlarmı? Xeyr. Biləks, məsələn, ruslarda, bilxassə inqilabdan sonrakı lisaniyyat və ədəbiyyat əsərlərində və bu yolda tədqiqlərlə məşğul olan təşkilat və müəssisələrdə əski rus ədəbiyyatı məsələsi, daha doğrusu, slavyan, Kiyev və Moskva ədəbiyyatları məsələsi böyük yer işğal edir.

Bu məsələ yalnız bizdə törəmir. Bəlkə, Avropa xalqlarının, rusların ədəbiyyat tarixçiləri də bu məsələlərlə məşğul olurlar. Yalnız öz ədəbiyyat tarixlərinin sahələrini darlaşdırmaq və bir neçə kiçik şəhərin, yaxud beş-on kəndin, iyirmi-otuz əhəmiyyətsiz mühərririn əsərlərini ancaq qavrayacaq masştaba qədər deyil, bəlkə, daha ziyadə genişlətmək yolundadır. Bunda vətənpərvərlik, milli meyil görmək boş vəsvəsədən ibarətdir. Əsərimizdə bir neçə dəfə ismi keçməkdə olan məşhur alman ədəbiyyat tarixçisi Pavel Merker alman ədəbiyyatı tarixinin birliyi fikrini iləri sürərkən alman ədəbiyyatı tarixi çərçivəsinə holland (flaman[d]) və Skandinaviya ədəbiyyatlarının idxal edilməsini təklif edir.

Eyni surətlə, bir çox rus ədəbiyyatı tarixçiləri kibi, professor Sakulin də malorus, belarus ədəbiyyatlarının da rus ədəbiyyatı çərçivəsinə soxularaq tədqiq edilməsi zəruri olduğunu olduqca müfəssəl və ətraflı surətdə isbat edir.[159] Türk ədəbiyyatı son iki əsr içində daima üzvi surətdə bir-birinə bağlı olaraq tədqiq olundu. Banq lisaniyyat cəhətindən axsamaqla, bir çox boşluqlara malik olmaqla bərabər, Orxon kitabələrindən osmanlıcaya qədər müəyyən və müntəzəm bir dil təkamülü olduğunu meydana çıxardı.[160] Köprülüzadə ancaq cığatay və Osmanlı və başqa türk xalqlarının ədəbi yaradıcılıqlarını müqayisəli surətdə almaq sayəsindədir ki, türk ədəbiyyatında bir çox əsaslı məsələlərin qismən

[158] İmla, til, ədəbiyyat məsələləri, səh. 33.
[159] П.Н.Сакулин. Синтетическое построение литературы, стр. 40-41.
[160] W.Bang. Vom Kökturkischen zum Osmanischen, 1921.

həllinə, qismən də öyrənilməsinə müvəffəq oldu[161] və onun türk ədəbiyyatını bir küll şəklində tədqiqi və binaən əleyh tədris xüsusundakı təklifi başlıca Avropa alimləri tərəfindən alqışlandı və qəbul edildi.[162]

Vamberi, Meydendorf, Erman kibi məşhur alimlərin fikirlərinə baxıldıqda, hətta yakut dili kibi dillər və ədəbiyyatların belə hər hansı bir türk məktəbində tədqiqi mümkün görünür.[163]

Qazan-tatar ədəbiyyatının özünü də son dövrlərinə qədər başqa türk-tatar xalqlarının ədəbi sahələrindən ayırıb almaq mümkün olmur. Cəmaləddin Vəlidi Qazan-tatar ədəbiyyatını tədqiq edərkən heç bir dürlü fikri Krım, Osmanlı və Orta Asiya ədəbi çərçivələrindən ayrı çıxaramamışdır.[164] Halbuki onun verdiyi, əsərinin adından da anlaşıldığı kibi, yalnız mədəni və ədəbi bir taslaqdan ibarətdir. Daha ziyadə dərinə gedildiyi zaman bu qomşu türk-tatar xalqlarının ədəbiyyatlarını daha müfəssəl surətdə öyrənmək lazım gələcəkdir. Eyni surətlə Q.Qaziz və Qali Rəhimin tatar ədəbiyyatı tarixlərində də gərək uyğur, gərək cığatay, Altun ordu, Osmanlı, hətta "Kodeks kumanikus" kibi türk əsərlərinə belə yer ayrıldığını görürük.[165] Türk xalqlarından hər hansı birinin ədəbiyyatını alsaq, burada bu qaydanı qurmaq mümkündür: ədəbiyyat nə qədər ibtidai başlanğıc dövründə olursa, xaricdən alınan təsir də o qədər az, o qədər bəsit olur. Ədəbiyyat təkamül etdikcə bu alış-veriş də çoxalır, dərinləşir və kökləşir. Məsələn, kumuk ədəbiyyatı ilə Qazan-tatar ədəbiyyatını müqayisə edək. Hansı daha ziyadə təsir, daha doğrusu, təsirlər altında qalmış?.. Şübhəsiz, Qazan, yaxud Volqaboyu ədəbiyyatı. Digər tərəfdən, hansı daha mütəkamil?.. Şübhəsiz, yenə Qazan-tatar ədəbiyyatı. Kumuk ədəbiyyatında daha hekayə, roman, pyes... kibi növlər hələ yeni əmələ gəlir,[166] Qazan-tatar ədəbiyyatının bütün bu sahələrdə ən azı iyirmi beş (məsələn, teatr) illik bir tarixi var.[167]

---

[161] Türk ədəbiyyatında ilk mütəsəvvüflər.

[162] Türkiyyat məcmuəsi, 1925, I cild: Qleman Havar, Mortman və Djol Nemetin məqalələri, səh. 267.

[163] Н.А.Аристов. Заметки об этническом составе тюрк. племен. и народностей, стр. 1-2.

[164] Очерк истории образованности и литературы волжских татар. Bu əsərin Qasprinski, Kursavi, Mərcani bəhslərinə baxınız.

[165] Tatar ədəbiyyatı tarixi.

[166] Müəllifin "Kumuk dili və ədəbiyyatı tədqiqləri", Bakı, 1926 (Ədəbiyyat bəhsinə baxınız).

[167] Tatar teatrı, Qazan, 1926.

Bunu da xəbər verəlim ki, bütün saydığımız nöqtələrə əsas etibarilə Qalimcan İbrahimovun yazılarında da qarşı bir şey yoxdur. Bunun üçün sözümüz başlıca onun yuxarıda gətirilmiş sətirlərinə qarşı çevrilmiş sayılmaz. Bu sözlər daha ziyadə bu xüsusda mövcud olan qərarsızlığı itirmək və bu xüsusda bu gün üçün mümkün olan tərkibi və planı göstərmək məqsədinə çevrilmişdir.

Şivə ədəbiyyatlarını əsas olaraq almaq yalnız üfüqi **(горизонтально)** surətdə alınan ədəbiyyat kəsməsində mümkündür. Bununla bərabər, bir də tarixi və şaquli kəsmə vardır ki, bunsuz ədəbiyyat planı və tədqiqi heç bir dürlü tamam olamaz.

Burada başqa bir mülahizə daha söylənə bilər ki, qüvvətcə əvvəlkilərindən heç də zəif deyildir. Bu da gərək dilin, gərəksə ədəbiyyat işlərinin ikinci dərəcəli məktəblərdə elmi surətdə qoyulması və göstərilməsidir. Bu da ancaq tarixi plan və müqayisəli üsulla qabil ola bilər.

Yuxarıda ədəbiyyatın ictimaiyyatla müvazi olaraq götürülməsi lüzumunu göstərdik. Əcəba, ictimaiyyatda yalnız bugünkü cəmiyyətin və bir ölkədə mövcud ictimai və iqtisadi münasibətlərin tədqiqi ilə kifayətlənə bilərikmi?.. Əlbəttə, xeyr. Təbii, təsərrüfat, feodalizm, ticari kapitalizm, sənaye sərmayədarlıq dövrlərini bilməyən ictimaiyyatçıdan nə ola bilər? Bu xüsusda M.N.Pakrovskinin əsərləri tamamilə qənaətləndirici fikirlər verə bilər.[168]

Bu gün mövcud olan cürbəcür meyil və istiqamətləri ədəbiyyat tədrisi xüsusunda mütəxəssis və müəllimlərimiz arasında hökm sürən az-çox bir-birinə mütənaqis və bir-birindən uzaqlaşıcı fikirləri bir yerə toplayaraq az-çox ümumi bir yekun vermək istərsək, əvvəla ikinci dərəcəli məktəblərdəki ədəbiyyat dərsi planını üç qismə ayırmalıyıq: 1) şivə ədəbiyyatı, 2) ölkə ədəbiyyatı, 3) ümumi əsərlər.

1. Dil tədrisində hərəkət nöqtəmiz canlı dil olmaq lazım gəldiyi kibi, ədəbiyyat tədrisində də şivə ədəbiyyatı olmaq lazım gəlir. Daha yaxında mühitindən ayrılmış tələbə üçün ən səmimi, ən tanış və doğma ədəbiyyatı dərs planının təməlinə qoymaq zəruridir. Yalnız bizim "şivə ədəbiyyatı" təbirimizlə "xalq ədəbiyyatı" bir-birinə qarışdırılmamalıdır. Türk-tatar xalq ədəbiyyatı şivə hüdudlarından çox geniş bir sahəyə malikdir. Biz burada şivə ədəbiyyatı altında ədəbiyyat dərsini dinləyəcək tələbələrin ana şivəsindən doğan yazılı və ağız ədəbiyyatının

---

[168] Pakrovskinin **"Русская история в самом сжатом очерке"** əsərinin birinci qismə baxınız.

heyəti-məcmuəsini qəsd edirik. Bunun ikinci dərəcəli məktəbdən neçə dərs, neçə tədris ili istədiyi məsələsini burada mövzui-bəhs etməyə hacət yoxdur. Bu nöqtəni, yaxud bu nisbəti təyin etmək daha ziyadə doğrudan-doğruya bu işlə əlaqədar olan maarif idarələrinin və ədəbiyyat müəllimlərinin üzərinə düşür.

2. "Ölkə ədəbiyyatı" adı altında anladığımız şey şivənin girdiyi şivə qruppasının ədəbiyyatıdır. Belə şivə qruppaları gərək akademik Korşun, gərəksə Radlovun türk şivələri təsnifində az-çox qətiyyətlə göstərilmişdir.[169] Ədəbiyyat cəhətindən də bu qruppaları təyin etmək çox asandır. Cənub türklərinin məktəblərində cənub türk ədəbiyyatı, şimal türklərində isə şimal ədəbi şivələrindəki başlıca bədii əsərlər oxudulmalıdır. Bu surətlə tələbə həm ədəbi, həm də tədqiqi qavrayışını mühüm bir dərəcədə, ən mühümü də təbii bir surətdə genişlətmiş olur.

3. "Ümumi əsərlər"dən məqsədimiz öz şivəsi və yaxud şivə qrupu çərçivəsindən daha uzaqlara öz ədəbi və bədii təsirini göstərmiş olan ədəbi əsər, hadisə və cərəyanların tədqiqidir. Məsələn, Əlişir Nəvai, Füzuli... kibi şairləri və onların dövrlərini bütün türk-tatar məktəbləri tədqiq etməlidir. Yeni dövrdə də üsuli-cədid, qəzetə, roman və teatro ədəbiyyatımız ümumi bir əhəmiyyətə malikdir. Çünki bütün bu mədəni və ədəbi hadisələr həman bütün türk-tatar xalqlarında bir-birinə bənzəyən şərtlər içində başlamış və müşabeh nəticələr doğurmuş. Bu tədqiq zamanında, təbii, hər ölkənin özünəməxsus cizgiləri, bənliyi də meydana çıxacaqdır. Eyni surətlə təsəvvüfi aşıq ədəbiyyatı və fərman-yarlıq dili kibi daha bir çox müştərək və ümumi əsərlər buluna bilər. Zənn edirəm ki, ancaq bu üç dərəcəli ədəbiyyat planilə dərs oxuyan tələbə türk-tatar ədəbi həyatını bir dərəcəyə qədər öyrənmiş və ədəbi hadisələri az-çox qavramış olur.

Eyni əsas türkoloji qurultayında istilah və dil məsələsi üçün qəbul edilmiş idi.

[169] А.Н.Самойлович. Некоторые дополнения к классификации турецких языков, 1922 (Bu risalədə lazım gələn məlumatı taparsınız).

ƏDƏBİYYAT TƏDRİSİNDƏKİ ÜSULLAR

Laborator üsulu. Bu üsulda müəllimin rolu. Ədəbi müsahibələr. Ədəbi referatlar və yazı işləri. Ədəbi dərnəklər. Ədəbi axşamlar. Ədəbi sərgilər. Ədəbi gəzintilər. Başqa üsullar

Ədəbiyyat tədrisində nə kibi üsullar ola biləcəyi yuxarıdakı bəhslərimizi gözdən keçirən oxucu üçün az-çox məlumdur. Çünki keçmiş bəhslərimizin birisində dediyimiz kibi, tədris üsulları tədqiq üsulları ilə sıxı surətdə bağlıdır.

Rus və Avropa ədəbiyyatlarında üsuli-tədqiq **(metodologie)** ilə üsuli-tədris **(методика)** bir-birindən ayrılır. Üsuli-tədqiq daha ziyadə elmin, təbir caizsə, iləriləmə, məchula doğru hücum yollarını ehtiva etdiyi halda, üsuli-tədris elm tərəfindən çoxdan təsbit və əldə edilmiş həqiqət və qanunları başqalarına təlim və nəşrə xidmət edən yollardır. Təbii, məktəbdə oxuyan, öyrənən tələbə də tədqiqatda bulunur, lakin bu müəllim əvvəldən məlum olan nəticələrə müstəqilən gələ bilməsi üçündür.

Hər halda tələbənin öyrənməsini tədqiq şəklinə qoymaq məlum nəticələri hazır surətdə müəllimin ifadə və yazısından almayaraq, müəllimin rəhbərliyi altında onu – tələbəni əvvəlcə başqaları tərəfindən gedilmiş yollardan birinci dəfə yeriyir kibi yeridərək hafizəsini doldurmaqdan ziyadə, zehni fəaliyyətini artırmaq cəhdinə əhəmiyyət verilir. Üzməyi öyrənmək üçün birisinin üzdüyünə baxmaq necə kafi deyilsə, necə yavaş-yavaş birisinin yardımilə üzüb bədəni mümarisəyə məruz etmək lazım isə, elə də müəllimin bildiyini deyil, düşününüş, zehni fəaliyyət üsullarını əldə etmək lazımdır. Bu etibarla üsuli-tədris ilə üsuli-tədqiq arasında heç fərq yox, biləks, sıxı bir rabitə vardır və olmalıdır.

Həmin bu səbəbdən ədəbiyyat tədrisində çox qatı, doqmatik üsullar təsbit etmək qeyri-qabil və faydasızdır.

Burada ən əvvəl ilərıyə sürüləcək nöqtə tələbənin özbaşına, müstəqil surətdə çalışmasını maksimum təmin etmək və onu yalnız dinləyici, same vəziyyətində buraxmayaraq, daha ziyadə ədəbi əsərlərin təhlili və tərkibi işlərində mümkün olduğu qədər şüurlu surətdə iştirak etdirməkdir. Bu cəhəti təmin üçün bir çox yollar vardır ki, bunların heyəti-məcmuəsinə rus və Avropa pedaqoqları və üsulçularını təqib

edərək "laborator üsulu" deyə bilərik. Bu üsulun bir çox tali, fər'i ikinci dərəcədə bir taqım şəkilləri vardır ki, həmin bu bəhsimiz bunların mümkün olduğu qədər ətraflı surətdə izahı ilə məşğul olacaqdır.

Ədəbi əsərlərin mühərrirlərin əvvəldən hazırlanmış dərsliklər, dərs rəhbərlikləri vasitəsilə oxunması nəticə etibarilə daima mücərrəd və səthi olur. Bunun üçün müəllimlər çoxdan bəri yeni üsullar araşdırırlardı. Bu araşdırmaların nəticəsində leksiya-dərs üsulundan bir addım ileri olan sual-müsahibə üsulu **(метод собеседования)** doğdu. Bu üsul bu gün bir çox türk məktəblərində də tətbiq olunur. Bu üsulda tələbəyə bir çox suallar və məsələlər verilir ki, bunların cavabını tələbə özü hazırlamağa borcludur. Bu üsulun nöqsanı burasındadır ki, çox dəfə bu suallara cavabı ya yenə hazır dərsliklərdə tapır, yaxud elə-belə öz məntiqi və xatıratı ilə təyin edir. Bu surətlə ədəbi əsərlərlə, müəlliflə təməlli tanışlıq yerinə, səthi bir əqil və zehin fəaliyyəti qaim olur. Sual üsulu yenə bir çox qeydlər və əlavələr yapmalıdır ki, bu sayədə həqiqi laborator və elmi üsul ola bilsin.

Laborator üsulunda ən ziyadə diqqət olunacaq nöqtə tələbənin ədəbi və bədii yaradıcılıq əməliyyəsini gərəyi kibi qavraya bilməsi və mühərrir əsəri nə surətlə və hansı dövrlərdən keçərək meydana gətirmiş isə, tələbənin də bu əməliyyələri öz başına yapa bilməsidir.

Necə müəllif əsərindəki şəkilləri birdən, bir kərədən əldə etməmiş, bəlkə, tədrici surətdə inkişaf etdirmiş isə, tələbə də eyni surətlə bunları yavaş-yavaş, parça-parça bənimsəməlidir, tədrici surətdə müəlliflik, yaxud şairlik sənətinin künhünə və həqiqətinə vasil olmalıdır.

Burada müəllimin rolu nədir? Bu rolu başlıca beş nöqtədə toplaya bilərik:

1) Tələbələri təcrübəsizliklərindən dolayı özbaşlarına fərq edəməyəcəkləri nöqtələr üzərində durdurmaq, bu nöqtələrə onların nəzər-diqqətini cəlb etmək,

2) Bədii şəkillərin anlaşılması üçün mühüm olan parça və yerləri əsərdən ayırıb ala bilmələrində tələbələrə yardım etmək,

3) Tələbələrin diqqətsizlik üzündən gözdən qaçırmaları möhtəməl olan bədii qiymətləri, təfərrüatı onlara göstərmək,

4) Mühərririn öz mövzusuna münasibətini, əsərin ümumi tərkibini göstərərək onları yavaş-yavaş ədəbi tənqid sənətinə alışdırmaq,

5) Bundan başqa, ədəbi yaradıcılıq incəliklərini ki, tələbələr özbaşlarına çox çətin və çox gec fərq edə bilərlər, işarət etmək...

Təbii bu nöqtələr istənildiyi qədər parçalana və artırıla bilər. Lakin bu nöqtədə biz nə qədər müfəssəl dursaq, yenə də laborator üsulunda, yəni tələbələrin müstəqil və sərbəst tədqiqlərində rast gələ biləcəkləri bütün ehtimalları sayıb bitirə bilmərik. Burada uzun təcrübə, daima diqqətli bulunmaq, tələbələr ilə doğrudan-doğruya səmimi münasibət müəllim öz rəhbərliyində qarşısına çıxacaq bütün belə məsələləri təbii və doğru surətdə çözməyə yardımçı olur. Bu vəzifələri yerinə gətirmək üçün müəllim sual və məsələlərdən faydalana bilər. Mahiyyətlərinə görə bu məsələlər iki qismə ayrılır: birinci qisim məsələlər tədqiq olunan mətnlər içərisindən cavabları tapa biləcəkləridir; ikinci qismə girən məsələlər onlardır ki, yalnız oxunan, yaxud tədqiq olunan mətnlər vasitəsilə bunların cavabını tapmaq qabil deyildir. Bu cavabları tələbə müəyyən faktlar arasında yapacağı müqayisə və təhlil yolilə, müstəqil zehni fəaliyyətlə tapa bilər.

Tələbələr tərəfindən tədqiq edilmiş, çözülmüş olan belə məsələlər bütün sinif qarşısında münaqişə və müsahibə mövzusu halına salınmalıdır.

Laborator üsulunun ədəbiyyat tədqiqlərində tətbiqi, tələbələrin passiv, hərəkətsiz vəziyyətindən çıxarılaraq fəal surətdə ədəbi əsərləri, bədii yaradıcılığı tədqiq işinə cəlb edilmələri çox zaman almaq və ədəbiyyat dərsi planının yavaş və ağır bir surətdə keçilməsini müqab olmaq nöqsanına malikdir. Bunun üçün bir çox məsələlər tələbələrin özləri tərəfindən yapıla biləcəyi kibi, ədəbi əsərlərin tədqiqi ətrafında doğacaq bir çox təfərrüat, hətta əsaslı nöqtələr sinifdən xaricə çıxarıla bilər. Əsasən laborator üsulunu daha ziyadə produktiv, faydalı yapan həmin bu növ işlərdir ki, bunların başlıcaları ədəbiyyat tədrisi ətrafında bilxassə son zamanlarda artmış, böyümüş olan ədəbiyyatda öz müəyyən şəkil və istilahını artıq qazanmışdır. Bunları bu surətlə altı parçada toplaya bilərik: 1) ədəbi müsahibələr, 2) ədəbi referatlar və yazı işləri, 3) ədəbi dəməklər və onların idarəsi, 4) ədəbi gəzintilər, 5) ədəbiyyat sərgiləri, 6) ədəbi axşamlar və s.

Ədəbi müsahibələr. "Laborator üsulu" namını verdiyimiz və bir neçə sözlə yuxarıda əsas nöqtələrinə işarət etdiyimiz üsul müəllimlə, yaxud bu üsulda daha doğru və yerində olmaq üzrə "rəhbər"lə onun şagirdləri, yaxud yardımçıları arasında canlı və qarşılıqlı münasibətin tapılmasını istəyir. Əcəba, bu üsulu məktəblərdə tətbiq etdiyimiz təqdirdə əsas dərslərdəmi, yoxsa müsahibələrdəmi olmaq lazım gələcək?

Təbii, dərslərdən bilxassə bizim məktəblərimizdə vaz keçmək hələ və çox zamanlara qədər qabil olamaz. Laborator üsulunda da əsasən heç kimsə dərslər[in] – leksiyaların tamamilə ortadan qaldırılmasını təklif edə bilmir. Müəllim hər hansı bir məsələyə keçmədən əvvəl ümumi məsələ və nöqtələri tələbələrinə daima dərs şəklində verə bilər.

Lakin artıq hər müəllim bilir və yaxud bilməlidir ki, bütün ədəbiyyat tədrisini yalnız müəllimin təqririnə münhəsir yapmaq, ədəbiyyatın öyrənilməsini də yalnız tələbələrin müəllim tərəfindən söylənən şeylərin öyrənilməsindən, göstərilən nümunələrin əzbərlənməsindən ibarət saymaq, əlbəttə, caiz deyildir. Burada doğrudan-doğruya deyə bilərik ki, yalnız dinləməyə alışan tələbə heç bir zaman aktiv, fəal surətdə hafizəsinə yerləşdirdiyi şeyləri söyləmək və yazmaq imkan və təcrübəsini əldə edəməz. Çünki dinləmək-söyləmək, oxumaq-yazmaq gərək dildə və gərəksə ədəbiyyatda tamamilə birbirindən ayrıdır. Halbuki hər elmdə olduğu kibi, ədəbiyyatda da məqsəd ədəbi və bədii yaradıcılığa şəkillərlə düşünməklə tələbələri alışdırmaq deyilmidir?

Ona görə ədəbiyyat dərslərində bu cəhəti gərəyi kibi təmin etmək lazımdır. Bunun da yollarından birisi ədəbi müsahibələrdir.

Əməli olaraq bu müsahibələri necə tətbiq etməlidir? Ona görə də ən mühüm məsələ ki, hər pedaqoq hər üsuli məsələnin birinci şəklində, əsas nöqtəsində aşağı-yuxarı eyni fikirdə bulunmaqla bərabər, məsələ buraya gəldiyi zaman öz təcrübəsinə, öz zövqünə və asanlığına görə müxtəlif fikirlərdə bulunur.

"Ədəbiyyatın tədqiqi məcmuəsi"ndə rus pedaqoqlarından K.A.Botaşev[170] bu məsələyə təxsis etdiyi məqaləsində ədəbi müsahibələrin məktəb həyatında alması lazım gələn yeri və onun başlıca üsullarını olduqca açıq və konkret bir surətdə göstərməyə müvəffəq olmuşdur.

Botaşev zikr olunan məqaləsində rus ədiblərindən Qoqolun "Revizor-müfəttiş"i haqqında məktəbində yapdığı belə ədəbi müsahibələrindən birisini nümunə olaraq göstərməkdədir. Rus ədəbiyyatına aid xüsusi nöqtələrini çıxararaq, onun on dörd nöqtədən ibarət planını eynən oxucumuza təqdim edirik:

1) Qoqolun "Rezivor"unu oxuduqdan sonra on doqquzuncu əsr rus məmurları haqqında nə kibi bir fikir hasil olur?

[170] К.А.Боташев. Литературные беседы и т.д. (Изучение литературы в школе, стр. 97-106).

2) Qoqol başqa daha nə kibi əsərlərində məmurların həyatını belə təsvir edir?

3) Belə təsvir cəmiyyətə bir fayda gətirə bilərmi?

4) Bu fayda haqqında Qoqol özü əsərlərində fikir bəyan edirmi və nə deyir?

5) Bu komediyanın əsası haradadır və bunu həqiqətə yaxın saymaq olurmu?

6) Qoqol yalançı klassisizm qaydalarından nərədə ayrılmış?

7) "Revizor"da karikatur ünsürləri varmı?

8) "Revizor" qəhrəmanlarının dili təbiidirmi?

9) Bu cəhətdən müəyyən qəhrəmanların dilindən misallar gətirin.

10) "Revizor"da realizm nöqteyi-nəzərindən qüsurlar varmı?

11) "Revizor"u həyati **(бытовой)** komediya adlandırmaq olurmu?

12) Bədii cəhətdən bu komediyanın haraları xoşunuza gəlir?

13) "Revizor"u başqa şair və ədiblərin belə əsərləri ilə müqayisə edə bilirsinizmi?

14) "Revizor"la bağlı olaraq sizin özünüzdə nə kibi məsələlər var?

Həmin bu məsələlər üzərinə müsahibə başlayır. Müsahibələrdən əvvəl ya müəllim, daha yaxşısı, müəllim tərəfindən hazırlanmış olan tələbələrdən birisi "Revizor"un tarixi üzərində bir mühazirə oxuyur. Müsahibədən sonra müəllim bu müsahibə əsnasında meydana çıxan fikirlərin yekununu yapır və Qoqolun şah əsərlərindən, rus ədəbiyyatının ölməz abidələrindən birisi olan bu mühüm bədii hadisə sinif tərəfindən öyrənilmiş olur. Burada sualların miqdarına və mahiyyətinə etiraz etmək yersizdir. Çünki müəllim bunları istədiyi kibi dəyişdirə və düzə bilər. Yalnız tələbələrə müraciəti ehtiva edən on dördüncü sual hər zaman yerini saxlamalıdır. Çünki bu sual vasitəsilə müəllim hər zaman tələbələrin nələrə maraq etdiyinin ümumi, səciyyəvi cizgilərini anlaya bilər. İkinci dərəcəli məktəblərdə çox artıq moda olan əsər qəhrəmanların xarakteristikini təhlil edib meydana çıxarmaq cəhəti də ədəbi müsahibələr əsnasında daha gözəl tənvir və təmin oluna bilər. Belə müsahibə şəklində götürülən dərs ədəbiyyatı daha maraqlı, daha canlı yapır, həyata yaxınlaşdırır.

Ədəbi müsahibələrin bir növü də "ədəbi məhkəmələr"dir. Ədəbi əsərlərdə adları keçən qəhrəmanları ideya və ideal, hərəkət cəhətindən təhlil etmək cəhətini təqib edən bu növ məhkəmələr də əsərlərin müxtəlif cəhətlərdən tələbələrin zehnində yerləşməsini asanlaşdırır.

Burada yalnız, S.Q.Qusevin[171] dediyi kibi, bu məhkəmələrdəki qeyri-təbii quruluşu nəzəri-etibara almaq lazımdır. Çox dəfə tələbələr bu qeyri-təbiiliyin fərqinə varır və belə məhkəmələr yerinə, əlaladə sinifdənxaric müsahibələrin iqamə edilməsini istəyirlər.

Ədəbi referatlar və yazı işləri. Ədəbi referatlar və yazı işləri laborator üsulilə oxudulan ədəbiyyat dərslərində mühüm bir yer işğal edər. Ədəbi müsahibələr tələbələrin söz vasitəsilə öz fikirlərini ifadə etməkdəki mələkə və məharətlərini inkişaf etdirirsə, ədəbi referat və yazılar buna ikinci bir cəhət, yazı vasitəsilə bu fikirləri təsbit yolunu götürür. Ədəbi referatlar yolilə tələbələr öz fikirlərinin, aləmlərinin mühərrirləri olurlar. Referat və yazı işlərində iki sinif mövzu ola bilər:

1) birincisi, ədəbi əsərlər ətrafında doğan mövzular üzərinə yazılacaq və oxunacaq referatlar;

2) tələbələrin sərbəst mövzular üzərinə yazacaqları yazılar.

Öz əsərində bu nöqtəyə böyük bir bəhs təxsis etmiş olan Rıbnikova bu yazı işlərinin kiçik siniflərdə başlanıb, adət olduğu üzrə ikinci dərəcəli məktəbin siniflərinə buraxılmasını təklif və müdafiə edir.

Yazı işləri, əsərimizin birinci qismində də göstərildiyi kibi, başlıca üç dürlü ola bilər:

1) oxunan əsərin tələbə tərəfindən öz sözlərilə – xülasə, yaxud tövsiyə surətilə – ifadə edilməsi;

2) mənzum bir əsərin mənsur, mənsurun mənzum, hekayənin pyes, pyesin hekayəsi və ilaxirə şəklinə çevrilməsi;

3) tələbənin müəyyən məsələ və mövzu ətrafında öz fikirlərini təsbit edə bilməsi.

Bunlardan, şübhəsiz, üçüncü növə aid olanları daha ziyadə diqqətə layiqdir. Çünki bunlarda tələbə öz fikir və duyğularını, həyata öz baxışını, öz məntiqini meydana qoyur.

İmdiyə qədər ikinci dərəcəli məktəblərdə hakim olan adətə görə, müstəqil mövzular üzərinə yazı işləri daha ziyadə kiçik siniflərdə verildiyi halda, daha sonrakı siniflərdə yalnız klassik ədəbiyyatın mündəricəsindən alınan mövzular verilir. Bu üsulun qeyri-təbii və cansıxıcı olduğuna bir az təcrübəsi olan heç bir müəllim şübhə edə bilməz. Bu xüsusda rus ədəbiyyat müəllimlərinin ən təcrübəlilərindən birisi olan Rıbnikova bu sözləri yazır: "Əcəba, bizdən bu hadisənin

[171] С.Г.Гусев. Литературные суды и литературные собеседования (Изучение литературы в школе, стр. 106).

fərqinə varmayan tapılarmı? On iki-on dörd yaşlarında çocuq öz həyatından mükəmməl səhifələr yazır. Onun yazılarında nə qədər canlılıq müşahidə, təzəlik bulunur. Halbuki iş "Qoqolun Rusiyaya münasibəti..." kibi quru və boş mövzulara gəlir-gəlməz, bütün bu məziyyətlər birdən-birə qaib olur. Çünki belə canlı və çocuqlara daha yaxın mövzulardan yabançı, quru və basmaqəlib temalara birdən-birə sıçranılır, arada tədrici mərhələlərə riayət olunmur".[172]

Başlanğıc siniflərin tələbələrinə veriləcək mövzular və bunların üzərinə alınacaq sərbəst yazılar tələbələrin yaşlarına görə olmaq lazım gəlir. İləridə daha ciddi mövzulara keçildiyi zamanda müəllim tələbələrin yaş, mühit, arzu və istedadlarını hər zaman yoxlamalıdır. Yalnız bu yazıları toplayıb onlara nömrə qoymaq və qiymət verməklə də iş bitmir. Eyni zamanda tələbələrin ruhi və ədəbi inkişaflarına da xidmət etmək, bu inkişafın doğru və təbii yollarını təyin edərək, onlara görməni, eşitməni, əylənməni vəlhasil, duyğu və düşüncənin yüksəldilməsi, ilərilədilməsi çarələrini göstərmək lazımdır.

Bundan müəyyən qayda və qanunların, sistematik inkişafın lüzumsuzluğu çıxarılamaz. Biləks, bu sərbəst və tələbənin, nə şəkildə və nə dərəcədə olursa-olsun, öz yaradıcılığına dayanaraq yazdığı yazılar bu qaidəvi, planlı [iş] üçün hərəkət nöqtəsi xidmətini görə bilər.

"Referat" təbir olunan yazı və müsahibə işlərini hər sinifdə, hər yaşdakı tələbə ilə – təbii, geniş mənasında – götürmək mümkündür. Lakin ümumiyyətlə referatdan anladığımız məna və şəkildə daha ilərikı siniflərdə keçilə bilər.

Referat üsulu bizim türk-tatar məktəblərində ya heç işlənilmədiyi, yaxud çox nadir nümunə məktəblərində məlum olduğu üçün burada başqa xalqların məktəblərində tətbiq edilən ümumi şəkli ilə oxucumuzu tanış etməni faydalı görürük.

Adətən referat üçün mövzuları müəllim əvvəldən hazırlayır. Bu mövzular lüzumundan ziyadə də ola bilər və olmalıdır ki, tələbələr bunlar arasından istədiklərini seçə bilsinlər.[173] Mövzuların, daha doğrusu, referatların sırası və günü müəllim tərəfindən əvvəlcə xəbər verilir. Eyni zamanda hər referat üçün lazım olan, hər mövzuya aid ədəbiyyat müəllim tərəfindən tələbələrə bildirilir.

[172] Работа словесника в школе, стр.118.

[173] Referatlar haqqında baxınız: Технические приемы ведения рефератов (Изучение литературы в школе, стр. 109).

Mövzunu adətən iki tələbə alır. Bunlardan birisi məruzəçi – referent, digəri tənqidçi-opponent olur. Həm məruzəçi, həm tənqidçi əvvəldən müəllim tərəfindən verilən ədəbiyyat üzərində hazırlanmalı və müəllim referat almadan əvvəl hər ikisinin hazırlığını görməlidir. Tələbələr də bir-birinin işlərilə tanış ola bilərlər. Yəni məruzəçi tənqidçinin göstərəcəyi nöqsanlarla aşina olaraq əvvəldən cavablarını hazırlaya bilər. Təbii, burada hər şeydən ziyadə məruzəçi və tənqidçi rolunu alacaq tələbələrin istedad və təbiətini, sonra bütün sinfi göz önündə tutmalıdır. Bundan sonra referat oxunur. Tənqidçi öz fikrini bildirir. Nəhayət, məruzəçi ilə tənqidçi arasında müəyyən zaman içində münaqişəli məsələlər ətrafında fikir dəyişməyə (təateyi-əfkara) yol verildiyindən sonra dinləyicilərin fikirlərini anlamaq üçün sinfə müraciət olunur. Çox dəfə məktəblərdə və bilxassə türk-tatar məktəblərində tələbələr söz söyləmə xüsusunda qorxaq və möhtəriz olurlar. Bir az əvvəl "Söz böyüyün su kiçiyin!" atalar sözü bütün ailələrdə hökmünü icra edirdi. Söyləmək, ümumiyyətlə, böyük bir məziyyət sayılmazdı. Ailələrimizdə çocuqların söyləmə, fikir bildirmə yolundakı istedadlarını inkişaf etdirmək cəhətinə çox az əhəmiyyət verildiyi üçün bu xüsusda müvəffəqiyyət qazanmaq müəllim üçün çox güc olur. Təbii, tələbənin məktəbdə "lal və dilsiz" olmasının başqa, bəlkə, daha əhəmiyyətli bir səbəbi də var ki, o da tələbənin evində danışdığı, söylədiyi dil ilə məktəbdə müəllimdən eşitdiyi dil arasındakı fərq, digər tərəfdən, hər şeyin leksiya üzərinə qoyulmasıdır. Bizim məktəblərimizdə, mübaliğəsiz deyə bilərik ki, tələbələr ildə bir dəfə, yəni imtahan zamanında söylədilirlər. Daima müəllimin leksiyasını dinləyərək passiv bir vəziyyətdə qalmaq onlarda hər cür işləkliyi öldürür. Onları dinləməyə, etiraz etməməyə, fikrini gizləməyə alışmış adamlar yapar.

Həmin bunun üçün referat münaqişəyə qoyulduğu zaman bütün müzakirə müddətinin yalnız bir neçə açıqgöz, dilbaz tələbə tərəfindən işğal edilməsinə məhəl və imkan verməmək üçün hamı tələbələrin iştirakı təmin edilərək, bütün sinfin fəaliyyətinə gətirilməsinə çalışmalıdır.

Bütün tələbələrin yalnız bir məruzə ətrafında – sinfin böyüklüyünə görə – bir referat müddəti içində müzakirəyə iştirak etməsi qabil deyildir. Lakin bir-biri arxasından bir neçə referat oxunduğu zaman bunu təmin etmək olduqca asandır. Bunun üçün müəllim yalnız mərkəzi

rolda duran məruzəçi və tənqidçini deyil, bəlkə, bir referat ətrafında sinfinin göstərdiyi fəaliyyəti bütün müsbət və mənfi cəhətlərindən hesaba almalı və xüsusi xatirə, yaxud hesab dəftərinə qeyd etməlidir.

Məruzə, tənqid və münaqişələr bitdikdən sonra son sözü müəllim özünə ala bilər. Həmin bu son sözün çox böyük əhəmiyyəti vardır. Burada müəllim xəbəri olmadan çox böyük xətalar yapa bilər. Bizim gördüyümüz ümumi xətalardan başlıcası müəllimin hissi təqdir və yaxud tənqid yoluna düşməsidir. Bir çox müəllimlər yaxşı oxunmuş bir referat qarşısında – ümumiyyətlə başqa tələbə işləri xüsusunda da belə... afərin və təqdirlər yağdırdığı kibi, az-çox müvəffəqiyyətsiz təcrübələrə də çox zalım bir tənqidçi sifətilə baxmaqdadırlar. Ümumiyyətlə belə təqdir və tənqid ünsürlərini müəllim öz plan və hərəkətlərindən çıxarıb atmalıdır. Müəllim daha ziyadə izahçı, bildirici, düzəldici rollarilə iktifa etməlidir.

Başqa sözlərlə deyəcək olursaq, tələbəyə xəta etdiyini, yaxud müvəffəq olmadığını işarə etməklə iş bitməz və heç bir şey əldə edilməz. Daha ziyadə xətasının və müvəffəqiyyətinin səbəbləri haqqında məlumat almalı və düşünməlidir. Müəllimlər belə əməli işlər xüsusundakı təcrübələrilə gərək mətbuatda, gərəksə başqa qurultay, ittifaq... kibi təşkilat və müşavirə məclislərində mübadilədə bulunmalıdırlar. Nəzəri nöqtədən iş çox asan kibi görünürsə də, dərs planına soxulub məktəblərdə tətbiqinə keçildiyi zaman bir çox güclüklər, maneələr qarşıya çıxar ki, bunları ancaq əlbirliklə və cürbəcür mühitlərdə, cürbəcür şərtlər içərisində əldə edilmiş təcrübələrə dayanaraq ortadan qaldırmaq mümkündür.

Rus ədəbiyyat müəllimlərindən Krıjanovski bu xüsusdakı təcrübələrini və planını müfəssəl surətdə izah etməkdədir.[174] Ümumiyyətlə rus dili və ədəbiyyat müəllimlərinin öz təcrübə və əməli şəkillərini bildirmələri üçün gərək mətbuat və gərəksə təşkilat cəhətindən bir çox imkanlar yaradılmışdır ki, türk-tatar müəllimlərinin bunları nümunə almaları lazım və zəruridir.

Ədəbi dərnəklər. Bu gün hər məktəb hətta darülfünunun müəyyən fakültələri yanında ədəbi dərnəklər vardır. Min doqquz yüz on yeddinci ildən ədəbi qiymətlər və hadisələrin kütləvi bir əhəmiyyət qazanması yolunda işçi klubları, ittifaqları və yaşlılar məktəbləri

[174] А.С.Крыжановский. Технические приемы ведения рефератов (Изучение литературы в школе, стр. 109).

nəzdində təşkil edilən belə ədəbi dərnəklər çox böyük xidmət görmüşlərdir. Müəllim dərsini nə qədər hərfi və plan mövcibi götürürsə-götürsün, yenə hər il minlərcə yeni əsərlərlə artmaqda olan ədəbiyyat və ədəbi cərəyanları oxutmaqdan aciz qalır. Bunun üçün bir çox ədəbiyyat dərsi planı nöqteyi-nəzərindən ikinci dərəcədə qalan, lakin ədəbi həyatın tamamilə, heç olmazsa, əsas cəhətilə qavranması tərəfindən böyük əhəmiyyəti olan məsələlər kənarda qalır. Həmin bu məsələləri müəllim kəmali-cəsarətlə sinfin xaricinə çıxara bilər. Bundan başqa, imdiyə qədər bir neçə dəfələrlə qeyd etdiyimiz kibi, ədəbi həyat, bədii əsərlər insanı heç yormadan, biləks, həyəcan və iradəyə müsbət təsiri etibarilə çox böyük ləzzət və həvəslə öyrənilə biləcək, hər kəsi sevinə-sevinə məşğul edəcək mövzular verə bilər. Səyahətlərdə istirahət vaxtlarında, yorğun və böhranlı dəqiqələrdə insanın daima oxumaq istədiyi əsərlər bütün bədii-ədəbi şeylərdir.

Ədəbiyyat çocuqluq zamanlarından məzara qədər insanın əbədi yoldaşıdır. Çünki ədəbiyyatda yalnız quru zehni fəaliyyətin izləri, sərt məntiqi müadilələr deyil, eyni zamanda səmimi, insani həyat, həyəcan və həyəcanverici lövhələr, şəkillər vardır. Xəyali dəprədən, canlandıran hər şey insana zövq verir. Halbuki ədəbiyyat bunlar arasında mərkəzi mövqeyi işğal etməkdədir və bütün qalanları – kino, teatr və sairə... ilhamlarını, qüvvətlərini ədəbiyyatdan alırlar. Həmin bunun üçün ədəbi dərnəklər yalnız yorucu, tərlədici, cansıxıcı laboratorlar deyil, eyni zamanda nəcib və faydalı əyləncə və bədii zövq guşələridir.

Dərnəklər vasitəsilədir ki, ədəbiyyat eyni zamanda ictimai təşkilatçı rolunu qazanır. Bu məsələyə N.Yurski bütün bir kitab təxsis etdiyi kibi,[175] rus pedaqoqlarından bir çoxunun bu xüsusdakı təcrübə və mülahizələri bilxassə inqilabdan sonrakı pedaqoji nəşriyyatında peydərpey meydana çıxmaqdadır.[176] Bu surətlə ədəbi dərnəklər və onların idarəsi məsələsi rus ədəbiyyat tədrisi planında mühüm və üsuli bir maddə olaraq yer almaqdadır.

Belə ədəbi dərnəklərin özünəməxsus kütübxanası və bu kütübxananı lüzumlu əsərlərlə təmin etmək üçün tələbələrin özlərindən toplanmış az-çox mali fondu olmalıdır. Dərnəyin təbii rəhbəri ədəbiyyat

[175] Н.Юрский. Литература как фактор общественно-организационной работы, 1923.

[176] Bundan başqa, Rıbnikovanın adı bir neçə dəfə keçmiş əsərində, "Məktəbdə ana dili" məcmuəsinin müxtəlif nömrələrində, **"Изучение литературы в школе"** adındakı məcmuədə və başqa son zamanlarda nəşr edilən üsuli ədəbiyyatda bu xüsusa dair müfəssəl və konkret məlumat vardır.

müəllimidir. Lakin onun idarəsində tələbələr də iştirak edər, öz aralarından katib, kütübxanaçı seçərlər.

Ədəbi dərnəklərdə münaqişə və mübahisə mövzusu olan məsələlər az-çox sinifdəki dərs, yaxud referat mövzularından ayrılmalıdır. Burada tələbələrin səviyyə və yaşlarına görə daha ziyadə mühiti və əsri mövzulara daha ziyadə əhəmiyyət verilməlidir.

Rıbnikova belə ədəbi dərnəklərdə bütün müəllimlərin üzv olmasını da təklif edir ki, şübhəsiz, son dərəcə arzu olunacaq bir şeydir. Bu surətlə hər hansı bir məsələnin ətraflı surətdə tədqiq cəhəti daha çox təmin edilmiş olur. Eyni müəllifin fikrincə, ədəbi dərnəyin rəhbəri və yaxud rəisi müəllimlər içində ən ziyadə hörmətlisi və istedadlısı ola bilər. Hər mövzu ətrafında bir neçə məruzəçi bulunmalıdır. Eyni zamanda referat, yaxud məruzələr iclas və ictimaidən əvvəl tələbələrin, hətta məktəb içində hər kəsin məlumu olmalıdır. Mümkün olduğu təqdirdə ədəbi dərnəklərin ictimaidə bir neçə məktəb, bihəmei-hal bir neçə sinif toplanmalıdır. Tələbələri usandırmamaq üçün belə ictimailəri çox sıx çağırmaq doğru deyildir.

Ədəbi dərnəklərin fəaliyyətini yalnız fayda və öyrənmək üzərinə qurmaq təbii deyildir. Bu ictimailərdə faydalı ilə əyləncəlinin birləşdirilməsini bilməlidir.

Ədəbi axşamlar. Ədəbi ictimailərin əyləncəli olması üçün bu ictimailərə ədəbi axşam şəkli verməlidir. Bizim türk-tatar məktəblərində inqilabdan sonra belə axşamların tərtib və təşkili xüsusunda xeylicə təcrübə əldə edilmişdir. Hər hansı bir məlum şair və mühərririn doğması, ildönümü, yaxud ictimai bayramlar münasibətilə belə axşamlar tərtib edilməkdədir.[177]

Bundan başqa, ədəbi axşamlar məktəblər yanında müntəzəm, qeyri-müntəzəm təşkil olunmaqdadır. Bir çox məktəblərin bu iş üçün xüsusi səhnəsi, ictimai salonları da vardır.

Lakin bunlar bütün zahiri, xarici cəhətlərdir. Plan və təsir etibarilə deyə bilərik ki, bu axşamlar özlərindən gözlənən fayda və təsiri verə bilmirlər. Çünki heç bir məktəb planlı və üzvi surətdə bu ədəbi axşamları tərtibə yanaşmırlar. Belə axşamlar, bizim bildiyimizə görə, daha ziyadə tələbələrin öz təşəbbüsü və həvəsi ilə meydana çıxır və ədəbiyyat müəllimi bu axşamlara ancaq cəlb olunur, bəzən də tamamilə

[177] Məsələn, keçən il Bakıda Füzuli, Nəvai şərəfinə tərtib edilən axşamlar bu qəbildəndir.

kənarda qalır. Halbuki ədəbi axşamlara yalnız tələbə əyləncəsi kibi baxılmayıb, ədəbiyyat dərsi planına girən mühüm fəaliyyət şəkillərindən birisi nəzərilə baxılarsa, iş tamamilə başqa şəkil alır və ayrı yolda gedər.

Bunun üçün hər şeydən əvvəl bu axşamların tərtibində plan gözlənməlidir. Təhsil ilinin daha başında ədəbiyyat müəllimi, müəllimlər şurası, bütün tələbələr ədəbiyyat axşamlarının minimum sayını, başlıca mövzusunu, hətta mümkün isə zamanını bilməlidir. Tələbələrin rolları da tədrici surətdə istedad və arzularına görə paylanmalıdır.

Ədəbi axşamların bütün imdiyə qədər saydığımız ədəbi fəaliyyət şəkillərindən artıq bir məziyyəti və səciyyəvi cizgisi vardır. Bu axşamlarda ədəbiyyatın cürbəcür şəkilləri ilə tanış olmaq mümkün olduğu kibi, eyni zamanda müxtəlif bədii sənət növlərini də işə cəlb etmək, bu axşamın tərkibinə soxmaq qabildir. Teatro, deklamasion (inşad), xütbə... kibi müxtəlif ədəbi növlər yanında musiqi, dekorasion (nəqş), tans... kibi sənət növləri də ədəbi axşamın zəruri ünsürləridir. Ancaq bütün bu cəhətlər göz önündə tutularaq tərtib edilən ədəbi axşamlardan tələbənin ümumiyyətlə bədii, nəfis sənətlərlə olan aşinalığı, onlara marağı artar və bədii tərbiyə yüksəlir, zövqü incəlir, nəhayət, tənqid və təhlil qüvvəti, görgüsü genişlər. Bu sənət şöbələrinin yanında rəsm və təsvir işi də öz mövqeyini alır. Yalnız bütün bu şöbələr mərkəzi rol oynayan ədəbi fakt və yaxud hadisə ilə sıxı surətdə bağlı bulunmalıdır.

Bir çox ədəbi axşamların göstəriş, fayda və səthi təsir üzərinə qurulduğunu görürük. Bu kibi işlərdə ədəbiyyat dərsi planından, ədəbiyyat və sənət əsaslarının öyrənilməsindən hərəkət etmək şərtdir. Eyni zamanda bu axşamlardan sonra gərək doğrudan-doğruya, gərəksə bilvasitə müəyyən ictimai təsir qalmasına çalışmalıdır. Bu surətlə hər sinfin, yaxud hər məktəb qruppasının mövzuya görə ya birlikdə, yaxud ayrı-ayrı rolu ola bilər.

Digər tərəfdən, dil-ədəbiyyat müəllimi ictimaiyyat və rəsm, musiqi müəllimlərilə birlikdə hərəkət edərək, mövzularını bir arada təyin edərsə, təsir və nəticə əzəmi surətdə əldə edilə bilər. Hər halda ədəbi axşamlar ədəbiyyat və nəfis sənətlər tədrisinin mütəmməm, yardımçı şəkillərindən birisi kibi alınmaq lazım gəlir. Ədəbi həyatımızın hələ gərəyi kibi təqrir və təyin etmədiyi zamanda rus üsulçularının yapdığı kibi türk ədəbiyyatı müəlliminə bu xüsusda konkret planlar təqdim etməni imdilik imkansız və faydasız görürük. Bundan başqa, ədəbiyyat

dərsinin quruluşu məktəblərimizdə təyin etdikdən sonra ədəbi axşamlar üçün mövzu və şəkil seçmək olduqca asandır. Avropa əsasları üzərinə qurulmuş ədəbi həyatın bizdəki yeniliyi, ədəbiyyat məsələlərinin zamanımız türk-tatar xalqlarının mətbuat həyatından birinci mərtəbədə durması bu növ təşəbbüslərdə az qeyrətlə çox müvəffəqiyyət əldə etmək əsaslarını və amillərini verir.

Ədəbi sərgilər. Ədəbiyyat dərslərinin quru söz və hərf aləmindən, yalnız mücərrəd, xəyali kölgələr yığını olmaqdan çıxarıb, ona gözlə görülən, əl ilə tutulan cürbəcür şəkillər, boyalar verə biləcək tədbirlərdən birisi də ədəbiyyat sərgisidir. Sərgi **(выставка)** müəyyən zamanda bu mədəni və ictimai sahələrin müvəffəqiyyətlərinə yekun vurmaq üçün intixab edilən tədbirlərdən birisidir. Daha yeni zamanlarda kitab və ədəbiyyat sahələri üçün də tətbiq olunmaqdadır. Müəyyən fasilələri, aşağı-yuxarı cahan miqyasında kitab sərgiləri yapıldığı kibi, böyük şairlərin adlarına, yaxud müəyyən ədəbi dövrlərin hesabına belə müvəqqəti, yaxud daimi sərgilər meydana gətirilməkdədir.

Muzexanalar daimi sərgilər demək olduğu kibi, Avropa və Rusiyada Gete, Şiller, Çexov, Puşkin... kibi şair və ədiblərə məxsus "ev"lər vardır.

Türk-tatar məktəblərində öz xüsusi muzelərinə malik olanları hələ çox azdır. Sərgilər, bilxassə bizim burada bəhs mövzumuz olan ədəbi sərgilər hələ təcrübə belə edilməmişdir. Halbuki bizdə türk-tatar ədəbiyyatı sahəsində də belə sərgiləri asanlıqla tərtib və tənzim edə bilmək üçün çox-çox əsaslar və mövzular vardır.

Ədəbiyyat sərgiləri cürbəcür əsaslarda tərtib edilə bilər. Bir dövrün ədəbi fəaliyyətini, bədii yaradıcılığını, yaxud bir şairin ədəbi həyatını təsvir üçün qurulur. Burada ən asanı şair ətrafında çalışmaqdır və müəyyən şairin ətrafında dövrünü, mühitini vəlhasil, daha bir çox şeyləri tənvir etmək, işıqlandırmaq mümkündür. Burada belə nöqtələrə diqqət verilir: 1) şairin əlyazmaları, 2) (varsa) özünün yapdığı rəsmlər, 3) özünün, dostlarının, müasirlərinin rəsmləri, 4) şairin gəzdiyi, bulunduğu yerlərin xəritəsi, rəsmləri, 5) şairin əsərlərindən musiqiyə, notaya çəkilmişləri, 6) teatroda oynananları, 7) əsərlər üçün yapılan rəsmlər, 8) tələbələr tərəfindən bu əsərlər üçün rəsmlər (bəzi təsvirlərin, qəhrəmanların tərsimi), 9) şair, yaxud ədibin təsvirlərlə nəşr edilmiş əsərləri, 10) şair haqqındakı ədəbiyyat: tənqidlər, xatirələr və şərhlər, 11) mühərrir və yaxud şairin tərcümə edilmiş əsərləri, yaxud özünün yapdığı tərcümələr və əsilləri...

Bizdə şairlər, yaxud mühərrir və ədiblər haqqında bu qədər zəngin material tapmaq çətindir. Belə sərgilərdə bir neçə şairi ədəbi məsləklərinə, dövrlərinə və daha bunun kibi bəzi prinsiplərə görə birləşdirmək mümkündür. Bu təqdirdə bütün bir məslək və yaxud dövr gözümüz önündə canlana bilər. Bizdə on doqquzuncu əsrin sonlarından zamanımıza qədər gələn ədəbi simalar haqqında məktəblərimizdə çox naqis və qarışıq bir fikir vardır. Halbuki zamanımızın bütün mühüm ədəbi və hətta ictimai cərəyanları öz damarlarını bu zamanların müstəsna və başlanğıc mahiyyətdəki əsaslarından alırlar. Bu dövrün ədəbiyyatını keçən bir müəllim istədiyi təqdirdə ictimaiyyat, rəsm... müəllimləri və rəhbərlərilə birləşərək, hətta bulunduğu şəhərin muze, kütübxana və başqa ümumi ictimai müəssisələri ilə münasibətə girişərək, nə qədər mükəmməl və maraqlı bir sərgi meydana gətirə bilərdi. Başqa türk ölkələrinin ədəbiyyatını keçirkən eyni surətlə bu ölkədə yetişmiş şairlərin təbiət, qiyafət, iqlim və adətləri haqqında toplaya biləcəyi materialı da buna əlavə edərək, eyni zamanda ölkəşünaslıq və etnoqrafi sahələrinə də tələbələrini aşina edə bilərdi.

Bir neçə illər belə çalışıldığı təqdirdə məktəb yanında olduqca maraqlı və zəngin ədəbiyyat muzesi meydana gətirilə bilər ki, bunlara baxaraq, ilərdə eyni məsələlərlə məşğul olacaq tələbələr daha mükəmməllərini meydana gətirə bilərlər.

Eyni sərgiyə xalq şairlərinin əsərləri və bunların xarakteristikini təşkil edən şeylər də girə bilər.

Ədəbi gəzintilər. Ədəbi gəzintilər cürbəcür şəkildə, cürbəcür yerlərdə yapıla bilər. Bu xüsusda da rus müəllimləri və üsulçuları bilxassə inqilabdan sonrakı pedaqoji ədəbiyyatında bir çox şeylər yazmış və dürlü yollar göstərmişlərdir.[178] Onların bəhs etdikləri gəzintilər, şairlərin doğulduqları, yaşadıqları, yaxud əsərlərində təsvir etdikləri yerlərə yapılacaq gəzintilər, yaxud məzkur şairin əsərlərini ehtiva edən muze və yaxud xüsusi müəssisələrə yapılan ziyarətdir ki, bizim ədəbi həyatımıza bunun tətbiqi qabil deyildir. Çünki şair və mühərrirlərimizin nə həyatı, nə də əsərləri belə müəssisələrdə saxlanmış, toplanmış deyildir. Bundan başqa, təbii, müəyyən bir məhəlli Lermontovun Qafqazı, Puşkinin Baxçasarayı, Mitskeviçin Krımı təsvir etməsi kibi heç bir şairimiz

[178] Bu xüsusdakı bütün ədəbiyyat V.S.Qobonun **(В.С.Гобо) "Изучение литературы в школе"** məcmuəsindəki **"О литературно-эстетических экскурсиях"** adındakı məqaləsində zikr edilmişdir.

maraq ediləcək kibi təsvir etməmişdir. Təbiət və insan bizim ədəbiyyatımızda hələ gərəyi kibi duyulmamış və anlaşılmamışdır. Binaən əleyh tələbələri bu xüsuslarda havayı yormağa hacət olmasa gərəkdir.

Bununla bərabər, bu gəzintilər, ədəbi ekskursiyalar bizdə də yapıla bilər, lakin başqa məqsədlərlə və başqa şəkildə... Bizdə belə gəzintilər ölkəşünaslıq işlərilə bağlanmaq lazım gəlir. Gərək şəhər, gərək kənd ədəbiyyatına məxsus parçaları toplamaq üçün yapılacaq gəzintilər heç də maraqdan və faydadan xali deyildir.

Belə gəzintilər müəllimin ümumi rəhbərliyi altında qruplara bölünmüş tələbələr tərəfindən bilxassə tətil zamanlarında müvəffəqiyyətlə həyata keçirilə bilər. Bu növ gəzintiləri iki qismə ayırmalıdır: 1) xalq ədəbiyyatı parçaları toplamaq, 2) şəhər ədəbiyyatını tədqiq, təqib etmək.

Xalq ədəbiyyatından məqsədimiz bilxassə məktəbin və tələbələrin bulunduğu şəhərə aid mətbuatdır. Binaən əleyh xalq ədəbiyyatı həm şəhər, həm də kənd ədəbi həyatının şifahi və qeyri-mətbu qismini ehtiva edər.

Xalq ədəbiyyatını tələbələrə toplatmaqdan böyük elmi faydalar gözlənə bilməz. Lakin hər halda belə işlərlə məşğul olmaq sayəsində onların səviyyə və məlumatlarına görə yenə böyük faydalar əldə edilə bilər. Əvvəla, xalq ədəbiyyatını toplamaq onları belə işlərdə təcrübəli, diqqətli olmağa sövq edər. Bundan başqa, xalq ədəbiyyatına qarşı hörmətə və xalq kütlələrilə təmasa alışdırır. Nəhayət, özünün yaşadığı ölkəni tanıdar.

Belə işlərə sövq olunacaq tələbələrə yalnız bir taqım ümumi tövsiyələrdən ziyadə, konkret qaydalar, müntəzəm tərtib edilmiş anketalar verməlidir. Burada tələbələrin əvvəlcə toplanmış, başqaları tərəfindən tapılmış şeyləri tapacaqlarından qorxmamalıdır. Çünki eyni ədəbi parçanı iki ayrı bir zamanda bir halda tapmaq bir kərə qeyri-möhtəməldir; ikincisi, tələbənin özü üçün bunun çox o qədər əhəmiyyəti yoxdur. Çünki onun özü tərəfindən toplanan materiala maraq və məhəbbəti daha artıq olur. Bu xüsusda veriləcək düsturlar aşağı-yuxarı bu əsasları ehtiva etməlidir:

1) Hekayəçi, şərqiçi (xanəndə), şair tərəfindən necə söylənirsə, elə yazmalıdır. Nə sövti, nə şəkli, nə də nəhvi və üslubi cəhətindən bu adamların yanıldıqları, toplayanca, aşkar belə olsa, heç bir şey dəyişdirməməli. Yazarkən ərəb deyil, latın əlifbası işlətməli.

2) Şərqilər yazıldığı zaman onların notlarını da tərtib etmək artıq dərəcədə arzu olunur. Çünki musiqi parçalarının özbaşına haiz olduğu əhmiyyətdən başqa, toplanan lisanı materialın mahiyyət və tələffüz və ahəngini meydana çıxarmaq cəhətindən də əhəmiyyəti vardır.

3) Eyni parçanı bir neçə adamın ağzından yazmaqdan sakınmamalıdır. Çünki belə hallarda bir çox maraqlı fərqlər meydana çıxar.

4) Məhəlli sözlər və istilahlar yazıldığı zaman onlara verilən izahatı da bərabər qeyd etməlidir.

5) Sözlərin qaba, incə, əxlaqa uyğun olub-olmamağına baxmamalıdır.

6) Oyun və əyləncələri bütün təfərrüatilə qeyd etməlidir.

7) Hər yazılan şeyin yanında, kimdən yazılmış isə, onun adı, familiyası, yaşı, sənəti və yazılan yerin təsviri bulunmalıdır.

8) Alqış (dua), qarğış (bəd dua), tilsim kibi şeylər yazıldıqda bunların nə zaman, necə işləndikləri olduqca müfəssəl surətdə qeyd edilməlidir.

Tədqiq ediləcək ədəbiyyat növünə rayona – məhəllə görə bu əsaslara daha bir çox şeylər əlavə etmək mümkündür.

İmdi şəhər ədəbiyyat və mətbuatına gələcək olursaq, burada yapılacaq iş daha çox, daha maraqlı və faydalıdır. Türk-tatar şəhərlərindən bir çoxunda bu gün böyük-kiçik mətbəə və nəşriyyat vardır. Hər şəhərdə gözə çarpan-çarpmayan bir çox şair, mühərrir və müxbirlər bulunur. Şəhər adsız və ağız ədəbiyyatı da buna əlavə olunursa, bu xüsusdakı vəzifələrin genişliyi haqqında bir fikir edilmək qabil olur.

Türk-tatar ədəbiyyatının müxtəlif zamanlarda mühüm beşiklərindən olan şəhərlərdə belə işlər yapılmadığından buralarda şəhər ədəbiyyat və mətbuat aləmi haqqında tam və doğru bir fikir edinmək çox çətin olur. İsmail Qasprinskinin on doqquzuncu əsrin yarılarından min doqquz yüz on dördüncü illərə qədər mühüm ədəbi və mədəni fəaliyyətinə mərkəz xidmətini görən Bağçasarayda, yaxud iyirminci əsrin başlarından zamanımıza qədər kumuk ədəbi və mədəni həyatının mərkəzi olan Teymurxanşurada (Buynakski), eyni surətlə bir çox nəşriyyatı və mədəni müəssisələri ilə çoxdan bəlli bir mövqe qazanmış olan Bakıda ağıllı-başlı müəyyən bir müəssisə, yaxud məhəllədə üsul dairəsində toplanmış material tapmaq qabil deyildir. Halbuki gərək ədəbiyyat və gərəksə mədəniyyət tariximiz üçün belə materialların fövqəladə böyük əhəmiyyəti vardır.

Ruslardan belə şeylərə daha ziyadə əhəmiyyət verilməklə bərabər, imdiyə qədər yapılan işləri onlar da kafi saymırlar.

Professor N.N.Fatov[179] bu xüsusda yazdığı məqaləsində ictimaiyyatçı, ədəbiyyatçıların nəzər-diqqətini cəlb etməkdədir. Professor Fatov məqaləsini bu sözlərlə başlayır: "Ədəbiyyatın və ədəbiyyat tarixinin tədqiqi həm sinfi, həm coğrafi cəhətdən daima açıq surətdə mərkəzilik və aristokratlıq cizgisində yürümək günahını irtikab etdi".

Daima şah əsərləri və hakim sinfin, yaxud paytaxtların ədəbi məhsullarını təftiş etdilər. Bizdə də müəyyən ədəbi mərkəzlərdən, yaxud klassik şairlərdən son zamanlara qədər uzağa keçəmədilər. Artıq zamanımızda – bilxassə yuxarıdakı bəhslərimizdən sonra – bunun yanlışlığını uzun-uzadı mövzui-bəhs etməyə hacət yoxdur. Bu gün cürbəcür ədəbi əsər və hadisəyə əhəmiyyət vermək gərək müxtəlif topraqlar üzərində doğan, gərəksə müxtəlif siniflər və ictimai təbəqələrə aid ədəbiyyatın müsavi surətdə tədqiqi lazım gəldiyini hər kəs təslim edər.

Məsələ bu növ məhəlli (provinsial) ədəbiyyatı nə surətlə tədqiq etmək lazım gəldiyi üzərindədir. Bu hadisələri təsvir etmək, təsnif etmək, hesaba almaq bu xüsusda görüləcək hazırlıq işlərin əsasıdır.

Məktəblərimizdə bu xüsusda götürüləcək işləri bu əsaslara bina etməlidir:

1) Əvvəla, məhəlli şairlər, mühərrirlər, ədiblər haqqında material toplamalıdır. Bu surətlə toplanacaq gərək bioqrafi, gərəksə ədəbi material bir araya yığılaraq bir mühərrirlər qamusu meydana gətirilə bilər.

2) İkinci dərəcədə məhəlli mətbuat haqqında məlumat toplamalı və mümkün olduğu təqdirdə bu kibi nəşriyyatın kolleksionunu tərtibə çalışmalıdır.

3) Məktəbin bulunduğu şəhər və yaxud rayondakı teatro həyatına, yaxud teatro həvəskarları təşkilatlarına ayrıca əhəmiyyət verməlidir.

İnqilabdan sonra həman bütün rayonlarda, şəhərlərdə teatro dərnəkləri, səhnə həvəskarları tərəfindən təşkil olunan truppalar vardır. Bunların fəaliyyəti – müvəffəqiyyətləri, təsirləri, içlərindəki nadir istedadları, hətta dağılmaları etibarilə – çox artıq maraqlıdır. Teatro həyatını təqib edib onun cürbəcür cəhətləri haqqında yuxarıda söylədiyimiz şəkillərdən – ədəbi axşam, sərgi, referat... – birisində hesab vermək və

[179] Проф. Н.Н.Фатов. О краеведческом изучении истории литературы (Родной язык в школе, №9, стр. 21-26).

bu yolda birikmiş materialı məktəbin muze, kütübxana, kabinetlərində saxlamaq, əlbəttə, fayda və maraqdan xali deyildir.

Yalnız ədəbi sahədə deyil, maarif və mədəniyyət sahəsində də məktəb tələbələri özləri üçün çox zəngin və maraqlı tədqiq sahələri tapa bilərlər. Hər şəhər və rayonda bir çox ədəbi, elmi, ictimai müəssisələr az-çox uzun ömürlə parlayıb-sönərlər. Bunlar adətən heç kimsənin nəzər-diqqətini cəlb etməz, unudulub gedərlər. Halbuki belə təşkilat və müəssisələrin hər halda məmləkət və xalq içində müəyyən təsiri mühəqqəq qalır. Bunlardan, məsələn, bizdə min doqquz yüz beşinci ildən alaraq inqilaba qədər göbələk kibi çoxalan cəmiyyəti-xeyriyyə və nəşri-maarif cəmiyyətlərini alalım. Bunların fəaliyyət tarixçəsi heç kimsənin nəzər-diqqətini cəlb etmədiyi üçün beş-on il əvvəlki mədəni və ictimai həyatımızın materialları bizim üçün artıq yarıyarıya qaib olub getmişdir. Halbuki on beş-iyirmi il və bəlkə, bəzi ölkələr üçün daha uzun bir zaman içində mədəni-ictimai həyatımızın yeganə deyiləcək təşkilat və amilləri bunlar olmuşdur. Bu gün də bir çox yerlərdə belə ədəbiyyat, arxeoloji, hətta təbiət, kimya, elektrik-radio maraqlılarının təşkilatları qurulmaqdadır. Bunları hələ gec deyil ikən tədqiq etməli və hesaba almalıdır. Təbii, belə işləri başqa müəssisələr də yapa bilər. Lakin daimi və üsuli surətdə məşğul olmaq üçün ən əlverişli təşkilat bu xüsusda məktəblər və məktəblərin ictimaiyyat və ədəbiyyat dərnəkləridir.

Bütün bu məsələləri gəzintilərlə bağlamamız bu kibi tədqiqlərin başlıca şəklinə işarət etməkdir. Məktəblər ədəbiyyat və ictimaiyyat müəllimlərinin rəhbərliyi altında belə təşkilatları, şəhərdə bulunan mətbəə və qəzetəxanaları gəzməli, burada aldıqları intibaları sonra dönüb məktəbdə öz aralarında paylaşmalı, müəyyən sistem və qərar altına almalıdırlar. Təbii, bu növ gəzintilər yalnız məktəbin bulunduğu şəhərə məxsus qalmayıb, başqa, müəyyən ədəbi-ictimai və mədəni nöqteyi-nəzərlərdən əhəmiyyətli və maraqlı şəhər və məhəllərə də tə'mim oluna bilər.

Başqa üsullar. Buraya qədər bəhs etdiyimiz tədris yollarından başqa, bir taqım tədrisi və üsuli tədbirlər daha vardır. Zatən yaxşı hazırlanmış bir müəllimin bütün üsullarını nəzəri bir surətdə əvvəldən hazırlayıb vermək qabil deyildir. Hər müəllim öz zövq və təcrübəsinə görə müşkül vəziyyətlərdən çıxmaq üçün cürbəcür çarə və tədbirlər tapa bilər.

Bu növdən olaraq rus müəllimlərinin cürbəcür məktəblərdə tətbiq etdikləri üsullar və tədbirlər arasında bir çoxları diqqətəlayiqdir ki, əsərimizdə bunların cümləsini toplamaq, əks etdirmək qabil deyildir. Məsələn, rus pedaqoqlarından Zolotaryov statistik və qrafikin ədəbiyyat tədqiqlərində işlənilməsini təklif[180] etdiyi kibi, digər bir pedaqoq, Yakovlev ədəbiyyat tədrisində "leksiya-təhlil-tərkib üsulu"[181] adını verdiyi olduqca qarışıq bir tərkib təklif etməkdədir.

Yakovlev bütün ədəbiyyat dərsini dörd qismə ayırmaqdadır:

1) dərsdən məqsəd,

2) mövzunun parçalarını mündəricə və ideolojiyə görə ayırmaq,

3) təbliğ **(передача)** üsulu,

4) bənimsəmə üsulu.

Bunları müəllim təhlil və tərkib üsulu ilə oxutmalıdır. Eyni zamanda tələbələrin özləri də sərbəst surətdə dərsin hazırlanması işində iştirak etməlidir. Hər mühazirə, hər mövzu ayrı-ayrı parçalara bölünərək dərsdən əvvəl tələbələrə imla (diktə) etdirilir.

Digər bir müəllim L.P.Boqoyavlenski[182] tələbələrin məlumat və səviyyələrini yoxlamaqda yardımçı olaraq, anket üsulunu iləri sürür. Müəyyən suala müxtəlif tələbələr, yaxud siniflər tərəfindən veriləcək cavablar bizi bir çox maraqlı və qiymətli nəticələrə gətirə bilər. Belə anketalar tələbələrə verilməsi adət olan mövzulardan və yazı işlərindən ziyadə nəticə verə bilər.

Boqoyavlenskinin nümunə olaraq gətirdiyi sual cədvəli bu şəkildədir:

1) Adı, ailə adı, familiyası.

2) Özünüzün yazdığınız bir şey varmı? Nədir?

3) Hansı şərtlər daxilində siz mövzunuzu daha doğru, daha həqiqi surətdə işləyə bilirsiniz?

4) Hansı şərtlər mövcud olduğu təqdirdə mühərrir, yaxud ədib həyatı həqiqi surətdə, olduğu kibi təsvir edə bilər?

5) Nə kibi əsərlər oxudunuz?

6) Hər cür ədəbi əsərin mündəricəsi nədən ibarətdir?

---

[180] С.А.Золотарев. Статистика и графика в изучении и преподовании литературы (Родной язык, №1, отд. 7).

[181] М.И.Яковлев. Лекционный аналитико-синтетический метод преподавания литературы (там же, стр. 130).

[182] Л.П.Богоявленский. Метод анкеты в занятиях, литературное и коллективное сочинение в условиях лабораторной системы (Родной язык, №8, стр. 145).

7) Cürbəcür yerlərdən, cəmiyyətlərdən, siniflərdən, ailələrdən olan və yaşları başqa-başqa adamların hekayələrində nə görünür?

8) Kəndli, mülkədar, işçi, burjua... mühərrirlər öz əsərlərində necə görünürlər?

9) Mühərririn mühiti onun əsərlərindəki dilinə və mündəricə[yə] necə təsir edir?

10) Heç olmazsa, iki misalla ədəbi əsərin dil və mündəricə cəhətindən cəmiyyət və həyatın dəyişməsi ilə dəyişdiyini isbata çalışın!

11) Sizin yaşadığınız zamanın və cəmiyyətin ədəbiyyatı necə olmalıdır?

12) İmdiyə qədər verdiyiniz cavablara dayanaraq ədəbiyyatın ayrı-ayrı əsərlərin yekunu və ictimai hadisə sifəti ilə tərifini verin!

13) İki əsər tapın və bu əsərlər vasitəsilə mühərrirlərin ictimai vəziyyətini təyin etməyə çalışın!

14) "Ədəbiyyatın inkişafı" və "ədəbiyyat tarixi" təbirlərini izah edin![183]

Boqoyavlenski bu üsullara müxtəlif sinif tələbələrindən aldığı cavabları da məqaləsinə dərc etmişdir. Bu cavablar gözdən keçirildiyi zaman belə anketlərin qayət maraqlı nəticələr verəcəyini görmək mümkündür.

Oxucu bu bəhsdə, buraya qədər söylədiklərimizdən laborator üsulunun vahid və kateqorik, qəti doqmalardan deyil, bəlkə, bir tərəfdən, təcrübə ilə tapılmış, faydalı olduğu anlaşılmış tədbirlər, digər tərəfdən, ədəbiyyatın mahiyyətindən və tədqiq üsullarından çıxan əsaslar üzərinə qurulmuş və bir çox ünsürlərin ahəngdar tərkibindən ibarət olduğunu anlasa gərəkdir. Bunun üçün ədəbiyyat müəllimləri yalnız quru metodika – üsuli-tədrisin özbaşına alındığı zaman bir taqım quru əxlaqi tövsiyələrdən, mücərrəd mülahizələrdən ibarət dar çərçivəsi içərisinə qapanmayaraq, eyni zamanda mövzu və dərslərinin üsuli-tədqiqinə və başqa məsləkdaşlarının bu xüsusdakı təcrübələrinə gərəyi kibi aşina olmalıdırlar.

Əsərimizdə bir neçə dəfə adı keçən Yakovlevin bu fikirləri, rus müəllimləri üçün olduğu kibi, türk-tatar ədəbiyyatçıları üçün də olduqca faydalıdır: "Ədəbiyyat tədrisində daima iki tərəfi xatirdə tutmalıdır: Birincisi mövzunun metodolojisi (üsuli-tədqiqi), ikincisi metodikası

[183] Л.П.Богоявленский. Метод анкеты в занятиях, литературное и коллективное сочинение в условиях лабораторной системы (Родной язык, №8, стр. 145-147).

(üsuli-tədrisi). Biz burada ikincisi ilə məşğuluq, lakin birincisinə aid məsələlər də az əhəmiyyətli deyildir. Çünki metodikanın mündəricə və yolları da metodolojinin nəticələrinə bağlıdır".[184]

Əsasən Avropa ədəbiyyatında bu iki cəhəti bir-birindən ayıranlara çox az təsadüf edilir. Məsələn, Lion Darülfünunu professorlarından F.Kollar **(F.Collard)** üsuli-tədrisin ən bəsit məsələlərindən üsuli-tədqiqin prinsip məsələlərinə qədər ehtiva edən aşağı-yuxarı beş yüz səhifəlik əsərini bu surətlə tərtib etmişdir.[185]

Nəticə olaraq bunu deməliyik ki, məktəbdə tələbələrin sərbəst ədəbi və bədii inkişaflarını, ədəbiyyatın ictimai və xüsusi bütün vəziyyətlərini meydana qoyan hər üsul müəllimin əmrinə hazır olmalıdır və müəllim çox yaxşı bilməlidir ki, şagirdləri və mühitinin səviyyəsinə görə çözülməyən heç bir üsul, nəzəri cəhətdən nə qədər mükəmməl olursa olsun, onun işinə yaramaz.

Bu nöqteyi-nəzərdən Yakovlevin: "Laborator üsulu yox, bəlkə, bir çox üsulların tərkibindən ibarət olan laborator planı var!" – deməsi, şübhəsiz, çox doğrudur.

[184] М.И.Яковлев. Нет лабораторного метода (Родной язык в школе, №8).

[185] F.Collard. Metodologie de lensei gnementmoyen. Bruxelles, 1911.

ƏDƏBİ ƏSƏRLƏRİN TƏHLİL VƏ TƏNQİDİ

İdeoloji cəhətdən təhlil. Mühərrir – oxucu – münəqqid. Ədəbi mühit. Əcnəbi təsirlər. Üslub cəhətindən təhlil. Əməli dil, bədii dil. Bədii dilin təhlili

Ədəbi-bədii hadisələr də elmə mövzu olan başqa hadisələr kibi təhlil edilmək lazımdır. Təhlil süzgəcindən keçirilmədikcə ədəbi və bədii əsərləri tamamilə anlamaq, bilxassə onun doğuşunda rol oynayan amilləri qavramaq qabil olamaz. Tərkibi-sintetik tədqiqinə hər halda təhlili-analitik tədqiq təqəddüm etməlidir. Bir ədəbi əsəri, eyni surətlə bir dövrü, yaxud cərəyan və məktəbi başlıca ideoloji, sinif, üslub, şəkil, mündəricə, təşkil (kompozision), dil cəhətindən təhlil etmək mümkündür.

İdeoloji və sinif cəhətindən təhlil. İdeoloji cəhətindən əsərləri təhlil etdiyimiz zaman hər şeydən əvvəl ictimai vicdanın ictimai məişət ilə təyin etdiyini xatırlamaq icab edər. Bu fikirdə olan adam üçün açıqdır ki, Plexanovun dediyi kibi, hər cür ideoloji, binaən əleyh sənət və nəfis ədəbiyyat, daima müəyyən cəmiyyətin və əgər bu cəmiyyət siniflərə bölünmüş isə, ictimai sinfin bir zamandakı arzu və meyillərinin ifadəsidir. Plexanov deyir: "Hegel məktəbinə mənsub idealist tənqidçilər və bunlar arasında bizim dahi tənqidçimiz Belinski deyirlərdi ki, fəlsəfi (elmi) tənqidin vəzifəsi sənətkarın öz əsərində ifadə etdiyi fikri, "sənət dili"ndən fəlsəfə dilinə, şəkillər, surətlər dilindən məntiqi dilə çevirməkdir. Materialist dünyaya baxışın tərəfdarı olaraq mən deyirəm ki, tənqidçinin birinci işi sənət əsərinin ifadə etdiyi fikri sənət dilindən ictimaiyyat dilinə çevirməkdir. Bu surətlə bu ədəbi hadisənin ictimai qarşılığını tapmaq qabildir.

Materialist tənqidin ikinci işi, ikinci vəzifəsi idealist tənqidçilərdə olduğu kibi, təhlil mövzusu olan əsərin bədii qiymətini verməkdir. Birinci iş əməliyyə (yəni əsərin, yaxud hadisənin ictimai qiymətini tapmaq) ikincisini (yəni bədii qiyməti tapmağı) heç bir surətlə gərəksiz, artıq yapmaz, biləks, zəruri bir əlavə olaraq onu icab etdirir".[186]

Plexanovun bu sözlərini hər ədəbi təhlildə tətbiq etmək, təhlil olunan ədəbi əsərin mahiyyətini tamamilə qavraya bilmək üçün şərtdir.

[186] Г.В.Плеханов. За 20 лет (Предисловие).

Ədəbi təhlilin yalnız estetik, şəkli, bədii cəhətlər üzərinə qurulması doğru olmadığı kibi, ictimai cəhətlərin tədqiqindən o yana keçə bilməməsi də kafi deyildir.

Bizdə ədəbi əsərlərin estetik, bədii cəhətlərdən tədqiqi üzərində az-çox çalışılmış isə də, ictimai cəhətdən təhlil və tədqiq üsullarını ancaq zamanımızın bəzi nadir tarixçiləri işlədə bilməkdədirlər. Çünki bu cəhəti meydana çıxartmaq, anlamaq asan deyildir.

Mühərrirlərin sinfi mənsubiyyətini təyin etmək çox gücdür. Mühərrirlərin çoxusu "intelligent" olur.

Lunaçarski yoldaşın bu xüsusda bu mühakimələri diqqətəlayiqdir: "İntelligensiya nədir? Mənşəyi etibarilə, böyük əksəriyyətilə intelligensiya kiçik burjuaziyadır. İntelligensiya kəndli və işçilərdən çıxa bilər. Bəzən pomeşçiklərdən (mülkədarlardan) da çıxır, lakin əsas kütləsi meşçan – kiçik burjua sinfindəndir. Başqa siniflərdən çıxsa belə, intelligent sonra professional ideoloq olur və bu etibarla kiçik burjua sinfinin müməssili olur. Ayaqqabıçı ayaqqabı qayırır, intelligent – ziyalı isə ideyalar, fikirlər meydana gətirir. Qalayçı samovarları qalaylayır, intelligent isə surətləri süsləyir və bunları öz həyəcanları və duyğuları ilə işləyir.

Təbii, intelligent bütün bu şeyləri sifarişə (zakaza), bazara görə qayırır. Bazarda ən qüvvətli sinif hökm etdiyi üçün intelligent, hər zaman olmasa da, çox dəfə bu sinfin nüfuz və təsiri altına düşür. Burjuazi feodalizmaya qarşı üsyan etdiyi zaman, intelligent arada sallanır, ona burjuazi sinfi təsir yapmağa başlayır. Belə zamanlarda bəzən intelligensiya (ziyalı təbəqəsi) ikiyə ayrılır. Bəzən, biləks, burjua sinfinə mənsub olduğu halda, əski nizami-ictimaini, monarşini müdafiəyə çalışır. Bütün bunlardan çıxan nəticə budur ki, sənətkarı sinfi mənşəyinə görə almaq olmaz. Daha ziyadə onun davada bulunan siniflərlə nə kibi rabitədə bulunduğunu araşdırmaq lazım gəlir... Çünki intelligensiya ideoloqlar qruppası sifətilə daima hər hansı bir sinfə bağlı bulunur".[187]

Fridrix Engels intelligensiya haqqında belə deyir: "Yalnız üzvi işlə **(физ. работа)** məşğul olan böyük əksəriyyət yanında doğrudan-doğruya istehsali işlərdən azad və ictimai ümuru idarə edən sinif meydana

[187] Луначарский. Социальные основы искусства. Маркс. Метод исследования и т.д., стр. 66.

gəlir. Bu sinif dövlət idarəsi, ədliyyə, elm və nəfis sənət işlərilə məşğul bulunur".[188]

Eyni surətlə Karl Kautski də: "İntelligensiya üçün başlıca və əsas məşğuliyyət zehni fəaliyyət olur. İntelligensiya deyilən xalq öz bilgi və istedadını işlədərək həyatını qazanır",[189] – fikrini bəyan edir.

Professor Sakulin çox doğru olaraq: "İnsani inkişafın ən birinci mərtəbələrində ictimai ümumi işlərin təşkil və idarəsi üçün ehtiyac doğur. Bunun üçün də təşkilat istedadı, iradə qüvvətinə və bilgiyə sahib insanlar lazım olur",[190] – deyir.

Bununla bərabər, intelligensiya ancaq təqsimi-ə'mal – iş bölümü meydana çıxdıqdan, yəni siniflər təşkil etməyə başladıqdan sonra özünü göstərir. N.Buxarin yazır ki: "İş bölümünün yüksəlməsi istehsal qüvvətlərinin yüksəlməsini icab etdirir. Həmin bunun üçün istehsal qüvvətlərinin yüksəlməsi, artmasilə, maddi istehsal ilə ideoloji işinin ayrılmasını görürük. Bu sonuncusu – ideoloji işi də öz sırasında daxili ayırmalara uğrayır".[191]

V.V.Vorovski[192] intelligensiyanı mənşə və inkişaf etibarilə bu iki nöqtədə tərifləyir: 1) İntelligensiya bir bütün olaraq cürbəcür ictimai siniflərin müməssillərindən mürəkkəb olur. 2) Xidmət və meyil etdikləri siniflərin mənfəətləri birləşdiyi dərəcədə intelligensiya da birləşir.

Professor Sakulincə isə, sinfi vəziyyətinə görə intelligensiya iki bölük (kateqori) olur:

1) sinfi intelligensiya, 2) sinifsizlənmiş **(деклассированный)**, yaxud siniflər arasında qalmış sərbəst intelligensiya.[193]

Bütün bu fikirlər bizim şair, ədib, qəzetəçi, mühərrir... sifətilə meydana atılan intelligentlərimiz haqqında da doğrudur. Bizdə dini reforma dövründə, intelligensiyamızın bir qismində əski feodalizm əsaslarının, digər bir qismində isə yeni doğulmaqda olan məhəlli burjuazinin təsirini görürük. Bununla bərabər, Türkiyədən Orta Asiyaya qədər bizim əski və yeni intelligensiyamız başlıca kəndli və kiçik əsnaf

[188] Ф.Энгельс. Развитие социализма от утопии к науке, 1923, стр. 38 (перевод В.Засулича).

[189] Карл Каутский. Интеллигенция и пролетариат, 1905, стр. 14-15 (перевод М.Левина).

[190] Соц. метод. в литературоведении, стр. 71.

[191] Н.Бухарин. Теория исторического материализма, стр. 251.

[192] В.В.Воровский. Интеллигенция. Русская литература, 1923 г., стр.159.

[193] Соц. метод и т.д., стр. 72. İntelligensiya məsələsi haqqında biblioqrafi materiala baxınız. Sakulinin bu əsərində, səh. 207-212.

təbəqələrindən törəyir. Lakin Türkiyə və başqa türk-tatar ölkələrinin tarixində çox gözəl gördüyümüz kibi, bu kəndli və əsnaf çocuqları cürbəcür zamanlarda cürbəcür siniflərin xidmətçisi ola gəlmişlər. Həmin bunun üçün türk-tatar şair və mühərrirlərinin sinfi mənsubiyyətlərindən ziyadə, sinfi əlaqələrini, yəni hansı sinifdən – kəndli, burjua, bəy, kiçik burjua – çıxdıqlarından ziyadə, hansı sinfə xidmət etdiklərini nəzəri-etibara almaq lazım gəlir. Bununla bərabər, mühərriri bir fotoqraf aparatı və ədəbi əsəri də fotoqrafla çəkilmiş bir rəsm, portret kibi təsəvvür etmək heç də doğru deyildir.

Hər şair mənsub olduğu, daha doğrusu, meyil etdiyi cəmiyyəti təmsil etməklə bərabər, eyni zamanda özünü, öz şəxsiyyətini də göstərir. Burada yenə Plexanov deyir: "Böyük şair ictimai inkişafda böyük bir addım təmsil edə bilməsi ilə böyükdür. Lakin bu addımı ifadə və təmsil etməklə bərabər, o şair fərd **(индивидуум)**, şəxsiyyət olmaqdan çıxmaz. Onun səciyyə və həyatında bir çox elə cizgilər vardır ki, bunların tarixi fəaliyyət ilə heç də münasibəti yoxdur. Bu tarixi fəaliyyət üzərinə onun bu növ şəxsi, fərdi cizgiləri zərrə qədər təsir edəməzlər. Lakin eyni zamanda mühərririn şəxsiyyətində elə cizgilər də bulunur ki, tarixi inkişaf və fəaliyyətin ümumi xarakteristikasını dəyişdirməməklə bərabər, ona şəxsi bir rəng və mahiyyət bəxş edər. Həmin bu növ şəxsi cizgilər müəllifin şəxsi həyatının və fərdi səciyyəsinin müfəssəl surətdə tədqiq və təhlilini mümkün, hətta zəruri qılar.

"Empirik tənqid" namı verilən təhlil üsulilə həmin bu cəhətlər tədqiq edilirdi. Münəqqid Belinski də həmin bunlara qarşı çıxışda bulunmuşdu. Halbuki belə təhlil üsulunu yalnız bütün bir ədəbi hadisə və yaxud əsəri izah davasına qalxışdığı zaman tənqid etmək lazımdır. Lakin şəxsiyyəti ancaq əsərin mahiyyətini izah xatiri üçün təhlil və tədqiq etdiyi zaman bu üsul həm maraqlı, həm də faydalıdır".[194]

Ədəbi əsərin şəxsi mahiyyətini öyrənmək işində bioqrafçı ədəbiyyat tarixçilərinin topladığı material və məlumatdan faydalanmaq tamamilə mümkündür və lazımdır. Kimin əsərini oxuduğumuzu bilmədikcə o əsər haqqındakı təsəvvür və mühakimələrimiz ətraflı və düzgün olamaz.

Lakin mühərririn bioqrafisində ən ziyadə əhəmiyyət veriləcək cəhətlər, yuxarıda qeyd edib keçdiyimiz kibi, bir taqım xronolojik

[194] Г.Плеханов. Литературные взгляды Белинского (литература и критика), стр. 155-215.

vəq'ələr – məsələn, onun məmuriyyəti, sənəti, izdivacı... deyil, daha ziyadə ideolojisinin, bədii və ədəbi fikir və məfhumlarının necə və haradan gəldiyini bizə açıqca göstərəcək vəsiqələrdir. Daha doğrusu, mühərririn ədəbi həyatı nəzəri-etibara alınmalıdır. Bizə mühərririn bioqrafisi, təbii, ədəbi hadisə və yaxud əsəri izah etmək üçün lazımdır. Burada yalnız mühərrirlə iktifa etmək olmaz. Eyni zamanda mühərririn mənsub olduğu mühiti-ədəbinin, onun oxucularının tədqiqi də zəruridir.

Mühərririn mənsub olduğu ədəbi mühiti nədir? Böyük-kiçik bir çox mühərrirlərin təşkil etdiyi qruppalardır. Burada böyük-kiçik, əhəmiyyətli-əhəmiyyətsiz məşhur-biliksiz... kibi ayırmalar vücuda gətirmək faydasız və əsassızdır. Yalnız bütün mühərrirlər qruppası nəzəri-etibara alındığı zaman tədqiq mövzusu olan mühərririn həyat və siması anlaşıla bilər.

Burada bəhs etdiyimiz mühərrirlər qruppasına əsas etibarilə bir dildə yazan, bir mühitdə yetişən, bir cür ədəbi ənənələrə tabe olan, bir sözlə, eyni tarixi mənşəyinə sahib mühərrirlər girir. Bir türk-tatar mühərririni aldığımız zaman onun mühiti-ədəbisindəki digər mühərrirlər də bütün türk-tatar mühərrirləridir. Lakin bu qədəri kafi deyildir. Böyük-kiçik heç bir mühərrir yoxdur ki, bilərək-bilməyərək əcnəbi ədəbiyyatların, əcnəbi mühərrirlərin təsiri altında az-çox bulunmasın.

Əski türk-tatar ədəbiyyatı haqqında artıq bu cəhət olduqca qəti və açıq bir surətdə təyin etmişdir. Gərək Orta Asiya, gərək Anadolu, Azərbaycan, Volqaboyu türk-tatar ədəbiyyatının on doqquzuncu əsrdən əvvəlki vəziyyətindən ciddi və səlahiyyətli surətdə bəhs edə bilmək üçün daima fars və ərəb ədəbiyyatlarının, yəni şairlərinin türk-tatar şairləri üzərinə təsirlərini hesaba almaq, hətta bir çox məsələlərdə bu ədəbiyyatlardan hərəkət etmək lazımdır. Əski Şərq üsulundakı ədiblərimizdən heç birisi yoxdur ki, ərəb və fars şüərası arasında bir ustad və yaxud müəllim malik olmasın. Bundan başqa, bu növ tədqiqlərin digər cəhəti də tərcümə ədəbiyyatı təşkil edər. Əski zamanlarda belə bir ədəbi əsərin bir neçə dilə çevrildiyini bilirik. Məşhur "Kəlilə və Dimnə" ki bir çox Asiya və Avropa dillərinə tərcümə edilmişdir. Bibliya və nəhayət, əməvilər, abbasilər zamanında ərəbcəyə və oradan parça-parça başqa bir çox dillərə tərcümə edilmiş əski qrek fəlsəfi əsərləri buna misal ola bilər. Ərəb və fars dillərindən də eyni surətlə bir çox əsərlər dilimizə keçirilmişdir.

On doqquzuncu əsrin başlarından zamanımıza qədər Avropa ədəbiyyatının təsiri, məlum olduğu üzrə, ziyadələşməyə başlamış və bu əsrin sonlarına doğru bir çox yerlərdə, əsrimizdə isə həman hər yerdə türk-tatar şairləri çox qüvvətli surətdə Avropa təsirləri altına düşmüşdür. Bu zamanın şairlərini Avropa ədəbiyyatından aldıqları təsirlərdən ayıraraq tədqiq etmək qabil olamaz. Bunun üçün də müəyyən bir zamanın ədəbi mühitini tədqiq etdiyimiz zaman bu mühitdə təsir edən Avropa ədəbiyyatını, bundan bu zamanda dilimizə keçirilən tərcümə ədəbiyyatını da nəzəri-etibara almaq lazımdır. Burada türk tarixçisinin qarşısına çox geniş və olduqca maraqlı bir meydan çıxar. İşini buraya gətirdiyi vaxt türk ədəbiyyatı tarixçisi öz işini cahan ədəbiyyatı sahəsinə köçürmüş və öz şairini beynəlmiləl ədəbi bazarın həssas tərəzisinə yerləşdirmiş olur. Lakin, məəttəəssüf, belə tədqiqlər indiyə qədər nə Avropa türkoloqları, nə də öz ədəbiyyat tarixçilərimiz tərəfindən yapılmış deyildir.

Xülasə, tərcümə və əcnəbi ədəbiyyatlarını nəzəri-etibara almadan ədəbi mühit haqqındakı tədqiqimiz doğru və tam bir şəkil qazanamaz. Eyni surətlə şairimizin əcnəbi ədəbi cərəyanlar və bunların müəssilləri ilə olan münasibətləri də bioqrafi nöqteyi-nəzərindən fövqəladə faydalı və maraqlı bir tədqiq sahəsi meydana gətirir.

Bundan sonra əsərin ideoloji və sinfi cəhətdən tədqiqi işində qarşımıza çıxacaq növbəti məsələ mühərrir və yaxud şairin oxucuları məsələsidir. Buraya qədər söylədiklərimiz ədəbi əsərin doğuşuna qədər olan məsələlərə aid idi. Halbuki hər ədəbi əsər meydana gəldikdən sonra onun özünəməxsus bir həyatı başlar ki, əsil məsələ bu həyatı təqib edə bilməkdir. Bəzi qüvvətli ədəbi əsərlərin öz təsirlərini bir neçə əsrlik müddət içərisində davam etdirdiyini bilirik.

Oxucu əsərə bir növ doğmadan əvvəl də təsir edir. Mühərrir əsərini yazarkən əsərini oxuyacaqları göz önündə tutur. Necə ki, çəkməçi ayaqqabını ölçü-biçi və material cəhətindən müştərilərini düşünərək meydana gətirir. Rus simvolistlərindən Vyaçeslav İvanov: "Oxucu simvolistlər olmasa, yazıçı simvolistlər olmazdı", – deyir ki, çox doğrudur.

Sakulin: "Oxucu məsələsi həm ədəbi, həm də ictimai nöqteyi-nəzərdən birinci dərəcə əhəmiyyəti, haizdir",[195] – deyir. Eyni zamanda

[195] Синтетическое построение истории литературы, стр. 29-30.

professor Beletski: "Ədəbiyyat tarixi yalnız mühərrirlərin tarixi deyil, eyni zamanda oxucular tarixidir",[196] – fikrini irəli sürür.

Bizdə on üçüncü-on beşinci əsrlərdə təkyələr yüzlərcə, minlərcə dərvişlərlə dolu olmasa idi, heç aşıq ədəbiyyatı doğa bilirdimi? Eyni surətlə Avropa şəklindəki əsərlər də ancaq Avropa təhsili alan oxucularımız yetişmədən meydana gələmədi.

Bu gün birisi qalxıb da on üçüncü-on beşinci əsr biçimində və ruhunda bir şey yazsa, şübhəsiz, Avropa məna və şəklində ədəbiyyata malik türk-tatar ölkələrində özünə oxucu tapamazdı. Burada bir neçə söz də ədəbi tənqid haqqında söyləməliyik. Oxucu müəyyən dərəcədə tənqidçi olur. Binaən əleyh "ədəbi tənqid ədəbiyyatın mütəmməm bir parçasıdır",[197] – deyən Sakulin, əlbəttə, isbat edir. Bunun üçün əsərin tarixi, oxucunun səciyyə və mahiyyəti tədqiq olunurkən eyni zamanda bu əsər haqqında zamanında meydana çıxan tənqidlər də oxunmalıdır. Bu tənqidlərə də ədəbi əsərin mütəmməmi, üzvi bir parçası olaraq ədəbiyyat tarixlərində lazım gələn yer verilməlidir.

Ədəbiyyatda bu surətlə dörd əsaslı ünsür tapırıq: ədəbiyyatı doğuran, oxuyan, tənqid edən və nəhayət, ideoloji cəhətindən – şəkil və mündəricəcə, onu tənvir edən. Yəni qarşımızda müəyyən ədəbi dövrdə dörd sima durur: mühərrir, oxucu, münəqqid və ədəbiyyat nəzəriyyəçisi, yaxud tarixçisi.

Ədəbiyyat tarixçisi bütün bu simaları görmədikcə, bütün bu cəhətləri nəzəri-etibara almadıqca, müəyyən dövrün ədəbi həyatını qavramaq onun üçün qeyri-qabil olur.

Burada ədəbi tənqid məsələsini bir-iki sözlə daha ziyadə ifadə etmək lazım gəlir. Türk-tatar ədəbiyyatı indiyə qədər, mübaliğəsiz deyə bilərik, heç bir dövrdə və heç bir ölkədə, məsələn, Jül Lümetr, yaxud Belinski, Plexanov əyarında bir ədəbi münəqqid yetişdirəməmişdir. Bir taqım hissi və yaxud ümumi mühakimələr, şübhəsiz, ciddi tənqid sırasına keçirilməz. Belə tənqid, bizim fikrimizcə, ancaq Avropa və rus tənqid əsasları gərəyi kibi bizdə də məlum olduqdan sonra başlaya bilər. Yuxarıda Plexanovun tənqidçi üçün irəli sürdüyü iki əsası – əsərin 1) ideoloji, 2) estetik cəhətdən təhlili – ilə oxucumuzu tanış etmişdik. Rusca bilən oxucumuz tənqidin ideolojik əsaslarını, üsullarını

[196] А.И.Белецкий. Об одной из очередных задач истории литературной науки, 1922 (Наука на Украине, №2, стр. 94).

[197] Синтетическое построение и т.д., стр. 30.

öyrənmək üçün Plexanovun əsərlərinə müraciət etmək məcburiyyətində olduğu kibi, estetik əsasları da [öyrənmək üçün] digər rus tənqidçisi Belinskinin əsərlərini tanımaq lazım gəlir.[198] Bu sonuncunun əsərləri yerinə, bir az sonra daha müfəssəl surətdə göstərəcəyimiz kibi, bugünkü estetik elminin biolojik, ictimai və şəkli qanunlarından faydalanmaq daha ziyadə faydalı ola bilər. Tənqidçi yalnız əsər, ədəbi həyat və mühərrirlə iktifa edəməz. Eyni zamanda əsərin mühitində yapdığı təsiri də tədqiq etməyə, ölçməyə borcludur.

Sənət, ümumiyyətlə ədəbiyyat xüsusilə oxucuların üzərinə çox böyük təsirlər[199] yapır. Getenin Verteri "verterizm" deyilən bir növ ruhi xəstəlik törədir. Russonun arxasından "russoizm", Bayronun arxasında "bayronizm" deyilən ədəbi və ruhi cərəyan doğur.

"Yeni Osmanlı ədəbiyyatı tarixi" müəllifləri əsərlərində çox doğru olaraq Cəlaləddin Rumidən Ziya paşa, Namiq Kamal, Xalid Ziyaya qədər bir çox Şərq və türk şairlərinin, mühərrirlərinin də öz dar, yaxud geniş mühitlərində eyni surətlə müxtəlif ruhi və ədəbi cərəyanlar doğurduqlarını işarət edirlər.[200] Bunu da söyləmək lazım gəlir ki, ədəbiyyat yalnız öz zamanına, öz cəmiyyətinə və əsrinə təsir etməklə qalmır. Elə ədəbi əsərlər var ki, təsiri əsrlərlə davam edir. Marksın qrek ədəbiyyatı haqqında göstərdiyi kibi,[201] elə ədəbi əsərlər, dövrlər də var ki, onların təsiri daimi olur.

Bu xüsusda Lunaçarski bu sözləri yazır: "Sonrakı nəsil ruhunun inkişafı, yəni tədaisinin **(ассоциация)** zənginləşməsi, qiymətvermə prinsiplərinin təyin olunması, tarixi fikir və duyğularının artması ilə yavaş-yavaş hər cür sənətdən ləzzət almağa alışır və öyrənir. Div miqyasındakı hind məbədləri, əzici və açıq rəngli Misir ehramları, ellinlərin (qrek) zarafatı, qotik üslubunun ekstazları ona da anlayışlı

[198] Tənqid məsələsi haqqında bizdə çox az şey yazıldığını söyləməyə belə hacət yoxdur. Bunun üçün oxucuya bu əsərlərə müraciət etdiyi təqdirdə əsri tənqidin elmi və ümumi əsasları haqqında daha müfəssəl məlumat ala biləcəyini söyləmək məcburiyyətindəyik: yalnız Qalimcan İbrahimovun "Proletariat ədəbiyyatı tövründə" (1924, Moskva) əsərini unutmamalı. Г.В.Плеханов. Литература и критика. Сборник статей, т. 1, 1923 г., 372 стр.; Л.Тротский. Литература и революция. Москва, 1923 г., 393 стр.; Франц Меринг. Мировая литература и пролетариат, 1925 г., 360 стр.; Г.Лелевич. О принципах Маркс. лит. критики, 1925 г., 102 стр.; А.Машкин. Пути марксистской лит. критики, 1925, 48 стр.

[199] Соц. метод и т.д., стр. 166.

[200] Yeni Osmanlı ədəbiyyatı, səh. 54-55.

[201] Маркс. К критике политической экономии, М., 1923, стр. 34.

və qiymətli görünür. Çünki yeni adama, cahan adamına **(всечеловеку)** heç bir şey yabançı, uzaq deyildir. Tədailərindən birisini zəiflədərək, digər bir qismini qüvvətləndirərək o, ruhunun dərinliklərindən hindlinin, misirlinin həyəcanını doğurur və beləliklə onları, keçmiş xalqları anlayır. İnanmadığı halda, çocuqların, yəni çocuq dövründəki xalqların dualarını ilə maraqlanır, heç qan istəmədiyi, sevmədiyi halda, Aşilin hədsiz hiddəti, "Faust"un dibsiz fəlsəfəsi, fars, xəfif məşrəb operet onu ilgiləndirə, maraqlandıra bilər. Təbii, belə hər xalqın, hər dövrün sənətini duymaq, bunlarla maraqlanmaq bizim özümüzdəki bədii yaradıcılıq qüvvətini öldürə bilər, bizi ekletik (seçməçi), təqlidçi yapa bilər, lakin bu hal yalnız bizdə öz təşkilatçı qüvvətimiz, öz idealımız olmadığı təqdirdə vüqua gələ bilər".[202]

Bütün insanlarda, demək olar ki, bir-birinin ədəbiyyatından, sənətindən anlamaq, zövq almaq istedad və qabiliyyəti bulunur. Həmin bunun üçün ədəbiyyat tarixçisi olduğu kibi, ədəbiyyat tənqidçisi də öz ədəbiyyatını başqa xalqların ədəbiyyatı ilə, heç olmazsa, tənqid üçün aldığı əsər və mühərriri başqa əsər və mühərrirlərlə müqayisə etməsini bilməlidir.

Əsərin mündəricə və şəkil cəhətindən təhlili. İmdiyə qədər bir neçə kərə qeyd etdiyimiz kibi, şəkil ilə mündəricəni bir-birindən ayrı təsəvvür etmək qabil deyildir. Şəkillə mündəricə bir şeyin iki cəbhəsidir. Bununla bərabər, həm şəkli və həm də mündəricəni tədqiq, təhlil etmədən ədəbi-bədii əsərin tamamilə künhünə çatmaq qabil deyildir. Ədəbiyyatın özünəməxsus qanunları vardır. Lunaçarski yuxarıda bəhs etdiyimiz əsərində[203] bu sözləri yazır: "Sənətin özünəməxsus inkişaf qanunları yoxdur, – demək səthilik olurdu. Suyun axmasını onun yatağı və kənarları təyin edir. O su gah ölü hovuz şəklində sərilir, gah sakin-sakin axır, gah gurlayır, köpüklənir, daşlı yerlərdən keçərkən şəlalələr, çağlayanlar meydana gətirir, sağa-sola dönür, bəzən arxaya çevrilir. Hər kəsə bəlli ki, irmağın axışı xarici şərtlərin dəmir qüvvətindəki qanunlar ilə təyin edir. Bununla bərabər, onun (axışın) mahiyyəti daha ziyadə hidrodinamika qanunları ilə izah oluna bilər. Biz bu qanunları yalnız xarici şərtlərlə tanış olmaqla deyil, bəlkə, suyun özü və xassələri ilə tanış olmaq sayəsində anlaya bilərik. Eynilə belə sənət də bütün təzahürlərində, mühərrirlərin tabe olduğu qanunlara

[202] А.Луначарский. Основы позитивной эстетики, 1905 г. (С.П.Б., стр.179).
[203] Литературная энциклопедия, т. II, стр. 867-870, М.-Ленгр., 1925.

tabe olmaqla bərabər, inkişafında eyni zamanda özünün daxili qanunlarına da bağlı bulunur".

Ona görə təhlil işində qarşımıza çıxan ən mühüm məsələlərdən birisi, bəlkə, başlıcası bu daxili qanunları kəşf edə bilməkdir. Bu məqsədə doğru gedərkən əvvələn üslub məsələsinə rast gəlirik.

"Üslub" nə deməkdir? Bunun qarşılığı olan **"стиль"** sözü əski qreklərdə yazı yazmaq üçün işlənilən çubuğun adı idi. Bunun üçün Horas "stili çoxca çevir" nəsihətini verir. Yəni "yazdıqlarını diqqətlə təshih et", – demək olur. Daha sonrakı zamanlarda **"стиль"** sözü tamamilə başqa məna qazandı.

İmdi bu söz altında ümumiyyətlə bu, yaxud digər sənətkar əsərinə əsliyyət, xarakter verən təsviri ünsürlərin yekununu, heyəti-məcmuəsini anlayırlar. Hətta buna yaxın mənada olaraq, bütün bir dövrün, müəyyən sənət məktəbinin üslubundan bəhs edirlər. Nəfis sənətlərin həman hər şöbəsində işlədilən bu söz daha ziyadə ədəbiyyatda rəvac tapmışdır. Üslubu əsərin yalnız zahiri əlamətləri olaraq almaq icab etməz. Üslub həm mündəricədə, həm də şəkildə özünü göstərir. Nə söyləmək və necə söyləmək məsələləri bir-birindən ayrılamaz. Öz fikir və duyğusuna sahib olamayan mühərririn üslubu da olmur. Müəllifi hər şeydən ziyadə onun üslubu göstərir.

Fransız ədəbiyyat nəzəriyyəçilərindən Buffon **(Buffon)**: "Üslub insanın şəxsiyyətini təşkil edir", – demişdir.

Üslub məsələsini həmin bunun üçün bədii, yaxud ədəbi əsərin texniki cəhətlərilə qarışdırmamaq icab edər. Texniki cəhətlər başqa miqyaslarla ölçülmək və öyrənilmək lazım gəldiyi kibi, üslub məsələsi də ayrı bir yanaşma, ayrı bir baxış istər. Ədəbiyyatın yeni dövrəsində biz artıq "klassisizm", "sentimentalizm", "romantizm", "bədii realizm", "naturalizm", "simvolizm" kibi ədəbi məktəb və cərəyanların, dolayısilə üslubların ayrıldığını görürük. İctimai mahiyyətdə amillərin təsiri altında meydana çıxan ayırıcı sifətlərlə (övsafi-müməyyizə) bu məktəblərin xüsusiləşdiyini görürük.

Bütün bu üslublar müəyyən ictimai amillərin təsiri altında doğmaqla bərabər, müəyyən ədəbi fakturaların, səbəblərin də təsirinə qapılır və bu sonuncuların hasil etdiyi ədəbi mühitin inkişafı ilə bu üslublar da öz yolunda inkişaf edir. Hər iki üslub özündən əvvəlki üslubla bağlı bulunur. Daha ziyadəsi, o əski üslubdan müəyyən inkişaf yolilə doğur. Burada əvvəlcə saydığımız ədəbi məktəblərin nə surətlə, haradan, nə vaxt çıxdıqlarını mövzui-bəhs edəməyəcəyiz. Bu

məsələdə xətalar yapmaq, hər hansı bir ədəbi üslubun mənşə və mahiyyətini az-çox yanlış surətdə təyin etmək hər zaman mümkündür. Lakin bu buraya qədər söylədiyimiz ümumi nöqtələrin yanlışlığını, yaxud əsassızlığını heç bir cürə icab etdirməz.

Bundan başqa, ədəbiyyat tarixçisi, eyni surətlə müəllimi bir çox üslubların bir zamanda, bir dövrdə və bir yerdə yaşaya bilmədiyini də gözdən qaçırmamaq icab edər. Cəmiyyət müxtəlif siniflərdən ibarət olduğu təqdirdə, hər təbəqənin özünəməxsus üsluba malik olması çox təbiidir. Xalq şairi ilə paytaxt şairinin, köylü şairi ilə burjuaziya şairinin üslubları, əlbəttə, bir olmaz. Eyni surətlə bu siniflərin, bu təbəqələrin doğulduğu məktəblərin üslubu.

Ayrı-ayrı şairlərin üslublarını aldığımız zaman burada bunların əsərlərini bəsit ünsürlərinə irca etmək, ayırmaq lazımdır. Məsələn, mündəricə cəhətindən əsərin nə kibi ruhi (psixolojik) parçalardan birləşib xarakterlər meydana gətirdiyi və bu xarakterlərin öz aralarındakı bağları meydana çıxarılmalıdır. Təbii, ədəbiyyat tədqiqçisi bütün bu nəticələri mücərrəd və yuxarıdan-aşağıya doğru deyil, bəlkə, biləks, ədəbi əsərin konkret cəhətindən və olduqca bəsit cüzlərindən başlayaraq tədrici surətdə əldə etməyə çalışmalıdır.

Belə təhlil əsərin ümumi şəklinə olduğu kibi, bu şəklin səs, söz, surət, sözün tərkibi **(композиция)** və əsərin tərtibi kibi cüzlərinə dərin və daimi diqqət istər.

Bu bəhsimizi bitirməzdən əvvəl ədəbiyyatçının bütün bu ünsürləri tədqiq edərkən nələri göz önündə bulundurmaq, hansı qaydalar və qanunlarla əməl etmək məcburiyyətində bulunduğunu görək.

Yuxarı bəhslərimizin birisində ("Ədəbiyyatın tərbiyəvi əhəmiyyəti") demişdik ki, şair də başqa zehni işçilər kibi, bəsitdən mürəkkəbə doğru gedir. Əvvəla, ünsürləri taparaq bunlardan tərkiblər meydana gətirir. Yəni öz işində istiqra, induksiya üsulunu tətbiq edir.

Əcəba, bu cüzlər, ədəbi əsərin bəsit ünsürləri nədir? Ovsyanniko-Kulikovski bu xüsusda belə deyir: "Şair fərdi təsəvvürlərdən, yaxud surətlərdən tipə, tipdən ideyaya doğru gedir".[204]

Bizim, doğrusu, tam qarşılığını tapa bilmədiyimizdən gah "şəkil", gah "təsvir", gah "surət"[205] deyə tərcümə etdiyimiz **(образ)** nədir?

[204] Овсянико-Куликовский. Изучение литературы в школе, стр. 74.

[205] Bu sözü Abdurrəhman Sədi "sret - surət" deyə tərcümə edir (Əməli, həm nəzəri ədəbiyyat dərsləri. Abdurrəhman Sədi, Daşkənd, 1925, səh. 66-74; Osmanlı-türk ədəbiyyatında çox dəfə "lövhə" və "təsəvvür" sözlərinə rast gəlirik).

Bədii surətin mahiyyətini təyin məsələsi ən qarışıq məsələlərdən birisidir.

Surəti hər şeydən əvvəl, məktəblərdə öyrətdikləri kibi, yalnız basrəvi bir hadisə saymaq yanlışdır. Halbuki surətlərdə həm ləmsi, həm basrəvi, həm də sameəvi olanlarına rast gəlirik.[206] Burada surətləri öyrənirkən bu nöqtəni də xatirdən çıxarmamaq lazım gəlir ki, o da bədii surətlərlə təbii lövhələr arasındakı fərqdir. Şeirdə ən birinci məsələ əşyanı, təbii lövhələri surətlərə çevirməkdir. Ədəbiyyat tarixçisinin ən mühüm işi də bu surətlərin təbiət və mahiyyətini, bir-birlərinə bağlanış qanunlarını tapıb çıxarmaqdır.

Surətləri tapdıqdan, onların bir-birlərinə nə tərzdə bağlandıqlarını təsbit, təyin etdikdən sonra məsələ əsərin təsvir etdiyi tipi tapıb çıxarmaqdır. "Tip" sözü qrekcə "topos" sözündən nəş'ət etmişdir ki, birinci mənası "zərbə-uruş" və bu uruşdan "qan, iz, tamğa" deməkdir.[207] Aristot bu sözü öz əsərlərində "ümumi təsəvvür" **(общее представление)** mənasında işlədirdi. Bu gün artıq başqa bir çoxlarında görülən cizgi və sifətləri havi olan əşya və yaxud hadisənin adı olaraq işlənir. Belinski bunun üçün deyirdi ki, sənətin vəzifəsi həqiqi həyatdan aldığı materialı ümumiyə, cinsə və tipə qədər götürə bilməkdir. Alman şairi Gete eyni surətlə şairi "öz materialını, təsadüfi və parça-parça topladığı ünsürləri ümumi və bədii şəklə qoyuncaya qədər işləyən adam" olaraq təsəvvür edirdi.

Bununla bərabər, bədii əsərlə elmi əsərin ümumi, tipik ünsürləri bir-birinə qarışdırılmamalıdır. Bədii-ədəbi əsərlərin ümumisi, elmin mücərrəd ümumi qanunları, riyaziyyatın mütəarifələri kibi deyildir. Ədəbiyyatda fərdi ilə ümumi bir-birinə müəyyən və yalnız bədii sənətlərə məxsus bir daxili ahəng ilə [...] bağlanmışdır. Ədəbiyyat dərslərində, ədəbi tədqiqlərdə bu xüsusi ilə ümumini, bunlar arasındakı bağı tapmaq ən mühüm işlərdən birisidir.

Surət və tipi biz ədəbi əsərdə ancaq lisani xüsusiyyətlərin təhlili bənimsənməsilə əldə edə bilərik. Burada əməli dil ilə bədii dil[208] arasındakı fərqləri və müşabehətləri gözdən qaçırmamaq icab edər.

[206] Лит. энциклопедия. Слово "образ". Eyni surətlə Pereverzevin bu xüsusda "Печать и революция" məcmuəsinin ikinci kitabı 61-ci səhifəsindəki məqaləsi maraqlıdır.

[207] Лит. энциклопедия, стр. 951-958.

[208] Б.Томашевский. Теория литературы. Ленинград, 1925, стр.9.

Əməli dildə əsas sözlər vasitəsilə fikirləri, duyğuları başqasına bildirməkdir. Burada norma hacət qarşımızdakına anlaşıla bilməkdir. Sözləri seçməmiz keyfi, təsadüfi və müvəqqəti olur. Əgər fikri hərəkət və yaxud sima əlamətləri (mimika) ilə anlatmaq qabil isə, biz söz yerinə elə hərəkətləri də işlədə bilərik.

Bədii əsərdəki sözün mövqeyi və əhəmiyyəti tamamilə başqadır. Bu növ əsərlərdə sözləri seçmək, bir-birinə bağlamaq və tərtib etməkdə ayrı bir diqqət, ayrı bir ehtimal və qayğı gözə çarpar. Burada ifadəyə əməli dildə olduğundan çox ziyadə əhəmiyyət verilir. İfadə **(expression)** bədii əsərlərdə mərkəzi bir mövqe tutur. Lakin bədii dilin ayrıca cizgisini yalnız ifadədə toplamaq da yanlışdır. Burada sözlərin birbirinə bağlılığı, tərkibin tamamlığı da hesaba alınmalıdır. Digər tərəfdən, bədii dil ilə bədii əsərlərin dili eyni şey deyildir. Biz çox dəfə bədii surətdə, yəni daha ziyadə dilimizdəki ifadəyə dayanaraq söyləyə bilərik. Demək ki, bədii dil ədəbi əsərlərin çərçivəsindən xaricdə də mövcud ola bilər və belə sahələrdə də tədqiq edilə bilər. Yalnız bədii dili bütün konkret və sabit bir şəkildə ancaq ədəbi əsərlərdə görə bilərik. Bədii əsərlərin dili ilə hansı elmin – lisaniyyat kibi, ədəbiyyat nəzəriyyatı kibi – məşğul olacağı imdiyə qədər gərəyi kibi aydın ola bilməmişdir. Bədii dilin xüsusiyyətlərini tədqiq edən ədəbiyyat sahəsinə "üslubiyyat" təbir olunurdu. Lakin ədəbiyyat nəzəriyyələrinin tarixi-ədəbiyyat dərslərindən ayrılmaması üsulu qəbul edildikdən sonra bu yük də ədəbiyyat müəllimi üzərinə yüklənmiş olur.

Bədii dilin tədqiqatında qarşımıza başlıca üç məsələ çıxır: ədəbi lüğət, ədəbi nəhv, ədəbi sövtiyyat.

Bunlardan birinci qismə, yəni ədəbi lüğət şöbəsinə iki böyük məsələ – sözlərin seçilməsi və söz mənalarının dəyişməsi girər. Bunlardan birinci məsələni çözə bilmək üçün ədəbi lüğətdə bu ünsürləri araşdırmalıdır: barbarizm **(варваризм)**, dialektizm **(диалектизм)**, arxaizm **(архаизм)**, neologizm **(неологизм)**, prozaizm **(прозаизм)**.

Barbarizm başqa əcnəbi dillərdən söz alınmasına deyilir. Bu xüsusda bizim ədəbi əsərlərimiz həm Qərbdən, həm də Şərqdən aldığı sözlərlə çox zəngindir. Belə sözlər iki cür olur. Ya öz şəkillərini və tələffüzlərini mühafizə edirlər, yaxud girdikləri dilin sərfi şəkillərini alırlar. Ədəbi əsərlərimizdə bunların hər ikisinə də misal istənildiyi qədər vardır.

Dialektizm eyni dilin şivələrindən ədəbi dilə soxulan sözlərdir ki, bu cəhətdən zamanımızdakı ədəbi əsərlərdə tədqiqə möhtac bir

çox nöqtələr tapırıq. Bilxassə həman bütün ölkələrdə ədəbiyyatımız canlı şivələr üzərinə qurulduğu və qomşu şivələrdə yazan şairlərin bir-birindən daimi surətdə iqtibaslarda bulunduğu bu dövrdə ədəbiyyat müəllimi ədəbi əsərlərimizdə belə xüsusiyyətləri, şivə əlamətlərini tələbələrilə birlikdə çox asan tədqiq edə bilər.

Arxaizm əskimiş, əməldən qalmış sözlərin əsri ədəbi dildə işlənməsi deməkdir. İyirminci əsrin başlarına doğru getdiyimiz təqdirdə həman hər türk ədəbi əsərində bir çox sözlər tapırıq ki, bu gün artıq bunlar istemaldan çıxmışlardır.

Neologizm imdiyə qədər dildə olmadığı halda, şair, yaxud mühərrir tərəfindən uydurulan sözlərə deyilir. Bilxassə ədəbi dilin yeni təşəkkül etdiyi zamanlarda, bizdə olduğu kibi, belə yeni sözlərə istənildiyi qədər təsadüf olunur. Bununla bərabər, gözə görünən hər şairdə az-çox belə yeni sözlərə rast gəlirik. Bu sözlərin bəziləri unudulub gedər, bəziləri də dildə özünə yer qazanaraq təbii sözlər kibi işlənməyə başlar. Son iyirmi beş il zərfində ərəb, fars və türk-tatar əsaslarında, bilxassə Şuralar İttifaqı türk-tatarları arasında belə sözyapıcılıq çox ziyadə təəmmüm etmişdir. Hər cümhuriyyətdə çalışmaqda olan istilah komissionlarının fəaliyyəti nəticəsində müəyyən faiz belə yeni sözlər daimi surətdə törəməkdədir.

Nəhayət, prozaizmə gələcək olursaq, bu da yalnız nəsrdə işlədilən sözləri şeirdə işlətməkdir.

Həmin bütün bu cəhətlər tədqiq edildiyi təqdirdə şairin öz dilini hansı mənbələrdən aldığı və hansı ünsürlərdən tərkib və tərtib etdiyi aşkar olur.

Ədəbi lüğət tədqiqində diqqət ediləcək yalnız şairin sözləri nə surətlə seçdiyi deyildir. Eyni surətlə bu sözlərə nə kibi mənalar verdiyi də tədqiq ediləcək cəhətlərdəndir. Birinci qisim tədqiqlər (barbarizm, arxaizm... və ilax.) bizim əski ədəbiyyat nəzəriyyatına aid dərsliklərimizdə tamamilə yoxdur, lakin məna tədqiqləri əski məktəblərimizdə olduqca məlumdur. Hətta bir çox sərf və nəhv kitablarımızda belə təşbeh, istiarə, cinas... kibi məsələlər girmişdir.

Onun üçün bu xüsusda oxucumuza ziyadə məlumat verməni artıq bilirik. Yalnız bu növ tədqiqlərdə tamamilə Avropa ədəbiyyat nəzəriyyələrini və daha yaxşılarını tapmadığı təqdirdə, Avropa terminlərini, istilahlarını əsas olaraq almasını tövsiyə edirik.

Ədəbi nəhv məsələsi də ədəbi əsərin təhlilində böyük və əhəmiyyətli bir mövqe tutur. Burada başlıca üç nöqtə alınmalıdır: 1) adi dildə

alışmadığımız söz rabitələri, 2) qeyri-təbii söz tərtibi, 3) nəhvi təşkilin adi nizamını pozmaq və bu surətlə cümləyə yeni bir məna ətf etmək.

Ümumiyyətlə, bədii dil ilə əməli və adi dil arasındakı fərq hər kəsə bəllidir. Lakin belə əczalarına ayrılaraq təhlil edildiyi təqdirdə hər əsli ədəbi əsərin az-çox xüsusi bir sima və şəkli olduğu meydana çıxar.

Bədii sövtiyyat **(эвфония)** məsələsinə gələcək olursaq, bu bəhsin Avropa üsul və tərzində nə dərsliklərimizdə, nə də məktəblərimizdə hələ görünmədiyini təəssüflə qeyd etməliyik. Bu surətlə şerin mühüm bir cəhəti, bədii əsərlərin qiymətli bir parçası tədqiq olunmayıb qalır. Avropa və Rusiyada bilxassə futurist və formalist ədəbi cərəyanların salikləri tərəfindən bu xüsusda bir çox qiymətli tədqiqlər yapılmış və bu tədqiqlərin nəticələri artıq ikinci və birinci dərəcəli məktəblərin proqram, dərslik və rəhbərliklərində idxal edilmişdir. Bilxassə yaxında vəfat edən son zamanın məşhur rus şair və estetlərindən V.Y.Bryusov **(В.Я.Брюсов)** bu xüsusda çox çalışmışdır.[209]

Evfoniya – ədəbi sövtiyyat qismi ilə ədəbiyyat lisaniyyatın və musiqinin hüdudları, sınırlarilə təmas edir və bunların əsaslarından faydalanır. Evfoniyada fonetikada olduğu kibi yalnız tələffüz və məxrəc deyil, eyni zamanda ahəng və tənin də nəzəri-etibara alınır. Evfoniyada da iki cəhət var: səslərin kəmiyyəti və keyfiyyəti.[210]

Eyni surətlə müəllim nəsr ilə şeri bir-birindən ayırırkən də işini belə konkret tədqiqlər üzərinə qurmalıdır.

Bütün bu sahələrdə türk ədəbiyyatı tarixçisi və yaxud müəllimi gərəyi kibi təcrübə və ciddi bilgi sahibi olmaq üçün ictimai üsul üzərində duraraq, bu məsələləri genişlik və dərinliyilə almalı və müasir Avropa və yaxud rus ədəbiyyatı əsasında işləməlidir. Bu günə qədər türk ədəbiyyatı tarixi yalnız ümumi və mücərrəd bir tərzdə keçilməkdədir. Ədəbi əsərlərimizin mündəricə və şəkli haqqında yazılmış yüzlərcə tənqidi və təhlili əsərlərə möhtacıq. Belə monoqrafiyalar meydana gəlmədikcə, təbii, ədəbiyyat kursunu tam və sistematik bir surətdə qurmaq heç bir cür qabil olamaz. Halbuki bu monoqrafiyaların doğa bilməsi üçün də əvvəlcə ədəbiyyat nəzəriyyatına aid əsərlərin kütləvi müəllimliyinə yaxın götürülməsi, yəni müasir Avropa ədəbiyyat nəzəriyyatına aid kitabların dilimizə çevrilməsi zəruridir. Belə

[209] А.В.Артюшков. Эвфонические работы В.Я.Брюсова. Род. яз., №8, стр. 50.

[210] Bütün bu məsələlər haqqında baxınız: Б.Томашевский. Теория литературы; М.Рыбникова. Книга о языке, Москва, 1925; В.Жирмунский. Введение в метрику. Ленинград, 1925.

rəhbərliklər olmadan türk ədəbiyyatı dərslərinin doğru yola qoyulmasını gözləmək qabil deyildir.

Bu gün ədəbiyyat tarixinin məktəblərimizdəki vəziyyəti çox ziyadə mübhəm və zəifdir. İkinci dərəcəli məktəb müəllimlərimiz ədəbiyyat nəzəriyyələrinə müxtəlif ədəbi cərəyanların, dövrlərin tarixinə həsr edilmiş əsərlərlə təchiz olunmadıqca vəziyyətin dəyişməsinə ümid etmək boşdur.

Belə mövzuya görə, qeyri-kafi və çox qısa bir bəhsdə gərək mündəricəvi, gərəksə şəkli təhlilin hətta taslağını belə çözmək mümkün olamaz. Bununla bərabər, hər bəhsimizdə işarət olunan əsərlərə[211] müraciət edə bildiyi və bu əsərlərdən mürəkkəb bir kütübxana sahibi olduğu təqdirdə, heç olmazsa, rus dilinə aşina müəllimimiz yarı yolda qalmaz. Bu əsərlərdən əldə edəcəyi ümumi əsasları türk ədəbi əsərlərinin təhlilində hər zaman işlədə bilər.

[211] İmdiyə qədər qeyd edə gəldiyimiz əsərlərə bunları da əlavə etməliyik: 1) Проблемы поэтики (Сборник статей под редакцией В.Я.Брюсова, Москва-Ленинград, 1925 г); 2) О теории прозы. Виктор Шкловский. Москва-Ленинград, 1925 г. Başqa əsərlər kitabımızın sonundakı cədvəldə mövcuddur.

İKİNCİ DƏRƏCƏLİ MƏKTƏBLƏRDƏ DİL TƏDRİSİ

İkinci dərəcəli məktəblərdə dil dərsinin əhəmiyyəti. Elmi sərf. Əlyazmalarının tədqiqi. Şivələrin tədqiqi

Bundan əvvəlki bəhsimizlə aşina olan oxucu ədəbi növlərə gəlmədən əvvəl lisaniyyatı elmi surətdə qavramaq zərurəti olduğunu aşkar surətdə görmüşdür. Poetika və stilistika məsələlərini ancaq lisaniyyata aşina olan bir müəllim tədris və təlim edə bildiyi kibi, yalnız lisaniyyatın ümumi əsaslarına yabançı olmayan tələbələr anlaya bilər.

Rıbnikovanın yuxarıkı bəhslərimizdə adı keçən **"Книга о языке"** adlı əsərinin birinci bəhsi damar və şəkilçi, çocuq dil yaradıcılığı, xalq dili, Puşkin dilindəki arxaizmlər, əcnəbi dillərin təsiri, rus dilinin tarixi haqqında qeydlər, müasir əməli və ədəbi dilin lüğəti... kibi məsələləri ilə tamamilə lisaniyyata dayanmaqdadır. Halbuki Rıbnikovanın bu maraqlı və müfəssəl (iki yüz yetmiş səhifəlik) əsəri ədəbiyyat müəllimi üçün yazılmışdır.

Professor Şerbanın idarəsi altında buraxılan bir məcmuədə poetika ilə lisaniyyatın rabitəsi üzərində ayrıca durulmaqdadır.[212]

Ona binaən lisaniyyat əsaslarının az-çox elmi surətdə tərtib olunmuş sərf və nəhv dərslərinin ikinci dərəcəli məktəblərdə özünə yer tutmasını icab etdirən səbəblərdən birisi bu.

İkincisi də, ümumiyyətlə dil hadisələrinin, başqa riyaziyyat, ictimaiyyat, təbiiyyat... dərslərində olduğu kibi, sistematik surətdə ibtidai məktəbindən darülfünuna qədər davam etməsi lüzumu.

Bu lüzumu hər kəs üçün asanca izah etmək qabildir. Dil birinci dərəcəli məktəblərdə doğur və başlayırsa, ikinci dərəcəli məktəblərdə bütün varlığı və genişliyi ilə inkişaf etmək yoluna girir. Dil üzərindən kiçik çocuqlarla yapılan müşahidələr dilin, dil sahəsində özünü göstərən hər hadisənin sirrini kəşf etmək, hətta hər cür lisani hadisəyə onların nəzər-diqqətini cəlb etmək qayəsini təqib etməyir.

[212] Русская речь. Сборник под ред. проф. Л.В.Щербы, П. г., 1923 г. Bu əsər haqqında **С.Дмитриев "Лингвистика и поэтика"** adlı məqaləsi **(Род. яз. в школе, №5, стр. 20)**, eyni surətlə Peşkovskinin **"Стихи и проза с лингвистической точки зрения" (Сборник статей Ленинград, 1925 г., стр. 153)** adı altındakı məqaləsində eyni nöqteyi-nəzər müdafiə edilməkdədir.

Burada birinci dərəcəli məktəblərdə yalnız nitqin bəsit şəkilləri və qanunları haqqında ümumi fikirlər verilir. Necə ki, eyni qruppalarda oxudulan digər dərslərdə də belə yapılır.

Xülasə, tələbələr hansı sinif və qrupda olursa-olsunlar, gərək öz dillərini və gərəksə oxuduqları, eşitdikləri lisani hadisələri təhlil və təsnif etmək ehtiyacından varəstə qalamazlar. Türk-tatar məktəblərində dilin mövqeyi haqqında uzun-uzadı mübahisə və müzakirələrdə bulunan Şuralar İttifaqı miqyasındakı Birinci Türkoloji Qurultayı bu qərara gəlmişdir: "İkinci dərəcəli məktəbdə müstəqil bir dərs olaraq elmi sərfin oxudulması arzu olunur".[213] Birinci dərəcəli məktəblərdə gələcəkdə lisaniyyat dərsinin müəyyən və müstəqil bir yer alması lazım gəldiyi haqqında bu qədərlə iktifa edərək, belə bir dərsin mahiyyət və çərçivəsini bu balaca bəhsimizdə mümkün olduğu qədər təyinə çalışaq. Elmi sərf nə deməkdir və necə şeydir?

Elmi sərf ilə məktəb sərfi arasındakı tənaqüzlər, ziddiyyətlər əsərimizin birinci qismində izah edilmiş idi.[214] Məktəb sərfi ilə elmi sərf arasındakı bu tənaqüzlər bunların başqa-başqa elmlər, hətta mövzular olmasından ileri gəlməz. Bəlkə, birisinin (imdiki məktəb sərflərinin) elmi qanunlara zidd, elmi əsaslardan tamamilə uzaq olmaqla bərabər, həman bütün məktəblərdə ənənəvi bir şəkil almasından, müəllimlərin zehnində bir əqidə tərkibi kibi yerləşməsindən ileri gəlir. Məktəbdə birincidən üçüncü dərəcəyə, darülfünuna qədər tələbələrə veriləcək hər fikir, hər nəzəriyyə bütün sifətlərilə elmi əsaslara müvafiq, uyğun olmalıdır. Binaən əleyh məktəblərdə oxunacaq hər cür sərf və nəhv elmi olmaq zəruridir.

O halda ikinci dərəcədə oxunacaq elmi sərfdən məqsəd nədir? Belə sərfdən məqsəd dili, dil hadisələrini daha dərin, daha ətraflı və geniş surətdə öyrənmək və öyrətməkdən başqa bir şey deyildir. Birinci dərəcəli məktəblərdə dil üzərində yapılan müşahidələr burada, ikinci dərəcəli məktəblərdə daha üsuli və daha ümumi və mücərrəd bir şəkil ala bilər.

İmdiyə qədər məktəblərdə yalnız ədəbiyyat tarixi oxunur. Buraya qədərki bəhslərimizdə, zənn edirəm, olduqca açıq bir surətdə gördük ki, bu dərs – ədəbiyyat tarixi yalnız mətnlər, bədii əsərlər üzərində oxudulduğu təqdirdə faydalı və elmi ola bilər. Bu da bu ədəbi mətnlərin

[213] I Всесоюзный Тюркологический съезд. Стенограф. отчет, стр. 492.

[214] Türk dili və ədəbiyyatının tədris üsulu, I qisim, səh. 177.

dili üzərində çalışmaq, onları təhlil etmək deməkdir. Digər tərəfdən, yalnız ədəbi əsərlərin bu əsərlərdəki şəkil və məndəricə ünsürlərinin doğuş və inkişafını bilməklə insanın mədəniyyət tarixi haqqındakı fikri heç bir vəchlə tam sayılamaz. Başqa bir çox ictimai və iqtisadi məsələlərin olduğu kibi, dilin də tarixini bilmək lazımdır.

Ədəbiyyat dərslərini yalnız ədəbi əsərlərin tədrisi və təlimi cəhətindən deyil, eyni zamanda tədqiqi cəhətindən almaq lazım gəldiyini indiyə qədər keçən bütün bəhslərimizdə isbata çalışdıq. Belə tədqiq əsnasında yalnız ədəbi əsəri təhlil etmək kifayət etməz. Bilxassə tarixi əsərlərdə mətnin tənqidi, təshihi də lazımdır.

Türk-tatar ədəbiyyatını bütünü ilə, sistematik bir surətdə öyrənirkən, tədqiq edərkən qarşımıza çıxacaq kitabların çoxu əlyazması olacaqdır. Burada yalnız ikinci dərəcəli məktəb tələbələrini deyil, bu məktəblərdə tədrisdə bulunan müəllimləri, daha ziyadə göz önündə tutmaq gərəkdir. Ədəbiyyat dərslərində siqlət mərkəzi, əlbəttə, yeni dövr üzərində olacaqdır. Necə ki, tarix və ictimaiyyat dərslərində də belə olmalıdır. Bununla bərabər, əvvəlki dövrlərə müraciət etmədən son dövrlər üzərində durmaq, bu dövrlərin əsər və məhsullarını anlaya bilmək mümkünmüdür? Bir az əvvəl dərs proqramlarında yer alması lüzumsuz tanınan əski Şərq – qrek, Roma və assur, babil, Misir... dövrlərinin bu gün artıq yenə də tədqiqi lüzumu tanılmaqdadır. Halbuki keçən bəhslərimizdən birisində ("Ədəbiyyatın dövrlərə təqsimi") göstərdiyimiz kibi, türk-tatar ədəbiyyatı tarixinin bir-birinə bağlı müəyyən dövrləri vardır ki, bunları nəzəri-etibara almadan ədəbiyyat tarixçimiz işini layiqli vəchlə ifa edəməz. Əgər bu fikir doğru isə, on doqquzuncu əsrə çıxar-çıxmaz onun başlıca mənbələri əlyazması, divanlar olacaqdır. Hər hansı bir ədəbiyyat tarixi tədqiqnaməsini gözdən keçirtmək bu xüsusun doğruluğunu isbat edəcəkdir.

Digər tərəfdən, yalnız bir şivə içərisinə qapanıb qalmaq heç bir vəchlə qabil deyildir. Bir çox şivələrdə meydana gələn ədəbiyyatın məşruiyyət, qanuniyyəti, yəni yaşamaq haqqını artıq tanımaq məcburiyyətindəyik. Bununla bərabər, hər hansı bir şivə ədəbiyyatı, bilxassə ikinci dərəcəli məktəbləri olan ölkələrdə öz-özünə kifayət edəməz. İkinci dərəcəli məktəblərin proqramında, deyil başqa türk-tatar şivələrində doğan ədəbiyyat, hətta mədəni Qərb dillərində doğan ədəbiyyat da oxunacaqdır. Bir şivədən digərinə keçərkən ədəbiyyat müəllimi və yaxud tarixçisi, hər halda lisaniyyat bilgisi ilə mücəhhəz olmalıdır.

Burada onun işinə yarayacaq ən birinci lisaniyyat şöbəsi, şübhəsiz, türk-tatar dialektolojisidir.

Elə isə burada ədəbiyyat tarixi müəlliminin bir kərə əski ədəbi dövrlərdə tədqiqlərdə bulunmasına, bir kərə də başqa şivə ədəbiyyatlarını öz tədqiq sahəsinə keçirməsinə görə onun qarşısına çıxacaq vəzifələri qısadan gözdən keçirək.

Əski ədəbi dövrləri tədqiq edərkən, daha doğrusu, əlyazmaları ilə işlərkən bu cəhətlərə diqqət etməlidir:

Əlyazmasının haiz olduğu bu nöqtələri qeyd etmədən keçməməlidir:

1) əlyazma nömrəsi,

2) ünvanı, adı,

3) format, şəkli (formatı santimetr və yaxud yazı listi ilə təyin etmək mümkündür),

4) material nə üzərinə yazılmış?

5) kağız – vərəq sayı (içində yazılmamış kağızlar varsa, bunları da hesaba qatmalıdır),

6) əlyazmasının tarixi (əgər əlyazmasının içində qeyd yoxsa, mətnlər üzərində təqribi surətdə bu tarixi meydana çıxarmağa çalışmalıdır),

7) əlyazmanın hansı xətt (süls, təliq...) ilə yazıldığı,

8) imlası; bəzi sözlərdəki imla xüsusiyyətləri,

9) əlyazmanın başlıca bəhsləri (təbii, öz sözlərilə),

10) nəqşləri (heç bir Şərq əlyazması yoxdur ki, onda bir taqım nəqşlər, zinətlər, miniatürlər olmasın. Belə əlyazmalarının yalnız ədəbiyyat üçün deyil, eyni zamanda nəfis sənətlər üçün də çox böyük əhəmiyyəti vardır),

11) cild (bir əsərin cildini tərif etməklə o əsərin harada yazıldığını bilmək çox dəfə qabil olur),

12) əgər əlyazması təbə götürüləcək isə, gərək məqalə və əsərdə, gərəksə əlyazmada bulunan ismi-xaslardan ayrıca bir cədvəl düzəltməlidir,

13) eyni surətlə əlyazma haqqındakı başqa tədqiqləri və əlyazmanın başqa təblərini də gözdən keçirmək, hətta tədqiq etmək də lazım gəlir.

Bundan başqa, əlyazmanın, yaxud ədəbi əsərin mətnini tənqid etmək lazımdır. Bilxassə Şərqdə basılmış əlyazmaları və əsərlər üçün bu tənqid çox faydalıdır.

Qüruni-vüstada Avropa ölkələrində olduğu kibi, son zamanlara qədər Şərqdə də birisi tərəfindən yazılmış əsərin başqası tərəfindən

dəyişdiriləməyəcəyi fikri, əsərin əsliyyətinə hörmət əqidəsi məlum deyildi. Bunun üçün ərəb, fars və türk-tatar şairlərinin əsərlərini kopyaçılar bildikləri, istədikləri kibi dəyişdirməkdən çəkinməmişlərdir. Halbuki əsərin tarixi qiyməti onun əsliyyətindədir. Ədəbiyyat tarixçisi, nə olursa-olsun, həmin bu əsli və birinci mətni tapmağa çalışmalıdır. Bu da ancaq mətnin tənqidi gözlə oxunmasından, tədqiqindən sonra mümkün ola bilər.[215] Mətnin tənqidində yuxarıda qeyd etdiyimiz nöqtələrə istinad etməlidir. Mətnin tənqidindən sonra xətaların təyin və islahı gəlir. Burada ədəbiyyat tarixçisi başqa əlyazmalarını, tarixi faktları əsas alaraq müqayisə yolilə məqsədinə çata bilər.

Dialektoloji sahəsində rast gələcək lisani məsələlər bunlar ola bilər: 1) ləhcəvi lüğətlər, 2) şəkillər, 3) mənalar.

Müxtəlif şairlərin orijinal – əsli sözlərindən mürəkkəb lüğətçələr tərtib etdirildikdə tələbələrin qarşısında cürbəcür şivə sahəsindən toplanmış kiçik bir müqayisəli lüğət meydana gəlir. Sonra bu lüğətçəyə dayanaraq şəkli və mənai tədqiqlərdə bulunmaq çox asandır. Ümumiyyətlə, ikinci dərəcədə elmi sərf tədrisini bu surətlə başlamaq çox artıq faydalı və tələbələr üçün çox maraqlıdır.[216]

Elmi sərfin mündəricəsi ikinci dərəcəli məktəblərdə nə ola bilər?

Bunu paraqraflara ayıraraq bu surətlə göstərə bilərik:

1) Tarixi qiymətə malik ədəbi əsərlər üzərində dilin təkamülünü təqib etmək mümkündür.

2) Cürbəcür şivələrdən alınaraq tədqiq edilən əsərlərdə lüğət, səs, şəkil və cümlə cəhətindən müqayisəli tədqiqlərə yol açmaq.

Zatən hazır ədəbiyyat tarixi əsərlərini buraxaraq doğrudan-doğruya bədii əsərlər əsli və orijinal nüsxələrdən keçildiyi təqdirdə bu cəhət öz-özlüyündə meydana gələcəkdir. Zatən bu işi yapmadan, belə elmi

[215] Bu məsələlər haqqında Petersin **"Методология"**-sı, Lanqluanın **"Введение в изучение истории"** adlı əsəri, Danilevskinin eyni mövzudakı kitabları oxucuya daha müfəssəl məlumat verə bilər.

[216] Türk-tatar dialektolojisi haqqında bəzi əsərlər bu kitabın birinci qismində zikr edildiyi kibi, daha müfəssəl surətdə mühərririn "Türk-tatar lisaniyyatına mədxəl" adlı kitabında vardır. Burada ümumi metodolojik nöqteyi-nəzərdən əhəmiyyəti olan bəzi əsərləri işarət edəlim: **1) Поэзия деревни. Борис и Юрий Соколовы (Руководство для собрания произведения устной словесности). Новая Москва, 1926; 2) Акад. В.Ф.Миллер. Очерки русской народной словесности.** Rus dialektolojisi haqqındakı həmən bütün materialı oxucu bu yeni əsərdə tapa bilər: **3) Русская устная словесность. Издательство "Колосс", Ленинград, 1924 г.**

lisani tədqiqlərə yer vermədən bədii əsərlərin mahiyyətini gərəyi kibi anlamaq heç bir cür qabil ola bilməz.

Elmi sərf ilə məktəb sərfi haqqında əsərimizin birinci qismində verilən izahatı kafi görərək, burada təfsiliyyətindən vaz keçirik.

Yalnız bu qədərini söyləməliyik ki, dil tədrisinin ayrıca və yaxud ədəbi təhlillər tənqidlərdə lazım gələn xidməti görə bilməsi üçün elmi sərf və nəhvlərin lisaniyyat, üslubiyyat və poetika dərsliklərinin nəşrinə hazırlanmasına çalışmaq lazımdır.

ƏDƏBİ MƏKTƏBLƏR VƏ ƏDƏBİ CƏRƏYANLAR

Ədəbi məktəblər tədqiqinin əhəmiyyəti.
Klassisizm, romantizm, sentimentalizm, naturalizm,
impressionizm, kubizm, ekspressionizm, futurizm

Məktəblərimizdə ədəbiyyat dərsliklərimizdə çox az təsadüf olunan ünsürlərdən birisi də ədəbi məktəblər və onların mahiyyət və mənşəyi haqqındakı məlumatdır.

Ədəbi məktəblər və ədəbi cərəyanlar bilxassə ədəbi əsərlərin təhlilindən sonra hər halda təyini icab edən faktlardandır. Ədəbi növlər və ədəbi cərəyanlar ədəbiyyat tədqiqlərinin verə biləcəyi ən ümumi qanunlardır. Yuxarıdakı bəhslərimizdə hər ədəbi cərəyanın müəyyən ictimai və sinfi quruluşa uyduğunu kafi dərəcədə göstərdik. Burada bu cərəyanların ayrı-ayrı mahiyyət və mənşələri haqqında bir parça məlumat verməyi lazım görürük.

Klassisizm. Bütün bu ədəbi məktəblərin olduğu kibi, "klassik" və "klassisizm" sözlərinin məna və məfhumları da çox o qədər müəyyən deyildir. "Klassik" ünvanı daha əski Romada şair və ədiblərə verilirdi. Klassik mühərrir Roma-latın ədəbiyyatının ən yaxşı mühərrirləri idi. Bilxassə imperator Avqustos zamanının latın ədəbiyyatının altun dövrünün şairlərinə bu ad verilirdi. İtaliyada on beşinci, İngiltərədə on altıncı, Fransada on yeddinci əsr On dördüncü Lui dövrünün şairləri klassik tanılırlardı. Almaniya on səkkizinci, Rusiya isə on doqquzuncu əsrdə belə şairlər yetişdirə bilir. Yuxarıkı bəhslərimizin birisində qeyd etdiyimiz kibi, klassisizm üçün təməl daşı əski qrek poetikasından alınan üç vəhdət – hərəkət, zaman və məkan birliyi idi. Klassisizmanın doğmasında eyni surətlə zadəgan və hökumətin də böyük təsiri oldu. Klassisizm məktəbi ədəbiyyatının qanunnaməsini Bualonun "Şeir sənəti" (1674) adlı əsəri verirdi. Bu əsərdə hər cür ədəbi növlərin şəkil, qayda və mündəricəsi sxematik bir surətdə təyin edilirdi. "Klassik" sözü ədəbiyyatda çox dəfə "romantik" sözünə qarşı işlənir ki, bu şəkildə müəyyən qaydalara istinad edərək, əsər yazan mühərrir demək olur. Bəzən də nümunə xidmətini görən ədəbi əsərlərə "klassik" təbir olunur.[217]

[217] "Klassik" sözünü bizdə də son zamanlarda işlətməyə başladılar. Bu təbiri Şərq şairləri haqqında indilik yalnız sözün söylədiyimiz son mənasında – "nümunəlik" məfhumunda işlətmək mümkündür. Saray ədəbiyyatı dövrünü Avropa klassisizmasilə →

Bu cərəyan yalnız ədəbiyyatda deyil, eyni zamanda ictimai həyatın, fikri və zehni fəaliyyətin hər sahəsində özünü göstərir.

Bu zamanın filosofları hər şeyi ağıl üzərinə qurur və eyni surətlə insan, zövqi-səlim klassik fəlsəfənin mühüm sütunlarından olaraq meydana çıxar. Klassik ədəbiyyat, söylədiyimiz kibi, yüksək sinfin, zadəganın ədəbiyyatı olduğundan normal təbii üslub da üslubi-ali idi. Mütləq, mükəmməl gözəllik də bu dövr ədəbiyyatının yeganə mövzui-kriteriyası idi.[218] Bu prinsiplərin çürüklüyünü bu gün tənqid etməyə hacət yoxdur. Daha Çernışevski öz əsərində: "Kəndli, şəhərli və zəngin, fəqirin özünə görə gözəli, gözəllik idealı vardır", – deyir. Bunun üçün qazaxların "Səlv səlv eməsi sevikən səlv" – "Gözəl gözəl deyil sevilən gözəl", – dəmələri gözəllik məfhumunun daha doğru tərifi sayıla bilər.

Plexanov bu xüsusda bu hökmü verir: "...Binaən əleyh biz insanların həyat və binaən əleyh gözəllik haqqındakı təsəvvürləri iqtisadi vəziyyətlərinə bağlı olaraq dəyişdirməklə haqqımız vardır!"[219] Eyni surətlə zövqi-səlim də hər sinfə, hər ictimai təbəqəyə görə ayrılır, dəyişir. Klassisizm məktəbini Avropa ictimai həyatının müəyyən dövrəsinə, müəyyən siniflərinə aid ədəbi hadisə kibi tədqiq lazımdır. Türk-tatar ədəbiyyatında da buna bənzər ictimai siniflər, ədəbi məktəblər doğmamış deyildir. Lakin bunları gərəyi kibi ciddi, təhlili surətdə tədqiq etmədən əvvəl ümumi və tərkibi hökmlərə tələsmək yanlışlıq və üsulsuzluq olur.

Romantizm. Məlum olduğu üzrə, Avropa ədəbiyyatında klassisizmi romantizm təqib etmişdir. Romantizm klassisizmanın quru və dar qaydalarına qarşı üsyan şəklində özünü göstərdi. Professor N.Fatov[220] romantizm haqqında ictimai üsulu tətbiq edərək belə mühakimədə bulunur: "Qərbdə romantizm on səkkizinci əsrdə Avropada özünü

→ müqayisə edəcək qədər tədqiq və təhlil yapıldığına qane deyiliz. "Klassisizmanı xarakteristik etibarilə belə nöqtələrdə xülasə etmək mümkündür: 1) rasionalizm, 2) yalnız ümumiyə maraq (Buradan da "ümumi insani"yə meyil), 3) fərdiyyəçiliyə əleyhdarlıq **(антииндивидуализм)**, 4) əski dövrlərə (qrek və Roma) təqlid, 5) aristokratizm, 6) üsulilik, faydaçılıq **(методичность)**.

[218] Məsələnin təfsili surətdə tədqiqini oxucu tapa bilər: Белтов. Эстет. теория Чернышевского (За 20 лет, стр. 268, 301-303); А.Луначарский. Промышленность и искусство (Новая Москва, 1924 г., стр. 85-87).

[219] Искусство и литература в марксистском освещении, стр. 13.

[220] Н.Н.Фатов. Научная схема русской литературы (Род. яз., №7, стр. 5-10).

göstərən və zadəgan mütləqiyyətinin feodalizm bəqiyyələrini silib-süpürən burjuaziya hərəkətinin nəticəsi olaraq meydana çıxmışdır. Bu zamanda və həman hər zaman siniflər bir-biri ilə tədaxül və münasibətdə yoluna gəldiyindən romantizm içində bir çox müxtəlif cərəyanlar bulunur. Lakin bütün bu cərəyanları iki kateqoriyada toplamaq qabildir: 1) mütənazil (enən), 2) mütəsaid (yuxarı qalxan).

90-cı illərdə Rusiyada üç cür münəvvər vardı: 1) zadəgan – burjua, 2) kiçik burjua, 3) marksist münəvvərlər (kiçik burjua, kəndli və işçi). Bunlardan birincisi simvolizmi meydana gətirir. Çünki inqiraz, inhitat dövründə vicdan əzabından başqa bir şey tapa bilmir, Romaya, əski yunana çağırır. Mütənazil romantizm kiçik burjuaziyanın, mütəsaid romantizm də yeni qüvvətlənməkdə olan kəndli və işçi sinfinin ifadə şəkli olur.

Bu surətlə romantizma müxtəlif siniflərin ifadə şəkli ola bilsə də, hər halda fransız burjuaziyası ilə meydana çıxır. Romantiklər insanı klassiklər kibi "necə olmalıdır?" nöqteyi-nəzərindən deyil, bəlkə, "necədir?" nöqtəsindən alıb təsvir edərlərdi. Birinci dəfə bu dövrdə şair xalq və kütləni görər.[221]

Sentimentalizm. Əgər klassisizm ağlı və ağlı əsasları özünə istinadgah edinmiş isə, sentimentalizm ürək üzərinə qurulmuşdur. Birinci ədəbi məktəbin əsərləri fikirlə, ideyalarla dolu bulunursa, ikinci məktəbin məhsulları daha ziyadə duyğularla işlənir, doldurulur. Kütləvi nöqteyi-nəzərdən sentimentalizm, heç şübhəsiz, romantizmaya görə daha ziyadə demokratikdir. Sinfi nöqteyi-nəzərdən sentimentalizm daha ziyadə kiçik burjua sinfinin məktəbidir.[222]

Sentimentalizmdə aşağı-yuxarı dörd ünsür tapırıq: 1) individualizm – fərdiyyətçilik, 2) hissin fikrə, qəlbin ağla hakimiyyəti, 3) əflatun əsaslarına bina edilmiş idealizm, 4) realizmi yeni şəkildə anlaması.

Qəlbin ağıl üzərindəki hakimiyyətindən sentimentalist şeir və ədəbiyyatında bir növ sistemsizlik və anarşi meydana gəlir. Digər tərəfdən, sentimentalistlərin şeri və bədii əsərləri subyektiv – ənfəsi olur. Onlar romantiklər qədər kütləyə, xalqa yaxın deyildir. Təbiət də, sentimentalistlərcə, insana yaxın, insanla bərabər durur. Onların

[221] Romantizm haqqında Sipovskinin yuxarıda zikr olunmuş əsəri, ədəbi ensiklopedrya və Marks, Engels, Plexanov kibi mütəfəkkirlərin əsərləri, ümumiyyətlə rus və Avropa ədəbiyyat tarixlərində müfəssəl məlumat vardır.

[222] Белтов. За 20 лет, 1909 г., стр. 304 -313.

əsərlərində çox dəfə "köklər ağlayır", "ağaclar əyilir, dua edir", "qayalar mətanətlərilə meydan oxuyur", "quşlar söylənir"... Əgər klassisizm başlıca Dekartın rasionalizm fəlsəfəsinə dayanırsa, romantizm Şellinq, Hegelin, sentimentalizm də Russo, Herder kibi mütəfəkkirlərin fəlsəfəsi ilə müvazi olaraq gedərdi.

Naturalizm. Naturalizmin sənətdəki tərifi "həqiqi həyatdakı doğrunu bulmaq meyli" surətində verilə bilər. Bu meyil hər hansı mədəniyyət dərəcəsində bulunan bütün insanlarda vardır.

İbtidai insanların sənətində daima həqiqətə, şaniyyətə, həqiqət halı təsvirə meyil edildiyini görürük. Xalq ədəbiyyatına aid əsərlərdə də eyni surətlə həqiqətliyə doğru gedildiyini görməmək qabil deyildir. Lakin ancaq 19-cu əsrdə bütün bu ədəbi əsərlərdə bulunan həqiqətlik, təbiilik ədəbiyyatda müəyyən bir cərəyan və məqsəd olaraq meydana çıxır. Klassiklər ümumi insanini araşdırdıqları halda, sentimentalist və romantiklər fərdi, şəxsini arar və daima müstəsna – xarakteristik şeylərə əhəmiyyət verirlərdi. Naturalistlər isə fərdi və şəxsi və yaxud ümumi insanini deyil, daha ziyadə kütləvi və ictimaini araşdırırlardı.

1848 inqilabı ictimai-insani kütlələrə, onların həyatına olan marağı artdırdı. Romantiklərcə, bütün hadisələrin mərkəzi-siqləti şəxs – bən üzərində durduğu halda, naturalistlərcə və bunların daha geniş miqyasdakı məktəbləri olan realizm cərəyanınca, fərd, şəxs mühiti ilə alınır və şəxs belə vəziyyətdə ancaq mühitin müməssili olur. Həmin bunun üçün naturalistlər daha ziyadə kütləvi hadisə və afətləri təsvir etməni sevirlər. Bunun üçün də naturalistlər böyük kütlələrin çalışdığı, ictimai həyatın qaynadığı yerləri dolanırlar. Frans Mering **(Франц Меринг)** Çarlz Dikkensin bioqrafiyasından bəhs edərkən belə deyir: "Cahan şəhərinin (London) əsəbi həyatı onun şeri ədəbi həyatının əsas qüvvəti idi. O, (Dikkens) bütün təfərrüatı ilə bu həyatı bilirdi. Öz nafız gözü ilə bu həyatın ictimai tiplərini qavrar və onları elə canlandırırdı ki, bu tiplərin çox-çoxu hələ bu gün yalnız İngiltərədə deyil, İngiltərə hüdudlarından xaricdə də öz əhəmiyyətini itirməmişdir".[223]

Romantiklər daha ziyadə idealist fəlsəfə, metafizika ilə maraqlandıqları halda, naturalistlər pozitivist, materialist fəlsəfə ilə və təbii elmlərlə maraqlanırlar. Ədəbi əsərlərin mündəricəsi təcrübə və görgüdən ibarət olmalıdır.[224]

[223] Мировая литература и пролетариат, стр. 238.

[224] Лит. энциклопедия. Сиповский. Лекции по ист. русской лит. 88.

İmpressionizm və kubizm. Bu ədəbi məslək on doqquzuncu əsrin sonlarına doğru özünü göstərdi. Əvvələn bu məslək özünü rəsmdə göstərdi. Paris sərgilərindən birisində rəssamlardan birisi "açıq havaya çıxmaq" şüarını ortaya atdı. Buradan da "plenerizm" təbiri öz mənşəyini aldı ki, impressionizmin başlanğıc dövrü demək idi. "İmpression" sözü, məlum olduğu üzrə, fransızca olub, mənası bizim dilimizə "intiba" sözü ilə tərcümə edilə bilər. Binaən əleyh impressionizm "intibaçılıq" demək olur. Bu məsləyin əsası, adından da anlaşıldığı kibi, həyatdan alınan xarici və müvəqqəti intibaları təsvir etməkdir. Başda rəsmdə də özünü göstərən bu cərəyan başqa sənət sahələrini bu arada ədəbiyyatı da öz təsiri altına aldı. İmpressionizmin inkişafı da Avropa şəhərlərinin, daha doğrusu, burjuaziyanın böyüməsi ilə bağlıdır. Texnikanın başdöndürücü bir sürətlə ilərilməsi əşya və hadisənin ancaq xarakteristik bir neçə cizgisini verməklə iktifaya şairi məcbur edir. Plexanovun deməsi kibi, impressionistlər öz əsərlərinin mündəricəsinə tamamilə laqeyd qalırlar.

Kubizm 1908-ci illərdə doğru impressionizmə qarşı reaksiya rolunda ortaya atılır. Bunlardan Sezan **(Сезан)** dünyanın şar – kürə, üstüvanə kibi həndəsi şəkillərə irca edilə biləcəyini iddia edərək, öz rəsmlərində cızdığı, təsvir etdiyi əşyaya belə şəkillər verməyə çalışır. Kubizm nə rəsmdə, nə də ədəbiyyatda özünə müəyyən bir yer, gözə görünəcək bir müvəffəqiyyət qazanmamışdır. Yenə Plexanovla bərabər bu cərəyan haqqında "saçma mükə"əbi" **(чепуха в кубе)** demək mümkündür. Belə cərəyanlar ədəbi həyatın müəyyən xəstəlikləri kibi göstərilə bilər.

Ekspressionizm, futurizm. Yeni cərəyanlardan ekspressionizm ilə futurizm haqqında da bir neçə söz söyləmək lazım gəlir. "Ekspressionizm" [təbiri] "ekspression" sözündən gəlir. Mənası "ifadə etmək"dir. Bu məslək əsası adının mənasında mündəmicdir. İmpressionizmdə əsas intiba olduğu halda, ekspressionizmdə ifadədir. Bu surətlə ekspressionizm nə dərəcəyə qədər impressionizmin əksi və qarşılığı olmaq istəyir? Lunaçarskinin çox gözəl göstərdiyi kibi,[225] həqiqətdə bu iki cərəyan arasında əsas etibarilə fərq yoxdur. İmpressionizm fransız toprağında yetişdiyi halda, ekspressionizm alman toprağında yetişmişdir. Ekspressionist şair, yaxud rəssam başqa heç bir şeyə qulaq

[225] А.Луначарский. Искусство и революция, стр. 213, 221. Alman ekspressionizmi haqqında: **Экспрессионизм (сборник, 1913 г.).**

asmayaraq, yalnız öz ruhunu ifadə etmək istəyir. Ekspressionizmin doğmasındakı ictimai səbəblər haqqında Lunaçarski yoldaş bu fikirləri bəyan edir: "Ekspressionizm müdhiş ictimai yas və inkisari-xəyal meyvəsidir. Almaniyaya müdhiş bir zərbə endirildi. Bu zərbə Almaniyanın monarşi təşkilatını yıxdı. Bu monarşi rejim kubizm üçün ideal idi. Ekspressionist, yəni alman münəvviri kayseri görə bilmir, ondan nifrət edir. Burjuazini də elə. Ekspressionistin fikrincə, Almaniyanı yıxan bunlardır. Həmin ekspressionistin təsəvvüründə, bu vəziyyətdən alman xalqı, Almaniyanı qurtaracaq şairdir".

Bununla bərabər, ekspressionist bu müdhiş vəziyyətdən özünə çıxış tapa bilmir. Nəhayət, öz filosofu Şpenqler ilə birlikdə dünyanın sonu gəldikdə Avropanın qürubuna qənaət edir.[226]

Futurizmə gələcək olursaq, bu ədəbi məktəb haqqında, bir tərəfdən, ədəbiyyat və məlumatın çoxluğu, digər tərəfdən, bu xüsusda müəllimlərimizin əksəriyyətində az-çox doğru fikirlərin bulunması bu cərəyan üzərində müfəssəl surətdə durmamızı lüzumsuz qılır. L.Trotski futurizmin mənşəyi haqqında bu sözləri yazır: "Futurizm doxsanıncı sənələrdə başlayıb cahan müharibəsinə qədər uzanan tarixi dövrün inikası olaraq meydana çıxdı. Sərmayədar insanlıq imdiyə qədər görülməmiş iqtisadi artıma, yüksəlmə üzərinə qurulmuş iyirmi il qədər bir müddət keçirdi.

Bu iqtisadi yüksəliş əski miqyasları, mümkün və qeyri-mümkün sınırlarını yerindən oynatdı. İnsanları yeni cürətlərə sövq etdi... Futurizm burjua sənətinin qatlamalarından birisidir. Onun burjua cəmiyyət və sənətindəki bəzi şeylərə protest və hücum etməsi məsələni dəyişdirəməz".[227]

A.Lunaçarski də əsas etibarilə bu fikirdə bulunmaqla bərabər, futurizmə bu yolda qiymət kəsir: "Rus futurizmi birinci dövrəsində mündəricənin əhəmiyyəti olmadığını, yalnız şəkli inqilabiləşdirmək lazım gəldiyini elan etdi. Bunun üçün əski sənət mandarinləri (ustadlar) bunları çəkə bilmir, onlardan nifrət edirlərdi. İmperializmə doğru gedən burjua ruhu bu yeni cərəyanı dinləyərək belə dedi: "Burada inqilabi heç bir şey yox, yalnız gənc adamlar bağırırlar: "Bən gəncəm, gənc, yalnız qarnım boş ". Bu surətlə xarici məmləkətlərdə burjua, marinetetini çoxdan öz adamı sayır.

[226] Оскар Вольцель. Импрессионизм и экспрессия, 1922 г., Петроград, стр. 94.
[227] Л.Троцкий. Литература и револ., стр. 91-92.

Rusiyada isə burjua və futuristlər üzərinə inqilab qopdu və hamısı cəhənnəmə getdi. O vaxt da futurizm belə dedi: "Sən də inqilabçı, mən də inqilabçı, proletar yoldaş, əlini ver! Halbuki proletariat ilə futurizmin mövzuları başqa-başqa – proletariat şüurlu surətdə kommunist istiqbalına doğru gedərkən, futurizm yalnız israr edir. Bən istiqbaləm, lakin necə istiqbal olduğunu özüm də bilmirəm".[228]

Bütün bu ədəbi cərəyanların məktəblərimizdə bilxassə ideoloji və şəkil, mündəricə cəhətindən tədqiqləri ya Qərb ədəbiyyatı nümunələri ilə bağlı olaraq, yaxud bu məktəblərin son dövr şairlərimizə təsiri etibarilə tədqiqi vacibdir. Avropa ədəbi cərəyanları üzərində çalışmağa öyrənən ədəbiyyat müəllimimiz öz ədəbiyyatının ideolojik şəkli və mündəricəvi əsaslarını da asanlıqla kəşf edə bilər.

[228] А.Луначарский. Искусство и революция, 226-228. Kitabiyyat məlumatı üçün baxınız: **Лит. энциклопедия** (Статья В.Львов-Рогачевского, стр. 1047-1057).

KİTABİYYAT

Əsərimizin bu qismində zikr olunan əsərləri daha müfəssəl ünvanları [ilə] bu cədvəldə toplamanı lazım görürük. Yanlarında qısaca mündəricələrini də qeyd edirik. Bizim xüsusi bəhslərin təşrih və təhlilində faydalandığımız bu əsərlərdən müstəqil surətdə istifadə etmək istədiyi təqdirdə oxucu əlifba sırasilə tərtib olunmuş bu cədvələ müraciət edə bilər.

1. Аристов Н.А. Заметки об этническом составе тюркских племен и народностей. СПб, 1896 (Живая Старина, год шестой, выпуск I).

Əsas etibarilə yuxarıda zikr etdiyimiz "Jivaya Starina" məcmuəsində nəşr olunmuş müfəssəl (böyük miqyasda 260 səhifəyədək) bir məqalədən ibarət olan bu əsər həm türk tarixçisi, həm də ədəbiyyatçısı üçün çox faydalı və maraqlıdır. Burada əski türk-tatar xalqlarına aid qısa bir müqəddimədən sonra həman bütün türk-tatar qəbilələrinin irqi və tarixi mənşəyi və xüsusiyyətlərinə dair material vardır.

2. Артюшков А.В. Эвфонические работы В.Я.Брюсова (Родной язык в школе, № 8).

"Rodnoy yazık v şkole" məcmuəsində nəşr olunmuş bu məqaləsində Artyuşkov məşhur rus bədiiyyatçılarından Bryusov[un] evfoni sahəsində əldə etdiyi nəticələrdən müxtəsər surətdə xəbər verməkdədir. Şeirdəki səslərin müəyyən nöqteyi-nəzərdən tədqiqindən ibarət evfoni sahəsinə aid əsərlər olduqca azdır. Ölçü, vəzn, qafiyə, ahəng məsələlərini tədqiq edərkən belə məqalə və əsərləri gözdən qaçırmamaq icab edər.

3. Bücher Karl. Arbeitund Khytmus, 1899.

Ədəbiyyat və sənətin mənşəyinə aid məsələləri qavramaq üçün fövqəladə əhəmiyyəti olan bu əsər, ünvanından da görüldüyü vəchlə, iş ilə şerin bir yerdə doğduğunu göstərməkdədir. Plexanovdan başlayaraq, həman bütün ədəbiyyat metodoloqları və ibtidai mədəniyyət tarixçiləri tərəfindən əhəmiyyəti qeyd oluna gəlmişdir. 1923 sənəsində Moskvada **С.С.Заякий** tərəfindən ruscaya tərcümə edilmişdir.

4. Бухарин Н. Теория исторического материализма. Москва, 1922.

Rabfak tələbələrindən alaraq darülfünun müdavimlərinə qədər həman bu oxucu gəncliyin əlində bulunan bu əsərin ədəbiyyat üsulçusu

üçün də böyük əhəmiyyəti vardır. Ədəbiyyat tarixində marksizm üsulunu tətbiq etmək yolunda birinci addım olaraq bu əsərə müraciət edilə bilər.

5. Богоявленский Л. Литература в новой роли (Родной язык в школе, № 7).

Leonid Boqoyavlenski bu məqaləsində ədəbiyyatın başlıca beş mühüm vəzifəsini qeyd edir:

1) Ədəbiyyat bədii yaradıcılığın nazik və qarışıq əməliyyələrilə tanış edər.

2) Ədəbiyyat həyatla tanışdırır.

3) İctimai inqilabın inkişaf və təkamülünü canlı nümunələrlə göstərə bilər.

4) Söz sənətinin əbədi qiyməti haiz lövhə və nümunələrini verir və bu surətlə dürlü səciyyə və xarakterlərin öyrənilməsi üçün zəngin və geniş bir sahə təşkil edər.

5) Yaradıcıların öz həyat və məişətlərini gözümüz önündə açar.

Ümumiyyətlə müəllif ədəbiyyatın ictimaiyyatla birlikdə, yaxud müvazi olaraq oxudulmasını tövsiyə və təklif edir.

6. Багрий А.В. Формальный метод в литературе. Краснодар, 1925 г.

Professor Baqri bu əsərində rus ədəbiyyatında bu gün qüvvətli bir cərəyan halında bulunan şəkilçilik məsləyi rəhbərlərinin başlıca əsərlərini mündəricə etibarilə müxtəsər surətdə izah edir və formalizm üsulilə bəzi ədəbi və şeri parçaların təhlilinə aid nümunələr göstərir. Müəllif şərh və izahla iktifa edərək, bu məktəblərin tədqiq və müqayisəsinə girişməmişdir. Ədəbi materialları dil, üslub, şəkil... kibi xarici tərəfdən tədqiq edərkən müraciət olunacaq əsərlərdəndir.

7. Бутаев И. Проблемы Турции. Ленинград, 1925 г.

Butayevin yeni Türkiyəyə aid olan bu əsərini yeni türk ədəbiyyatını öyrənirkən istemal etmək faydadan xali olamaz. Çünki müəllif bu əsərində yeni Türkiyənin iqtisadi, siyasi və ictimai həyatına aid olduqca qiymətli material verməkdədir. Bilxassə mütarikədən sonraya aid bəhsi qiymətlidir.

8. Богоявленский Л.П. Метод анкеты в занятиях, литературное и коллективное сочинение в условиях лабораторной системы (Родной язык в школе №8).

Mühərrir ədəbiyyat tədrisində də olduqca böyük müvəffəqiyyətlə işlənməyə başlayan laborator üsulilə çalışırkən faydasız olmayan anketa

sistemini, yəni tələbələrin müəyyən ədəbi və ictimai məsələlərə anketalar vasitəsilə cavab vermələri yolunu təklif edir. İş[in] yekununu anlamaq nöqtəsindən də bu üsula müraciətin hər halda faydası ola bilər.

9. Боташев К.А. Литературные беседы и т.д. (Изучение литературы в школе, Петроград, 1923).

Ədəbi müsahibələrin ədəbiyyat dərslərindəki əhəmiyyətini və rus ədəbiyyatından bəzi parçaların belə müsahibələr əsnasında hansı cəhətlərinə əhəmiyyət verilmək lazım gəldiyini qeyd edir. Ədəbi müsahibələr, doğrudan da, ədəbiyyat tədrisi üsulları arasında mühüm bir pedaqojik ünsür olduğu üçün bu məsələyə aid ədəbiyyat arasında bu məqalə əhəmiyyətsiz deyildir.

10. Bang W. Vom kökturkischen zum osmanishen. 1917-19, Berlin.

"Göytürkcədən osmanlıcaya" ünvanını daşıyan bu əsərində məşhur alman türkoloqu Banq Orxon kitabələrindən zamanımıza qədər türkcənin təkamülünü tədqiq edib, bu təkamülün ana cizgilərini göstərməyə çalışmaqdadır.

11. Бартольд В.В. История изучения Востока. Ленинград, 1925 г. (2-ое издание).

Akademik Bartold bu əsərində tarixə məlum olan zamanlardan alaraq 19-cu əsrin sonlarına qədər Yaxın, Orta və Uzaq Şərqin nə məqsədlə, kimlər tərəfindən və necə tədqiq olunduğunu göstərir. Türkoloji üçün də bu əsərdə çox qiymətli məlumat vardır.

12. Bartoldt V. Die historische Bedeutung der alttur. Juschriften, 1897.

Bu günə qədər əhəmiyyətini qeyb etməmiş olan bu əsərində yenə akademik Bartold əski türk Orxon kitabələrinin tarixi əhəmiyyətindən bəhs etməkdədir. Orxon kitabələri kibi bir lisani abidənin həm tarixi, həm ədəbi və lisani cəhətdən necə tədqiq oluna biləcəyinə Banqın yuxarıdakı əsərilə Bartoldun bu kitabı nümunə ola bilər. "Orxon abidələri" adlı əsərində Nəcib Asim 1925 sənəsində bu əsərin türkcəyə tərcüməsini nəşr etmişdir.

13. Дмитриев С.Д. Лингвистика и поэтика (Родной язык в школе, №5).

Şeir texnikasını tədqiq edən poetika fənni ilə lisaniyyat-linqvistikanın bir-biri ilə olan rabitəsini və poetika ilə məşğul ola biləcək müəllim və yaxud müdəqqiqin mütləqən lisaniyyatla aşina olması lüzumunu qeyd edir. Bu fikir getdikcə qüvvətlənməkdədir. İmdiyə qədər yalnız

etibari və keyfi bir mahiyyətdə ola gələn poetika, lisaniyyat kibi tamamilə təşəkkül etmiş və qəti, qanuni üsullara malik bir elmlə birləşərək, ədəbiyyat dərsləri sırasında ciddi bir mövqe ala bilər.

Bu xüsusda Sipovskinin daha qiymətli bir məqaləsi vardır.

14. Данилов Б.Б. Литература как предмет преподавания (Изучение лит. в школе).

Rusların məşhur dil və ədəbiyyat üsulçularından Danilov bu nam ilə yazmış olduğu əsərində olduqca müfəssəl surətdə ədəbiyyat tədrisindəki nöqsanlardan və bu xüsusda görülməsi mümkün olan çarələrdən bəhs edir. Ədəbiyyat tədrisinin üsul, mündəricə... kibi mühüm məsələlərindən bəhs açması etibarilə bu əsər diqqət və tədqiqə layiqdir.

15. Энгельс Ф. Письмо к Иосифу Блоху, Лондон, 1890 г.

Ədəbiyyat metodolojisi nöqteyi-nəzərindən çox qiymətli olan bu məktubunda Engels ədəbiyyata təsir edən ictimai və iqtisadi amillərin qarşılıqlı təsirini tapmağa aid çox gözəl tövsiyələrdə bulunmaqdadır.

16. Engelhard D. Türkiyə və Tənzimat. İstanbul, 1329 hicri.

Engelhardın bu kitabı mühakimələri etibarilə zəif, tədqiqləri cəhətindən səthi olmaqla bərabər, yenə də müəyyən bir qiymətə malikdir. Çünki Türkiyə islahat və Tənzimat dövrünü doğrudan-doğruya görmüş və bir çox ictimai və siyasi tədbirlərin iç üzünə vaqif adam tərəfindən yazılmışdır. Şünasi – Kamal dövrünü ictimai və iqtisadi faktor – amillərlə qavramaq üçün bu kitabın müəyyən faydası ola bilər.

17. Edqar Bloşe. Mazdeizm və türklər (Milli tətəbbölər məcmuəsi, 1331 hicri).

Məzdək dini ənənə və legendalarının türklərə keçməsinə aid maraqlı və qiymətli bir məqalədir. Müəllifin bəzi müqayisələri şübhəni izalə edəməsə belə, arilərlə türklərin qarşılıqlı münasibətinə az-çox işıq sala bilər.

18. Foy Karl. Azerbaiganische Studien mit einer. Guarakteristik das Südtürkischen, Berlin 1904.

"Cənub türkcəsinin xarakteristiki ilə Azərbaycan dili tədqiqləri" ünvanını daşıyan bu əsərində Karl Foy imdiyə qədər mövcud Azərbaycan dili tədqiqləri içində olduqca ciddi bir mahiyyətə malik bir əsər meydana qoymuşdur. Sistematik bir mahiyyətdə olmamaqla bərabər, Azərbaycan ləhcəsinə aid bəzi mühüm xüsusiyyətləri müəllif bu əsərində qeyd etməyə müvəffəq olmuşdur. Azərbaycan dil və ədəbiyyatilə məşğul olanların tanıması zəruri olan bir əsərdir.

19. Фатов Н.Н. О краеведческом изучении истории литературы (Родной язык в школе, №9).

Professor Fatovun bu məqaləsində ədəbiyyatın ölkəşünaslıq meyli ilə tədqiqinə aid məsələlər izah edilmişdir. Fatov hər hansı bir ölkənin ədəbi həyatını tədqiq edərkən hansı cəhətlərə diqqət etmək lazım gəldiyini müfəssəl surətdə bildirir.

20. Firudin Köçərli. Azərbaycan ədəbiyyatı tarixi materialları. I və II cild, 1926, Bakı.

Bu iki cilddə tərcümeyi-hal – bioqrafi üsulilə Azərbaycan ədəbiyyatı mənşəyindən 19-cu əsrin ortalarına qədər gətirilmişdir. Müəllif bu əsərində gətirdiyi ədəbi materialları ancaq bəsit surətdə təhlil etmiş isə də, az-çox tam bir sistem meydana gətirə bilmişdir.

21. Hennequin Emile. La critique scientifique, 1888.

Ədəbiyyat və sənət sahəsində tanınmış nəzəriyyəçi və alimlərdən olan Emil Hennegen "Əməli tənqid" namını daşıyan bu əsərində tənqidin elmi və nəzəri əsasları haqqında məlumat verir. Əsas və prinsipləri etibarilə əskimiş olmaqla bərabər, tənqid məsələləri ilə məşğul olacaqları üçün yenə də faydasız əsərlərdən sayılamaz. Bundan başqa, ədəbi tənqid məsələlərinin tarixini tədqiq edərkən ayrıca bir əhəmiyyəti vardır.

22. Гордлевский Вл. Очерк по новой османской литературе, Москва, 1912.

Osmanlı ədəbiyyatının yeni dövrü haqqında sistematik əsərlər Avropa və bilxassə rus dillərində çox azdır. Hər dildə, məsələn, italyanca Bonelli, almanca Paul Hornun... əsərləri kibi birər əsərdən ziyadə yoxdur, – deyə bilərik. Professor Qordlevskinin əsəri də bu növdəndir. Bu əsərdə Şünasi – Kamaldan alaraq Məhəmməd Əmin bəyə qədər olan Osmanlı türk ədəbiyyatının bir taslağı verilməkdədir. Burada ədəbi hadisələrin izahı üçün siyasi və ictimai amilləri də az-çox müvəffəqiyyətlə təhlilə çalışmışdır. Əsərin ikinci qiyməti də yeni türk ədəbiyyatı üzərində Qərb həyat və ədəbiyyatının təsirinə diqqət verməsidir.

Eyni mühərririn 1926-cı ildə **"Переходная пора османской литературы"** ünvanilə Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti tərəfindən nəşr olunan əsərində də yeni türk ədəbiyyatına aid qiymətli qeydlər vardır.

23. Изучение литературы в школе. Сборник статей под ред. А.М.Лебедева, 1926.

Bu məcmuədə ədəbiyyatın yeni üsullarla tədqiq və tədrisinə dair bir sürü məqalə nəşr olunmuşdur ki, bunlardan mühümcələrini ayrıca qeyd edirik.

24. Искусство и литература в марксистском освещении. I, II и III части, Москва, 1925 г.

Hər bir parçası aşağı-yuxarı beş yüz səhifədən artıq olan bu məcmuə, deyilə bilər ki, ədəbiyyat tarixçisi üçün marksizm ensiklopedisi xidmətini görə bilər. Sənət və ədəbiyyatın mənşəyindən alaraq ən yeni məsələlərinə qədər bu məcmuədə marksizm nöqteyi-nəzərindən tənvir və təhlil edilmişdir.

Birinci cildində türk ədəbiyyatı tarixçisi üçün ən mühüm bəhslərdən birisi, şübhəsiz, "Metodoloji məsələləri" namı altında bulunan bəhs olduğu kibi, ikinci cilddə də "Ədəbi cərəyan və əsərlərin marksizm üsulilə təhlil nümunələri" sərlövhəsini daşıyan bəhsdir. Bununla bərabər, bütün digər bəhslərin də tərif ediləməyəcək dərəcədə əhəmiyyəti vardır. Bunun üçün hər üç cildin ədəbiyyatçılarımızda bulunması zəruridir, – deməkdən başqa uzun təsvir və tərifə hacət yoxdur.

25. İsmail Hikmət. Türk ədəbiyyatı tarixi. I-IV, 1924-1926, Bakı, Azərnəşr.

Dörd böyük cilddən ibarət olan bu əsər türk ədəbiyyatının son dövrlərinə aid ən qiymətli material və məlumatı havidir. İmdiyə qədər bu həcmdə və bu qiymətdə türk ədəbiyyatı tarixinə təxsis edilmiş əsər nəşr edilmiş deyildir. Bilxassə türk ədəbiyyatı orijinalları çox nadir olan məmləkətlərimizdə bu əsər eyni zamanda birinci mənbə xidmətini görə bilər. Başqa cildləri hələ nəşr edilməmişdir.

26. İbrahimov Qalimcan. Tatar ədəbiyyatı tarixinin mündəricəsini bilgilə və məsələsi (Bizninq yol, 2, 1922).

Əsərimizdən də görüldüyü vəchlə, türk-tatar ədəbiyyatında çox mühüm olan mündəricə məsələsinə təxsis edilmiş olduqca müfəssəl bir məqalədir. Əsərimizin xüsusi bəhsində bu məqalənin məzmunu haqqında yazıldığından burada təkrarına lüzum yoxdur.

27. İbrahimov Qalimcan. İmla, til, ədəbiyyat məsələləri. Qazan, 1925.

Mühərririn bu məsələlərə dair əski və yeni məqalələrini havidir. Ədəbiyyat üsuluna dair olan məqalələri diqqətəlayiqdir.

28. Köprülüzadə Məhəmməd Fuad. Türk ədəbiyyatı tarixində üsul (Bilgi məcmuəsi, tişrini-sani, 1329).

Türk ədəbiyyatı tarixində təqib edilməsi lazım gələn üsul haqqında aşağı-yuxarı birinci dəfə yazılan ciddi bir məqalədir. Məqalənin birinci qiyməti bu isə, ikinci qiyməti də müəllifin ədəbiyyatda, o vaxta qədər adət olduğu üzrə, şəxsi və bədii mühakimələr üzərində saplanıb qalmayaraq, daha ziyadə ədəbi hadisə və əsərlərin ictimai məna və qiymətini tapmağa çalışmağı tövsiyə etməsidir.

29. Köprülüzadə Məhəmməd Fuad. Azəri ədəbiyyatına aid tədqiqlər. Bakı, 1926.

Eyni müəllif bu əsərində azəri ədəbiyyatının mənşələrinə aid bəzi məlumat verməkdədir.

30. Köprülüzadə Məhəmməd Fuad. Bugünkü ədəbiyyat. İstanbul, 1924.

Elmi olmaqdan ziyadə tənqidi və belletrist mahiyyətdə olan bu əsər müəllifin bugünkü türk ədəbiyyatına aid intibalarını ehtiva etməkdədir. Üç yüz səhifədən artıq olan bu əsər mündəricə etibarilə üç böyük qismə ayrılmışdır: "Milli ədəbiyyat məsələləri", "Əsərlər arasında", "Mazidən kölgələr". Hər üç qisimdə də bugünkü türk ədəbiyyatına dair qiymətli və maraqlı qeydlər vardır.

31. Köprülüzadə Məhəmməd Fuad. Türk ədəbiyyatında ilk mütəsəvviflər. İstanbul, 1919.

Əhməd Yəsəvi ilə Yunus İmrəyə təxsis edilmiş olan bu əsər Köprülüzadənin ən ciddi və ən mühüm elmi məhsulu sayılır. Təsəvvüf və cığatay. Osmanlı ədəbiyyatının mənşələrini öyrənirkən müraciət edilməsi labüd və zəruri olan əsərlərdəndir. Bundan başqa, ümumiyyətlə türk-tatar tarix və ədəbiyyatına dair qiymətli qeydlər vardır.

Yenə Köprülüzadənin "Türk ədəbiyyatı tarixi" haqqında da eyni fikri söyləmək lazımdır.

32. Крымский А. История Турции и ее литературы, Москва, 1912 г. (I и II части, 1916).

Professor Krımskinin Türkiyə ədəbiyyatı və tarixinə aid bu əsəri bir çox səthi və hətta yer-yer yanlış fikir və məlumatla dolu olmaqla bərabər, başqa əsərlərlə qarşılaşdırılıb oxunduğu təqdirdə oxucunu türk ədəbiyyatı və tarixi sahəsindəki məlumatını genişləndirir.

33. Крымский А. История арабов и их литературы, 1912 г.

Müəllifin yuxarıda zikr etdiyimiz türk tarixi və ədəbiyyatı üsulu ilə yazılmış əsəridir. Bu əsərdə bizim üçün, yəni türk ədəbiyyatı tarixçiləri üçün az-çox maraqlı bəhsləri ərəb filoloji və fəlsəfəsinə aid olunanlarıdır.

34. Ковальский (Линин). К вопросам формального изучения поэзии турецких народов (Известия Вост. факультета АГУ, "Востоковедение", т. I и II).

Krakov darülfünunu professorlarından Kovalskinin bu əsəri türk xalqları ədəbiyyatının şəkli xüsusiyyətlərini tədqiqə həsr olunmuşdur. Bu meydanda imdiyə qədər ufaq-tüfək bəzi məqalə və qeydlərdən başqa, deyə bilərik ki, heç bir şey yox idi. Kovalski bu əsərində türk-tatar ədəbiyyatı şəkillərinin mənşəyindən zamanımıza qədər inkişaf və təkamülünü təqib edir. Bu əsərdə eyni zamanda məsələnin biblioqrafisinə – kitabiyyatına aid məlumat da vardır.

35. Collard F. Metodologie de l'enseignement moyen. Bruxelles, 1911.

"Orta dərəcə məktəblərdə tədris üsulu" ünvanını daşıyan bu əsərdə bu dərəcədəki məktəblərdə keçilən riyaziyyat, hikmət, tarix və ədəbiyyat-dil... kibi dərslərin üsuli-tədrisi haqqında məlumat verilməkdədir. Əsər bir çox ciddi mənbələrə istinad etməklə bərabər, bilxassə lisan və ədəbiyyat tədrisinə aid bəhslərində daha ziyadə müəllifin fikrincə faydalı bir taqım vəz və nəsihətlərdən ibarətdir.

36. Крыжановский А.С. Технические приемы ведения рефератов (Изучение литературы в школе).

Əsərimizin mütaliəsindən də anlaşılacağı vəchlə, referat üsulu laborator sistemində böyük əhəmiyyəti haizdir. Zikr etdiyimiz məqalə bu xüsusda bəzi faydalı qeydləri ehtiva etməkdədir.

37. Евлахов А.М. Введение в философию художественного творчества, I-III, 1912-1917 гг.

Üç cildi nəşr edilməklə bərabər, əsər daha bitmiş deyildir. İmdiyə qədər nəşr edilən cildlərində professor Yevlaxov elmi, qeyri-elmi, məqul, qeyri-məqul olmaq üzrə qisimlərə ayıraraq, təhlil etməkdədir. Ədəbiyyat tarixi üsulu haqqında yazılmış ən müfəssəl əsərdir. Bəzi üsulların tarixlərini və mahiyyətlərini anlamaqda türk ədəbiyyatı tarixçisinə faydalı ola bilər.

38. Лелевич Г. О принципах марксистской литературной критики, 1925 г.

Bu risalədə marksizm üsulu ilə tənqidin əsaslarından, Vorovski və Plexanovun bu xüsusdakı fikirlərindən, nəhayət, şəkil və mündəricə məsələlərindən bəhs edilməkdədir.

39. Литературная энциклопедия, I, II, 1925.

Ədəbiyyat məsələlərindən ən canlı və mühümlərini xülasə ehtiva edən, əksəriyyətlə mütəxəssislərin iştirakilə meydana gətirilmiş ədəbi qamusdur. Bütün ədəbiyyatçıların əlində bulunmaq icab edər.

40. Машкин А. Пути марксистской литературной критики, 1925.

Leleviçin yuxarıda zikr olunan əsərinin daha müxtəsər surətdə tərtib edilmiş quşağıdır. Ədəbi tənqid haqqında ədəbiyyat az olduğundan bu risalənin müəyyən bir qiyməti vardır.

41. Меринг Франц. Мировая литература и пролетариат, Москва, 1925.

Merinq Fransın bu əsərində: 1) Sənət və proletariat; 2) Sessinq; 3) Şiller və Gete; 4) Sosialist lirika; 5) Heybel; 6) Realizm və naturalizm; 7) Naturalizm və neoromantizm... kibi bəhslər bulunub cahan ədəbiyyatının bir çox mühüm məsələləri marksizm üsulilə parlaq surətdə şərh və təhlil olunmaqdadır. Bilxassə ədəbi məsləklərə aid bəhsləri faydalıdır.

42. Миллер Вс.Ф., акад. Очерки русской народной словесности, III т., Москва-Ленинград, 1924 г.

İki cildi inqilabdan əvvəl nəşr edilmiş olan bu böyük rus xalq ədəbiyyatı sahəsində imdiyə qədər nəşr olunmuş əsərlərin ən mühüm və ciddisidir, – deyə bilərik. Bu üçüncü cildi rus tarixi şərqilərinə və hekayələrinə həsr edilməsi etibarilə ayrı bir əhəmiyyətə malikdir. Çünki türk-tatar xalq ədəbiyyatının tədqiqində bu əsəri həman başdan-aşağıya qədər nümunə olaraq almaq mümkündür.

43. Мегрон Луи. Романтизм и нравы (пер. Т.Х.А., 1924).

Meqron bu əsərində romantizmin əxlaq və səciyyə üzərinə təsirini tədqiq edir ki, az-çox konkret faktlara dayanan bu tədqiq cəmiyyətin təsiri altında doğan ədəbiyyatın öz sırasında cəmiyyətə nə surətlə təsir etdiyini göstərir.

44. Майман Эрнст. Эстетика, часть II, Москва, 1922 г.

Məşhur alman pedaqoqlarından Maymanın məhsuli-qələmi olan bu əsərinin ikinci qismi estetik üsuluna həsr edilmişdir. Bilxassə bədii yaradıcılığın təhlilinə həsr edilmiş olan ikinci-beşinci cildləri maraqlıdır. Əsər bir çox yerlərində köhnəlmiş olmaqla bərabər, bu gün də həman bütün ədəbiyyat və sənət üsulçularının müraciətgah və mənbələrindən birisini təşkil etməkdədir.

45. Paul. Neue Aufgaben der deutschen Literaturgeschichte, Berlin, 1921.

"Alman ədəbiyyat tarixinin yeni vəzifələri" namındakı bu əsərində Merker bir taqım üsuli məsələlərdən başqa, alman ədəbiyyatının həcm və mündəricəsi haqqında söz yürüdərək, skandinav xalqları ədəbiyyatının da alman ədəbiyyatı çərçivəsinə alınmasını təklif edir.

46. Məhəmməd Fəhmi. Tarixi-ədəbiyyati-ərəbiyyə. İstanbul, 1919.

Əski üsulla yazılmış olmaqla bərabər, ərəb ədəbiyyatının bəzi nümunələri və bəzi məşahirin tərcümeyi-hali vardır.

47. Mahmud Cavad bin əş-Şeyx Nafe. Məarifi-ümumiyyə nəzarəti. Tarixçei-təşkilat və icraatı, 1338 hicri.

48. Марксистский метод исследования художественных произведений слова, Москва, 1925 г. (Под. ред. В.Д.Сперанского).

Müxtəsər surətdə bədii sözün mənşə və əhəmiyyətindən, şəkil və mündəricə, bədii əsərlərin təhlilindən bəhs edir.

49. Маркон И.Ю. Одно из названий Турции в еврейской литературе (Известия Российской Акад. Наук, 1-18, 1923 г.).

Ədəbi və tarixi əsərləri tədqiq edərkən falsifikasion – təftiş işini necə meydana çıxarmaq lazım gəldiyinə bu məqalə üsuli-nümunə ola bilər.

50. Жирмунский В.М. Задачи поэтики, Ленинград, 1924 г.

Formalizm məktəbinin bəlli müməssillərindən olan Jirmunski poetikanın yeni – şəkli üsullarla tədqiqinə aid məsələləri təhlil edər. Ədəbi əsərlərin şəkli cəhətdən tədqiqinə girişildikdə mütləqən bilinməsi lazım əsərlərdəndir.

51. Жирмунский В.М. Введение в метрику, Ленинград, 1925 г.

Şeir ölçüsü – vəzn, yaxud metrik haqqında yazılmış elmi və mükəmməl əsərlərdən birisidir. Sonunda başlıca əsərlərdən mürəkkəb qiymətli biblioqrafisi mövcuddur. Türk-tatar oxucusunun anlayış və ruhuna uydurularaq tərcüməsi arzu olunurdu.

52. Плеханов Г. Литература и критика. 1923 г.

Bu əsərin rus münəqqidlərinə həsr olunan və tənqidçilik üsul və əsaslarını şərh və izah edən birinci bəhsi çox mühümdür. Bu xüsusda Yakovlevin aşağıdakı əsərini gözdən keçirmək lazımdır.

53. Пешковский А.М. Стихи и проза с лингвистической точки зрения (Сборник статей), Ленинград, 1925 г.

Peşkovski öz məqalələrindən ibarət bu məcmuədə imdiyə qədər başqa məcmuələrdə keçmiş məlum məqalələrdən maəda ədəbi – mənzum və mənsur parçaların lisaniyyat nöqteyi-nəzərindən tədqiqinə aid

yeni bir məqalə daha dərc etmişdir. İkinci dərəcəli məktəblərdə ədəbi tədqiqlərdə lisaniyyatın rolunu göstərir.

54. Первый Всероссийский съезд словесников о преподавании литературы в школе (Изучение литературы в школе).

Rusiyada inqilabdan sonra birinci dəfə toplanmış olan ədəbiyyatçılar Qurultayı ikinci dərəcəli məktəblərdə ədəbiyyat tədrisinə aid bir çox mühüm qərarlar qəbul etmişdir ki, bunların müxtəsər surətdə təsviri zikr etdiyimiz məcmuədə mündəricdir. Qurultayın ayrı hesabçası bu günə qədər nəşr olunmasa gərəkdir.

55. Первый Всесоюзный тюркологический съезд (стенографический отчет). Баку, 1926 г.

Keçən 1926 sənəsi mart ayında Bakıda olub keçən Birinci Türkoloji qurultayı türk-tatar lisan və ədəbiyyatlarına aid bir çox əməli və elmi məsələləri tənqid və təftiş gözündən keçirmişdir. Bu arada türk dili və ədəbiyyatının tədris üsuluna aid bəzi məruzələr və qərarlar da vardır. Ümumiyyətlə əməli və elmi türkoloji meydanında mühüm bir dövrənin yekunu demək olan bu əsərlə həman bütün ədəbiyyat və lisan müəllimlərimiz aşina olmaq lazımdır.

56. Перец В.Н., акад. Краткий очерк методологии истории русской литературы. Петербург, 1923 г.

"Rus ədəbiyyat tarixinin müxtəsər metodolojisi" namını daşıyan bu əsər həqiqət halda ədəbiyyat metodolojisinin ümumi məsələlərinə həsr edilmişdir. Faydalı bəhsləri əsərimizdə işarət edildiyindən burada təkrarına lüzum yoxdur.

57. Проблемы поэтики. Под ред. Брюсова, Москва, 1925 г.

Bu məcmuədə Lunaçarski, Bryusov və sair bəlli ədiblərin şerin şəkli məsələlərinə aid məqalələri vardır.

58. Поэзия первобытного общества и рядового строя. Москва-Ленинград, Госиздат, 1927.

İbtidai xalqların ədəbiyyatına aid Speranski, akademik Karskinin, Karl Büxerin ... bəzi izahatı və bu ədəbiyyatlardan nümunələr vardır.

59. Radloff W. Die alttürkische Juschriften der Mongolie, 1927.

"Monqolustandan əski türk abidələri".

Radlovun bu əsərində Orxon kitabələrinin mətnləri, tərcüməsi və Orxon dilinin sərf və nəhvi vardır ki, bu dövr ədəbiyyatilə məşğul olacaqlar üçün mühüm mənbələrdən birisidir.

60. Рыбникова М.А. Работа словесника в школе, Москва, 1922.

İkinci dərəcəli məktəblərdə ədəbiyyat tədrisinin əməli məsələlərinə təxsis edilmişdir. Ədəbiyyat sərgisi, yazı işləri, ədəbi dəmələrə aid bəhsləri bilxassə tövsiyə oluna bilər.

61. Рыбникова М.А. Книга о языке, Москва, 1925.

Poetika və lisanın birləşdirilib keçilməsinə aid məktəb əməliyyatı nöqteyi-nəzərindən qayət mühüm birinci əsərdir.

62. Русанов А.А. Курс литературы в связи с обществоведением. Самарский Губиздат, 1926.

Ədəbiyyat ilə ictimaiyyatın müvazi olaraq keçilməsinə tərəfdar olan müəllif bu fikrini əks etdirmək, ictimaiyyat dərsinə uyğun olaraq ədəbiyyat dərslərinin planını və bəzi nümunələr verməkdədir.

63. P.Risal. Les. Turcs a la recheche d'une ame nationale (Mercure de France, №364).

Rizalın bu məqaləsi əsası və təfərrüatı etibarilə bir çox yanlışlarla doludur. Zatən əsərimizdə bu rabitə ilə zikr olunmuşdur. Türkiyədəki yeni ədəbi cərəyanları yalnız siyasi amillərlə və siyasi axıntıları yalnız "milli vicdan" ilə izah etməyə çalışır.

64. Русская речь (Под ред. проф. Л.В.Щербы, Сборник, 1923).

Dilin tədrisinə aid bəzi qiymətli qeydlər vardır.

65. Rəhim Qaliyev, Q.Qaziz. Tatar ədəbiyyatı tarixi (feodalizm dövrü), Qazan, 1925.

Qazan-tatar ədəbiyyatının birinci dövrlərinə aid olduqca qiymətli bir əsərdir. Cığatay və Osmanlı ədəbiyyatlarının Volqaboyu türklər ədəbiyyatına təsiri də mövzui-bəhs edilir.

66. Сиповский В., проф. Лекции по истории русской литературы, Баку, 1921 (Первый выпуск).

Azərbaycan darülfünunu sabiq professorlarından Sipovskinin bu əsəri ünvanı etibarilə rus ədəbiyyatı tarixinə aid kibi görünsə də, mündəricəsi yalnız ədəbiyyatın tədris və tədqiq üsuluna mütəəlləq məsələlərə təxsis edilmişdir. Üç əsasi qisimdən ibarətdir: 1) Tarix elmi idrakın növlərindən birisidir. 2) Şeir idrak növlərindən birisidir. 3) Ədəbiyyat tarixinin metodolojisi. Bu üç bəhsdən oxucu üçün ən faydalısı, şübhəsiz, birincisidir.

67. Сиповский В., проф. О методах естествознания в литературе и истории литературы (Баку, Известия АГУ, №1).

Sipovski bu uzun məqaləsində təbiət ilə şeir və sənət arasında mahiyyət etibarilə müşabehət olduğunu iddia edərək, ədəbiyyatda da

təbiiyyat üsulunun tətbiq edilməsini tövsiyə edir. Bu fikir gərək lisançılar və gərəksə ədəbiyyatçılar arasında çoxdan bəri bulunmaqla bərabər, imdiyə qədər bir fərziyyədən ötəyə keçməmişdir.

68. Sədi Qabdurrəhman. Tatar ədəbiyyatını, cəmiyyətini öyrənə bilən bağla və məsələsi. "Maarif" məcmuəsi, №8. 1926.

Mühərrir bu məqalədə ədəbiyyatın ictimaiyyatla birlikdə oxudulmasını təklif edərək, bəzi nümunəvi dərslər və planlar da göstərir.

69. Sədi Qabdurrəhman. Ədəbiyyat dərsləri. Daşkənd, 1925.

Ədəbiyyat nəzəriyyatına dair özbək dilində yazılmış bir əsərdir. Avropa poetika əsasları ilə ərəb və fars ədəbi nəzəriyyələri tərkib edilmək istənmişdir. Bəzi ədəbi təhlil nümunələri də vardır.

70. Sədi Qabdurrəhman. Tatar ədəbiyyatı tarixi. Tatarıstan Dövlət Nəşriyyatı basması, 1926.

Tatar ədəbiyyatı tarixi haqqında 26-cı ilin sonlarında nəşr olunan bu əsər bilxassə tatar ədəbiyyatının son dövrlərinə təxsis edilmişdir. Quru ədəbi hadisələr üzərində durmayaraq, müəllif eyni zamanda bütün ictimai və iqtisadi cərəyanları da əsərində mövzui-bəhs etmiş və olduqca müvəffəqiyyət qazanmışdır.

71. Сакулин П.Н. Социологический метод литературоведения, 1925.

Ədəbiyyatda ictimai üsulun nə surətlə tətbiq edilməsi lazım gəldiyinə dair yazılan əsərlərin ən ciddi və sistematik olanlarındandır. Türk ədəbiyyatı tarixçisi üçün hər bəhsi maraqlı və faydalıdır.

72. Сакулин П.Н. Синтетическое построение литературы, Москва, 1925.

Professor Sakulinin ədəbiyyatda xüsusidən ümumiyə, fərdidən ictimaiyə, təhlildən tərkibə nə yolla gedilə biləcəyini göstərən bu əsəri də, əvvəlkisi kibi, hər cəhətdən diqqətə və hətta türkcəyə birinci sırada tərcüməyə layiqdir. Türk oxucu üçün bilxassə periodizasion məsələsinə aid yeddinci, ədəbiyyatın üfüqi və şaquli tətbiqinə dair beşinci bəhsləri maraqlıdır.

73. Самойлович А.Н. Опыт крымско-татарской грамматики. Петроград, 1916.

Professor Samoyloviçin bu sərfində elmi və əməli əsaslar olduqca müvəffəqiyyətli bir surətdə birləşdirildiyindən planı və tərkibi etibarilə türk lisan müəllimləri tərəfindən nümunə olaraq alına bilər. Eyni müəllifin 1926 sənəsi nəşr edilmiş olan "Müxtəsər Osmanlı – türk sərfi" də bu cəhətdən əlverişlidir.

MÜNDƏRİCAT

BİRİNCİ QİSİM

Ön söz 4
Başlanğıc 7
Dil və fəlsəfə 9
Dil bilgisinin və türk lisaniyyatının əsasları 42
Dilin məktəblərdə əski və yeni mövqeyi 49
Hərf və səs 68
Əlifbanın öyrədilməsi 73
Əlifbasız oxuma 81
Əlifba dərsi nümunələri 86
Yazı və doğru yazma 101
İnşa və kitabət 113
Türk sərfinin tarixçəsi 121
Şimdiyə qədər Şərqdə və Qərbdə yazılan başlıca türk sərfləri 141
Türk sərfinin tədrisi üsulu 150
Doğru söyləmə 162
Oxuma 166
Türk dili kabineti 171
Türk xalq ədəbiyyatı və onun məktəblərdəki yeri 173
Kitabiyyat 180

İKİNCİ QİSİM

Bir neçə söz 183
Ədəbiyyatın mənşə və inkişafı 184
Köprülüzadə Məhəmməd Fuad əski türk ədəbiyyatı haqqında 191
Şəkil və mündəricə 195
Ədəbiyyat bir elmmidir? 208
Ədəbiyyatın tədqiqindəki dövrlər 215
Ədəbiyyat tarixi üsulları 230
Yardımçı elmlər 244
Ədəbiyyat tarixinin dövrlərə ayrılması 250
Ədəbiyyatın tərbiyəvi əhəmiyyəti və məktəblərdəki yeri 259
Ədəbiyyat dərsinin quruluşu 269
Ədəbiyyat tədrisindəki üsullar 279
Ədəbi əsərlərin təhlil və tənqidi 300
İkinci dərəcəli məktəblərdə dil tədrisi 316
Ədəbi məktəblər və ədəbi cərəyanlar 322
Kitabiyyat 329

BƏKİR ÇOBANZADƏ

SEÇİLMİŞ ƏSƏRLƏRİ

BEŞ CİLDDƏ
III CİLD

"ŞƏRQ-QƏRB"
BAKI
2007

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompüter səhifələyicisi: *Rəşid Əlimuradov*

Korrektorlar: *Fəridə Səmədova*
Pərinaz Musaqızı

Kompüter operatorları: *Suad Əhmədov*
Vaqif Məmmədoğlu
Hüsniyyə Quliyeva
Mətanət Muradova
Nuranə Salmanova

Yığılmağa verilmişdir 28.09.2007. Çapa imzalanmışdır 28.12.2007.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 21,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 266.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.

Ш163
С67